AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

NİGAR ƏLƏKBƏROVA

# SİYASİ ELMİN MÜASİR PROBLEMLƏRİ

***DƏRSLİK***

*Azərbaycan Respublikası Təhsil Nazirinin*
*19 noyabr 2010-cu il tarixli 1293 saylı əmri ilə*
*ali məktəblərin magistratura pilləsi üçün*
*dərslik kimi təsdiq edilmişdir*

**"Elm və təhsil"**
**Bakı – 2013**

*Elmi redaktorlar:* **Hicran Hüseynova**
*siyasi elmlər doktoru, professor*

**Sevil Məmmədova**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

*Rəyçilər:* **Nurqələm Mikayılov**
*fəlsəfə elmləri doktoru, professor, əməkdar müəllim*

**Namiq Axundov**
*tarix elmləri doktoru, professor*

**Əlikram Tağıyev**
*fəlsəfə elmləri doktoru, professor*

**Sevda Süleymanova**
*tarix elmləri doktoru, professor*

1(09)
Ə 45
282980

**Nigar Ələkbərova. Siyasi elmin müasir problemləri.** *Ali məktəblərin magistratura pilləsi üçün dərslik.* Bakı, "Elm və təhsil", 2013, 372 səh.

Azərbaycanda "Siyasi elmin müasir problemləri" fənni üzrə ilk dəfə nəşr olunan bu dərslikdə yeni təhsil standartlarına uyğun olaraq siyasi elmin ən aktual, eyni zamanda prioritet səciyyə daşıyan, fundamental əhəmiyyətli müasir problemləri tam və sistemləşdirilmiş şəkildə izah olunur. Burada siyasi elmin son 30-40 il ərzindəki vəziyyəti, inkişaf xarakteri, spesifik xüsusiyyətləri xronoloji və məntiqi ardıcıllıqla açıqlanır, bu bilik sahəsində dərin iz qoymuş nüfuzlu politoloqlar, həmçinin onların ən parlaq və maraqlı əsərləri barədə dolğun məlumatlar verilir.

Dərslik ali məktəb müəllimləri, doktorantlar, magistrantlar, bakalavrlar, eləcə də müasir siyasi elmlə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-8024-1-2**

**© N.Ələkbərova, 2013**
**© «Elm və təhsil», 2013**

# ÖN SÖZ

Qloballaşma və informasiya inqilabı dövründə ümumdünya vahid elm və təhsil məkanı artıq reallığa çevrilməkdədir. Avropa ali təhsil sistemində Bolonya prosesinin intensiv inkişafı, universitetlər tərəfindən "Bolonya Klubunun" yaradılması bu işdə böyük fayda verən cəsarətli addımlar kimi qiymətləndirilə bilər.

Azərbaycanın da bu prosesə qoşulması, ilk növbədə, müasir tələblərə uyğun gələn, beynəlxalq birlik tərəfindən qeyd-şərtsiz tanınan, rəqabət qabiliyyəti ilə seçilərək ən yüksək Avropa və dünya standartlarına cavab verən ali təhsil sisteminin formalaşmasına yönəldilmişdir. Bununla əlaqədar müvafiq elm sahəsində müasir ixtisaslaşdırılmış biliyin nəzəri modelləri, metodları və yanaşmalarının geniş mənzərəsini düzgün nizamlanmış və sistemləşdirilmiş formada, həm də obyektiv tərzdə təqdim edən və dövlət dilində yazılan yenitipli dərsliklərə böyük ehtiyac duyulur. Sosial elmlər sahəsində isə bu ehtiyac daha güclü hiss olunmaqdadır.

Eyni zamanda, ali məktəblərdə dövrümüzün tələbləriylə bağlı tədris olunan bir çox yeni fənlər zəruri informasiyanı elmi-metodiki baxımdan əsaslandırılmış şəkildə əhatə edən dərsliklərin hazırlanması məsələsini daha da aktuallaşdırır.

Ali məktəblərin magistratura pilləsi üçün nəzərdə tutulmuş "Siyasi elmin müasir problemləri" adlı dərslik həmin ehtiyac və tələblərin qismən ödənilməsi məqsədi ilə yazılmışdır.

Burada biz çoxsaylı elmi mənbələrdən faydalanaraq, müxtəlif ölkə və nəzəri istiqamətləri təmsil edən mütəxəssislər tərəfindən siyasi elmin başlıca müasir problemləri haqqında toplanan məlumatların böyük həcmi ilə magistrantları tanış etməyə, onlarda bu bilik sahəsinin son 30-40 il ərzindəki vəziyyəti, inkişaf xarakteri və spesifik xüsusiyyətləri barədə mümkün qədər dolğun təsəvvür yaratmağa çalışmışıq. Siyasi elmin ümumi identikliyi baxımından yazılmış bu dərslikdə

müasir möhtəşəm politoloji qurumların, o cümlədən Siyasi Elmin Beynəlxalq Assosiasiyası (İPSA), Siyasi Elmin Avropa Assosiasiyası (EPSA), Politologiya Müəllimlərinin Avropa Assosiasiyası (epsNet), Siyasi Tədqiqatlar üzrə Avropa Konsorsiumu(ECRP), Universitetlərin Avropa Assosiasiyası (UEA) və Siyasi Elmin Milli Assosiasiyasının Avropa Konfransının (ECPNSA) tövsiyə və tələbləri nəzərə alınmışdır.

"Siyasi elmin müasir problemləri" fənni üzrə ölkəmizdə ilk dəfə nəşr olunan bu dərslikdə nəzəri və empirik materiallar müəllif tərəfindən tərtib edilən eyniadlı fənn proqramının tematik quruluşuna uyğun olaraq təhlil və şərh edilmişdir.

Təbii ki, bu dərslikdə fənlə bağlı bütün məsələlərin tam əhatə olunması və ətraflı işıqlandırılması mümkün olmadığından, buraya siyasi elmin yalnız prioritet səciyyə daşıyan fundamental problemləri salınmışdır. Mövzuları tərtib, izah və şərh edərkən, ilk növbədə, Siyasi Elmin Beynəlxalq Assosiasiyasının tövsiyəsi əsasında yazılan və məşhur alman politoloqu Hans Diter Klingemann və avstraliyalı politoloq Robert Qudinin redaktəsi altında çap olunan "Siyasi elm: yeni istiqamətlər" adlı ensiklopedik tutumlu kitab əsas götürülmüşdür, çünki həmin əsərdə dünya səviyyəli politoloqların fikir müxtəlifliyi nəzərə alınmış, müasir siyasi elmin ən aktual problemlərinin inkişaf xüsusiyyətləri izlənilməklə ümumi obyektiv mənzərəsi öz əksini tapmışdır.

Dərsliyin yazılmasında çox faydalı olan digər əsər «Qərbi Avropada siyasi elm» kitabıdır. Burada Qərbi Avropanın hər bir ölkəsini və milli siyasi elm məktəbini ayrı-ayrılıqda təmsil edən nüfuzlu politoloqlar hazırkı dövrdə həmin ölkələrdə bu elmin tədrisinin modernləşdirilməsi və Bolonya prosesinə uyğunlaşdırılması xüsusiyyətlərini işıqlandırırlar. Eyni zamanda, tədqiq olunan ölkələr üzrə icmallarla yanaşı, kitabın redaktoru H.D. Klingemann bütövlükdə Qərbi Avropada müasir siyasi elmin təməl parametrlərinin komparativ baxım-

dan müəyyənləşdirilməsini təfərrüatı ilə təhlil edir. Həmin kitab Azərbaycanda siyasi elmin institutlaşması, inteqrasiya şəraitində adaptasiyası və tədrisinin təkmilləşdirilməsi nöqteyi-nəzərdən olduqca maraqlıdır. Bununla yanaşı, "Siyasi elmin müasir problemləri" dərsliyində yüksək nüfuza malik digər xarici və yerli mütəxəssislərin çoxsaylı elmi əsərlərindən geniş istifadə olunmuşdur.

Dərslikdə müasir politologiyanın ən əsas problemləri xronoloji və məntiqi ardıcıllıqla izah edilir, siyasi elmin hər bir konkret sahəsindəki yeniliklərlə ənənəvi bilgilərin qarşılıqlı əlaqəsi göstərilir. Dərslik politologiyanın ayrı-ayrı tədqiqat sahələri üzrə strukturlaşdırılmışdır. Onun məzmununu politoloji müdrikliyin cövhəri sayılan subfənn səviyyəsindəki 10 problem təşkil edir. Bunlar dünya siyasi elmində çoxdan mühüm yer tutan, bu gün və gələcək perspektivdə aktuallığını itirməyən **siyasi komparativistika, siyasi fəlsəfə, analitik siyasi nəzəriyyə, empirik siyasi nəzəriyyə, beynəlxalq münasibətlərin nəzəriyyəsi və siyasi təhlili, siyasi institutlar, siyasi davranış, sosial siyasət və idarəetmə problemləridir. Yalnız qlobalistika və sosiosiyasi qloballaşma və mədəniyyət siyasəti və idarəetmə** problemləri politologiyada son onilliklərdə yaranan və mütəxəssis diqqətini özlərinə cəlb edən innovasion problemlərdir.

Bütövlükdə dərslik yeni tədris modelinin təşəkkülü prosesində yaradılan beynəlxalq politoloji təhsil standartlarına uyğun hazırlanmış və magistrantlarda siyasi elmin müasir problemləri haqqında geniş və dolğun təsəvvürlərin formalaşmasına, onların kreativ təfəkkürünün yaradılması və inkişafına, peşəkarlıqlarının yüksəlməsinə istiqamətlənmişdir.

Ümid edirik ki, dərslik gənc politoloqların, siyasətçilərin və alim-tədqiqatçıların yetişməsinə, siyasi elm sahəsində bilik səviyyələrinin artırılmasına, dünyagörüşlərinin genişlənməsinə fayda verməklə yanaşı, siyasət nəzəriyyəsi və praktikasıyla maraqlanan hər kəs üçün gərəkli olacaqdır.

*Müəllif*

# I BÖLMƏ

## SİYASİ KOMPARATİVİSTİKA

Müqayisəli politologiya (siyasi komparativistika - lat. komparativus – müqayisəli) – müasir siyasi elmin əsas və sürətlə inkişaf edən sahələrindən biridir.

Siyası Elmin Beynəlxalq Assosiasiyasının məlumatlarına əsasən, peşəkar politoloqlar olan bu ümumdünya birliyi üzvlərinin təxminən dörddə biri məhz müqayisəli politologiya sahəsində ixtisaslaşaraq, hazırda siyasi elmdə üstünlük təşkil edir. Əlbəttə, politologiyanı müqayisəsiz və müqayisəli metodlarsız təsəvvür etmək mümkün deyil. Əslində, müqayisə insan təfəkkürü və idrakının universal metodları sırasına aiddir. Komparativistlər tez-tez deyirlər ki, siyasət dünyasının müxtəlif tərəf və aspektlərinin, o cümlədən siyasi sistemlər, mədəniyyətlər, institutlar və proseslərin müqayisəsi təkcə digər ölkələri, xalqları və cəmiyyətləri deyil, həm də özümüzü, yəni öz siyasətimizi, siyasi ənənəmizi, siyasi yolumuzu daha yaxşı dərk etməyə imkan verir.

Nəhayət, müqayisə, siyasi hadisələr, təzahürlər və proseslərin məntiqinin və qanunauyğunluqlarının başa düşülməsinə aparan yollardan biridir.

Biliyin müxtəlif sahələrində, xüsusilə də sosial elmlərdə müqayisəli metodlar təkrarlanmaları qeyd etməyə, izahedici hipotezaları irəli sürməyə, onları yoxlamağa və müəyyən proqnozlar verməyə imkan yaradır.

Məlumdur ki, müqayisəli metodlardan səmərəli istifadə edən ilk siyasi tətqiqatçılardan biri Aristotel olmuşdu. O, yüz əllidən artıq antik polisin (şəhər-dövlətin) idarəetmə formalarını təsvir etmiş və tutuşdurmuşdur. Siyasi elm tarixində müqayisəli analizi ilk dəfə Aristotel xüsusi tədqiqat aləti olan dövlət

idarəçiliyinin "düzgün" və "qeyri-düzgün" formaları tipoloqiyasının köməkliyi ilə həyata keçirmişdi. Həmin tipologiya indiyə qədər müqayisəli politologiya dərsliklərində etalon nümunə qismində göstərilir.

Lakin müqayisəli analizin uzun əsrlər boyu siyasətlə bağlı tətqiqatlarda istifadə edilməsinə baxmayaraq, siyasi elmin ayrıca müstəqil sahəsi kimi komparativistika yalnız XIX əsrin ikinci yarısında formalaşır.

Düzdür, bu məsələyə elmi yanaşmalar müxtəlifdir. Məsələn, hind politoloqu Parmatta Saran hesab edir ki, müqayisəli politologiya İkinci Dünya Müharibəsindən sonra geniş vüsət tapmasına baxmayaraq, üç mərhələdən ibarət olan uzun inkişaf yolu keçmişdir. Bunlar: ən sadə, zənginləşdirilmiş və müasir mərhələlərdir. Onun fikirincə, ən sadə mərhələ antik zamanlardan başlayaraq Birinci Dünya Müharibəsinə qədərki dövrü, zənginləşdirilmiş mərhələ iki dünya müharibəsi arasındaki dövrü əhatə edir. Müasir mərhələ isə İkinci Dünya Müharibəsindən sonra başlamışdır.

Əksər Qərb politoloqlarının fikrincə, komparativistikanın bir subfənn kimi meydana çıxması məhz XIX əsrin sonuna aiddir.

Müqayisəli politologiyanın inkişaf prosesi zamanı iki başlıca tədqiqat ənənəsi yaranmış, sonradan fənnin bütün tarixi boyu diqqəti cəlb etmişdir. Bu tədqiqat ənənələri sıx qarşılıqlı əlaqədədir və bir-birlərini tamamlayır, lakin bir sıra parametrlərə görə aşkar ziddiyyət təşkil edirlər. Onlardan biri (şərti olaraq "nomometik", sxematik şəklə salan) ümumi məntiqin müəyyənləşdirilməsi, müqayisələr edilərkən dəlillərin axtarışının istiqamətləndirilməsinə meyil edir, özünün metodoloji məqsədinə görə konstruktiv və aktivdir. Digəri (şərti olaraq "ideoqrafik", fərdiləşdirilmiş) daha çox ümumiləşdirməyə istiqamətlənib. O, təsviridir və birinciyə əks olaraq reaktivdir. Birinci ənənənin nümayəndələri nəzəriyyəyə,

ikincinin nümayəndələri isə siyasi elmin təsviri sahələrinə daha yaxındırlar.

Birinci ənənə Oksford Universitetinin professoru E.Frimenin kitabında təqdim edilir. Əsər dərin analogiyaların qurulması yolu ilə zaman və məkan baxımından bir-birindən son dərəcə uzaq olan ölkələr, idarəetmə formaları və siyasi institutların müqayisəli şəkildə öyrənilməsinə həsr olunub. Burada xüsusilə vurğulanır ki, üzdə olmayan oxşarlıqları müəyyən etmək üçün "siyasi quruluş" (constitution) heyvan və yaxud binanın quruluşu tədqiq edildiyi kimi araşdırılmalı, təsnif edilməli və işarələnməlidir (studied, classified and labelled).

İkinci ənənə - qarşılaşdırılma ilə bağlı olan təsviri yanaşma Kolumbiya kollecində (sonradan universitetdə) 1857-ci ildə ilk tarix və siyasi elmlər professoru F.Liber tərəfindən uğurla istifadə olunmuşdur. Adətən, siyasi araşdırmalarda tarixi-müqayisəli yanaşmanın tətbiqini məhz onun elmi fəaliyyəti ilə əlaqələndirirlər.

Müqayisəli siyasi araşdırmaların inkişafına V.Vilson və C.Berces çox böyük töhfələr bəxş etmişlər. Onların elmi işlərinin metodologiyası hazırda müqayisəli politologiyada, adətən, "ənənəvi yanaşma" kimi qiymətləndirilən metodologiyaya yaxındır. Həmin metodologiyanın mahiyyəti hüquq elmindən gələn formal-leqal təsviretmə ilə bağlıdır. Hər iki müəllifin əsərlərində siyasət daha çox formallaşmış norma və prinsiplərə istinad edən institusional sahə kimi təsvir olunub.

Aydındır ki, istənilən komparativistin əsərində adıçəkilən hər iki ənənə irəli sürülür. Burada müqayisənin bu və ya digər aspektinin tədqiqində söhbət yalnız nisbi üstünlükdən gedə bilər. Eynilə bu və ya digər dövrün elmi nailiyyətlərinin əksəriyyətində aktiv-konstruktiv (generasion) və reaktiv-təsviri (taksonomik) yanaşmaların yalnız nisbi üstünlüyü, güclənməsi və ya zəifləməsindən danışmaq olar. Bununla yanaşı, məhz iki ənənə arasındakı nisbətin dinamikliyi müqayisəli politolo-

giyanın təkamülünün ümumi məntiqini üzə çıxarmağa imkan verir.

## §1. Elmi komparativistikanın formalaşma mərhələləri

XX əsrin birinci yarısı təsviri yanaşma, yaxud komparativistikada qəbul olunmuş dillə ifadə etsək, konfiqurativ yanaşmanın (confiqurativ approach) üstün mövqeyilə seçilir. Tanınmış Amerika komparativisti R.Makridisə görə, belə yanaşma mahiyyətcə müqayisəolunmaz (noncomparative), təsviredici (descriptive), məhdudlaşdırılmış (parochial), sabit (static) və monoqrafik (monoqraphic) idi.

Müqayisəli politologiyaya (daha çox onun bir sahəsinə – idarəetmə sistemlərinin müqayisəli öyrənilməsinə) dair əsərlər faktiki olaraq konfiqurativ adlanan tədqiqatlara, yəni dünyanın bir sıra aparıcı dövlətlərinin (bir qayda olaraq, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa) başlıca siyasi institutlarının təsvir olunmasına müncər edilirdi, sonra isə bu material ümumi ad altında birləşdirilirdi. Belə halda bir çox regionlar diqqətdən kənarda qalırdı. İnkişaf etmiş dövlətlər isə (ilk növbədə, ABŞ və Böyük Britaniya) nümunə kimi seçilir və digərləri onlarla müqayisə olunurdu.

O dövrdə komparativistlərin əsərlərində, əvvəla, sadə müşahidə və sadə empirik ümumiləşdirmə üstünlük təşkil edirdi. İkincisi, hesab olunurdu ki, nəzəri abstraksiyanın yüksək səviyyəsində empirik yoxlama istisna edilir və ümumiyyətlə, nəzəri abstraksiya prinsipcə müşahidəedilməzdir. Mövcud olan siyasi institutlar artıq formalaşmış normalar dili ilə təsvir edilirdi. Müqayisəli tədqiqatların təsviri və formal xarakteri empirik dəlillərin yığımı, qruplaşdırılması və təhlilinin incəldilmiş metodologiyasını tələb etmirdi.

XX əsrin 30-cu illərində vəziyyət artıq dəyişməyə başladı. Məhz o zaman A.Toynbinin "Tarixin dərk edilməsi" adlı komparativistika nümunəsinə çevrilən və müqayisəli tədqiqatları keyfiyyətcə yeni yüksəkliyə qaldıran 12 cildlik

əsəri işıq üzü gördü. Toynbi əslində Frimenin yanaşmasını davam və inkişaf etdirdi. Siyasi təzahürlərin "unikallığı" ilə bağlı məşhur problemə münasibət bildirərək o, yazırdı: "Bizim cavabımız ondan ibarətdir ki, hər bir fərd kimi, hər bir fakt da unikaldır və elə bununla da bəzi cəhətlərə görə müqayisəedilməzdir, digər cəhətlərə görə isə o öz sinfinin müəyyən elementi ola bilər və bu səbəbdən də təsnifat yol verdiyi dərəcədə həmin sinfin digər elementləri ilə müqayisə ediləndir".[1]

Bundan başqa, 1930 – 1940-cı illərdə müqayisəli politologiyanın dolğun inkişafından xəbər verən bir sıra əsərlər işıq üzü görür. Hər şeydən əvvəl, Q.Faynerin "Müasir idarəetmə nəzəriyyəsi və praktikası" adlı əsərini qeyd edək. Əsər 1932-ci ildə çap olunub, İkinci Dünya Müharibəsindən sonra isə daha da genişlənmiş və əhəmiyyətli dərəcədə yenidən işlənilmiş formada buraxılıb (1949). Həmin dövrdə K.Fridrixin "Konstitusiyalı idarəetmə və siyasət" adlı kitabı (1937) və onun yenilənmiş variantı olan – "Konstitusiyalı idarəetmə və demokratiya"(1946) kitabı, K.Uierin "Federativ idarəetmə" (1945) və "Müasir konstitusiyalar" (1951) adlı əsərləri və nəhayət, M.Dyüverjenin "Siyasi partiyalar" adlı kitabı mütəxəssislərin böyük marağına səbəb oldu.

Həm adları çəkilən, həm də bu səpkidə olan digər əsərlər müqayisəli politologiyanın inkişafında növbəti mərhələ üçün əsas yaratmışdır.

İntensiv inkişafın dönüş anı İctimai Tədqiqatlar üzrə Amerika Şurasının himayəsi altında 1952-ci ildə ABŞ-ın Şimal-Qərb Universitetində (Evanston, Çikaqo) keçirilən seminar hesab edilir. Seminar iştirakçıları S.Bier, C.Blenksten, K.Doyç, H.Eksteyn, K.Tomson, R.Uord və onun iclaslarında sədrlik edən R.Makridis idi. Adları çəkilən tədqiqatçıları "islahatçılar" kimi qələmə vermək olar. Müqayisəli metodun

[1] Toynbee A. T. A Study of history. (Abridgement of Volumes I-VI by D. C. Somervell) Oxford, 1987.

xüsusiyyətlərini müzakirə etdikdən sonra onlar müqayisəli siyasi analizin səviyyələrini və tədqiqatların başlıca tematik məsələlərini müəyyən etdilər. Seminardan sonra müqayisəli tədqiqatlara Qərb ölkələrində, ilk növbədə, ABŞ-da maraq kəskin surətdə artdı.

## §2. Müqayisəli siyasi analizin yeni istiqamətləri və səciyyəvi xüsusiyyətləri

XX əsrin 60-cı illəri elmi ədəbiyyatda çox vaxt müqayisəli politologiyanın "qızıl əsri" adlandırılır. Bu əsr, əsasən, ona görə mümkün oldu ki, 1954-cü ilin mart ayında ABŞ-ın Sosioloji Elmlərin Tədqiqat Şurasının (SSRC – Social Science Research Council) yanında Müqayisəli Politologiya üzrə Komitə yaradılaraq dövrün bir çox mühüm tədqiqatlarının aparılmasını həyata keçirməyə başladı. Komitənin strategiyası dünyanın müxtəlif ölkələrini təmsil edən alimləri bir araya gətirməkdən ibarət idi. Maraqlıdır ki, Komitədə fəaliyyət göstərən 245 nəfərdən 199-u amerikalı, 46-sı isə digər ölkələrin nümayəndələri, əsasən də, avropalılar idi. Komitəyə Ç.Merriamın tələbələrindən biri olan Q.Almond rəhbərlik edirdi. Mübaliğəsiz demək olar ki, 1950-ci illərin ortalarından 1970-ci illərin əvvəllərinə kimi Amerika politologiyasının başlıca nailiyyətləri məhz bu təşkilatla bağlıdır. Faktiki olaraq məhz o zaman müqayisəli politologiya siyasi elmin bir sıra digər sahələrini sıxışdıraraq aparıcı yeri tutdu və müəyyən mənada elə bütün fənlə eyniləşdirilməyə başlandı. Onu da qeyd etmək lazımdır ki, 1968-ci ildən etibarən müqayisəli politologiyaya dair "Comparative Politics" adlı jurnal buraxılır.

60-cı illərin əvvəllərində Q.Almond və Komitənin işi ilə bilavasitə bağlı olan həmkarları bir sıra novator tədqiqat proqramlarının tətbiqinə başladılar. Onlara, hər şeydən əvvəl, "genişmiqyaslı müqayisələrə", qeyri-qərb siyasi rejimlərin müfəssəl analizinə və həmçinin də Qərb siyasi rejimlərinin

siyasi infrastrukturunun (xüsusilə, siyasi partiyaların, maraq qruplarının, ictimai rəyin) öyrənilməsinə marağın yaranması xasdır.

Qlobalist oriyentasiya başlıca tədqiqat obyekti kimi dövlət idarəçiliyində formal institutların rolunun yenidən qiymətləndirilməsinə və əslində, dövlət anlayışının özünün istifadə edilməsindən imtinaya gətirib çıxartdı.

Bu kimi dəyişikliklər o demək deyildi ki, "ənənəvi" müqayisəli politologiya bir an içində yoxa çıxdı. Onun tərəfdarları nəinki işlərini davam etdirir, hətta "islahatçıların" metodoloji maksimalizminə qarşı kifayət qədər haqlı etirazlar irəli sürürdülər. Bununla bağlı 1954-cü ildə Florensiyada SEBA tərəfindən idarəetmə formalarının müqayisəli öyrənilməsi üçün təşkil edilmiş iclas vacib hadisə oldu. İclasda "ənənəçilər", xüsusən də K.Levenşteyn, K.Fridrix, M.Dyüverje, R.Şternberger, U.Robson kimi görkəmli alimlər, "islahatçılara" qarşı olduqca kəskin çıxış etdilər. Lakin müzakirələr heç də açıq konfrontasiyaya çevrilmədi. Hər iki tərəf bir-birinin arqumentlərini diqqətlə qəbul edirdi.

Eyni zamanda C.Sartori, Florensiya iclasının təşkilatçıları və bir sıra cavan avropalı alimlərdən ibarət olan "mərkəzçilər" qrupu da meydana çıxdı. Ümumiyyətlə, diskussiya son dərəcə konstruktiv və səmərəli oldu.

Beləliklə, 1950-ci illərdə tədricən metodoloji yeniləşmə baş verir. İfratçılıq yumşalır və olduqca geniş nəzəri-metodoloji razılıq zonası işlənib hazırlanır. Aktiv-konstruktiv (deduktiv) və reaktiv-təsviredici (taksonomik, induktiv) ənənə tərəfdarlarını siyasi elmin ümumi nəzəri əsaslarının axtarışı yaxınlaşdırır. Məhz həmin illər iki yeni yanaşma - **sistemli** və **davranış (bihevioral)** yanaşmaları formalaşır. Bu yanaşmalardan hər biri öz aksiomatikasına malik idi və bir tədqiqat obyekti kimi siyasətə elmi-nəzəri münasibət bəsləyirdi.

Ümumilikdə, sistemli və bihevioral yanaşmaların işlədilməsi tədqiqatların nəzəri və daha geniş, yəni mədəni-

intellektual səviyyəsinin yüksəlməsinə gətirib çıxartdı. Elmi müstəsna şəkildə zənginləşdirən əsərlər, o cümlədən G.A. Almond və B. G. Pouell tətrəfindən yazılan "Comparative Politics: A Developmental Approach" – "Müqayisəli siyasət: inkişaf yanaşması" adlı kitab ərsəyə gəldi. Sonuncuda siyasi sistemləri və mədəniyyətləri müqayisə etmək üçün şərti universal göstəricilər dəsti təklif olunurdu.

Qərbi Avropada artıq 1950-ci ilin 2-ci yarısından etibarən müqayisəli politologiya fəal və yüksək səviyyədə mənimsənilir. Hələ 1952-ci ildə Parisdə fənlər və xalqlararası müqayisəli tədqiqatlar aparmaq üçün sosial elmlər üzrə Beynəlxalq Şura yaradılmışdı, hərçənd 1960-cı illərin əvvəllərinə kimi o, əhəmiyyətli rol oynamırdı. Bu mənada St.Rokkan tərəfindən 1962-ci ildə təşkil olunmuş konfrans həlledici oldu. Rokkanın rəhbərliyi altında 10 illik müddətdə müqayisəli tədqiqatlara və onların metodologiyasının inkişafına yönələn bir sıra layihələr hazırlanmışdır. Müasir millətlərin formalaşması həmin dövrdə Rokkanın tədqiqatlarının aparıcı mövzularından birinə çevrilir.

XX əsrin 80-ci illərində yeni komparativistika məktəbi yaranır. Məktəbin nümayəndələri siyasi institutların, ən başlıcası da "dövlət"in öyrənilməsinə qayıtmağa çağırırdılar. 80-ci illərdə əsas diqqət məhz tarixən müxtəlif olan struktur və institutlara yönəlir. Əvvəla, siyasi institutlar və dövlətin özü artıq siyasətin tamhüquqlu "aktorları" kimi nəzərdən keçirilirdi, o mənada ki, onların (yaxud onlarda vəzifə tutanların) özlərinin xüsusi maraqları var və elə bu səbəbdən də onlar "real" siyasətin bir hissəsi kimi çıxış edirlər (Teda Skokpol, Mitçel). İkincisi, politoloqlar bu mövqedən çıxış edirdilər ki, institutlar üstünlükləri formalaşdırma və ifadəetmə yolu ilə fərdi seçim çərçivələrini müəyyənləşdirərək insanın fərdi davranışına əsas və təyinedici təsir göstərir. Üçüncüsü, institutlar və xüsusən institusional formalar siyasətin nəticələrini müəyyən edən başlıca determinant kimi nəzərdən keçirilirdi.

80-ci illərin komparativist tədqiqatları 50 – 60-cı illərin araşdırmalarından əsas etibarilə abstraksiyanın səviyyəsi və müqayisənin miqyası ilə fərqlənirdi. Müqayisələr ayrıca bir regionu və yaxud çox az sayda ölkəni əhatə edərək miqyasına görə məhdudlaşdığından, qlobal və genişmiqyaslı müqayisələr səviyyəsində əldə edilməsi mümkün olmayan incə və əsaslı surətdə işlənilmiş anlayışlar geniş yayılmağa başlayır. Başqa sözlə, institutlar və dövlət yenidən tədqiqat obyektinə çevrilir, təbii, təkcə ona görə yox ki, onlar öz-özlüyündə vacibdirlər, həm də ona görə ki, abstraksiyanın daha aşağı səviyyəsi onların tutarlı analizini mümkün edir. Bu dövr üçün, əsasən, aşağıdakilar xasdır:

1. Nadir hallar müstəsna olmaqla müqayisəli politologiyada müasir tədqiqatlar, adətən, ayrıca regionun, hətta çox az sayda ölkənin tədqiqi ilə məhdudlaşır.

2.Ümumilikdə müqayisəli politologiyada müəyyən dərəcədə müstəqil olan qruplaraayrılma tendensiyası artır, özü də bu qruplar bir-birilə çox zəif təmasda olurlar ki, onlardan da, məsələn, avropaçıları, latın amerikaçıları, afrikaçıları göstərmək olar. Bu da artan ixtisaslaşma və eyni zamanda peşəkarlığın nəticəsidir.

## §3. Müqayisəli tədqiqatların tematikası

Müqayisəli tədqiqatların klassik tematikası **siyasi rejimlər** və **idarəetmə formaları** problemidir. Politoloqların ona olan marağı gah artır, gah da azalır. Yenidən həmin tematikaya marağın artması demokratikləşmənin yeni dalğası ilə bağlıdır. Bu zaman siyasi institutların formalaşması, yeni siyasi strukturların yaradılması və demokratiyaya keçid haqqında bir sıra əsərlər meydana çıxır. Qərb politoloji ədəbiyyatında müasir komparativistikanın klassik tematikasının ən yaxşı nümunələri sırasında, adətən, X. Lints, A. Leyphart, C. Sartori, A. Stepan və K. Skeç tərəfindən təklif edilən prezident və parlament

idarəetməsi formalarının nisbi üstünlüklərinin analizi göstərilir.[1]

Vaxt axarında bu subfənnin digər sahələrində vacib dəyişikliklər baş verir. 1993-cü il üçün müqayisəli politologiyanın ümumi icmalında R.Roqovski 80-cı illərdən etibarən təzahür olunan və tədqiqatların yeni tematikasını müəyyən edən tendensiyanı aşkarlayır. Məsələylə bağlı tətqiqatçı yazır: "Siyasətin iqtisadi aspektlərinə daha çox diqqət yetirilir... Daxili siyasətin beynəlxalq kontekstinə və siyasi institutların işləməsinə maraq artır... Maraq qruplarında fikir cəmləşir... Dövlət strukturları və onların fəaliyyətinin öyrənilməsinə yenidən maraq yaranır... Millətçilik və etnik münaqişələrin öyrənilməsi davam edir"[2].

Yaradıcılıqlarının çiçəklənməsi 50-ci illərin sonu – 60-cı illərin əvvəllərinə təsadüf edən komparativistlərlə bu sahənin gənc mütəxəssislərinin yanaşmalarında ciddi fərqlər nəzərə çarpır. Bu da təsadüfi deyil, çünki məhz universalizm və qlobalizmdən imtina daha relevant mövzular üçün meydan açmış oldu. Hazırda müqayisəli politologiyanı əvvəlkindən daha çox siyasətin hansı nəticələrə gətirib çıxarması sualı narahat edir, nəinki buna təsir edən amillərin öyrənilməsi. Başqa sözlə, indiki dövrdə çoxlu sayda institusional struktur və siyasi proseslərlə qarşılaşan müasir alimlər belə müxtəlifliyin təsirini öyrənməyə səy göstərirlər. Əvvəllər (xüsusən, 50-ci illərin sonu – 60-cı illərin əvvəlləri) komparativistləri bu müxtəlifliyin yaranma səbəbləri cəlb edirdisə, bir qədər sonra onun nəticələri daha ciddi maraqlandırdı. Müqayisəli politologiyanın tədqiqat yanaşmalarındakı başlıca irəliləyiş məhz bu tərkibdədir. O həm Roqovski tərəfindən göstərilən və

---

[1] Linz J.J. (eds) The failure of prezidential democracy. Vol. 1. Comparative perspectives. Baltimor (Md.): John Hopkins University Press. 1994

[2] Roqowski R. Comparative politics // Political science: The state of the discipline II / Ed/ by A. W. Finifter. Washington (D. C.): American Political Science Association, 1993. P. 431-450

yuxarıda sadalanan yeni tendensiyalarda, həm də demək olar ki, müasir əsərlərin hər birində əks olunub. Nümunə kimi nüfuzlu simalardan biri olan A.Leyphartı göstərmək kifayətdir. Alimin əsərlərində zaman keçdikcə demokratiyanın müəyyən tiplərinin yaranmasını şərtləndirən səbəblərin tədqiqinə marağın, onların nəticələrinin tədqiqinə olan maraqla əvəzlənməsi təfsilatı ilə açıqlanır.[1]

Belə dəyişikliklər başqa tədqiqat məktəblərində də baş verdi. Demokratikləşmə prosesləri haqqında ədəbiyyat, izahedici prinsipin "demokratiyanın obyektiv, sosial və iqtisadi şərtlərindən elitalar tərəfindən qərar qəbuletmə prosesinin özünə", "volyuntarizmə" və siyasi institutlar və strukturların tiplərinə doğru istiqamətini dəyişməsini əks etdirən bariz nümunədir. "Demokratiya meydana gələ bilərmi?" kimi suallara cavabların axtarışını politoloqlar hazırda sosial və iqtisadi inkişafla, demək olar ki, əlaqələndirmir, lakin hesab edirlər ki, demokratiyanın taleyi siyasi seçimdən, siyasətçilərin "məharətindən", həmçinin də cəmiyyətin məlumatlanma səviyyəsi və rasional fəaliyyətin nəticələrindən asılıdır.

Müasir müqayisəli siyasi təhlilin aktiv tədqiq olunan problemləri sırasına **siyasi mədəniyyət, demokratikləşmə, dəyərlərin dəyişməsi, institusionalizm, developmentalizm və neoinstitusionalizm** problemlərini də aid etmək olar.

**Siyasi mədəniyyət** – demokratikləşmənin bundan əvvəlki dalğası ilə daxil edilən cəmiyyətşünaslıq anlayışlarından ən vacibinə çevrilir. Bu iki anlayış çox sıx qarşılıqlı əlaqədədir. Məhz mədəniyyətin öyrənilməsi demokratikləşmə proseslərinin təhlili üçün xüsusilə lazım olur, belə ki, söhbət demokratiyanın zəruri mədəni şərtlərinin axtarışından gedir.

---

[1] Lijphart A. Democracy in plural societies. New Haven (Conn.): Yale University Press, 1977; Democracies: Patterns of majoritarian and consensus government in twenty-one countries. New Haven (Conn.): Yale University Press, 1984

Demokratiyaya dair ədəbiyyatda mədəniyyətin tədqiqi ilə bağlı üç yanaşmanı ayırmaq olar:

Birinci yanaşma – Q. Almond və S. Verbanın "vətəndaş mədəniyyəti" nəzəriyyəsidir. Beş müxtəlif demokratik cəmiyyətin öyrənilməsi əsasında onlar belə bir nəticəyə gəlirlər ki, millətin siyasi mədəniyyəti sosial və siyasi davranışa müstəqil surətdə təsir göstərir. Mədəniyyət cəmiyyət üzvlərinin qəbul və riayət etdikləri davranış normalarını müəyyənləşdirir, hətta hər hansı birisi şəxsən mövcud dəyərləri bölüşdürməsə belə. İndiyə kimi bu yanaşma ən nüfuzlulardan biri olaraq qalır və o, təkcə demokratik ölkələrdə deyil, digərlərində də təsdiqlənib.[1]

İkinci yanaşma – H.Ekstaynın hakimiyyət və mədəniyyət haqqında nəzəriyyəsidir ki, burada müəllif mədəniyyətin dinamik aspekti və siyasi dəyişikliklər prosesində onun rolu ilə bağlı suallara aydınlıq gətirir.[2]

Üçüncü yanaşma A.Vildavskinin adı ilə bağlıdır. A.Vildavski siyasi mədəniyyətin təhlilinin yeni variantını işləmişdir. O, dörd yaşayış tərzinə uyğun gələn mədəniyyət tipologiyasını Meri Duqlasın "idarəçilik barmaqlıqları" əsasında qurur.[3] Siyasi mədəniyyətin bu tipləri sosial münasibətləri və onların ifadə etdiyi dəyərləri ehtiva edir.

R.İnqlhartın vətəndaşların siyasi baxışları ilə demokratiyanın sabitliyi arasındakı uyğunluğu barədə 22 ölkə əsasında apardığı tədqiqatları və F.Patnemin mədəni ənənələrdən asılı olaraq İtaliya regionlarında hakimiyyət

---

[1] Almond G., Verba S. (eds.) The civic culture revisited. Boston: Little, Brown, 1980.

[2] Eksteyn H. A culturalist theory of political change // American Political Science Review. 1988. Vol. 82. P. 789-804; Political culture and political change // American Political Science Review. 1990. Vol. 84 P. 253-258.

[3] Wildavsky A. Choosing preferences by constructing institutions / American Political Science Review. 1987. Vol. 81 P.3-23.

orqanlarının inkişafı haqqındakı təlqiqatları siyasi mədəniyyətə elmi marağın dirçəlməsi üçün zəmin yaratdı.[1]

Son zamanların qlobal demokratikləşmə dalğası siyasi mədəniyyətlə siyasi sistem arasındakı uyğunluq problemini yenidən gündəmə gətirdi. Bu zaman keçmiş SSRİ dövlətlərində siyasi mədəniyyətlə demokratik prinsiplərə olan münasibət arasındakı qarşılıqlı əlaqəyə dair Qərb tədqiqatçıları tərəfindən yazılmış bir çox əsərlər meydana çıxır. Şərqi Asiya regionuyla da bağlı dolğun məzmunlu tədqiqatlar ərsəyə gəlir.

Ümumilikdə, demokratikləşmənin yeni dalğasını əks etdirən empirik tədqiqatların çoxusu siyasi mədəniyyət nəzəriyyəsinin əvvəlki çərçivələrindən kənara çıxmır. İndiki zamanda yuxarıda adıçəkilən Almond-Verba, Ekstayn və Vildavskinin üç modelini yeni siyasi təcrübədə yoxlamaq üçün zəngin material var və onun əsasında orijinal nəzəri sxemlərin yaranacağını gözləmək olar.

Son otuz ildə vətəndaşların dəyər oriyentasiyalarının müqayisəli tədqiqi xeyli genişlənib. Bu isə postindustrial cəmiyyətin inkişafı və əhalinin dəyər dəyişmələri prosesinin təhlili nəticəsində mümkün oldu. Məsələylə bağlı R.İnqlhartın dəyər oriyentasiyalarının postmaterializmə istiqamətlənməsi ideyası böyük maraq doğurur. O, sənaye cəhətdən inkişaf etmiş demokratik ölkələrdə əhalinin geniş təbəqələrinin məruz qaldığı dəyişikliklərin öyrənilməsinə dair aparıcı yanaşmaları müəyyən etdi. Onun dəyərlər sistemindəki dəyişikliklərlə bağlı şərhi iki mühakiməyə əsaslanır. Birincisi, alim hesab edir ki, cəmiyyətdə prioritetlər nəyinsə "çatışmazlığı" əsasında formalaşır: insanlar cəmiyyətdə nisbətən az olanı daha çox dəyərləndirirlər. İkincisi, o, ondan çıxış edir ki, insanın şəxsi dəyər oriyentasiyaları və prioritetləri onun sosiallaşması baş verən şəraiti əks etdirir. Bu

---

[1] Inglehart R. Culture shift in advanced industrial society. Princeton (N. J.) Princeton University Press., 1990. Putnam R. Making democracy work.. Princeton (N. J.) Princeton University Press., 1993.

iki mühakimə birlikdə dəyərlər sisteminin formalaşmasının ümumi modelini yaradır: erkən dövrün sosioiqtisadi (şəxsi və ictimai) şərtlərinə reaksiya kimi elə o dövrdə də formalaşan insanın başlıca dəyər oriyentasiyaları həyat şəraitinin sonrakı dəyişiklikləri qarşısında dəyişməz olaraq qalır. R.İnqlhart bu modeldən istifadə etməklə, Qərb sənaye cəmiyyətlərini kökündən dəyişdirən sosial-iqtisadi amillərin əhalinin başlıca məqsədlərinin nisbi xarakterinə və müvafiq olaraq dəyər prioritetlərinə də təsir etməsini sübut etmək istəyirdi. Yaşlı nəslin nümayəndələri, adətən, cəmiyyətin ənənəvi "maddi" məqsədlərini, məsələn, iqtisadi firavanlıq, ictimai təhlükəsizlik, qanunilik və nizam-intizam, dini dəyərlər və güclü milli müdafiə kimi məqsədlərin əhəmiyyətini xüsusilə vurğulayırlar. Belə ənənəvi məqsədlərə nail olmuş cəmiyyətdə böyüyən Qərb ölkələrinin cavan nəsli "postmaddi" məqsədlərə – özünüifadə, şəxsi azadlıq, sosial bərabərlik, özünürealizə və həyat keyfiyyətinin saxlanılmasına diqqət yetirir.

Müqayisəli politologiyanın təkamülü məsələsini müzakirə edən D.İ.Apter üç yanaşmanı ayırır: **institusionalizm,** (siyasi və iqtisadi) **developmentalizm** və **neoinstitusionalizm.**[1] O, hesab edir ki, siyasi sistemin xüsusi işləmə mexanizmlərində cəmləşən institusionalizm (prezident və ya parlament hakimiyyəti sistemi, unitar və ya federativ dövlət quruluşu, siyasi partiya və səsvermələr) müqayisəli politologiyanın bazisini təşkil edir və ən əsası olaraq qalır.

Sosiyetal dəyişiklik nəzəriyyələrinin əksəriyyətini ehtiva edən developmentalizm, yaxud "yeni müqayisəli politologiya" məhz cəmiyyətdə baş verən dəyişiklikləri xüsusilə vurğulayır. Bu iki yanaşmanı (institusionalizmi və developmentalizmi) özündə birləşdirən neoinstitusionalizm dövləti tədqiqat sahəsinə qaytarır. Eyni zamanda o, developmentalistləri siyasi sistem və dövlətlərin işləmə mexanizmlərinin öyrənilməsinə yönəldir.

[1] Политическая наука: новые направления. М. 1999. Гл. 15. С. 361-384.

**İnstitusionalizmə** gəldikdə, onu qeyd etmək lazımdır ki, müqayisəli politologiyanın bu istiqaməti İkinci Dünya Müharibəsi zamanı və ondan sonrakı dövrdə başlıca yeri tuturdu. Bu o deməkdir ki, konstitusiya və hüquq sistemləri, dövlət və idarəetmənin, suverenliyin, hakimiyyət səlahiyyətlərinin, hüquqi və qanunverici mexanizmlərin müxtəlif formaları öyrənilir və müqayisə edilirdi. İnstitusionalistlər təkcə avtoritar və demokratik idarəetmə formalarını ümumi şəkildə tədqiq etmirdilər. Onlar bu qənaətdədirlər ki, siyasi institutlar demokratiyanın prinsip, norma və dəyərlərini təcəssüm etdirdiyinə görə "işləyirlər". İnstitusionalizm demokratik prinsiplərin necə "institusionallaşmasını" nəzərə alırdı. Güman olunurdu ki, yalnız bəzi cəmiyyətlər "demokratiyaya" hazırlaşdırılıb, digərləri isə yalnız müvafiq inkişafın gedişində məlum prosesi keçə bilərlər. Məsələn, müstəmləkəçilik zəif inkişaf etmiş ölkələrin demokratik quruluşa müvafiq hazırlıq prosesinin labüd mərhələsi kimi nəzərdən keçirilirdi. Sonra isə səlahiyyətlərin ötürülməsi və müstəmləkələrdə metropoliyaların təcrübəsindən istifadə olunması nəzərdə tutulurdu.[1] Zaman keçdikcə institusionalizm dəyişirdi. O, Avropada, millətçilik dövründə öz inkişafına başlamışdı, yəni elə vaxt ki, din, dil, mədəniyyət və yerli millətçilik baxımından ayrılan millətlər arasında əlaqələri qoruyub saxlamaq və möhkəmlətmək son dərəcə önəmli problem idi.

Sonralar, "sosial məsələ" (Hanna Arendt) aktuallaşan zaman həmkarlar ittifaqları daha mütəşəkkil qüvvəyə çevrilir və müxtəliftipli siyasi hərəkatlarla birgə siyasi iştirakçılığın genişlənməsi, hüquqi bərabərlik, sosialist və liberal prinsiplərə alternativ olan digər ideologiyalar uğrunda çıxış edirdilər. Həmin dövrdə iqtisadi amillər gündəmə gətirildi. Bu dövrdə

[1] Wight M. The development of the legislative council 1606-1945. London: Faber, 1946.

institusional təhlil bir çox məsələlərə, o cümlədən: hökumətin işsizliyə, sahibkarlığa, pis sosial şəraitə, sinfi siyasətin meydana gəlməsinə, siyasi və sosial etirazlara və s. istiqamətlənmişdi. Bir sözlə, institusional təhlil mövcud institutlar çərçivəsindən kənara çıxan sualları əhatə edirdi.

İnstitusionalizm nə qədər çox siyasi iqtisadiyyata müraciət edirdisə, bir o qədər də büdcə və maliyyə institutları və sonuncuların keynsiançı kontekstdə apardıqları siyasətlərinin təhlilinə diqqət yetirirdi, çünki onları partiya siyasətinin radikallaşmasının qarşısını alan vasitə kimi qəbul edirdi. Yeni bir sual da müzakirə olunurdu: parlamentli sosializm ümumrifah dövləti demokratiyası və sosial demokratiyanın, yaxud "sənaye demokratiyasının" inkişafında növbəti addım deyilmi?[1] Demokratiyanın bu tiplərinə totalitarizmə alternativ və seçkilərdə vətəndaşların iradəsini ifadəetmə mexanizmi üsulu ilə demokratiyanın totalitarizmlə əvəzlənməsinin qarşısını alan vasitə kimi baxılmağa başlandı. "Ümumrifah dövləti" dedikdə, cəmiyyət tərəfindən onun bütün üzvlərinin ümumi firavanlığı üçün rəsmi və aşkar şəkildə bildirilən məsuliyyətin qəbul olunmasının institusional nəticəsi başa düşülür. Nümunə kimi ABŞ-dakı Yeni kursu, Fransada Xalq Cəbhəsini və İsveçtipli sosial-demokratik dövlətlərin əmələ gəlməsini göstərmək olar.[2]

Lakin İtaliya, Almaniya, SSRİ-də totalitar rejimlərin yarandığı və möhkəmləndiyi bir vaxtda aydın oldu ki, psixoloji, iqtisadi, sosial və təşkilati amilləri institusional təhlil çərçivələri xaricində öyrənmək lazımdır. Hətta özünə görə ən yaxşı demokratik konstitusiya (Veymar Respublikası)

---

[1] Clegg H. Industrial democracy and nationalization. Oxford: Blackwell, 1951; Panitch L. Social democracy and industrial militancy. Cambridge: Cambridge University Press, 1976.

[2] Girvetz H. K. Welfare state // International Encyclopedia of the Social Science / Ed. By D. L. Sills. New York: Makmillan, 1968. Vol.16. P. 512-551.

demokratiyanın işləməsinə təminat verə bilmədisə belə, nöqsansız konstitusiyalara, lakin xalqa zidd idarəçiliyə malik dövlətlər də var idi (1936-cı il Sovet Konstitusiyası). Yəni konstitusiyaların yaradılması cəhdlərində institusionalizm qeyri-adekvat idi.

İnkişaf problemlərini xüsusi vurğulayan **developmentalizm**, yaxud **"yeni müqayisəli politologiya"** müharibədən sonrakı dövrün ümumi nikbinlik mühitində meydana çıxdı. Avropada ümumrifah dövlətinin yaradılmasına və sosial-demokratik siyasət məsələlərinə çox diqqət yetirilirdi, həmçinin o ölkələrdə ki, orada iri, leqal fəaliyyət göstərən və yaxşı təşkil olunub maliyyələşdirilən kommunist partiyaları mövcud idi (Fransa və İtaliyada). Bu zaman iştirak demokratiyasına dair zəngin ədəbiyyat meydana çıxır.[1] "Az miqdarda" sosializm liberal kapitalizmin münasib "modifikatoru" qismində çıxış etməyə başladı. Müqayisəli tədqiqatların böyük hissəsi sosial ümumrifah dövlətinin təkamülü və müxtəlif digər problemlərinə həsr olunurdu.[2]

Müqayisəli tədqiqatlarda inkişaf nəzəriyyəsinin iki alternativ variantı üstünlük təşkil edirdi: **modernləşmə nəzəriyyəsi və asılılıq nəzəriyyəsi.**

**Modernləşmə** nəzəriyyəçiləri bir-birilə sıx əlaqələri olmayan müqayisəli politologiya üzrə mütəxəssislər qrupundan, o cümlədən də Q.Almond, S.Hantinqton, D.İ.Apter, L.Pay, M.Viner, L.Baynder, E.Şilz, T.Parsons və digərlərindən ibarət idi. Onlardan bəziləri ayrıca hadisənin tədqiqini inkişaf proseslərinin müqayisəli öyrənilməsinə dair genişplanlı analitik işlə birləşdirdilər (onların mənəvi sələfləri K.Marks və M.Veberdir).

---

[1] Pateman C. Participation and democratic theory. Cambridge: Cambridge University Press, 1970

[2] Offe C. Contradiction of the welfare state. Cambridge (Mass.): MİT Press, 1984.

**Asılılıq nəzəriyyəsi** tərəfdarlarına iqtisadçılardan P.Baran və A.H.Frankı, tarixçilərdən P.Andersen və E.Hobsbaumu, politoloqlardan H.Kitçinq, K.Liz və B.Anderseni aid etmək olar.

Birinci qrupdan olan müəlliflərin əksəriyyəti üçün İkinci Dünya Müharibəsindən sonra keçmiş müstəmləkə ərazilərinin müstəmləkəsizləşdirilməsi problemi "müstəmləkəsizləşdirmə + artım + demokratikləşmə" formulu ilə həll edilirdi, hansı ki, xüsusilə qəyyumluq edən müstəmləkəçiliyin hamiliyi altında legitim müstəqillik strategiyası idi. İkinci qrupun nümayəndələri isə hegemonluq və hökmranlıq strategiyasını seçmişdilər. Bu isə həm nəzəriyyə, həm də təcrübədə mübarizə demək idi. Nəticədə, müəyyən mənada eyni ölkələr üzrə eyni materialdan istifadə edən alimlər tamamilə fərqli, bir-birinə əks olan nəticələrə gələ bilirdilər.

Belə siyasiləşmənin müqayisəli politologiyaya necə təsir etməsindən asılı olmayaraq, bu subfənn avropasentrizmdən uzaqlaşmağa başladı və daha çox qeyri-demokratik rejimlərdən demokratik rejimlərə keçid yolunu tutan dövlətlərdə demokratikləşmə məsələlərinə diqqəti yönəltdi. Politoloqlar konstitusiyaya və hökumətin "yaradıcı" qabiliyyətinə daha az inanır və daha çox siyasi institutların "yuxarıdan" və "aşağıdan" eyni vaxtda və müştərək şəkildə yaradılmasının zəruriliyini vurğulayırdılar. Onların fikrincə, inkişaf edən ölkələrdə dövlət öz üzərinə inkişafı dəstəkləmək və stimullaşdırmaq, buna müvafiq olaraq da, onun nəticələrinə nəzarət etmək məsuliyyətini götürməlidir. İnkişaf nəzəriyyəsinə əsasən güman olunurdu ki, əvvəl-axır inkişaf edən dünya sənaye cəhətdən inkişaf etmiş dövlətlərin hasil etdiyi əsas sosial və mədəni dəyərləri və institutları, xüsusən də elmi zəruri olaraq yenidən yaradacaq.

Belə nəzəri istiqamət az tanınan mədəniyyətləri və təcrübəni daha yaxşı başa düşməyi tələb edirdi. Burada sosial psixologiya və siyasi antropologiya üzrə dəlillər geniş istifadə

olunurdu. Bu konseptual yanaşmalar müxtəlif mədəniyyətlər və etnik qrupların yeniliyə necə reaksiya verməleri sualına cavab tapmağa köməklik göstərirdi. Bütün problemlərə geniş kontekstdə baxılırdı: "ənənəçilik" və "müasirliyin" müqayisəsindən tutmuş, siyasi zorakılıq, siyasi inteqrasiya şərtləri və etnik münaqişələrə kimi.

Modernləşmə ilə bağlı tədqiqatlar sosioloqların, şəxsən T.Parsonsun güclü təsiri altında aparılırdı. Dövlət hakimiyyəti sistemləri və cəmiyyətlərin sistematik müqayisəsinə S.M.Lipset, F.Selznik, D.Bell, A.Kornhauzer, F.Konvers, R.Darendorf, M.Yanovits, E.Şilz və A.Turenin elmi işlərində rast gəlmək olar. Onların təhlil etdiyi məsələlər içərisində etnos problemi, ibtidai vəziyyət, cəmiyyətin "başlıca dəyərlərini" başa düşməyin zəruriliyi və cəmiyyətdəki dəyişikliklərə siyasi mədəniyyətlərin fərqli reaksiyaları kimi problemlər var idi. Məsələn, "siyasi institusional keçid" problemi, xüsusən də necə və hansı səviyyədə Afrika şəraitində Qərb parlament strukturlarının institusionallaşması məsələsi D. J. Apterin əsərində təhlil olunurdu.[1]

Bütövlikdə, inkişaf nəzəriyyəsi nümayəndələri məhz müqayisəli aspektdə real sosial həyatın çətinliyini dərk etməyə çalışırdılar.

**Neoinstitusionalizm** özündə əvvəlki institusionalizmlə inkişaf nəzəriyyələrini birləşdirir. Siyasi sistemə yenidən əhəmiyyətli yer ayırmaqla o, "inkişaf edən ölkələrə" artan marağı Avropaya olan dayanıqlı maraqla birləşdirir. Demək mümkündür ki, neoinstitusionalizm plüralist demokratiya şəraitində formalaşaraq,[2] siyasi, xüsusilə elektoral davranışı, siyasi partiyaların uğur və müvəffəqiyyətsizliyinin dina-

[1] Apter D. E. Choice and politics of allocation. New Haven (Conn.): Yale University Press, 1971.

[2] Dahl R. Dilemmas of pluralist democracy. New Haven (Conn.): Yale University Press, 1982.

mikasını, onların dövlət üçün əhəmiyyətini, demokratikləşmə və elitalar problemlərini təhlil edir. Bu zaman Avropada məzlum vətəndaşların həyat səviyyəsinin yüksəldilməsində dövlət səylərinin gücləndirilməsi uğrunda siyasi hərəkatların canlanması nəzərə çarpır.

Siyasi partiyalar və onların işləməsi, blokların yaradılması, müxtəlif siyasi rejimlərdə elitalar, bürokratiya və siyasətçilərin rolu, insanların baxışlarının dəyişməsi – müqayisəli tədqiqatların obyektinə çevrilir. Əgər inkişaf nəzəriyyəsi tərəfdarları demokratiyanın şərti kimi iqtisadi artımın zəruriliyini vurğulayırdılarsa, neoinstitusionalizm, miqrantların adaptasiyası, ekoloji problemlər və s. daxil olmaqla artımın neqativ nəticələri ilə bağlı hökumət qarşısında yaranan problemləri öyrənirdi. O, həmçinin real siyasətdə sosial-demokratiya ümumrifah dövləti modelindən uzaqlaşaraq, keçmiş institusionalistlərin diqqət mərkəzində olan liberal modellərə qayıtmağın səbəbini açıqladı. Müasir institusionistlər eyni dərəcədə idarəetmənin problemləri ilə maraqlanır, çünki, siyasi səbəblərə görə səmərəli siyasətin aparılması mümkün olmayanda hər hansı əlçatan tədbirlər də təsirsizdir. Nəhayət, Sovet İttifaqının dağılması ilə neoinstitusional təhlilə tələbat yaranır və get-gedə daha da güclənir.

"Soyuq müharibənin" bitməsiylə demokratikləşmənin üçüncü dalğası başladısa, eyni zamanda separatçılıq, dini sektantlıq, fundamentalizm kimi mənfi siyasi təzahürlər də fəallaşdı. Onlardan heç biri nə proqnozlaşdırılmış, nə də "sosial dəyişikliklər" nəzəriyyələriylə izah olunmuşdu. Həmin dövrdə tədqiqat obyekti kimi Şərqi Avropa müəyyən mənada "üçüncü dünyanı" əvəz elədi.

İnkişaf nəzəriyyəsiylə neoinstitusionalizmi yaxınlaşdıran yeganə mövzu, demokratiyaya "keçid"dir. Onun öyrənilməsində neoinstitusionalistlər nisbətən fərqli təhlil strategiyasından istifadə edirlər. "Postveber" adlandırıla bilən sxemin çərçivəsində sinfi struktur və dövlət quruluşunun

konkret tarixi formalarının müqayisəsi daha geniş yayılır. Bu istiqamətdə R.Bendiks, B.Mur, T.Skokpol, H.O'Donnel işləyirlər.[1] Onlardan üçü (Bendiks, Mur, Skokpol) sinfi tərkib, bürokratiya və dövlət idarəçiliyi baxımından İngiltərə və Fransanı, Hindistan və Yaponiyanı, Rusiya və Çini, O'Donnel isə Latın Amerikası ölkələrini müqayisə edərək, demokratik və totalitar variantlar nöqteyi-nəzərindən bu ölkələrin dövlət quruluşunu təfərrüatıyla açıqlayırlar.

Digər analitiklər, sənayesi inkişaf etmiş kapitalizmlə parlamentli demokratiya arasındakı əlaqəni, sosial etirazın və dövlətlə bütövlükdə fəal qarşıdurmanın olmasının əhəmiyyətini xüsusi vurğulayırlar.

Təhsil, artım templəri və urbanizasiya kimi amillərin müqayisəsində komparativistika yenidən statistik tədqiqatlara müraciət edir. Eyni zamanda parlamentar rejimlərdə hakimiyyət məsələləri, xüsusən də seçki sistemi və elektoral davranış kimi problemlər diqqət mərkəzində idi. Müqayisəli politologiyada dərinləşən sosial fərqlər şəraitində həyat qabiliyyətli demokratik siyasi institutları saxlama üsullarının axtarışı aparılırdı. İlk əvvəl bu mövzuya Uqandada sosial təbəqələşməyə dair tədqiqatlarda toxunulur, sonra isə Niderland ilə bağlı əsərlər meydana çıxır. Nəhayət, A.Leyphartın elmi işlərində Avstriyadan tutmuş Cənubi Afrikayadək ən müxtəlif ölkələrdə bu tematikaya daha da geniş kontekstdə baxılır.[2]

Komparativistlər yenidən dövlət institutları ilə maraqlanmağa başlayır və Qərb ümumrifah və sosial-demokratiya dövlətlərinin təcrübəsini dərindən öyrənirlər.

---

[1] Bendiks R. Nation – building and citizenship. Berkley: Univercity of California Press, 1977; Skokpol T. Statas and social revolutions. Cambridge: Cambridge University Press, 1979.

[2] Лейпхарт А. Демократия в многосоставных обществах: Сравнительное исследование. М. Аспект Пресс, 1997; İbid. Democracies: Patterns of majoritarian and consensus government in twenty-one countries. New Haven (Conn.) Yale University Press. 1984.

Bununla dövlət müdaxiləsinin hüdudları, hökumət fəaliyyətinin miqyası və rolu barədə suallar gündəmə gətirilir.

Müasir müqayisəli siyasi təhlildə təsviri müqayisələr fonunda (ölkələrin, siyasi institutların) çoxlu sayda empirik, o cümlədən funksional, analitik, kəmiyyət, statistik və s. metodlardan istifadə olunur:

Beləliklə, yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, XX əsrin 70-ci illərindən başlayaraq müqayisəli politologiya məzmun və metodoloji cəhətdən dəyişməyə başlayır. Siyasi fəaliyyətin ənənəvi institutlarının və amillərinin (dövlət, partiyalar, seçkilər, KİV) öyrənilməsindən yeni təzahürlərin dərk olunmasına (siyasətin ətraf mühiti, qrup maraqları və neokorporativizm, yeni kütləvi hərəkatlar, postmaddi dəyərlər, etnik, dini, yaş və gender amilləri) keçid müşahidə olunur. Siyasi kursun formalaşması yollarının təhlilinə, ona köhnə və yeni institut və amillərin təsirinin öyrənilməsinə xüsusi diqqət yetirilir. Bütöv, müstəqil subsahə - **müqayisəli publik siyasət** formalaşır.

Metodologiyaya gəldikdə isə, burada üç başlıca tendensiya yaranır ki, onlar bütövlükdə müqayisəli politologiyanın metodoloji transformasiya prosesini xarakterizə edir.

Birinci tendensiyanı **radikal tendensiya** kimi qələmə vermək olar. O, postmodern və feminist siyasi-nəzəri oriyentasiyalarda daha dürüst ifadə olunub.

İkinci tendensiya, ilk növbədə, K.Marks və M.Veberin əsərlərinin müasir oxunuşu hesabına **tarixi-müqayisəli metodologiyanın bərpası** ilə əlaqədardır. Bununla bağlı İ.Valliyerin "Cəmiyyətşünaslıqda müqayisəli metodlar" (1971) adlı fundamental əsəri çox vacibdir, hansı ki, bu iki mütəfəkkirə böyük fəsillər həsr olunub.

Üçüncü **islahatçı tendensiya** yeni konseptual yanaşmalara əsaslanmaqla elmi müqayisəli təhlilin instrumentarisini genişləndirir. Bu istiqamətdə yazılan əsərlərdən aşağıdakıları qeyd etmək olar: U.Viarda (1986) və X. Kemanın (1993)

redaksiyası altında “Müqayisəli siyasətdə yeni istiqamətlər” adlı məcmuələr, J.E.Leyn və S.Erssonun “Müqayisəli siyasət: giriş və yeni yanaşmalar” (1994), D.Sartorinin “Müqayisəli konstitusion mühəndislik işi. Tədqiqatlar və strukturlar, niyyətlər və nəticələr”(1994), P.Penninqs, X.Keman və Y.Klyaynneniusun “Siyasi elmdə tədqiqatların aparılması. Müqayisəli metodlara və statistikaya giriş” (1999), H.Pitersin “Müqayisəli siyasət. Nəzəriyyə və metodlar” (1998) adlı monoqrafiyaları. Bundan əlavə, son zamanlar komparativistikada riyazi təhlil metodlarının tətbiqi də təkmilləşir və genişlənir.

Eyni zamanda müqayisəli politologiyanın tematika dəyişikliyini də qeyd etmək lazımdır. Tədqiqatçıların diqqətini artıq keçid prosesləri, münaqişələr, regional inteqrasiya, siyasi diskurs, korrupsiya, demokratik audit və s.cəlb edir. Nisbətən müstəqil istiqamət kimi isə tranzitologiya çıxış edir.

Nəhayət, müqayisəli politologiyanın spesifik xüsusiyyətləri ilə tanış olduqdan sonra bu subfənnin inkişafına son dərəcə böyük təsir göstərən bir kitabı xüsusi qeyd etmək lazımdır. Müasir politologiyanın yaradıcılarından olan Qabriel Almondun rəhbərliyi altında müəllif qrupu tərəfindən yazılan “Müqayisəli politologiya bu gün. Dünya icmalı” adlı kitab 1974-cü ildə işıq üzü görmüş və tələbə-politoloqlar üçün dərs vəsaiti kimi nəzərdə tutulmuşdu. O vaxtdan kitab yeddi dəfə nəşr olunmuş, sonuncu nəşr 2000-ci ildə ABŞ-da, rus dilinə tərcüməsi isə 2002-ci ildə Translation Projekt layihəsi çərçivəsində Moskva şəhərində gerçəkləşmişdir.[1]

Bir çox ölkələrdə nəşri, yenidən nəşri və müxtəlif dillərə tərcüməsinə görə rekord əldə edən bu kitab əksər müasir aparıcı

---

[1] Алмонд Г. Пауэлл Дж., Стром К., Далтон Р. Сравнительная политология сегодня. Мировой обзор. Пер. с англ. А.С.Богдановского, Л.А.Галкиной. Под ред. М.В. Ильина, А.Ю.Мельвиля. М., 2002.

universitetlərdə politologiya üzrə ən vacib ədəbiyyat siyahısına daxil edilib. Müqayisəli politologiyanın problematikası, siyasi sistemlərin, siyasi mədəniyyətin və siyasi sosiologiyanın, maraqların artikulyasiyası və aqreqasiyasının, siyasi partiyaların, həmçinin dövlət qurumlarının, və siyasi kursun, dövlət siyasətinin müqayisəli təhlilinə həsr olunmuş bu kitabda göstərilən son dərəcə çətin məsələlər zəngin siyasi faktura əsasında çox sadə və anlaşıqlı dillə oxuculara çatdırılır. Bu əsər matrisa (qəlib) modeli əsasında yazılıb. Həmin modelə görə ümumi, bir növ, abstrakt analitik matrisa götürülür, sonra isə konkret milli hadisələr, proseslər və təzahürlər bu matrisanın "üstünə" qoyularaq konkret tədqiqat aparılır. Almond və onun əməkdaşları tərəfindən təklif olunan həmin analitik matrisa indiyə qədər komparativistikada ən geniş istifadə olunan və fayda verən üsul kimi tanınır.

Sonda isə müqayisəli politologiyanın postsovet ölkələrində inkişaf xüsusiyyətlərinə diqqət yetirək. Müvafiq ədəbiyyatla tanışlıq göstərir ki, vəziyyət başqa ölkələrə nisbətən Rusiyada daha yaxşıdır. Burada Elmlər Akademiyasının strukturunda 1997-ci ildə yaradılan Müqayisəl Politologiya İnstitutu səmərəli fəaliyyət göstərir. Siyasi Elmin Rusiya Assosiasiyasında müvafiq bölmə ciddi iş aparır. Bir sıra politoloji jurnallarda, o cümlədən "Polis" və "Politiya"da mütəmadi olaraq müqayisəli politologiya üzrə tədqiqat əsərləri dərc edilir. Son illər həmin fənlə bağlı bir sıra maraqlı dərsliklər də işıq üzü görüb.[1] Müqayisəli politologiya fənni bütün ali məktəblərin politoloji fakültələrində tədris olunur.

Azərbaycana gəldikdə isə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsində "Müqayisəli

---

[1] Bax: Сморгунов Л.В. Современная сравнительная политология: Учебник. М., 2002; Голосов Г.В. Сравнительная политология: Учебник. СПб., 2001; Ачкасов В.А. Сравнительная политология: Учебник для бакалавров. М., 2011.

politologiya" fənni tədris edilir. DİA-nın Politologiya və siyasi idarəetmə kafedrasında müvafiq proqram və onun əsasında dərslik hazırlanıb. Komparativistikayönümlü dissertasiyalar müdafiə edilib, elmi məqalələr işıq üzü görüb. Lakin bunlar yetərincə deyildir. Zamanın sürətli inkişafı bu istiqamətdə elmi-tədqiqat işlərinin gücləndirilməsini zəruri edir.

# II BÖLMƏ

## SİYASİ FƏLSƏFƏ

Siyasi fəlsəfənin müasir problemlərinin izahına keçməzdən öncə, onun mahiyyət və predmetinə diqqət yetirək.

Siyasi fəlsəfə, tam şəkildə siyasəti, onun təbiətini, insan üçün kəsb etdiyi mənanı, şəxsiyyət-cəmiyyət-dövlət hakimiyyəti arasındaki qarşılıqlı münasibətləri öyrənir. Siyasi fəlsəfə, ümumiyyətlə, "siyasilik" ideyasının özünü dərk etməyə, siyasi quruluşun ideallarını və normativ prinsiplərini işləyib hazırlamağa və siyasəti qiymətləndirməyin ümumi meyarlarının müəyyənləşdirilməsinə can atır. O, həmçinin «nə üçün bu və ya digər siyasi hadisələr mövcuddur və onlar necə olmalıdırlar?» kimi suallara cavab tapmağa çalışır.

Siyasi fəlsəfənin predmetini, əsasən, siyasi həyatın beş müxtəlif sahəsi təşkil edir. Birincisi, buraya siyasi dəyərlər, bütün bəşəriyyətin və ya iri ictimai qrupların maraqları və mənəviyyatı nöqteyi-nəzərindən real siyasəti qiymətləndirmə meyarları daxildir. Tədqiqatların bu sahəsində normativ nəzəriyyələr yaradılır, siyasi institutlara və proseslərə qiymət verilir, ideallar və məqsədlər müəyyən edilərək, onlara çatmağın mühüm vasitələri işlənib hazırlanır. Bu səbəbdən siyasi fəlsəfə, əksər hallarda normativ siyasi nəzəriyyə adlandırılır.

İkincisi, siyasi fəlsəfənin predmetini siyasətin daha dərin əsasları təşkil edir. Fərdi müşahidə olunan faktlara və verifikasiya edilən fərziyyələrə söykənən orta səviyyəli və empirik nəzəriyyələrdən fərqli olaraq, siyasi-fəlsəfi biliklər nəzəri rasional axtarışlara, ümumiləşdirilmiş qlobal tarixi təcrübəyə və məntiqi mülahizələrə əsaslanır. Qeyd etmək

lazımdır ki, burada həmçinin konkret tarixi faktların təhlili də istisna deyildir.

Üçüncüsü, bu elm siyasəti dərk etməyin üsul və vasitələrini təhlil edir və hakimiyyət, azadlıq, bərabərlik, ədalət, dövlət, insan hüquqları, siyasi davranış və s. kimi siyasi kateqoriyaların mənasını və mahiyyətini müəyyənləşdirir. Qeyd olunan kateqoriyalara istinad etmədən nə orta səviyyəli nəzəriyyələr(analitik siyasi nəzəriyyələr), nə də empirik nəzəriyyələr mümkün deyildir.

Dördüncüsü, siyasi fəlsəfə insanın bu sahədə yaradıcı imkanlarını, onun siyasi sosiallaşma və sosiomədəni eyniyyəti problemlərini tədqiq edir.

Beşincisi, burada siyasi fəaliyyətin strukturu və funksiyaları, siyasi dəyişikliklərin mümkünlüyü və sərhədləri, ənənəvi və modernləşdirilmiş cəmiyyətlərdə siyasi hərəkətlərin dinamikasını və səbəblərini açıqlayır.

Beləliklə, siyasi tədqiqatlar üçün ümumi metodoloji baza rolunu oynayan siyasi fəlsəfə müxtəlif konsepsiyaların mənasını müəyyən edir, insan-cəmiyyət-hakimiyyət münasibətlərində universal prinsip və qanunları üzə çıxarır. Bundan başqa, siyasətdə rasionallıq və irrasionallığın nisbətini, onun mənəvi meyarları və səbəbiyyət əsasını izah edir, dövlət hakimiyyətinin sərhəd və prinsiplərini açıb göstərir və s.

Siyasi fəlsəfə siyasi elmin mövcudluğunun birinci tarixi forması olmuşdur. Fəlsəfi biliklər isə insanın dünyagörüşünün və cəmiyyətin siyasi mədəniyyətinin nüvəsini təşkil edir.

Yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, siyasi fəlsəfə həm siyasət dünyasının dərk edilməsi nəzəriyyəsi (siyasi epistemologiya), həm də siyasi mövcudluq (siyasi ontologiya), siyasətin mənəvi-etik başlanğıcı(siyasi aksiologiya), siyasi insan (siyasi antropologiya) və siyasi hərəkət, yaxud fəaliyyət (siyasi prakseologiya) haqqında təlim kimi çıxış edir. Siyasi fəlsəfə eyni zamanda fəlsəfə və siyasət sferalarını əhatə etməklə, fəlsəfə və siyasi elmin kəsişmə nöqtəsində yer alır. Bir

tərəfdən siyasi fəlsəfə, sözün əsl mənasında, ümumi fəlsəfənin bir hissəsidir, digər tərəfdən isə siyasi elmlə möhkəm bağlıdır və özünün bəzi aspektlərində siyasi elmin müstəqil bölməsi kimi qəbul edilir. Bu baxımdan siyasi fəlsəfə həm fəlsəfə, həm siyasi elmlə sıx şəkildə əlaqəlidir. Bununla yanaşı, o, sosiologiya, xüsusilə də siyasi sosiologiya ilə müəyyən təmas nöqtələrinə malikdir.

XX əsrdə siyasi fəlsəfənin inkişafı üçün H. Arendtin "İnsan taleyi" adlı kitabının mühüm əhəmiyyəti olmuşdur[1]. Kitabda, vətəndaşların ictimai həyatda fəal iştirakı kimi izah edilən siyasi proses uğurlu təsvir edilmişdir. Müasir dövrümüzün politoloqları, "siyasət" və "siyasi" anlayışlarını sıravi vətəndaşların ictimai həyatda rasional fəal iştirakları ilə əlaqələndirərək, problemə məhz bu cür yanaşmağın tərəfdarıdırlar. Kollektiv ictimai həyat kimi dərk edilən siyasət, fərdi tələbatların və problemlərin ictimai müstəvinin yaradılmasına istiqamətlənməsini nəzərdə tutur. Bu mühitdə hər bir insan öz fərdi xüsusiyyətlərini tam şəkildə saxlayır və başqa insanlarla ünsiyyətdə özünü təsdiq edir. İnsanlar uyğun anlayışlardan istifadə edərək, qanunları və institutları yaradır və təkmilləşdirirlər. Onlar bu qanunlar və institutlar çərçivəsində birgə həyatlarını yaşayır, əmələ gəlmiş münaqişələri və ziddiyyətləri həll edir və bununla da özlərinin tarixini yaradırlar.

H.Arendt "siyasi" və "sosial" anlayışlarını fərqləndirməyə çalışır. O, hesab edir ki, "sosial", yaxud kollektiv həyatın müasir quruluşu siyasəti getdikcə daha çox ikinci plana keçirir.

Nensi Freyzer, ümumrifah dövlət nəzəriyyəsinə həsr edilmiş əsərində H.Arendt tərəfindən formalaşdırılmış sosial konsepsiyaya zidd olan yeni yanaşma ilə çıxış edir. O, belə qənaətə gəlmişdir ki, vətəndaşların əhəmiyyətli hissəsinin

---

[1] Arendt H. The human condition. Chicago: University of Chicago Press, 1958.

ictimai fəallığı "sosialın" siyasiləşməsi faktının olmasından xəbər verir[1].

İndi isə bu nəticədən çıxış edərək, XX əsrin ilk illərindən XXI əsrin əvvəllərinə kimi siyasi fəlsəfənin inkişaf prosesini qısaca təhlil edək.

## §1. XX əsrin əvvələrindən 50 – 60-cı illərinə qədər siyasi fəlsəfənin inkişafının səciyyəvi xüsusiyyətləri

XX əsrin ilk onilliklərində siyasi həyatın öyrənilməsi sahəsində tədqiqat predmetinin parçalanması, faktoqrafiya və empirizm prinsipləri müşahidə olunurdu. Siyasi davranış, seçki prosesi, ictimai rəy, siyasi oyun qaydaları daha çox maraq doğururdu. Qərbin C.Uolles, H.Laski, H.Lassvel kimi tanınmış siyasi tədqiqatçıları insanların siyasi davranışının sosiomədəni, dini, psixoloji amilləri, şüurlu və qeyri-şüurlu motivlərinin tədqiq edilməsinin əhəmiyyəti haqqında məsələ qaldırmışdılar. Bu məqsədlə siyasi tədqiqatlarda eksperimental psixologiyadan, psixoanalizdən və empirik sosiologiyadan götürülmüş metodların istifadə edilməsinə cəhd göstərilmişdir. Həmçinin riyazi, statistik və kəmiyyət metodlarının istifadəsinə də geniş yer verilirdi. Nəticədə ABŞ başda olmaqla, anqlo-sakson ölkələrində pozitivizm siyasi-fəlsəfi və nəzəri başlanğıcı ikinci plana keçirmişdir. Belə ki, Siyasi Elmlərin Amerika Assosiasiyasının o vaxtkı prezidenti Ç. Merriam 1923-cü ildə artıq köhnə "aprior spekulyativ" (nəzəri), hüquqi və müqayisəli-tarixi metodlardan imtina etməyin labüdlüyünü əsaslandırdı. O qeyd edirdi ki, faktların axtarışı texnikası "etibarlı ümumiləşdirmələr üçün adekvat bazis" yaradır və "siyasi tədqiqatları obyektiv elmi əsaslara çevirir". Tədricən siyasi fenomenlər və proseslər yüksək intensivliklə

---

[1] Frazer N. Unruly practices. Minneapolis: University of Minnesota Press, 1989.

riyaziləşmənin və kvantifikasiyanın obyektinə çevrilir. Bu da öz növbəsində siyasi tədqiqatlardan nəzəri, dünyagörüş və dəyər başlanğıcını çıxartdı.

XX əsrin 30 – 50-ci illərində Amerika siyasi elmində pozitivist metodologiya üstünlük təşkil edirdi. Bu dövrdə sosial və humanitar elmlər sahəsində ABŞ birincilik əldə etdiyinə görə, onlar məhz pozitivizm metodologiyasına əsaslanırdı. Bu səbəbdən həmin illərdə siyasi fəlsəfə problematikasının işlənib hazırlanmasının az məhsuldar olması təsadüfi deyildir. 1956-cı ildə Q.Laslet özünün məşhur məqaləsində "ənənə qırıldı", "siyasi fəlsəfə öldü" kimi ifadələri işlədir.[1] Ümumiyyətlə, həmin dövrdə bu cür mövqe geniş vüsət almışdır. Belə ki, L.Strauss siyasi fəlsəfənin durğunluğunu müasirliyin (modernity) böhranı ilə əlaqələndirirdi. Hadisələrin real vəziyyətinin təhlili göstərir ki, siyasi-fəlsəfi nəzəriyyələrin ikinci plana keçməsini siyasi amillərlə yanaşı (bir sıra ölkələrdə totalitar sistemin bərqərar olması), həm də dünyagörüş və metodoloji xarakterli amillər (sosial və humanitar elmlərdə pozivitizmin və biheviorizmin ekspansiyası) şərtləndirmişdir. Bundan başqa, "siyasi fəlsəfə" və "ideologiya" məfhumlarının sinonim kimi qəbul edilməsi də onun mövqeyinin zəifləməsinə gətirib çıxarmışdır. Ümumilikdə fəlsəfə və xüsusilə də siyasi fəlsəfə sözün əsl mənasında tam siyasiləşdirilmişdir. Əgər fəlsəfə əvvəllər əbədi nizam-intizam, qayda-qanun axtarışının və buna uyğun olaraq insanların ilham və ümidlərinin mənbəyi kimi çıxış edirdisə, artıq XIX əsrin sonlarından başlayaraq daha çox bu və ya digər siyasi qüvvələrin maraqlarının əsaslandırılması və izah edilməsi üçün istifadə olunur.

Lakin həmin dövrdə ABŞ-da sosial və humanitar elmlərdə fəlsəfi, nəzəri dəyərlər aspektinə marağın tam yox olmasını düşünmək yanlış olardı. 30-cu illərdə Ç. Merriam, C. Ketlin və başqaları tərəfindən irəli sürülən pozitivizm yanaşmasını

---

[1] Philosophy, Politics and Society. Oxford, 1956. P. VII, IX.

arqumentləşdirilmiş şəkildə tənqid edən çoxlu elmi əsərlər yaranmışdır. Məsələn, U. Elliotun "Siyasətdə praqmatik üsyan" (1928), "Siyasət haqqında elmin imkanları" (1931) əsərlərini göstərmək olar. Bu əsərlərdə əsaslandırılır ki, politologiyanı dəqiq elmə çevirmək istəyən pozitivistlərin səyləri əbəsdir. Xüsusilə Elliot qeyd edirdi ki, stsiyentizm yaradıcılıq ruhunun inkişafını şərtləndirmir və politoloqları faktların birtərəfli toplanmasına istiqamətləndirir. Həmin faktlar isə "spesifik praktik məqsədlərlə bağlı olan qeyri-tipik problemləri" əhatə edir.

Siyasi nəzəriyyənin və siyasi fəlsəfənin 50-60-cı illərdə, yəni pozitivizmin geniş vüsət aldığı dövrdə, qismən də olsa, uğurlu inkişafı davam etmişdir. Bunu məşhur amerikalı filosof K. Skinnerin "Böyük nəzəriyyənin humanitar elmlərə qayıdışı" əsəri sübut edir. Həqiqətən də, Skinnerin fikirləri öz təsdiqini tapırdı. Belə ki, artıq 50 – 60-cı illərdə ideologiyanın sonu haqqında konsepsiyanın geniş yayılmasına baxmayaraq, siyasi fəlsəfəyə dair xeyli sayda elmi əsərlər yaranmağa başlamışdır.

Bunların içərisində M.Oukşotun 1946-cı ildə T.Hobbsun "Leviafan"nına ithaf etdiyi giriş məqaləsini və 1962-ci ildə yazdığı "Siyasətdə rasionalizm" əsərini xüsusi qeyd etmək olar. O, bu əsərlərində siyasi fəlsəfənin mahiyyətinə dair tamamilə yeni konsepsiya ilə çıxış etmişdir. Hanna Arendtin əsas əsərləri də 50–60-cı illərdə nəşr edilmişdir. H.Arendt həmin əsərlərində "insan təbiəti" konsepsiyasını işləmiş və ənənəvi siyasi fəlsəfənin qeyri-siyasi xarakterini tənqid etmişdir. O, həmçinin qeyd edirdi ki, siyasi fəlsəfə haqqında təsəvvürlərin və konsepsiyaların Stalin və Hitler totalitarizmi müstəvisində yenidən nəzərdən keçirilməsinə ehtiyac vardır. XX əsrdə siyasi fəlsəfəyə aid ən mühüm əsərlərdən hesab edilən "İnsan taleyi" kitabında onun konsepsiyasının bir çox müddəaları əsaslandırılmışdır. Sonuncular, bundan başqa, nisbətən az əhəmiyyət kəsb edən "Keçmişlə gələcək arasında" (1961) və "İnqilab haqqında" (1963) əsərlərində də öz əksini tapmışdır.

Elə həmin illərdə İ. Berlin bir neçə qiymətli oçerklərini nəşr etdirmişdir. Onlardan "Azadlığın iki konsepsiyası"(1969) və "Siyasi nəzəriyyə hələ mövcuddurmu?" adlı əsərləri xüsusi maraq kəsb etmişdir.

Bu iki onillikdə K.Popper, L.Strauss, E.Vöqlin, S.Makferson, F.Hayek, R.Kollinqvud və C. Santayana kimi görkəmli siyasi filosoflar da məhsuldar işləmişlər.

Bundan başqa, XX əsrin 50 – 60-cı illərində T. Hobbs, C. Lokk, C. Mill, İ. Kant və digər siyasi fikir klassiklərinin əsərlərinin təhlilinə də geniş yer verilmişdir. Bunları keçmişin fəlsəfi ideyalarının səciyyəvi mübadiləsi, siyasi fəlsəfəyə aid, tarixə söykənən oçerklər hesab etmək olar.

Bu illərdə L. Altyusser, J.-P. Sartr, Y. Habermas və H. Markuze kimi müəlliflər öz əsərlərində marksist siyasi fəlsəfəni yaratmağa cəhd etmişlər.

Qeyd edilən sahəyə aid olan bu axtarışlar miqyasına görə universal və istiqamət baxımından tənqididir. Onların məqsədi siyasi həyatın rasional dərk edilməsini işləyib hazırlamaqdan ibarət olmuşdur. Buna onlar siyasi həyatın əsaslarını müəyyənləşdirməklə nail olmaq istəyirdilər. Həmin əsasları isə fundamental insan bacarığı və tələbatlarında (İ. Berlin), insan təbiətində (L. Strauss, E. Vöqlin və H.Markuze), insan rasionallığında (K.Popper), insan həyatının situasiyalarında (H.Arendt) görürdülər. Bundan başqa, insanların qarşılaşdıqları çətinlikləri və onların fəaliyyətlərini də (M. Oukşot) siyasi həyatın əsaslarına aid edirdilər. Adları yuxarıda sadalanan alimlərin bütövlükdə insan həyatının fundamental xüsusiyyətlərinin və qismən siyasi həyatın öyrənilməsində böyük əməkləri olmuşdur. Onların, demək olar ki, hamısı siyasi fəlsəfənin vəzifəsinin yalnız arzuolunanın müəyyənləşdirilməsindən deyil, həm də baş verən proseslərin dərk edilməsindən ibarət olduğunu qeyd edərək göstərirdilər ki, bu dərketmə çox yüksək nəzəri

səviyyədə aparılır və məhz həmin səviyyə hər hansı bir instituta, siyasi kursa aid praktik təkliflərin verilməsini imkansız edir. Onların qənaətinə görə, siyasi fəlsəfə heç vaxt praktik fəlsəfə ola bilməz. Bundan başqa, əksər nəzəriyyəçilər fikirləşirdilər ki, ümumfəlsəfi doktrinadan asılılıq siyasi fəlsəfəni həmin yanaşmaların "əsirinə" çevirmişdir. Bu da sonrakı onilliklərdə siyasi fəlsəfənin mövqelərinin əhəmiyyətli dərəcədə zəifləməsini şərtləndirdi. Beləliklə, onlar xüsusi vasitələrlə siyasi fəlsəfənin muxtar sahə olduğunu əsaslandıraraq sübut etməyə çalışmışlar ki, o, fəlsəfənin tətbiqi hissəsi deyil. Onların fikrincə, siyasi fəlsəfə ümumi fəlsəfi doktrinalardan asılı olmayaraq, özünəməxsus kateqoriyalara və tədqiqat formalarına malik olan müstəqil tədqiqat sahəsidir.

XX əsrin 50 – 60-cı illərində fəaliyyət göstərən siyasi filosoflar İkinci, bəziləri isə Birinci Dünya Müharibələrinin, faşizm dövrünün, kommunist totalitarizminin və həbs düşərgələrinin dəhşətlərindən keçmiş, Avropa sivilizasiyasında müşahidə etdikləri qəddar və qeyri-insani tendensiyalardan dərin narahatçılıq keçirmişlər. Onlar bu tendensiyaların mənbəyini rasionalizm (Oukşot), tarixilik (Popper), mənəvi monizm (Berlin), relyativizm (Strauss), qnostitsizm (Vöqlin) və kapitalizmdə (Markuze və başqa marksistlər) axtarmışlar. Müasir kommunizmə kəskin mənfi münasibətin olmasına baxmayaraq, həmin dövrün siyasi filosoflarının əksəriyyəti həm də liberal demokratiyaya tənqidi yanaşırdılar. Hətta marksist baxışları paylaşmayan və ümumilikdə liberal demokratik mövqedə duranlar belə liberalizmin şəxsiyyətə qeyri-sosial yanaşmasından, rasionallığa qeyri-tarixi baxışından, maddi rifaha həddən artıq diqqət yetirməsindən, mənəvi subyektivizmindən, kapitalizmlə tam inteqrasiyasından və siyasətə instrumental baxımdan qiymət verməsindən çox narahat idilər. Onlar, faşistlər və millətçilər tərəfindən xalq

kütlələrinin asanlıqla səfərbər edilməsinin mümkünlüyündən təşvişə düşərək, demokratiyaya da tənqidi yanaşırdılar. O dövrün siyasi filosofları azad cəmiyyəti yüksək qiymətləndirirdilər. Lakin onların cəmiyyətdə liberal demokratiyanı qəbul etməmələri əsassız deyildi. Şüurlu şəkildə liberal demokratiyadan uzaqlaşmaq üçün onlar, arzuladıqları cəmiyyəti "açıq", "azad", "libertar", "vətəndaş", "siyasi təşkilatlanmış", "müzakirələr əsasında idarə olunan" və s. kimi təqdim edirdilər.

XX əsrin 50 - 60-cı illərində siyasi fəlsəfənin uğurla inkişaf etməsinə baxmayaraq, həmin dövrdə elmi dairələrdə onun tənəzzülə uğraması haqqında rəy formalaşmışdır. Bu barədə A.Yanq, D.İston, R.Tak, B.Berri və başqaları tez-tez yazırdılar. Belə rəy, əsasən, əksər müəlliflər tərəfindən siyasi fəlsəfənin pozitivist inkar edilməsi və davranış yanaşmasının inkişafı nəticəsində yaranmışdı. Keçmişdə yaşayıb yaratmış mütəfəkkirlərlə fəlsəfi dialoqun siyasi fəlsəfə deyil, ictimai fikir tarixi olması haqqında düşüncələr də belə rəyin formalaşmasını şərtləndirmişdir. Hesab olunurdu ki, siyasi fəlsəfə klassiklərinin müraciət etdikləri problemlər indiki dövr üçün deyil, yalnız onların yaşadıqları dövr üçün səciyyəvi idi. Bundan başqa, əksər alimlər ümid edirdilər ki, siyasi fəlsəfə qarşıya yeni siyasi məqsədlər qoyacaq, müasir dövrdə ehtiyac duyduğu adekvat nəzəriyyələr və həyatı istiqamətləndirən təzə qaydalar təqdim edəcək. XX əsrin 50 – 60-cı illərində əksər siyasi filosofların belə gözləntilərlə bağlı fikirləri bölüşmədiklərinə görə, siyasi fəlsəfəni, hər şeydən öncə, konkret göstərişlərin hazırlanmasına deyil, siyasi proseslərin mahiyyətinin açılmasına yönəlmiş mücərrəd təsviri və izahedici tədqiqatlar kimi qiymətləndirirdilər. Belə alimlərin əsərləri, onların tənqidçilərinin həqiqi siyasi fəlsəfənin necə olması barədə təsəvvürlərinə cavab vermədiyinə görə, sonuncular tərəfindən bu elmin "ölməsi"

haqqında rəy formalaşdırmaları təəccüblü deyildir. Lakin keçən əsrin 60-cı illərində pozitivizmin özünün böhranı artıq başlamışdı.

## § 2. XX əsrin 70-ci illəri – XXI əsrin əvvəllərində siyasi fəlsəfənin spesifik cəhətləri

Siyasi fəlsəfənin və siyasi nəzəriyyənin "ölümü" barədə mülahizələrin vaxtından qabaq olmasından XX əsrin 70-ci illərində sosial və humanitar elmlərdə geniş yayılmış reideologizasiyaya meyillilik xəbər verirdi. Əgər 50 – 60-cı illərdə "ideologiyanın sonu" haqqında konsepsiyaları dəstəkləyən sosial-fəlsəfi fikir nümayəndələri fəal idilərsə, nəzərdən keçirdiyimiz dövrdə siyasi sferada dünyagörüş, nəzəri və dəyərlilik başlanğıcının əbədiliyini göstərməyə çalışan müəlliflər üstünlük təşkil edirdilər. Siyasi tədqiqatların dəyər-normativ və empirik aspektlərinin qarşılıqlı əlaqəsini sübuta yetirən tezislər yenidən məşhurlaşmağa başlamışdır. Əvvəllər siyasi fəlsəfənin tənəzzülünü israr edən Q.Laslet yaranmış vəziyyəti təhlil edərək, "ingilisdilli ölkələrdə siyasi fəlsəfənin yaşaması" faktını etiraf etmək məcburiyyətində qalmışdır[1]. Bu sırada C.Roulzun 1971-ci ildə nəşr edilmiş "Ədalət nəzəriyyəsi" adlı kitabını xüsusi qeyd etmək lazımdır. C.Roulzun bu məşhur əsəri siyasi fəlsəfənin dirçəliş rəmzinə çevrilmişdir. Məsələn, A.Yanq hesab edir ki, XX əsrin 60-cı illəri siyasi nəzəriyyənin qeyri-məhsuldar inkişaf dövrü ilə C. Roulzun fundamental "Ədalət nəzəriyyəsi" əsərinin meydana gəlməsinin arasında bir "keçid" rolunu oynadı. "Ədalət nəzəriyyəsi" vətəndaş hüququ və yoxsulluq probleminə diqqətin yönəldilməsi istiqamətində ictimai hərəkatın fəallaşması nəticəsində meydana çıxan sualları cavablandırırdı. Bu cavab isə sosial ədalət ideyasından ibarət idi. C.Roulzun

---

[1] Philosophy, Politics and Society. Third series. N-Y., 1967, P. 3.

həmin əsəri XX əsrin siyasi fəlsəfəsi sahəsində ən əhəmiyyətli əsərlərdən biridir. Kitab aşkar ifadə edilmiş fənlərarası xarakter daşıyır. Belə ki, o, müasir analitik fəlsəfə, oyunlar və qərarların qəbul edilməsi nəzəriyyələrinin bir sıra vasitələrinin cəlb edilməsi ilə siyasi fəlsəfə, siyasi iqtisad, sosiologiya, etika kimi elmi istiqamətlərin qovuşuğunda yazılmışdır.

"Ədalət nəzəriyyəsi"ndə açıqlanan konsepsiya ədaləti "düzgünlük" (vicdan) mənasında təqdim edir. Alim öz konsepsiyasının mərkəzi ideyalarını və məqsədlərini konstitusiyalı demokratiyanın fəlsəfi nəzəriyyəsinin əsasları kimi qiymətləndirir. Tədqiqatçı ümid edir ki, düzgünlük olan ədalət məntiqli və faydalı konsepsiya hesab ediləcək və bununla da, demokratik ənənənin əhəmiyyətli hissəsini ifadə etmiş olacaq.

Kitabın girişində müəllif, uzun illər bu və ya digər formada anqlo-sakson siyasi ənənələrində üstünlük təşkil etmiş utilitarizmə alternativ ola biləcək konsepsiya işləyib hazırlamaq məqsədindən bəhs edir. Onun fikrincə, belə bir alternativin axtarılmasının başlıca səbəbi konstitusiyalı demokratiya institutlarının əsasında duran utilitarist doktrinanın zəif olmasıdır. C. Roulzun qənaətinə görə, demokratik institutların təsis edilməsi fərdlərin azadlıq və bərabərliklərini tələb edir. Utilitarizm isə vətəndaşların əsas hüquq və azadlıqlarını qənaətbəxş səviyyədə izah etmək gücündə deyildir.

Əsas hüquq və azadlıqların, onların prioritetliyinin inandırıcı izahı nəzəriyyənin başlıca məqsədi idi. **İmkanların düzgün (vicdanlı) bərabərliyi və fərqlilik prinsiplərinə** aparan **demokratik bərabərlik** anlayışı ilə birləşdirilməsi ikinci məqsəd idi. Ümumilikdə, tədqiqatçı ədalət nəzəriyyəsinin, uzun illər fəlsəfi ənənədə dominantlıq etmiş klassik utilitarizimin və intuitivizmin ədalət doktrinalarına əsaslı alternativ olmasını elmi dəlillərlə sübuta yetirir.

Müəllif yazır: "Səmimiyyət fikir sisteminin birinci şərti olduğu kimi, ədalət də ictimai institutların birinci şərtidir.

Qeyri-səmimi nəzəriyyə nə qədər əhəmiyyətli olsa da, inkar edilməlidir və ya yoxlanılmalıdır. Eynilə də səmərəliliyi və uğurluluğundan asılı olmayaraq qanunlar və institutlar ədalətli deyillərsə, ya islah olunmalı, ya da ləğv edilməlidirlər"[1].

C.Roulz, üzvlərinin rifahını təmin etməklə yanaşı, həm də ictimai ədalət konsepsiyasını səmərəli tənzimləyən cəmiyyəti yaxşı təşkil edilmiş(well-ordered) hesab edir. Başqa sözlə, bu, elə bir cəmiyyətdir ki, burada (1) hər bir kəs ümumi ədalət prinsiplərini qəbul edir və digərləri tərəfindən belə yanaşmanın bölüşdürülməsini bilir, (2) bazis sosial institutlar, həqiqətən, bu prinsipləri təmin edir.

Ümumi ədalət konsepsiyası müxtəlif məqsədlər güdən fərdlər arasında vətəndaş birliyinə xas olan əlaqələri yaradır. Ümumilikdə hamının ədalətə canatması başqa məqsədləri məhdudlaşdırır. İctimai ədalət konsepsiyası nizama salınmış insan cəmiyyətinin fundamental xüsusiyyəti hesab oluna bilər[2].

Bu səbəbdən C.Roulz ədalət prinsiplərini, cəmiyyətdə qayda-qanunların tənzimlənməsi vasitəsi kimi nəzərdən keçirir. Bu zaman müəllifin ədalət subyektləri rolunda cəmiyyətin bazis strukturu və ya əsas sosial institutların fundamental hüquq və vəzifələrin bölüşdürməsi vasitələri çıxış edirlər. Əsas sosial institutlar dedikdə, **konstitusiya, başlıca iqtisadi** və **sosial quruluşlar** nəzərdə tutulur. Beləliklə, qanunla qorunan fikir və vicdan azadlığını, azad bazarı, istehsal vasitələri üzərində şəxsi mülkiyyəti, monoqam ailəni əsas sosial institutlara nümunə kimi göstərmək olar. Ümumilikdə, bir sxem çərçivəsində götürülən əsas institutlar, insanların hüquq və vəzifələrini müəyyən edir, onların həyat perspektivlərinə təsir göstərir. Burada həyat perspektivi dedikdə, insanların cəmiyyətdə kim və necə olmaları nəzərdə tutulur. Lap əvvəldən mövcudluğuna

---

[1] Роулз Дж. Теория справедливости. Новосибирск. Изд-во Новосибирского Университета, 1995. С.19.

[2] Yenə orada. C. 20-21.

və daha dərin təsir gücünə malik olduğuna görə bazis strukturlar ədalətin ilkin subyekti hesab edilir[1].

C.Roulzun "Ədalət nəzəriyyəsi" siyasi-fəlsəfi, siyasi-iqtisadi, sosial, etik və hüquqi fikrin inkişafında bütöv bir epoxa təşkil etmiş, Amerika və Qərbi Avropa universitetləri üçün standart tədris vəsaitinə çevrilmişdir. Kitabda ədalətli sosial quruluşların əsasını təşkil edən prinsiplərin aydın və dəqiq təsnifi verilir.

XX əsrin 70-ci illərində alimlərin siyasi fəlsəfənin fəallaşması barədəki fikirləri nisbətən üst-üstə düşür. 1970-ci ildə ABŞ-da straussian mahiyyətli "İnterpretation" jurnalı dərc edilməyə başlayır. Bir il sonra C. Roulzun qeyd edilən kitabı və fənlərarası "Philosophy and Public Affairs" jurnalı işıq üzü görür, üç ildən sonra isə ixtisaslaşdırılmış akademik "Political Theory" jurnalının birinci sayı nəşr edilir.

Maraqlıdır ki, Roulzun yuxarıda təhlil etdiyimiz "Ədalət nəzəriyyəsi"ndə iki əsas prinsip irəli sürülür: 1) azadlıqda bərabərlik prioritetinin təsdiqi; 2) bu və ya digər vəzifələrə təyin edilərkən insanların bərabər imkanlarının nəzərə alınması və namizədlərin sosial, iqtisadi vəziyyətləri fərqli olduqda daha zəif vəziyyətə malik olanlara üstünlük verilməsi.

Əksər mütəxəssislər "Ədalət nəzəriyyəsi"ni hökumətə, yalnız vətəndaş azadlıqlarının möhkəmləndirilməsi istiqamətində deyil, həm də sosial-iqtisadi bərabərliyin təmin edilməsi istiqamətində tövsiyələr kimi qiymətləndirirlər.

Bu vaxta qədər sosial bərabərliyi və iqtisadi ədaləti tələb edən siyasi prinsiplər əsasən sosialist cərəyanlarında üstünlük təşkil edirdilər. C. Roulzun əsərində isə liberal ənənələrə tam uyğun olan sosial və iqtisadi normalar öz əksini tapmışdır.

Bundan başqa, əgər XX əsrin 50 – 60-cı illərində siyasi fəlsəfə əsas diqqəti siyasi həyatın dərk edilməsinə yönəldirdisə, Roulz onu praktik fəlsəfənin normativist forması kimi qəbul

---

[1] Yenə orda. C. 22.

edir. Roulzun yaşlı müasirləri hesab edirdilər ki, bu fənn, insanların əsas bacarıq və tələbatları daxil olmaqla, ən ümumi nəticələr çıxarmaqla, insan həyatının fundamental parametrlərini açıqlayır. Onlar həm də siyasi fəlsəfənin ümumiləşdirmənin daha aşağı səviyyəsinə düşməsini qeyri-mümkün hesab edirdilər. Roulzun fikrincə isə, siyasi fəlsəfədə, yalnız insan nəzəriyyəsini təklif etmək üçün deyil, həm də arzuolunan institutların, siyasətin və təcrübənin strukturunu işləyib hazırlamaqdan ötrü zəruri olan hər şey vardır.

Roulz yenidən siyasətdə ən mühüm anlayış və təzahür olan "ədaləti" diqqət mərkəzinə çəkdi. O, "ədalət" anlayışına həm də qeyri-adi geniş məna vermişdir. Fəlsəfənin vəzifələri (necə ki, Roulz onları dərk edirdi), onun həmkarlarının müəyyənləşdirdikləri vəzifələrdən tam fərqləndiyinə görə, alim siyasi fəlsəfəni əvvəllər sıx bağlı olduğu məntiqdən, ritorikadan, ontologiyadan və Qərb sivilizasiyası tarixindən ayırdı və iqtisadiyyat, psixologiya, siyasi institutların öyrənilməsi, sosial siyasət kimi elm sahələri ilə birləşdirdi.

Əgər Roulz sosial siyasət tərəfdarlarının maddi sərvətlərin bölünməsi zamanı cəmiyyətin daha kasıb təbəqələrinin tələbatlarının nəzərə alınmasına yönəldilmiş nöqteyi-nəzərlərini fəlsəfi əsaslandırırdısa, R.Nozik "Anarxiya, hegemonluq və utopiya" (1974) adlı əsərində belə yanaşmaya əks gedənlərin mövqelərini müdafiə edirdi[1]. O, belə şablon ədalət prinsiplərini bəyənmirdi. Onun fikrincə, həmin prinsiplərin ifadə etdikləri bölüşdürmə sxemi universal nümunələr qismində yalnız konkret hallar üçün yararlı ola bilər. Buna alternativ olaraq, o, bölgünü qanuni əsaslarla həyata keçirməyə imkan verən, adekvat prosedurların hazırlanmasını şərtləndirən qeyri-şablon prinsiplərlə aparmağı təklif edirdi. R.Nozikin nəzəriyyəsinə görə, yalnız qanuni yolla əldə edilmiş maddi sərvətlərin qeyri-zorakı paylanmasına əsaslanan bölgü sxemi ədalətli ola bilər.

[1] Nozick R. Anarchy, state and utopia. N-Y. Basic Books, 1974.

R.Nozikin nəzəriyyəsi paylaşdırma sahəsində azadlığın prioritetini tərənnüm edir. Roulzun nəzəriyyəsi isə "azadlığa canatma" ilə "bərabərliyi" uzlaşdırır.

Növbəti onillik boyu əksər məqalələrdə və elmi işlər toplusunda ədalətli paylaşdırmanın eqalitar modellərinin "azadlıq" haqqında təsəvvürlərlə uzlaşması məsələsi fəal müzakirə edilmişdir. XX əsrin 70-ci illərində və daha sonrakı dövrlərdə siyasi fəlsəfədə mühüm dəyişikliklər baş vermişdir. Siyasi fəlsəfənin mahiyyəti və problematikası nəticədə dörd mövqenin yaranmasını şərtləndirən çoxsaylı müzakirələrin predmetinə çevrilmişdir. Birincisi, bəzi müəlliflər Roulzla həmrəylik nümayiş etdirərək, hesab edirdilər ki, siyasi fəlsəfə mənəvi fəlsəfənin bir istiqamətidir, mənəvi fəlsəfə isə normativ xarakter daşıyır. Siyasi fəlsəfənin vəzifələri yalnız sosial strukturların qiymətləndirilməsinin ümumi prinsiplərinin inkişaf etdirilməsindən deyil, həmçinin uyğun institutların, prosedurların və praktik siyasi proqramların formalaşdırılmasından ibarətdir. Belə müəlliflərdən B.Akkerman və B.Berrini göstərmək olar. İkincisi, Oukşot, Arendt, Berlin, Vöqlin və başqaları tərəfindən dəstəklənən yanaşma siyasi fikrin Qərb ənənələrinə istinad edirdi. Bu ənənələr Ç.Teylor, E.Makintayr, U.Konnolli kimi müəlliflərin əsərlərində də əsas yer tutur. Onlara görə, siyasi fəlsəfə ümumilikdə insan varlığının və qismən müasir dünyanın mahiyyətinin dərk edilməsinə istiqamətlənmiş axtarışları əks etdirir. Siyasi fəlsəfənin məqsədi insan təbiətini və tarixi inkişafın gedişində onun transformasiyasını tədqiq etməkdən, tarixi inkişafın məğzini nəzərdən keçirməkdən, həmçinin müasir siyasi həyatın spesifik xüsusiyyətlərinin izahı üçün bu tədqiqatların nəticələrindən istifadə etməkdən ibarətdir. Üçüncüsü, bir sıra siyasi filosoflar, xüsusilə də M.Uolzer hesab edirdi ki, siyasi fəlsəfənin köklərini konkret qrupların həyat tərzində axtarmaq lazımdır. Məhz bu səbəbdən siyasi fəlsəfə onların özünüifadəsinə istiqamətlənmişdir. Bu, ona məhdudmiqyaslı

təsviri fənn xarakteri verir. Dördüncü mövqedən çıxış edən mütəxəssislər strukturalist və postmodernist konsepsiyalara istinad edirdilər. Məsələn, bu konsepsiyaların müəlliflərindən R. Rortini göstərmək olar. Onlar, yalnız nəzəri idrakın üstünlüyünə qarşı deyil, ümumilikdə nəzəri və digər idrak formalarının ənənəvi fərqləndirilməsinə qarşı çıxırdılar. Onların fikrincə, siyasi fəlsəfəyə daha çox eksperiment aparmaq və tədqiq etmək lazımdır. Bu fənnin nəzəri mühakimələrə deyil, dialoqa, istehzaya, açıqlığa, həyatın rəngarəngliliyinin dərk edilməsinə və intuitiv təfəkkürlə əlaqəyə ehtiyacı vardır.

Son otuz-qırx ildə, ənənəvi siyasi fəlsəfənin yenidən nəzərdən keçirilməsinin irqçi, statistik, elitarist, millətçilik, feminist və s. cəhdlərinə aid çoxsaylı əsərlər nəşr edilmişdir.

1982-ci ildə M.Sandelin “Liberalizm və ədalətin həddi”[1] əsərinin nəşri kommunitarizm adı ilə tanınan yeni siyasi nəzəriyyənin əsasını qoymuşdur. Bu nəzəriyyəni, həmçinin sosial başlanğıcın siyasiləşməsi nöqteyi-nəzərindən də təhlil etmək olar. Kommunitarizmin tərəfdarları, ədalət, hüquq və azadlıq kimi siyasi dəyərləri sosial-mədəni kontekstdə nəzərdən keçirdiklərini bəyan edirdilər. Onlar xüsusilə hesab edirdilər ki, siyasi başlanğıcı sosial başlanğıc şərtləndirir və müəyyən edir.

Sandel sübuta yetirir ki, Roulzun “Ədalət nəzəriyyəsi”, mənəvi “mən”in ədalət prinsiplərinə əsaslanan sosial münasibətlərdən əvvəl gəlməsi, şəxsiyyətin konkret mədəni dəyərlərə və məskunlaşdığı mühitə münasibətdə öhdəliklərə malik olmaması kimi yanlış təsəvvürlərdən qidalanmışdır. Şəxsiyyətə belə mücərrəd yanaşma əsasında müəyyənləşdirilmiş ədalət prinsipləri yalnız bir-biriləri ilə əlaqəsi olmayan insanların ictimai münasibətlərinin tənzimlənməsinə xidmət edə bilər. Bu da ancaq ən formal şəkildə mümkündür. İnandırıcı siyasi nəzəriyyə üçün ədalət konsepsiyası,

---

[1] Sandel M. J. Liberalizm and the limits of justice. Cambridge: Cambridge University Press, 1982.

ümumilikdə şəxsiyyəti təşkil edən xüsusi ictimai əlaqələrin və öhdəliklərin etiraf edilməsi ilə tamamlanmalıdır.

XX əsrin 80-ci illərində kommunitaristlərlə liberallar arasında müxtəlif problemlərə dair debatlar ABŞ-da xüsusilə qızğın aparılırdı. Müzakirələr zamanı şəxsiyyətin təbiəti, şəxsiyyətlə cəmiyyət arasında qarşılıqlı münasibətlər, cəmiyyət və dövlət, siyasət və mədəniyyət və s. ilə bağlı məsələlər qaldırılırdı. Bundan başqa, şəxsi və kollektiv özünəxaslığın qarşılıqlı münasibəti, "layiqli həyat" anlayışının mahiyyəti, siyasi fəlsəfənin rolu, mənəviyyatın mahiyyəti və əsasları kimi məsələlər də müzakirə obyekti idilər. Kommunitaristlər diqqətlərini cəmiyyətlərin ontoloji, qnoseoloji və mənəvi mənalarında və siyasi birliklərin mövcudluğunun zəruri əsasları olan mənəvi prinsiplərin vacibliyində cəmləyirdilər. Liberallar isə öz növbəsində şəxsi muxtariyyət və seçim problemləri ilə bağlı məsələləri müzakirə edirdilər. Debatlar siyasi nəzəriyyəyə aid jurnal və kitab səhifələrində aparılırdı. Lakin bu mübahisələr həddən artıq abstrakt xarakter daşıyırdı. Kommunitarist ideyaları tərəfdarlarının əsas məqsədi, insan həyatının səciyyəvi sosial şəraitində mənəvi və siyasi normaların müəyyənləşdirilməsi olsa da, onlar çox nadir hallarda hansısa konkret icmalardakı vəziyyəti müzakirə edirdilər.

Kommunitaristlərlə liberallar arasındakı mübahisələr elə bir cəhəti göstərir ki, müasir liberal siyasi nəzəriyyədə insanların sosial-qrup mənsubiyyətləri və öhdəlikləri nəzərə alınmır, vətəndaşlar isə ancaq ayrı-ayrı atomlara bənzər və şəxsi mənfəətlərini güdən fərdlər kimi qəbul edilirlər. Bununla əlaqədar olaraq liberalizm tərəfdarlarının öz nəzəriyyələrini mövcud qruplararası sosial və mədəni fərqlərin tədqiqiylə zənginləşdirməli olub-olmamaları haqqında məsələ qalxmışdır. Bunun hansı yolla ediləcəyi də bir problem kimi meydana çıxmışdır. Gərgin mübahisələrdə U.Kimlikanın "Liberalizm,

icma və mədəniyyət" əsəri dönüş nöqtəsi rolunu oynadı[1]. Bu diskussiyalarda iştirak edən əksər müəlliflərdən fərqli olaraq Kimlika cəmiyyət və mədəniyyət haqqında abstrakt mülahizələrlə çıxış etmir, liberal dövlət şəraitində, Kanadanın yerli əhalisində formalaşmış konkret mədəni və siyasi vəziyyəti nəzərdən keçirirdi. Müasir siyasi liberalizmin dəyərlərini rəhbər tutaraq Kimlika sübut edirdi ki, bu dəyərlər yalnız müəyyən qrupların mədəni muxtariyyəti ilə uzlaşmaqla kifayətlənmir, həm də əvvəllər repressiyalara məruz qalan və hər hansı bir təhlükə qarşısında olan mədəni azlıqlara xüsusi hüquqların verilməsini tələb edir.

Müasir ədəbiyyatda liberalizm və kommunitarizm mövqelərinin yaxınlaşdırılması istqiqamətində 80-ci illərdəkindən fərqli cəhdlər mövcuddur. Əksər hallarda liberalizm, mənəviyyat problemlərinə bitərəf münasibət əks etdirən və başqalarına mane olmadığı halda, insanın istənilən həyat tərzinin legitimliyini qəbul edən ictimai fikir istiqaməti kimi qiymətləndirilir. Digər tərəfdən kommunitarizm, xüsusi ilə də Makintayrın yanaşmasında ("Xeyirxahlıqdan sonra" əsərində), insan fəaliyyətinin məqsədini "xeyir", ona çatmağın yollarını isə "xeyrixahlıq" kimi tərənnüm edir. Kommunitarizm, bu mənada relyativizmi qəbul etdiyinə görə liberalizmi mənəvi mövqedən tənqid edir. Bəzi müəlliflər insan ləyaqətinə və fəaliyyətinə biganə olan liberalizmin, ictimai fikrin bir istiqaməti kimi qiymətləndirilməsinin əleyhinə çıxış edirlər. Onların fikrincə, liberalizmə immanent olaraq müəyyən mədəni dəyərlər, normativist məqsədlər və insanın layiqli davranışı haqqında təsəvvürlər xasdır[2].

---

[1] Kymlicka W. Liberalism, community and culture. Oxford. Clarendon Press, 1989.

[2] Bax. Macedo S. Liberal virtues. Cambridge(Mass), Harvard University Press, 1990.

C.Roulzun "Siyasi liberalizm" (1993) əsərində, liberallarla kommunitaristlərin diskussiyaları gedişində, sosial şərtlər daxilində cəmiyyətdə çoxsaylı və müxtəlif mədəniyyətlərin inkişafı ilə bağlı meydana çıxan sualların cavablandırılmasına cəhd edilmişdir. C.Roulzun fikirləri Kimlikanın fikirləri ilə toqquşur. O, hesab edir ki, azad cəmiyyətdə müxtəlif mədəniyyətlərin yanaşı mövcud olması, yalnız onların sərhədlərinin, konstitusiyalı tənzimləmə yolu ilə və bütün cəmiyyətdə qüvvəyə malik olan hüquqi normalar vasitəsilə dəqiq müəyyən edildiyi halda mümkündür. "Siyasi liberalizm" özündə sosial konsepsiyanın bəzi qalıqlarını əks etdirir. Burada, əvvəlkilərdən əhəmiyyətli dərəcədə fərqlənən fəlsəfi prinsiplər əsas kimi götürülmüşdür.

Siyasi fəlsəfənin hazırkı vəziyyətindən danışarkən, qeyd etmək lazımdır ki, müasir qlobal dünyada siyasətin, siyasi dəyərlərin və ənənələrin interpretasiyası və elmi tədqiqinin postklassik metodu olan **siyasi germenevtika,** habelə dövrümüzün qeyri-xətt və stoxastik keyfiyyətlərə malik siyasi proseslərinin özünütəşkili sahəsində formalaşan **sinergetika** iki yeni paradiqmaya çevrilərək olduqca böyük əhəmiyyət kəsb edir və bu əhəmiyyət get-gedə daha da artır. Son iki onillikdə informasiya cəmiyyətində hakimiyyətin spesifik xüsusiyyətləri və resursları, siyasi inkişafın yeni reallıqlarının konseptual məsələləri, bu cəmiyyətin siyasi və iqtisadi insanı arasında baş verən münaqişələr, siyasi zaman və siyasi məkan fəlsəfəsi kimi dəyərləndirilən xronosiyasət və geosiyasətin virtual ölçüsü, həmçinin XXI əsrdə siyasət dünyasının ən mühüm postklassik problemləri siyasi fəlsəfənin tədqiqat sahəsini bir qədər də genişləndirmişdir.

# III BÖLMƏ

## ANALİTİK SİYASİ NƏZƏRİYYƏ

Mütəxəssislərin fikrincə, "nəzəriyyə" sözü ilk dəfə qədim yunan fəlsəfəsinə orfiklər tərəfindən daxil edilərək, "ehtiraslı və təvəccöhlü (xeyirxah) seyr" mənasını daşıyıb. Antik dövrdə bu anlayış düşünmə vəziyyətində hər hansı bir şeyi anlamaq üçün nəyinsə üzərində cəmlənmiş xəyali baxış kimi başa düşülürdü. Zaman, vaxt keçdikcə həmin anlayış yeni mənalarla zənginləşir. Müasir dövrdə "nəzəriyyə" sözün geniş mənasında bu, yaxud digər hadisə və prosesləri şərh və izah etməkdən ibarət olan təsəvvürlər, ideya, və baxışlar kompleksi kimi dərk edilir. Dar mənada isə bu anlayış təbiət və cəmiyyət gerçəkliyinin müəyyən sahələri haqqında az-çox təsəvvür yaratmağa yönələn elmi biliyin daha da inkişaf etmiş formasını nəzərdə tutur. Buradan da aydın olur ki, nəzəriyyə, ayrı-ayrı komponentləri bir-birindən məntiqi asılılıqda olan, anlayışlar, təkliflər və müddəaların müəyyən cəmindən törəyən bütöv bilik sistemidir.

T.Parsons hesab edirdi ki, nəzəriyyələr empirik reallıqları tədqiq etmək üçün istifadə edilən analitik konstruksiyalardır. O, üç əsas funksiyanı yerinə yetirəcək "sosial elmlərin ümumi nəzəriyyəsi"ni formalaşdırmağı qarşısına məqsəd qoymuşdu. Bu funksiyalar aşağıdakilardır:

- mövcüd olan konkret biliklərin kodifikasiyası;
- tədqiqatların aparılması;
- tədqiq olunan reallıqların interpretasiya çərçivəsinin təmin olunması.[1]

[1] Parsons T. The Strukture of Social Action. Glencoe, 1949. P. 730, 749.

Buradan struktur-funksional təhlil nəzəriyyəsi, siyasi və partiya sistemlərinin tipologiyası, demokratiya, totalitarizm, avtoritarizm nəzəriyyələri və s. meydana gəlir.

Siyasi nəzəriyyələr, siyasət haqqında zamanın sınağından çıxa bilmiş "böyük ideyalar" kimi müəyyənləşdirilə bilər. Başqa sözlə, bunlar siyasi problemlərə toxunan və uzunmüddətli məna kəsb edən ideyalar sistemidir.

Qeyd edək ki, analitik siyasi nəzəriyyə siyasi fəlsəfə və empirik siyasi nəzəriyyə arasında yerləşir və siyasi elmin ümumi problemlərini həll edir.

Müasir siyasi elmdə çoxsaylı analitik nəzəriyyələr işlənib-hazırlandığına görə, biz onlardan **hakimiyyət, demokratiya, rasional seçim, elitalar, liderlik** və **postmodernizm nəzəriyyələri** daxil olmaqla, daha çox əhəmiyyət kəsb edənləri gözdən keçirək.

## §1. Hakimiyyət nəzəriyyəsi

"Hakimiyyət" anlayışı siyasi elmin əsas kateqoriyalarından biridir. Bu anlayış vasitəsi ilə bir çox siyasi proseslər və hadisələr öyrənilir və təsvir edilir. Məsələn, elitaların fəaliyyəti, idarəetmə sisteminin təşkili, qərarların qəbulu və s. Müasir elmi ədəbiyyatda hakimiyyətin 300-dən artıq tərifi mövcuddur. Həmin təriflərin əksəriyyəti hakimiyyəti sosial hadisə kimi izah etməklə yanaşı, onun təbiətini də açır. Hakimiyyət haqqında çoxsaylı nəzəri təsəvvürlər onu davranışın xüsusi tipi və ya məqsədyönlü fəaliyyətin təşkili metodu kimi təqdim etməklə, onun daşıyıcılarının psixoloji xüsusiyyətlərini açıb göstərməklə, bu fenomenin obyektə zorakı təsir gücünü, resurslara nəzarət imkanlarını və s. vurğulamaqla hakimiyyətin müxtəlif tərəf və aspektlərindən xəbər verirlər.

Müasir ədəbiyyatda hakimiyyət, əksər hallarda insanlar arasında mövcud olan və iradəyə söykənən münasibət kimi izah

edilir. O, bütün cəmiyyətlərə xasdır və hər bir cəmiyyətin bütövlüyü və birliyinin saxlanılması üçün vacibdir.

Hakimiyyət müxtəlif, o cümlədən iradə, nüfuz, hüquq, zorakılıq və s. kimi vasitələrin köməyi ilə insanların fəaliyyətinə, davranışına müəyyən təsiretmə bacarığı və imkanıdır.

Hakimiyyətin səciyyəvi əlaməti amiranə iradənin üstünlük təşkil etməsidir. Hakimiyyət təsbit edilmiş qayda-qanun və təşkilati fəaliyyətə əsaslanaraq, onlarda əks etdirilir. Bu qayda və təşkilatlanmadan istifadə etməklə fəaliyyət göstərmək hüququ isə hakimiyyətə sahib olmaq deməkdir.

Müasir siyasi elmdə hakimiyyətin, aşağıdakılar da daxil olmaqla, müxtəlif izahlarını qeyd etmək olar:

**1. Teleoloji yanaşma,** hakimiyyəti qarşıya qoyulmuş məqsədə çatmaq və arzuolunan nəticələrə nail olmaq bacarığı kimi izah edir. Məsələyə dair XX əsrin görkəmli siyasi filosofu Bertran Rassel yazır: "Hakimiyyət nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi kimi müəyyənləşdirilə bilər";

**2. Biheviorist yanaşma,** hakimiyyəti bir qrup insanın əmr verdiyi, digər qrupun isə tabe olduğu xüsusi davranış forması kimi şərh edir. **Biheviorist yanaşma** hakimiyyət anlayışını fərdiləşdirir. Hakimiyyətin subyektiv dəlillərinə xüsusi diqqət yetirərək, onu real şəxsiyyətlərin qarşılıqlı əlaqələrinə müncər edir. Hakimiyyətin tipik biheviorist şərhlərindən birini Q. Lassvel təklif edir. Onun fikrincə, hakimiyyətin meydana gəlməsi üçün ilkin impulsları fərdlərə xas olan hakimiyyətə canatma və siyasi enerjiyə yiyələnmə verir. İnsan hakimiyyətə həyatını yaxşılaşdırmaq, yəni var-dövlət, yüksək status, azadlıq, təhlükəsizlik və s. əldə etmək vasitəsi kimi baxır. Bununla yanaşı, hakimiyyətə malik olmağın özü cəlbedicidir, çünki hakimiyyət öz-özlüyündə elə bir məqsəddir ki, ona sahib olmaqdan insan zövq alır.

**3. Psixoloji yanaşma,** hakimiyyətin real fərdlərin davranışı kimi biheviorist şərhindən çıxış edərək, bu davranışın

insanların şüuru və altsüurunda kök salan sübyektiv motivasiyasını açmağa çalışır. Hakimiyyətə canatma və xüsusilə ona malik olma fiziki və mənəvi çatışmazlıqların subyektiv kompensasiyası funksiyasını yerinə yetirir. Hakimiyyət bəzilərinin ona dair iradəsinin və digərlərinin tabeçiliyə hazırlığının qarşılıqlı təsiri nəticəsində yaranır. Məsələn, bu növ istiqamətin bir qolu qismində çıxış edən psixoanaliz hakimiyyətə canatmanı əsasən seksual xarakter daşıyan və transformasiyaya meyilli olan "libidonun" sublimasiyası, yəni başqa formada özünü göstərməsi kimi (Ziqmund Freyd), yaxud ümumiyyətlə, əzəmətli ruhi enerji kimi (Karl Qustav Yunq) izah edir. Ümumiyyətlə, psixoloji yanaşma hakimiyyətin "əmr etmə-tabe olma" münasibətlərinin əsaslandırılması mexanizmlərini aşkar etməyə imkan verir.

**4. Sistemli yanaşma,** hakimiyyətin törəməsini fərdi münasibətlərlə deyil, sosial sistemlə əlaqələndirir, bu fenomeni "sistemin, onun elementləri tərəfindən konkret məqsədlərin həyata keçirilməsinə istiqamətlənmiş öhdəliklərin yerinə yetirilməsini təmin etmək bacarığı kimi" qiymətləndirir (T.Parsons). Hakimiyyətin sistemli dərki çoxsaylı nəzəri konstruksiyalarda əks olunmuşdur. Sistemli yanaşmanın bəzi nümayəndələri (K.Doyç, N.Luman) hakimiyyəti qrup ünsiyyətinin (kommunikasiyasının) vasitəsi kimi izah edirlər. Bu vasitə qrup münaqişələrini tənzimləməyə və cəmiyyətin inteqrasiyasını təmin etməyə imkan verir. Sistemli yanaşmanın mahiyyəti daha aydın şəkildə poststrukturalist nəzəriyyələrdə ifadə olunmuşdur (M.Fuko, P.Burdye). İfrat variantlarda poststrukturalistlər hakimiyyəti ünsiyyətin nə isə bir modallığı, əzəldən bütün sosial aləmə xas olan məkanda məhdudlaşdırılmayan və ictimai subyektlərdən konkret birinə mənsub ola bilməyən "münasibətlər münasibəti" kimi təqdim edirdilər. Məsələn, M.Fukonun fikrincə, "hakimiyyət hər şeyi əhatə etdiyinə görə deyil, hər yandan meydana gəldiyinə görə hər yerdədir". Bu cür yanaşmaya əsasən, siyasi hakimiyyət

mahiyyət etibarilə yalnız siyasi münasibətlə deyil, ümumilikdə, bütün sosial münasibətlərlə də eyniləşdirilir. Nə cəmiyyətdə, nə də siyasətdə hakimiyyət çərçivəsindən kənara çıxa biləcək heç bir şey qəbul edilmir. Buradan həm də belə qənaətə gəlmək olar ki, insanlar hakimiyyəti deyil, hakimiyyət müvəqqəti bu və ya digər subyektləri (prezidenti, hakimi, polisi) məcburetməni həyata keçirmək üçün mənimsəyir.

**5. Struktur-funksional yanaşma,** hakimiyyəti, sosial orqanizmin xüsusiyyəti, məqsədyönlü şəkildə idarəetmə və icra funksiyalarının bölgüsünə əsaslanan insan cəmiyyətinin özünütəşkili üsulu kimi izah edir. Cəmiyyət iyerarxik qurulmuşdur, o, sosial idarəetmə və icra rollarını ayırır. Hakimiyyət-resurslara və təsir vasitələrinə nəzarət etməyə imkan verən sosial statusların, rolların xüsusiyyətidir. Başqa sözlə, hakimiyyət insanlara müsbət və mənfi sanksiyaların – həvəsləndirmə və cəzalandırmanın köməyi ilə təsiretmə imkanları verən rəhbər vəzifələrin tutulmasıyla əlaqəlidir.

**6. Relyasionist** (ingiliscə "relation" – münasibət) **yanaşmalar,** hakimiyyəti iki şərik, yaxud agent arasındakı münasibət kimi izah edir. Bu zaman onlardan biri müəyyənedici təsir imkanına malik olur. Belə olan halda hakimiyyət onun subyekti ilə obyekti arasında qarşılıqlı fəaliyyət kimi nəzərdən keçirilir. Subyekt obyektə müəyyən vasitələrin köməyi ilə nəzarət edir.

Hakimiyyət fenomenini təhlil edərkən bəzi alimlər diqqətlərini onun dəyər, mənəvi, ya sosial əsaslarına yönəltdiyi halda, digərləri, əksinə həmişə bunları inkar etmişlər. Belə ki, normativizmin nümayəndəsi T.Kelzen dəyərləri və emosiyaları xaric edən orijinal pozitivizmi yenidən siyasətdə canlandırdı. Hələ keçən əsrin 20-ci illərindən başlayaraq Qərbi Avropa ilə Amerika siyasi elm məktəbləri arasında uçurumun dərinləşməsi müşahidə olunurdu. Bu məktəblər hakimiyyət problemini tədqiq edərkən fərqli metodoloji prinsiplərə söykənirdilər. Amerikada əsas kimi qəbul edilən neopozitivist, postpozitivist

və biheviorist metodologiyalar siyasilik dünyasından dəyərləri və ideoloji aspektləri çıxarır, sanki hakimiyyəti "təmiz laborator halda" təqdim etməyə çalışırdılar. Tamamilə başqa siyasi reallıqlarla üzləşən Qərbi Avropa elmi-siyasi fikri, Birinci, sonra isə İkinci Dünya Müharibələri zamanı müvəqqəti Şimali Amerika metodoloji əsaslarının təsiri altına düşəndə belə, siyasi hakimiyyətin mənəvi-dəyər aspektlərindən imtina etməmişdir. Xüsusilə XX əsrin 70-ci illərində liberalizmlə konservatizm arasındakı konsensus pozulduğu bir vaxtda ABŞ və Kanadada bu problemin tədqiqi istiqamətində əsl canlanma müşahidə edildi.

Postbihevioristlər öz sələflərindən fərqli olaraq, yenidən siyasi hakimiyyəti dəyərlər mövqeyindən nəzərdən keçirməyə başladılar. İnkişaf edən elmi-texniki və informasiya inqilabları şəraitində müxtəlif politoloq və futuroloqlar tez-tez texnokratiya (T.Veblen, T.Saymon, D.Bell) və "informasiya" dövlətləri (A.Toffler) modellərini araşdırmağa başladılar. Tarixi inkişafla bərabər dövlət hakimiyyəti səlahiyyətlərinin azalması, dövlətin ölməsi və beləliklə də, onun hökmranlıq vəkalətinin zəifləməsi ilə bağlı mübahisələr bu gün də davam etməkdədir.[1] Dövlət hakimiyyətinin ictimai həyatın yeni-yeni sahələrini zəbt etməsini əsaslandıran konsepsiyalar liberal-demokratik nəzəriyyələr tərəfindən tənqid edilirdi. Həmin nəzəriyyələrə əsasən, dövlət hakimiyyəti inkişaf edən vətəndaş cəmiyyəti qarşısında geri çəkilir. Bu iki konsepsiyanın əksinə olaraq, inkişaf etdirilən elitar nəzəriyyələr, ümumiyyətlə hesab edir ki, hakimiyyət düzgün olaraq bir para bilikli, ziyalı insanın əlində cəmləşir. Onlar dövlətin idarə olunmasını ciddi elmi proqnozlara əsaslanan sosial mühəndislik növünə çevirirlər. Totalitar sistemdən cəmiyyət həyatının bütün sahələrini dəyişən, yeni demokratik quruluşa tranzit dövründə hakimiyyət,

---

[1] Walzer W. The way to freedom. University of Illinois Press. 1999. P. 85.

xüsusilə də siyasi hakimiyyət problemlərinə maraq əhəmiyyətli dərəcədə artmışdır.[1]

Qeyd etmək lazımdır ki, postkommunist dünyasında siyasi hakimiyyətin formalaşması problemi müasir elm üçün ən çətin məsələlərdən biridir. Bu mövzu ilə bağlı məsələlər vətən alimləri tərəfindən də tədqiq edilir. Məsələn, akademik R. Mehdiyev özünün "Azərbaycan: qloballaşmanın çağırışları"[2] adlı əsərində Azərbaycan Respublikasında siyasi hakimiyyətin yeni sisteminin formalaşmasını aydınlaşdırmış, onun tarixi, siyasi, iqtisadi əsaslarının və səciyyəvi cəhətlərinin geniş təhlilini vermişdir. Bu gün milli politoloji ədəbiyyatda ölkəmizdə siyasi hakimiyyətin təşəkkülü və inkişaf xüsusiyyətləri öz əksini tapmışdır. Əsərdə müstəqil Azərbaycanla bağlı siyasi hakimiyyətin yaranması prosesinin başlıca prinsipləri və şəraiti göstərilmiş, siyasi hakimiyyət sferasında islahatların əsas aspektləri, siyasi modernləşmənin spesifikası və xarakteri müəyyənləşdirilmiş, siyasi hakimiyyətin formalaşmasına təsir edən mühüm amillər açıqlanmışdır.[3]

## §2. Postmodernizm nəzəriyyəsi

XX əsrin son onilliklərindən başlayaraq postmodernizm siyasi fikrin yeni istiqaməti kimi sosial nəzəriyyəyə güclü təsir göstərir. Postmodernizmin özünün daxilində artıq ayrı-ayrı cərəyanları müəyyənləşdirmək olar. O, həmçinin bir neçə nəhəng sima və adlarla təmsil olunur.

---

[1] Bax: Мельников Ю. Ф. Власть в современном обществе. М. 1995; Краснов Б.И. Теория власти и властных отношений // Социально-политический журнал. 1994. №3-6.

[2] Bax: Mehdiyev R. Azərbaycan: qloballaşmanın çağırışları. Bakı, 2004.

[3] Bax: Кунина И.А. Особенности формирования политической власти в независимой Азербайджанской Республике. Автореф. дисс. канд. полит. наук. Баку, 2008.

Əksər nəzəriyyəçilər bu gün də postmodernizmi, bir növ, fantom hesab edərək, onun əhəmiyyətini itirəcəyi məqamı gözləməyə üstünlük verdiyi halda, digərləri həmin fenomenin ciddiliyini və uzunömürlülüyünü şübhə altına almırlar. Beləliklə, postmodernizmlə bağlı mübahisə zəmanəmizin əlamətinə çevrilmişdir.

Müasir postmodernist nəzəriyyəçilər arasında kəskin fərqlər olduğuna görə onların çoxunun razılaşacağı ümumiləşmə aparmaq çətindir. Buna baxmayaraq, postmodernizmin akademik Qərb sosial-siyasi elminə gətirdiyi əsas ideyaları göstərmək olar.

Həmin ideyalara uyğun olaraq:

1. Modern cəmiyyətinin postmodern cəmiyyətlə əvəzlənməsini şərtləndirən radikal çevrilişlər baş verir. (Bodriyar, Kroker).

2. Ciddi dəyişikliklərin olmasına baxmayaraq, postmodernizm başlanğıcını moderndən götürür və onun davamıdır (Cemeson, Laklau, Muffe daxil olmaqla neomarksistlər, həmçinin Frezer, Nikolson və digər modernist feministlər).

3. Modernlə postmoderni başqa-başqa dövrlər kimi deyil, uzunmüddətli qarşılıqlı münasibətlər kimi nəzərdən keçirmək lazımdır, həm də postmodernizm modernizmə tənqidi mövqedən yanaşır (Smart).

Postmodernizmdə işlədilən əsas anlayışlar aşağıdakılardır: **postmodern, postmodernizm və postmodernist sosial-siyasi nəzəriyyə**. Postmodern (postmüasirlik) moderndən (müasirlikdən) sonra gələn bütün tarixi dövrə aiddir. Postmodernizm, modern dövrünün mədəniyyətindən əhəmiyyətli dərəcədə fərqlənən bir mədəniyyətin (təsviri incəsənətin, kinonun, memarlığın və s.) məhsullarıyla bağlıdır. Postmodernist sosial-

siyasi nəzəriyyə müasir sosial-siyasi nəzəriyyədən fərqli düşüncə tərzidir.[1]

Postmodern anlayışından başlayaq. Həqiqətən də, modern dövrünün sona çatması haqqında ideyalar bu gün geniş yayılmışdır. Bir sıra müəlliflər, məsələn, Lemer, hətta moderndən postmodernə keçidin konkret tarixini də göstərirlər: bu Sent Luisdə modern memarlıq abidəsi olan məşhur "Pritt-Ayqo" evinin dağıldığı 15 iyul 1972-ci il, saat 15:30-dur . Həmin nəhəng ev modernistlərin inanclarının simvolu idi. Yəni, onlar inanırdılar ki, ictimai binalar nə qədər möhtəşəm və irihəcmlidirsə, ətrafda bir o qədər bədbəxtlik və yoxsulluq azdır. Beləliklə, evin dağıdılması, cəmiyyət problemlərinin prinsip etibarilə rasional həllinin mümkünlüyü ilə bağlı modernistlərlə postmodernistlər arasında fərqi əks etdirdi.

İkinci anlayış – postmodernizm mədəniyyət sahəsinə aiddir. Tərəfdarlarının israrına görə, burada modern məhsullarının postmodern məhsulları ilə əvəzlənməsi baş verir.

Nəhayət, "postmodernist sosial-siyasi nəzəriyyə" anlayışına nəzər salaq. Məlum olduğu kimi, modernist sosial nəzəriyyə cəmiyyətin təhlili və tənqidi üçün universal, tarixdən asılı olmayan rasional əsas tapmağa çalışır. Marksa görə, belə əsas rolunda varlıq, Habermasa görə, kommunikativ idrak çıxış edirdi. Postmodernist təfəkkür belə əsasları inkar etdikdən sonra relyativist, irrasional və nihilist mənalarda səciyyələndirilə bilər. Nitsşenin və Fukonun ardınca postmodernistlər əsasların mümkünlüyünün özünü belə şübhə altına qoyaraq, hesab edirlər ki, bunlar hakimiyyəti bəzilərinə verməklə və digərilərində onu məhdudlaşdırmaqla bir qrupun imtiyazlarını şərtləndirir. Bu cür yanaşma məşhur postmodernist Jan-Fransua Liotap tərəfindən əsaslandırılır.

[1] Qeyd olunan fərqlərə baxmayaraq, elmi ədəbiyyatda postmodernizm, sözün geniş mənasında, postmodernist sosial-siyasi nəzəriyyə mənasında da işlənilir.

Beləliklə, postmodernism, ümumilikdə, yeni tarixi dövrü, yeni mədəni dəyərləri, sosial və siyasi dünya haqqında nəzəri mühakimə yürütməyin yeni tipini ehtiva edir. Başqa sözlə, dünyada modern dövrünün prinsipləri, ənənələri və terminlərinin köməyi ilə təsviri mümkün olmayan hansısa yeniliklər baş vermişdir.

Radikal postmodernizm və neomarksist postmodernizm daxil olmaqla postmodernizm müxtəlif cərəyanlara malikdir.

Radikal postmodernizmin görkəmli nümayəndələrindən biri Jan Bodriyardır. Onun "İstehsalın güzgüsü" (1973), "Simvolik mübadilə və ölüm" (1976), "Simulyasiyalar" (1983) və "Amerika" (1986) kimi əsərlərində XX əsrin üçüncü rübündə Qərb cəmiyyətinin səciyyəvi xüsusiyyətləri açıqlanır. Onun baxışlarına görə, bu Marks tərəfindən təhlil edilmiş iqtisadi mübadiləni əvəz edən simvolik mübadilədir və mövcudluğu bizim dünyamızı hiperreallığa çevirən simulyasiyadır (latınca mənası "riyakarlıq etmək" deməkdir). O yazır ki, simulyasiya prosesi simulyakranın (saxta, uydurma) meydana gəlməsinə səbəb olur. Nəticədə, həqiqi reallığı onu simulyasiya edənlərdən ayırmaq çətinləşir. Nəhayət, reallığın simulyasiyası üstünlük təşkil etməyə başlayır. Biz hər tərəfdən qapalı çevrə, dairəvi sistem yaradan, başlanğıca və sona malik olmayan bu simulyasiyalarla əhatə olunuruq.

Postmodernizmə neomarksist yanaşma Frederik Cemesonun "Postmodernizm və ya sonrakı kapitalizmin mədəni məntiqi" (1991) kitabında daha aydın ifadə olunmuşdur. Bu kitabda o, marksist siyasi nəzəriyyə ilə postmodernizmin sintezini yaratmağa çalışır. Cemeson hesab edir ki, kapitalizm özünün sonrakı multimilli mərhələsini yaşayır. Həmin mərhələ Qərb ənənələri hüdudlarından kənaraçıxma, məhsulların kəmiyyəti və keyfiyyətinin nəhəng genişlənməsi ilə əlaqədardır (istehlak cəmiyyəti).

Bununla yanaşı, kapitalizm, müasir dünyanın üstünlük təşkil edən əlaməti qismində qalmasına baxmayaraq, yeni

mədəni məntiqi – postmodernizmi qəbul edir. Başqa sözlə, əgər bu gün mədəni məntiq dəyişmişsə belə, onun əsasında dayanan iqtisadi struktur varisliyini saxlamaqda davam edir. Kapitalizmin son mərhələsində mədəniyyətin – iqtisadi dəyərlər və dövlət hakimiyyətindən tutmuş "mədəni" xarakter alan insan psixikasının strukturuna qədər – sosial həyatın bütün sahələrinə yayılan ekspansiyası baş vermişdir. Cemeson bunu mədəniyyətin hökmranlığı kimi qiymətləndirir. O, Los-Ancelesdəki "Bonaventura" hotelinin nümunəsində bizim, son kapitalizmə xas olan multimədəni kapitalizm və mədəni partlayış mühitində düzgün istiqamət götürə bilməməyimizi göstərir. Bu hotel postmodernist memar Con Portmen tərəfindən tikilmişdir. Sakinlər hotelin hollunda onlara lazım olan istiqaməti müəyyənləşdirə bilmirlər. Məsələ burasındadır ki, həmin holl, otaqlar yerləşən dörd eyni qüllə ilə əhatə olunmuşdur. Hollun bütün dörd tərəfi tam oxşar olduğuna görə sakinlər qüllələri qarışdırırlar. Cemeson buranı, məkan haqqında modern üçün səciyyəvi təsəvvürlərin əhəmiyyətsiz olduğu "hiperməkan" bir yer adlandırır. Memarlıq layihəsinə uyğun olaraq, hotel elə tikilmişdir ki, insan orada istiqaməti müəyyən etmək iqtidarında olmasın (sonralar hotelin rəhbərliyi rəng kodlarını və istiqaməti göstərən işarələri tətbiq etmək məcburiyyətində qalmışdır).

Alimin fikrincə, postmodernist cəmiyyətin probleminin həlli qismən mümkündür. Bunun üçün, elə yeni dərketmə xəritələrinin olması vacibdir ki, onların köməyi ilə istiqaməti müyyənləşdirmək mümkün olsun. Postmodernizm siyasi düşüncəsinin əsas vəzifəsi yeni qlobal dərketmə xəritələrinin kəşfindən və layihələndirilməsindən ibarət olacaq. Dərketmə xəritələri dedikdə, Cemeson sinfi şüuru başa düşür. Lakin söhbət yeni sinfi şüurdan gedir. Həmin xəritələr müxtəlif mənbələr, məsələn, siyasi və sosial nəzəriyyəçilərin, yazıçıların, hətta özlərinin xüsusi yollarını müəyyən etməyi, qısaca və dürust şəkildə çatdırmağı bacaran adi insanların əsərləri

əsasında formalaşa bilər. Xəritələr postmodernist cəmiyyətində radikal siyasi fəaliyyət üçün əsas kimi nəzərdə tutulur.

Deyilənləri ümumiləşdirərək, belə nəticəyə gəlirik ki, postmodernizm incəsənətə, memarlığa, fəlsəfəyə, sosiologiyaya və nəhayət, siyasi nəzəriyyəyə güclü təsir göstərir.[1] Postmodernizm, ən azı, ənənəvi siyasi nəzəriyyəni sıxışdırır. Ən çoxu isə, o, bir neçə yüz il ərzində siyasi nəzəriyyədə formalaşmış nəinki əksər müddəalardan, hətta hər şeydən belə imtina etməyi təklif edir.

## §3. Demokratiya nəzəryyəsi

Son yarıməsr ərzində demokratiyanın müxtəlif konsepsiyaları irəli sürülmüş və əsaslandırılmışdır. Onların arasında daha çox müzakirə edilənləri **konstitusional** (retrospektiv, nümayəndəli) və **iştirak** (kütləvi, birbaşa, partisipator) konsepsiyalardır. Demokratiyanın **konstitusional** şərhini daha dəqiq Y.Şumpeter verib.[2] Şumpeterin tərifinə görə, demokratiya müxtəlif siyasi liderlər və ya sahibkarlar arasında arasıkəsilməz rəqabət kimi xarakterizə olunur və hakimiyyətin müntəzəm olaraq dəyişməsini tələb edir, həmçinin "pis" liderlərin kənarlaşdırılması imkanını nəzərdə tutur. Y.Plamenatsın fikrincə, demokratiya şəraitində hakimiyyət uğrunda mübarizədə "azad rəqabət" situasiyası mümkündür, həm də bu cür rəqabət imkanı konstitusiyanın müddəaları və qaydalarına ciddi əməl etməkdən asılıdır.

Demokratiyanın konstitusional şərhi ona əsaslanır ki, konstitusiyanın müddəa və qaydaları demokratik rejimlərin mərkəzi elementlərindən birini, bəlkə, elə özəyini təşkil edir və onların fəaliyyətinin və fasiləsiz mövcudluğunun başlıca şərtidir,

---

[1] Postmodern və postmodernizm haqqında ətraflı bax: Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. B. 2005, s. 110-120, 183.

[2] Schumpeter İ. A. Capitalism. sosializm and democracy L, 1974.

özü də rəhbərlərin dəyişilməsinin birdəfəlik hadisə olmayacağına təminat verir.

Müvafiq təminatları aşağıdakılar verə bilər: 1) söz, birləşmə və informasiya yayımının azadlığı, həmçinin əsaslandırılmamış həbslərin qadağan edilməsi kimi başlıca institusional qanunların və 2) bu qanunların daim təsdiq edildiyi müxtəlif "vasitəçi" assosiasiyaların mövcudluğu. Baxılan demokratiya konsepsiyası, hətta bu konsepsiya müasir konstitusiyalı demokratik rejimlərin tarixən fərd və azadlıq haqqındakı liberal təsəvvürlərlə sıx əlaqədə inkişaf etməsi faktını qəbul edirsə belə, demokratiyanı hər hansı konkret dəyərlərlə mütləq olaraq eyniləşdirmir. Yalnız son vaxtlar demokratiyanın bu konsepsiyası müxtəlif qruplar tərəfindən ifrat liberal, "libertarist" dəyərlərlə və ideoloji cəhətdən yarıqanuniləşdirilmiş azad bazar iqtisadiyyatıyla əlaqələndirilməyə başlandı.

Demokratiyanın iştirak (kütləvi və ya populist) şərhinin tərəfdarları demokratk idarəçilikdə əsas subyekt kimi ayrı-ayrı rəhbərləri və ya dar oliqarxik qrupları deyil, bütün vətəndaşları özündə birləşdirən "kütlələri" görürlər.

Bundan başqa, göstərilən konsepsiyada xüsusilə qeyd olunur ki, demokratiya yalnız siyasi proseslərdə əhalinin böyük qruplarının fəal, fasiləsiz iştirakı ilə mümkündür. Kütləvi demokratiya nümayəndəlik institutlarına məhəl qoymamağa meyilli olub, onları mitinqlərə (kütləvi aksiyalara) və plebissitlərə dəyişir. Demokratiyanın bu cür şərhinin iki **"respublika"çı** və **"kommunitar"** növü və ya versiyası məlumdur.

Demokratiyanın iştirak konsepsiyasının **respublikaçı** versiyası vətəndaşların siyasi prosesdə məsuliyyətli iştirakının əhəmiyyətini vurğulayır. Vətəndaşlar dövlət qarşısında duran problemləri, ilk növbədə, ictimai rifahın nədən ibarət olması

məsələsini müzakirə predmetinə çevirərək cəmiyyətin diktə etdiyi vəzifələri yerinə yetirirlər.[1]

**Kommunitar konsepsiyalar** siyasi prosesdə iştirakı cəmiyyət üzvlərinin mühüm hüququ sayır. Bu hüquq onlara siyasi alternativləri mülahizə etmək və reallaşdırmaq yolu ilə həyatlarını müəyyənləşdirən şəraitə nəzarət etmək təminatı verir.[2] Siyasi proseslərdə iştiraka ictimai rifah barəsində təsəvvürlərin legitim bələdçisi kimi baxılır və çox zaman bu iştirak öz-özlüyündə ictimai rifah kimi qəbul olunur. Bundan başqa, belə bir postulat irəli sürülür ki, iştirak yalnız ümumdövlət səviyyəsindəki siyasi həyatda deyil, həm də başqa sferalarda, ilk növbədə, iş yerində və s. böyük rol oynayır.

Demokratiyanın konstitusional konsepsiyalarında başlıca demokratik institutlar və qaydalar müvafiq rejimlərin özəyini, hətta onların cövhərini təçkil edir. **İştirak demokratiyasının respublikaçı növündə** cəmiyyətdə fəaliyyət göstərən institutlar və oyun qaydaları, adətən, həmin cəmiyyətin vətəndaş ənənələrinin bir hissəsi kimi qəbul edilir. **Kommunitar iştirak konsepsiyalarında** bütövlükdə nümayəndəlik institutlarına və müxtəlif vasitəçi assosiasiyalara böyük şübhəylə yanaşılır. İştirak konsepsiyalarının ifrat, "totalitar" variantları isə, belə institutları praktiki olaraq tam inkar etməklə xarakterizə olunur.

Demokratiyanın konstitusional və iştirak konsepsiyalarının tərəfdarları arasında fikir ayrılığı demokratiyanın qurulmasını müşayiət edən iki fundamental dəyərin birini: **azadlığı** və yaxud **bərabərliyi** daha vacib saydıqları məqamda yaranır.

Hakimiyyət uğrunda azad və fasiləsiz rəqabət (və ya daha dar yanaşmada pis rəhbərlərin vəzifədən uzaqlaşdırılması imkanı) kimi demokratiya haqqındakı konstitusional təsəvvürlər prinsipcə kiçikmiqyaslı hökumət fəaliyyətinin dəstəklənməsi ilə

---

[1] Pocock İ. C. A Virtue, sommerce and history. Cambridge, 1985. Fortuna B. The invention of the modern Republic. Cambridge. 1994; Fontana B. The invention of the Modern Republic. Cacmbridge. 1994.

[2] Pateman C. Participation and democratic theory. Cambridge 1970.

korrelyasiya olunur. Konstitusiya müddəaları və qaydalarına xüsusi əhəmiyyətin verilməsi hakimiyyətin təmərküzləşməsinə dair dərin inamsızlığın potensial mövcudluğunun göstəricisidir. Bu cür yanaşma idarəetmənin müxtəlif orqanları, hər şeydən əvvəl hakimiyyətin qanunverici, məhkəmə və icraedici qolları arasında səlahiyyətlərin bölünməsi ideologiyası və praktikasına, həmçinin məhkəmə sferasının müstəqilliyinə gətirib çıxarır. Belə mexanizm ilk dəfə Amerika konstitusiyasında tam şəkildə əks olunmuş və digər konstitusiyalı demokratiyalarda da mövcuddur.

Demokratiyanın iştirak konsepsiyasının respublikaçı versiyası bu məsələdə xeyli dərəcədə neytral mövqe tutur, baxmayaraq ki, onun bir çox tərəfdarları hökumətin fəaliyyət sferalarının həddən artıq genişlənməsinə şübhə ilə yanaşmağa meyillidirlər.

Dövlət və digər kollektiv orqanların fəaliyyətinə münasibətdə iştirak demokratiyasının **kommunitar versiyasının** mövqeyi tamamilə başqa cürdür, yəni pozitivdir. Dövlətə və digər kollektiv orqanlara prinsip etibarilə yalnız cəmiyyətə əhəmiyyətli dərəcədə xidmət edən xeyirli agentlər kimi deyil, həm də innovasiyaların mühüm yayıcısı və hər cür çatışmazlığın aradan qaldırılması, xüsusilə demokratiyanın normal fəaliyyətinə məhvedici təsir göstərən kəskin qeyri-bərabərliyin azaldılması aləti kimi baxılır.

Qeyd etmək lazımdır ki, konstitusion-demokratik rejimlər öz legitimliklərinin bünövrəsini azadlıqda və maraqların müxtəlifliyində görərək, onlara qəti şəkildə böyük əhəmiyyət verirdilər.

İştirak demokratiyasının bütün mümkün kommunitar versiyalarında (burada söhbət səlahiyyətli vətəndaşların, yaxud bütövlükdə sosial cəmiyyət üzvlərinin, yerli icmanın və ya əmək kollektivinin bərabərliyindən gedirsə belə) ön plana mütləq ümumi bərabərlik məsələsi çıxırdı.

Demokratiyanın yuxarda baxılan konsepsiyaları və onların təcəssüm edildiyi institutlar arasındakı bir çox fərqlərə baxmayaraq, onlar heç də total və aradan qaldırıla bilməyən xarakter daşımır.

Keçən əsrin 60 – 70-ci illərində **partisipator demokratiyanın** bərqərar olunması uğrunda fəaliyyət göstərən ictimai hərəkatların təsiri altında siyasi nəzəriyyə son dörd onillikdə iki mərkəzi anlayışa – **söz azadlığı** və **vətəndaş iştirakı** anlayışlarına xüsusi diqqət ayırır. Müasir partisipator demokratiya nəzəriyyəsinin əsasları Kerol Peytman tərəfindən "İştirak və demokratiya nəzəriyyəsi" əsərində qoyulub.[1] Bu əsərdə müəllif plebissit və qruplararası plüralizm prinsipləri üzərində qurulan demokratiya konsepsiyasını tənqid edir və ictimai həyatın mühüm problemlərinə dair qərarların müzakirəsi və qəbulu prosesində vətəndaşların fəal iştirakını nəzərdə tutan demokratiyanın klassik ideyalarına yenidən qayıdır. Peytmanın kitabında belə bir fikir yürüdülür ki, demokratik iştirakın başlıca şərti sosial bərabərlikdir. Başqa sözlə, demokratik iştirak prinsipi həm də insanların bilavasitə öz iradələrini ifadə etmək imkanı əldə etdikləri qeyri-dövlət ictimai institutlarına da yayılmalıdır. Bu, ilk növbədə, əmək kollektivlərinə aiddir.

70-ci illərdə siyasi demokratiya nəzəriyyəsi xeyli dərəcədə qrup maraqlarının plüralizmi konsepsiyası ilə eyniləşdirilirdi. Lakin müasir demokratik institutların fəaliyyəti və ictimai həyatda demokratik iştirak sahəsindəki eksperimentlər ona gətirib çıxardı ki, bir sıra alimlər belə növ plüralizmin əleyhinə çıxış etdilər. Nəticədə demokratiyanın alternativ konsepsiyaları irəli sürüldü. Ceyn Mansbric "Rəqabət demokratiyasının o tayında" (1980) adlı əsərində sübut edir ki, demokratik prosesi ayrı-ayrı maraq qruplarının rəqabəti kimi təsəvvür etmək çox dar yanaşmadır. O, **unitar demokratiya** adlı model təklif edir. Həmin modelə uyğun olaraq demokratik prosesin iştirakçıları yaranan problemlərin birgə müzakirəsi yoluyla ümumi rifaha müvəffəq olmağa can atır. Bununla belə, müəllif böyük müdrikliklə qeyd edir ki, unitar demokratiyanın da öz həddi var. Məhz bu səbəbdən C. Mansbric "sağlam demokratik siyasət yürüdən zaman həm rəqabət

[1] Pateman C. Participation and democratic theory. Cambridge: Cambridge University Press, 1970.

demokratiyasının, həm də unitar demokratiyanın prinsiplərindən istifadə etmək lazımdır" nəticəsinə gəlir.

B. Barber "Güclü demokratiya" adlı əsərində (1984) belə bir fikir söyləyir ki, unitar demokratiya xeyli dərəcədə konformist və kollektivist xarakter daşıyır. Əvəzində o, **güclü demokratiya** modelini təklif edir. Bu modelə əsasən vətəndaşlar birgə səylərlə ümumi rifah anlayışını ayırd edirlər. Lakin, eyni zamanda cəmiyyətdə maraqların plüralizmi qorunur. Qeyd olunan əsərlərin ardınca demokratiyaya həsr olunmuş çox sayda nəzəri elmi işlər nəşr edildi ki, bunlar da praktiki xarakterli problemlərin müzakirəsinin nəticəsi idi. O zaman **məşvərət demokratiyasının** müxtəlif nəzəriyyələri də inkişaf edirdi.

1989-cu ildə tanınmış amerikalı politoloq Robert Dahlın "Demokratiya və onun tənqidçiləri" kitabı işıq üzü görür. Həmin kitab demokratikləşmənin üçüncü dalğasının ən qızğın vaxtında çapdan çıxdı və dərhal siyasi elmdə əlamətdar hadisə oldu. Kitabın adı belə o zaman demokratiyanın tam və qəti zəfəri barəsidəki təsəvvürlərə sanki zidd idi. Lakin bu cür rakurs demokratiyanın əhəmiyyətinə və potensialına konyunktur nöqteyi-nəzərdən deyil, geniş, müqayisəli perspektivdə baxmağa imkan verdi. Nəticədə Dahl tərəfindən təklif edilən şərh, demokratiya müdafiəçilərinin yazdıqlarından daha dərin və əsaslı oldu. Son 40 ildə demokratiyanın bütün məlum təriflərindən ən geniş yayılanı məhz R.Dahlın "Poliarxiya" (1971) əsərində verdiyi tərifdir. "İştirak üçün açıq olan yarış" kimi başa düşülən poliarxiya bir-birindən asılı iki meyar - **siyasi iştirak** və **siyasi rəqabət** vasitəsilə təsvir edilir.

Amerikalı alim R.Dahl tərifindən işlənib hazırlanan **poliarxiya nəzəriyyəsi**[1] demokratiya haqqında müasir təsəvvürlərin inkişafı yolunda atılan mühüm addım kimi qiymətləndirilir. Dahla görə, poliarxiya demokratiyanın real variantı, "iştirak üçün açıq olan yarışdır". Poliarxiya nəzəriyyəsi təkcə siyasi rəqabəti və geniş iştirakı deyil, həm də liberal

[1] Dahl R. A. Polyarchy: Participation and opposition. New Haven, L. 1971.

azadlıqları və plüralizmin mövcudluğunu tələb edir. Bu konsepsiyaya uyğun olaraq yalnız o cəmiyyət demokratikdir ki, orada vətəndaşlar öz tələbatlarını ifadə etmək, sonuncular barədə məlumat vermək, hökumətin fəaliyyətini müəyyənləşdirmək imkanlarına malikdirlər. Həmin imkanlar təşkilatlar yaratmaq azadlığı, fikir azadlığı, seçmək və seçilmək hüququ, rəqabətlilik, alternativ informasiya mənbələrinin mövcudluğu, azad və ədalətli seçkilər, hökumətin öz qərarları üçün institusionallaşdırılmış məsuliyyəti ilə təmin edilir.

Şərqi Avropada, daha sonra isə SSRİ-də baş verən siyasi transformasiyalara qədər praktiki olaraq bütün Qərb alimləri, həmçinin Dahl, belə bir fikirdə idilər ki, demokratiyaya keçmək üçün üç növ ilkin şərt lazımdır: birincisi, milli birliyin və uyğun identikliyin əldə edilməsi; ikincisi, iqtisadi inkişafın nisbətən yüksək səviyyəsi; üçüncüsü, "vətəndaş" tipli balanslaşdırılmış siyasi mədəniyyətin cəmiyyətdə bərqərar olması. 1980 – 1990-cı illərin siyasi transformasiyaları aşkar etdi ki, demokratiyanın ilkin şərtlərinin o vaxta qədər formalaşmış şərhləri yenidən qiymətləndirmə tələb edir.

Posttotalitar ölkənin reallıqlarının təhlili əsasında hazırlanmış yeni, demokratiyaya prosedur yanaşmanın tərəfdarlarının fikrincə, onun üçün bu və ya digər siyasi institutların "implantasiya" olunduğu "mədəni mühit" elə də mühüm əhəmiyyət kəsb etmir, nə qədər ki, elita və hakimiyyət strukturları səviyyəsində qərar qəbul etmək üçün vasitə olan prosedurlar. Bu səbəbdən alimlərin çoxunun diqqət mərkəzində bir institut kimi dövlət dayanır. Həmin institutun təşəbbüskarlığından və iradəsindən demokratikləşmənin nəticələri və perspektivləri həlledici dərəcədə asılıdır. Keçmiş totalitar cəmiyyətlərin demokratik tranzitinin xüsusiyyətləri nəzərə alınaraq, müasir siyasi elmdə demokratiyanın tərifləri mükəmməlləşdirilir. Belə ki, alman tədqiqatçıları V.Merkel və A.Kruassan, Dahl poliarxiyasının iki əsas ölçülərinə (**siyasi iştirak** və **siyasi rəqabət**) üçüncünü – **konstitusiyalı liberal dövləti** də əlavə edirlər. Onların fikrincə,

liberal demokratiyalar konstitusion-hüquqi norma və prosedurlarla məhdudlaşdırılıb, nəticədə mühüm vətəndaş hüquq və azadlıqlarına, hakimiyyət qollarının qarşılıqlı nəzarətinə, icra və məhkəmə hakimiyyəti səlahiyyətlərinin dəqiq bölünməsinə təminat verilir. Məhz bu səbəbdən həmin alimlər tərəfindən demokratiyanın üçölçülü konsepti əsaslandırılır.

Müasir ədəbiyyatda "yeni demokratiyaların" müxtəlif növlərindən, o cümlədən deleqativ, yaxud səlahiyyətli (O'Donnell), qeyri-liberal (Zakariya), natamam (O'Donell), qüsurlu (Merkel, Kruassan), elektoral (Daymond) adlanan demokratiyalardan yazılır. Demokratiya və avtoritarizmin "ağ-qara" şəklində bir-birinə qarşı qoyulmasına etiraz edən O'Donell söyləyir ki, dünyanın siyasi xəritəsində "natamam demokratiyaları" təşkil edən geniş "boz" ərazi əmələ gəlib. S.Hantiqtonun fikrincə, buraya daxil olan dövlətlər "demokratiya – qeyri-demokratiya" cədvəlində "hardasa Çinlə Danimarka arasındakı aralıq yer tuturlar"[1]. T.Lebedevaya görə, yeni demokratiyalar liberal demokratiyanın real alternativlərinin yarandığı barədə işarə vermir. Onlar demokratik tranzitin müxtəlif modelləri olub, bir-birindən modernləşmə proseslərinin məzmunu, dinamikası və dərinliyi ilə fərqlənir.

Qeyd etmək lazımdır ki, politoloqların demokratiya probleminə böyük marağı təsadüfi deyil.

XX əsrin son rübü demokratiyanın bütün dünyada təntənəli yürüşü dövrü oldu. Freedom House təşkilatının (Azadlıq Evi) hesablamalarına görə, 1998-ci ildə mövcud olan 191 ölkədən 117-si və ya 61, 3%-i azad, gizli və ümumi seçkilər keçirərək, demokratiyanın prosedur minimumuna malik olublar.[2]

Əgər bu indikatordan çıxış edilsə, onda demokratiyanın üçüncü dalğasının başlanmasından (1974-cü il) sonra ümumilikdə

---

[1] Huntington S.P. Democracy for the long Haul // Journal of Democracy. 1996, vol. 7. №2

[2] Karatnycky A. 1999. The Decline of Illiberal Democracy. Journal of Democracy. 1999 vol. 10 №1 P.124-125

89 avtokratiya demokratiyaya transformasiya olunub. Şərqi Avropadakı kommunist sisteminin süqutunun təsiri altında olan F. Fukuyama "Tarixin sonu" əsərində eyni adlı məşhur tezisini formalaşdırdı. Alim sübut edirdi ki, Qərb liberal dəyərləri iqtisadi və siyasi quruluş barəsindəki rəqib təsəvvürlər üzərində qəti qələbə çaldı. XX əsrin sonunda liberal demokratiyanın və kapitalizmin heç bir alternativi qalmadı. Keçən dövr ərzində belə bir vəziyyəti təsdiqləyən kifayət qədər empirik əlamətlər meydana gəlmişdir ki, üçüncü dalğa daha çox siyasi liberalizmin zəfəri yox, qeyri-liberal demokratiyanın "qüsurlu" variantının müvəffəqiyyəti tarixi ola bilər. Feydenberq Universitetinin Siyasi Elmlər İnstitutunun professoru Volfqanq Merkel və bu institutun elmi işçisi Aurel Kruassanın "Qüsurlu demokratiyalarda formal və qeyri-formal institutlar" adlı birgə yazdıqları məqalədə (2000) "qüsurlu demokratiya" termini hökmranlıq sistemi kimi müəyyən edilir. Burada hakimiyyətəgəlmə əhəmiyyətli və təsirli olan universal "seçki rejimi" ilə tənzimlənir (azad, gizli, bərabər və ümumi seçkilər), amma bununla yanaşı, əsas siyasi və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı yoxdur və üfüqi səlahiyyətli nəzarət və demokratik legitim hakimiyyətin səmərəliliyi ciddi məhdudlaşdırılıb. Məqalədə qeyd edilib ki, bir çox politoloqlar bu fenomeni aydınlaşdırmağa cəhd göstəriblər. Demokratikləşmə haqqında gedən diskussiyalar zamanı konsolidasiya edilmiş liberal demokratiya ilə aşkar avtokratiya arasında qalan rejimlərin struktur və funksional xarakteristikalarının konseptual fərqləndirilməsinə iddia edən xeyli sayda təriflər, məsələn, nümayəndəli demokratiya (O'Donnell), "hibrid rejimlər" (Karl), "elektoral demokratiya" (Zakariya) "qüsurlu demokratiya" (Merkel, Kruassan) "təcrid edilmiş demokratiya" (Tetslaf) və s. təklif olunub. Lakin bu məqalənin yazılmasından əvvəl, ardıcıl olaraq yeni rejimləri konstitusion-hüquqi demokratiyalardan ayırmağa, daxili fərqləri tipologizasiya etməyə, qüsurlu demokratiyaların yaranma prinsiplərini açmağa və onların inkişafının özünəməxsus dinamikasını izah etməyə imkan verən nəzəri konsept yox idi.

Bu əsərdə transformasiya prosesinin tədqiqində mövcud olan boşluqların doldurulmasına ilk dəfə cəhd edilərək, beş məsələylə bağlı ardıcıl əsaslandırma verilir. Birincisi, liberal (konstitusion-hüquqi) demokratiya ilə qüsurlu demokratiya arasında fərqləndirmə aparmağa imkan yaradan demokratiyanın çoxölçülü konsepti təqdim edilir. Bununla bağlı Robert Dahl tərəfindən müəyyənləşdirilən iki qarşılıqlı asılı ölçüdən – **siyasi iştirak** və **siyasi rəqabətdən** başqa, üçüncü – **konstitusion** və ya **konstitusion-hüquqi** ölçü təklif olunur. Bu cür yanaşma Y.Şumpeterdən başlayaraq R.Dahla qədər demokratiyanı komparativist nəzəriyyələrdən praktiki olaraq tamamilə çıxarmış və hüquqi fəlsəfənin sərəncamına vermişdir. İkincisi, qüsurlu demokratiyanın alttiplərini təsnif etmək üçün sadələşdirilmiş üçölçülü sxemdən istifadə edilir. Bu sxemə 1) istisna demokratiyası, 2) anklav demokratiya, 3) qeyri-liberal demokratiya daxil olunur. Üçüncüsü, bütün diqqət qüsurlu demokratiyanın yalnız bir – qeyri-liberal alttipində cəmləşir. Müəlliflər qüsurlu demokratiyanın hər üç alttipinin fətqləndirici xüsusiyyətlərini və onların meydanagəlmə prinsiplərini analiz edirlər. Dördüncüsü, formal institutlarla (konstitusiyalar, nizamnamələr, qanunlar və inzibati normalar) qeyri-formal institutlar (adətlər, ənənələr, mənəvi dəyərlər, dini inanclar və digər normalar) arasındakı spesifik qarşılıqlı asılılıq nəzərdən keçirilir.

Xüsusi vurğulanmalıdır ki, demokratiyanın inkişafı və demokratikləşmə prosesində nəzəri və praktiki aspektlərin öyrənilməsinin dərinləşdirilməsində "Universal Declaration of Democracy" (Demokratiya haqqında ümumi qanun) böyük əhəmiyyət daşıyır. Qahirə şəhərində 16 sentyabr 1997-ci ildə dünyanın 128 dövlətinin parlament nümayəndələrinin iştirak etdiyi Parlamentlərarası İttifaqın 161-ci sessiyasında qəbul edilmiş bu qanun (bəyannamə) bütün dünyada hökumətləri və dövlətləri onun məzmununu əldə rəhbər tutmağa təhrik edir. Qanun aşağıdakı bölmələrdən: 1) Demokratiyanın prinsipləri, 2) Demokratik idarəetmənin elementləri və tətbiq edilməsi, 3)

Beynəlxalq bölmə və ümumilikdə isə 27 maddədən ibarətdir. Olduqca önəmlidir ki, həm demokratiya nəzəriyyəsi, həm demokratikləşmə prosesinin müxtəlif aspektləri son zamanlar postsovet məkanı ölkələrində[1], o cümlədən Azərbaycan Respublikasında alimlər tərəfindən ciddi təhlil olunur.

Vətən politoloqları, filosofları, tarixçiləri və sosioloqları demokratiya və ölkədə baş verən demokratikləşmə prosesləri ilə bağlı olan məsələlərin geniş spektrini dərindən və hərtərəfli öyrənirlər.[2] Bu sırada akademik R.Mehdiyevin "Demokratiya yolunda: irs haqqında düşünərək" adlı fundamental əsəri xüsusi seçilir. Burada müəllif bəşəriyyətin tarixi inkişafında demokratiyanın yerini və rolunu təhlil edir, milli demokratik tranzitin səciyyəvi xüsusiyyətlərini araşdırır, qlobal transformasiya nöqteyi-nəzərindən Azərbaycanın ictimai-siyasi inkişaf perspektivlərinin futuroloji icmalını açıqlayır və elmi baxımdan əsaslandırır.[3]

İndi bütün dünyada son dərəcə böyük praktiki və elmi əhəmiyyət kəsb etdiyinə görə demokratiya problemi Siyasi Elmin Beynəlxalq Assosiasiyasının (SEBA) XX Ümumdünya Konqresinin müzakirə predmetinə çevrilmişdir. 9-13 iyul 2006-cı il tarixində Yaponiyanın Fukuoka şəhərində keçirilən həmin konqres "Demokratiya işləyirmi?" mövzusuna həsr olunmuşdur. 70 ölkənin 2300-dən artıq politoloq və siyasətçisinin iştirak etdiyi konqresin plenar sessiyasında, altı yüzə yaxın xüsusi sessiya və iclaslarında aşağıdakı mövzularla bağlı məruzə və çıxışlar dinlənildi, diskussiyalar keçirildi: Böhran və

---

[1] Bax: Петрунько Т. А. Президентская власть и демократия. Минск: Сятор, 2001; Проблемы демократии и демократизации. М.: Аспект-Пресс, 2002; Пугачев В. П. Соловьев А.И. Введение в политологию. М.: Аспект-Пресс. 2007. Политология: Учебник. А.Ю. Мельвиль и др. М. МГИМО (Университет) МИД России, Проспект. 2009.

[2] Əliyev Q.C. Demokratiya və müasirlik. Bakı, Təbib. 1997; yenə onun. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. Bakı: Təbib, 1997; Qəndilov S Müstəqillik illərinin düşüncələri. Bakı, Naksuana, 2006.

[3] Мехтиев Р. На пути к демократии: размышляя о наследии. Баку. 2007.

onun həllində demokratiyanın imkanları; demokratiya və yeni dünya nizamı; institusional legitimlik, maraqların nümayəndəliyi və demokratik təcrübə; iştirak və identiklik (eyniyyət) siyasəti; publik siyasət, bürokratiya və demokratiyanın təsirliliyi; siyasi bilik, demokratiya institutlarının nəzəriyyəsi və dizaynı; yeni informasiya texnologiyaları və demokratiya.

XX Konqresin Proqram komitəsinin sədri İvon Qalliqan iştirakçılara müraciətində qeyd etdi ki, dünyanın bütün ölkələrində istənilən səviyyəli siyasi münasibətlərdəki fundamental dəyişikliklər demokratiya anlayışının yenidən və yeni cür nəzərdən keçirilməsinə sövq edir. Hazırkı konqresin "Demokratiya işləyirmi?" mövzusunu seçərkən SEBA-nın Prezidenti Maks Kaaze və İcraiyyə Komitəsi tədqiqatçıların diqqətini bu problemə çəkərək, müasir demokratiyanın dövlətlərin qlobal, milli, regional və lokal siyasi institutlarına təsirini öyrənmək qərarına gəldilər. İ.Qalliqan indiki dövrdə bir çox politoloqların qənaətinə əsasən, nümayəndəli demokratiyanın böhran vəziyyətində olmasını və publik siyasət institutlarına inamın azalmasını vurğulayaraq, çıxış yolu kimi elektron demokratiyanın inkişafını təklif etdi. Lakin o, qeyd etdi ki, bir çox məsələlər hələ də həll olunmamış qalır. Məsələn, demokratik institutların öz ölkələri daxilində legitimliyini saxlayaraq qloballaşmanın çağırış və hədələrinə cavab vermək imkanı məsələsi; etnik, dini, milli və beynəlxalq silahlı münaqişələrin mövcud demokratiya institutlarına və təcrübələrinə təsiri məsələsi; demokratiyanın tamamilə başqa-başqa siyasi və mədəni ənənələrin uzlaşdırması imkanının mövcudluğu məsələsi; demokratik cəmiyyətlər və terrorizm məsələsi; demokratik siyasi təşkilatın əsasındakı dəyərlər və avropasentrizmə alternativlər və s.

XX Konqresdə bütün yuxarıda qeyd olunan və bir sıra digər problemlərin qoyuluşu və müzakirəsi hazırkı dövrdə demokratiya fenomeninin dünya politoloji birliyi və ümumən –

müasir bəşəriyyət üçün son dərəcə önəmli və aktual olmasını bir daha təsdiqlədi.

## §4. Rasional seçim nəzəriyyəsi

Son zamanlar riyazi metodların tətbiqi hesabına siyasi elmin nəzəri inkişafında böyük uğurlar əldə etmək mümkün olmuşdur. Məsələn, ABŞ-ın bir çox təsisat və idarələrində rasional seçim konsepsiyasına əsaslanan modelləşdirmə metodu qəbul edilmişdir. Hazırda bu metod Avropa ölkələrində də geniş şəkildə tətbiq olunur. Siyasi nəzəriyyyə sahəsində mövcud vəziyyətlə bağlı Amerika Siyasi Elm Assosiasiyasının (APSA) hesabatı rasional seçim konsepsiyasının əldə etdiyi uğurları bir daha təsdiqləyir. Maraqlıdır ki, 1983-cü ildə siyasi nəzəriyyə əsasən keçmişin və müasir dövrün empirik və normativ siyasi təlimlərinin tədqiqi ilə məşğul idi. O vaxtlar U. Raykerin koalisiya oyunlarının təhlilinə həsr olunmuş əsəri politoloji işləmələrin kənar sahəsi kimi qəbul olunurdu.[1] Lakin 10 ildən sonra rasional seçim nəzəriyyəsi politologiyanın ən vacib istiqamətlərindən birinə cevrildi. Rayker isə bu nəzəriyyənin əsasını qoyanlardan biri kimi dəyərləndirilməyə başlandı.

Rasional seçim nəzəriyyəsinin belə son dərəcə heyrətləndirici uğur qazanması bir sıra səbələrlə izah olunur:

- rasional seçim nəzəriyyəsi siyasi elmdə yüksək keyfiyyətli və kumulyativ yanaşmalardan istifadəyə imkan yaradır;

- rasional seçim mövqeyindən yanaşma əvvəlki onilliklərdə davranışla bağlı aparılan tədqiqatların nüfuz üstünlüyünə ziddiyət təşkil edir. Onu asanca çoxsəviyyəli

---

[1] Riker W. H. Political theory and the art of heresthetics// Political science: the state of the discipline/ Ed, by A.Finifter. Washinqton (D.C.) APSA 1983. P. 47-68.

təhlillə (xüsusilə Avropa Birliyi ölkələrinin reallıqlarının öyrənilməsi zamanı) və 80-ci illərdə geniş yayılan neoinstitusionalizmlə uzlaşdırmaq mümkün oldu. Rasional seçim nəzəriyyəsinin tərəfdarları bihevioristlərin psixologiyadan götürülmüş məntiqi yanaşmasını formal qayda və riyazi dəqiqliklə əvəz etdilər. Nəzəri fikir birliyi naminə, xüsusən ilkin dövrdə, onlar bütün siyasəti dar maddi maraqların qarşılıqlı təsirinə müncər etməyə çalışırdılar. Bu zaman onlar mənəvi dəyərləri, prinsipləri və şəxsi bağlılığı rədd edirdilər.

Rasional seçim nəzəriyyəsi, adətən, sosial seçim nəzəriyyəsini (sosial sahədə üstün tutulanların məcmusunun nəzərdən keçirilməsi) və oyunlar nəzəriyyəsini (strateji qarşılıqlı münasibətlərin təhlili) özündə birləşdirir.

Sosial seçim nəzəriyyəsi ümumrifah cəmiyyətinin iqtisadi problemlərinin təhlilindən törəmişdir: burada həmin cəmiyyətə aid edilən "sosial rifah fəlsəfəsi" müəyyən fərdin ayrı-ayrı insanların rifahıyla bütövlükdə "cəmiyyətin rifahı" arasındakı nisbət haqqında mühakiməsindən ibarətdir.

Qeyd etmək lazımdır ki, rasional seçim nəzəriyyəsinin rüşeymləri hələ XVIII əsrin ortaları – XIX əsrin əvvələrində Şotlandiya Əxlaq Məktəbinin mənəviyyatla bağlı təlimlərində meydana çıxmışdı. İlk dəfə olaraq məhz göstərilən məktəbin nümayəndələri insanların rasional davranışının fərdiçilik konsepsiyasını təklif etmiş və digər ictimai təzahürlərin izahı üçün onun səmərəliliyinə böyük diqqət yetirmişlər. Bu məktəbə mənsub olan və eyni zamanda klassik siyasi iqtisadiyyatın banisi kimi tanınan Adam Smit həmin konsepsiyadan bazar münasibətlərinə aydınlıq gətirmək məqsədi ilə istifadə etmişdi. Baxılan nəzəriyyənin digər mənbəyi **utilitarizm nəzəriyyəsi** tərəfdarlarının ideyaları idi. Onlar insanların davranışını müxtəlif növ aprior (təcrübədən qabaq formalaşan) ideyalar və işin mahiyyətini bilmədən hasil olan rəylər əsasında nəzərdən keçirməkdən imtina edərək, yalnız həmin davranış və əməllərin sonuclandığı nəticələrlə izah etməyə çalışırdılar.

Utilitarizm məktəbinin banisi İ. Bentam belə bir prinsip irəli sürmüşdü ki, həmin prinsipə əsasən etika insanların böyük əksəriyyətinin xoşbəxtliyinin əldə olunmasına istiqamətlənməlidir. Onun fikrincə, riyazi baxımdan xoşbəxtlik hətta müəyyən davranış zamanı həzzlə əzab arasındakı bir balans kimi hesablana bilər.

Sonralar iqtisadiyyatda meydana çıxan neoklassik nəzəriyyənin nümayəndələri həzz və əzabların balansı vasitəsilə davranışın qiymətləndirilməsi prinsipini əmtəələrin qarşılıqlı mübadiləsi prinsipi ilə əvəz etdilər. Təbii ki, əgər bu mübadilə düzgün aparılsa. Belə bir yolla qərarların qəbul edilməsi zamanı fərdiyyətçilik, rasional və ya səmərəli seçim ideyalarından iqtisadi fəaliyyətin təhlili, hər şeydən əvvəl isə bazar münasibətlərinin öyrənilməsi üçün istifadə olunurdu. Məhz buna görə də sonrakı dövrlərdə rasional seçim nəzəriyyəsi (RSN) əsas etibarilə iqtisadi tədqiqatlarda tətbiq olunmağa və sırf iqtisadi nəzəriyyə kimi təhlil edilməyə başlandı. Son onilliklərdə bu nəzəriyyə ictimai seçim nəzəriyyəsi (İSN) adı altında politologiya, sosiologiya, tarix və digər ictimai elmlərdə də tətbiq olunur və işlənilir. Hazırda rasional seçim nəzəriyyəsini universal nəzəriyyə və hətta bütün sosial-humanitar elmlər üçün tədqiqat paradiqması kimi nəzərdən keçirmək tendensiyası meydana çıxmışdır.

Rasional seçim nəzəriyyəsinin inqilab dövrünün klassik əsərləri sırasına aşağıdakılar aiddir: E.Daunsun "Demokratiyanın iqtisadi nəzəriyyəsi" (1957), M.Olsonun "Kollektiv fəaliyyət məntiqi" (1956), E.Ostromun "İcmalara rəhbərlik" (1990) monoqrafiyaları. Məhz rasional seçim nəzəriyyəsi çərçivəsində məntiqi-riyazi tədqiqat metodlarından istifadə, həmçinin iqtisadi modellərin tətbiqi XX əsrdə siyasi elmin üçüncü böyük yuksəlişinə gətirib çıxardı. Yeri gəlmişkən xatırladaq ki, birinci yüksəliş XX əsrin 20 – 40-cı illərində Çikaqo məktəbinin fəaliyyəti ilə bağlı idi, ikinci yüksəliş isə

İkinci Dünya Müharibəsindən sonrakı onilliklərə təsadüf etmişdi.

Rasional seçim nəzəriyyəsini çox vaxt "formal nəzəriyyə", "pozitiv nəzəriyyə", "ictimai seçim nəzəriyyəsi" və ya "kollektiv seçim nəzəriyyəsi" adlandırırlar. Mahiyyət etibarilə bu nəzəriyyə iqtisadi elmin bir qolu hesab olunur. Siyasi elm sahəsində P.Xerlinq, V.O.Ki və E.Şatşnayder öz araşdırmalarında iqtisadi anlayışlardan geniş şəkildə istifadə edirlər. Lakin məhz K.Errou, E.Dauns, D.Blek, C.Byukenen, Q.Tallok, M.Olson kimi iqtisadçılar ilk dəfə olaraq seçkilər, seçki komitələrində və qanunverici hakimiyyətin digər orqanlarında səsvermə, qrup maraqları nəzəriyyəsi və bu kimi digər siyasi problemlərin təhlili zamanı iqtisadi model və metodlardan istifadə etmişlər.

Məsələn, Qərbdə rasional seçim nəzəriyyəsinin müasir metodlarının siyasi elmdə tətbiqini 1951-ci ildə K.Errounun "Sosial seçim və fərdi dəyərlər" kitabının meydana çıxması ilə əlaqələndirirlər.[1] XX əsrin 60-cı illərinə qədər yeni metodlar yalnız ayrı-ayrı entuziast politoloqlar tərəfindən işlənib hazırlanırdı. Sonralar rasional seçim nəzəriyyəsinin metodlarından istifadə edən bir çox digər müəlliflərin əsərləri meydana çıxdı, baş verən spesifik siyasi proseslərlə əlaqədar öz nəzəriyyəsini ictimai seçim nəzəriyyəsi (İSN) adlandıran məktəblər yaranmağa başlandı. Politoloqlar arasında ümumsosial proseslərdə yeni metodların tətbiqinə əsaslanan Çikaqo məktəbi və bu metodlardan siyasi proseslərin təhlili üçün istifadə edən Virciniya məktəbi xüsusi ilə böyük nüfuza malikdir. Virciniya məktəbinin nümayəndələrinin, başda bu məktəbin əsasını qoyan iqtisadiyyat üzrə Nobel mükafatı laureatı C.Byukenenin tədqiqatları bizim üçün böyük əhəmiyyət kəsb edir. Onu da qeyd etmək lazımdır ki, maksimalist yanaşmaya uyğun olaraq rasional seçim

[1] Arrow K. Social choice and individual values. N.-Y., 1951.

konsepsiyasında hətta iqtisadiyyatdan götürülmüş aksioma və müddəalara əsaslanan, vahid , formal sosial elm nəzəriyyəsinin tərkib hissəsi olan ümumi siyasi nəzəriyyənin yaradılması haqqında perspektiv təkliflər də irəli sürülmüşdür. Bu müddəalar əsas etibarilə ona müncər edilir ki, insanlar təbiətən rasionaldırlar. Onlar hər şeydən əvvəl gündəlik problemlərin həlli ilə məşğuldur və öz maddi imkanlarını artırmağa səy göstərirlər. Həmin yanaşma tərəfdarlarının bəyanatlarına görə, bu ilkin şərtlərin əsasında insan fəaliyyətinin bütün sahələrində, siyasi sfera daxil olmaqla, geniş tətbiq olunan bir hipoteza yaratmaq mümkündür. Bu nəzəriyyə əlverişlidir, məntiqi baximdan ardıcıldır və məlumatların dəqiq riyazi işlənməsinə əsaslanır. Burada irəli sürülən hipotezaların yoxlanılması zamanı eksperimental tədqiqat metodlarından istifadəyə üstünlük verilir.

Lakin maksimalist yanaşmanın bəzi olduqca məşhur tərəfdarları belə fikirlərlə razılaşmır. Onlar şəxsi mənfəətini güdən, yalnız öz firavanlığını, rifahını təmin etmək üçün çalışan "iqtisadi insan" modelinə qarşı çıxırlar. Məsələn, rasional seçim nəzəriyyəsinin binövrəsini qoyanlardan biri olan E.Dauns "siyasi insanın" "iqtisadi insan" əsasında modelləşdirilməsindən imtina etmişdir.

İnkişaf etməkdə olan ölkələrlə bağlı apardığı tədqiqatlarda ilk dəfə rasional seçim nəzəriyyəsindən istifadə edən B.Beyts, indi siyasi təhlildə daha çox metodoloji eklektizmə meyil göstərir. O, siyasi-iqtisad yanaşmasını mədəniyyətlər, sosial strukturlar və institutların öyrənilməsi ilə birləşdirməyə çalışır.

Ümumiyyətlə, rasional seçim nəzəriyyəsinin tərəfdarları analitik aparatı yeni bir səviyyəyə qaldırırlar. Bu nəzəriyyə institutların sistemləşdirilmiş şəkildə öyrənilməsinə imkan verir. Onun köməyi ilə seçicilərin səsverməsi zamanı bir sıra maraqlı nəticələri, parlamentdə koalisiyaların formalaşma mexanizmlərini və eləcə də qalib gələn siyasi partiyalar arasında hakimiyyət səlahiyyətlərinin paylanmasını və

bölünməsini izah etmək olur. Lakin tənqidi yanaşmağa adət etmiş tədqiqatçılar qeyd edirlər ki, bir çox siyasi seçim nəzəriyyələri qeyri-müəyyənliklərin və təsadüflərin başlıca rol oynadığı mürəkkəb siyasi situasiyaları son dərəcə sadələşdirir. Məhz ona görə də belə nəzəriyyələrin nəticələri empirik məlumatlarda çox nadir hallarda öz təsdiqini tapır, proqnozlar isə etibarsız olduğundan şübhə doğurur. Bu cür modellərin və siyasi nəzəriyyələrin başlıca nöqsanı ondan ibarətdir ki, onlar empirik baxımdan yoxlanması çətin olan universal hipotezalara əsaslanır.

## §5. Siyasi elitalar nəzəriyyəsi

Əsası V.Pareto və Q.Moska tərəfindən qoyulan siyasi elitalar nəzəriyyəsi XIX əsrin sonu – XX əsrin əvvəllərində meydana gəlib. "Elita" termininin sinonimi olan "siyasi sinif" anlayışını elmi leksikona italyan alimi Q.Moska daxil edib. Özünün "İdarəetmə nəzəriyyəsi və parlament idarəçiliyi" (1884) və "Siyasi elmin elementləri" (1896) kimi mühüm əhəmiyyətli tədqiqat işlərində Moska elitalara müəyyən sosial vəzifələri yerinə yetirən idarə edənlər qrupu kimi baxır. Siyasi sinfin hakimiyyət qüdrətinin başlıca səbəbi onun yüksək dərəcədə daxili təşkilatlanmasından və mütəşəkkilliyindən ibarətdir. Məhz bu xüsusiyyət bir tarixi dövrdən digərinə keçmə prosesində elitaya imkan verir ki, əhalini birləşdirərək cəmiyyət və dövlətə rəhbərliyi öz əlində cəmləşdirsin. Bir xüsusi siyasi sinif kimi idarə edənlərin başlıca vəzifəsi hər şeydən əvvəl öz siyasi hökmranlığını möhkəmləndirməkdir. İdarə edən sinfin inkişafında tərkib dəyişməsi və varislik proseslərinə Moska böyük diqqət yetirirdi. O, elitaların inkişafında demokratik və aristrokatik meyilləri ayıraraq qeyd edirdi ki, idarə edən qrupların hakimiyyətdə irsi və dəyişilməz qalmasına çalışan sonuncu meylin üstünlüyü elitanın "qapanması və kristallaşmasına", daha sonra isə tənəzzülünə aparır.

XVII əsrdə yüksək keyfiyyətli əmtəə mənasında işlədilən "elita" termini 1823-cü ildə buraxılmış Oksford lüğətində yüksək əyanlar, "seçmə" insanlar kateqoriyasının tərifi kimi işlədilmişdir. Bu anlayışın özü sosiologiyaya və siyasi elmə V.Pareto tərəfindən qətirilib. O, "Sosial sistemlər" (1902) və "Ümumi sosiologiya üzrə traktat" (1916) adlı əsərlərində maraqlı bir konsepsiya irəli sürdü. Həmin konsepsiyaya görə istənilən sosial sistemin tarazlığı və dinamikası öz inkişafında müəyyən dövrələrdən keçən idarə edən azlıqla, yəni elitayla determinasiya olunur. Elitalar – cəmiyyətin dərinliklərində yaranan, ən yaxşısı olanlardır: onlar cəmiyyətin lap aşağı qatlarında törəyir, mübarizənin gedişində yüksək dairələrə qalxır, orda tərəqqi edir və son nəticədə tənəzzülə uğrayaraq yox olurlar. Onların yerinə kontrelitalar gəlir ki, bunlar da həmin inkişaf və tənəzzül fazalarını keçirlər və onları da yeni elitalar əvəzləyir. Elitaların bu dövranını Pareto "tarixin universal qanunu" adlandırır. Onun fikrincə, həmin qanun cəmiyyətə imkan verir ki, daxilində inkişaf etmiş yaxşı nə varsa hamısını öz rifahı naminə toplasın və istifadə etsin. Elitaların dövranının kəsilməsi mütləq hakim elitanın tam tənəzzülünə və cəmiyyət üçün neqativ elementlərin toplanmasına aparır. Bu elementlər cəmiyyətin ən yaxşı nümayəndələrinin elitar təbəqələrə keçməsinə və cəmiyyətin inkişafına mane olur.

Elitologiyaya alman alimi R.Mixels də öz töhfəsini vermişdi. O, əsasən partiya elitalarının təsvirinə böyük diqqət yetirərək, həmin sahədə mühüm ümumiləşdirici nəticələrə gəlir. Belə ki, onun fikrincə, elitanın hökmranlığı bilavasitə kütlənin idarəçilik proseslərində birbaşa iştirakının və bu proseslərə nəzarətinin mümkünsüzlüyü ilə müəyyən olunur. Beləliklə, özündə vətəndaşların maraqlarının təmsilçiliyi mexanizmlərini birləşdirən siyasi fəaliyyətin təşkili istər-istəməz azlığı rəhbər mövqelərə çıxarır. Həm də təşkilati proseslərin təbii dinamikası rəhbər qrupların mütləq oliqarx birliklərə çevrilməsinə aparır.

Mövcud problemə maraq getdikcə artmağa başladı. Amerika alimi H.Lassvelin tədqiqatları ilə bağlı olaraq hökmranlıq edən siniflərin tədqiqində istifadə olunan "elita" anlayışı müasir siyasi elmdə hamının qəbul etdiyi kateqoriyaya çevrilir. Burada siyasi elitalar nəzəriyyəsinin baniləri tərəfindən təqdim edilmiş yanaşmalar tədricən yenidən inkişaf etdirilirdi. Belə ki, V.Pareto, P.Blau, J.Sorel, E.Fromm, A.Adler, R.Stoqdil və digər tədqiqatçılar siyasi liderlərin və elitaların konkret xüsusiyyətlərinin təsvirini verərək, bu əsasda idarə edən sinfin fərdi keyfiyyətləri ilə hakim siyasi quruluşun özülü arasındakı bağlılığı dəqiqləşdirdilər. Bu istiqamətdə daha aydın təsəvvürləri dəyərlər nəzəriyyələri əldə etdi. Belə ki, H.Lassvelin irəli sürdüyü ideyaya görə, elitaya yalnız o kəslər aid edilə bilər ki, onlar müəyyən siyasi dəyərlərin istehsalı və bölüşdürülməsi (məsələn, insanın fərdi təhlükəsizliyinin və ya onun ictimai nüfuzunun təmin edilməsi, gəlirlərinin artması və s.), əhalinin fəallığının səfərbər edilməsi və müəyyən siyasi qaydaların formalaşdırılması üçün xüsusi qabiliyyətlərə malik olsunlar. Dəyər konsepsiyaları çərçivəsində elitaların plüralist şərhləri də inkişaf etməyə başladı. **Elitaların plüralist izahına** görə, hakimiyyətdə bir neçə elitar qruplaşmalar iştirak edir və onlardan hər biri xüsusi amiranə mexanizmlərə malikdir, əhalinin müxtəlif qruplarının spesifik maraqlarını ifadə edir və yalnız özünəməxsus nüfuza sahibdirlər.

Həmçinin Q.Moskanın da baxışları orijinal nəzəri inkişafa məruz qaldı. Məsələn, fransız tədqiqatçısı T.Dorso "Siyasi sinif" təliminə müraciət edərək təklif etdi ki, ona siyasi proseslərdə "idarə edən" və "müxalifət" seqmentlərinə parçalanan hakim sinfin "texniki aləti" kimi baxılsın. Buna görə, alimin fikrincə, hakimiyyətdə idarə edən və müxalifət təbəqələrinin dəyişməsi hakim sinfin maraqlarına və statusuna heç bir təsir etmir. K.Mills Amerika cəmiyyəti nümunəsində siyasi elitanı böyük əhəmiyyətə malik "institusionallaşdırılmış iyerarxiyalar" nümayəndələrinin cəmi, yəni korporasiyaların ən

yüksək vəzifəli şəxsləri, siyasi administratorlar və hərbi rəhbərlik kimi tədqiq edərək, maraqlı bir konsepsiya təklif etdi. Bununla yanaşı, Millsin qənaətinə əsasən, bu hakimiyyət üçbucağında daha çox nüfuza o şəxslər (seçilməyən, bürokratik elitanın bir hissəsi də daxil olmaqla) malikdirlər ki, onlar bir-biri ilə qeyri-formal əlaqələrdə olurlar və bütün qərar qəbuletmə prosesinə mühüm təsir göstərirlər.

C.Helbreyt də siyasi elitaların funksional əsaslarına son dərəcə orijinal yanaşırdı. O, fərz edirdi ki, siyasi qərarların qəbuluna "texnostruktur" adlanan qrup mühüm təsir göstərir, yəni elə bir anonim insanlar qrupu ki, onlar xidməti informasiyanın tədavülü prosesinə nəzarət edir və bununla da yuxarılarda qəbul edilən qərarların xarakterini müəyyənləşdirirlər. Bu mənada publik siyasətçilər özlərinin ekspertləri, analitikləri və digər köməkçiləri tərəfindən hazırlanan qərarları yalnız səsləndirirlər. Beləliklə, siyasi səhnə arxasında qalan və hakimiyyətin mühüm qərarlarını müəyyən edən boz kardinalların rolu nəzəri cəhətdən leqallaşdırıldı.

Q.Moska tərəfindən əsası qoyulmuş ideyalar, idarə edən dairələrin institusional və vəzifə xüsusiyyətlərinin təhlilinə diqqəti yönəldən **struktur-funksional** istiqamətin nümayəndələrinin (D.Bernhem, S.Keller) tədqiqat işlərində əhəmiyyətli dərəcədə inkişaf etdirildi. Bu istiqaməti **neoelitaristlər** də (X.Ziqler) zənginləşdirdi. Onlar, plebissit və referendumlarda cəmiyyətin iradə bildirməsinin nəticələrindən asılı olmayaraq elitar təbəqələrə öz faktiki hakimiyyətlərini həyata keçirməyə imkan verən siyasi mexanizmlərə diqqəti cəlb etdilər.

Elitarist konsepsiyaların coşqun inkişafı bu gün də elitaların müstəqilliyinin təsdiqlənməsinə, kütlələrlə əlaqələrinin xarakteristikasına, elitar dairələrin tərkibinin dəyişməsi zamanı status və fərdi keyfiyyətlər nisbətinin müəyyənləşdirilməsinə, demokratiyanın inkişafında idarə edənlərin roluna dair vahid yanaşmanın təşəkkül tapmasına gətirib çıxartmadı. Əslində, hər bir tarixi dövr bu növ ideya və

qiymətləri ciddi şəkildə dəyişir və təzələyir. Məsələn, özlərinin ilkin variantlarında elitar nəzəriyyələr demokratiyaya mənfi münasibət bəsləyirdi. Lakin son nəticədə vəziyyət radikal surətdə dəyişdi və elitizm nümayəndəli demokratiyanın mexanizmləri ilə tam bir araya sığan siyasətin elementi kimi baxılmağa başlandı. XX əsrin görkəmli siyasi mütəfəkkiri Y.Şumpeterin qeyd etdiyi kimi, elitalar demokratiyanın təşəkkül tapması üçün daha çox iş görə bilərlər, nəinki bu dəyərlərdə maraqlı olan ən geniş əhali təbəqəsi. Eyni zamanda müasir elitarizmin əksər nümayəndələri yüksək rəhbər strukturların fəaliyyətinə onları şərtləndirən sosial və iqtisadi amillərdən ayrı baxırlar. Belə yanaşdıqda elitalar tez-tez bütün siyasi proseslərə tam nəzarət edən müstəqil qruplar kimi şərh edilir. Müəyyən dərəcədə bu bəzi nəzəriyyəçilər, o cümlədən A.Stoun tərəfindən rəhbər qrupların funksional vəzifələrinin genişləndirilməsini, onlara tarixi prosesin yeganə hərəkət-vericisi kimi baxılmasını qabaqcadan müəyyən edir, kütlələrə isə burada passiv müşahidəçi rolu ayrılır.

Klassik siyasi elmdə olduğu kimi, müasir siyasi elmdə də "elita" termininin şərhində xeyli dərəcədə müxtəlif variantlar mövcuddur. Lakin bu anlayışın bütün fərqli təriflərində elitaya aid edilən hər bir fərdin seçmə, imtiyazlı olduğu vurğulanır. Elita kateqoriyasının məzmununa yanaşmalar bir-birindən əsasən elitanın seçilməsi prinsiplərinə və uyğun akseoloji istiqamətlənmələrə münasibətdə fərqlənir: bəzi tədqiqatçılar hesab edirlər ki, əsl elita öz zadəgan mənşəyi ilə fərqlənməlidir; digərləri bu kateqoriyaya ən varlıları aid edirlər; üçüncülər elitarlığı sosiumun daha çox qabiliyyətli nümayəndələrinin şəxsi xidmət və ləyaqətlərində görürlər. İzahlardakı fərqlər əsasən sosial biliklərin çərçivəsində tədqiqatlar aparılan sahənin spesifikası ilə şərtlənir. Kulturoloji və sosial-fəlsəfi yanaşmalardan fərqli olaraq, müasir politoloji tədqiqatlar üçün elitaların hakim vəziyyətlərini şərtləndirən amillərdən (mənşə, maliyyə vəziyyəti, şəxsi xidmətlər) asılı olmayaraq hakimiyyətə

sahib çıxan şəxslər kateqoriyası kimi şərhi daha rasionaldır. Bütün sadalanmış amillər elitaların tipologizasiyasının meyarları adlanır.

Müasir elmi ədəbiyyatda siyasi elitanı nəzəri baxımdan araşdırmaq üçün üç başlıca yanaşma (və ya metod) formalaşıb: 1) hakimiyyət sistemindəki mövqeyindən asılı olaraq bu və ya digər şəxsin nüfuz dərəcəsini müəyyən edən **mövqe** və ya status yanaşması (bu yanaşmaya görə elitaya hər şeydən əvvəl parlament, hökumət üzvləri və b. aid edilir). Həmin yanaşma hakim elitanın tərkibinə yüksək hakimiyyət səlahiyyətlərinin daşıyıcılarının daxil olmasını nəzərdə tutur. Başqa sözlə desək, siyasi elitaya yalnız o kəslər aid edilə bilər ki, onlar siyasi təşkilat və institutlarda formal hakimiyyətə malikdirlər. Bu metod konkret cəmiyyətdə hakimiyyətin və idarəetmənin daha mühüm seqmentlərini üzə çıxarmağa imkan verir.

2) ekspert qiymətləndirilməsi vasitəsilə siyasətçinin reytinqinin müəyyənləşdirilməsinə əsaslanan **reputasiya** yanaşması. Bu metod dövlət idarəçiliyi sferasından daha məşhur siyasətçiləri müəyyən etməyə, dövlətlə cəmiyyət arasındakı o əlaqələri üzə çıxarmağa imkan verir ki, onlar hakim rejimi legitimləşdirir.

3) **strateji qərarları qəbul edən şəxsləri** üzə çıxarmağa əsaslanan yanaşma. Hakim dairələri seçməklə potensial cəhətdən daha etibarlı və dəqiq olan bu metod **disizional** (ingiliscə decision – qərar) metod adlanır. Göstərilən metodun tətbiqi hakim elitaya o insanlar və qrupları aid etməyə imkan verir ki, onlar konkret idarəetmə qərarlarının qəbulunda real iştirak edirlər. Lakin qeyd olunan yanaşmaların ikisində müəyyən çatışmazlıqlar mövcuddur. Birinci mövqe (yanaşma) həddindən artıq formaldır, çünki onun istifadəsi zamanı yalnız nominal hakimiyyətə sahib şəxslərin rolu çox şişirdilərək "kölgə"də qalan fiqurların güclü siyasi təsiri nəzərə alınmır.

Reputasiya təhlili daha çox ekspertlər tərəfindən aparıcı siyasətçilərin reytinqlərinin tərtibi zamanı işlədilir. Bununla

yanaşı, reputasiya metodunun tətbiqi zamanı analitikin, ekspertlərin subyektiv fikirlərindən yüksək dərəcədə asılılığı ehtimalı var ki, bu da tədqiqatların nəticələrinin etibarlılığını şübhə altına alır. Bundan başqa, hakimiyyət dairəsinə elələri də düşə bilər ki, onlar böyük nüfuza malikdirlər, lakin siyasi hakimiyyət institutlarına təsir edən vəzifəyə və digər imkanlara sahib deyirlər. Yuxarıda deyilənləri nəzərə alaraq, siyasi elmin məqsədlərinə daha çox cavab verən və müasir elmi ədəbiyyatda geniş yayılan üçüncü metod irəli sürülür. Hərçənd bu yanaşma da ideal deyil, çunki burada tez-tez informasiya çatışmazlığı, məsələlərin həlli zamanı həqiqətən kimin iştirak etməsi barədə məlumatların dəqiq olmaması problemləri yaranır. Bir şeyi də nəzərə almaq lazımdır ki, belə növ informasiya dövlət strukturlarında çox vaxt ciddi qorunan məlumatlara aid edilir və qarşıda qoyulmuş məsələnin həllində bu metoddan istifadəni daha da çətinləşdirir. Bir qayda olaraq praktikada göstərilən üç metoddan eyni zamanda cəm şəklində istifadə olunur. Nəticədə hakim elitanın tərkibini daha dəqiq müəyyənləşdirmək imkanı yaranır.

Politoloqlar siyasi elitaların təşəkkülünün və fəaliyyətinin təsviri üçün xeyli sayda anlayışlar hazırlayıb onlardan səmərəli istifadə edirlər. Məsələn, tədqiqatçılar təsirin müxtəlif üsullarını, o cümlədən **birbaşa, dolayı və nominal** təsir üsullarını göstərirlər. Hər hansı bir şəxsin qəti qərarın qəbulu zamanı bilavasitə iştirakına birbaşa təsir deyilir. Qəti qərar qəbul edən şəxsə dolayı təsiri başqa çəxslər, bəzi hallarda ailə üzvləri edirlər (burada, ilk növbədə, dünyanın ən qüdrətli dövlətlərinin rəhbərlərinə çox ciddi şəkildə təsir edən R.Qorbaçovanın, T.Dyaçenkonun, H.Klintonun rolunu qeyd etmək lazımdır). Nominal təsirə nümunə kimi keçmiş SSRİ Ali Soveti üzvünün siyasi çəkisini göstərmək olar.

Elitizmin toplanmış nəzəri potensialı ilə mürəkkəb təşkilatlanmaya malik cəmiyyətlərin praktiki inkişafı təcrübəsini uzlaşdıraraq, demək olar ki, siyasi elita ilk öncə

dövlət və cəmiyyət idarəçiliyi sahəsində ixtisaslaşdırılmış funksiyaları yerinə yetirən sosial qrupdur. Rusiya tədqiqatçısı A.İ.Solovyovun baxışına görə, "siyasi elita – hakimiyyət və dövlət (partiyalar və digər siyasi institutlar) idarəçiliyi sferasında peşəkar fəaliyyətlə məşğul olan şəxslər qrupudur". Elitologiya problemləri üzrə mütəxəssis olan Rusiya politoloqu O.V.Qaman-Qolutvina siyasi elitaya "mühüm strateji qərarların hazırlanması və qəbuledilməsi subyekti və ya qəbul edilməsinə, yaxud qəbul edilməməsinə təsir göstərən insanlardan ibarət olan və bunun üçün gərəkli resurs potensialına malik, daxilən yekdil və cəmiyyətdə azlıq təşkil edən qrup kimi tərif verilməsini düzgün hesab edir. Müasir elitologiyada ən mühüm məsələlərdən biri **elitanın toplanması, seçilib yığılmasıdır.** Çünki məhz bu məsələ istənilən sistemin həyati fəaliyyətinin təmin olunmasında prinsipial əhəmiyyət daşıyır. İş ondadır ki, heç bir xüsusi peşə hazırlığı olmayan şəxs, bir qayda olaraq, müvafiq peşəkar elitada hər hansı yerə iddia edə bilməz. Lakin siyasi elita müxtəlif təhsil, peşə və əmlak statusuna malik insanlar hesabına dolub tamamlanır (böhranlar dövründə isə daha çox əhalinin marginal təbəqələri arasından çıxanlar hesabına). Belə ki, məşhur Hollivud aktyorları R.Reyqan və A.Şvartsneger yetkin yaşlarında siyasətçi oldular. Bu onunla bağlıdır ki, **siyasət fenomeninin fundamental əlaməti universallıqdır:** burada baş verən toqquşmalar nəinki siyasi, həmçinin iqtisadi, sosial, milli, mənəvi və başqa ziddiyyətlərin ifadə formalarıdır. Ona görə də siyasi elita mühitinə eyni sosial, təhsil və b. statusa malik olmayan, müxtəlif peşələrə sahib şəxslər daxil olurlar.

Müasir politoloqlar elitaları **"açıq"** və **"qapalı"** elitalara bölürlər. Bu bölgü elitanın qeyri-elita təbəqələrindən çıxan insanlar hesabına necə seçilib yığılması vasitəsilə aparılır. Elita o zaman açıq hesab olunur ki, digər sosial təbəqələrin nümayəndələri üçün oraya yol olsun. Əgər seçilib yığılma prosesi özüistehsal xarakteri alırsa, onda elita qapalı hesab

olunur. Bununla yanaşı, hətta qapalı elitalar da sosial-iqtisadi dəyişikliklərin, yeni nüfuz qruplarının formalaşmasının, var-dövlətin bir əldən digərinə keçməsinin təsiri nəticəsində yeniləşir.

Ümumiyyətlə, siyasi nəzəriyyə elitanın toplanması üsullarının iki sinfini təsvir edir. Bunlar universal, həm də formalaşmış siyasi sistemlərin xarakterindən asılı olaraq ayrı-ayrı dövlətlərdə tətbiq olunan üsullardır. Ümumi, universal üsullardan tədqiqatçılar başlıca olaraq bir-birindən prinsipial cəhətdən fərqlənən iki metodu: **gildiya** və **anterprenyor** metodları ayırırlar.

Onlardan birincisi – gildiya metodu, əsasən, rəhbər kadrların ictimaiyyətdən qapalı olan seçim üsulu sistemini xarakterizə edir. Burada başlıca rolu əvvəlcədən müəyyən edilmiş seçim meyarları, qaydaları və prosedurları oynayır. Mahiyyətcə bu kadr seleksiyasının bürokratik sistemi rəhbər postlara iddia edənləri süzgəcdən keçirən çoxlu sayda institutları, proteksionizmi, yuxarılara qalxmaq üçün asta, təkamül yolunu nəzərdə tutur. Məsələn, sovet sistemində kadrların seçilməsi məhz belə həyata keçirilirdi. Orada hakimiyyətə qalxmaq üçün bütün lazımı tələblər əvvəlcədən bəlli idi: sosial mənşə, təsərrüfat işləri üzrə təcrübə, partiya təhsili və s. Bununla yanaşı, əsasən, partiya üzvlərinə elitar seçim üçün potensial ehtiyat fondu kimi baxılırdı. Burada mənsubiyyətə, xaricdə yaşayan qohumların olub-olmamasına və s. böyük diqqət yetirilirdi.

İkinci metod antreprenyor metod adlanır və elitanın demokratik seçimini nəzərdə tutur. Burada iddiaçıların keyfiyyətlərinin qiymətləndirilməsi ictimai rəydən və məlum prosedurların (seçkilərin) icrasından asılı olur. Bununla yanaşı, insanların status xüsusiyyətləri burada böyük rol oynamır.

Elitaların seçilib yığılması üçün yuxarıda sadalanmış hər bir metodun öz üstünlükləri və çatışmayan tərəfləri var. Hətta gildiya modeli, bürokratizminə və qapalılığına baxmayaraq,

özünəxas leqallıq, proqnozlaşdırılma və formallaşdırılma hesabına bir sıra üstünlüklərə malikdir.

Fransız sosioloqu P.Burdyenin vurğuladığı kimi, harda ki, peşəkar seçimin meyarları daha az formallaşdırılıb, orada elitanın oliqarxlaşmasının ilkin şərtləri meydana gəlir. Məhz onlar iddiaçıların yerlibazlıq, qohumluq və dostluq əsasında elitaya seçilməsinin qarşısını alır (V.Reynxard). Bu seçim metodları ilə yanaşı, hər bir ölkənin xüsusi siyasi şərtlərinə cavab verərək, hakimiyyət strukturlarına seçən və irəli çəkən mexanizmlər əsasında **milli** metodlar da yarana bilər.

Demokratik dövlətlərdə elitaların toplanması prinsipləri və metodları insanların həm işgüzar keyfiyyətlərini, mürəkkəb ictimai funksiyaların icrasına dair uyğunluq qabiliyyətlərini, həm də onların peşəkar fəaliyyətləri üçün son dərəcə vacib olan mənəvi xüsusiyyətlərini nəzərə almalıdır.

Elitologiyada fəal təhlil edilən kateqoriyalardan biri də elitaların toplanması kanallarıdır. Siyasi iyerarxiyanın zirvəsinə qalxma yolları məhz elitaların toplanması kanalları adlanır. Tədqiqatçılar bu cür başlıca institusional kanallar sırasına dövlət aparatını, yerli özünüidarəetmə orqanlarını, ordunu, siyasi partiyaları, təhsil sistemini aid edirlər. Bu və ya digər kanalın üstün olması siyasi inkişafın tarixi ənənələri, siyasi rejimin xüsusiyyətləri və s. ilə şərtlənir.

R.Patnemin "Siyasi elitaların müqayisəli təhlili"[1] əsəri müxtəlif ölkələrdə elitaların toplanması məqsədi ilə istifadə edilən bu və ya digər kanalların səmərəliliyinin müqayisəsi üçün maraqlı material verir. Patnem göstərir ki, bir çox Qərb və üçüncü dünya ölkələrinin parlament rejimlərində ali hakimiyyət eşelonlarının formalaşmasında siyasi partiyaların rolu yüksəkdir. Bürokratik aparat başlıca olaraq inkişaf etməkdə olan ölkələrdə mühüm elitayaratma kanalı rolunu oynayır. Lakin Almaniya, Yaponiya, İsveç kimi inkişaf etmiş ölkələrdə

---

[1] Putnam R. The comparative study of political elites. N.Y. 1976.

də hakimiyyətin yuxarı eşelonlarının xeyli hissəsi siyasi elitadakı mövqelərinə görə məhz dövlət qulluğuna borcludurlar. ABŞ, Fransa, Almaniya, İtaliya, Avstriya parlamentlərinin əksər üzvləri yerli özünüidarəetmə sistemlərində işləmişlər. Müqayisə baxımından ABŞ və Böyük Britaniyanın siyasi sistemlərinə elitanın seçilib yığılması kanalı kimi dövlət qulluğunun daha gec institutlaşması və hakimiyyətin ali eşelonunun formalaşma prosesinə bu sahədə iş stajının zəif təsiri xasdır. Rusiyada isə əksinə, dövlət qulluğu ənənəvi olaraq digər kanallar arasında rəqibi olmayan "lider" kanaldır. Bundan başqa, elitanın toplanması rolunu digər mühüm sosial institutlar da oynayır. Belə ki, bir sıra Latın Amerikası ölkələrində (məsələn, Braziliya, Argentina, Peru) və İsraildə orduda xidmət siyasi iyerarxiyanın yüksək eşelonları üçün mühüm mənbədir. Praktiki olaraq dünyanın bütün regionlarında təhsil sistemi karyeraya birbaşa təsir edir. Lakin bir sıra ölkələrdə (Böyük Britaniya, Fransa) məhz təhsil bu toplanmanın başlıca mənbəyidir. Böyük Britaniyada ümumi şagird sayının 5%-nin təhsil aldığı "publik school" kateqoriyalı məktəblər (onların 1/3-i ən mötəbəri və nüfuzlusudur, elitalar elitası isə İton, Vinçester, Reqbi və Xarroudur) siyasi elitanın ilkin istehsal kanalı sayılır. Bu məktəblərin bir neçəsi yüksək dərəcədə sülaləliyi ilə seçilirlər ki, bu da elitanın qapalılığına və özüistehsalına münbit şərait yaradır (məsələn, İtonun şagirdlərinin üçdə iki hissəsini bu məktəbin keçmiş məzunlarının oğulları təşkil edir, həm də burada 18 baş nazir oxuyub. Britaniyanın elita istehsalı sistemində ikinci həlqəni Oksford və Kembric kollecləri təşkil edir. Fransada ali inzibati eşelonda yüksəlmək üçün məhz təhsil digər kanallar arasında üstün mövqeyə malikdir. Bu səbəbdən ixtisaslaşmış nüfuzlu institutlara daxil olmaq üçün qəbul imtahanları zamanı olduqca ağır müsabiqə seçimindən uğurla keçmək lazımdır. Müvafiq tədris müəssisəsinə (məsələn, Milli Administrasiya Məktəbinə)

daxil olan şəxsə ən yüksək idarəçi təbəqəsinə qədər yol açılır və dövlət aparatında nüfuzlu vəzifəyə təminat verilir.

Hazırda siyasi elita probleminə Azərbaycanda da marağın artmasının şahidiyik. Məsələn, akademik Ramiz Mehdiyev "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalıq" məqaləsində dövlətin inkişaf yolları və mexanizmlərinin aşkar edilməsində həlledici rol oynayan siyasi elitadan bəhs edir. O, elitarizmin bəzi nəzəri əsaslarına toxunmaqla milli elitarizm məsələləri üçün bazis yaratmağın istiqamətlərini göstərir. Məqalədə müəllif yazır: "Digər keçmiş sovet respublikalarında və sosialist ölkələrində olduğu kimi, Azərbaycanda da elita nəzəriyyəsi vaxtilə nəinki qəbul edilmirdi, hətta kifayət qədər araşdırılmamışdı. Bunun da səbəbi sovet dövründə ciddi partiya senzurasının olması, sonralar isə milli ictimaiyyatşünaslıqdakı çatışmazlıqlar idi. Sirr deyil ki, ölkəmizdə humanitar elm bəzən dünya məkanında tədqiq edilən elmi problemlərin öyrənilməsindən əhəmiyyətli dərəcədə geri qalır".[1] Müəllifin fikrincə, elitalar nəzəriyyəsinin milli kontekstdə araşdırılması bizim elmi mərkəzlərin maraq dairəsindən kənarda qalmamalıdır. Bu gün Azərbaycanın intensiv siyasi, iqtisadi və sosial-mədəni inkişafı prosesində elitanın rolu və yeri, xarakteri və tərkibi, siyasi oriyentasiyaları və ideoloji əqidələri, habelə yeniləşməsi və transformasiyası məsələləri öz həllini gözləyən aktual politoloji problemlərdir.

## §6. Siyasi liderlik nəzəriyyəsi

Siyasi elitanın ən mühüm elementi siyasi liderdir. O, hakimiyyət və idarəçilik sistemini şəxsləndirərək (özündə təcəssüm etdirərək), cəmiyyətin gözündə hakimiyyəti təmsil

---

[1] Mehdiyev R. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalıq. Fəlsəfə və sosial-siyasi elmlər. 2009. №1, s. 14.

edir. Müasir politologiyada siyasi liderliyin bir çox şərhləri formalaşıb. Bunların ən əsaslarına diqqət yetirək.

Siyasi liderliyin aşkar şəxsi xarakteri bir çox alimləri, rəhbərin bu və ya digər fərdi xüsusiyyətlərini daha vacib hesab etməyə vadar edirdi. Liderliyin bu cür təsviri öz konseptual ifadəsini T.Karleylin tədqiqatlarında tapdı. Karleyl "cizgilər nəzəriyyəsi"nin banilərindən hesab olunur. Bu nəzəriyyə siyasi liderə elə bir müəyyən (zadəgan) keyfiyyətlərin daşıyıcısı kimi baxır ki, bu keyfiyyətlər ona digər insanlardan daha yüksəkdə dayanmağa və hakimiyyətdə müvafiq mövqe tutmağa imkan verir. Karleylin nəzəriyyəsi dövlət siyasətini liderin keyfiyyətləri və məqsədlərindən asılı vəziyyətdə qoyan fərdiyyətçilik (volyuntarist) konsepsiyalarının parlaq nümunəsidir. Onun əsas müddəaları liderlərin müxtəlif psixoloji, ideoloji və digər keyfiyyətlərinin təsvirini özündə ifadə edirdi. Bu müddəalar XIX-XX əsrlərdə K.Berdom, Y.Vyatr, E.Boqardus, R.Taker, R.Emerson, K.Stiner, D.Qoy və başqa alimlər tərəfindən inkişaf etdirildi.

Müasir siyasi nəzəriyyələrdə siyasi liderliyin qiymətləndirilməsinə dair müxtəlif cərəyanlar formalaşıb. Siyasi liderliyin təsvirində nüfuzlu və geniş yayılmış üsul siyasi liderliyin təbiətini şəxsi yox, xarici faktorlarda axtaran **situasiya konseptidir.** T.Hilton, V.Dill, R.Stoqdil, A.Qoldiyer və digər alimlər liderə situasiyanın funksiyası kimi baxırlar ki, bu da onun şəxsi keyfiyyətlərinə münasibətdə xarici şəraitin üstün rolunu göstərir. Liderin müəyyən şəxsi keyfiyyətlərinin əhəmiyyətini inkar etməyən bu alimlər, onları xarici mühitin dinamikasından asılı vəziyyətə qoyurlar. Situasiya tərəfdarlarının etirafına görə, lider asılı bir şəxsiyyət kimi elə xüsusiyyət və əlamətləri nümayiş etdirməyə məcburdur ki, onlar hadisələrin gedişi, məsələn, müharibə, iqtisadi böhran, ölkənin uğurlu inkişaf dövrü və s. situasiyalarla proqramlaşdırılır. Bununla bərabər, ayrı-ayrı alimlər, o cümlədən kiçik M.Şlezincer belə asılılığı mütləqləşdirərək liderə irqin, sinfin,

millətin, tərəqqinin, ümumi iradənin nə az, nə çox "oyuncağı" kimi baxırlar. Lakin istənilən halda liderin şəxsi keyfiyyət və daxili muxtariyyətini məlum dərəcədə azaldaraq, bu yanaşmanın tərəfdarları onun fəallığının mənbəyini cəmiyyət və xarici mühit əlaqələri sferasına aid edirlər.

Geniş yayılmış digər bir cərəyanın – **şəxsi-situativ** yanaşmanın tərəfdarları liderin fəaliyyətini determinasiya edən daxili və xarici amillərin rolunun tanınmasıyla kompromis tapmağa çalışırlar (Q.Gerts, E.Uesbur, C.Braun, K.Keys və b.). Bu cür konsepsiyalardan ən səciyyəvisi **"konstituentlər nəzəriyyəsidir"** (latınca *constituere* – müəyyən etmək). Həmin nəzəriyyəyə görə, lider ona münasibətdə xarici tərəfdarlar qrupunun (konstituentlərin) ümidlərinin yalnız ifadəçisidir. Buna dörə də liderin öz statusuna uyğunluğu şəxsi keyfiyyətləri ilə deyil, daha çox onun yüksəlməsinə yardım edənlərin maraqlarını təminetmə bacarığı ilə müəyyən olunur. Üstün xarici təsirlər səbəbindən lider onu dəstəkləyən dairələrin "marionetinə", "oyuncağına" çevrilərək öz müstəqilliyini və təşəbbüskarlığını itirir. Bu cür yanaşmalar real siyasətdə geniş yayılıb. Məsələn, ABŞ-da Morqan və Rokfeller klanları, Fransada isə ən varlı "200 ailə" böyük təsirə malikdirlər. Kruppun 1952-ci ildə "biz cənab Hitleri işə götürdük" mülahizəsi də siyasi dairələrdə yaxşı məlumdur.

Siyasi liderliyin müasir səciyyəvi şərhlərindən biri də **bazar nəzəriyyəsi** əsasında verilir (N.Frolix, C.Openqeymer, O.Yanq və b.). Bu nəzəriyyəyə görə, lider xüsusi növ nemətlərin (təhlükəsizlik, ədalət və s.) ticarətçisi kimi çıxış edir. Onun məqsədi isə müəyyən məsələlərin həllinə səfərbər edilən və real sərf olunan resurslar arasındakı fərqlərdən gəlir əldə etməkdir. Ona görə də liderlər vergi ödəyiciləri vəsaitlərinin qənaəti, dövlət ehtiyatlarının səmərəli istifadəsi, iqtisadi və siyasi risklərin minimallaşdırılması və s. qayğısına qalmalıdırlar.

Liderliyin təbiətini və təyinatını izah edən müasir nüfuzlu doktrinalar sırasına **relyasion nəzəriyyə də** (latınca *relativus* – nisbi) daxildir (C.Şennon, L.Seliqmen). Bu nəzəriyyəyə görə, arqumentlər və sübutlar həm xarici mühitə, həm də hakim şəxsin fərdi keyfiyyətlərinin, həmçinin liderin davranışını müəyyən edən şəraitin və digər halların xüsusiyyətlərinə aid olan amillərin kompleks, sistemli hesaba alınması əsasında qurulmalıdır. Relyasion nəzəriyyə çərçivəsində liderlərin səmərəli seçilmə və hazırlanma metodikaları yaradılır.

Müasir siyasi elmdə liderlik məsələləri ilə bağlı fəal müzakirə olunan problemlər sırasında siyasi liderliyin **funksiya** və **tipologiyalarını** qeyd etmək lazımdır.

**Təşkilati-idarəetmə** funksiyaları ən mühüm əhəmiyyət kəsb edir. Bu funksiyalar qərarların hazırlanması, qəbulu, reallaşdırılması, həmin prosesdə iştirak edən strukturların fəaliyyətinin əlaqələndirilməsi və s. bağlı bir çox işləri nəzərdə tutur. Qeyd olunur ki, hakimiyyət və idarəetmə iyerarxiyasında liderin ən ali mövqeyi onun həm bütövlükdə cəmiyyətin inteqrasiyasına (kütlələrin birləşdirilməsinə) yönəlmiş məqsədyönlü səylərini, həm də siyasi, ilk növbədə, dövlət strukturları və həyatın təşkilatı formaları ilə həmrəyliyinin gücləndirilməsini təxmin edir.

Hakimiyyət nümayəndəsi kimi liderin öz rolunun güclənməsinə və hakim rejimin sabitliyinin saxlanılmasına marağı onu **münaqişələri minimallaşdırmağa** təhrik edir. Beləliklə, siyasi liderlik mövcud hakim rejimin əsas sabitlik amilidir.

Əhali ilə xüsusi mənəvi-əxlaqi münasibətlərin subyekti olaraq siyasi lider **kommunikativ** funksiyanı yerinə yetirir. Bu funksiyanın həyata keçirilməsi prosesi zamanı cəmiyyətin gözündə o, əhalinin hüquq və azadlıqlarının təminatına və nəticə etibarilə rejimin ümumi fəaliyyətinə şəxsi və siyasi məsuliyyət daşıdığını özündə təcəssüm etdirir. Həmin məqsədlərə doğru gedərkən, lider xalqın adət və ənənələrinə,

siyasi reallıqları anlama və dərketmə səviyyəsinə diqqətlə yanaşmağa, onun nöqsanları və səhvlərinə qarşı səbirli olmağa borcludur.

Liderin əsas vəzifəsi ilə yanaşı, digər bir vəzifəsi dövlət və cəmiyyətdə bu və ya digər konkret problemlərin həlli üçün əhalinin fəallığını **səfərbər** etməkdir. Burada liderin əhalini rejimlə həmrəy olan hər hansı fəaliyyətə ruhlandırmaq bacarığı, şəxsi nüfuzu birinci dərəcəli rol oynayır. Mütəxəssislər həmçinin hakim elitanın **birləşdirmə** funksiyasını, onun daxili bütövlüyünün möhkəmləndirilməsini, digərlərinə, məsələn, müxalifətçi qruplara münasibətdə rəqabət qabiliyyətinin yüksəkldilməsini qeyd edirlər. Bunlarla yanaşı, başqa funksiyalara da diqqət yetirilir.

Siyasi liderin yerinə yetirdiyi vəzifələrin və onların həyata keçirilmə şərtlərinin müxtəlifliyi liderlik tipologiyasında öz əksini tapır. Sonuncunu ən inkişaf etmiş nəzəri komponentlərdən biri hesab etmək olar. Belə ki, müasir siyasi elmdə liderləri hakimiyyətə nəzarətetmə dərəcəsinə görə (iqtidar və müxalifət), fəaliyyətinin miqyasına görə (ümummilli və regional), davranış tərzinə görə (avtoritar və demokratik), rəhbərliyin xarakterinə görə (formal və qeyri-formal), sosial dəyişikliklərə və islahatlara münasibətinə görə (mühafizəkarlar, islahatçılar, doqmatiklər, fundamentalistlər), siyasi hərəkat məqsədlərinə münasibətinə görə (ideoloqlar, idealistlər, praqmatiklər) fərqləndirirlər.

M.Veber tərəfindən verilmiş siyasi liderliyin klassik nəzəriyyəsi ilə yanaşı (ənənəvi, rasional-leqal və xarizmatik tiplər), K.Hockinston və M.Hermanın işləyib hazırladıqları tipologiyalar da geniş yayılmışdır.

Amerikalı alim K.Hockinston aşağıdakı lider tiplərini müəyyənləşdirir:

Hakimiyyətdə öz şəxsi, eqoist maraqlarının reallaşdırılmasına nail olmağa istiqamətlənən – **lider - karyerist.**

Hakimiyyət sferasında təmsil etdikləri vətəndaşların maraqları üçün fəaliyyət göstərən – **lider - siyasətçi.**

Hakimiyyətin təşkili prosesində aparat strukturlarından və mexanizmlərindən səmərəli istifadə edən – **lider - texnik.**

Siyasətdə yüksək məqsədlər naminə və ideoloji məqsəd və dəyərlərin reallaşdırılması naminə fəaliyyət göstərən – **lider - şair.**

Digər amerikalı alim M.Herman aşağıdakı tiplər fərqləndirir: yüksək ictimai nüfuza malik **lider - bayraqdar;** xidmətləri dəstəkləməyə dəyişmək üçün ticarət (alver) aparmağa imkan verən davranış tərzini təcəssum etdirən **lider - tacir (alverçi);** əhalinin maraqları naminə mühafizəkar (köhnə) şəraitdə müvəffəqiyyətlə fəaliyyət göstərən **lider - xidmətçi;** böhran şəraitində işləmək bacarığını nümayiş etdirən **lider-yanğınsöndürən;** öz yaxın ətrafının maraqlarından və iradəsindən asılı olan **lider-marionet.**

Siyasi liderlik probleminə son illərdə MDB ölkələrində fəal münasibət bildirilir. Azərbaycan Respublikasında da politoloqlar, psixoloqlar, filosoflar və sosioloqlar həmin problemi təhlil etməyə başlamışlar.[1] Məsələylə bağlı akademik R.Mehdiyevin "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq"[2] adlı məqaləsində açıqlanan fikirləri çox böyük maraq doğurur.

---

[1] Bax: Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001.

[2] Mehdiyev R. Göstərilən əsəri, s.9-22.

# IV BÖLMƏ

## EMPİRİK SİYASİ NƏZƏRİYYƏ

Empirik (latınca *empirika* – təcrübə), yaxud təcrübəyə əsaslanan, faktlar üzərində formalaşan siyasi nəzəriyyədə iki istiqamət fərqləndirilir. Birinci istiqamət, M.Veber ənənələrinə müvafiq olaraq, diqqəti əsasən tarixi perspektivdə sosial gerçəkliklərin rekonstruksiyasına yönəldir.

E.Dyurkheym ideyalarına uyğun olan və O.Kontun şərhində fransız pozitivizminin güclü təsirinə məruz qalan ikinci istiqamət əsasən reallıqların modelləşdirilməsi ilə əlaqədardır. Bütövlükdə isə siyasi elmin xüsusi bir sahəsi kimi, empirik siyasi nəzəriyyə siyasət dünyasının tətbiqi səviyyəsini, həmçinin siyasi və sosial aktorların səciyyəvi tipləri olan yeni ictimai hərəkatları öyrənir.

Empirik siyasi nəzəriyyənin əsas məsələləri sırasına **yeni ictimai hərəkatlar, siyasi feminizm, vətəndaş cəmiyyəti, tətbiqi siyasi analiz, siyasi qərarların qəbul edilməsi** məsələləri və s. aiddir.

Qeyd etmək lazımdır ki, empirik siyasi nəzəriyyə özünün sürətli inkişafına davranış inqilabı dövründə başlamışdı. Məhz bu zaman (XX əsrin 50 – 60-cı illərində) dövlətin metafiziki nəzəriyyələrinə yetirilən diqqət ayrı-ayrı qrup və fərdlərin davranışlarının dərin təhlili ilə əvəzlənmişdi. Yenidən A.Bentli nəzəriyyəsi kimi konsepsiyalara maraq artmışdı.[1] Davranış inqilabı dövrünün görkəmli nəzəriyyəçiləri E.Kempbell, F. Konvers, U.Miller və D.Stouksun "Amerika seçicisi" (1960), Q.Almond və S.Verbanın "Vətəndaş mədəniyyəti" (1963),

[1] Bentley A. The process of government. Bloomington, 1949.

S.Lipset və S.Rokkanın "Partiya sistemi və seçicilərin bölünməsi" (1967) əsərləri işıq üzü gördü. XX əsrin 70-ci illərinin sonunda özünə həm empirik, həm də normativ elementləri daxil edən ortasəviyyəli nəzəriyyələr aktuallaşdı, empirik politoloji tədqiqatlar isə geniş vüsət aldı. Bu dönəmdə siyasi silsilələrin tipologiyası işlənib hazırlandı, aktorların öyrənilməsi önə çəkildi. O dövrün nəzəri tədqiqatlarında, əsasən, sosial əməkdaşlıq vasitəsi ilə cəmiyyətin təşkil edilməsinin və idarə olunmasının müxtəlif üsulları təhlil predmetinə çevrilirdi. Burada ən vacib istiqamətlər aşağıdakılar idi:

- konsotsiativizm;[1]
- neokorporativizm;[2]
- sosiyetal əməkdaşlıq konsepsiyası;[3]
- universal siyasi mübadilə nəzəriyyəsi;[4]
- ictimai inkişafı istiqamətləndirən mərkəz kimi başa düşülən, dövlətin müxtəlif modellərini təqdim edən nəzəriyyələr. Məsələn, "siyasi kibernetika"[5], "fəal cəmiyyət nəzəriyyəsi"[6].

---

[1] Lijphart A. Democracy in plural sosieties. New Haven (Conn): Yale University Press, 1977

[2] Schmitter P. İnterest intermediation and regime governability in contemporary western Cambridge: Cambridge University Press, 1981. P. 287-330.

[3] Willke H. Entzauberung des Staates. Überlegungen zu einer sozietalen Steuerungstheorie. Koningstein: Athenaum. 1983.

[4] Marin B. (ed) Generalized political exchange. Boulder (Colo): Westview, 1990.

[5] Deutsch K.W. The nerves of government. New York: Free Press, 1966.

[6] Etzioni A. The active society. New York: Free Press, 1968.

## §1. Yeni ictimai hərəkatlar

Son 25-30 ildə (XX əsrin 80-ci illərindən başlayaraq), məqsədləri maddi rifah və yüksək sosial statusun əldə edilməsi olmayan ictimai hərəkatların sayı əhəmiyyətli dərəcədə artmışdır. Bunların sırasına **ekoloji (ətraf mühitin müdafiə olunması), patsifist (sülhün qorunması), milli müqavimət, feminizm, milli mədəniyyətin inkişafını dəstəkləyən və s. hərəkatları** daxil etmək olar. Əksər hallarda bu hərəkatların əsas məqsədi sosial başlanğıcın siyasiləşməsidir. Bundan başqa, həmin sıraya sosial və mədəni əlaqələrin ən müxtəlif tiplərinin öyrənilməsi və müqayisəedilməsi cəhdləri də aiddir. İngiltərə sosioloqu E. Giddens hesab edir ki, əhalinin siyasi mədəniyyətinin, demokratiyanın, vətəndaş cəmiyyətinin inkişafı ilə sosial hərəkatlar qarşı durduqları bürokratik strukturlar qədər tipik olurlar. Sosial hərəkatların əsas tiplərinin sistemi Devid Aberlen tərəfindən təklif olunub. Həmin sistemə əsasən onlar aşağıdakılardır:

- cəmiyyətdə dərin, radikal dəyişikliklərə yönəlmiş **transformasiya hərəkatları** (məsələn, inqilabi hərəkatlar, milli-azadlıq hərəkatları);
- ictimai həyatın ayrı-ayrı tərəflərinin dəyişilməsinə yönəlmiş **islahatçı hərəkatlar** (o cümlədən gənclər, feminist, irqçilik əleyhinə, ekoloji hərəkatlar);
- insanları "günahkar", yaxud haram həyat formalarından xilas etməyi qarşılarında məqsəd qoyan **xilasetmə hərəkatları** (dini hərəkatlar);
- insan həyatının fərdi üslubunun qismən dəyişilməsini nəzərdə tutan **alternativ hərəkatlar.**

İctimai hərəkatların səciyyəvi xüsusiyyətlərini izah edərkən, mütəxəssislər xüsusi vurğulayır ki, bu hərəkatlar dövlət hakimiyyəti üzərində nəzarəti həyata keçirir, ya onu dəstəkləyir, ya da ona etiraz edirlər. Yaranan problemlərin alternativ həlli yollarını təklif edərək, həmin hərəkatlar dövlət

hakimiyyətinin fəaliyyətini tamamlayırlar. Lakin bəzi ictimai hərəkatlar cəmiyyətdəki başqa maraqlara məhəl qoymadan, öz fərdi maraqlarını üstün tutur, onların gerçəkləşməsini təkid edir və beləliklə, destruktiv funksiyanı həyata keçirirlər.

Bütövlükdə ictimai hərəkatların şaxələnmiş sistemi vətəndaş cəmiyyətinin inkişafının və onun maraqlarının strukturlaşmasının göstəricisidir. Həmin hərəkatlar vasitəsilə vətəndaşlar öz tələblərini bildirir, hətta siyasi kursun dəyişilməsinə belə nail ola bilirlər. Öz növbəsində dövlət, onların köməkliyi ilə konkret informasiyanı toplayaraq, əhaliyə dəstək üçün müraciət edə bilir.

Son zamanlar meydana gələn bir sıra siyasi nəzəriyyələr məhz "yeni sosial hərəkatlar" və ya "yeni ictimai hərəkatlar" adlanan hərəkatların xüsusiyyətlərinin dərk və izah edilməsinə istiqamətlənmişdir.[1]

Onları ən azı iki səbəbə görə "yeni" kimi təqdim edirlər. Birincisi, bu hərəkatların meydana gəlməsi və fəaliyyəti ilə bağlı olan məsələlər ümumilikdə əsas vətəndaş hüquqları problematikasına daxil edilmək və iqtisadi hüquqları genişləndirmək üçün istifadə olunmur. Həmin məsələləri daha çox sosial problem kimi səciyyələndirmək olar.

İkincisi, bu hərəkatların təşkilat formaları siyasi partiyalar və ittifaqlar kimi kütləvi hərəkatlar üçün səciyyəvi olan modellərdən fərqlənir. Siyasi partiyalar və ittifaqlarda vahid şəklə salınaraq unifikasiya olunmuş bürokratiya bütün mövcud resursları özünün hakimiyyətini gücləndirmək üçün səfərbər etməyə cəhd göstərir. Bunun əksinə olaraq, yeni sosial hərəkatlar isə hər biri xüsusi prinsipləri və fəaliyyət metodlarına malik nisbətən kiçik qrupların lokal xarakter

[1] Mellucci A. Nomads of the present. London // Hutchinson Radius, 1989; Moores C., Sears A. The new social movements and the withering away of the state theory // Organizing Dissent / Ed. by W.K. Carroll. Toronto: Garamond Press, 1992. P. 52-68.

daşıyan şəbəkəsini yaratmağa çalışırlar. Bununla belə, onlar ayrı-ayrı etiraz aksiyalarında digər qruplarla da birgə iştirak edirlər.

Qərb politoloqları yeni sosial hərəkatların kompleks nəzəriyyələrini deyil, yalnız bəzi aspektlərini işləmişlər.[1] Müasir cəmiyyətin plüralist sisteminin müstəqil elementləri getdikcə daha inadla mövcudiyyət hüquqlarını elan edir. Bir qayda olaraq, onların tələblərini məhz yeni ictimai hərəkatlar səsləndirir. Bu ondan xəbər verir ki, biz sosial hərəkatlar cəmiyyətinə doğru addımlayırıq. Özü də, empirik tədqiqatlarda qeyd edildiyi kimi, bu hərəkatlar əsas siyasi proseslərin ilkin mərhələləri – problemlərin müəyyən edilməsi və siyasi kursun işlənib hazırlanması üçün çox əhəmiyyətlidir. Sonrakı mərhələlər – qərarların qəbul edilməsi, onların gerçəkləşdirilməsi və onlara qiymət verilməsi çox vaxt maraq qrupları və siyasi partiyalar kimi ənənəvi institutlar və təşkilatlanmış siyasi qüvvələr tərəfindən həyata keçirilir.

Əgər müasir siyasəti, insanların ümumi problemləri müzakirə etmək üçün toplaşdıqları, özlərinin həyat şəraitini yaxşılaşdırılması məqsədi ilə tələblər irəli sürdükləri bir proses kimi qəbul etsək, onda belə qənaətə gəlmək olar ki, bu yönümdə siyasət daha çox ictimai həyata nüfuz edir. İctimai həyat isə dövlət maraqları ilə əlaqəli olmayıb, dövlət hakimiyyətinin fəaliyyətini istiqamətləndirir. Y.Habermasın "Publik sahənin struktur transformasiyası"[2] adlı əsəri yenidən, XX əsrin sonunda siyasətin partisipator problemləri və cəmiyyətin tənqidi tədqiqiylə məşğul olan politoloqların diqqətini çəkməyə başladı. Bu nəzəri istiqamət çərçivəsində

[1] Goodin R.E. Green political theory. Oxford: Polity, 1992.

[2] Habermas J. The structural transformation of the public sphere/ Trans. by T. Burger, F. Lawrence. Cambridge: MIT Press. 1989. originally published 1962.

siyasi məsələlərin azad müzakirə edildiyi müasir **vətəndaş cəmiyyəti konsepsiyası** yaradıldı.

## §2. Vətəndaş cəmiyyəti

Vətəndaş cəmiyyəti konsepsiyası XX əsrin 80-cı illərində Şərqi Avropa ölkələrində müxalif hərəkatlar tərəfindən geniş istifadə olunurdu. Bu da nəzəriyyənin inkişafına müəyyən təsir göstərmişdir. Bundan başqa, həmin konsepsiya Cənubi Afrika və Latın Amerikası ölkələrinin müxalifətçi hərəkatlarında əhəmiyyətli rol oynamışdır.

Vətəndaş cəmiyyəti konsepsiyasının aparıcı tərəfdarları sırasına C.Kin, C.Koen və E.Arato kimi məşhur tədqiqatçıları aid etmək olar.[1] Vətəndaş cəmiyyəti insanları könüllü assosiativ fəaliyyət prinsipi əsasında birləşdirir. Buraya, dövlət və korporativ iqtisadi institutlarla heç bir əlaqəsi olmayan çoxsaylı vətəndaş birlikləri, xidmət sahəsindəki qeyri-kommersiya təşkilatları daxil olur. Vətəndaş cəmiyyətinin fəaliyyət göstərməsi üçün söz, toplaşma və assosiasiyaların azadlığını müdafiə edən güclü liberal dövlətin mövcudluğu tələb olunur. Həm Koenin, həm də Arato ilə Kinin birgə yazdıqları əsərlərində vətəndaş cəmiyyəti demokratiyanın dərinləşməsi və möhkəmlənməsi uğrunda mübarizə arenası kimi nəzərdən keçirilir. Vətəndaş cəmiyyətinin dövlətə təsirinin gücləndirilməsi sonuncunun bürokratik funksiyalarının ixtisar olunması və tənzimlənməsi, könüllü kütləvi təşkilatların ixtiyarında olan ictimai həyat sahələrinin genişlənməsi hesabına mümkündür.

---

[1] Keane J. Public life in late capitalism. Cambridge: Cambridge University Press, 1984; Keane J. Democracy and civil society. London: Verso, 1988; Cohen J. Class and civil society. Amherst: University of Massachusetts Press, 1983; Arato A., Cohen J. Civil society and political theory. Cambridge (Mass): MİT Press, 1992.

Vətəndaş cəmiyyəti nəzəriyyəsi son zamanlar keçmiş Sovet İttifaqı ölkələrində hərtərəfli inkişaf etdirilir. Həmin nəzəriyyə siyasətin kütlələrin ictimai fəaliyyəti kimi dərk edilməsinin formalaşmasında əhəmiyyətli rol oynayır.

Ümumiyyətlə, son onilliklər ərzində vətəndaş cəmiyyəti bütün dünyada həm dövlət xadimləri, həm də siyasət nəzəriyyəçilərinin çıxış və yazılarında ən çox istifadə edilən anlayışa çevrilmişdir. Bu anlayış XX əsrin sonu – XXI əsrin əvvəllərində müəyyən mənada ictimai idealın sinonimi kimi irəli sürülür və qəbul edilir. Çox vaxt belə bir fikir əsaslandırılır ki, əgər vətəndaş cəmiyyəti fenomeni varsa, onda həyat həmahəngdir, insanlar azaddır və müdafiə olunurlar. Əgər yoxdursa, demək, dövlətin istibdadı hökm sürür, cəmiyyət parçalanmadan əzab çəkir, adi bir insan isə yalnız oliqarxik elitalar və mafioz klanların manipulyasiya obyektinə çevrilir.

Müasir xarici ədəbiyyatlarda vətəndaş cəmiyyəti əsasən aşağıdakı kimi başa düşülür:

1. **Vətəndaş cəmiyyəti istənilən normal siyasi birliyin inkişafının zirvəsidir.** Bu yanaşmaya görə, Qərb cəmiyyətləri çox inkişaf etmiş cəmiyyətlərdir və burada "Sivil Society" (vətəndaş cəmiyyəti) mövcuddur. Şərqi Avropa, Asiya və Afrika isə inkişaf etməkdə olan bölgələr və cəmiyyətlərdir, gec-tez burada da vətəndaş cəmiyyəti formalaşacaq və eyni zamanda ona xas olan digər fenomenlər də meydana çıxacaq (bazar iqtisadiyyatı, rəqabətli demokratiya, ümumrifah dövləti). Belə bir halda vətəndaş cəmiyyətinin yaranması və inkişafı XX əsrin 60-cı illərinin ümumi modernləşmə nəzəriyyəsi səviyyəsində izah edilir;

2. **Vətəndaş cəmiyyəti, cəmiyyətin elə bir vəziyyətidir ki, o, müxtəlif xarici şəraitlərdən asılı olmayaraq həmişə və hər yerdə mövcuddur.** Bu yanaşmada vətəndaş cəmiyyəti, ümumiyyətlə, "cəmiyyət" anlayışının sinonimi kimi götürülür;

3. **Vətəndaş cəmiyyəti unikal sivilizasiya şəraitinin unikal bir məhsuludur.** Bu yanaşmaya görə, vətəndaş

cəmiyyəti yalnız o şəraitdə yaranır ki, burada protestant icmalar və ümumiyyətlə, Qərbi Avrópaya xas olan dini-mədəni kontekst (əsasən protestantizm) və yəhudi-xristian dünyagörüşü mövcuddur. Çində, Hindistanda və hətta Şərq xristianlığı mövcud olan bölgələrdə vətəndaş cəmiyyəti haqqında düşünməyə belə dəyməz.

Son zamanlar Qərb alimləri çox dəbdə olan sivilizasiya determinizmindən bəhrələnərək, əsasən, üçüncü yanaşmaya daha çox meyil nümayiş etdirirlər. Məsələn, Amerika tədqiqatçısı Cessika Metyuz yazır ki, Yaponiya, Çin, Yaxın Şərq və digər bölgələrdə məhz mədəni şərait vətəndaş cəmiyyətinin yaranması və inkişafına maneələr törədir.[1] Bu məsələ ilə bağlı bütün dünyada məşhur olan amerikalı politoloq S. Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsini yada salmaq yerinə düşərdi. Bu nəzəriyyəyə uyğun olaraq dünyada hazırda bir neçə mədəniyyət mövcuddur ki, onlar vesternləşməyə (qərbləşməyə) məruz qalmaq istəmir, öz saflıqlarını saxlamaq niyyətindədirlər, bütün vasitələrlə "Atlantik dalğanın" təsiri altına düşməkdən özlərini qoruyurlar. S.Hantiqton bir siyasi mütəfəkkir kimi, heç də onları öz mədəniyyətinin təsiri altına salmaq fikrində deyil, əksinə, o, özünü başqa mədəniyyətlərin barbar ənənəsindən xilas etmək arzusundadır. Bu yanaşmanı bölüşən alimlərə görə, vətəndaş cəmiyyəti çox gözəl bir fenomendir. Lakin onlar həmin fenomeni məxsus olduqları mədəniyyət tərəfindən özəlləşdirmək və yalnız özlərinin daxili istifadəsi üçün saxlamaq niyyətindədirlər. Son onilliklər vətəndaş cəmiyyəti problemi ilə bağlı çox məsələlər, o cümlədən vətəndaş cəmiyyətinin modernləşmə və postmüasirlik konsepsiyaları, vətəndaş cəmiyyətinin modelləri, qlobal vətəndaş cəmiyyəti, onun fəaliyyət növləri, transmilli korporasiyalar, korporativ vətəndaşlıq və vətəndaş cəmiyyəti, Şərq ölkələrində vətəndaş

---

[1] Matheyws J. Power Shift. "Foreign Affairs". 1997. p. 53.

cəmiyyətinin inkişaf xüsusiyyətləri, postsovet ölkələrində vətəndaş cəmiyyətinin spesifikası və s. problemlər mütəxəssislərin diqqət mərkəzindədir.

Azərbaycan Respublikasında da politoloqlar vətəndaş cəmiyyəti problemini böyük maraqla araşdırırlar.[1]

## §3. Siyasi feminizm

Müasir siyasi feminist konsepsiyalar empirik və analitik siyasi nəzəriyyələrin tərkib hissəsini təşkil edirlər.

Feminizm sözü (lat. femina – qadın) sosialist- utopist Şarl Furye tərəfindən XVIII əsrin sonlarında elmi dövriyyəyə gətirilmişdir. O, qadın hüquq bərabərliyinin tərəfdarları olanları feminist adlandırırdı və hesab edirdi ki, "qadınların sosial vəziyyəti ictimai inkişafın göstəricisidir". "Feminizm" anlayışının hələlik ümumi qəbul edilən izahı mövcud deyildir. Elmi ədəbiyyatlarda bu terminin 300-dən çox tərifinə rast gəlmək olur. Feminizm "etika və metodologiya" (A.Riç), "qüvvələr balansını dəyişməyə yönəlmiş siyasət" (K.Vidon), "insanların cinsinə görə hakim mövqe tutmasına qarşı yönələn sosial-iqtisadi və siyasi öhdəliklərin müəyyənləşdirilməsi" (B.Xuks) və s. kimi adlandırılır və başa düşülür.

Siyasi elm üçün aşağıdakılar mühüm əhəmiyyət kəsb edir:

1) tarixi keçmişdə və indiki dövrdə qadınların istismarını və kişilərin üstün mövqeyə malik olmalarını, həmçinin kişi

---

[1] Bax: İlham Əliyevin Prezidentliyini 365 günü və vətəndaş cəmiyyəti. B. 2004; Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. B. 2006; Yenə onun. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B.2004. Həsənov R. Azərbaycanda informasiya prosesləri və vətəndaş cəmiyyətinin formalaşması / "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". 2005. №3(11), s. 130-140. Yenə onun: Формирование гражданского общества в условиях трансформации. Баку. 2003; Quliyev A. Vətəndaş cəmiyyəti və onun qurulmasında QHT-lərin rolu / "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". 2007. №2(18), s.161-165.

dominantlığının qarşısının alınması yollarını təhlil edən sosial-iqtisadi nəzəriyyələr;

2) qadınların bərabər hüquqları və imkanları uğrunda geniş sosial hərəkatlar.

Hazırda feminizmdə keçən əsrin 60-cı illərində ayrılmış müxtəlif istiqamətlər mövcuddur. O vaxtdan bəri feministlər "feminizmdə cərəyanlar" termininin əvəzinə, "feminizmlər" sözünün elmdə qəbul olunmasına çalışırlar. Feminist nəzəriyyəsi analitiklərinin fikrincə, "feminizmlər" anlayışı demokratik plüralizm ilə uzlaşır və istənilən totalitarizmə hədədir, çunki o, adekvat şəkildə bütün qadınlar üçün vahid azadlıq nəzəriyyəsinin yaradılmasının mümkünsüzlüyünü əks etdirir. Bu isə onunla bağlıdır ki, müxtəlif qadınların sosial-mədəni təcrübəsi və statusu irqi, sinfi, dini, psixoloji və digər çoxsaylı faktorlarla müəyyənləşir.

Feminizmlər coğrafi cəhətdən (Amerika, Avropa, postsovet, postsosialist), etnik nöqteyi-nəzərdən (ağ, qara, rəngli), konfessional baxımdan (xristian, formalaşmaqda olan islam), metodlarına və fəaliyyət istiqamətlərinə görə (ekofeminizm, pasifist, separatçı), ideologiyaya görə (liberal, marksist, sosialist, radikal), fəlsəfə və psixologiya cərəyanlarına mənsubiyyətinə görə (modernist, postmodernist, poststrukturalist, psixoanalitik) fərqlənir. Müasir dövrdə ən geniş yayılmış femenizmlərdən **liberal feminizm** (B.Fridan, E.Rossi, C.Riçards, S.Oukin), **sosialist feminizm** (Z.Ayzenstayn, A.Yanq, S.Kokbörn, M.Evans) və XX əsrdə formalaşmış **radikal feminizm** (A.Caqqar, P.Rotenberq, K.Millet, A.Kaedf, S.Fayerstoun, A.Dvorkin, K.Delfi) və sonuncunun davamı olan mədəni feminizmi göstərmək olar[1].

---

[1] Feminist siyasi nəzəriyyənin vəziyyəti və inkişaf xüsusiyyətləri haqqında daha ətraflı bax: Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası, s.105-110

Indi isə müasir feminizmin ən geniş yayılmış növlərinə diqqət yetirək.

**Liberal feminizm** siyasi və hüquqi islahatlar vasitəsi ilə mümkün olan kişi və qadın bərabərliyini bəyan edir. Bu, feminizmdə qadınların öz hərəkətləri və qərarları əsasında kişilərlə eyni hüquqlar qazanmaq bacarığına söykənən fərdiçilik istiqamətidir. Liberal feminizm kişilərlə qadınların arasındakı fərdi qarşılıqlı əlaqəni cəmiyyətin kökündən dəyişilməsinin çıxış nöqtəsi hesab edir. Liberal feministlərin fikrincə, bütün qadınlar kişilərlə bərabər olmaq hüquqlarını tam müstəqil isbat edə bilərlər. Belə mövqe cəmiyyətin ağıl və imkanbərabərliyi prinsipləri haqqında maarifçiliyin klassik konsepsiyasından irəli gəlir. Məhz bu prinsiplərin qadınlara şamil edilməsi nəticəsində hələ XIX əsrdə liberal feminizmin əsası qoyulmuşdur. Bu səbəbdən liberal feminizm üçün qadınların kişilərdən asılı olmadıqlarına təminat verən mülkiyyət hüququ məsələsi çox böyük əhəmiyyət kəsb edir. Liberal feminizmdə, feminizmin digər növlərindən fərqli olaraq hesab edilir ki, qadınların vəziyyətinin yaxşılaşması ictimai strukturlarda radikal dəyişiklik olmadan da mümkündür. Liberal feministlər üçün bərabərhüquqlu səsvermə imkanı, təhsildə bərabərlik, "eyni zəhmətə görə eyni əməkhaqqı" ("Equal pay for equal work" şuarı), tibbi xidmətin hamı üçün əlçatanlığı, qadınlara qarşı məişət və seksual zorakılıq probleminə diqqətin cəlb edilməsi məsələləri xüsusi önəm daşıyır.

**Sosialist feminizm** marksizmlə radikal feminizmin birləşməsi nəticəsində yaranmışdır. Elis Ehols sosialist feminizmi marksizmlə radikal feminizm arasındakı nikahın nəticəsi kimi təsvir edir (özü də marksizm burada dominant partnyor qismində göstərilir). Marksizm isə qadınların istismarını kapitalist və özəl-mülkiyyətçi sistem, sinifli cəmiyyət və ailədə əmək bölgüsü ilə əlaqələndirir. Kapitalist və patriarxal sistemlərinin ləğvi, onların fikrincə, qadın qeyri-

bərabərliyinə son qoyacaq. Lakin bəzi sosialist feministlər belə yanaşmanı, yəni gender istismarının sinfi istismara münasibətdə tabeçilik xarakteri daşımasını kifayət qədər sadəlövh hesab edirlər. Bu səbəbdən də onların səyləri, əsasən, gender fenomenlərinin sinfi fenomenlərdən ayrılmasına yönəlir. Artıq uzun müddət ABŞ-da "Radikal Qadınlar" (Radikal Women) və Azad Sosialist Partiyası (Freedom Socialist Party) feminist təşkilatları xüsusi vurğulayır ki, Fridrix Engelsin və Avqust Bebelin əsərlərində gender və sinfi istismarlarının qarşılıqlı əlaqəsi çox inandırıcı şəkildə sübut edilib.

**Radikal feminizm,** feminizmdə nəzəri fikrin dayağıdır. Radikal feminizm təxminən 1967 – 1975-ci illərdə yaranaraq, 1967 – 1968-ci illərdəki vətəndaş haqları və sülh uğrunda hərəkatdan törəmişdir. Feminizmin bu növünün "radikal" ad qazanması qadınların diskriminasiyasının bütün irqlər, mədəniyyətlər və iqtisadi siniflərdən keçən istismarının əsas forması kimi qəbul edilməsiylə əlaqədardır. Radikal feminizmin başlıca məqsədi – mahiyyətinə görə əsl inqilabi xarakter daşıyan sosial dəyişikliklərdir. Gender rolları məsələsi feminizmin bu növü üçün çox vacib sayılır. Radikal feministlər, ilk növbədə, belə bir sual qoyur: nə üçün bioloji fərqlərə görə qadınlar və kişilər müəyyən sosial rolları mənimsəməlidirlər? Onların fikrincə, bioloji determinasiyalı və mədəni determinasiyalı davranış bir-birindən ayrılmalıdır ki, qadınlar və kişilər özlərinin dar çərçivəli gender rollarından azad ola bilsinlər. Radikal feminizmin ən maraqlı tarixi sənədi kimi, Anne Kaedfin redaktəsi ilə "Radikal feminizm" adlı kitabı göstərmək olar.

**Mədəni feminizm** – radikal feminizmin daha sonra yaranmış bir istiqamətidir. Mədəni feminizm "qadın təbiəti" və "qadın mahiyyəti"nin ideologiyasıdır. O, qadının indiyə kimi kifayət qədər dəyərləndirilməyən fərqli xüsusiyyətlərinə həqiqi dəyərini qaytarmaq niyyətindədir. Mədəni feminizm kişilərlə qadınlar arasındakı fərqi vurğulayır, lakin hesab edir ki, bu fərq

heç də anadangəlmə bioloji deyil, psixoloji və mədəni xarakter daşıyır.

Bu istiqamətin tənqidcilərinə görə, mədəni feministlər qadınlarlın və kişilərin mahiyyət xarakterli fərqlərini tanıyır, qadınların mədəni və institusional müstəqilliyi uğrunda çıxış edir və beləliklə də, feministləri siyasətdən uzaqlaşdıraraq, hansısa "həyat tərzinə" yönəldir. Belə tənqidçilərdən biri, Elis Ehols "mədəni feminizm" termininin elmi dövriyyəyə gətirilməsini radikal feminizmin qeyri-siyasiləşməsi ilə əlaqələndirir (guya Bruk Uilyams bu termindən 1975-ci ildə məhz göstərilən məqsəd üçün istifadə etmişdir). Bütövlükdə mədəni feminizmin özülünü "qadınlar öz təbiətlərinə gorə xeyirxah və mehribandırlar" ideyası təşkil edir. Qeyd olunmalıdır ki, müxtəlif feminizmlər (onların sayı olduqca çoxdur) bir-birini təkrarlayır və feministlər bir neçə cərəyanın nümayəndəsi ola bilərlər.

Lakin feminizmdən söz açarkən unudulmamalıdır ki, onun müsbət tərəfləriylə yanaşı, mənfi cəhətləri də mövcuddur. Bu səbəbdən feminizmin bəzi prinsipləri qəbul olunub, digərləri isə tənqid olunmaqda davam edir. Hətta belə fikir də formalaşıb ki, feminist hərəkatına görə artıq Qərbdə kişilər diskriminasiyaya məruz qalır. Təsadüfi deyil ki, hətta kişi hərəkatları da yaranmaqdadır. Məsələn, "Kişi azadlığı uğrunda hərəkat", "Mikropoetik kişi hərəkatı", "Yeni ənənəçilər", "Atalar hərəkatı" deyilənlərə maraqlı nümunələrdir.

## §4. Tətbiqi siyasi analiz

Tətbiqi siyasi analiz kursu ilk dəfə 1968-ci ildə Kaliforniya Universitetində (Berkli) A. Vildavski tərəfindən tədris edilmişdir. Dövlət poqramlarının qiymətləndirilməsi və müşayiət olunması üzrə bir fəaliyyət kimi siyasi analiz yalnız 1960-cı illərdə Qərb ölkələrinin hökumətləri, xüsusilə də ABŞ hökuməti yoxsulluğa qarşı mübarizə proqramlarını həyata

keçirdikdən sonra dinamik inkişaf etməyə başlamışdır (baxmayaraq ki, elm siyasi analizin əhəmiyyətini xeyli əvvəl dərk etmişdir). O zamandan müxtəlif ölkələrin, ilk növbədə, ABŞ-ın çoxsaylı siyasi analitiklərinin bir sıra peşəkar birlikləri formalaşıb. Belə ki, amerikalı mütəxəssislər praktikayla məşğul olan və universitet alimlərini birləşdirən siyasi analiz və menecment üzrə Amerika Assosiasiyasında cəmləşiblər. Hazırkı dövrdə siyasi analiz problemləri siyasi elmin ən aktual məsələləri sırasına daxildir. Ümumilikdə siyasi analiz xüsusi tədris fənni və elm istiqamətinə çevrilmişdir. Bu gün həmin sahədə vəziyyətin və inkişaf perspektivlərinin necə olmasını aydınlaşdırmaq üçün "siyasi analiz" kateqoriyasının özünü müəyyənləşdirmək lazımdır.

Müasir siyasi ədəbiyyatda "siyasi analiz" anlayışı üç mənada işlədilir: **nəzəri-fundamental, instrumental-empirik** və nəhayət, **praktiki-tətbiqi.**

**Siyasi analizin nəzəri-fundamental** mənası siyasi sahənin, onun strukturu və dinamikasının özül konsepsiyalarını əhatə edir[1]. Belə şərh edilən zaman həmin anlayış bütövlükdə "fundamental-nəzəri siyasi tədqiqatlar" kateqoriyası ilə eyni mənanı verir. Bu cür yanaşma D.İstonun "Siyasi strukturun analizi", R.Dahlın "Müasir siyasi analiz" əsərlərində və başqa elmi tədqiqatlarda yer almışdır.

**İnstrumental-empirik** mənada həmin anlayış ilkin məlumatların toplanması və təsviri, sistemləşdirilməsi və işlənilməsi kimi başa düşülür. Siyasi analizin bu aspekti institusional xarakter alaraq, siyasi elm çərçivəsində "siyasi tədqiqatların metodları və metodikası" adlanan xüsusi istiqamətə çevrilmişdir. Bəzən onu "empirik siyasi analiz" və ya "siyasi elmin tədqiqi metodologiyası və texnikası" adlandırırlar. Nəzəri tədqiqatlarda əsas analitik vahid kimi siyasi prosesin daxilindəki funksional və digər əlaqələri əks

[1] Bax: Дегтярев А.А. Основы политической теории. М., 1998.

etdirən "konsept" götürülürsə, həmin istiqamətə zidd olaraq, burada başlanğıc vahid rolunda "verilənlər", yəni siyasi həyatın bu və ya digər hadisələri haqqındakı ilkin informasiya çıxış edir. Əgər birinci halda analizin əsas vektorunu deduktiv nəticə təşkil edirsə, ikinci halda onun yerini induktiv ümumiləşdirmə tutur. Amerikalı politoloqlar C. Manheym və R. Riçin "Empirik siyasi nəzəriyyə: siyasi elmdə tədqiqat metodları"[1] əsərində bu cür yanaşmadan bəhs edilir.

**Praktiki-tətbiqi** mənada, əsasən, konkret sifarişçi üçün ictimai problemlərin qiymətləndirilməsi və həlli nəzərdə tutulur. Belə sifarişçi rolunda bir qayda olaraq, siyasi aktorlardan biri çıxış edir.

Siyasi analizin fundamental səviyyəsi, adətən, ingilis dilindəki "political analysis", tətbiqi səviyyəsi isə "policy analysis" anlayışı ilə uzlaşır. Bunlardan birincisi "siyasətin analizi", ikincisi "siyasi kursun analizi" mənasını daşıyır. Lakin belə fərqləndirmə kifayət etmir. Çunki siyasi kurs da fundamental səviyyədə öyrənilə bilər. Məhz bu səbəbdən hələ 1970-ci ildə H.Lassvel tərəfindən təqdim edilən fərqləndirmə daha məhsuldar hesab olunur: "fundamental elm siyasi kursun mahiyyətinin analizinə (analysis of policy), tətbiqi elm isə "siyasi kurs çərçivəsində analizə", yaxud "siyasi kurs üçün analizə" istiqamətlənmişdir (analysis in (for) policy).

İndi isə siyasi təhlilin tətbiqi fənn kimi nə olduğunu müəyyənləşdirək. Bu məsələylə bağlı müxtəlif yanaşmalar mövcuddur. Belə ki, Kaliforniya Universitetinin professoru A.Vildavski tətbiqi siyasi analiz sahəsinə ictimai problemlərin aydınlaşdırılması və həlli ilə bağlı fəaliyyəti aid edir.[2] Kanadalı politoloq L.Pal tətbiqi siyasi analizi (TSA) ictimai problemlərin həllinə yönəldilmiş intellektin istifadə edilməsi kimi

[1] Bax: Мангейм Дж. Б., Рич Р. К. Политология. Методы исследования. М., 1997.

[2] Wildavsky A. Speaking Truth to Power: The Art and Craft of Policy Analysis. Boston/ 1979. p.3.

qiymətləndirir.[1] Bundan başqa, Stretçklayd Universitetinin professorları B. Hoqvud və L. Qann tətbiqi siyasi analizi sosial elmin preskriptiv (göstəriş, tapşırıq verən, təyin edən) xarakter daşıyan bir sahəsi kimi izah edirlər.[2] Onların fikrincə, bu sahə müştərinin konkret probleminin həllinə və siyasi fəaliyyətinin planlaşdırılmasına istiqamətləndirilmişdir. Bəzi hallarda TSA sosiotexniki məsələlərə və onların münasib həllinə dərindən nüfuz edən tətbiqi fənn kimi başa düşülür.[3] "Siyasi elmin Blekvell ensiklopediyası"nda siyasi analiz publik problemlərin qarşısının alınmasına yönəlmiş fəaliyyət layihələrinin tərkibi, irəliləyişi və nəticələrinə toxunan "sosial mühəndislik sənəti" kimi müəyyənləşdirilir.[4]

Sözsüz ki, qeyd edilən bütün yanaşmalar siyasi təhlil fenomenini tam şəkildə ifadə etmək iqtidarında deyil.

Siyasi analizə kompleks şəkildə tərif verməyə Pitsburq Universitetinin professoru U.Dann da cəhd göstərmişdir. O, hesab edir ki, siyasi analiz qərarların qəbulu prosesi "daxilində" və "haqqında" biliklərin yaradılması, tənqidi qiymətləndirilməsi və mübadiləsi üzrə intellektual və praktik fəaliyyətdir, həm də müxtəlif tədqiqat metodlarının istifadə edildiyi tətbiqi sosial fəndir. Bunların hər biri praktiki-siyasi baxımdan relevant (işə aid, əsaslı, lazımlı) informasiyanı hazırlamaq, tənqidi qiymətləndirmək və mübadilə etmək üçün zəruridir.[5]

Ən optimal yanaşma Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) professoru A.A.Deqtəryovun

---

[1] Pal L. Policy Analysis: An İntroduction. Scarborough. 1992, p. 16.
[2] Hogwood B., Gunn L. Policy Analysis for the Real World. Oxford. 1984, p.29.
[3] Quade E. Analysis for Publicy Decisions. Englewood Cliffs. 1989, p.4.
[4] Blackwell Encyclopedia of Political Science. L., 1996, p.432.
[5] Dunn W. Public Policy Analysis: An Introduction Englewood Cliffs. 1984, p.84

yanaşması hesab oluna bilər. Onun fikrincə, "TSA – biliyin çoxfənli (multidistiplinar) sisteminin inteqrativ-sintetik istifadəsini tələb edən və problemli siyasi situasiyaların modelləşdirilməsi, diaqnostikası, proqnozlaşdırılmasının ümumi prinsip və xüsusi metodikasının işlənməsinə, həmçinin publik qərarların hazırlanması, qəbulu və gerçəkləşməsi zamanı praktiki tövsiyələrin qısaca və dürüst ifadə edilməsinə yönəldilən siyasi idarəetmə elmidir.[1]

İndi isə tətbiqi siyasi analizin meydanagəlmə və inkişaf xüsusiyyətlərini nəzərdən keçirək.

TSA-nın xüsusi istiqamət kimi meydana gəlməsi XX əsrin ortalarına təsadüf edir. Məhz bu zaman TSA-nın ixtisaslaşması ilə yanaşı, institusionallaşması da baş vermişdir. Hələ XX əsrin birinci yarısında ekspert mühitində tətbiqi sosial elmləri tədris edən universitet professorlarının və praktikayla məşğul olan siyasi analitiklərin birliyi formalaşmışdır. Siyasətçilər arasında nəzəri politoloji fəaliyyəti dövlət təcrübəsiylə ən uğurlu uzlaşdıran ABŞ prezidenti V.Vilson olmuşdur. O, öz karyerasına Harvard Universitetində siyasi elmlər və dövlət idarəçiliyi professoru kimi başlamışdır. Dövlət idarəçiliyində fəal olan digər universitet professorları arasında R. Hilferdinqi (Almaniya), Y. Şumpeteri, O. Baueri (Avstriya) və B.Çiçerini (Rusiya) göstərmək olar.

Bütün XX əsr boyu TSA məhz ABŞ-da sürətlə inkişaf edir və daha səmərəli istifadə olunur, çünki burada təhlil məhsuluna tələb üzvi sürətdə təkliflə əlaqələndirilir. Hələ Ruzveltin yeni kursu dövründə dövlət siyasətinin ayrı-ayrı istiqamətlərini intellektual baxımdan əsaslandıran dövlət agentlikləri yaranmışdır (Resursların Planlaşdırılması üzrə Milli Şura, Federal Mənzil Komissiyası, İctimai İşlər Administrasiyası və s.). İkinci Dünya Müharibəsinin başlanması ilə hərbi

[1] Дегтярев А.А. Политический анализ как прикладная дисциплина: предметное поле и направление развития / Полис, 2004, №1. С. 158.

planlaşdırma və idarəetmə, həmçinin hərbi-siyasi təbliğat və ictimai şüurun manipulyasiya olunması sahələrində analitik təhlillərə maraq kəskin şəkildə artmışdır. Müharibə dövründə bu istiqamətdə Q.Almond kimi görkəmli amerikalı politoloqlar xüsusi fərqlənmişlər. Lakin ABŞ-da siyasi analitika müharibədən sonrakı dövrdə daha çox inkişaf etmişdir ki, bunu müəyyən qədər SSRİ ilə nüvə qarşıdurması şərtləndirmişdir. O zaman ölkədə fəal şəkildə qeyri-hökumət analitik mərkəzlər – beyin trestləri (brain trusts) və ideya fabrikləri (think tanks) yaradılmağa başladı. 1948-ci ildə Hərbi Hava Qüvvələri Nazirliyindən müdafiə layihələrinin hazırlanması üçün sifariş alan "REND Korporeyşn" təsis edildi. Dünyada ilk dəfə məhz "REND" korporasiyasında siyasi analiz üzrə dərsliklər və dərs vəsaitləri yazıldı.[1]

Daha sonra Brukinqs Institutu, İrs Fondu, Urbanistika İnstitutu və s. təşkilatlar meydana gəldi. Nəticədə 1960-cı illərin sonunda ABŞ-da özəl TSA-nın bütöv bir sənayesi formalaşaraq siyasi-təhlil instrumentarisinin yaradılmasına xidmət etmişdir. ABŞ-da siyasi analizin institusional tarixini politoloqlar 1951-ci ildən başlayırlar. Həmin il H. Lassvell və D.Lernerin redaktəsi ilə "siyasi idarəçilik hərəkatına" (policy movement) start verən kollektiv əsər işıq üzü görmüşdür. Monoqrafiyaya giriş məqaləsində Lassvell qeyd edilən hərəkat qarşısında iki məsələ qoymuşdur: ictimai (publik) qərarların səmərəliliyinin artırılmasına imkan yaratmaq, eyni zamanda demokratik prinsipləri və humanist dəyərləri inkişaf etdirərək praktikada tətbiq etmək.[2] Başqa sözlə, burada söhbət demokratik nəzəriyyənin və idarəçilik praktikasının birləşdirilməsi yolu ilə siyasi elmə praqmatik və tətbiqi istiqamət verilməsindən gedirdi.

---

[1] Квейд Э. Анализ сложных систем (Методология анализа при подготовке военных решений) М. 1969; Quade E. göstərilən əsəri.

[2] Lasswell H., Lerner D. (eds) The Policy Sciences: Recent Developments in Scope and Method. Stanford, 1951.

1960 – 70-ci illərdə siyasi analizin universitet fənni kimi institusionallaşması baş verir. 1960-cı illərin sonunda ilk dəfə Kaliforniya Universitetində, daha sonra isə digər aparıcı universitetlərdə tətbiqi siyasi analiz üzrə ixtisaslaşdırılmış kurslar və proqramlar yaradılır, magistr və doktorların hazırlanmasına başlanılılır.

Eyni zamanda digər mühüm proses müşahidə olunur: siyasi analiz xüsusi peşəkar bir sahəyə çevrilir. Federal, regional və bələdiyyə səviyyəli dövlət orqanlarında analitik qruplar formalaşır və onların ştat cədvəllərində standart "analitik" (analyst) vahidləri meydana çıxır.

Məlum olduğu kimi, elmi fənlərin institusionallaşmasının vacib elementlərindən biri də peşəkar birliyin, assosiasiyaların və ixtisaslaşdırılmış jurnalların yaradılmasıdır. Bu proses ABŞ-da 1970 – 80-ci illərdə vüsət almağa başlamışdır. Məhz o zaman siyasi analiz problematikasıyla bağlı jurnallar meydana gəlir: "Policy Sciences", "Policy Studies Journal", "Policy Studies Review", "Journal of Policy Analysis and Management" və s.[1] Analitiklərin peşəkar assosiasiyaları, o cümlədən əsasən politoloqları birləşdirən Siyasi İdarəçilik Tədqiqatları Təşkilatı (Policy Studies Orqanization), sıralarında təcrübəylə məşğul olan iki mindən çox analitik və universitet alimini birləşdirən Siyasi Analiz və Menecment Assosiasiyası (Association of Public Policy Analysis and Management) formalaşmışdır. Peşəkar birliyin yaradılmasında amerikalı analitiklər Ford Fonduna minnətdar olmalıdırlar, çünki fond bu işlərə bir neçə milyon dollar həcmində qrantlar ayırmışdır.

Avropada siyasi analizin institusionallaşması prosesi ABŞ-a nisbətən daha zəif gedirdi. Alman politoloqu H. Uollmanın fikrincə, siyasi analizin inkişafı dörd amildən asılıdır: 1) analitik məhsullara dövlət tələbatının səviyyəsindən; 2) dövlət idarəetmə orqanlarında tarixən formalaşmış təşkilat modelləri və reqlamentlərindən; 3) siyasi elitanın baxışlarından və

---

[1] Hazırda ABŞ-da siyasi analiz ixtisasına aid 400-dən artıq jurnal dərc olunur.

məqsədlərindən; 4) ictimaiyyatşünas alimlərin birliyinin analitik işlərə qatılma bacarığı və hazırlığından.[1]

İngilis politoloqları B.Hoqvud və L. Qann da siyasi analizin milli xüsusiyyətləri barədə eyni cür fikir yürüdürlər.[2]

Ümumilikdə Avropa ölkələrində TSA-nın akademik istiqamət kimi formalaşması 1980-ci illərdə baş vermişdir. Məhz bu dövrdə Böyük Britaniyada siyasi analiz üzrə universitet kursları meydana gəlir. Birminhem, Bristol, Stretçklayd, London Universitetlərində dövlət idarəçiliyi üzrə xüsusi proqramlar yaradılır. Akademik elmin və praktik siyasətin inteqrasiyası və siyasi analizin bələdiyyə menecmentində tətbiq edilməsinin unikal təcrübəsi Uorrik Universitetində toplanmışdır. Dövlət idarəçiliyi sahəsində magistrlərin hazırlanması üçün nümunəvi proqramın tərtib edilməsi ilə yanaşı, burada bələdiyyə idarəçiliyi üzrə universitet mərkəzinin daxil olduğu Yerli idarəetmə Konsorsiumu yaradılmışdır. Həmin konsorsiuma müvafiq ekspert-analitiklərin işlərini maliyyələşdirən 40-a yaxın bələdiyyə daxil idi. Lakin bütün bunlara baxmayaraq, ABŞ-dan geriqalma sona qədər aradan qaldırılmamışdır.

MDB ölkələrinə gəldikdə isə, qeyd olunmalıdır ki, burada TSA-nın bir elmi istiqamət kimi formalaşma vəziyyətinə birmənalı qiymət vermək mümkün deyil. Bu sahənin inkişafı və institusionallaşması nöqteyi-nəzərindən həm ABŞ, həm də Avropadan ciddi geriqalma müşahidə olunur. Onların səviyyəsinə çatmaq üçün MDB analitikləri ilk öncə aşağıdakı üçtərəfli məsələni həll etməlidirlər: fənn sinkretizmindən qurtularaq sahədaxili ixtisaslaşmanı yaratmalı, akademik elm ilə praktik siyasət arasında saxlanılan uyğunsuzluğu aradan

---

[1] Wollman H. Policy Analysis in West Germany's Federal Government: A.Case of Unfinished Governmental and Administrative Modernization – Governance: An International Journal of Policy and Administration, 1989, vol 2, №3.

[2] Hoqwood B., Gunn L. Policy Analysis for the Real World. Oxford, 1984.

qaldırmalı, öz qayda və standartlarına malik olan peşəkar birliyi yaratmalıdırlar.

Bu mənada Rusiya Federasiyasında əhəmiyyətli irəliləyiş yaranıb. Əksər dövlət orqanlarında xüsusi analitik bölmələr vardır. Seçkiqabağı vəziyyətin təhlilindən və seçki kampaniyalarının planlaşdırılmasından tutmuş, ölkə inkişafının uzunmüddətli və ortamüddətli strateji proqnozlaşdırılmasına qədər ən müxtəlif fəaliyyət növləri ilə məşğul olan müstəqil informasiya-analitik və konsaltinq mərkəzləri meydana çıxmışdır. Problemin akademik tərəfinə gəldikdə isə, burada da müəyyən irəliləyişlər göz qabağındadır. Tətbiqi politologiya üzrə kurslar oxunur. Bundan başqa, 2000-ci ildən başlayaraq 40-a yaxın politologiya fakültə və şöbələrində xüsusi "Siyasi analiz və proqnozlaşdırma" kursu tədris olunur. İxtisaslaşdırılmış dövri nəşrlər mövcuddur ("Analitika xəbərləri", "Analitik qeydlər", "Siyasi marketinq", "Ekspert"), siyasi analiz üzrə ilk dərslik və vəsaitlər nəşr edilir.[1]

Azərbaycanda isə siyasi analiz sahəsində səmərəli, verifikasiyaolunan biliklərin formalaşdırılması qarşıda duran mühüm vəzifələrdəndir. Həmin məsələ yalnız akademik məna kəsb etmir: praktiki baxımdan siyasi analiz həm hakimiyyətin, həm də vətəndaş cəmiyyətinin tərəfdaşına çevrilməlidir. Ölkəmizdə artıq həyata keçirilən işlər sırasında ali məktəblərin politologiya fakültələrində "Siyasi analiz", "Siyasi marketinq" və digər müvafiq fənlərin müvəffəqiyyətlə tədris olunmasını qeyd etmək lazımdır.

Nəhayət, TSA-nın istiqamətləri və tipləri üzərində dayanaq. Hazırda TSA-nın daxili strukturunun qiymətləndirilməsinə dair bir neçə yanaşma mövcuddur. Onları ümumiləşdirərək, üç ən

---

[1] Балуев Д. Т. Введение в политический анализ. Нижний Новгород. 2000; Дегтярев А.А. Прикладной политический анализ. Справочник слушателя МВШСЭН. Факультет политической науки. М., 2000; Симонов К.В. Политический анализ. М., 2002.; Туронок С.Г. Политический анализ (курс лекций). М., 2003.; Цукерман А. Введение в политический анализ. М., 1995.

əhəmiyyətli yanaşmaya müncər etmək olar. Fənnin predmet sahəsinin strukturlaşdırılması, əvvəla, siyasi analiz fəaliyyətinin funksiyaları və mərhələləri əsasında, ikincisi, siyasi analizin sahələrinə və obyektlərinə uyğun olaraq, üçüncüsü, ekspertin istifadə etdiyi metodologiya və instrumentari nəzərə alınaraq mümkündür.

**Birinci yanaşmanın** tərəfdarları, adətən, siyasi analizin aşağıdakı istiqamətlərini fərqləndirirlər: problem situasiyanın strukturlaşdırılması və modelləşdirilməsi, məlumatların toplanması və onların deskriptiv analizi, situasiya (müxtəlif vəziyyət və yaranan şəraitin) diaqnostikası, siyasi inkişaf tendensiyalarının proqnozlaşdırılması, idarəetmə tövsiyələrinin işlənib hazırlanması və nəhayət, siyasi fəaliyyətin nəticələrinin qiymətləndirilməsi. Bununla yanaşı, burada təsnifatın müxtəlif variantları mövcud ola bilər. Məsələn, U.Dann TSA-nın beş funksional-prosedur tipindən: **problemin strukturlaşdırılması, situasiyanın proqnozlaşdırılması, tövsiyələrin hazırlanması, aksiyaların monitorinqi və onların nəticələrinin qiymətləndirilməsindən** yazır.[1] B.Hoqvud və L. Qann isə üç funksional-prosedur tipi – **siyasi prosesin "girişləri", "tərkibi"** və **"çıxışlarının"** tədqiqini fərqləndirirlər.[2]

Belə yanaşma çərçivəsində TSA-nın daxilində **"problemin müəyyənləşdirilməsi"** (problem definition), **"siyasi proqnozlaşdırma"** (policy forecasting), **"qərarların analizi"** (decision analysis), **"siyasətin nəticələrinin analizi"** (impact analysis) və **"siyasi planlaşdırma"** kimi nisbətən müstəqil sahələrin mövcudluğu haqqında danışmaq mümkündür.

TSA-nın daxili quruluşunun müəyyənləşdirilməsinə dair **ikinci yanaşmaya** nümunə kimi "Siyasi-idarəçilik tədqiqatların ensiklopediyası"nı göstərmək olar. Burada dövlət idarəçiliyinin **siyasi-institusional** (xarici, müdafiə, elektoral və s. siyasətlər), **iqtisadi** (vergilər, aqrar və büdcə siyasətləri və s.), **sosial**

---

[1] Dunn W. Göstərilən əsəri, p. 14-19.
[2] Hogwood B., Gunn L. Göstərilən əsəri, p. 26

(yoxsulluq, cinayətkarlıq, təhsil və s.), və **elmi texniki** (texnologiyalar, energetika və s.) kimi müxtəlif sahələri xüsusi bölmələr üzrə ayrılmışdır.[1]

Fənnin problem sahəsinin daha kiçik tərkib hissələrinə parçalanmasını amerikalı politoloqlar C.Manheym və R. Riç təklif etmişlər. Onlar TSA-nın müstəqil tiplərinə **qarşılıqlı əlaqələrin, davranışın, institutların, proseslərin** və **proqramların analizini** də aid edirlər.[2] Səciyyəvidir ki, siyasi analizdən hazırda **xarici siyasi analiz, büdcə, iqtisadi, təhsil, elektoral** və **hərbi** siyasətlərin analizi kimi istiqamətlərin tədricən ayrılması müşahidə olunur.

**Üçüncü yanaşma** çərçivəsində tətbiqi tətqiqatlar bir qayda olaraq, sosial və siyasi elmdə üstünlük təşkil edən **sistem, rasional seçim, neoinstitusional, bihevioral** metodoloji məktəblərə uyğun qruplaşdırılır.[3] Bundan başqa, tədqiqat metodlarına görə də qruplaşdırma mümkündür (**"ivent-analiz", "risk-analiz", qimətləndirici tədqiqatlar", "siyasi marketinq"** və s.).[4]

Sözsüz ki, yuxarıda təsvir edilən variantlar TSA-nın tipologiyasının bütün palitrasını əhatə etmir. Belə ki, U. Dannın analitik işləmələrin **"perspektiv"** (siyasi fəaliyyəti qabaqlayan), **"retrospektiv"** (artıq baş tutmuş aksiyaları qiymətləndirən), və **"inteqrasiya edilmiş"** (keçmiş, indiki və

---

[1] Nagel S. (ed) Encyclopedia of Policy Studies. N.Y., 1994.

[2] Мангейм Дж. Рич Р. Анализ общественной политики и оценка программ. /Полис, 1991. №3.

[3] Тюлин И. Т. (ред.) Системный подход: Анализ и прогнозирование международных отношений. (Опыт прикладных исследований) М., 1991., Цукерман А. Указ. Соч.

[4] См. Султанов Ш.З. (ред.) Политический риск: Анализ оценка, прогнозирование, управление. М., 1992; Коноплин Ю.С., Лобанов В.В. Маркетинговый анализ политического имиджа и политического товара. М., 1995; Боришполец К. П. Методы, методики и процедуры прикладного анализа международных отношений. – Цыганков П.А. (ред.) Международные социологические подходы. М., 1998.

gələcək siyasi proseslərin analizini özündə birləşdirən) formalara bölüşdürülməsi təklifi daha maraqlı sayılır. Alim siyasi analizin sonuncu formasını ən məhsuldar hesab edir. Çünki məhz bu formada perspektiv və retrospektiv analizin bütün güclü tərəfləri ifadə edilmişdir. [1]

Sonda qeyd etmək lazımdır ki, Azərbaycan da daxil olmaqla MDB ölkələrində siyasi analiz sahəsində daha çox üç qrup problem aktualdır: siyasi analizin xüsusi istiqamət kimi institusionallaşdırılması və peşəkar sahəyə çivrilməsi ilə bağlı çətinliklər, müasir siyasətdə informasion-analitik işlərə tələbat və tətbiqi tədqiqatların keyfiyyət standartları problemləri.

## §5. Siyasi qərarların qəbul edilməsi

Qərb ölkələrində siyasi qərarların və ya siyasi idarəetmə qərarlarının qəbul edilməsi nəzəriyyəsi (Decision-Making Theory, Policy Making Studies) yarım əsr müddətində siyasi elmin prioritet problemi, həm də müstəqil elm sahəsi kimi tədqiq edilir. Siyasi qərarların qəbul edilməsi, hazırlanması və həyata keçirilməsi üzrə kurslar (Public Policy Making, Policy Process və ya Public Policy) isə siyasi elm fakültələrində, dövlət siyasəti və dövlət idarəçiliyi məktəblərində tədris olunur. Son 35 il ərzində həmin ölkələrdə müvafiq kursların tədrisi, dərsliklərin və dərs vəsaitlərinin yazılması istiqamətində kifayət qədər təcrübə toplanmışdır. Həmçinin qeyd olunan sahə üçün kadrların hazırlanmasında da böyük uğurlar əldə edilmişdir. Birləşmiş Ştatlarda peşəkar birliklə bağlı iki milli assosiasiya aktiv fəaliyyət göstərir: Siyasi Təhlil və Dövlət İdarəçiliyi Assosiasiyası (APPAM) və Dövlət Administrasiyası Məktəbləri Assosiasiyası (NASPA).

ABŞ-da və Avropada artıq bir neçə onillikdir ki, "Siyasi idarəçilik tədqiqatları" (Policy Studies), "Siyasi təhlil və

---

[1] Dunn W. Göstərilən əsəri, s.75, 355.

menecment jurnalı" (Journal of Policy Analysis and Menecment), "Dövlət siyasəti jurnalı" (Journal of Public Policy), "Dövlət idarəçiliyi" (Public Administration) və s. kimi peşəkar jurnallar nəşr olunur.

Həmin dövrdə dövlət qərarlarının qəbul edilməsi və həyata keçirilməsi üzrə tədris kursları sistemi də formalaşmışdır. Çikaqo Universiteti nəzdində fəaliyyət göstərən Dövlət Siyasətinin Araşdırılması üzrə ali məktəbin professoru Lourens Linn yazır: "Artıq 40 ildir ki, siyasi qərarların qəbul edilməsi və dövlət siyasətinin həyata keçirilməsi üzrə kurslar Amerika universitetlərində tədris edilir. Keçən əsrin 70-ci illərində yeni kursların tədrisiylə bağlı intensiv fəaliyyətə başlanılmışdır. Bu fəaliyyətin məqsədi nəyi və necə öyrətməyi müəyyənləşdirməkdən ibarət idi.[1]

Müasir Azərbaycanda siyasi qərarların qəbul edilməsi nəzəriyyəsi həm akademik fənn, həm də tədris fənni kimi hələ formalaşma mərhələsini yaşamaqdadır. Qeyd etmək lazımdır ki, xarici tədqiqatçılar, ilk növbədə, avropalı və amerikalı mütəxəssislər tərəfindən işlənilmiş nəzəri yanaşma və tətbiqi texnologiyalar azərbaycanlı tədqiqatçıların işini xeyli asanlaşdırır. Digər tərəfdən, siyasi qərarların qəbul edilməsinin yerli mexanizmləri Qərb modelləri ilə müqayisə edilməli, Azərbaycan siyasəti üçün qərarların qəbul edilməsinin optimal variantlarının tapılması hər şeydən öncə ölkənin sosial-iqtisadi, mədəni, siyasi-institusional, sosial-psixoloji və s. xüsusiyyətlərinin nəzərə alınması əsasında aparılmalıdır.

**Siyasi qərarların xüsusiyyətləri.** Siyasi qərarların qəbul edilməsi probleminə toxunmazdan əvvəl iki sualı cavablandırmaq vacibdir: siyasi qərarlar dövlət idarəçiliyi sistemində hansı yeri tutur və nə kimi rol oynayır? Siyasi

[1] Lynn L. The Changing Public Policy Curriculum: İntroduction // Journal of Policy Analysis and Management. 2001. Vol. 20. № 1. P. 161.

qərarların səciyyəvi xüsusiyyətləri nədən ibarətdir və insan fəaliyyətinin digər növlərindən nə ilə fərqlənir?

Dövlət idarəçiliyi prosesinin mahiyyətini geniş mənada onun üç əsas göstəricisinin vəhdəti kimi təqdim etmək olar:

- birincisi, insanların hakim-iyerarxiyalaşmış birliyinin kooperativ fəaliyyəti, onların fərdi və kollektiv hərəkətlərinin koordinasiya olunmuş və kortəbii qarşılıqlı əlaqəsinin cəmi kimi;
- ikincisi, dövlət hakimiyyət orqanlarının idarəetmə sisteminin məqsədyönlü fəaliyyəti və inkişafı kimi;
- üçüncüsü, idarəçilik sistemini rasional baxımdan nizamasalan qərarların qəbul edilməsi və həyata keçirilməsinin qarşılıqlı əlaqəli funksional mərhələlərinin dinamik silsiləsi kimi.

Müasir elmi ədəbiyyatda, ümumiyyətlə, menecment sistemində, xüsusilə dövlət idarəçiliyi və dövlət siyasəti sistemində, qərarların qəbulu və yerinə yetirilməsinə dair müxtəlif yanaşmalar mövcuddur. İki daha çox yayılmış və şərti olaraq "geniş" və "dar" adlanan yanaşmanı qeyd etmək olar. Geniş yanaşma çərçivəsində idarəçilik qərarı insan fəaliyyətinin spesifik bir sahəsi olan idarəetmə ilə üst-üstə düşür. Bu mövqedən H.Saymon, M.Meskon, F.Xeduori və b. nüfuzlu mütəxəssislər çıxış edirlər. Herbert Saymon özünün "İdarəçilik qərarlarının yeni elmi" (1960) adlı proqram əsərində yazır ki, "qərarların qəbul edilməsi" və "idarəetmə" ifadələri sinonim anlayışlar kimi işlədilir. Çünki idarəetmənin mahiyyəti müəyyən məqsədlərə çatma prosesinin təşkilindən, optimal qərarların qəbul edilməsi və həyata keçirilməsindən ibarətdir.[1] Başqa sözlə, qərar bir anlıq akt olmayıb, uzunmüddətli və mürəkkəb idarəçilik prosesidir.

---

[1] Simon H. The New Science of Management Dicision. N.Y. Evanston, 1960. P.1.

Lakin son zamanlar dövlət idarəçiliyi və ictimai siyasət sahəsində "dar" yanaşma üstünlük təşkil edir (C.Anderson, M.Hill, A.Karpov və b.). Bu yanaşmaya görə, qərarların qəbul edilməsi ya publik siyasətin funksiyalarından, yaxud komponentlərdən biri kimi (public policy), ya da idarəetmə prosesinin bir fazası kimi (həmin qərarların analitik hazırlanması və həyata keçirilməsi ilə yanaşı) çıxış edir. İngilis tədqiqatçısı Maykl Hill qeyd edir ki, publik-dövlət siyasəti siyasi idarəetmə prosesinin daxilində qərarların işlənməsi və qəbul edilməsi (policy making phase) mərhələsində deyil, qərarların həyata keçirilməsi (implementation) ilə ifadə olunan faza çərçivəsində inkişaf edir.[1] Qərar anlayışının bu cür izah edilməsi bir sıra məqamlarla əsaslandırılır. Birincisi, idarəçilik fəaliyyətinə qərarların layihələşdirilməsi və seçilməsindən başqa, həm də situasiyalı təhlil, qərarların həyata keçirilməsi üzrə praktik işlər, onların yerinə yetirilməsinə nəzarət, əldə olunan nəticələrin qiymətləndirilməsi kimi insan fəaliyyətinin müxtəlif növləri də daxildir.

İkincisi, yalnız bir, hətta ən vacib qərar belə dövlətin siyasi kursunu tam həcmdə əhatə etmək iqtidarında deyildir. Siyasi idarəetmə (və ya publik-dövlət siyasəti) dövlət qərarlarının tam cəmindən, vəhdətindən (ardıcıl sırasından, kompleksindən) ibarətdir.

Üçüncüsü, qərar, həyatakeçirilmə prosesində vəziyyətə uyğun olaraq müəyyən dəyişikliyə uğraya bilər, hətta əhəmiyyətini tam itirə bilər. Lakin bu, heç də ümumilikdə siyasi kursun dəyişməsi demək deyildir. Bundan başqa, ayrı-ayrı qərarlar hər hansı siyasi kursun həyata keçirilməsi və ya ondan imtina edilməsi üçün təlim və təcrübə meydanı, yaxud sınaq rolunu oynaya bilər.

Dördüncüsü, kifayət qədər əsaslandırılmış fərziyyə mövcuddur ki, publik siyasət rəsmi qəbul edilmiş qərar

[1] Hill M. The Policy Process in the Modern State. L. 1997. P. 7.

olmadığı təqdirdə belə gerçəkləşdirilə bilər. Bu yaranmış status-kvo, başqa cür desək, artıq mövcud olan vəziyyətin möhkəmləndirilməsi şəklində baş verir. Yeni siyasi kurs dövlət orqanlarının məlum stereotiplərə uyğun fəaliyyət göstərməsi ilə reallaşdırılır. Özü də müəyyən növ "qeyri-qərarlar"dan (non-decisions) ibarət olan, yaxud qərarlar xaricində (out of decisions) belə, siyasi kursun həyata keçirilməsi mümkündür.

Deməli, ictimai siyasətin xarakteri və siyasi kursun mahiyyəti haqqında yalnız bəyan edilmiş qərarlara əsasən deyil, həm də dövlət orqanlarının reallaşdırdıqları aksiyalara və onların nəticələrinə görə mülahizələr yürütmək lazımdır. Buradan belə ilkin qənaətə gəlmək olar ki, qərar publik siyasətin ümumi işlənməsi və həyata keçirilməsi prosesinin əsas komponentini təşkil edir. Bu proses koqnitiv planda siyasi qərarların qəbul edilməsinin xüsusiyyətlərini başa düşmək üçün analitik kontekst rolunu oynayır.

Beləliklə, dövlət qərarı publik-dövlət siyasətinin ümumi sisteminin elementi kimi çıxış edir. Bu zaman dövlət siyasəti dedikdə, ictimai problemlərin həll edilməsi, cəmiyyətin və ya onun ayrı-ayrı sahələrinin inkişafının hamı üçün əhəmiyyətli olan məqsədlərinə çatması üzrə dövlət hakimiyyəti orqanlarının məqsədyönlü fəaliyyəti nəzərdə tutulur.[1]

Ümumiyyətlə, siyasi qərarların spesifikası və xüsusilə dövlət qərarları məsələləri Rusiya tədqiqatçısı V.V.Listsov tərəfindən tədqiq edilmişdir. O, siyasi qərarların meyarları və sərhədlərinin müəyyənləşdirilməsinə dair iki mövcud yanaşmanı diqqətə çatdırır. Birinci yanaşmaya görə, siyasi qərarlar sinfinə yalnız vəzifəli şəxslər və dövlət hakimiyyətinin kollegial orqanları tərəfindən qəbul edilən qərarlar aid edilir. Onlar eyni zamanda iqtisadi, inzibati və başqa növ qərarların hazırlanması ilə də məşğul olurlar. İkinci yanaşma daha geniş

[1] Государственное управление: основы теории и организации. / Под ред. В.А. Козбаненко. М. 2000, с. 219.

baxışları əhatə edir. Burada siyasi qərar dedikdə, yalnız dövlət institutları çərçivəsində qəbul edilən qərarlar deyil, həm də böyük resurslara malik olan və siyasi proseslərə əhəmiyyətli təsir göstərə bilən siyasi partiyaların, təzyiq qruplarının qərarları da başa düşülür. Bir çox Qərb ölkələrində (Böyük Britaniya, İşveç, Almaniya və s.) neokorporativizm modelinə uyğun olaraq, dövlət hakimiyyəti orqanları ilə bərabər, bu və digər vacib dövlət qərarlarının qəbuledilməsi prosesində ictimai və siyasi təşkilatlar da iştirak etməlidir.

Yəni, siyasi qərarın sərhədini müəyyənləşdirərkən onu qəbul edən agentin spesifikası vacib meyar rolunu oynayır. Başqa sözlə, hər şeydən öncə belə bir suala cavab vermək lazımdır: qərarı kim qəbul edir və ya qərar kim tərəfindən qəbul edilir?

Publik qərarları səciyyələndirmək üçün yenə də ən azı üç əsas sual cavablandırılmalıdır:

- Qərarla nə tənzimlənir və ya qərar nəyə istiqamətlənir?
- Qərar kimə ünvanlanır və ya qərar kim üçün nəzərdə tutulur?
- Qərarın mənası nədir və ya qərar hansı xüsusiyyətlərə və əhəmiyyət dərəcəsinə malikdir?

Qeyd etmək lazımdır ki, məhz siyasi qərarların səciyyəsi konkret meyarlarla müəyyənləşdirilir. Birincisi, siyasi qərar əsas sosial qrupların və siyasi aktorların (maraq qrupları, elit qruplaşmalar, bürokratik korporasiyalar və s.) baza dəyərləri və maraqları ilə bağlı olan ümumi məqsədləri ifadə etməlidir. İkincisi, belə qərarlar ictimai-siyasi nizamın normativ və institusional parametrlərinin saxlanılmasına və yaxud dəyişilməsinə təsir göstərməlidir. Üçüncüsü, siyasi qərarlar cəmiyyətin başlıca resurslarının tənzimlənməsi, bölüşdürülməsi və yenidən bölüşdürülməsi ilə bağlıdır.

Ümumilikdə, bu cür əlamətlər siyasi-idarəetmə xarakterli qərarları sırf təşkilatı-texniki aktlardan ayırmağa imkan verir.

Siyasi qərarlarla inzibati qərarlar arasındakı fərqə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu nisbi xarakter daşıyır. Çünki dövlət idarəçiliyi təbiət etibarilə siyasi hadisədir.

**Qərarların qəbul edilməsi nəzəriyyəsinin müasir vəziyyəti.** Siyasi qərarların qəbuledilməsi prosesinin konseptual-sistematik təsvirinin yaradılmasına XX əsrin ikinci yarısında cəhd edilmişdir. Bu zaman həmin istiqamət siyasi və idarəetmə elmlərinin kəsişməsində ayrıca bir elm sahəsi kimi formalaşma və institusionallaşmağa başlamışdır. İngiltərə-Amerika müvafiq elmi ədəbiyyatında bu subfənn siyasi qərarların qəbul edilməsini araşdıran siyasi idarəçilik elmlərinin (Policy sciences) tərkib hissəsi kimi başa düşülür. Hələ 1930–40-cı illərdə Çikaqo siyasi biheviorizm məktəbinin əsasını qoyanlardan biri, professor H.Lassvel ilk dəfə olaraq öz əsərlərində "policy sciences" terminini işlətmişdir. O, özünün "Hakimiyyət və şəxsiyyət" (1948) adlı fundamental monoqrafiyasında bu anlayışın mahiyyətini açır və onu məhz cəm halında işlədir. Alim qeyd edilən problemə "Demokratik liderlik və siyasi idarəçilik elmləri" adlı bütöv bir fəsli həsr etmişdir. H.Lassvel yazır: "Elmi fənn, cəmiyyətdə qərarların qəbul edilməsi prosesini izah etdiyi və ya siyasi idarəçilik məsələlərinin rasional üsullarla həllinin işlənməsini vacib məlumatlarla təmin etdiyi halda siyasi idarəçilik elmlərinə aid oluna bilər".[1]

Əlbəttə, çox maraqlıdır, nə üçün siyasi qərarların xüsusi nəzəriyyəsinin yaranması imkanı və tələbatı yalnız XX əsrin ortalarında meydana çıxır? Bu suala H.Lassvel belə cavab verir: "Siyasi idarəçilik elminin konseptual baxımdan tərtib olunması tələbatını hazırda bəşəriyyətin yaşadığı dərin böhran yaratmışdır".[2] Bu böhran Birinci və İkinci Dünya Müharibələri ilə bağlı idi. Sonuncular, o cümlədən bir çox dövlətlərdə

---

[1] Lasswell H. Power and Personality. N.Y. 1948. P.120.

[2] Lasswell H. Power and Personality. N.Y. 1948. P.120.

düşünülməmiş və əsaslandırılmamış siyasi qərarların qəbul edilməsinin nəticəsi idi. Daha sonra H.Lassvel siyasi idarəçilik elminin institusionallaşmasının səbəblərini dərindən əsaslandırır. Bura iki qrup səbəb aid edilir: praktiki və nəzəri. Birincisi, bu Qərb demokratiyasının qorunmasının və təkmilləşdirilməsinin praktiki tələbatından irəli gələrək, dövlətin idarəolunması prosesini optimallaşdırmağı, onun digər institutlarla (məsələn, bizneslə) qarşılıqlı əlaqəsini və məhdud resurslarla dövlət məqsədlərinə çatmağın intellektual təminatını nəzərdə tutur. İkincisi, sosial elmlərin inteqrasiyaya və aralarında olan ənənəvi maneələri aşmağa daxili tələbatı mövcuddur. Burada elmi nəticələr uzunmüddətli strategiyanın hazırlanması ilə bağlı olan praktik siyasətə işləməlidir.

Beləliklə, XX əsrin ortalarında ABŞ-da tədricən siyasi-idarəçilik elmlərinin (policy sciences) bütöv bir kompleksinə çevrilən yeni elmi istiqamət formalaşmışdır. Bu kompleks öz mənbəyini sosial-humanitar fənlərin üç qrupundan götürür:

1) sosial-siyasi (siyasi, sosioloji və iqtisadi elmlər) fənlər;

2) koqnitiv-epistemoloji (fəlsəfə, psixologiya və informasiya-kommunikativ istiqamətlər) fənlər;

3) menecerial (dövlət inzibatçılığı, təşkilati nəzəriyyələr, ümumi menecment, hərbi elm) fənlər.

Başqa sözlə, həmin zaman kəsiyində informasiyanın işlənməsi və əməliyyatların riyazi tədqiqi də əlavə olunan sosial-humanitar bilik sahəsində inteqrasiya sintezi baş vermişdir. XX əsrin 40 – 50-ci illərində fənlərarası sintezin yaranmasında Çikaqo məktəbinin məşhur nümayəndələri H.Lassvel və H.Saymon aparıcı rol oynamışlar. Onlardan birincisi D.Lernerlə birgə "Siyasi idarəçilik elmləri" adlı novator əsər hazırlamış (1951), ikincisi isə "İnzibati davranış: administrativ təşkilatlarda qərarların qəbul edilməsi prosesinin tədqiqi" adlı monoqrafiyasını nəşr etdirmişdir (1947).

Qərbdə siyasi qərarların qəbuledilməsi nəzəriyyəsinin işlənmə tarixini üç mərhələyə bölmək olar:

1. XX əsrin 40-cı illərinin sonundan 60-cı illərinin ortalarına kimi ilkin yanaşmaların və konseptlərin formalaşma mərhələsi;

2. 1960-cı illərin sonu – 1970-ci illərin əvvəllərində istiqamətin universitet fənninə və elm sahəsinə çevrilmə (institusionallaşma) mərhələsi;

3. 1980 – 90-cı illərdən başlayaraq bu günə kimi davam edən nəzəri və empirik istiqamətlərin genişlənmə və dərinləşmə (istiqamətlərin diferensiasiya və ixtisaslaşma) mərhələsi.

Birinci mərhələdə H. Lassvel tərəfindən "siyasi idarəçilik elmlərinin" (policy sciences) sosial biliklərin xüsusi bir sahəsinə çevrilməsi məsələsi qoyulur. 1950 – 70-ci illərdə tədqiqatçı bu ideyanın əsaslandırılmasına və təbliğinə həsr etdiyi "Siyasi idarəçilik elmləri" (1951), "Qərarların qəbuledilməsi prosesi: funksional analizin yeddi kateqoriyası" (1956), "Siyasi idarəçilik elminin təşəkkül konsepsiyası" (1970) və "Siyasi idarəçilik elmləri haqqında ilkin mülahizələr" (1971) adlı silsilə əsərlər nəşr etdirmişdir. Siyasi idarəçilik hərəkatına (policy movement) bir çox politoloq, iqtisadçı, psixoloq, hüquqşünas alimlər cəlb olunurlar. Sınaq kurslarının tədrisi, jurnalların dərc edilməsi və ilk dərs vəsaitlərinin hazırlanmasına başlanılır. Yel Universitetinin siyasi elmlər fakültəsində Ç. Lindblomun "Siyasi qərarların qəbuledilməsi prosesi" (1968) dərsliyi işıq üzü görür. Bütün bunlar yeni elmi istiqamətin akademik fənn qismində formalaşması üçün ilkin zəmin hazırlamışdır. İkinci və üçüncü mərhələdə "Siyasi analiz" (Policy analysis), "Siyasi qərarların qəbul edilməsi" (Public policymaking) və "Dövlət siyasəti" (Public policy) adlı siyasi idarəçilik fənlərinin dövlət inzibatçılığı məktəblərinin politologiya fakültələrində universitet kursları kimi rəsmən tanınması baş vermişdir. Bu problematikayla bağlı yüzlərlə dissertasiya müdafiə olunmuş, minlərlə elmi nəşrlər meydana çıxmışdır. Tədricən həmin istiqamət üzrə işləyən alimlərin daxili ixtisaslaşması da baş verir. Siyasi idarəçilik silsiləsinin

ayrı-ayrı sahələrinin (qərarın formalaşması, onun həyata keçirilməsi, nəticələrin qiymətləndirilməsi və s.) müxtəlif sferalarında (iqtisadiyyatda, təhsildə, müdafiədə və s.) qərarların qəbuledilmə xüsusiyyətlərinin öyrənilməsi üzrə elmi-tədqiqat işləri hazırlanır.

Dövlət siyasətinə və qərarların qəbuledilməsinə dair çoxlu elmi jurnallar nəşr edilir. 1972-ci ildə Siyasi İdarəetmə Tədqiqatları Təşkilatı (Policy Studies Orqanization), 1979-cu ildə isə 80 kollektiv, iki minə yaxın fərdi üzvü olan Siyasi Analiz və Menecment Assosiasiyası (Association for Public Policy Analysis and Management) yaradılmışdır.

Keçən əsrin 80 – 90-cı illərində publik siyasətin tədqiqi və tədrisi ilə bağlı ABŞ-ın tam inhisarına son qoyulur. Bu sahə üzrə Avropada (Böyük Britaniyada, Almaniyada, Fransada, Niderlandda, Skandinaviya ölkələrində və s.) tədris fənləri meydana gəlir. Burada ixtisaslaşdırılmış jurnalların (məsələn, "European Public Policy") nəşrinə başlanılır. XXI əsrin əvvəllərində siyasi idarəçilik fənləri, demək olar ki, bütün Avropada artıq tədris olunur. Tədricən bu problematika postsovet məkanına nüfuz etməyə başlamışdır. Azərbaycan da daxil olmaqla yeni müstəqil respublikalarda siyasi idarəçilik sahəsinə aid olan bir sıra fənlər ali məktəblərin politologiya fakültələrində, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında artıq sınaqdan çıxmışdır.

# V BÖLMƏ

## QLOBALİSTİKA VƏ SOSİOSİYASİ QLOBALLAŞMA

XX – XXI əsrin hüdudlarında baş verən obyektiv qloballaşma, yəni planetar miqyasda iqtisadiyyat, siyasət, mədəniyyət və informasiya-kommunikasiya sahələrində sürətlə gedən qarşılıqlı təsir, qarşılıqlı asılılıq və qarşılıqlı əlaqə prosesi artıq müasir dünyanın real və aparıcı fenomenidir. Bütün müsbət və mənfi cəhətləri ilə birgə zəmanəmizin bu əsas təmayülü praktiki olaraq insan həyatının bütün tərəflərinə toxunur. Bununla əlaqədar tanınmış Britaniya sosioloqu Entoni Giddens "Gözdən qaçan dünya" ("Runway World") adlı kitabında haqlı olaraq yazır: "Qloballaşma mədənidən və maliyyədən tutmuş kriminal və spiritik sferaya qədər bugünkü ictimai həyatın bütün sahələrindəki qarşılıqlı əlaqələri və qarşılıqlı təsirləri ümumdünya səviyyəsində dərinləşdirir, genişləndirir və sürətləndirir". Bu mənada qloballaşmanı epoxal əhəmiyyətə malik olan total transformasiya kimi qiymətləndirmək mümkündür.

Təbiidir ki, qloballaşma ilə bağlı olan irimiqyaslı regional strukturların dağılması, yeni dövlətlərin və strateji alyansların təşəkkülü, yeni hədə və təhdidlərin meydana gəlməsi, dünya geoiqtisadi sisteminin yaranması və başqa transformasiyalar şəraitində uzunmüddətli inkişafın yeni doktrinalarının, milli və üstmilli strukturların müəyyən davranış normalarının, strateji qərarların qəbuluna dair yeni yanaşmaların formalaşması üçün oriyentirlərin hazırlanması məsələləri aktuallaşdı. Bunların hamısı, nəticədə, müasirliyin bu və ya digər son dərəcə əhəmiyyətli problemlərini dərk etmək, olduqca ciddi

dəyişikliklərin gizli səbəb və yekunlarını aşkarlamaq, siyasət, iqtisadiyyat, ekologiya, mədəniyyət, dünya hüquq qaydası və s. sferalarda nəhəng qlobal problemləri həll etmək iqtidarında olan humanitar biliyin və elmin yeni sahəsi – qlobalistikanın yaranmasına və sürətli inkişafına gətirib çıxartdı.

Qlobalistika (fransızca qlobal – ümumi, latınca qlobus – yer kürəsi) bəşəriyyətin inkişafının ən ümumi qanunauyğunluqlarını, müasir dünyanın idarəedilməsi, elmi və mənəvi baxımdan təşkil olunması modellərini, kainatın hədsiz antropogen yüklənməsi dövründə insan fəaliyyətinin üç əsas – iqtisadi, sosial və ekoloji sferalarının qarşılıqlı əlaqəsini, planetimizin sonu olan fiziki ölçüləri və məhdud təbii sərvətlərini nəzərə alaraq öyrənən bir elmdir. Qlobalistikanın tədqiqat predmeti – qlobal problemlərin törəməsi, təzahürü və həlli yolları, həmçinin makrososiotəbii sistemlər və onların dinamikasıdır.

Elmi fənn kimi qlobalistikanın üç başlıca xüsusiyyətini ayırmaq olar. Əvvəla, həmin fənn çərçivəsində insan, cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsi sistemi bütün planet miqyasında vahid şəkildə təsvir edilir. Bundan başqa, qlobalistika bu sistemi böhranlı sistem kimi gözdən keçirir ki, burada insan varlığını xarakterizə edən bütün gərginliklər, münaqişə və fəlakətlər mövcuddur. Nəhayət, qlobalistika böhranlı vəziyyətlərin öhdəsindən gəlmək üçün öz diqqətini idarəetmə qərarlarının işlənməsinə yönəldir və bununla bəşəriyyətin məhvinin qarşısını almağa can atır.

Qlobalistikada aşağıda qeyd edilən iki başlıca aspekt aşkarlanıb:

- heç bir bilik sahəsinin qlobal dünyanın dərk edilməsi prosesindən kənar düşməməsinə nail olmaq;
- elmin müxtəlif sahələrində pərakəndə aparılan qlobal tədqiqatları ən yeni fənlərüstü metodologiyaya müvafiq yaranmış vahid elmi axında birləşdirmək.

Beləliklə, ümid etmək olar ki, qlobalistika ayrı-ayrı sexlərə bölünmüş elmi XXI əsrin tam, bütöv, sintetik bilik sahəsinə çevirmək iqtidarındadır. Lakin bunun üçün tamamilə yeni metodoloji yanaşmalar və fundamental elmi əsaslar lazım gələcək.

Eyni zamanda, qlobalistikaya başqa bir rakursdan da baxmaq mümkündür.

Müasir düyanın geosiyasi vəziyyəti siyasi ikiqütblüyün itirilməsi və əvəzində birqütblüyun bərqərar olması ilə nəticələndi və bu zaman birqütblüyə dair tendensiya qloballaşma adını aldı. Qloballaşma sözün ən geniş mənasında birqütblük şəraitində hansısa və yaxud bir neçə ölkənin öz mədəni təsirinin bütün planetə yayılmasına istiqamətlənmiş siyasət (geosiyasət) növüdür.

Elə bu səbəbdən, ayrıca bir fənn olmasına baxmayaraq, qlobalistika siyasət sahəsiylə, siyasi elmlə birbaşa və çox əhəmiyyətli dərəcədə bağlıdır.

## §1. Praktik qlobalistika

Son dörd-beş onillik ərzində qlobal problemlərin öyrənilməsi üzrə daha çox tanınmış mərkəzlərdən biri, əsası 1968-ci ildə İtaliyada sahibkar və mütəfəkkir **Aureliyo Peççei** tərəfindən qoyulan **Roma Klubudur**. Bəşəriyyətin gələcəyi haqqında narahat olaraq, Peççei kəskin surətdə bütün makroproblemlərin tam əhatəli qavranılmasına ehtiyac duyurdu. Massaçusets Texnoloji İnstitutunun professoru, "Dünya-1" və "Dünya-2" ilk kompyuter modellərinin müəllifi **C.Forresterin** dinamik sistemlər üzrə işləri onun diqqətini cəlb etdi. Peççeinin təşəbbüsü ilə Forresterin şagirdi və tələbəsi **D.Medouza** beynəlxalq tədqiqatçılar qrupuna rəhbərlik etməklə bu işin davam etdirilməsi tapşırıldı. Forresterin modeli əsasında onlar "Dünya-3" modelini yaratdılar. Bu işin nəticələri Roma

Klubunun "Artımın həddi" adlı məruzəsi şəklində 1972-ci ildə dərc edildi və dünyada sensasiya oldu.

Məruzənin nəticələri aşağıdakılardır:

1) Əgər əhalinin sayının müasir inkişaf tendensiyası, sənayeləşmə, ətraf mühitin çirklənməsi, ərzaq istehsalının templəri və resursların tükənməsi indiki qaydada davam edəcəksə, bu təqdirdə dünya artımın həddinə yaxınlaşacaq. Nəticədə, XXI əsrdə gözlənilməz və idarəolunmaz dərəcədə əhalinin sayının azalması və ərzaq istehsalı həcminin kəskin aşağı düşməsi baş verəcək.

2) Artım tendensiyasını dəyişmək və perspektivdə uzunmüddətli iqtisadi və ekoloji stabilliyə nail olmaq imkanı mövcuddur. Ancaq bu məsələnin həlli siyasətin və dəyər oriyentasiyasının dəyişilməsini tələb edir.

Hələ olduqca kobud və sadə Medouz modelində minə qədər riyazi tənliklər və böyük həcmdə statistik kəmiyyətlərdən istifadə olunurdu. İki il sonra Roma Klubu üçün **M.Messaroviç** və **E.Pestelin** "Bəşəriyyət dönüş nöqtəsində" (1974) adlı məruzəsi daha mürəkkəb, iyerarxik strukturlaşdırılmış dünya modelinə əsaslanırdı. Burada 200 mindən çox tənlikdən və cürbəcür fərqli statistik informasiyadan istifadə edilmişdi. Bu kompleks model üzrə tədqiqat göstərdi ki, dünya iqtisadiyyatının inkişafı irrasional sürətlə baş verir və qlobal səviyyədə idarəçiliyi tələb edir.

Roma Klubu üçün hazırlanmış növbəti məruzələrdə beynəlxalq iqtisadi nizamın yenidən baxılması imkanları və yolları (**Y.Tibergen**, 1976), bəşəriyyət üçün ümumi məqsədlər (**E.Laslo**, 1977), təbii sərvətlərin istifadəsinin daha rasional yolları (**D.Qabor** və **U.Kolombo**, 1978) və s. müəyyənləşdirilirdi. Mövcud tendensiyaların və kəmiyyət göstəricilərinin ekstrapolyasiyasına əsaslanan bu tip modelləşdirmə gələcəyin pozitiv alternativinin işlənilməsinə yox, tezliklə neqativ tendensiyaların və hədələyici təhlükələr haqqında xəbərdarlıqların üzə çıxarılmasına hesablanmış idi.

Lakin belə modelləşdirmə, dünya birliyinin keyfiyyətcə başqa səviyyəli təşkilinin zəruriliyi nəticəsinə gətirib çıxartdı. Həmin fikir və ondan irəli gələn təkliflər Roma Klubunun özünün birinci məruzəsinə salınmışdı. Bu, 1991-ci ildə həmin klubun o vaxtkı rəhbərləri **A.Kinq** və **B.Şneyderin** redaktəsi altında "Birinci qlobal inqilab" adlı məruzə idi.

Bu günə kimi Roma Klubunun sayəsində müasir bəşəriyyətin müxtəlif taleyüklü problemləri ilə bağlı 30-dan çox məruzə dərc edilib.

90-cı illərdə bir sıra qlobal problemlərin həlli yollarına dair konstruktiv ideya və təkliflərin işlənilməsinə daha çox diqqət ayrılırdı. 2002-ci ildə Roma Klubu "Artımın həddi" adlı məruzənin işıq üzü görməsinin 30 illiyini qeyd etdi və həmin məruzədəki problem və hədələrin daha ciddi və mürəkkəb olduğunu bir daha təsdiqlədi.

2002-ci il dünya liderlərinin Yohannesburq Sammitinə ünvanlanmış Roma Klubunun xüsusi bəyanatında bəşəriyyətin rifahı naminə texnoloji, iqtisadi, sosial inkişafın istiqamətinin dəyişilməsi məsələlərində xolistik yanaşmaya üstünlük verilməsinin zəruriliyi qeyd edilirdi.

Dünya şöhrəti qazanmış Roma Klubunun tədqiqatları müasir qlobalistikanın nəzəri bazasını təşkil edərək, bu fənlərarası biliyin yeni sahəsinin formalaşmasında vacib evristik və metodoloji funksiyanı yerinə yetirir.

XX əsrin 60-cı illərində, yəni praktiki olaraq Roma Klubunun yaranması ilə eyni vaxtda, Amerika alimləri **Sol Mendlovits** və **Riçard Folk** "qlobal islahatlar" ideyası ilə çıxış etdilər. Onların təşəbbüsü ilə **"World Order Model Project"** (WOMP) – **"Dünya Nizamının Layihəsi Modeli"** adlı beynəlxalq tədqiqat layihəsi təşkil olunmuşdur. Bu layihəyə Avropa, Asiya, Afrika, Latın Amerikası ölkələrindən alimlər cəlb edildi. Layihənin iştirakçıları **Y.Qaltunq**, **R.Kotari**, **Y.Sakamoto**, **K.F.fon Vaytszekker**, **İ.Bestujev-Lada**, **E.Ərəboğlu**, **L.Stepanov**, **Q.Gerasimov** və b. öz səylərini

gələcəyin pozitiv modellərinin işlənilib hazırlanmasında cəmləşdirirdilər, özü də elə gələcəyin ki, o, əsas ümumbəşəri dəyərlər olan – sülh, iqtisadi rifah, şəxsin özünü reallaşdırılması, sosial və siyasi ədalət və ekoloji tarazlıgı təcəssüm etdirsin. WOMP çərçivəsində tədqiqatlar, əsas etibarı ilə, qlobal idarəetmənin konkret formul və ya modelinin axtarışının və əsaslandırılmasının üzərində qurulmuşdur. Bununla belə, bəziləri dünya hökmranlığı konsepsiyasının xeyrinə fikir söyləyir (ilk əvvəl bu ideyanın tərəfdarı **S.Mendlovits** idi), digərləri isə, məsələn, **R.Folk** həmin konsepsiyanı tənqid edirdilər. Folk "mərkəzi istiqamətləndirici sistem" konsepsiyasını işləyib hazırlamışdır (central guidance system). Daha sonra belə bir yanaşmanı Mendlovits də dəstəklədi. Ancaq o, "human governance" (insan idarəetməsi) və ya "geogovernance" (geoidarəetmə) terminlərinə üstünlük verirdi.

Bu proqramı işləyib hazırlayanlara elə əvvəlcədən ABŞ-ın imperialist hegemon siyasətinə tənqidi, humanist sosializmin ideallarına, inkişaf edən və birləşməmiş ölkələrə xeyirxah münasibət xas idi. Onlar öz fikirlərini, ilk növbədə, hökumətlərə yox, demokratik dairə və hərəkatlara ünvanlayırdılar. Belə ki, müəlliflərin fikrincə, daha ədalətli dünya nizamını (idarə üsulunu) yaradan başlıca impuls dövlətlər sistemi xaricindən gəlməlidir. Buna görə də onlar əsasən ziyalılara, universitet-akademik dairələrə, tələbələrə, yeni sosial hərəkatların iştirakçılarına müraciət edirdilər. Müəlliflər liberalizm, demokratik sosializm, ekoloji humanizm, qlobal modelləşdirmə kimi mənbələrdən istifadə edərək, qlobal humanizm ideologiyasının inkişaf etdirilməsini əsas vəzifələrindən biri sayırdılar.

Dünya Bankının, müasir dünyanın inkişafı haqqında məruzələri də qlobal problemlərin müzakirəsində özünəməxsus əhəmiyyətə malikdir. Bu, illik məruzələr 1978-ci ildən dərc olunur. Həmin məruzələr bir çox ölkələr haqqında əhatəli

məlumat bazasına arxalanaraq, dünyanın iqtisadi və sosial vəziyyətinin sintetik şəklini təsəvvür etmək imkanına malik olan yüksək ixtisaslı ekspertlər tərəfindən hazırlanır. İndiyə qədər dünyanın inkişafı haqqında 30-dan artıq məruzə dərc olunub və bu sözsüz ki, XX əsrin sonu – XXI əsrin başlanğıcını əhatə edən dövrün spesifik xüsusiyyətləri haqqında dəyərli məlumat mənbəyidir. Yohannesburqda Davamlı İnkişaf Sammiti ərəfəsində (avqust, 2002) dərc edilmiş məruzə müstəsna əhəmiyyət kəsb edir. İlk dəfə olaraq, onun müəllifləri ekologiya, sosial ədalət və uzunmüddətli perspektivləri iqtisadi effektivlik ilə birləşdirən inkişaf konsepsiyasını qəbul edərək, neoklassik iqtisadi doktrinadan aralanmağa çalışırlar.

Qlobal problemlərin öyrənilməsi və yeni ideyaların irəli sürülməsi sahəsində səylərin səfərbər edilməsinin mühüm forması dünya siyasətinin aparıcı fiqurlarının rəhbərliyi altında yaranan Beynəlxalq Komissiyalardır. 1977-ci ildə Dünya Bankının prezidenti **R.Maknamara** Sosialist İnternasionalın o vaxtkı prezidenti **Villi Brandta Beynəlxalq İnkişaf Problemləri üzrə Müstəqil Komissiyaya** rəhbərlik etməyi təklif etdi. Tərkibində dünya siyasətinin və elminin bir sıra görkəmli nümayəndələri olan Komissiya "Şimal və Cənub" ölkələri arasında qlobal iqtisadi və siyasi münasibətləri öyrənməyə başladı və 1980-ci ildə ciddi bir məruzə təqdim etdi. Məruzədə münasibətlərin kökündən dəyişilməsi Şimal və Cənub dialoqu əsasında təklif olunurdu. Məruzə dünyada geniş əks-səda yaratdı, ancaq Qərb dövlətləri paytaxtlarında soyuq qarşılandı. Daha sonra, 1983-cü ildə Komissiya Şimal-Cənub əməkdaşlığı mövzusunda "Common Crisis: North-South Cooperation for World Recovery" (Ümumi böhran: Şimal-Cənub əməkdaşlığı dünyanın bərpası üçün) adlı məruzə dərc etdi.

Brandt komissiyası (o, bu cür adlanmağa başlandı) nümunəsi əsasında İsveç sosial-demokratlarının lideri **Ulof Palmenin** rəhbərliyi ilə **Tərksilah və Təhlükəsizlik Məsələləri**

**üzrə Müstəqil Komissiya yaradıldı.** Palme komissiyasının "Common Security" (Ümumi təhlükəsizlik) adlı məruzəsi dünya ictimaiyyətinin diqqətini qlobal problemlər olan təhlükəsizlik, tərksilah və inkişafın qarşılıqlı əlaqəsinə cəlb etdi.

BMT-nin təklifi ilə yaradılan **Ətraf Mühit və İnkişaf üzrə Komissiyaya** rəhbər təyin olunan Norveç sosial-demokratlarının lideri **Qru Xarlem Brundland** 1987-ci ildə "Our Common Future" (Bizim ümumi gələcəyimiz) məruzəsini dərc etdi. Məruzənin əsasında BMT tərəfindən dəstəklənən davamlı inkişaf konsepsiyası durur.

1989-cu ildə **V.Brandtın** təşəbbüsü ilə yuxarıda qeyd edilən Beynəlxalq Komissiyaların nümayəndələri gələcək dünyaya bütöv bir şəkildə yanaşmaları müzakirə etmək üçün Köniqsvinterdə (Almaniya) görüşdülər. Bu işin yeni mərhələsinin nəticəsi 1991-ci ildə İsveçdə beynəlxalq görüşdə təqdim **olunan "90-cı illərdə ümumi məsuliyyət: qlobal təhlükəsizlik və idarəetmə üzrə Stokholm təşəbbüsü"** adlı sənəd oldu. BMT-nin dəstəyi ilə 1992-ci ildə başda **İnqvar Karlsson** (İsveç) və **Şridat Remfal** (Qayana) olmaqla idarəetmə üzrə Stokholm təşəbbüsünün inkişafı məqsədilə Müstəqil Komissiya yaradıldı. Komissiya 1995-ci ildə dünyanın inkişafının idarəoluna bilməsi ideyasını əsaslandıran "Our Global Neighbourhood" (Bizim qlobal qonşuluğumuz) adlı məruzəni dərc etdi.

XX əsrin ikinci yarısında qlobal proseslərin kəskin güclənməsi və bununla əlaqədar müxtəlif ölkə və xalqların qarşılıqlı asılılığının artması həm bu mövzunun dərk edilməsinin yeni mərhələsinə, həm də qlobal problemləri və onları yaradan səbəb və prosesləri öyrənməyə istiqamətlənən çoxsaylı beynəlxalq təşkilatların yaranmasına səbəb oldu. Bunlardan 1965-ci ildə Vyanada təşkil edilən **Gələcəyin Problemləri İnstitutunu**, həmin il Niderlandda əsası qoyulan **"Bəşəriyyət 2000-ci İldə"** adlı Beynəlxalq Fondu, 1966-cı ildə

Vaşinqtonda yaradılan **Gələcək Dünyanın Öyrənilməsi üzrə Cəmiyyəti** xüsusi qeyd etmək olar.

Bütövlükdə dünyanın vəziyyətini öyrənməklə məşğul olan tanınmış tədqiqat mərkəzlərindən biri **Ümumdünya Müşahidə İnstitutudur** (World Watch Institute). Bu institut qlobal problemlər və tendensiyalar haqqında siyasətçilərə və ictimaiyyətə ən yeni məlumatları çatdırmağı qarşısına məqsəd qoyan qeyri-kommersiya təşkilatıdır. 1984-cü ildən başlayaraq institut ildə bir dəfə "Dünyanın vəziyyəti haqqında" (State of the World) məruzə hazırlayır, xüsusi jurnalını, informasiya buraxılışlarını, monoqrafiyaları nəşr edir. Bütün materiallar müxtəlif dillərə tərcümə olunaraq bir çox ölkələrdə yayılır. "Dünyanın vəziyyəti haqqında" məruzələr özünə görə unikaldır, çünki onların hər biri planetin vəziyyətinin bir növ "diaqnozudur". Hansı ki, enerji, ekoloji, ərzaq, demoqrafik problemlərin qlobal miqyasda qarşılıqlı təsirinin və inkişaf tendensiyalarının kompleks analizinə əsaslanır. Beləliklə, təsdiq etmək olar ki, qlobalistika elmi tədqiqatların ayrıca sahəsi kimi əsasən keçən əsrin 80-ci illərinin sonlarında formalaşdı.

Elmi və ictimai fikri bu istiqamətə yönəldən başlıca impuls sosialist sisteminin dağılması və beynəlxalq arenada qüvvələrin yeni düzülüşünü şərtləndirmiş hadisələr oldu. O zaman dünya təsərrüfat əlaqələrinin vahid bir sistem kimi təşəkkül tendensiyaları və həmin sistemdən törəyən qlobal problemlər haqqında kifayət qədər dəqiq anlayışlar formalaşdı. Bu qlobal problemlərin təbiəti və genezisi üzə çıxarıldı, tanınma meyarları və onların sistemləşdirilməsinə yanaşmalar müəyyən edildi, təbii-ictimai proseslərin dərin qarşılıqlı əlaqəsi, buradan irəli gələn ziddiyyətlər, sonuncuların sosial, iqtisadi, siyasi, ideoloji və elmi-texniki şəraitlə şərtlənməsi aydınlaşdırıldı. Qlobalistikanın inkişafının birinci iki onillikdə başlıca nailiyyəti fənlərarası ünsiyyətə yararlı olan elmi dilin formalaşması, bu baxımdan ən mühüm anlayış və kateqoriyaların, məsələn, "qlobal problem", "ekoloji böhran",

"istehsal ekologiyası", "demoqrafik partlayış", "qlobal asılılıq", "dünya birliyi", "yeni təfəkkür", "yeni humanizm" və s.-in dəqiqləşdirilməsi olmuşdur.

Nəticədə insanların dünyagörüşü də əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Get-gedə daha çox dərk edildi ki, insan təbiətdən, onu əhatə edən yer üzündəki və kosmik mühitdən, həm də dünya arenasında formalaşan münasibətlərin və qüvvələrin düzülüşündən asılıdır. Nəhayət, məlum oldu ki, dünyada ictimai həyatın bütün sferalarının qarşılıqlı asılılığı durmadan artır. Xüsusilə də müxtəlif dövlətlərin bir-birinə təsiri çoxalır, çünki onlar, özlərinin milli maraqlarını və suverenliyini qoruyaraq, qlobal şəraitdə beynəlxalq münasibətlərdə prinsip etibarı ilə yeni ziddiyyətlər yaradırlar. Habelə müəyyən edildi ki, XX əsrin ikinci yarısında qlobal problemlərin peyda olunması və qəfildən kəskinləşməsi istər cəmiyyətin inkişafında, istərsə də "cəmiyyət – təbiət" sistemində baş vermiş çoxəsrlik keyfiyyət və kəmiyyət transformasiyalarının nəticəsidir. Onların meydanagəlmə səbəbləri öz kökləri ilə sənaye cəmiyyətinin geniş böhranını, bütövlükdə texnokratiktipli mədəniyyəti doğurmuş müasir sivilizasiyanın təşəkkülü tarixinə gedib çıxır. Həmin böhran insanların bir-biri ilə, cəmiyyət və təbiətlə qarşılıqlı əlaqəsinin tam, bütöv kompleksini əhatə etdi və bütün dünya birliyinin həyati maraqlarına toxundu.

Bu cür inkişafın nəticəsi təkcə "demoqrafik partlayış" və "iqtisadiyyatın qloballaşması" yox, həmçinin insanı əhatə edən mühitin və insanın özünün deqradasiyasıdır. Belə ki, insan davranışı, təsəvvürü və dərketmə tərzi onun ətrafında baş verən sürətli dəyişikliklərə uyğun dəyişilmək iqtidarında deyil. Xüsusi tədqiqatların göstərdiyi kimi, sosial-iqtisadi proseslərin sürətli inkişafına səbəb insan və onun elmi-texniki sahədə yeni-yeni nailiyyətlərlə güclənən məqsədyönlü islahatçı fəaliyyətidir. Müəyyən edilmişdir ki, təkcə son onilliklər ərzində elmi-texniki nailiyyətlərin sürətli artımı cəmiyyətin

istehsal gücünün inkişafında daha çox dəyişikliklərə gətirib çıxardı, nəinki keçən yüzilliklərboyu. İntensiv insan fəaliyyəti planetimizdə hədsiz dəyişikliklərə səbəb oldu və XX əsrin 90-cı illərinin əvvəllərində onu "ümumi ev", "kainatda adacıq", "dünya kəndi", "Yer kürəsi adlı yeni kosmik gəmi", bütün insanlar üçün ümumi problemlər sayılanlanları qlobal problemlər, sonuncuların tədqiqat sahəsini isə qlobalistika adlandırmağa əsas verdi. Bütün dünya yeni vəziyyətin dərkedilməsi ilə məşğul olan vaxtda, qlobalistikaya marağın "ikinci dalğası" meydana gəldi. Qlobalistikanın bu mərhələsində BMT-nin ixtisaslaşmış agentliklərinin tədqiqat şöbələri əsas rol oynadı. Qeyri-adi metodika və yanaşmaları ilə seçilən **İnsan Potensialının İnkişafı haqqında Məruzələr** 1990-cı ildən BMT-nin **İnkişaf Proqramının** himayəsi altında hər il dərc edilir. Həmin təşəbbüs insanların həyatının yaxşılaşdırılması yollarını müəyyənləşdirmək tələbatı sayəsində qəbul edilmişdir. Elmi axtarışlar nəticəsində ÜDM və ya ödəmə balanslarının göstəriciləri kimi iqtisadi inkişafın dar tərifi çərçivəsindən kənara çıxan və bütün xalqlar üçün həm varlı, həm də inkişaf edən ölkələrdə insan həyatının bütün aspektlərini əhatə edən ölçü tapıldı.

Belə ki, layihənin təşəbbüskarı və birinci rəhbəri **Mahbub ül-Həqq** alternativ ölçü üsulu olan insan potensialının inkişaf indeksinin (İPİİ) hazırlanmasını təklif etmişdir. Yəni elə bir ölçü üsulu ki, o, əhaliyə düşən ÜDM-nin miqdarının göstəricisi ilə nəzərə alınmayan sosial aspektləri hesablasın. Bundan sonra, həmçinin iki variantda əhalinin yoxsulluq indeksi (ƏYİ) də hazırlanmışdır: inkişaf edən (ƏYİ-1) və inkişaf etmiş (ƏYİ-2) ölkələr üçün. 170 ölkə üzrə statistik məlumatların geniş toplusunun işlənilməsi ilə hazırlanmış bu indekslər bəşəriyyətin sosial inkişafı sahəsində beynəlxalq müqayisələrin qəbul edilmiş əsası oldu. Həmin indekslər, eyni zamanda bütün milli, regional, qlobal səviyyələrdə sosial dinamikanı izləməyə imkan verir. Qeyd edilən məruzələrin başlıca dəyəri ondan ibarətdir

ki, onlar ölçülməsi və qiymətləndirilməsi mümkün olan müxtəlif aspektlərdə müasir bəşəriyyətin bütöv vəziyyəti haqqında təsəvvür yaradır.

1995-ci il San-Fransiskoda **"Dünyanın durumu"** (State of the World) Forumunun əsası qoyuldu. Bu təşkilat bütün dünya üzrə vətəndaş cəmiyyəti, hökumət dairələri və biznes-elitaların yaradıcı düşüncəli xadim və liderlərini böhranlı qlobal hədələrin cavablarının axtarışına, qlobal sistemin effektiv idarəedilməsi üçün zəruri olan yeni yanaşmaların formalaşmasına, dünya birliyinin müxtəlif sektorları arasında yeni münasibətlərin qurulmasına cəlb etməyə can atır. Öz məqsədini o, bütün dünyada ən müxtəlif fəaliyyət sahələrinə aid və "davamlı sivilizasiya" istiqamətində dünyanın transformasiyasına səbəb ola biləcək **"Qlobal Liderlik Şəbəkəsi"**nin yaradılmasında görür.

Bu ideyaların müzakirəsinə həsr olunmuş və müxtəlif ölkələrdən çoxsaylı görkəmli alim, ictimai xadim, siyasətçi və biznesmenləri cəlb etmiş Forumun 1995 – 2010-ci illərdə bir neçə sessiyası keçirildi. Hökumət və Dövlət Başçılarının Minillik Sammiti (BMT, 2000) vaxtına salınmış Forumun Nyu-Yorkdakı sessiyasında akademik, korporativ və gənclər təşkilatlarının qarşılıqlı əlaqəsinin daimi fəaliyyət göstərən mexanizmi kimi **Qlobal Proseslər üzrə Beynəlxalq Komissiyanın** yaradılması təklifi səsləndi. Komissiyanın təsis konfransı 2001-ci ilin dekabrında Londonda keçirildi. Burada otuz həmsədrin və yüzdən artıq komissiya üzvünün imzaladığı birgə Bəyannamədə "Bizim məqsədimiz qloballaşma prosesinin konkret aspektlərinin konstruktiv islahatına yönəlmiş müzakirə və kooperativ fəaliyyət üçün bütün sahələrdən liderləri cəlb etməkdir" ideyası xüsusi vurğulandı.

2000-ci ilin fevralında Beynəlxalq Əmək Təşkilatının təşəbbüsü ilə **Qloballaşmanın Sosial Ölçüsü üzrə Beynəlxalq Komissiya** (World Commission on the Social Dimension of Globalization) təsis edildi. Finlandiya və Tanzaniyanın o vaxtkı

prezidentləri **Tarya Halonen** və **Benjamin Mkapa** ona rəhbərlik etdi. Rəsmi məlumatda deyildiyi kimi, Komissiyanın əsas vəzifəsi qloballaşmanın sosial sahədə törətdiyi misilsiz dəyişikliklərin öhdəsindən gəlməyə çalışan insanların ehtiyaclarına cavab verməkdir. Komissiya daha bütöv, tam siyasətin formalaşmasına kömək etməyi qarşısına məqsəd qoymuşdur, çünki həmin siyasət, bu təsisat üzvlərinin fikrincə, qlobal sosial problemlərin effektiv həlli üçün qloballaşmanın mövcud modelini dəyişdirməyə imkan verəcək.

Dünyanın sosial problemlərinin müzakirəsi üçün BMT-nin xətti ilə həyata keçirilən xüsusi **ümumdünya konfransları** da qlobal şüurun formalaşmasında başlıca rol oynayır. Eyni zamanda hər bir belə konfrans siyasi mübarizə meydanına çevrilir. Burada həyati əhəmiyyətli təşəbbüslər və təkliflər transmilli korporasiya və maliyyə kapitalının maraqlarına cavab verən, neoliberal ideoloji ehkamlara söykənən son dərəcə mühafizəkar dairələrin müqavimətlərinə rast gəlir.

## §2. Qərbdə qlobalistikanın intellektual mənbələri

Qlobalistikanın intellektual mənbələri Qərbin humanitar təfəkkür mühitində formalaşıb və burada birincilik Amerika alimlərinə məxsusdur. Qeyd etmək lazımdır ki, qlobalistikanın öyrənilməsi üzrə dünyanın aparıcı mərkəzi Harvard Universitetidir. Kapitalizmin təbiətini təhlil edən Harvard siyasi-iqtisadi məktəbi geniş şöhrət qazanmışdır. Qlobalistika sahəsində bir çox böyük peşəkarlar bu və ya digər dərəcədə Harvardla bağlıdırlar. Qlobalistikanın təşəkkülünə və inkişafına xüsusilə **İmmanuel Vallerstayn**, **Fernan Brodel**, **Frensiz Fukuyama**, **Semuel Hantinqton**, **Ceyms Kennet Helbreyt**, **Piter Ferdinand Draker**, **Lester Karl Turou**, **Marşal Qoldman**, **Cozef Stinqlits**, **Corc Soros** və **Ulrix Bek** böyük töhfələr vermişlər.

Amerika mütəfəkkiri, tarixçisi, sosioloqu və iqtisadçısı **İmmanuel Vallerstayn** (1930-cu ildə anadan olmuşdur) **dünya sistem nəzəriyyəsinin** banisidir. O, dünyanı ilk dəfə bütöv sistem kimi nəzərdən keçirənlərdən biridir. Alim, dünyanı mərkəz və periferiyaya ayıran "mərkəzçi" geosiyasi məktəbin əsasını qoymuşdur. Vallerstayn dünya siyasəti və iqtisadiyyatı haqqında bir çox fundamental əsərlərin, o cümlədən "Müasir dünya-sistem": I cild "XV əsrdə kapitalist kənd təsərrüfatı və Avropa dünya-iqtisadiyyatının yaradılması" (1974, Pitirim Sorokin adına mükafat), II cild "Kapitalist dünya iqtisadiyyatı" (1979), III cild "Siyasi dünya-iqtisadiyyat" (1984), "Tanış dünyanın sonu: XXI əsrin sosiologiyası" (1998), "Amerika qüdrətinin süqutu" (2003) kitablarının müəllifi kimi dünya şöhrəti qazanmışdır.

Vallerstayn, Bingemton Universitetində (Nyu-York ştatı) İqtisadiyyat, Tarixi Sistemlər və Sivilizasiyalar üzrə Fernan Brodel Mərkəzini yaratmış və ona rəhbərlik etmişdir. Vallerstayn dünya-sistemli yanaşma əsasında sosial tarixi aşağıdakı kimi şərh edir. O, üç tarixi sistemi bir-birindən fərqləndirir. **Mini sistem** ibtidai cəmiyyət üçün xarakterikdir, qəbilə və ya tayfanın analoqudur. Bundan sonra alim dünya-sistemin digər iki tipini göstərir. **Dünya-imperiya** tipinə inkişaf etmiş hərbi-bürokratik sinfin hakim mövqe tutması, yenidən bölüşdürücü istehsal üsulu və kənd təsərrüfatının üstünlük təşkil etməsi səciyyəvidir. Üçüncü tip olan **dünya-iqtisadiyyat** tipinə kapitalist istehsal üsulu xasdır. Alim dünya iqtisadiyyatı hegemonluğunun üç dövrünü müəyyən edib. Bunlar Hollandiya, Britaniya və Amerika dövrləridir. Hegemonluğun bu dövrləri son 400 il ərzində bir-birini ardıcıllıqla əvəz edib. Onlardan hər birinin tərkibinə üç faza daxildir: dünya müharibələri, böyük dövlətin hegemonluğu və onun süqutu. Vallerstayn üçbəndli iyerarxiya strukturuna (nüvə – yarımperiferiya – periferiyaya) əsaslanan **dünya sistemləri** nəzəriyyəsini təklif etdi. Kapitalizmin təşəkkülü ərəfəsində

dünyada siyasi nəzarəti təklikdə həyata keçirməyə qadir olmayan bir neçə iqtisadi cəhətdən qüdrətli dövlətlər seçilirdi. Dünya iqtisadiyyatının struktur yenidənqurması və siyasi xəritənin müvafiq transformasiyası dövründə dəyişikliklər yarımperiferiya hesabına baş verir. Oradan bəzi ölkələr yuxarı (nüvə) pilləyə keçir, digərləri isə periferiya vəziyyətinə qədər tənəzzül edirlər. Dünya təsərrüfatının inkişafının "uzun dalğaları" (Kondratyev silsilələri) üzərinə üçbəndli model qoyaraq, Vallerstayn son 200 ildə dünya "nüvəsi"nin yerdəyişməsini üzə çıxarmışdır. Dünyanın ağırlıq mərkəzi Britaniyadan Almaniyaya və daha sonra, qlobal sivilizasiya dövründə, Şərqə – ABŞ-a keçdi. Müasir dünyada "nüvə" Amerikanın Qərbi olan Kaliforniyaya, yəni Asiya – Sakit okean regionuna istiqamətini dəyişməkdə davam edir. Vallerstaynın nəzəriyyəsi dünya tarixinə yalnız eyni, vahid bir yol, başqa sözlə, bütün ölkələrin əvvəl-axır keçəcəyi yeganə, irəliləyən trayektoriya kimi yanaşmağın yanlışlığını sübut etdi.

"Tanış dünyanın sonu" kitabında Vallerstayn dünya-sistem analizi sahəsində illər boyu davam etmiş axtarışlarını yekunlaşdırır. Alim belə nəticə çıxarır: adət etdiyimiz birinci və hələ ki, yeganə qlobal kapitalist dünya-iqtisadiyyat aləmi yoxa çıxır. Kitabın əsas fəsilləri kapitalizmə və bilik dünyasına həsr edilib. Hər ikisi sistemli böhran içərisindədir. Üfüqdə isə təsviri üçün hələ ki, adekvat instrumentari olmayan yeni sistem görünür.

Müasir qlobal sosial sistem deqradasiya halındadır. Müəllifin fikrincə, sosial inkişaf mümkündür, ancaq qaçılmaz deyil. Nə qədər ki, gələcək müəyyən edilməyib, o, bizim səylərimizdən asılıdır. Buna görə "bifurkasiya" (haçalanma) dövründə səriştəli müzakirənin əhəmiyyəti artır. Kapitalizmin dünya təsərrüfatı sistemi özü ilə nəinki yeni əxlaq və rasionallıq, həmçinin yeni ziddiyyətlər gətirdi. Əvvəlkilərdən daha da ədalətsiz olan cəmiyyətin məhv edilməsi üçün mübarizə başlayır.

Müəllif yazır ki, kapitalizm qeyri-məhdud kapitalın toplanılması tendensiyasını qoruyub saxlamaq üçün genişlənməlidir. Həmin məqsədlə o, öz tarixi boyunca sərvətləri periferiyadan götürürdü. Lakin artıq bu proses bir çox sərvətlərin tükənməsi və ucuz işçi qüvvəsinin məhdudluğu üzündən başa çatmaq üzrədir. Kasıb insanlar, əksər hallarda inkişaf etmiş ölkələrə miqrasiya edərək, orada iqtisadi münaqişəni kəskinləşdirir və bu, etnik qarşıdurmalarla nəticələnir. Müasir dövrün əksər ziddiyyətlərini həll etmək təşəbbüsləri qaçılmaz olaraq kapitalın toplanmasını məhdudlaşdırır. Bu isə tanış dünyanın axırının əvvəli deməkdir.

Vallerstayn belə nəticəyə gəlmişdir ki, tarixi əxlaqi seçim rasional analiz sayəsində dərk edilə bilər. Ancaq cəmiyyətşünaslığın iqtisadiyyat, politologiya və sosiologiyaya bölünməsi, problemi bütövlükdə görməyə imkan vermir. Fənlərarası konsepsiyaların inkişafı, həmçinin ixtisaslaşmanı gücləndirir. Buna görə alim ictimai biliyin sərt differensiasiyasını aradan qaldıran əsl metodoloji sintezə üstünlük verir və hesab edir ki, qeyri-müəyyənlikləri bizim reallığın əsas xüsusiyyətləri kimi qəbul etmək lazımdır.

Vallerstaynın dünya sistemləri nəzəriyyəsinin mükəmməlləşməsində XX yüzilliyin böyük mütəfəkkir və tarixçilərindən biri, "Annalı" (Salnamə) istorioqrafiya məktəbinin lideri, bir çox Avropa və Amerika universitetlərinin fəxri doktoru **Fernan Brodelin** (1902–1985) böyük əməyi olmuşdur. "XV-XVIII əsrlərdə maddi sivilizasiya, iqtisadiyyat və kapitalizm" əsərində (1967) alim ictimai həyatın bütün sahələrinin tarixi sintezini yerinə yetirdi. Müəllif, dünya iqtisadiyyatı tarixini beş-altı əsr boyunca bir-birini əvəz edən, dünyanın müəyyən iqtisadi muxtar regionlarının – dünya – iqtisadiyyatların hökmranlığı kimi göstərir. Qeyd etmək lazımdır ki, məhz Brodel "böyük məkanların avtarkiyaları" anlayışı əsasında müəyyən iqtisadi birliklə xarakterizə edilən

bütöv bir dünya – dünya-iqtisadiyyat haqqında təsəvvür yürütmüşdür.

Amerika politoloqu **Frensis Fukuyama** (1952-ci ildə anadan olmuşdur) 1989-cu ildə ABŞ-da "Tarixin sonu" məqaləsini, 1992-ci ildə isə bir çox ölkələrdə tərcümə edilmiş və geniş əks-səda doğurmuş "Tarixin sonu və sonuncu insan" kitabını dərc etmişdir. Fukuyamanın görüşlərinə görə, "tarixin sonu" və bəşəriyyətin Qərb dəyərləri əsasında mövcudluğunun əvvəli yaxınlaşır. Bu vaxt planetin regionları ən qüdrətli iqtisadi nüvə-mərkəzlərə istiqamətlənərək yenidən strukturlaşmağa başlayacaq. "Tarixin sonu" konsepsiyası dünya sosialist sisteminin süqutundan sonra Qərbi bürüyən neoliberal romantizm dalğasında meydana gəlmişdir. "Tarixin sonu və sonuncu insan" kitabında alim ümumdünya tarixində fundamental dəyişiklikləri qeyd edir. İdeoloji zorakılıqla səciyyələnən XX əsrdə liberalizm dünyanı nüvə müharibəsi apokalipsisinə qaytarmağı təhdid edən mütləqiyyətin qalıqları, bolşevizm, faşizm və yeni marksizmlə mübarizə aparmağa məcbur idi. Yalnız yüzilliyin sonuna yaxın, kapitalizm və sosializmin konvergensiyasının əvəzinə, qələbəsi dayandırılmış Qərb liberal demokratiyası yenidən zəfər çalır. "Soyuq müharibənin" qurtarması ilə tarixin sonu gəlib çatır. Əsas etibarilə bəşəriyyətin ideoloji təkamülünün başa çatması və Qərbin liberal demokratiya nümunəsi əsasında son, ən səmərəli dövlət forması bərqərar olur. Müəllif yazır ki, böyük dövlətlərin yüksəlməsini və süqutunu əksər hallarda iqtisadiyyatlarının həddən artıq gərginləşməsi ilə izah edirlər. Müasir dünya iqtisadi inkişafın materialist nəzəriyyələrinin mənəvi düşkünlüyünü və acizliyini üzə çıxarıb. Şübhəsiz, azad bazarlar və stabil siyasi sistemlər inkişafın zəruri şərtləridir. Ancaq Asiya-Sakit okean regionundan söhbət gedərkən qeyd olunur ki, burada mədəni-tarixi ənənələr, əmək etikası, ailə həyatı, qənaətkarlıq və din xüsusi əhəmiyyətə malikdir. Məhz

mədəniyyət mahiyyət etibarı ilə iqtisadiyyatın "ana ağuşu" sayılır.

Siyasi liberalizm iqtisadi liberalizmin ardınca gedir. Liberal ideyanın gücü qədimdən qorunub saxlanılan Çin dövlət sivilizasiyasına da toxundu. Şərqi Avropada kommunist rejimlərinin süqutu isə sol totalitarizmin iflasıyla əlamətdar oldu. Nəhayət, Sovet İttifaqındakı hadisələr marksizm-leninizmə sonuncu zərbəni endirdi. Ancaq Fukuyamaya görə, kommunizmin ölümü heç də siyasi sabitlik gətirmir. Çünki kommunizmin yerinə dözülməz və aqressiv millətçilik gəlir. Buna görə də Şərqi Avropanın gələcəyi müəyyən bir vaxt ərzində Qərb demokratiyası üçün təhlükəli qalaraq, nə dinc, nə də demokratik olacaq. Ənənəvi elitalar olan ölkələrdə formal demokratiya ancaq faktiki qeyri-bərabərliyi və zənginliyi ört-başdır edir. Demokratiya müxtəlif etnosiyasi qruplar arasındakı mübahisələrin həlli üçün də həmişə yararlı deyil. Bazar təsərrüfatına istiqamətlənən avtoritar rejimlər çox vaxt iqtisadi inkişafın sosial şərtlərinin yaradılması və tədricən demokratik qaydaların təşəkkülü üçün daha çox effektiv olurlar.

Digər Amerika politoloqu, Harvard Universitetinin və Strateji Tədqiqatlar İnstitutunun professoru **Semuel Hantinqton** (1927-ci ildə anadan olmuşdur) 1993-cü ildə dünyaya vəlvələ salan "Sivilizasiyaların toqquşması" məqaləsi ilə çıxış etmiş, 1996-cı ildə isə "Sivilizasiyaların toqquşması və dünya idarə üsulunun yenidən qurulması" adlı irihəcmli kitabını dərc etmişdir. Alimin fikrincə, əgər XX əsr ideologiyaların qarşıdurması dövrüdürsə, onda yeni əsr sivilizasiyaların və dinlərin toqquşması yüzilliyi olacaq. "Soyuq müharibədən sonra xalqlar arasındakı başlıca fərqlər ideoloji, siyasi və ya iqtisadi yox, mədəniyyət fərqləridir". Mədəniyyət fərqləri siyasi və ideoloji rejimlər arasındakı fərqlərlə müqayisədə bir qədər də fundamentaldır. Din insanları daha çox ayırır, nəinki onların etnik mənsubiyyəti. Qeyri-qərb ölkələrində demokratiya əksər hallarda cəmiyyəti kosmopolit deyil, əksinə yerlibaz edir.

Sivilizasiyaların toqquşması konsepsiyası ikiqütblü dünyanın dağılmasından sonra xristian və müsəlman sivilizasiyalarının toqquşmasının mümkünlüyünü əsaslandırır. Əgər "soyuq müharibə" dövründə siyasi-iqtisadi əlamətlərinə görə dünya kapitalist, sosialist və inkişaf edən ölkələrə bölünürdüsə, hazırda ölkələrin etnomədəni xüsusiyyətlərinə görə qruplaşması getdikcə əhəmiyyətini artırır. Bəşəriyyətin tarixi sivilizasiyaların tarixinə qayıdır. Müasir dünyanın siması Qərb, Konfutsian, Yapon, İslam, Hinduist, Slavyan-pravoslav, Latın Amerikası və Afrika sivilizasiyalarıyla müəyyən olunur. XXI əsrdə sivilizasiyaların toqquşması dünya siyasətinin hakim faktoruna çevrilir.

Alim dünyanın yeni quruluşunda ABŞ-ın əhəmiyyətli rol oynayacağını xüsusilə qeyd edir. "Harada ki, ABŞ-ın başçılığı olmayacaq, orada daha çox zorakılıq, qarışıqlıq, daha az demokratiya və iqtisadi artım baş verəcək, nəinki ABŞ-ın qlobal məsələlərin həllinə böyük təsiri olduğu ölkələrdə. ABŞ-ın daimi beynəlxalq üstünlüyü amerikalıların rifahı və təhlükəsizliyi, yer üzərində gələcək azadlıq, demokratiya, açıq iqtisadiyyat və beynəlxalq sabitlik üçün vacibdir". Etnomədəni regionalizm və etniklərarası marginal münaqişə tendensiyaları ənənəvi əxlaq, tarix və mədəniyyətdə dərin fərqlərlə şərtləndirilib. Xalqların qarşılıqlı təsiri dərinləşir və öz sivilizasiyalarının dərk edilməsi qüvvətlənir. Etnomədəni fərqlərin aradan qaldırılması və həll edilməsi çətinlikləri əmələ gəlir (siyasi və iqtisadi fərqlərlə müqayisədə). Bununla bərabər, iqtisadi regionalizm yalnız ümumsivilizasiya hüdudlarında uğurla tamamlana bilər. Avropa Birliyi Qərb xristianlığı və mədəniyyətinin bütöv özülü üzərində dayanır. Yaponiya, əksinə, özünün sosiomədəni xüsusiyyətlərinə görə Şərqi Asiyada vahid iqtisadi məkan yaratmaqda çətinlik çəkir.

Hantinqtona görə, Qərbin hökmranlığı sona çatır. "Qərb mədəniyyəti var və o, dünya mədəniyyəti olmalıdır" deyən Qərb sivilizasiyasının tərəfdarlarından fərqli olaraq, alim başqa

fikirdədir. O, iddia edir ki, "Qərb unikaldır, lakin universal deyil". Digər xalqların münaqişələrinə qaydasız müdaxilə Qərbin maraqlarına xidmət etmir. Regional münaqişələrin qarşısının alınması və həllinə görə məsuliyyət müəyyən regionda hegemonluq edən sivilizasiyanın lider ölkələrinin üzərinə düşür. Çoxmərkəzçilik (polisentrizm) dövründə Qərbin cavabdehliyi, onun üçün heç bir nəticəsi olmayan başqa xalqlar arasındakı münaqişələrin həllindən deyil, öz maraqlarının saxlanılması və qorunmasından ibarətdir.

Hantinqton proqnoz verir ki, növbəti dünya müharibəsi, əgər beləsi baş verəcəksə, sivilizasiyalararası müharibə olacaq. Bunun qarşısını almaq üçün onların birlik elementlərini, aralarındakı fərqləri dərindən anlamaq, yan-yana yaşamağı öyrənmək lazımdır.

Amerika iqtisadi fikir patriarxlarından biri, 1908-ci ildə anadan olan **Ceyms Kennet Helbreyt** uzun illər Harvard Universitetinin və 1990-cı illərin sonlarında Texas Universiteti nəzdində Dövlət İdarəçilik Məktəbinin professoru olmuşdur. Helbreytin elmi karyerası inzibati və siyasi fəaliyyəti ilə birləşirdi. Alimin "Amerika kapitalizmi"(1952), "Böyük iflas"(1955), "Yeni sənaye cəmiyyəti"(1967), "Qeyri-müəyyənlik dövrü"(1976), "İqtisadi elmin tarixi: keçmiş və bu gün"(1987), "Ədalətli cəmiyyət"(1996) əsərləri bütün dünyada çox məşhurdur.

Helbreyt Qərb cəmiyyətinin zəfərini həyatın daha yüksək keyfiyyətinin qələbəsi ilə izah edir. "Qloballaşmanın böhranı"(1999) məqaləsində alim qeyd edir ki, uzunmüddətli uğurlu inkişaf dövrü güclü hökuməti, qarışıq iqtisadiyyatı və zəif inkişaf etmiş kapital bazarı olan ölkələrə xasdır. İkinci Dünya Müharibəsindən sonra bunu Qərbi Avropa və Yaponiya, XX əsrin sonunda isə Cənubi Koreya, Tayvan və Çin nümayiş etdirərək, uğurlu qlobal iqtisadi inkişafın nümunəsi kimi qiymətləndirildi, azad bazar ölkələri isə (Argentina, Meksika, Filippin, Boliviya və s.) əksinə, iqtisadi sarsıntı keçirdilər.

Çin Kommunist Partiyasının rəhbərliyi altında uğurlu iqtisadi islahatlar mümkün oldu. Helbreyt hesab edir ki, Çindəki tədrici dəyişikliklər vətəndaş hüququnun pozulması ilə müşayiət edilsə də, bütövlükdə olduqca pozitiv bir hadisədir. Kənd təsərrüfatındakı ilkin dəyişikliklər ərzaq çatışmamazlığına son qoydu. Uzunmüddətli birbaşa sərmayələrin təşviqetmə siyasəti müasir çoxsaylı, müştərək və özəl müəssisələrin yaranmasına və insanların ümumi rifahının yüksəlməsinə gətirib çıxardı. Çin inkişaf etmiş demokratiya ölkəsinə çevrilmədi, ancaq hakimiyyət insanların başlıca tələbatlarını təmin etdi.

Alimin fikrincə, Rusiya, əksinə azad bazar doktrinası iflasının faciəli nümunəsini nümayiş etdirdi. Kommunist sistemini bir göz qırpımında bazar magiyasına dəyişmək cəhdini alim "axmaq optimizm tutması" adlandırırdı.

Yeni əsrin vacib məsələləri arasında Helbreyt barışmaz millətçiliyin öhdəsindən gəlməyi qeyd edir. Bundan əlavə, müasirlik üçün onu başa düşmək vacibdir ki, idarəedilməyən dünya nizamı mövcud ola bilməz. Bu, o deməkdir ki, qloballaşma dövründə neoliberal iqtisadi model özünü doğrultmur.

Başqa tanınmış iqtisadçı alim, uzun illər Kaliforniyada Klermont Universitetinin professoru olmuş, 1909-cu il təvəllüdlü **Piter Ferdinand Drakerdir**. Onun birinci kitabı "İqtisadi insanın sonu" (1939) iyirmi dəfədən artıq nəşr edilmişdir. "Sənaye insanının gələcəyi", "Korporasiya nəzəriyyəsi" (1946), "Gözəgörünməz inqilab" (1976), "Yeni reallıqlar" (1989), "Postkapitalist cəmiyyəti" (1993) əsərləri isə bestseller kimi tanınır.

Drakerin fikrincə, inkişaf etmiş ölkələrin üstünlüyü ondan ibarətdir ki, onlar çox sayda yüksəkixtisaslı əqli əmək işçilərinə malikdirlər; postsovet ölkələri üçün səciyyəvi olan ali təhsilin dəstəklənməsinə və elmi tədqiqatların maliyyələşdirilməsinə

laqeydlik isə təkcə onların yox, bütün dünya birliyinin gələcəyinə təhlükədir.

Qloballaşma sahəsində aparıcı Amerika alimlərindən biri, Massaçusets Texnoloji İnstitutunun (Kembric, ABŞ) professoru 1938-ci il təvəllüdlü **Lester Karl Turoudur**. Onun məşhur əsərləri sırasına "İnsan kapitalına sərmayələr" (1970), "Qeyri-bərabərliyi yaradaraq: Amerika iqtisadiyyatında bölgü mexanizmləri", "Üz-üzə: Yaponiya, Avropa və Amerika arasında gələcək iqtisadi toqquşma" (1992), "Kapitalizmin gələcəyi" (1995), "Bəxt qoçaqlara həmrah olur" (2003) kitabları daxildir. Turounun əsərləri bütün Qərbi Avropa dillərinə tərcümə olunub və bir çox ölkələrdə, həmçinin Latın Amerikası, Yaponiya və Çində nəşr edilib.

Professor Turou hesab edir ki, XIX əsrin sonlarında yerli təsərrüfat sistemləri milli iqtisadiyyatlarla əvəz edilmişdirsə, XX əsrin sonlarında onların yerinə qlobal təsərrüfat gəlmişdir. Gəlirlər yeni qlobal iqtisadiyyata inteqrasiyaolunma dərəcəsindən asılıdır. XXI əsrin strateji sərvəti isə bilik və ondan istifadə etmək bacarığıdır. "Bəxt qoçaqlara həmrah olur" kitabında Turou qloballaşmanın perspektivlərinə dair əvvəlki fövqəloptimist görüşlərini yenidən nəzərdən keçirir və onları bir qədər dəyişir.

1930-cu il təvəllüdlü **Marşal Qoldman** qlobalistika sahəsində məşhur amerikalı mütəxəssis olmaqla bərabər, həmçinin sovetologiyanın liderlərindən biri və Harvard Universiteti nəzdində Rusiya və Avrasiya Tədqiqatları Mərkəzinin professorudur. Onun "Sovet iqtisadiyyatı: əsatir və reallıqlar" (1976), "Yenidənqurma nədə büdrədi" (1991), "Əldən verilmiş şans: Rusiyada iqtisadi islahat keçirmək niyə bu qədər ağırdır" (1996), "Rusiyanın piratlaşması" (2003) əsərləri bütün dünyada məşhurdur.

Qoldman texnologiyaları gələcəkdə də ən əhəmiyyətli dəyişikliklərin mənbəyi hesab edir. Lakin mümkündür ki, bir sıra dövlətlər yenidən cəmiyyətin kommunist modelinə

qayıtsınlar. Mövcudluğunun ilk onilliklərində sovet modeli mərkəzləşmiş planlı iqtisadiyyatın effektiv inkişaf yolunu, ehtiyatların səfərbər edilməsi əsasında nisbətən kasıb ölkədə sənayeləşmə üçün kapitalın akkumulyasiya strategiyasını nümayiş etdirdi. Sovet İttifaqı nisbətən ucuz məhsulların kütləvi istehsalına başladı. Lakin texniki tərəqqinin sürətlənməsi şəraitində iri müəssisələr xarici bazarda rəqabətə tab gətirməyən mallar istehsal edən bədheybətlərə çevrildi. Qeyri-effektiv iqtisadiyyat və qızğın silahlanma yarışının birləşməsi kommunist rejimi üçün ölümcül oldu.

"Rusiyanın piratlaşması" kitabında Qoldman dəhşətli sosial təbəqələşməyə və əhalinin çox hissəsinin kasıblıq içində yaşamasına səbəb olan Rusiya islahatlarının çökməsini təhlil edir.

**Cozef Stinqlits** – amerikalı alim, iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı, Kolumbiya Universitetinin professorudur. O, ABŞ-ın eks-prezidenti Klintonun iqtisadi müşavirlər qrupuna rəhbərlik etmiş, Dünya Bankının baş iqtisadçısı və vitse-prezidenti işləmişdir. İqtisadi nəzəriyyə üzrə bir çox kitabların müəllifidir. 2002-ci ildə dərc etdiyi "Qloballaşma və ondan narazılıq" kitabı neoliberal qloballaşma tərəfdarlarının ciddi etirazına səbəb olmuşdur.

Alimin fikrincə, qloballaşma "üçüncü dünya" ölkələrində təcridedilmə hissini azaltmış və inkişaf etməkdə olan ölkələrdə bir çox insanlara biliklərə yiyələnməyə imkan vermişdir. Eyni zamanda o, varlılarla kasıblar arasında uçurumu daha da genişləndirmişdir. Qloballaşmanın neqativ təzahürünə görə məsuliyyət Beynəlxalq Valyuta Fondunun (BVF) üzərinə qoyulur. Çünki onun ideologiyası inkişaf etməkdə olan ölkələrdə böhranın öhdəsindən gəlmək istəməyən Qərb maliyyəçiləri tərəfindən təyin olunur. Tənqidin ikinci obyekti kimi ABŞ-ın Maliyyə Nazirliyinin adı çəkilir. Səbəb isə odur ki, bu qurum inkişaf etməkdə olan ölkələrə münasibətdə tez-tez siyasi məqsədlərlə fəaliyyət göstərir. İdarəolunmayan

qloballaşma xeyir gətirmir və Böyük Depressiya illərində Keyns nəzəriyyəsinə analoji olan konstruktiv ideyalara tələbat yaradır. Alim dövlətin rolunun artmasının labüdlüyünü sübut etməyə çalışır. O hesab edir ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin maraqlarının uzlaşdırılmasını təmin edə biləcək yeni beynəlxalq institutların yaradılmasına böyük ehtiyac var. Bu cür mövqeyi bir çox siyasətçilər, iqtisadçılar və biznesmenlər bəyan etmişlər, lakin qarşıya qoyulan məqsədə çatmaq hələ də mümkün deyil.

Stinqlits elmi yanaşmanın ehtiyatlılığı və qərəzsizliyi üzərində üstünlük təşkil edən ideoloji və siyasi amilləri dünya iqtisadiyyatının ən böyük qüsuru sayır. Alim belə nəticəyə gəlir ki, hakimiyyətlər bazarın səhvlərini düzəltməyə və sosial ədaləti dəstəkləməyə borcludurlar.

Stinqlits Çində islahatların stabilliyini təmin edən kommunist rəhbərliyinin siyasətinin və burada iqtisadi inkişafa səbəb olan "Şərqi Asiya Möcüzəsi"nin tərəfdarı olaraq qalır. Alimin fikrincə, Şərqi Asiya böhranını BVF üsullarından istifadənin neqativ nəticələri doğurur.

Kitabda, yol verilmiş anarxiya və məsuliyyətsizliyə görə Rusiya hakimiyyəti tənqid atəşinə tutulur. Müəllif qeyd edir ki, Rusiyanın problemləri özəlləşmədə və sənaye siyasətində buraxdığı səhvlər, rüşvətxorluq və səriştəsizliklə birbaşa bağlıdır. Rusiya böhrandan qazanmaq imkanını əldən verməyən BVF-dən yeni borclar alırdı. Fikirlərini yekunlaşdıraraq Stinqlits yazır: "Bazar islahatlarına bolşevist yanaşma" adlandırılan (çünki sürətlə baş verən dəyişikliklər onlara hazır olmayan vətəndaşlara qəbul etdirilir) şok terapiyası həyata keçirildikdən sonra Rusiyanın başına mümkün olanlardan ən pisi gəldi: istehsalın faciəli enməsi və fantastik sosial bərabərsizlik. Sonuncunun səviyyəsinə görə Rusiya Asiyanın və Latın Amerikasının yarımfeodal rejimləri ilə bir sırada yer aldı.

**Corc Soros** – bütün dünyada yaxşı tanınan uğurlu amerikalı maliyyə spekulyantı və məşhur xeyriyyəçi "açıq cəmiyyət" və neoliberal qloballaşma tərəfdarıdır. O, qlobal kapitalizmin islah edilməsi üzrə bir sıra kitabın, o cümlədən "Dünya kapitalizminin böhranı. Açıq cəmiyyət təhlükə altındadır" (1998) və "Amerikanın üstünlüyünün "sabun köpüyü": Amerika qüdrətinin istifadə edilmə xətalarının təshihi" (2004) adlı kitabların müəllifidir. Amerikanın xarici siyasətində liberal və mühafizəkar ideologiyaların qarşıdurması şəraitində Soros respublikaçılar administrasiyasının kursunu ciddi tənqid edir. Onun fikrincə, terrorizmlə mübarizə yalnız terror təhlükəsini artırır, Yaxın Şərqdə demokratiyanın nümunəvi layihəsinin reallaşdırılması üçün İraqın seçilməsi isə uğursuzdur.

Soros qloballaşmanı qlobal maliyyə bazarlarının inkişafı və transmilli korporasiyaların rolunun artması, onların milli iqtisadiyyatlar üzərində üstünlüyünün güclənməsi prosesi kimi qiymətləndirir. O, qloballaşmaya nisbətən yeni bir fenomen kimi baxır və müasir "qloballaşmış dünyanı" XX əsrin əvvəlinin "beynəlxalq kapitalizmi"nə qarşı qoyur. Hazırkı dünya nizamı heç də ideal deyil, lakin iqtisadi bərabərsizliyin dərinləşməsində və ən kasıb ölkələrin faciəli vəziyyətində yalnız qloballaşmanı günahkarlandırmaq da düzgün olmaz. Sorosun "Milli suverenitet doktrinası" BMT-də "demokratik fraksiyaların" yaranmasını təklif edir, bu fraksiyalar üstünlük təşkil etdikləri halda həmin təşkilatın xarakterini dəyişəcəkdir. BMT-də "yeni çoxluq" ən demokratik səsvermə yolu ilə liderin xalq tərəfindən seçilmədiyi ölkədəki rejimi qeyri-legitim elan edə bilər. Beləliklə, digər dövlətlərin işlərinə zor gücünə qarışmağa görə məsuliyyət Amerikanın deyil, demokratik dövlətlərin koalisiyasının üzərinə düşəcək.

**Ulrix Bek** – məşhur alman sosioloqu, "Risk cəmiyyəti. Yeni modern yolunda" və "Qloballaşma nədir? Qlobalizmin səhvləri – qloballaşmaya cavablardır" (Kembric, 2000)

kitablarının müəllifidir. Alim qlobalizm, qloballıq və qloballaşma anlayışlarını ayıraraq onları dürüst müəyyən edir. Qlobalizm anlayışını o, iqtisadi ölçüyə, yəni bu növ parametri dünya bazarından hər cür asılılığın durmadan xətti genişlənməsinə müncər edir. Qloballıq elə vahid dünya düzəni kimi izah edilir ki, burada heç bir ölkə və ya ölkələr qrupu bir-birindən ayrı ola bilməz. Qloballaşma isə milli dövlətlərin suverenitetinin transmilli aktorların hakim imkanlarına itaət prosesidir. Qloballaşma submilli və üstmilli səviyyələrdə regionlaşmanı nəzərdə tutur. Nümunə kimi güclü və demokratik Avropa İttifaqını göstərmək olar[1]. Alimin fikrincə, marksist ekonomizminin (iqtisadçılığının) yerinə onun neoliberal qlobalist növü gəlir. Qlobalizm – siyasəti, elmi və mədəniyyəti iqtisadiyyatın üstünlüyünə tabe etməyə canatan "təfəkkür virus"u olmuşdur. Alim qloballaşmanın bir neçə ölçüsünü ayırır, o cümlədən kommunikasiya texnologiyalarını, ekologiya, iqtisadiyyat, fəaliyyətin təşkili, mədəniyyət və vətəndaş cəmiyyətini.

## §3. Rusiya elmində qlobalistika problemləri

Qloballıq və qloballaşma, o cümlədən siyasi qloballaşma problemləri ABŞ, İtaliya, İspaniya və digər Qərb ölkələrinin qlobalistika məktəbləriylə bərabər, Rusiya qlobalistika məktəbində də çox ciddi araşdırılır.

Rusiyada tədricən qlobalistikanın fundamental əsasları, nəzəriyyəsi, metodologiyası və tətbiqi aspektləri tədqiq olunan elmi mərkəzlər formalaşır. Bunların arasında mütəmadi fəaliyyət göstərən "Qlobal dünya" alimlər klubunun seminarı məşhurdur (rəhbərləri **N.A.Simoniya** və **E.A.Azroyans**). Onun aylıq buraxılışlarında qlobal problemlər sahəsində aparılan tədqiqatların bütün palitrası əksini tapmışdır. Qloballaşma

[1] Hazırda bu qurum iqtisadi böhran və dağılma təhlükəsi ilə üzləşib.

problemləri ilə intensiv şəkildə M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (qloballaşma problemləri üzrə dəyirmi masanın iclaslarına **V.P.Kolesov** və **M.N.Osmova** rəhbərlik edir), Rusiya Hökuməti yanında Maliyyə Akademiyası (rəhbərlər **M.A.Eskindarov**, **A.Q.Movsesyan**, **B.M.Smitiyenko**, **N.N.Dumnaya**, **İ.Y.Belyayev**), Rusiya İqtisadi İnkişaf Nazirliyi yanında Xarici İqtisadi Əlaqələrin Ümumrusiya Elmi-Tədqiqat İnstitutu məşğul olur.

Qloballaşma problemləri Rusiyanın "Dünya iqtisadiyyatı və beynəlxalq münasibətlər", "Avrasiyanın təhlükəsizliyi", "Yüksək humanitar texnologiyaların elmi almanaxı", "İqtisadiyyat məsələləri", "Proqnozlaşma problemləri", "Rusiya iqtisad jurnalı", "İqtisadçı", "Pro et Contra", "Polis" jurnallarında geniş şəkildə işıqlandırılır. Həmin problemlər bu ölkənin ayrı-ayrı bölgələrinin elmi məktəbləri tərəfindən çoxsaylı monoqrafiya, məqalə və referatlarda fəal şəkildə tədqiq olunur.

Qeyd etmək lazımdır ki, burada qloballaşma proseslərinə münasibətdə intellektual fikir son dərəcə ziddiyyətlidir, yanaşma spektri çox genişdir – tam inkardan tərifləməyə qədər. Bir sıra aparıcı Rusiya alimlərinin bu sahədəki elmi baxışlarına qısaca nəzər yetirək.

**Panarin Aleksandr Sergeyeviç** (1940–2003) – politoloq, filosof və publisist, "Politologiya" (1997), "XXI əsrin strateji qeyri-stabilliyi" (2003) kitablarının müəllifidir.

A.S.Panarin qloballaşmanı obyektiv və hazırkı şəklində yolverilməz proses kimi qiymətləndirir. Hesab edir ki, qloballaşmanı amerikanlaşma ilə səhv salmaq lazım deyil. Qloballaşmanın məhz bu modelini "soyuq müharibənin" qalibi dünyaya qəbul etdirir. Qloballaşma prosesində milli suverenitet kimi demokratik nailiyyətlər, xalqın öz idarə edənlərini seçmək və onlara nəzarət etmək hüququ itirilməməlidir. Alimin fikrincə, qloballaşma işguzar elitanın mili nəzarət sistemindən çıxmaq kimi çox qorxulu tendensiya ilə müşayiət olunur. Bu

tendensiya iqtisadiyyatı möhtəkirlik-israfçı ruhda formalaşdırır. Sosial dövlətin demontajı baş verir. A.S.Panarinin görüşlərinə əsasən, Rusiya bəzi qlobal hədələrin mərkəzində yerləşir. Rusiya dünya quruluşunun birqütblü modelinə sığmaq üçün çox böyükdür. O, Qərbə cəlbedici olan nəhəng ehtiyatlara malikdir. Bu səbəbdən də müasir Rusiyaya effektiv geosiyasət lazımdır.

**Zinovyev Aleksandr Aleksandroviç** (1922-ci ildə anadan olub) – Sovet İttifaqından sürgün olunmuş rus filosofu və yazıçısı, 1978-ci ildən 1990-cı illərin sonuna qədər AFR-də yaşamışdır. M.V.Lomonosov adına MDU-nun professoru, "Kommunizm reallıq kimi"(1980), "Homosovetikus"(1982), "Kommunizmin böhranı"(1990), "Qərb"(2003) və s. kitabların müəllifidir.

İlk kitablarında alim sovet gerçəkliyinin paradoks və absurd olduğunu göstərmişdir. Sonralar SSRİ-də islahatları və Qərb dəyərləri qarşısında əyilməni kəskin tənqid atəşinə tutaraq, kommunizmin çökməsini aşağıdakı kimi səciyyələndirirdi: "Ali hakimiyyət öz mənasız və məsuliyyətsiz islahatları və qanunları ilə şüşə qabın içindən böhran cinini buraxmışdır... Sovet İttifaqının "soyuq müharibədə" uduzmasında əsas rolu Qərb oynamamışdır. Ölkə böhrandan zəifləmiş, ölkənin rəhbərliyi isə canını və adını xilas etmək üçün Qərb qüvvələrinin marioneti olmuş və öz ölkəsinin maraqlarına xəyanət etmişdir. Bəşəriyyət tarixində miqyasına görə bu satqınlıqla müqayisə oluna biləcək nə isə, yəqin ki, yoxdur".

XX əsrin sonunda Rusiyada baş verən hadisələrə yekun vuraraq, filosof yazır: "Rusiya heç vaxt və heç bir vəchlə Qərb ölkələrinə analoji olan ölkəyə çevrilməyəcək və Qərbin bir hissəsi olmayacaq. Bu onun coğrafi, tarixi və müasir beynəlxalq xüsusiyyətlərinə, həmçinin ölkəni təşkil edən xalqların xarakterinə görə mümkünsüzdür".

Zinovyevin fikrincə, qloballaşma, iradəli və şüurlu insanların həyat fəaliyyətinin obyektiv prosesidir. Qloballaşmanın təşkilatçısı Qərbdir. Məhz bunun üçün qloballaşma qərbçilik totalitarizminin ümumdünya hadisəsidir. Bu, əhalinin imtiyazlı və sosial baxımdan aktiv hissəsi üçün parlaq gələcək, digərləri üçün isə ölümdür. Alim **müasir cəmiyyətin böyük təkamül dönüşü nəzəriyyəsini** qısa və dürüst ifadə etmişdir. Qloballaşmanın sosial mahiyyəti Qərbin dünya hökmranlığı və ən vacibi, bəşəriyyətin təkamül prosesinə yiyələnmək uğrunda möhtəşəm və planlaşdırılmış müharibə kimi qiymətləndirilir. Bəşəriyyət tarixində böyük təkamül dönüşü XX əsrin ikinci yarısıyla bağlıdır. Bu zaman fövqəlcəmiyyətlərin hakimiyyəti dövrünə keçid başladı, kortəbii və idarəolunmayan təkamül düşünülmüş, planlaşdırılan və idarəolunan təkamüllə tədricən əvəz edildi. Bəşəriyyətin həyatında müasir tendensiyaları müəyyənləşdirən nəhəng fövqəlcəmiyyətlərin yaranması baş verdi. Nəhəngmiqyaslı fövqəlcəmiyyətin ilk nümunəsi dünya liderliyinə iddiası olan Sovet İttifaqı idi. İkinci Dünya Müharibəsindən sonra Qərb sivilizasiyası fövqəlcəmiyyət istiqamətində təkamül etdi. Onun əsas mərkəzi ABŞ-da yerləşdi. Bu ölkənin transmilli şirkətləri və digər beynəlxalq institutları planetin zəbt edilməsi və istismarı üçün ən müxtəlif vasitələrə əl atır. Lakin Sovet İttifaqının "soyuq müharibədə" uduzması Qərbə arzulanan qələbəni gətirmədi. Qərb fövqəlcəmiyyətinin dünya hegemonluğu yolunda ən böyük əngəl kommunist Çini oldu.

**Utkin İvan Anatolyeviç** – tarix elmləri doktoru, Rusiya Elmlər Akademiyası ABŞ və Kanada İnstitutunun Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, bir sıra elmi əsərlərin müəllifidir. Qlobalistika üçün onun "XXI əsrin dünya nizamı"(2002), "Birinci Dünya Müharibəsi"(2003), "Amerika imperiyası"(2003) və s. kitabları qiymətlidir.

Alimin fikrincə, XXI əsrin dünyası məlum olmayan çox şeyi gizlədir ki, onlar haqqında düşünməmək, baş verən

hadisələrin qurbanına çevrilmək deməkdir. O, zəngin faktiki material əsasında yeddi sivilizasiyanın hökmranlığı, ikiqütblü və çoxqütblü dünya, bir ölkənin hegemonluğu kimi əsas futuroloji konseptual istiqamətləri araşdırır. Müasir dünyanın dəyişən strukturunda Rusiyanın bu günü və gələcəyi haqda fikir yürüdür.

**Derqaçov Vladimir Aleksandroviç** – professor, coğrafiya elmləri doktoru, 500-dən artıq elmi və publisistik əsərin, A.A.Zinovyevin "nəhəng fövqəlcəmiyyət" nəzəriyyəsinə analoji olan **böyük çoxölçülü məkan**, yaxud **sərhəd kommunikativliyi nəzəriyyəsinin** müəllifidir. V.A.Derqaçov açıq iqdisadiyyat və mədəni-genetik kod əsasında bazar münasibətlərinə mərhələli keçid konsepsiyasını əsaslandırmışdır. Onun ali məktəb tələbələri üçün yazdığı "Qlobalistika" (2005) dərs vəsaiti böyük maraq doğurur. Burada qloballaşmanın siyasi, iqtisadi və s. problemləri araşdırılmış, dünya nizamının transformasiyasına böyük təsir göstərən proseslərin təbiəti göstərilmişdir. Sivilizasiyaların niyə qlobal dünyanın təminatçısı olduğu, qloballaşma əleyhdarlarının fikirləri və yeni dünya nizamının mümkün ssenariləri açıqlanmışdır.

Qlobalistika problemlərinə daha böyük diqqəti rusiyalı iqtisadçı alimlər yetirir. Onlardan biri, **Boqomolov Oleq Timofeyeviç** – akademik, REA-nın Beynəlxalq İqtisadi və Siyasi Tədqiqatlar İnstitutunun fəxri direktoru, qloballaşma üzrə çoxsaylı əsərlərin müəllifidir. Alim "Qlobal iqtisadiyyatın anatomiyası"(2003) kitabında beynəlxalq əmək bölgüsünü iqtisadi əlaqələrin beynəlmiləlləşməsi və qloballaşması proseslərini özünə daxil edən iqtisadi qloballaşmanın ilk əsası kimi araşdırır. O.T.Boqomolov "dünya iqtisad nizamı"nı dünya bazarlarında beynəlxalq iqtisadi münasibətlər və rəqabətin hamı tərəfindən qəbul edilən norma və qaydaları kimi izah edir. Bu nizam beynəlxalq təşkilatlarsız mümkün deyil. Dünya iqtisadi nizamı inteqrasiya olunmuş birliklərə və nəhəng transmilli

korporasiyalara əsaslanıb. Bununla belə, neoliberal qloballaşma modelindən imtina etmək lazımdır, çünki bu model dünya periferiyası ölkələri üçün xarici iqtisadi açıqlıq və beynəlxalq əmək bölgüsündə iştirak ilə əlaqədar riskləri çoxaldır və daha inkişaf etmiş iqtisadiyyatlar üçün qloballaşmanın mənfəətini artırır.

**İnozemtsev Vladislav Leonidoviç** – iqtisad elmləri doktoru, Postsənaye Cəmiyyətinin Tədqiqat Mərkəzinin direktoru, "Azad fikir XXI" jurnalının baş redaktoru, "Avropanın qayıtması. Yeni yüzillikdə Köhnə Dünyanın portretinə cizgilər"(2002, Y.Kuznetsova ilə birgə), "Dövrlərin hüdudunda: İqtisadi tendensiyalar və onların qeyri-iqtisadi nəticələri"(2003) kitablarının müəllifidir. "Amerikansayağı qloballaşma vesternləşmənin alterativi kimi" (2003) məqaləsində İnozemtsev müasir qloballaşmanı əsasında bir mərkəzdən idarəolunan dünyanın yaradılması duran vesternləşmə kimi səciyyələndirir. Vesternləşmə bərabərlik və qardaşlığı israr etmir, onun öz subyekti, mərkəzi və periferiyası mövcuddur.

Qloballaşma dünya iqtisadiyyatını kəskin surətdə aktivləşdirən və sosial birgə yaşayışın ümumi prinsiplərinin yayılmasına imkan yaradan böyük coğrafi kəşflər və Avropa ekspansiyasından başladı. Müstəmləkələrin mənimsənilməsi dünya ticarətinin və maliyyə transaksiyalarının geniş miqyasda inkişafına səbəb olmuşdur. Avropadan insanların, kapital və texnikanın bütün qitələrə yayılmasıyla bağlı vesternləşmə baş vermişdir. Birinci Dünya Müharibəsinin əvvəlinə yaxın artıq avropalılar Yer kürəsi ərazisinin 84 faizinə genişmiqyaslı nəzarəti həyata keçirirdilər.

V.L.İnozemtsevin fikrincə, keçmiş qloballaşma (vesternləşmə) aydın istiqamətə malik idi. Avropalılar qloballaşmanın aparıcı qüvvəsi və subyekti, periferiya xalqları isə onun obyekti idi.

Keçmiş və müasir qloballaşmanın müqayisəsi V.L.İnozemtsevə aşağıdakı fikirləri yürütməyə imkan verdi:

***XX əsrin əvvəlinin idarəolunan vesternləşməsi yüzilliyin sonunda sosial-iqtisadi və sosial-mədəni modellərin xaotik qlobal rəqabəti ilə əvəzləndi.***

Müasir qloballaşmanın liderləri kimi amerikalılar demokratiya və azad sahibkarlıq dəyərlərinə əsaslanan yeni qloballaşma modelini təklif etdi.

**Şişkov Yuri Dmitriyeviç** – iqtisad elmləri doktoru, REA-nın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun əməkdaşı, iqtisadi qloballaşma problemləri haqqında "XXI əsrin əvvəlində inteqrasiya prosesləri. MDB ölkələri niyə inteqrasiya olunmur"(2001) kitabının və bir çox başqa əsərlərin müəllifidir. Alimin fikrincə, qloballaşma əsas müddəaları marksistlər tərəfindən hazırlanan beynəlmiləlçilikdən fərqlidir. Qloballaşma, dövlətlərarası və ya ölkələrarası münasibətlər sisteminin qeyri-dövlətlər və dövlətlərdənkənar münasibətlər sisteminə tədricən keçməsidir. Bu, ayrı-ayrı ölkələrin, o cümlədən Birləşmiş Ştatların iradəsi və səyindən asılı olmayaraq baş verən və öz-özünə inkişaf edən prosesdir. Məsələn, dünya enerji və maliyyə bazarları ABŞ tərəfindən idarə olunmur. Dünya birliyi "şüşədən qloballaşma cinini buraxıb" və hazırda onu cilovlaya bilmir. Keçmişdə dövlət sərhədləri ilə bölünən dünyanın çoxölçülü (sosial, iqtisadi, mədəni və s.) məkanı transformasiya olunaraq sərhədsiz məkana çevrilir.

**Delyagin Mixail Gennadiyeviç** – iqtisad elmləri doktoru, Qloballaşma Problemləri İnstitutunun elmi rəhbəridir. RF Prezidentinin administrasiyasında və hökumətində işləyib, 500-dən çox əsərin, o cümlədən "Dünya böhranı. Qloballaşmanın ümumi nəzəriyyəsi"( 2004) adlı fundamental kitabın müəllifidir. Bu kitabda qlobal rəqabətin nəzəri və tətbiqi əsasları, həmçinin ictimai şüurun formalaşma texnologiyaları izah edilmişdir. Alim vətənpərvərliyin liberal dəyərlərlə sintezinə tərəfdar çıxır.

M.G.Delyaginin fikrincə, qloballaşma dünyanın vahid iqtisadi-maliyyə və informasiya məkanının formalaşması və inkişafı prosesidir. Bu məkan kapitalların sürətli yerdəyişməsi və informasiyanın tam açıqlığı ilə səciyyələnir. Alim qloballaşmanın üç mərhələsini ayırır:

- *təşəkkül (1991 – 1996)* mərhələsi Amerika iqtisadiyyatında informasiya-kommunikasiya texnologiyalarının üstünlüyünün başlanması (İKT və onların məhsullarının alınması maddi texnologiyalar və məhsulların alınmasını ötür) və "soyuq müharibənin" tamamlanması ilə əlamətdardır;
- Qərb ölkələrinin maliyyə resursları uğrunda toqquşması ilə bitən və xüsusən ABŞ-ın NATO-dakı vassalları ilə birlikdə Yuqoslaviyaya hücumu ilə başa çatan inkişaf etməmiş ölkələrin *maliyyə böhranı (1997 – 1999) mərhələsi*;
- 2000-ci ildən başlayaraq inkişaf etmiş ölkələrin və bütün dünya iqtisadiyyatının *struktur böhranı mərhələsi*.

Qloballaşmanın tədqiqat predmeti kimi daha çox İKT-nin ictimai münasibətlərə təsiri çıxış edir. Bəşəriyyət tarixində ilk dəfə kommersiya cəhətdən ən gəlirli biznes cansız əşyaların dəyişdirilməsi deyil, canlı şüurun formalaşması olmuşdur. Təbiətə antropogen təsir bir qədər böhran səviyyəyə çatmış və nəinki gen mühəndisliyi, həmçinin yeni şüurun formalaşması ilə təbiətə uyğunlaşmağın vaxtı yetişmişdir. Keçmişdə şüurun formalaşması ilə dövlət məşğul olurdu, bu gün isə həmin məsələ korporasiyalarla birgə, böyük və kiçik firmaların işinə, həm də artıq hər növ "piarçıların" gəlirli biznesinə çevrilmişdir.

Sənaye mərhələsində ən vacib resurs coğrafi məkan və təsbit edilmiş istehsal idi. M.G.Delyagin adıçəkilən kitabında yazır ki, informasiya-kommunikasiya texnologiyaları mobil kapitalı və mobil intellekti inkişafın əsas resursları etdi. Nəticə etibarilə hər hansı bir ərazinin potensialını mənimsəmək və onu inkişaf etdirmək labüdlüyü öz əhəmiyyətini itirdi. Buna görə inkişaf edən ölkələrdə həmin mənimsəmə yaradıcı deyil, dağıdıcı xarakter daşıyır. Dünya bazarlarında rəqabət "məhv

edilməyə yönəlmiş müharibə" xüsusiyyəti əldə edir, bu da yüksəkdərəcəli inhisarçılıq üçün səciyyəvidir. Qloballaşma dövründə resursların mənimsənilməsi birbaşa siyasi hökmranlığa əsaslanan müstəmləkəçilikdən, həmçinin də iqtisadi hökmranlığa əsaslanan yeni müstəmləkəçilikdən prinsip etibarilə fərqlidir. Yeni müstəmləkəçilik dövründə müstəqil inkişafa uyğynlaşmayan yerli cəmiyyətlərin yetişməməsinə görə sosiumun deqradasiyası baş verir (məsələn, Mərkəzi Afrika "soyuq müharibə" bitdikdən sonra məhv olmuş bölgəyə çevrildi).

**Qloballaşma dövrünün müstəmləkəçiliyi** mənimsənilən ərazilərin sosial-iqtisadi inkişafı ideyasından belə imtina edir, çünki bunu yalnız inkişaf etmiş ölkələrin imtiyazı sayır.

Alimin fikrincə, qloballaşma şəraitində bazar münasibətlərinin inkişafına metatexnologiyalar xüsusi təsir göstərir. Onlardan istifadə digər ölkələrlə bu texnologiyaları hazırlayan ölkələr arasında hər hansı rəqabəti prinsip etibarilə mümkünsüz edir. Məsələn, Qərbdən elmi işlərə qrant alındıqda, çox vaxt işlərin məhz oradan verilmiş kompyuterlərdə aparılması şərti qoyulur ki, həmin kompyuterlərdə qrant verənin məlumata icazəsiz girişini mümkün edən xüsusi proqram təminatı qurulmuşdur. İnformasiya cəmiyyətində maliyyə resursları tədricən öz yerini intellektual resurslara verir.

**Neklessa Aleksandr İvanoviç** – REA-nın Beynəlxalq Münasibətlər bölməsi yanında İqtisadi Strategiyalar İnstitutunun direktor müavini, Rusiyada qlobal problemlərin araşdırılmasının geoiqtisadi və geosiyasi istiqamətinin banilərindən biri, qlobalistika problemlərinin dərin fəlsəfi ümumiləşdirilməsi ilə səciyyələnən "Qloballaşma: yeni sivilizasiya konteksti"(2001) əsərinin və bir çox başqa əsərlərin müəllifidir. Alim, kapitalizmin tarixi inkişafının üç fazasını ayırır: ticarət-maliyyə, sənaye və müasir geoiqtisadi. Sənayeləşmənin və milli dövlətin böhranı XX əsrin əsası oldu. Onun dərinliklərində isə müasir qloballaşma prosesi yarandı.

Əmələ gələn qlobal strategiya xalqlar dostluğu, dünya vətəndaşlığı və millətlərin qlobal vətəndaş cəmiyyətində birləşməsi planlarından çox uzaqdır. Yeni dünya elitası dünyanın total maliyyə-hüquqi tənzimlənməsinə əsaslanır ki, bu da aşağıdakı məqsədləri güdür: geoiqtisadi renta ödənişlərinin dayanıqlı sisteminin yaradılması, sistemli mənfəətin (fövqəlgəlirlərın) əsas mənbəyi qismində resursların və dünya gəlirinin genişmiqyaslı yenidən bölüşdürülməsi.

A.İ.Neklessa yazır ki, dünyanın kapitalist, sosialist və inkişaf etməkdə olan ölkələrə siyasi-iqtisadi bölünməsi tarixdə qalmışdır. Hazırda dünya iqtisadiyyatı yeni məkan konfiqurasiyası axtarışındadır. Qərb-Şərq və Şimal-Cənub geosiyasi və geoiqtisadi mehvərləri hərəkətə gəlmiş, ikiqütblü müəyyənlik və dünya şahmat lövhəsində yarım əsr mövcud olan oyun qaydaları sona çatmışdır. Sənayeləşmiş Şimal planetar oyun qaydalarını müəyyənləşdirən və spesifik dünya rentasını alan iqtisadiyyata malik yüksək dərəcədə inkişaf etmiş ölkə-sistemlərə bölünməkdədir.

Keçmiş "sosialist düşərgəsi" keçid iqtisadiyatıyla fərqlənən müxtəlif inkişaf istiqamətli ölkələr qrupunu təşkil edir. Bunlardan bir neçəsi əldə edilmiş səviyyədən hara keçirlər: hüquqi demokratik dövlətlərə, yoxsa dərin periferiyaya? – sualına aydın cavab verə bilmir.

Dünya geoiqtisadi məkanında iqtisadi və texnoloji inkişafın üç qütbü (makroregionu) yaranmışdır – Qərbi Avropa, Şimali Amerika və Asiya-Sakit okean qütbləri.

Alim, hakimiyyət səlahiyyətlərinin millidən transmilli səviyyəyə qədər yenidən paylanmasına aparan, qloballaşma şəraitində beynəlxalq münasibətlərin transformasiyasının aşağıdakı səciyyəvi proseslərini göstərir:

- beynəlxalq tənzimləyici orqanların və digər yeni hakimiyyət subyektlərinin yaranması;
- yüksək səlahiyyət səviyyəsi olan qeyri-formal təsir mərkəzlərinin meydana çıxması;

- milli dövlətin böhranı;
- ölkə-sistem fenomeni;
- elitaların transmilliləşməsi;
- varlı Şimal ilə kasıb Cənub arasında ziddiyyətlərin dərinləşməsi;
- müasir dünyada siyasi və iqtisadi funksiyaların birləşməsi, dünya əmək bölgüsünün yeni formalarının əmələ gəlməsi;
- əməkdaşlığın transmilli (korporativ) şəbəkələrinin və şəbəkə mədəniyyətinin inkişafı və s.

**Koçetov Ernest Georgiyeviç** – professor, iqtisad elmləri doktoru, Ümumrusiya Xarici Iqtisadi Əlaqələr Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, qlobal problemlərin tədqiqatına geoiqtisadi yanaşmanı əks etdirən “Geoiqtisadiyyat” (1999), “Qlobalistika”(2002) və s. kitabların müəllifidir. Alim tərəfindən geoiqtisadiyyat haqqında ilk Rusiya dərsliyinin başlıca konsepsiyası iş adamlarının yeni nəslinə geoiqtisadi təfəkkürü aşılamaq məqsədini daşıyır. Bunun üçün hərbi qüdrətə və iqtisadi avtarkiya haqqında təsəvvürlərə əsaslanan geosiyasi təfəkkürün ətalətindən qurtulmaq lazımdır. Geoiqtisadi məqsədlərə bir güllə atmadan da çatmaq olar, müasir dövlət isə təkrar istehsal prosesinin məntiqinə əsasən dünya təsərrüfat əlaqələri olmadan mövcud ola bilməz.

E.G.Koçetov beynəlmiləlləşmə (milli təsərrüfatların dünya bazarı yolu ilə qarşılıqlı əlaqəsi), mondiallaşma (dünya iqtisadiyyatının tamlığını təşkil edən inteqrasiya – təkrar istehsal əlaqələri) və qloballaşma (qlobal iqtisadiyyatın geoiqtisadiyyatla qarşılıqlı əlaqəsi) prosesləri əsasında formalaşan dünya iqtisadi sisteminin vəhdətini xüsusi vurğulayır. Bu sistemdə əmtəə istehsalının modifikasiyası milli iqtisadiyyatlara ümumdünya əmək bölgüsündə öz yerini tutmaq gərəkliyini diktə edir.

“Qlobalistika” kitabında E.G.Koçetov qlobal məkanı bu və ya digər fəaliyyət sahəsini (geoiqtisadi, geosiyasi, geomaliyyə,

geoinformasiya, geostrateji sahələri) əks etdirən ayrı-ayrı məkanların simbiozu kimi qiymətləndirir. Bu kontekstdə geoiqtisadiyyat hazırkı dünya nizamını nəzərə alaraq milli inkişaf strategiyasına yeni yanaşmanı təklif edir. Geoməkanların tabe olunması zamanla dəyişir. Müasir dünyada üç interpretasiyada təqdim olunan geoiqtisadi məkan əsas rol oynayır – bunlar mal-dəyər, təşkilat-iqtisadi və müqavilə interpretasiyalarıdır.

Bundan əlavə qlobal proseslərin iqtisadi ölçüsünə (geoiqtisadiyyata) **E.Y.Obminski, İ.P.Faminski, M.A.Eskindarov**, **B.M.Smitiyenko, D.N.Zamyatin, V.V.Sokolov, Y.V.Yakovts** və başqa alimlərin əsərləri həsr olunmuşdur.

Müasir qloballaşan dünyanın qnoseoloji problemləri **N.A.Simoniya, M.A.Çeşkov, N.A.Kosolapov, Y.B.Raşkovski, V.İ.Pantin, V.L.İnozemtsev** və digərlərinin əsərlərində təhlil edilir.

Qloballaşmanın sosioloji problemləri **R.Q.Yanovski, V.İ.Kuznetsov, V.N.Sergeyev, L.İ.Sergeyeva, V.B.Kuxarenko** və başqalarının əsərlərində açıqlanır.

Qlobal proseslərin siyasi problemləri **A.D.Boqoturov, S.V.Kortunov, A.V.Kortunov, V.L.Tsımburski, V.A.Vasilenko, İ.A.Vasilenko**[1] və başqalarının əsərlərində işıqlandırılır.

Müasir dünyanın qloballaşması ilə əlaqədar olan təhlükəsizlik problemləri **V.N.Kuznetsov, Q.M.Sergeyev, L.İ.Sergeyeva, A.İ.Vladimirovun** əsərlərində tədqiq edilir.

---

[1] Bax: Василенко И.А. Политическая глобалистика. Учебное пособие. М., 2000.

## §4. Qloballaşma prosesinin obyektiv məntiqi və dövrləşdirilməsi

Bu gün dünya birliyi həyatının bütün tərəflərini əhatə edən qloballaşma dünya siyasəti və beynəlxalq münasibətlərin üstün faktoruna çevrilmişdir. İqtisadiyyat elmində "qloballaşma" termini ilk dəfə Harvard Biznes Məktəbinin professoru Teodor Levitt tərəfindən "Harvard Biznes Revyu" jurnalında 1983-cü ildə dərc olunan "Bazarların qloballaşması" məqaləsində işlənilmişdir. Bu məfhumla müəllif "qlobal firma" adlanan yeni növ müəssisələr vasitəsi ilə bütün dünyada bazarların konvergensiyasını müəyyənləşdirmişdir. Onun fikrincə, qloballaşma və texnologiyalar beynəlxalq münasibətləri şərtləndirən iki əsas amildir. Sonralar, "qloballaşma" anlayışı idarəetmə strategiyası sahəsində məşhur yapon tədqiqatçısı və mütəxəssisi Keniçi Omaenin əsərlərində ətraflı inkişaf etdirilmişdir. Məhz bu alim bütün dünyada həmin sözü geniş yayan insan kimi tanınır. Qloballaşma prosesinin izahını verməyə cəhd göstərən mütəxəssislərdən və bu proseslə bağlı nəzəriyyənin yaradıcılarından biri olan ABŞ alimi R.Robertsonun adını da unutmaq olmaz.

Qeyd etmək lazımdır ki, fransız elm məktəbində "qloballaşma" anlayışı iki mənaya bölünür, bunlar: mondiallaşma (fransız dilində "le monde" – dünya) və qloballaşmadır. Bu zaman "qloballaşma" termini ilə daha geniş proses olan mondiallaşmanın iqtisadi və maliyyə xüsusiyyətləri göstərilir.

"Qloballaşma" məfhumunun bir çox tərifi var, onların əksəriyyəti iqtisadi yanaşma mövqeyindən verilmişdir. Qloballaşma, əsasən, dünya kapitalist inkişafının yeni neoliberal mərhələsi kimi dəyərləndirilir. Bəzi təriflərdə qloballaşma ikiqütblüdən birqütblü dünya nizamına tarixi keçid dövrü kimi dəyərləndirilir ki, bu dövr ABŞ-ın mütləq geosiyasi üstünlüyünü göstərir (Henri Kissincer). Hətta "əks qloballaşma"

anlayışı mövcuddur. Həmin fenomen, ilk növbədə, Qərb malları, kapitalı və texnologiyalarıyla kasıb Cənubdan varlı Şimala miqrasiya axınlarının asimmetrik mübadiləsini bildirir. Qloballaşma siyasi, iqtisadi, mədəni və s. sahələrdə məkan maneələrinin (dövlət sərhədləri) aşılmasının uzunmüddətli tarixi prosesi kimi çıxış edən vesternləşmədən fərqlənir. Qloballaşma müasir beynəlxalq münasibətlərdə obyektiv proses, beynəlmiləlləşmənin ali mərhələsi, yaxud milli təsərrüfatların dünya bazarında qarşılıqlı təsiridir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) qloballaşma prosesində **üç mərhələni** fərqləndirir:

- **beynəlmiləlləşmə** – XIX əsrin ortalarından ixrac axınlarının inkişafına müvafiqdir;
- **transmilliləşmə** – İkinci Dünya Müharibəsi bitdikdən sonra birbaşa sərmayələrin artması cəhdi və onların xarici ölkələrdə yerləşdirilməsi ilə bağlıdır;
- **qloballaşma** – XX əsrin 80-ci illərindən başlayaraq istehsalın, maliyyənin və informasiyanın qlobal şəbəkələrinin inkişafında özünü büruzə verir.

Bir sıra digər yanaşmalar da mövcuddur. Məsələn, məşhur rusiyalı futuroloq A.İ.Utkin "XXI əsrin dünya nizamı" kitabında yazır ki, dövlət və qitələrin tədricən yaxınlaşması bütün bəşəriyyət tarixini əhatə edir və bu mənada dünya tarixi bütövlükdə dövlətlərin və xalqların qlobal yaxınlaşma istiqamətində addımlarının cəmidir. Lakin qlobal yaxınlaşmanın templəri yalnız iki dəfə kəskin surətdə artmışdır. Bu səbəbdən o, qloballaşmanın **iki fazasını** qeyd edir.

**Birinci fazanı** alim XIX-XX əsrlərin hüdudları ilə bağlayır. Bu zaman kəsiyində planetar miqyasda, əsasən, paroxod, telefon və konveyerin sayəsində olduqca fəal qarşılıqlı yaxınlaşma baş verir. Qloballaşmanın birinci mərhələsində onun dayağı kimi özünün sənaye təməli, maliyyəsi və hərbi-dəniz donanması ilə Britaniya imperiyası çıxış edirdi. O dövrdə qloballaşmanın iqtisadi artıma və xalqların dinc əməkdaşlığına

səmərəli təsiri ideyası daha çox maraq doğurdu **(R.Kobden, C.Brayt).** Bu ideya **Normann Eyncelin** "Böyük illüziya" (1909) kitabında inandırıcı şəkildə əsaslandırılır. Lakin 1914-cü ilin avqustunda dövlət və xalqların qlobal yaxınlaşmasının dönməzliyi proqnozları alt-üst oldu. Birinci Dünya Müharibəsi kəskin formada millətlərin iqtisadi-informasiya-kommunikasiya yaxınlaşmasını dayandırdı.

Qloballaşma ideyasının reanimasiyası üçün uzun müddət tələb olundu. Yalnız XX əsrin son onilliklərində iki Dünya Müharibəsi, Böyük Depressiya və siyasi sistemlərin qarşıdurmasına imkan yaradan çoxsaylı sosial və siyasi eksperimentlərdən sonra XIX əsrdə qurulmuş liberal iqtisadi nizam dünya təcrübəsinə qayıtmağa başladı. Planlı iqtisadiyyatla yarışda iqtisadi münasibətlərin Qərb bazar sistemi qalib gəldi ki, indi dünyanı vahid bazar iqtisadiyyatına çevirməkdədir.

Bununla da qloballaşmanın **ikinci – müasir fazası** (mərhələsi) başladı. Həmin mərhələ XX əsrin 70-ci illərinə aiddir və informatika, telekommunikasiya və diqitalizasiya (informasiyanın rəqəmləşdirilməsi) sahəsində fövqəladə inqilabla bağlıdır. ABŞ-dan başlayaraq bir çox ölkələrin strategiyası – kapital və ticarət axınlarının hərəkəti yolunda sədlərin aradan götürülməsidir. Bir sıra ölkələr ("Asiya pələngləri" və s.) asanlaşdırılmış qarşılıqlı mübadilə şəraitində iqtisadi inkişafa aparan yüksək texnologiyanın nisbətən ucuz işçi qüvvəsiylə birləşdirilməsinin son dərəcə səmərəliliyini göstərdi. Beləliklə, iqtisadi mənada Şimali Atlantikanın yanında Şərqi Asiya durdu. Lakin A.İ.Utkin hesab edir ki, kəskin sürətlənən qloballaşma prosesinin arxasında hazırda ABŞ dayanır.

Ən maraqlısı odur ki, "dünyanın inkişaf etmiş sənaye əsası", sənayeləşən iqtisadiyyatların yarımperiferiyası və inkişaf etməmiş ölkələrin periferiyası arasında qarşılıqlı əlaqələrə söykənən əmək bölgüsünün əvvəlki sistemi: Şimali

Amerika, Avropa Birliyi, Şərqi və Qərbi Asiyadan ibarət "qlobal triada" üstünlük təşkil edən vahid qlobal iqtisadiyyatın yaranmasına doğru dəyişilir. Burada dünyanın əsas istehsaledici qüvvələri və qlobal iqtisadiyyatın "meqabazarları" yerləşmişdir, aparıcı rolu isə qloballaşmış transmilli korporasiyalar oynayır.

Məhz bununla əlaqədar A.İ.Utkin qloballaşmada əsasən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) üzvü, eyni zamanda dünya iqtisadi səmərəliliyinin liderləri olan otuz ölkənin marağını qeyd edir. Bu ölkələrdə isə dünya əhalisinin təxminən onda bir hissəsi yaşayır. Lakin onlar dünya iqtisadiyyatının üçdə ikisinə, beynəlxalq bank sisteminə sahibdir, kapital bazarında və texniki baxımdan ən qabaqcıl istehsalda üstünlük təşkil edirlər. Məhz həmin insanlar praktiki olaraq yer kürəsinin istənilən nöqtəsində müdaxilə imkanına malikdir, beynəlxalq kommunikasiyaları nəzarətdə saxlayır, daha mürəkkəb texnoloji işləmələri istehsal edir, texniki təhsil prosesini müəyyənləşdirirlər.

## §5. Qloballaşma və informasiya inqilabı

Ənənəvi olaraq qloballaşmanı informasiya inqilabı ilə əlaqələndirirlər. Həmin inqilab informasiya üzərində dövlət inhisarına zərbə vuraraq, gələcəkdə nəzarətedilən statuslu kommunikasiyaların azalmasına səbəb olacaq. İnternet ilk dəfə azadlığın qeyri-status mənasını açmış və kommunikasiyaya "girişi" ya sosial, ya da coğrafi (mərkəz-periferiya) statuslar vasitəsilə təşkil edən institusional cəmiyyətə meydan oxumuşdur. Əvvəllər kommunikasiyaya sosial statusdan (vəzifə, rütbə, varidat və s.) istifadə edərək daxil olmaq mümkün idi. İnternet, statuslu kommunikasiyanı qeyri-statusluya çevirdi.

İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş istifadəsi ilə şərtlənən informasiya inqilabı postsənaye

cəmiyyətinin müjdəçisi oldu. **Postsənaye cəmiyyəti nəzəriyyəsinin** banisi, görkəmli amerikalı sosioloq **Daniel Bell** (1919-cu ildə doğulmuşdur) "The coming of post-industrial society: A venture in social forecasting" (1976) (Postsənaye cəmiyyətinin gəlişi: sosial proqnozda risk) kitabında gələcəkdə baş verəcək struktur dəyişikliklərin proqnozunu vermiş və belə bir nəticəyə gəlmişdir ki, qloballaşmanın təsir gücünün və müasir dövlət istitutlarının miqyası üst-üstə düşmür. Dövlət miqyası böyük problemlərin həlli üçün çox kiçik, xırda problemlərin həlli üçün isə çox iri olur. Bell informasiya haqqında belə bir fikir də yürütmüşdür ki, o, postsənaye cəmiyyətinin strateji resursudur.

Kapitalizmin sosial inkişafı proqnozları üzərində işləyərkən, alim 1960 – 70-ci illərdə postsənaye cəmiyyəti konsepsiyasını formalaşdırmışdır. Elmi-texniki inqilab həyatın bir çox sahəsində dərin dəyişikliklərə gətirib çıxarmış, bu da kapitalizmin başqa şəklə düşməsinə səbəb olmuşdur. Postsənaye cəmiyyətinin əsas əlaməti kimi Bell köhnə maşın texnologiyasına hesablayıcı texnikadan istifadə edən "intellektual texnologiyanın" artan tətbiqinin əlavə edilməsini hesab edirdi.

İqtisadiyyatda əsas yeri xidmət sahəsi tutur, yeni cəmiyyətin vacib institutları isə universitetlər və tədqiqat mərkəzləri olurlar. Hakimiyyət kapitalist oliqarxiyası və korporasiyalardan qərarların qəbul edilməsinin yeni texnologiyasına malik olan texnokratik elitaya keçir. Bu cəmiyyətdə istehsal vasitələrinə mülkiyyətin təbiəti transformasiya olunur. Ənənəvi şəxsi mülkiyyət öz əhəmiyyətini itirir, onun yerini şəxsiyyətin əqli əməyinə əsaslanan intellektual mülkiyyət tutur.

Qlobalistikada Amerika sosioloqu və futuroloqu, Harvard Universitetinin sosiologiya professoru **Elvin Toffler** (1928-ci ildə anadan olmuşdur) tərəfindən irəli sürülmüş **texnoloji inqilablar nəzəriyyəsi** geniş yayılmışdır. Bu nəzəriyyə alimin

dünya bestsellerləri olan "Gələcəyin şoku" (1972), "Üçüncü dalğa" (1980) və "Hakimiyyət metamorfozları" (1990) trilogiyası və b. əsərlərində öz əksini tapmışdır. Ən məşhur "Üçüncü dalğa" kitabında alim üç texnoloji dalğanı tədqiq edir: birinci dalğa – aqrar inqilab, ikinci dalğa – sənaye inqilabı və üçüncü dalğa – informasiya inqilabıdır. E.Toffler gələcək cəmiyyəti texnoloji özül əsasında sənayeləşmədən əvvəlki sivilizasiyalara qayıdış kimi qiymətləndirir, insanların sosial dəyişikliklərin sürətlənməsinə psixoloji adaptasiyasının çətinliyi haqda xəbərdarlıq edir. O yazır ki, hakimiyyətin transformasiyası baş verməkdədir. Yüksək keyfiyyətli hakimiyyət bilik əsasında formalaşır. Postsənaye cəmiyyətində yeni biliklər ənənəvi sərvətlər və nəqliyyat növlərinin əvəzləyicisi rolunda çıxış edir və ən vacib iqtisadi resurs olan vaxtı sürətləndirir.

Qloballaşmanın son dərəcə maraqlı nəzəriyyələri sırasına məşhur sosioloq, Kaliforniya Universitetinin professoru **Manuel Kastelsin** (1942-ci ildə İspaniyada anadan olub) **informasionalizm və ya informasional-qlobal iqtisadiyyat nəzəriyyəsini** aid etmək olar. Bu nəzəriyyə İT-ni postsənaye cəmiyyətinin maddi əsası kimi qiymətləndirir. Burada nemətlərin istehsalı, hakimiyyətin həyata keçirilməsi və mədəni kodların yaradılması informasiya-texnologiya imkanlarından asılıdır. İT kapitalizm və sosializm çərçivəsində ictimai əlaqələrin effektiv sosial-iqtisadi restrukturizasiyası üçün vacib alətdir. Həmin nəzəriyyə müəllifin bir çox dillərə tərcümə olunmuş fundamental üçhissəli "İnformasiya dövrü" əsərində öz əksini tapmışdır. Müasir beynəlxalq əmək bölgüsü (BƏB) transmilli təsərrüfat subyektləri tərəfindən həyata keçirilən korporasiyalararası bölgüyə çevrilir. İnformasiya dövründə alim BƏB-in aşağıdakı tiplərini ayırır:

- informasiya əməyinə əsaslanan yüksək qiymət istehsalçıları;
- azmaaşlı əməyə əsaslanan yüksək həcmlər istehsalçıları;

- təbii ehtiyatlara əsaslanan xammal istehsalçıları;
- əməyi qiymətdən düşən artıq istehsalçılar.

Əmək bölgüsünün bu tipləri Yer kürəsinin bəzi bölgələrində coğrafi cəhətdən fərqləndirilir. Əməyin bölünməsi ölkələr arasında deyil, iqtisadi agentlər arasında baş verir. M.Kastels XX əsrin sonunda əmələ gələn kapitalizm və sosializmin restrukturizasiyası proseslərinə xüsusi diqqət yetirir. Kapitalizmin restrukturizasiyası – bütün fəaliyyət növlərinin qloballaşması ilə səciyyələnən yeni kapitalizm formasıdır. Sosializmin restrukturizasiyası Sovet İttifaqının dağılması ilə bitmişdir, hansı ki, sovet cəmiyyəti haqqında informasiyanın açıqlığını təmin etmiş və milli-mədəni eyniyyəti gücləndirmişdir. Eyni zamanda kommunist Çini açıq cəmiyyət yaratmadan köklü bazar dəyişiklikləri ilə müşayiət olunan uğurlu restrukturizasiya modelini nümayiş etdirməkdədir.

Kapitalizm və sosializmin neoliberallaşma və restrukturizasiyası nəticəsində qlobal şəbəkə cəmiyyəti və qarşılıqlı asılı dünyanın yeni iqtisadiyyatı yaranmışdır. İnformasiya dövrü dövlətin məhv olmasına deyil, onun statusunun azalmasına aparır. M.Kastelsin fikrincə, millət-dövlətlər yaşayacaq, lakin onların suverenliyi yox. Qloballaşma prosesində dövlət hakimiyyəti bir çox funksiyaları itirir, lakin özü itmir, sivilizasiya kodlarına daxil olur. İctimai münasibətlərin restrukturizasiyası nəticəsində nəinki qlobal iqtisadiyyat yaranır, eyni zamanda varlı cəmiyyətlər və fərdlər üçün əsasən qadağan olunan istək və məhsulların təmin olunmasına istiqamətlənən və beynəlxalq mütəşəkkil cinayətkar qruplaşma tərəfindən nəzarət edilən ümumdünya kriminal iqtisadiyyatı formalaşır.

Beləliklə, informasiya inqilabı informasiya-kommunikasiya texnologiyalarının geniş istifadəsi nəticəsində baş vermişdir. Sonunculara məlumatın işlənməsi üçün gərəkli olan bütün növ texnologiyalar daxildir. 1970-ci illərin sonundan onlar, ilk növbədə, informasiyanın işlənməsinin kompyuter texnologiyası

ilə eyniləşdirilməyə başladı. İKT istənilən növ informasiyanı (rəqəm, mətn, səs, təsvir) rəqəmsal formatda çatdıra bilir. Məlumatın bir kompyuterdən digərinə İnternet texnologiyaları vasitəsi ilə ötürülməsi imkanı hər hansı istifadəçinin ümumdünya informasiya məkanına daxil olmasına şərait yaradır. İnformasiya texnologiyaları ümumdünya informasiya magistralının yaradılmasını təmin etmişdir. Onlar böyük strateji (siyasi, müdafiə, iqtisadi, sosial və mədəni) əhəmiyyət daşıyan müasir texnoloji sistemlər şəklindədir. İnformasiya texnologiyaları dünya nizamının yeni konsepsiyasının formalaşmasına səbəb olmuşdur. Həmin konsepsiyaya görə, "kim informasiyaya malikdirsə, o, bütün dünyaya sahibdir". İctimai istehsalın əsas amilləri olan **əmək, torpaq** (təbii sərvətlər) və **sərmayəyə** İKT-nin tətbiqi nəticəsində dördüncü amil – **biliklər** əlavə olunmuşdur.

İT təhlükəsizliyin təmin olunmasında xüsusi rol oynayır. 1990-cı illərdə geosiyasətin özülü "Qlobal İnformasiya İnfrastrukturu" (QİI) olmuşdur. Burada yeni informasiyalı dünya nizamının qaydaları işlənilir və İnternetin texnoloji imkanlarının istifadəsinin müvafiq normativ-hüquqi əsasları yaradılır. QİI problemləri üzrə dövlətlərarası komissiyanın qərargahı Vaşinqtonda yerləşir. QİI konsepsiyası ilk dəfə 1994-cü ilin mart ayında Buenos-Ayresdə keçirilən Beynəlxalq Telekommunikasiyalar Birliyinin Birinci konfransında ABŞ-ın vitse-prezidenti Albert Qorun nitqində səslənmişdir. Sonralar həmin konsepsiya yeni müddəalarla əlavə olundu.

Onun ən əsas prinsipləri aşağıdakılardır:

- bütün vətəndaşlar üçün imkan bərabərliyinin təmin olunması;
- məzmun müxtəlifliyinin, o cümlədən mədəni və linqvistik müxtəlifliyin təmin olunması;
- beynəlxalq əməkdaşlığın labüdlüyünün tanınması və daha az inkişaf etmiş ölkələrə xüsusi diqqət;
- özəl investisiyaların stimullaşdırılması;

- rəqabətin inkişaf etdirilməsi;
- informasiyanın bütün təchizatçıları və istehlakçılarına qlobal şəbəkəyə sərbəst daxil olmaq imkanının verilməsi;
- sənayedə və informasiya texnologiyaları bazarında sürətli dəyişikliklərə adaptasiya olmağa kömək edən çevik normativ-hüquqi bazanın yaradılması;
- xidmətlərin universal xarakterinin təmin olunması və s.

QİI fəaliyyətinin davamının məntiqi ardı "Qlobal İnformasiya Birliyi"nin yaradılması, onun ilk məsələsi isə kommersiya effektinin güclənməsi üçün İnternetdə informasiyanın keyfiyyətli saxlanılması məsələsi oldu.

Qloballaşma dövründə **vesternləşmə, libertarizm** və **"qızıl milyard"** nəzəriyyələri geniş yayılmışdır. Qərbi Avropa sivilizasiyasında formalaşan vesternləşmə nəzəriyyəsi Qərb dəyərlərinin bütün dünyaya yayılmasını nəzərdə tutur. Vesternləşmə sivilizasiyaların sosiomədəni müxtəlifliyini azaldır, eyniyyəti dağıdır və yerli elitalarda məkan (vətən) hissini zəiflədir.

Qərbin dünyagörüşü və əsas ideologiyası olan libertarizm insan haqlarını, bazar mübadiləsini və şəxsi mülkiyyəti üstün tutur. O, nəticə etibarilə dövlətin rolunun minimuma endirilməsini dəstəkləyən nəzəriyyə və görüşləri birləşdirir. Libertaristlərin fikrincə, insanların dövlətə tabeçilikləri yalnız dövlətin onlara verdiyi haqların təmin edilməsinin ölçüsündə, ya da könüllülük prinsipi əsasında olmalıdır. Bu nəzəriyyə ən dürüst şəkildə Robert Nozikin "Anarxiya, dövlət və utopiya" (1974) kitabında izah edilmişdir. Bəzi libertaristlər özlərini "minarxist" adlandırır, bununla onlar "minimal dövlət" ideyasına sadiq olduqlarını vurğulayırlar. Gecə gözətçisi roluyla məhdudlaşdırılan funksiyaları həyata keçirən həmin dövlətin fəaliyyəti polis nəzarəti, müqavilələrin yerinə yetirilməsinin təmin edilməsi və ölkənin müdafiəsinə müncər edilir. Bununla libertaristlər dövləti və şəxsi mülkiyyəti rədd edən anarxistlərdən fərqlənir.

Liberalizmin məşhur nümayəndəsi, Nobel mükafatı laureatı **Milton Fridman** (1912-ci ildə anadan olmuşdur) azadlığı hüquq, hamı üçün eyni olan qanun çərçivəsində şərh edirdi. Azadlıq üçün ən böyük təhlükə – hakimiyyətin təmərküzüdür. Məhz bu səbəbdən hökumətin səlahiyyətləri məhdud olmalı, dövlət hakimiyyəti isə səpələnməlidir, o cümlədən yerli özünüidarə daxil olmaqla. Alimin fikirlərinə görə, liberallaşma totalitarizmə qarşıdır, demokratiya isə avtoritarizmə.

**Liberal-demokratik** və ya **"açıq cəmiyyət"** nəzəriyyəsi filosof, məntiqçi və sosioloq **Karl Raymond Popper** (1902 – 1994) tərəfindən işlənmişdir. O, 1938 – 43-cü illərdə Yeni Zelandiyada yazılmış "Açıq cəmiyyət və onun düşmənləri" (London, 1945) adlı çox mühüm əsərin müəllifidir. Açıq cəmiyyəti vəsf edən kitab nasizm və kommunizmə qarşı idi. Burada qapalı cəmiyyətdən açıq cəmiyyətə keçid bəşəriyyət tarixində ən böyük inqilablardan biri kimi xarakterizə edilir. Qapalı kollektivist cəmiyyətdən fərqli olaraq, alim açıq cəmiyyətdə fərdlərə xas təşəbbüskarlığı, şəxsi qərarlar vermək bacarığını önəmli müsbət xüsusiyyət kimi qeyd edir.

Qərbdə **"qızıl milyard"** nəzəriyyəsi də geniş yayılmışdır. Bu nəzəriyyə Yer kürəsində imtiyazlı yaşaması təmin edilən "seçilmiş xalq" haqqında müasir avropasentrist təlimdir. Varlı "qızıl milyarda" və ya "seçilmişlər internasionalına" postsənaye ölkələri (ABŞ, Qərbi Avropa, Kanada, Yaponiya və s.) aiddir. Postsənaye ölkələrinin bir milyard əhalisinə qarşı transmilli kapitalın maraqlarına xidmət edən bəşəriyyətin digər böyük kəsimi durur.

**"Qlobal rəqabət"** nəzəriyyəsi də geniş maraq doğurur. Həmin nəzəriyyənin əsas prinsipləri M.Delyaginin "Dünya böhranı" kitabında təsvir edilib. Bu, qloballaşma dövrünün rəqabətidir və dünya monopoliyalarının üstünlüyü şəraitində gedir. Həmin rəqabət sərt, hər şeyi əhatə edən xarakter daşıyır və ən zəif iştirakçıların tənəzzülünə səbəb olur. Nəzəriyyəyə əsasən, beynəlxalq əlaqələrdə dostluq yalnız xalqlar arasında

mövcuddur, cəmiyyətlər və ölkələr arasında isə rəqabət vardır. Qlobal rəqabət isə sivilizasiyalararası xarakter daşıyır və müqayisəedilməyən məqsədləri güdən, müxtəlif metodlarla fəaliyyət göstərən tam fərqli subyektlər arasında gedir. Qlobal rəqabətin aktiv və təsir gücünə malik iştirakçıları aşağıdakılardır:

- dünya sivilizasiyaları;
- transmilli korporasiyalar;
- qeyri-hökumət təşkilatları;
- ayrı-ayrı bölgələr;
- dini təşkilatlar;
- anti-qlobalizm hərəkatı;
- cinayətkar təşkilatlar;
- kriminal biznes;
- xüsusi xidmətlər və s.

Lakin onların fəaliyyəti bir çox hallarda dövlət siyasəti ilə sıx qarşılıqlı əlaqədədir. Məsələn, Amerika administrasiyası məqsədyönlü şəkildə demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafı üçün qeyri-hökumət təşkilatları yaradır. Bunlar dünyanın müxtəlif bölgələrində Amerika təsirinin forpostları qismində çıxış edirlər.

## §6. Siyasi qloballaşma

Siyasi qloballaşma ideyası bəşəriyyətin ümumvəhdəti haqqında təsəvvürlərlə bağlı dərin tarixi köklərə malikdir. Fransız filosofu, pozitivizmin və sosiologiyanın banilərindən biri **Ogüst Kont** (1798 - 1857) "bəşəriyyətin yeni dininin" yaranmasını bəyan etmişdir. Onun təsəvvürlərinə əsasən, bəşəriyyət gələcəkdə planetin bütün sakinlərini birləşdirməyə qadir olan ümumdünya məkanı kimi çıxış edir. Bu qloballaşmanın yeni bir dalğasının yaranmasına təkan vermişdir.

Müasir dövrdə siyasi qloballaşma haqqında məşhur harvardlı alim **Stenli Hoffman** "The Clash of Globalizations" (Qloballaşmaların toqquşması, 2002) məqaləsində yazır ki, dünyada iqtisadi, mədəni və siyasi qloballaşmaların toqquşması baş verir. İqtisadi qloballaşma texnologiya, informasiya, ticarət və beynəlxalq biznesdə inqilabın yekunudur. Bunun nəticəsində özəl şirkətlər, sərmayəçilər və banklar, dövlətlər və beynəlxalq təşkilatlar birgə varidatını artırdılar. Lakin bu uğurlar sosial ədalətə səbəb olmamış, dövlətlər arasında və daxilində qeyri-bərabərliyə gətirib çıxarmışdır.

Mədəni qloballaşma texnoloji inqilab və iqtisadi qloballaşmadan yaranır, onlar ikisi bir yerdə mədəni malların transsərhəd hərəkətinə yardım edir. Burada eynilik – uniformizasiya (və ya adətən deyildiyi kimi, "amerikanlaşma") və müxtəliflik arasında vacib seçim vardır. Nəticədə yerli adət-ənənənin dirçəlişi ilə özünü büruzə verən yeknəsəqliyə qarşı reaksiya əmələ gəlir.

Bu iki formanın törəməsi olan siyasi qloballaşma Amerika Birləşmiş Ştatları, onun siyasi istitutlarının, həmçinin digər beynəlxalq, regional və qeyri-hökumət təşkilatlarının üstünlüyü ilə səciyyələnir. Bununla belə, müəllif hesab edir ki, bu təşkilatlardan bir çoxu demokratik məsuliyyət, hakimiyyət və nüfuz çatışmazlığının acısını çəkir.

Qloballaşmanın beynəlxalq siyasətə təsirinin bir sıra amilləri arasında alim əsas üç amili qeyd edir. Birincisi institutlara aiddir. İnstitusional amil onunla əlaqəlidir ki, bir sıra dövlətlər suverenliklərini zəiflədə biləcək qloballaşmanın tələblərini könülsüz qəbul edirlər. Bu səbəbdən vahid dünya dövlətinin yaranmasına doğru hərəkət qeyri-real görünür. İkinci, milli amil vətəndaşlığın milli təbiəti ilə şərtlənir. Vətəndaşlıq isə iqtisadi həyatdan fərqli olaraq qlobal miqyasda lokallaşdırılır. İK texnologiyaları ilə birləşən dünya hələ də kollektiv şüura, yaxud həmrəyliyə malik deyil. Üçüncü amil siyasi, iqtisadi və s. sədlərin rolunun aşağı düşməsi ilə

əlaqədardır, bu da münaqişə və terrorizmin yayılmasına imkan yaradır.

Neoliberal qloballaşma bəşəriyyətin bir çox sosial imperativlərə etinasızlıqla müşayiət edilən iqtisadi, siyasi və mədəni həyatının beynəlmiləlləşdirilməsi deməkdir. **Neoliberal qloballaşma** prosesi rusiyalı filosof və politoloq **Aleksandr Panarinin** "Qlobalizmlə imrəndirmə" (2002) kitabında tədqiq olunur və çox mənfi qiymətləndirilir. Alim hesab edir ki, neoliberal qloballaşma qaçılmaz yolla bəşəriyyətin Qərb dünyasıyla təmsil olunan "qızıl milyard" və hüquqsuz periferiyaya parçalanmasına gətirib çıxaracaq. Qloballaşma nəzəriyyəçilərinin geosiyasi, mədəni və iqtisadi layihələri qeyri-stabilliyə aparır. Panarin neoliberal qloballaşmanın, o cümlədən Şərqi Avropada özünü büruzə verən aşağıdakı xüsusiyyətlərini qeyd edir:

- milli elitaların beynəlmiləlləşməsi və onların "gizli internasionala" transformasiyası;
- maliyyə oliqarxiyası və digər oliqarxiyanın iqtisadi hakimiyyətinin inhisarı;
- maliyyə kapitalının istehsal edən iqtisadiyyatdan ayrılması;
- deindustriallaşma (sənayesizləşmə);
- elmin bilik-əmtəənin istehsalına çevrilməsi;
- dünya diasporlarının rolunun artması;
- beynəlxalq əlaqələrin kriminallaşması;
- planetar resursların özəlləşdirilməsi;
- sosial və ekoloji proqramların məhdudlaşdırılması;
- "mədəni imperializm" və ya amerikan kütləvi mədəniyyətinin ekspansiyası;
- neoliberal və dini fundamentalizmlərin toqquşması;
- Avrasiyada Amerikanın geosiyasi ekspansiyası;
- keçmiş "ikinci dünyanın" demodernləşməsi;
- keçmiş kommunist hakimiyyətini yeni mülkiyyətə konversiya edən "beşinci hakimiyyətin" güclənməsi;

- ən pislərin ən yaxşılar üzərində revanşı;
- davamlı inkişaf haqqında uydurma.

Alimin fikrincə, milli elitaların beynəlmiləlləşməsi və transformasiyası onların yerli maraq və ənənələrdən ardıcıl olaraq kənarlaşdırılmasından ibarətdir. Əgər əvvəllər milli elita xalqın iradəsini bildirirdisə və yaxşı gələcəyə çalışırdısa, qloballaşma dövründə elita olmaq "hansısa gizli internasionalda üzvlük" deməkdir. "Gizli internasionalın" mahiyyəti nədədir? – sualını o, belə cavablandırır: "Sivilizasiyalı cəmiyyətin" ikili standartları aldadılmış və məzlum çoxluğun hesabına seçmə adamlar və ya "qızıl milyard" üçün gözəl gələcək qurmaq, azlıq tərəfindən planetar resursları mənimsəmək qətiyyətində özünü büruzə verir. Əlavə olaraq, keçmiş "ikinci dünya" ölkələri sosialist modernizasiya nəticəsində real əldə edilmiş sənayeləşmə və kütləvi maarifdən məhrum edilir.

Panarinin qənaətinə görə, neoliberal qloballaşma planetar resursların bəşəriyyətin "seçmə" azlığı tərəfindən özəlləşdirilməsi deməkdir. Sosial-darvinist təbii seçim nəzəriyyəsi əsasında yeni geosiyasi təfəkkürün fəallaşmasının mənşəyi məhz bununla bağlıdır. Həmin təfəkkürə uyğun olaraq planetar resurslar "səriştəsiz çoxluğun" əlindən alınaraq "seçmələrin" idarəçiliyinə verilməlidir.

Panarin təkid edir ki, müasir dünya Qərbin aqressiv neoliberal fundamentalizmi və Şərqin buna cavab fundamentalizmi ilə üzləşib. Birqütblü dünya Qərbin və Şərqin maraqlarının ədalətli balansını pozaraq, onları yeni dünya müharibəsinə sürükləyir. Avrasiyada Amerika geosiyasi ekspansiyasının səbəbini insan haqlarına dair qayğıyla bağlamaq sadəlövhlük olardı. Dərin mədəni-tarixi kökləri olmayan mühacirlər ölkəsi üçün Avrasiya keyfiyyəti haqqında düşünə biləcək yaşayış yeri deyil, təbii-ehtiyat rezervidir.

Qərbdə qlobal problemlərlə bağlı fikirlər transformasiyaya uğrayır. Sosial və ekoloji proqramlar məhdudlaşdırılır. Qərb burjuaziyası dünya sosialist sistemi dağıldıqdan sonra

neoliberal iqtisadiyyatın xeyrinə sosial dövlətin demontajına başlamışdır. Qərb istehlak cəmiyyəti elmi-texniki tərəqqidən daha çox, iqtisadi suverenitetini itirmiş qeyri-qərb dövlətlərindən alınan resursların yenidən paylaşdırılması yolu ilə yeni dividentlər almağa ümid edir.

Neoliberal qloballaşma iqtisadi totalitarizmin təbiətini açıb göstərdi və oliqarxların iqtisadi hakimiyyətinin inhisarına gətirib çıxardı. Amerikasayağı qloballaşma planetar ambisiyalı maliyyə oliqarxiyası və digər oliqarxiyanın totalitar iqtisadi hakimiyyətidir.

Qloballaşma şəraitində maliyyə kapitalının istehsal iqtisadiyyatından ayrılması baş verir. Panarinin fikrincə, müasir bank müəssisədən, maliyyə möhtəkirlərinin beynəlxalq diasporları isə dövlətin iqtisadi müstəqilliyindən üstündür.

Qlobal irəliləyiş, sənayesizləşmə prosesi ilə müşayiət olunur. Qərbdə bu proses xidmətlərin sivilləşməsinə keçid kimi təsvir edilir. Sənayesizləşmə bir növ tərxisedilmə deməkdir. Postsovet məkanında sənaye ordusunun kütləvi azaldılması psixoloji baxımdan əsl orduların başa çatmış döyüşdən sonra tərxis edilməsinə bərabər tutulur və əvvəllər sənayedə işləmiş insanlar sosial izqoy statusu alır.

Qloballaşma, elmin bilik-əmtəə istehsalına çevrilməsinə imkan yaradır. Bu proses cəmiyyət üçün neqativ nəticələrə də səbəb ola bilər. Bir çox humanitar elmlər, iqtisadiyyat, hüquqşünaslıq və sosiologiya istisna olmaqla, tam marginallaşmağa məhkum edilir. Nəzərə alsaq ki, kölgə iqtisadiyyatı yüksək gəlir gətirir, onda biliyin kriminal tərəfindən inhisarını gözləmək lazım gəlir. Əgər dövlətin daxilində elm korporativ-kriminal qruplaşmaların əlinə keçsə, bu qlobal səviyyədə varlıların hökmranlığının aləti olacaq. Qlobalizm şəraitində beşinci hakimiyyət xüsusi xidmətlərin fəaliyyətidir. Neoliberal qloballaşmanın tərəfdarları kimi, Çikaqo İqtisadi Məktəbinin nümayəndələri çıxış edir. Monetar inqilab, mövcud olan status kommunikasiyalarını partlatmışdır.

Pul vasitəsi ilə ən pis mənəvi keyfiyyətlərə malik, şübhəli şəxslərin təntənəsi baş vermişdir. Yeni burjualar, "yeni ruslar" və onların digər etnomilli növləri inqilabi enerji ilə sosial və mənəvi normaları pozur, müdafiəsiz xalqın sakit genosidini həyata keçirirlər.

Panarin hesab edir ki, postsovet cəmiyyətində iki sosial qrup yaxınlaşıb – hakimiyyəti mülkiyyətə dəyişən keçmiş nomenklatura və pulun köməkliyi ilə iqtisadi məkanları və statusları əldə etmiş monetarizm inqilabçıları. Yeni burjualar mərkəzində maddi istehsal və mənəvi istehsal institutları (məsələn, klassik univesitetlər) yox, banklar dayanan postsənaye cəmiyyəti qururlar. Daha sonra müəllif qeyd edir ki, neoliberal qloballaşma davamlı inkişaf haqqında uydurmaya əsaslanan qeyri-stabil dünyanı yaradır. Mənəvi, siyasi və iqtisadi hakimiyyətin böyük üçlüyünün geriləməsi baş verməkdədir. Bütün sivilizasiyaların yaranmasıyla bağlı olan bu üçlük özünə çox aşağısəviyyəli təhsil mədəniyyətinə malik siyasi menecerləri satın alan iqtisadi hakimiyyətin fəlakətli birölçülüyünə qədər tənəzzül etmişdir.

Yaxın gələcəyin dilemması mənəvi hakimiyyət və ya instinktin hakimiyyətindən ibarətdir. Sosial başlanğıcın bərpası üçün böyük hakimiyyətin siyasi iradəsi lazımdır.

İndi isə qloballaşmanın və dövlət-millətlərin qarşılıqlı təsirini nəzərdən keçirək. Qloballaşma şəraitində dövlətlərin suverenliyinin məhdudlaşması müşahidə olunur:

- dövlətin vəzifələri mürəkkəbləşir, onların reallaşma resursları isə azalır;
- dövlət, mənşəyi onun xaricində olan problemlərlə daha tez-tez qarşılaşır. Bu kapital və əmək resursları, mütəşəkkil cinayətkarlıq (narkomafiya və s.) və ekoloji problemlərin transsərhəd yerdəyişməsi ilə əlaqədardır;
- hakimiyyət mərkəzlərinin diversifikasiyası baş verir – bu idarəçilik səlahiyyətlərinin üstmilli və ya yerli səviyyəyə ötürülməsidir;

- cəmiyyətdə münasibətlər dəyişir. Amerikanlaşmış və ya avropalaşmış elita kosmopolitlərə çevrilir;

- miqrasiya mədəniyyətlərin bir-birinə nüfuz etməsini gücləndirir və eyni zamanda yeni problemlər yaradır (yerli əhaliylə qarşılıqlı münasibət, "yeni yoxsulluq" problemləri).

**Keniçi Omaenin** "Milli dövlətin sonu. Regional iqtisadiyyatların yüksəlməsi" (1995) kitabında qeyd olunur ki, müasir dövlət dünya iqtisadiyyatında əsas sima deyil və real iqtisadi fəaliyyət həyata keçirmir. Bu, nəinki milli valyutanı qorumaq və onun mübadilə kursuna nəzarət etmək bacarığının itirilməsinə, həmçinin digər fəaliyyət sahələrinə aiddir. Alim dörd amili ayırır. Bunlar **sərmayə, sənaye, informasiya texnologiyaları** və **fərdi istehlakçılardır**.

**Sərmayələr** artıq coğrafi cəhətdən limitləşdirilmir və daha cəlbedici investisiya imkanları yaranan yerə gəlir. Müasir dövrdə əksər hallarda sərmayələr özəl olur və dövlətin, ya beynəlxalq maliyyə institutlarının onların transsərhəd yerdəyişməsində rolu azalır.

**Sənaye** qlobal xarakter alır. Müasir transmilli şirkətlər dövlətin maraqlarına yox, bazarların cəlbediciliyinə əsaslanır və texnologiyaların, eynilə idarəçilik innovasiyalarının ötürülməsinə səbəb olurlar.

**İnformasiya texnologiyaları** sərmayələrin və sənayenin hərəkətini sürətləndirir. Şirkətlər təmsil olunduqları hər bir ölkədə biznes sistemini qurmaq məcburiyyəti olmadan dünyanın istənilən bölgəsində könüllü və sərbəst şəkildə fəaliyyət göstərə bilirlər.

**Fərdi istehlakçılar** da qloballığa meyillidir. Onlar daha yaxşı və ucuz məhsula sahib olmaq istəyirlər.

Göstərilən amillərin mobilliyi dünyanın hər hansı nöqtəsində dövlətin vasitəçiliyi olmadan həyat qabiliyyətli iqtisadi fəaliyyət üçün imkan yaradır. Nəticədə "regional dövlətlərin" iqtisadi zonaları, yaxud "sərhədsiz dünya"

formalaşır ki, onlar qlobal iqtisadiyyatın və texnoloji inkişafın mühərriki rolunu oynayırlar.

Dövlət-millətlərin böhranı yeni siyasi formaların axtarışı ilə müşayiət olunur, bunların arasında dövlət-sistemin konturları seçilir:

- öz sərhədlərinə bütün qitələrdə "həyati maraq zonaları"nı daxil etmiş Birləşmiş Ştatlar;
- Avropa İttifaqı;
- Honkonq, Tayvan, Sinqapur və geniş diasporu (xuatsao) daxil edən böyük Çin.

## §7. Sosial və mədəni qloballaşma

Müasir dövrün ən böyük sosioloqlarından biri, məşhur London İqtisadiyyat Məktəbinin keçmiş direktoru **Entoni Giddensin** "Gözdən qaçan dünya: qloballaşma bizim həyatımızı necə dəyişir" (1999) kitabında sosial qloballaşma haqqındakı görüşləri böyük maraq doğurur.

Müəllifin fikrincə, "gözdən qaçan dünya" ibarəsi sürətlə baş verən dəyişikliklər dövründə yaşayan bir çox insanların keçirdiyi hissləri tam dəqiq ifadə edir. İnsanı təşvişə salan bu mərhələ keçmiş keçid dövrlərindən fərqli olaraq, Yer kürəsinin ayrı-ayrı bölgələrini deyil, dünyanı bütövlükdə əhatə edən nəhəng təbəddülatlarla fərqlənir. Qloballaşma həm nəzarətdən çıxmış dünyanı, həm də həyat tərzini yenidən qurur. O, Qərbdən gəlir, lakin yalnız qismən vesternləşmə deməkdir. "Əks müstəmləkələşdirmə", yəni inkişaf etməkdə olan ölkələrin Qərb ölkələrində baş verən hadisələrin inkişafına təsiri genişlənir. Məsələn, Hindistanda qlobal yüksək texnoloji sektorun yaranmasını göstərmək mümkündür.

Giddens qloballaşma ilə bağlı müxtəlif problemlərə toxunur. O cümlədən alim qloballaşmanın iki qütbünü ayırır – asılılıq və müstəqillik arasında mübarizəni, kosmopolitik dünyagörüşü ilə fundamentalizm arasında toqquşmanı.

Fundamentalizm qloballaşmanın təsirinə cavab olaraq yaranır. Terminin özü XIX əsrin sonu – XX əsrin əvvəlində Amerikadakı protestant sektalarına uyğun olaraq meydana çıxmışdır. Fundamentalizm fanatizm və avtoritarizmin sinonimi deyil. Fundamentalistlər qədim vəsiyyətlərə və ya müqəddəs yazılara qayıtmağa çağırırlar. Fundamentalizm müasir dövr qarşısında sual qoyur: bəşəriyyət müqəddəs heç bir şey olmayan dünyada yaşaya bilərmi? Giddens cavab verir ki, yox, yaşaya bilməz, çünki insana mənəvi məsləklər lazımdır. Hər bir insan üçün onun şəxsi həyatına, nikahına, ailəsinə, sevgi münasibətlərinə toxunan qlobal dəyişiklər hər şeydən vacibdir. Giddens qeyd edir ki, ailə transformasiyaya uğrayır, nikah artıq birgə həyatın mühüm əsası deyil. Ənənəvi ailədə iqtisadi fayda gətirən uşaqların vəziyyəti dəyişib. Doğumun azalması ilə əlaqədar olaraq uşaqların əhəmiyyəti, dəyərliliyi yüksəlib və psixoloji, emosional tələbatlarla müəyyən olunmağa başlayıb.

Emosional kontaktlar (yaxınlıq) insanlar arasında şəxsi həyatın üç əsas sahəsində – seksual və sevgi münasibətləri, valideynlər və uşaqlar arasında münasibətlər, həmçinin dostluq münasibətlərində – əvvəlki əlaqələri əvəz edir. Giddens aktiv inam, etibardan asılı olan "təmiz əlaqələr" ideyasını ortaya çıxarır. Şəxsi həyatda bu yeni dəyərlər başlıca atributlarından biri açıq dialoq və cinslərin hüquq bərabərliyi olan siyasi demokratiya dəyərlərinə müvafiqdir. Alim tərəfindən hisslərin demokratiyası adlandırılan bu yeni təzahür kosmopolitizm və fundamentalizm arasında mübarizənin ön sırasındadır. Hisslərin demokratiyası, vətəndaş cəmiyyəti üçün səciyyəvi olan dözümlülük və digər əqidələr yaradan mütərəqqi vətəndaş mədəniyyətinin elementlərindən biridir.

İndi isə mədəni qloballaşma məsələlərinə diqqət yetirək. Mədəni qloballaşma həm müsbət, həm də mənfi əhəmiyyət daşıyır. Bu fenomenin mənfi rolu "mədəni imperializm" ilə bağlıdır. Onu, adətən, anti-avtoritar ruhu ilə seçilən və bütün dünyanı öz təsiri altına salan Amerika kütləvi mədəniyyətiylə

eyniləşdirirlər. Alman alimi **Uinfred Flakın** fikrincə, kütləvi mədəniyyət tədricən onun istehlakçıları üçün tələb olunan müəyyən təhsil səviyyəsi ilə bağlı məhdudiyyətləri aradan götürdü. Bu da Amerika ssenarisi əsasında mədəni inqilabın uğuruna səbəb olmuşdur. Birləşmiş Ştatların (miqrantlar ölkəsinin) etnik və mədəni rəngarəngliyi əsasən görmə və eşitmə qavrayışına arxalanan informasiyanın ötürülməsinə gətirib çıxarmışdır. Kütləvi mədəniyyətin istehlakçıları passivdir. Onların əhvalı şüuraltına təsir ilə dəyişir. Nəticədə emosional qavrama mənəvi və informasiya qavramasından daha da ayrılır. Əhvalın əxlaq üzərində qələbəsi baş verir. Dünya mədəniyyətinə bu hücumun klassik nümunəsi kimi Hollivud sənayesini göstərmək olar. Amerikalılar praktikada Leninin kinonu ən vacib incəsənət sahəsi kimi qələmə verməyini tətbiq edə bilmişlər. Onlar kino sənayesini dünya mədəni məkanının fəth edilməsi üçün ən vacib geosiyasi amilə çevirmişlər. Birləşmiş Ştatlar hər il kinoya 10 milyard dollar xərcləyir və dünya bazarına 700-ə yaxın kinofilm buraxırlar. Bu qədər kinofilmi bütün Avropa ölkələri birlikdə daha az xərclə çəkir.

Qloballaşma şəraitində intellekt və bilik strateji resurslara çevrilir, keyfiyyətli ali təhsil isə xüsusi əhəmiyyətə malik olur. Aparıcı universitetlər bütün dünya üzrə istedadlı tələbələri seçir. Bu mübarizədə hələlik Amerika ali məktəbləri qalib gəlir. Dünyanın ən yaxşı universitetləri içərisində ABŞ-ın Harvard və Stendford özəl universitetləri öndə gedir. Dünyanın ən yaxşı 10 ali təhsil məktəbinin 8-i, birinci 50 universitetinin isə 35-i ABŞ-da yerləşir. Avropada Kembric və Oksford (Böyük Britaniya) Universitetləri liderlik edir, dünya reytinqində onlar 5-ci və 9-cu yerləri bölüşür. Asiyada birinci yeri Tokio Universiteti tutur (dünya reytinqində 19-cu yer).

Birləşmiş Ştatlardan geri qalmanı nəzərə alaraq, Avropa İttifaqı Avropanı biliklərə əsaslanan və yüksək rəqabət imkanları ilə seçilən iqtisadiyyata malik bölgəyə çevirməyi

məqsəd kimi qarşısında qoymuşdur. Rəqabətə davamlılığın artırılması üçün Almaniya bir neçə elit universitet açmaq niyyətindədir. Çin rəhbərliyi ölkədəki yüzlərlə universitetin dünya səviyyəli elmi-tədqiqat mərkəzləri səviyyəsinə çatdırılması proqramını qəbul etmişdir.

## §8. Müasir dünyanın qlobal problemləri

Müasir dövrün qlobal problemlərinə **qızğın silahlanma və nüvə tərksilahı, demoqrafiya, ekologiya, yanacaq-enerji ehtiyatları, nəqliyyat, qida, qlobal modelləşdirmə, ümumdünya piratçılığı, narkomafiya, beynəlxalq terrorizm** və s. problemləri aid etmək olar.

Keçən əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəlində elektron-hesablayıcı maşınların formallaşdırılmış metodları və imkanlarının istifadəsi əsasında dünya inkişafının uzunmüddətli proseslərinin sistemli analizi məqsədi ilə qlobal modelləşdirmə inkişaf etmişdir. Bu problemlərlə əsasən yuxarıda söhbət açdığımız beynəlxalq qeyri-hökumət təşkilatı "Roma Klubu" və Beynəlxalq Tədqiqat Layihəsi (World Order Model Project – WOMP) məşğuldur.

**Qida probleminə** gəldikdə, ilk növbədə, vurğulanmalıdır ki, inkişaf edən ölkələrdə kəskin qida çatışmazlığı "yaşıl inqilab" adı almış xüsusi geosiyasi strategiyanın formalaşmasını şərtləndirmişdir. Elmi-texniki tərəqqi və dənli bitkilərin məhsuldar növlərinin yaranması kənd təsərrüfatının modernləşməsi üçün imkan yaratmışdır. "Yaşıl inqilab" İnsan Haqlarının Ümumi Bəyannaməsinin məsələlərindən birini – ərzaq hüququnun reallaşmasını həll edirdi. Aclıqla mübarizə dövlət siyasəti səviyyəsinə qalxmışdır. 1960 – 1970-ci illərdə "yaşıl inqilab" Cənubi və Cənub-Şərqi Asiya ölkələrini əhatə etmişdir. XX əsrin ikinci yarısında yer üzündə əhali iki dəfə artsa da, dənli bitkilərin istehsalı təxminən üç dəfə artmışdır. Lakin "yaşıl inqilab" münbit torpaqların azalmasının qarşısını

ala bilmədi, pestisidlərin genişmiqyaslı istifadəsi isə insanların səhhətinə real təhlükə yaratdı. Düzdür, "yaşıl inqilab" qida problemlərinin həllində əhəmiyyətli rol oynadı, amma XXI əsrin başlanğıcında belə, aclığa qalib gəlmək mümkün olmadı. BMT-nin məlumatına əsasən Yer kürəsinin 830 milyon sakini aclıqdan əzab çəkir, 1,5 milyard insanın yaşayış minimumu günə bir dollar təşkil edir.

Hazırda qida probleminin həllini gen mühəndisliyi nailiyyətləri – orqanizmlərin genetik modifikasiyası ilə əlaqələndirirlər. Biotexnologiya müəyyən herbisid və ziyanvericilərə müqaviməti gücləndirən gen xarakteristikalı bitkilər yaratmışdır. Statistik məlumatlara görə, XXI əsrin ilk onilliyində transgen məhsulları satışının həcmi 2 milyarddan 25 milyard dollara, gen mühəndisliyi vasitəsilə alınan dərman preparatları satışının həcmi isə 50 milyarddan 100 milyard dollara qədər artmışdır. Eyni zamanda bu sahədəki uğurlarla yanaşı, mənfi cəhətlər də mövcuddur. Məsələn, biotexnologiyaların opponentləri həyəcanla bildirirlər ki, transgen bitkilər insan sağlamlığı və onun yaşama mühiti üçün gözlənilməz nəticələrə və hətta bəşəriyyətin yox olmasına gətirib çıxara bilər.

**Yer kürəsinin qlobal ekoloji problemləri** dünya siyasətinin vacib obyektidir. Ekologiya, qlobal iqlim və Dünya okeanı ehtiyatlarının mənimsənilməsi, qida və enerji təhlükəsizliyi, sağlamlığın qorunması hələ də bəşəriyyət üçün həllini gözləyən önəmli problemlərdir. Ekoloji problemlər öz əksini BMT və digər beynəlxalq təşkilatların işində tapmışdır. BMT-nin ətraf mühitə dair proqramı (YUNEP) ətraf mühitin resursları və təbiət ehtiyatlarının qiymətləndirilməsi metodologiyasını hazırlayır. BMT-nin İnkişaf Proqramı bəşəriyyətin inkişafının inteqral indekslərini hesablayır. Həmin indekslər makroiqtisadi göstəricilərlə yanaşı, həyatın davamiyyəti və keyfiyyətinə təsir edən ekoloji göstəriciləri də nəzərə alır. 1991-ci ildə Dünya Bankı, BMT İP və YUNEP-in səyləri nəticəsində

Qlobal Ekoloji Fond yaranmışdır. Həmin fond ən aktual ekoloji problemlərə dair layihələri maliyyələşdirir, o cümlədən:

- bioloji müxtəlifliyin qorunması;
- iqlim dəyişiklikləri;
- ozondağıdıcı maddələrin istifadəsinin azaldılması;
- beynəlxalq su ehtiyatlarının qorunması layihələrini.

Lakin maliyyələşdirmənin həcminin bir neçə milyard dollar olması qlobal ekoloji problemlərin miqyasıyla müqayisədə çox cüzidir. BMT-nin Konfransında (Rio-de-Janeyro, 1992) qəbul edilmiş Davamlı İnkişaf Konsepsiyası müasir bəşəriyyətin tələbatını gələcək nəsilləri nəzərə alaraq israfçılığa yolvermədən təmin etməlidir, özü də insan rifahı və təbiət sağlamlığı məsələlərinin uzlaşması ideologiyası əsasında. Bu, cəmiyyətin və iqtisadiyyatın humanistləşdirilməsi, bəşəriyyətin maraqları naminə yerin təbii sərvətlərinin səmərəli istifadəsi, insan hüquqlarına riayət olunması, gəlir və kapitalın müntəzəm paylanması ilə əhalinin sosial müdafiəsi prinsipləri əsasında inkişaf edən iqtisadiyyatın yoludur. Həmin konsepsiyaya əsasən, hər bir ölkə istehsalın və istehlakın optimal uyğunlaşdırılmasının yollarını axtarmalıdır.

Beynəlxalq təşkilatlar xüsusi diqqəti qlobal iqlim dəyişikliklərinə yönəldir. 1992-ci ildə BMT-nin Rio-de-Janeyroda keçirilən konfransında iqlimin dəyişdirilməsi haqqında Çərçivə Konvensiyası, 1997-ci ildə isə Çərçivə Konvensiyasına dair Kioto Protokolu imzalanmışdır. Ona əsasən, sənayesi inkişaf etmiş ölkələr (39 dövlət) 2008 – 2012-ci illərdə tullantıları 1990-cı illə müqayisədə 5,2% azaltmalıdır. Protokol tullantılarla bağlı atmosferi çirkləndirmək hüququnun (kvotanın) ötürülməsinə icazə verən beynəlxalq ticarəti rəsmi olaraq bəyənmişdir. Protokola əsasən, sənaye baxımından inkişaf etmiş ölkələr tullantı hüququnu o ölkələrdən ala bilər ki, orada tullantılar milli kvotadan azdır.

Qloballaşma yeni bəlalar gətirir: məsələn, ekoloji və texnogen faciələr, transmilli cinayətkarlıq, beynəlxalq

terrorizm, kütləvi mədəniyyətin aşağısəviyyəli nümunələrinin ekspansiyası bu qəbildəndir.

**Transmilli şirkətlərin ümumdünya piratçılığı** geniş yayılır, onlar inkişaf etməkdə olan ölkələrdə keyfiyyətsiz mallar, o cümlədən çoxlu qatranı və nikotini olan siqaretlər, beynəlxalq standartlara cavab verməyən dərmanlar, ziyanlı pestisidlər və s. satışa buraxırlar.

**Narkomafiya** qlobal gücə çevrilmişdir, o yalnız bir sıra regionların üstmilli qruplaşmaları ilə (məsələn, Kolumbiya narkomafiyası, Nigeriya narkomafiyası və s.) müqayisə oluna bilər. Narkotiklərin qanunsuz satışının dünya üzrə illik həcmi 400 milyard dollar təşkil edir.

**Beynəlxalq terrorizm** (XXI əsrin taunu) minilliklərin sərhədində qlobal fəlakətə çevrilib. Terror təşkilatlarının maliyyələşdirilməsinin əsas mənbəyi neft və narkotiklərin satışından əldə edilən gəlirdir. Müasir beynəlxalq terrorizm xaos və zorakılıq dalğasından istifadə edərək modernləşmə və qloballaşma proseslərini dayandırmaq istəyir.

# VI BÖLMƏ

## BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN NƏZƏRİYYƏSİ VƏ SİYASİ TƏHLİLİ

Milli dövlət sərhədlərini kəsib keçən rəngarəng amilləri, hadisələr, proseslər, norma və axınları özündə birləşdirən beynəlxalq münasibətlərin (BM) əsasını qarşılıqlı fəaliyyətin və qarşılıqlı asılılığın siyasi münasibətləri təşkil edir. Bütün bu pərakəndə, həmçinin də siyasi fenomenlər dünyada gedən proseslər, mövcud təmayüllər və inkişaf xüsusiyyətləri haqqında tam təsəvvür yaratmağa qadir deyil. Dağınıq təzahürləri əlaqələndirməkdə, onlara bütövlük gətirməkdə məhz nəzəriyyə köməklik edir. Başqa sözlə desək, nəzəriyyənin mahiyyəti empirik materialın "ələnməsi", seçilməsi və sistemləşdirilməsindən, nizama salınmasından, həm də beynəlxalq aktorların davranışlarını təhlil etmək üçün ümumi anlayışlar – kateqoriyalar sisteminin işlənib hazırlanmasından ibarətdir.

### §1. Müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin metodoloji əsas və paradiqmaları

Nəzəriyyə **ontoloji** (öz obyektinin mahiyyəti, spesifikası və xüsusiyyətlərinin açılması) və **epistemoloji** (özünün mənbəyi, inkişaf şəraiti və funksiyalarının aydınlaşdırılması) rollarla yanaşı, həm də **metodoloji** rol oynayır. Yaxşı məlumdur ki, metodologiya dərketmə metodlarının cəmidir. Müasir beynəlxalq münasibətlər nəzəriyyəsi (BMN) ən müxtəlif ənənəvi və elmi, keyfiyyət və kəmiyyət, təsviri və analitik, formal və refleksiv və s. metodlardan istifadə edir. Metodlar

probleminin əhəmiyyətini azaltmaq düzgün olmazdı, çünki söhbət beynəlxalq münasibətlər haqqında ən etibarlı bilgilər verən yollar və prosedurlar haqqında gedir. Buna görə də beynəlxalq münasibətlər nəzəriyyəsinin inkişafı prosesində xüsusi mərhələ yaratmış böyük diskussiyalardan biri məhz metodlar problemi ilə bağlı olmuşdur.

Həmin diskussiya 1960-cı illərdə **ənənəvi** və **elmi** yanaşmaların tərəfdarları arasında baş vermişdir. **Ənənəvi, yaxud klassik** yanaşmanın tərəfdarları (H.Morgentau, R.Aron, M.Uayt, X.Bull) beynəlxalq münasibətlərin tədqiqində fəlsəfəyə, tarixə, hüquqa, intuisiyaya, sağlam düşüncəyə əsaslanaraq hesab edirdilər ki, bizim biliklərimiz qeyri-mükəmməl olduğuna və nisbi xarakter daşıdığına görə hipotetik və natamam kimi qiymətləndirilməlidir.

**Elmi yanaşma** və ya **modernizm** tərəfdarları (M.Kaplan, C.fon Nyuman, C.Modelski, O.Morgenştern) israr edirdilər ki, beynəlxalq münasibətlər nəzəriyyəsini riyazi sübutlara, modelləşdirməyə və formalizasiyaya əsaslanan müddəalarla zənginləşdirmək lazımdır. Onların fikrincə, beynəlxalq münasibətlərin tədqiqi dürüst empirik prosedurlar vasitəsilə yoxlanıldıqdan sonra elmi hesab oluna bilər. Başqa sözlə desək, modernizm bir pozitivist cərəyan kimi, siyasi elmə təbiət və riyaziyyat elmlərinin metodlarının gətirilməsi ilə bağlıdır. Bu diskussiyanın nəzərəçarpacaq nəticələrindən biri beynəlxalq münasibətlərin tədqiqinə sistemli yanaşmanın daxil edilməsidir. Məhz sistemli yanaşma əsasında **təhlilin səviyyələri metodu** işlənib hazırlanmışdır. Sonuncu əsasən keyfiyyət metodlarına aid edilir və ənənəvi metodlarla müqayisədə daha dəqiq hesab olunur. "Təhlilin səviyyələri" terminini ilk dəfə beynəlxalq siyasət üzrə məşhur Amerika mütəxəssisi K.Uolts özünün "İnsan, dövlət və müharibə" (1965) adlı əsərində işlətmişdir. Beynəlxalq silahlı münaqişələri tədqiq edərək, alim belə qənaətə gəlmişdir ki, müxtəlif münaqişələrin səbəblərinin olduqca mürəkkəb, kompleks xarakterinə baxmayaraq, onları

**siyasətin üç əsas sahəsi və ya səviyyəsində** axtarmaq lazımdır: qərarları qəbul edən şəxslərin səviyyəsində və yaxud fərdi səviyyədə, daxili-siyasi amillər, yaxud dövlət səviyyəsində və nəhayət, dövlətlərarası sistem səviyyəsində. Belə yanaşma beynəlxalq arenada dövlətlərin davranışlarına müxtəlif təsir göstərən siyasət sahələrini konseptual baxımdan ayırmağa imkan verir. Bu metodun metodoloji əhəmiyyəti ondan ibarətdir ki, təhlil səviyyələri beynəlxalq münasibətləri öyrənənlərə digər sahələrdən müvəqqəti uzaqlaşaraq, fikrini siyasətin yalnız konkret bir sahəsində cəmləməyə imkan verir. Beləliklə, birinci, yaxud fərdi səviyyədə beynəlxalq-siyasi qərarları qəbul edən şəxsin özəl səciyyəvi keyfiyyətləri tədqiq edilir. Buraya onun xarakterik xüsusiyyətləri, psixologiyası, ideoloji baxışları, mənəvi siması və s. daxildir. Dövlət səviyyəsində maraq qrupları və koalisiyaları təhlil edilir. Üçüncü səviyyədə dövlətlər arasında hakimiyyətin bölünməsi və onun daxili rejimə və beynəlxalq davranışa təsir imkanları qiymətləndirilir. Bununla yanaşı, Uoltsun fikrincə, həmin münaqişələrin əsas səbəblərini dövlətlərarası sistem səviyyəsində axtarmaq lazımdır. Ona görə ki, beynəlxalq arenada dövlətlərin davranışları məhz bu sistemin konfiqurasiyası və strukturundan (ikiqütblü, çoxqütblü və ya birqütblü olmasından) asılıdır. Bütün üstün cəhətlərinə baxmayaraq, səviyyələrin təhlili metodu mükəmməl və yeganə düzgün metod hesab edilə bilməz. Həmin metoddan istifadə intuisiyaya, tarixi analogiyaya və digər ənənəvi metodlara müraciət etmək zərurətinin qarşısını almır. Belə məhdudiyyətləri modelləşdirmə və kəmiyyət təhlili metodları da yaratmır.

**Modelləşdirmə və formalizasiya metodları** beynəlxalq münasibətlərin öyrənilməsində 1950 – 1960-cı illərdən geniş yayılmağa başlamışdır. Formal model real dünyanın müəyyən aspektinin sadə, mücərrəd təsviri əsasında hazırlanır. Məntiqi yolla mücərrəd təsvirdən konkret fikir, iddia dəsti çıxarılır.

Sınamalar və səhvlər yolu ilə, ilkin modelin parametrlərini dəyişdirmək vasitəsilə, əldən qaçırılmış amilləri daxil etməklə, mədəni-tarixi dəyərləri, hakim mentalitetdəki dəyişikliyi nəzərə almaqla və s., tədricən bu modelin beynəlxalq münasibətlərin artıq yeni modelinə daha da uyğunlaşması baş verir. Növbəti mərhələdə hər iki modelin müqayisəsi əsasında hazırkı hadisələrin gələcəkdəki mümkün inkişafı haqqında əsaslandırılmış hipotezalar irəli sürülür, başqa sözlə, onlar proqnozlaşdırılır. Formal metodlar və modelləşdirmə **deduktiv** xarakter daşıyır, bu və ya digər konkret beynəlxalq hadisə və proseslər haqqında mülahizələr irəli sürmək üçün məntiqdən bəhrələnirlər. Kəmiyyət metodları isə, əksinə **induktiv** səciyyəlidir: onlar mövcud məlumatların təhlilindən başlayaraq və statistik nəticələrin qaydalarından istifadə edərək, tipik olmayan hadisələrin korrelyasiyası barədə ehtimalları müəyyənləşdirirlər.

Müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin təşəkkülü və inkişafında paradiqmalar mühüm rol oynayır. İndi bu sahədə ən əhəmiyyətli paradiqmalar **realizm, liberalizm (idealizm)** və **radikalizmdir.** Bunlar öz aralarında daim rəqabət aparır, bir-birini tənqid və inkar edirlər.

Məlum olduğu kimi, paradiqma – ümumnəzəri oryientasiyalar məcmusu, elmin obyektinin öyrənilməsi üçün əsas müddəalar toplusudur. Hər paradiqmada beynəlxalq münasibətlər aşağıdakı məsələlər üzrə özünəməxsus tərzdə izah edilir: beynəlxalq münasibətlərin mahiyyəti və təbiəti nədir? O, vaxt keçdikcə dəyişirmi, yaxud olduğu kimi qalır? Beynəlxalq münasibətlərdə əsas proseslərin xarakteri necədir? İştirakçılardan hansılarını aparıcı aktorlar hesab etmək olar? Onlar nə məqsədlər güdürlər? Həmin məqsədlərə çatmaq üçün nə kimi vasitələr var? Hər paradiqma bu suallara öz cavablarını verir, onların əsaslandırılması üçün öz arqumentlərini təklif edir, öz kateqoriya və metodoloji vasitələr toplusunu işləyib

hazırlayır. Əsas paradiqmaların hər birinin üzərində qısaca da olsa dayanaq.

**Siyasi realizm paradiqmasına** əsasən, beynəlxalq münasibətlərin mahiyyəti onunla izah edilir ki, göstərişləri məcburi olan tənzimləyici başlanğıc, sərəncamları mütləq xarakter daşıyan və bütün iştirakçılar tərəfindən qeyd-şərtsiz yerinə yetirilən vahid idarəetmə mərkəzi mövcud deyil. Başqa sözlə desək, **beynəlxalq münasibətlər anarxiyalı xarakter daşıyır**. Buna görə də həmin münasibətlərin subyektləri digər iştirakçılarla qarşılıqlı münasibətlərdə yalnız öz imkan, güc və ehtiyatlarına güvənirlər. Siyasi realizm hesab edir ki, beynəlxalq münasibətlərin başlıca iştirakçıları, yaxud aktorları vətəndaş birliyinin ictimai müqaviləsi nəticəsində meydana gələn siyasi vahidlər – dövlətlərdir. Sonuncular öz hökumətləri ilə təmsil olunur və milli sərhədlərlə bir-birindən ayrılır. Beynəlxalq davranışında dövlət yaşam tərzi, rifah və inkişaf kimi milli maraqlara əsaslanır. Dövlətlər öz imkanlarına görə qeyri-bərabərdir: onların arasında iri və qüdrətli dövlətlər, orta dövlətlər, zəif və kiçik dövlətlər, hətta mikrodövlətlər mövcuddur. Dövlətlər beynəlxalq davranışlarında öz maraqlarından çıxış etdiklərinə və onların maraqları, təbii olaraq, toqquşduğuna görə, **beynəlxalq arenada dövlətlərarası münaqişələr və müharibələr üstünlük təşkil edir.** Özlərinin maraqlarına yönəlmiş təhlükə ilə daim üzləşərək, dövlətlər fasiləsiz surətdə təhlükəsizlikləri haqqında düşünməli olurlar. Bu zaman onlar maraqlarının əsas müdafiə və irəliləmə vasitələrini – diplomatiya və strategiyanı səfərbər edirlər. Hər iki vasitə gücə arxalanır ki, sonuncuya nail olmaq və onun möhkəmləndirilməsi dövlətin xarici siyasətinin başlıca məqsədini təşkil edir.

Bu paradiqmaya görə, beynəlxalq münasibətlərin əsasında milli maraqlar dayanır, onların tənzimləyicisi rolunda isə qüdrətli dövlətlər arasında güc və qüvvələr balansı çıxış edir. Beynəlxalq münasibətlərin mahiyyəti dəyişməzdir, çünki onun

bünövrəsini insanın dəyişməz təbiəti təşkil edir. Lakin buna baxmayaraq, həmin münasibətlər elmi və texniki tərəqqi nəticəsində yeni forma ala bilərlər.

1970-ci illərin sonu – 1980-ci illərin əvvəllərində siyasi realizm paradiqması müəyyən dəyişikliklərə uğradı. Əsas müddəaları K.Uolts tərəfindən «Beynəlxalq siyasət nəzəriyyəsi» kitabında şərh edilən **neorealizm** meydana gəldi. **Neorealizmin** mahiyyəti ondan ibarətdir ki, dövlət, beynəlxalq sistemin funksional eynicinsli elementi kimi nəzərdən keçirilir. Anarxist beynəlxalq münasibətlər sistemində istənilən dəyişikliklər qüvvələr balansına təsir edən hakimiyyət bölgüsü ilə bağlıdır. Buna görə də dövlətlərin davranışında həlledici əhəmiyyət beynəlxalq münasibətlər sisteminin strukturuna, yəni dövlətlərin beynəlxalq davranışına təsir göstərən xarici məcburetmə və məhdudlaşdırma məcmusuna məxsus olur. Başqa sözlə, xarici siyasət beynəlxalq münasibətlər sisteminin və dövlətlərarası hakimiyyətin (gücün) bölüşdürülməsinin məntiqi ilə diktə edilir.

Soyuq müharibə zamanı beynəlxalq münasibətlər nəzəriyyəsində neorealizmin geniş yayılmasına dövlətlərarası sistemin ikiqütblü strukturu səbəb olmuşdur. Məhz həmin struktur dünya səhnəsində ənənəvi aktorların davranışını müəyyənləşdirdi. Lakin SSRİ-nin süqutu və bütün dünya məkanında iki nəhəng dövlətin qarşıdurmasının başa çatmasından sonra belə mövqe əhəmiyyətli dərəcədə zəiflədi. Dünya siyasətinə qeyri-ənənəvi aktorların kütləvi şəkildə daxil olması baş verdi, yeni münaqişələr nəsli meydana gəldi, beynəlxalq təhlükəsizliyin yalnız beynəlxalq sistemin konfiqurasiyasından asılılığı aradan qalxdı. Beynəlxalq münasibətlər nəzəriyyəsində **postmodernist yanaşma** geniş yayılmağa başladı. Qeyd etmək lazımdır ki, **postmodernizm** sosial elmlərdə, xüsusilə də beynəlxalq münasibətlərdə ayrıca bir məktəb, yaxud vahid bir yanaşma deyil. Postmodernizm idrak sahəsində maarifçilik dövrünün irsi olan Qərb

rasionalizminin çatışmazlıqlarına bir reaksiya kimi meydana çıxmışdır. Beynəlxalq münasibətlər sahəsində də o, M.Fuko, J.Derrida, J.Lakan, J.F. Liotar, J.Bodriyar və digər fransız poststrukturalistlərinin fəlsəfi əsərlərinə əsaslanır. Postmodernizm tərəfdarları (C.Der Derian, M.Uoltser, R.Şapiro, R.Eşli) israr edirlər ki, rasionalizm beynəlxalq münasibətlərin dərk edilməsində heç də ən yaxşı yanaşma hesab oluna bilməz. Onların fikirlərinə görə, beynəlxalq münasibətlər yalnız obyektiv proseslərdən deyil, həm də ən müxtəlif şəxslərin subyektiv istəklərindən asılıdır. Postmodernizmin əsas müddəalarından biri ondan ibarətdir ki, beynəlxalq münasibətlər bütün sosial reallıqlar kimi bizim şəxsi təfəkkürümüzün və fəaliyyətimizin məhsuludur. Sosial gerçəkliklər öz-özünə, bizim idrakımız və istifadə etdiyimiz metodlardan kənarda mövcud olmur. Buna görə də paradiqma, nəzəriyyə, anlayış, metodologiya, məlumat bazası və s. idrak alətlərindən daha çox, beynəlxalq reallıqların formalaşdırılması alətidir. Bunlar beynəlxalq münasibətləri nəinki əks etdirir, hətta beynəlxalq amilləri, hadisələri, norma və prosesləri yaradır.

Postmodernizm kifayət qədər ziddiyyətli istiqamətdir. Onun əsas mahiyyəti beynəlxalq münasibətlər nəzəriyyəsində üstünlük təşkil edən nəzəriyyələri, paradiqmaları tənqid etməkdən, rasional yanaşmaların çatışmazlıqlarını göstərməkdən ibarətdir. Bununla postmodernizm bütün ənənəvi paradiqmaların postklassik versiyalarına əhəmiyyətli təsir göstərmişdir. Realizm, liberalizm və marksizmin postklassik versiyalarını empirik və normativ tədqiqatlar arasında sərt sərhədlərin çəkilməsindən, beynəlxalq münasibətlərin dəyişməz obyekt kimi təhlilindən, mövcud institutların və normaların sabit varlıq kimi nəzərdən keçirilməsindən imtina etmək birləşdirir. Qeyd olunan versiyalar, həmçinin bizim biliklərimizin nisbi və şərti xarakter daşımasını israr etməklə, beynəlxalq münasibətlər nəzəriyyəsində səbəbiyyətin və

rasional izahın axtarışına dair öz tənqidi yanaşmalarında da üst-üstə düşürlər.

Əksər postklassik nəzəriyyələr üçün beynəlxalq münasibətlərdə dövlətin ən əsas həlqə kimi qəbul edilməməsi, «suverenlik», «ərazi», «sərhəd» anlayışlarına daha tənqidi yanaşma, ağırlıq mərkəzinin mədəni-sivilizasiya aspektinə keçirilməsi xasdır. Bununla yanaşı, realizm, liberalizm və radikalizmin postklassik versiyalarının daha əhəmiyyətli ümumi cəhəti beynəlxalq münasibətlərin təhlilinin ümumdünya inkişafı, qlobal vətəndaş cəmiyyəti və idarəçiliyin ilkin şərtlərinin formalaşması kontekstində aparılması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, realizmin postklassik versiyasının əsas tərəfdarlarından biri Harvard Universitetinin professoru S. Hantinqton olmuşdur. Məlum olduğu kimi, 1993-cü ildə o, sivilizasiyaların toqquşması ideyası ilə çıxış etmişdir. Bu ideyaya görə, dünya siyasətinin başlıca aktoru olan dövləti digər aktorlar – tarixi, dili, ənənələri və daha çox dini ilə fərqlənən mədəni birliklər – sivilizasiyalar əvəz edir. Qarşılıqlı qatışıb-qarışmaya baxmayaraq, əsas sivilizasiyalar – Qərb, konfusian, yapon, İslam, induist, slavyan-pravoslav, Latın Amerikası və Afrika sivilizasiyaları – gerçək sərhədlərə malik real birliklərdir.

Lakin sivilizasiyaların qarşılıqlı münasibətləri dövlətlərin qarşılıqlı münasibətlərindən az fərqlənir. Onlar da münaqişəlidir. Çünki sivilizasiya fərqlərinin əsasında dəyər və əqidələr durur. Sonuncuları barışdırmaq isə iqtisadi və siyasi maraqları barışdırmaqdan qat-qat çətindir. Bundan başqa, S. Hantinqton hesab edir ki, sivilizasiya öz dəyər və əqidələrini müdafiə edərkən, hakimiyyəti əldə etməyə can atır. Hakimiyyətə sahib çıxmaqda fərqlər və hərbi, iqtisadi, institusional resurslar uğrunda mübarizə əvvəlkitək dünya siyasətinin əsas hərəkətverici qüvvəsi olacaqdır.

Klassik realistlər kimi, S.Hantinqton da iddia edir ki, dünya siyasətinin subyektləri əsasən anarxiya şəraitində fəaliyyət

göstərir və onların hakimiyyətə və hökmranlığa canatmalarının qarşısını alan amil yoxdur. Məsələn, beynəlxalq iqtisad institutları Qərb tərəfindən öz iqtisadi maraqlarını qorumaq və digər xalqları özünə sərfəli olan iqtisadi siyasətə vadar etmək, beynəlxalq təhlükəsizlik institutları isə Qərbin siyasi hökmranlığını təmin etmək üçün istifadə edilir. Başqa sözlə, realizmin postklassik versiyasının əsasını nəzərdən keçirilən paradiqmanın bütün başlıca postulatları təşkil edir.

**Siyasi idealizm paradiqmasının, yaxud liberal-idealist paradiqmanın** əsasında iki ideya: 1) insan nəslinin birliyi, ümumbəşəri dəyərlər və ideallar haqqında, 2) beynəlxalq münasibətlərin xarakterinin humanizm və insan hüquqları ruhunda dəyişdirilməsinin mümkünlüyü və vacibliyi barədə ideyalar dayanır. Bu paradiqmanın tərəfdarları beynəlxalq münasibətlərin təbiət etibarilə anarxiyalı olmasını inkar etmirlər. Lakin, onların fikrincə, anarxiyalılıq müvəqqəti xarakter daşıyır və daim azalır. Beynəlxalq münasibətlər ictimai rəyin təsiri altında və həmin münasibətlərin iştirakçılarının genişlənən dairəsinin məqsədyönlü fəaliyyəti nəticəsində getdikcə daha mükəmməl idarə olunur. Dövlətlərlə yanaşı, qeyri-dövlət və özəl beynəlxalq aktorların (hökumət və qeyri-hökumət təşkilatları, transmilli korporasiyalar, firmalar, banklar, həmçinin müxtəlif təşkilatlanmış qruplar) fəaliyyəti vacib əhəmiyyət kəsb etməyə başlayır.

Beynəlxalq sferada üstünlük təşkil edən başlıca proseslər münaqişələr və müharibələr, milli maraqların toqquşması deyil, əsasında dünyanın yüksələn qarşılıqlı asılılığı, insanların ümumi maraqlarının dərk edilməsi dayanan **əməkdaşlıq və inteqrasiyadır.** Dünya öz-özünə daha yaxşı və təhlükəsiz olmur. Beynəlxalq münasibətlərin iştirakçılarından həmin münasibətlərin tənzimlənməsi üçün birgə fəaliyyət tələb edilir. Əsas tənzimləyici rolunda isə **hüquqi və mənəvi normalar** çıxış edirlər. Liberal-idealist paradiqmanın bu ümumi müddəaları müxtəlif variantlarda bir-biri ilə üst-üstə düşməyən

konseptual formalar alır. Əvvəla, həmin paradiqmada köhnə ənənələrə malik olan idealist aspekt mövcuddur. Həmin idealist aspektin çərçivəsində də bir neçə variant vardır. Məsələn, realistlər bunların arasında «utopizm», «leqalizm», və «moralizmi» (nəsihətçiliyi) fərqləndirirlər. **Utopistləri** onlar hökumətlərarası universal təşkilat əsasında (əvvəlcə Millətlər Cəmiyyəti, İkinci Dünya Müharibəsindən sonra isə BMT) yeni dünya nizamının yaradılmasının mümkünlüyünə inandıqları üçün tənqid edirdilər. **Leqalistlər** (realistlərin fikrincə, yenə də səhvən) hesab edirlər ki, beynəlxalq təşkilatların sayının artması və təsir gücünün genişlənməsi ilə hüquqi normaların da inkişafı baş verir və beynəlxalq münasibətlər hüquqi xarakter alır. **Moralistlər** beynəlxalq siyasəti universal mənəvi normalar mövqeyindən nəzərdən keçirir və sərbəst ifadə olunan ictimai rəyin, hansı ki, müharibələr və sonuncularla bağlı olan sosial fəlakətlər və insan istismarına qarşı çıxış edir, dövlətlərin beynəlxalq davranışlarına təsir etməsini göstərirlər.

İkincisi, nəzəriyyəçilər liberal-idealist paradiqmanın **neoliberalizm** və **postklassik liberalizm** kimi variantlarını fərqləndirirlər. **Neoliberalizmə** iqtisadi qarşılıqlı asılılıq konsepsiyasına əsaslanan cərəyanı aid edirlər. Onun tərəfdarlarının (R.Kohen, S.Krasner, C.Nay) fikrincə, beynəlxalq münasibətlərdə dövlətlərin siyasəti daxili iqtisadi maraqlarla müəyyən edilir. Qarşılıqlı asılılığın möhkəmlənməsi ilə bütün dövlətlərin ümumi iqtisadi maraqları formalaşır. Bu da öz növbəsində onların əməkdaşlığının güclənməsini şərtləndirir. Dövlətlər iqtisadi mənfəətlərinin artırılması və itkilərinin azaldılması naminə qarşılıqlı fəaliyyət göstərirlər. Liberal-idealist paradiqma çərçivəsində mövcud olan **postklassik** versiyanın ideya əsası qloballaşmanın təsiri altında siyasi hakimiyyətin mahiyyətinin radikal dəyişməsi konsepsiyasından ibarətdir. Qloballaşmanın çox əhəmiyyətli bir nəticəsi – dövlətlərarası sərhədlərin "keçiciliyinin", başqa sözlə, şəffaflığının artması və dövlətin ənənəvi funksiyalarının

(xüsusilə əhalinin sosial müdafiəsi və təhlükəsizlik sahələrində) zəifləməsi səbəblərindən milli-dövlət suverenliyinin eroziyasının baş verməsidir. Liberalizmin bu variantının tərəfdarları hesab edirlər ki, dövlət sosial bir institut, cəmiyyətin təşkilinin siyasi forması kimi get-gedə köhnələrək, tarixi arenadan tədricən çıxır və yerini vahid azad bazar prinsiplərinə, ümumi mənəvi dəyərlərə və universal hüquqi normalara əsaslanan beynəlxalq birliklərə verir. Beləliklə, vahid qaydalar üzrə fəaliyyət göstərən və vahid qanunlarla tənzimlənən qlobal özünü idarəedən cəmiyyət formalaşır. Liberalizmin postklassik versiyasının tərəfdarları (C.Rozenau, E.O.Şempyel, C.Metyuz, D.Messner) Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı kimi institutların artan rolunu qeyd edir və göstərirlər ki, cəmiyyətlərin daxilində və arasında şəbəkə strukturlarının əhəmiyyəti yüksəlir, milli-dövlət suverenliyi isə itir. Aşağıdan formalaşan və bu səbəbdən də demokratik xarakter daşıyan, universal dəyərləri ifadə edən hökumətsiz ümumdünya idarəetməsi (Rozenau və Şempyel), "global governance" təşəkkül tapır. Bütün bunlar hakimiyyətin məzmununun dəyişməsini sübuta yetirir. Dövlətlər birliyindən get-gedə transmilli səciyyə ilə seçilən və ümumplanetar miqyasda fəaliyyət göstərən qlobal vətəndaş cəmiyyətinə keçid baş verir.

Beləliklə, liberalizmin (idealizmin) klassik, neoklassik və postklassik versiyalarını beynəlxalq münasibətlərin xarakteri, əsas prosesləri və aktorlarının, onların məqsəd və vasitələrinin şərhinin ümumiliyi, həmçinin beynəlxalq siyasətin ayrı-ayrı insanların və bütövlükdə bəşəriyyətin maraqlarına uyğun olaraq dəyişdirilməsinə cəhd birləşdirir.

Beynəlxalq münasibətlər nəzəriyyəsində **radikalizm paradiqması** digər paradiqmalarla müqayisədə nisbətən daha gec yaranmışdır. O, öz başlanğıcını K. Marks və F. Engelsin "Kommunist manifesti"ndən götürür və tərkibinə bir sıra ümumi müddəalara malik olan **klassik marksizm-leninizm,**

**neomarksizm** və **postklassik marksizm** versiyalarını daxil edir. Radikalizm tərəfdarlarının baxışlarına görə, beynəlxalq münasibətlər anarxist xarakterdən daha çox **imperialist** və **istismarçı** xarakter daşıyır. Beynəlxalq münasibətlərin əsas aktorları dövlətlər, transmilli qruplar və birliklər deyil, **sosial siniflərdir**. Beynəlxalq arenada imperiyalararası böhranlar, əsas siniflər, yəni istehsal kapitalının mülkiyyətçiləri olan imperialistlərlə proletarlar, varlılarla yoxsullar arasındakı ziddiyyətlər və mübarizə üstünlük təşkil edir. Beynəlxalq münasibətlərin təbiəti daimi deyildir. Belə ki, həmin münasibətlərin başlıca tənzimləyiciləri qismində çıxış edən sinfi mübarizə və inqilablar gec-tez qələbə ilə nəticələnəcək və onda K.Marksın təbirincə desək, "beynəlxalq münasibətlərdə mənəviyyat və ədalətin sadə normaları zəfər çalacaqdır".

Radikalizm çərçivəsində əksər hallarda bir-birilə rəqabət aparan yanaşmalar və konseptual fikirlər mövcuddur.

Dünya müharibələri arasındakı zaman kəsiyində radikalizmin əsas müddəaları V.İ.Lenin və onun havadarları tərəfindən **dünya imperializmi nəzəriyyəsində** verilmişdir. Onlar 1914 – 1918-ci illərdə baş verən Birinci Dünya Müharibəsinin səbəblərini imperializmə xas ziddiyyətlərdə, varlı ölkələrin inhisarçı burjuaziyasının dünyanı iqtisadi və siyasi cəhətdən dəyişdirməyə, müstəmləkələrin və maliyyə kapitalının təsir dairələrinin yenidən bölüşdürülməyə canatmasında görürdülər. Həmin müharibə imperialist, işğalçı və soyğunçu kimi səciyyələndirilirdi. Müharibənin belə xarakteri döyüşən ölkələrin istismar olunan siniflərinin maraqlarını dünya imperializminə qarşı qoyaraq onları yaxınlaşdırdı. Bu səbəbdən qarşıduran ölkələrin istismar olunan sinifləri öz hökumətlərinin məğlubiyyətini istəyirdilər. Onlar bu müharibənin ümumdünya anti-imperialist hərəkatına çevrilməsi, silsilə vətəndaş müharibələrinə keçməsi və sosialist inqilabının baş verməsində maraqlı idilər. Radikalizmin bu versiyasını klassik marksizm-leninizm adlandırırlar.

1950 – 1960-cı illərdə Avropada "real sosializm"in qurulması ilə yaranmış məyusluğun təsiri altında radikalizm **neomarksizm** formasını aldı. Neomarksizmin əsasında dünya kapitalizminin inkişafı ilə varlı və yoxsul ölkələr, Şimalla Cənub arasında maraqların getdikcə şiddətlənən ayrılması haqqında fikirlər dururdu. Bu zaman, Leninin dünya kapitalizminin inkişafı və imperializmə xas ziddiyyətlər barədə ideyalarından uzaq olan bir neçə nəzəriyyə təklif olunmuşdur. Həmin nəzəriyyələrdən aşağıdakıları qeyd etmək olar: **asılılıq nəzəriyyəsi** (R.Prebiş). Göstərilən nəzəriyyəyə görə, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin rifahı geridə qalmış ölkələrin resurslarının istismarından və varlı ölkələrlə yoxsul ölkələr arasında qeyri-bərabər mübadilədən asılıdır; **struktur qeyri-bərabərlik nəzəriyyəsi** (Y.Haltunq). Burada beynəlxalq münaqişələrin səbəbləri eyni dövlətlərin müxtəlif iqtisadi, siyasi, hərbi və s. beynəlxalq struktur tiplərində fərqli mövqelərə malik olmaları ilə izah edilir; **dünya-sistem nəzəriyyəsi** (İ.Vallerstayn). Adıçəkilən nəzəriyyədə dünya kapitalizminin mərkəzi ilə periferiyası arasında dərinləşən sosial bərabərsizliyə dair meyil qabardılaraq, müasir dünya iqtisadiyyatının inkişafının nəticəsi kimi qiymətləndirilir.

Beləliklə, neoklassik radikalizm müasir dünya inkişafının məntiqi, beynəlxalq münasibətlərin əsas aktorlarının məqsədləri və strategiyalarının əhəmiyyətli dəyişdirilməsinin labüdlüyündə israrlıdır. Burada göstərilir ki, geridə qalmış periferiya ölkələri xalqlarının sosial ədalət və sərvətin bölüşdürülməsi uğrunda mərkəzin ən böyük və varlı ölkələrinə qarşı mübarizəsinin əsası vardır.

Ümumiyyətlə, radikalizmin postklassik versiyası bu ənənələri davam etdirir. Eyni zamanda həmin versiyanı qloballaşmanın siyasi məzmununun və sosial aqibətinin xüsusi izahı səciyyələndirir. Radikalizmin postklassik nəzəriyyələrinə **anti-hegemonçu blok** və **postfordizm nəzəriyyələrini** aid etmək olar. Anti-hegemonçu blok nəzəriyyəsi əsasən amerikalı

tədqiqatçı R. Koksun əsərlərində inkişaf etdirilir. Onun fikrincə, anti-hegemonçu blokun formalaşması strategiyası hər şeydən öncə dünya kapitalı və əksər hökumətlər tərəfindən irəli sürülən konkret bir doktrinanın təkzib edilməsini nəzərdə tutur. Bu doktrinaya görə, dünya iqtisadiyyatında rəqabətə davamlılıq siyasətin sonuncu meyarıdır. Qloballaşmanın alternativsiz güc olması haqqında təsəvvürləri başqası ilə əvəz etmək lazımdır ki, həmin bu təsəvvürə əsasən dünya iqtisadiyyatının çoxluğun maraqlarına uyğun olaraq tənzimlənməsi və yaranmış münaqişələrin qeyri-zorakı yollarla həlli mümkündür.

Anti-hegemonçu blokun yaradılmasının daha bir mühüm aspekti həmrəylik ruhunun dirçəlməsi ilə bağlıdır. Bunun üçün iki mərhələdən keçən həqiqi vətəndaş cəmiyyətinin formalaşması tələb olunur. Birinci mərhələ seçki siyasətində uzunmüddətli iştirakı və qloballaşmanın sonrakı hücumlarına qarşı dinc fəaliyyəti, qeyri-zorakı hərəkətləri nəzərdə tutur. İkinci, daha ciddi mərhələdə isə yerli, regional və qlobal səviyyələrdə vətəndaş cəmiyyətində həmrəylik ruhunun dirçəlməsi və hiperliberal qloballaşmaya alternativ olan sosial qayda-qanun yaratmaq məqsədi ilə sol qüvvələrin birləşdirilməsi baş tutmalıdır.

Yuxarıda nəzərdən keçirilmiş üç paradiqmanın hər biri BMN-in ümumi nəzəriyyəsi statusuna iddialıdır. Həmin paradiqmalar bütövlükdə beynəlxalq münasibətlər haqqında təsəvvür yaratmağa, onların vəziyyətinin ümumi təsvirini verməyə və inkişaf təmayüllərini müəyyənləşdirməyə səy göstərir.

Beynəlxalq münasibətlərin əksər nəzəriyyələri xüsusi xarakter daşıyır. Yəni onlar beynəlxalq münasibətlərin bütövlükdə deyil, ayrı-ayrı aspekt və tərəflərinin öyrənilməsi prosesi və nəticəsində formalaşmışdır. Xüsusi nəzəriyyələr paradiqma və paradiqmalararası nəzəriyyələrə bölünürlər.

Beynəlxalq münasibətlərin nəzəriyyələri haqqında daha dolğun təsəvvürləri aşağıdakı cədvəl yaradır:

| Paradiqmalar və onların müxtəlif növləri | | Nəzəriyyələr | Nümayəndələri |
|---|---|---|---|
| Realizm | Klassik (KR) | Milli maraqlar, milli təhlükəsizlik, qüvvələr balansı | E.X.Karr, H.Morgentau, H.Kissincer |
| | Neoklassik (NR) | Təhlilin səviyyələri, təhdidlərin balansı, yetkin anarxiya | K.Uolts, R.Hilpin, S.Uolt, B.Buzan |
| | Postklassik (PR) | Sivilizasiyaların münaqişəsi | S. Hantinqton |
| Liberalizm (idealizm) | Klassik (KL) | İnsan nəslinin birliyi; mənəvi və hüquqi normaların prioriteti; kollektiv təhlükəsizlik | A.Smit; İ.Kant; V.Vilson |
| | Neoklassik (NL) | Beynəlxalq rejimlər; hegemonçu sabitlik; institusionallaşma; federalizm, transmillilik | S.Krasner; R.Kohen; C.Nay; F.Kratoçvil |
| | Postklassik (PL) | Demokratik dünya; humanitar müdaxilə; insan təhlükəsizliyi; dünya birliyi; dünya vətəndaş cəmiyyəti; qlobal idarəetmə | F.Fukuyama; E.Moravçik; C.Li Rey; L.Eksuorsi; V.Zartman, L.Rinner, E.O.Şempyel, D. Messner, C.Metyuz; Q.Salame, C.Rozenau |
| Radikalizm | Klassik marksizm (KM) | Proletariatın tarixi missiyası; dünya sosialist inqilabı | K.Marks; F.Engels; V.Lenin |
| | Neoklassik marksizm (NM) | Dünya sistemləri; mərkəz-periferiya | S.Amin; İ. Vallerstayn |
| | Postklassik marksizm (PM) | Dünya nizamı; anti-hegemonçu blok. | S.' Hill; R.Koks; M.Horkhaymer |

## §2. Beynəlxalq münasibətlər nəzəriyyəsinin təkamülü

Yuxarıda qeyd etdiyimiz kimi, müasir beynəlxalq münasibətlər nəzəriyyəsində bir neçə paradiqma mövcuddur ki, bunlardan ikisi – qədim zamanlarda yaranan və indiyə qədər qarşı-qarşıya duran **siyasi idealizm** və **siyasi realizmdir.**

Kökləri İncil postulatları, stoiklərin fəlsəfəsi, orta əsr teoloqu F.De Vitorinin və XVIII əsrin görkəmli mütəfəkkiri İ.Kantın baxışlarına gedib çıxan **siyasi idealizm** nümayəndələrinin fikrinə görə, sabit beynəlxalq nizam və normal beynəlxalq münasibətlər ancaq universal əxlaq prinsiplərini və onlara söykənən hüquq normalarını nəzərə almaqla əldə edilə və qoruna bilər. Siyasi təcrübədə bu yanaşma öz təcəssümünü Millətlər Cəmiyyəti adlı universal hökumətlərarası təşkilatın ABŞ prezidenti Vudro Vilsonun rəhbərliyi altında tərtib edilmiş proqramında tapır. Bu təşkilat Birinci Dünya Müharibəsindən sonra yeni beynəlxalq nizamın zamini və aləti rolunda çıxış etməli idi.

Millətlər Cəmiyyətinin nizamnaməsinə əsasən, həmin beynəlxalq təşkilatın məqsədi xalqlar arasında əməkdaşlığın inkişafını, onların sülh və təhlükəsizliyini təmin etmək idi. Təşkilat, faktiki olaraq, 1919 – 1939-cu illərdə fəaliyyət göstərmişdir. Millətlər Cəmiyyətinin əsas orqanları aşağıdakılar olmuşdur:

- Assambleya (Assambleya sessiyaları hər ilin sentyabr ayında keçirilirdi)
- Millətlər Cəmiyyətinin Şurası
- Daimi katiblik (Baş katibin rəhbərliyi altında fəaliyyət göstərirdi)
- Cəmiyyətin nəzdində muxtar təşkilat hüquqlarına malik Daimi Beynəlxalq Ədliyyə Palatası və Beynəlxalq Əmək Təşkilatı yaradılmışdır. Millətlər Cəmiyyəti xüsusi

çağırılmış Məclisin qərarına əsasən, 1946-cı ilin aprel ayında formal olaraq fəaliyyətini dayandırmışdır.

Digər əsas paradiqma - **siyasi realizm** paradiqmasının başlıca ideyalarını artıq qədim yunan tarixçisi Fukidinin "Peloponnes müharibəsinin tarixi" adlı əsərində, italyan siyasi mütəfəkkiri N.Makiavellinin baxışlarında, ingilis filosofu T.Hobbsun "təbii vəziyyət" və soydaşı D. Yumun "siyasi tarazlıq" nəzəriyyələrində, alman generalı Karl fon Klauzevitsin görüşlərində tapmaq mümkündür.

1932-ci ildə amerikalı teoloq R.Nibur "Əxlaqlı insan və əxlaqsız cəmiyyət" adlı kitabında idealistərin pasifizmini və faşizm təhlükəsi qarşısında bəsirətsizliyini çox kəskin tənqid edir.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin təşəkkülü və inkişafında 1919-cu ildə Böyük Britaniyanın Eyberesvit şəhərinin universitetində (Uels) yaranmış ilk beynəlxalq münasibətlər kafedrasının böyük rolu olmuşdur. V.Vilson kafedrası adlanan bu kafedranın əsas məqsədi – Millətlər Cəmiyyətinin fəaliyyətinə kömək etmək idi. Sonralar beynəlxalq münasibətlərin tədrisi və araşdırılmasında "ağırlıq mərkəzi" öz yerini Böyük Britaniyadan ABŞ-a dəyişir. Qeyd etmək lazımdır ki, hətta indinin özündə belə ABŞ-da nəşr olunmuş həm amerikalı müəlliflər, həm də digər ölkələrin alimlərinin elmi əsərləri beynəlxalq münasibətlər nəzəriyyəsinə olduqca güclü təsir göstərir. XX əsrin 20 – 30-cu illərində ABŞ-da və İngiltərədə beynəlxalq münasibətlərin öyrənilməsi müharibələrin səbəblərinin və onların qarşısını ala biləcək tədbirlərin təhlilinə yönəldilirdi.

O vaxtlar baxılan sahədə yaranmış vəziyyəti, birincisi, liberal-idealist yanaşmanın tam hökmranlığı və ikincisi, xüsusən beynəlxalq münasibətlərin tədqiqiylə məşğul olan muxtar beynəlxalq - siyasi elmin faktiki yoxluğu ilə səciyyələndirmək olar.

Beynəlxalq münasibətlərin öyrənilməsində yeni ənənənin əsasını qoyan elmi işlər sırasında, ingilis tarixçisi və diplomatı Edvard Hallet Karrın 1939-cu və 1946-cı illərdə çap olunmuş "20 il böhran: 1919 –1939" adlı kitabını qeyd etmək lazımdır. Həmin əsərdə müəllif yazır ki, beynəlxalq siyasi elm hələ özünün "yaranma" dövrünü yaşayır. Bu kitab, haqlı olaraq, realist paradiqmaya əsaslanan beynəlxalq münasibətlərin şərhinə dair elmi yanaşmanın ilk cəhdlərindən biri kimi qiymətləndirilir. Burada Karr liberal idealizmin nöqsanlarını tənqid atəşinə tutaraq və onun, az qala normativ xarakterini inkar edərək, qüvvənin və qüvvələrin qarşılıqlı münasibətlərinin həlledici rolunu ön plana çəkir. Karr belə bir fikir yürüdür ki, beynəlxalq münasibətlər nəzəriyyəsi və təcrübəsinin əsas vəzifəsi – qüvvələr nisbətinin dinc yolla transformasiyasını təmin etməkdir. Burada onun mövqeyi beynəlxalq-siyasi nəzəriyyənin digər banisi Hans Morgentaunun mövqeyi ilə üst-üstə düşür. Morgentaunun və Karrın kitablarını siyasi elm çərçivəsində BMN-in nisbətən müstəqil fənn kimi təşəkkülünün dönüş nöqtəsi adlandırmaq mümkündür.

Onların baxışlarına görə, beynəlxalq siyasi elmin yaranması və inkişafı birbaşa cəmiyyətin demokratikləşməsi ilə bağlıdır.

Karr siyasi realizm tərəfdarıdır və Fukididdən gələn ənənələrə müvafiq olaraq, beynəlxalq münasibətlərdə hakim qarşılıqlı təsirlərin birinciliyini, onların sabitliyinin təmin olunmasında qüvvələr tarazlığının rolunu təkid edir. O, ümumi əxlaq normalarının beynəlxalq siyasətdə tətbiq olunmamağına, beynəlxalq əxlaqın ancaq nisbi xarakter daşımasına əsaslanaraq, "etika yalnız siyasət terminlərində interpretasiya olunmalıdır və etik normanın siyasətdən kənar axtarılması uğursuzluğa məhkumdur" ideyasını irəli sürür. Nəhayət, o, dövləti beynəlxalq münasibətlərdə iştirak edən

əsas sima kimi görür və hökumətlərarası təşkilatlar istisna olmaqla, digər aktorlara əhəmiyyət vermir.

Siyasi realizm nəzəriyyəsinin digər yaradıcısı, Çikaqo Universitetinin professoru Hans Morgentauya gəldikdə (1904 – 1980) demək olar ki, onun 1948-ci ildə işıq üzü görmüş "Millətlər arasında siyasi münasibətlər: hakimiyyət və sülh uğrunda siyasi mübarizə"[1] adlı kitabının ilk çapı nəinki ABŞ-ın, həmçinin digər Qərb ölkələrinin də elmi və siyasi mühitində geniş maraq oyatmışdır.

Bunun bir neçə səbəbi vardır:

Əvvələn, Millətlər Cəmiyyətinin iflası və İkinci Dünya Müharibəsinin, ardınca da "soyuq müharibə"nin başlanması universal dəyərlər və dövlətlərin ümumi maraqlarının üstünlüyünə, münaqişələrin hüquqi tənzimlənməsi və kollektiv təhlükəsizlik sisteminin formalaşmasına əsaslanan yeni beynəlxalq nizamın yaradılması cəhdlərinin xəyaliliyini göstərərək, beynəlxalq münasibətlərin təhlilinin idealist paradiqmasında dərin böhran doğurdu.

İkincisi, beynəlxalq münasibətlər nəzəriyyəsinin kitabda təklif edilən və müəllif tərəfindən ətraflı işlənilən müstəqil elmi fənn kimi meydana gəlməsi zaman baxımından ABŞ-ın dünyada ön sıraya çıxması və dövlət rəhbərliyinin müharibədən sonra beynəlxalq nizamın yaradılması və qorunub saxlanmasında öz ölkəsinin ümumdünya-tarixi rolunun dərk edilməsi ilə üst-üstə düşdü. Bu səbəbdən beynəlxalq münasibətlər nəzəriyyəsinin inkişafı ölkə hakimiyyətinin maddi və mənəvi dəstəyini aldı.

Üçüncüsü, ABŞ-da olduğu kimi, dünyanın digər ölkələrinin siyasi elitasında da siyasi realizm nəzəriyyəsinin bir neçə müddəası maraq doğurdu. Həmin müddəalara əsasən, beynəlxalq siyasət hakimiyyət və güc uğrunda mübarizədir;

---

[1] Morgenthau H. J. Politics among nations. The struggle for Power and Peace. New York: Alfred O. Knopf, 1948

dövlət bu siyasətin nəzərəalınacaq yeganə iştirakçısıdır; dövlətlərin milli maraqları bir-birinə uyğun olmur və buradan da beynəlxalq mühitin münaqişəliliyi irəli gəlir. Beynəlxalq səhnədə dövlətin milli mənafeyinin səlahiyyətli və tamhüquqlu təmsilçisi onun hökumətidir, hansı ki, xarici suverenlik etibarlılığı əsasında daxili birliyi təmsil etmək, müqavilələr bağlamaq, müharibələr elan etmək və s. həyata keçirməkdə inhisar hüququna malikdir.

Qeyd edilmiş amillər indinin özündə belə həm dövlət xadimləri arasında, həm də elmi mühitdə siyasi realizmin geniş yayılmasına kömək edir. Baxmayaraq ki, onun müddəaları bu gün digər nəzəri məktəblər ( strukturalizm və transmillilik) tərəfindən ciddi tənqid atəşinə tutulur.

Siyasi realizm nəzəriyyəsinin cəlbedici tezislərindən biri də beynəlxalq münasibətləri hansısa ideal, qayə baxımından yox (o nə qədər yaxşı olsa belə), hakimiyyətin əldə olunması və saxlanılması naminə mübarizədən ibarət olan hər bir siyasət (beynəlxalq siyasət daxil olmaqla) baxımından gözdən keçirilməsi zərurəti haqqında fikir oldu. Morgentau yazır: "Beynəlxalq siyasət digər siyasət formaları kimi, hakimiyyət uğrunda mübarizə sayılır: beynəlxalq siyasətin son məqsədi hakimiyyətdir". Demokratiya, universal dəyərlər və hüququn aliliyinə əsaslanan müntəzəm və dinc beynəlxalq nizamın yaradılmasının zəruriliyini inkar etməyərək, Morgentau və tərəfdarları (A. Uolfers, K. Tompson, E. Karr, C. Şvarsenberq) dövlətlərarası qarşılıqlı əlaqələrin və ümumiyyətlə, müasir dünyanın bundan hələ çox uzaq olmasını təkid edirlər. Beynəlxalq siyasətin əsas xüsusiyyətlərindən biri odur ki, millət-dövlətlərin mövcud vəziyyətin saxlanılmasına və ya özlərinin xeyrinə dəyişdirilməsinə dair mütəmadi cəhdləri beynəlxalq münasibətlərdə qüvvələrin balansı adlanan xüsusi konfiqurasiyaya və müvafiq olaraq belə müvazinətin qorunub saxlanmasına yönələn siyasətə gətirib çıxarır. Morgentau

beynəlxalq siyasətin realist nəzəriyyəsinin təməlində siyasi davranışın obyektiv və dəyişilməz qanunlarının durması ideyasını əsaslandırmağa çalışır. Onun fikrincə, bu davranışın köklərini siyasi təbiətin özündə axtarmaq lazımdır.

Alim hesab edir ki, müasir siyasi fikir tarixi – insan təbiətinin cəmiyyət və siyasətin dərk edilməsində bir-birindən ciddi surətdə fərqlənən iki məktəb arasındakı elmi mübahisə tarixidir.

Siyasi realizm məktəbinin nümayəndələri rasional baxımdan dünyanın qeyri-kamil olmasını iddia edirlər, çünki o, bünövrəsi insan təbiətində olan qüvvələrin təsirinin nəticəsidir. Müasir dünyada əks maraqlar və sonuncular arasında münaqişələr mövcuddur. Əxlaq prinsipləri isə tam yerinə yetirilə bilməz. Lakin maraqlar balansını tətbiq etməyə cəhd göstərərək, onlara yaxınlaşmaq mümkündür, baxmayaraq ki, həmin balans həmişə müvəqqətidir. Bu məktəb "çəkindirmə və tarazlaşdırma sistemində" bütün plüralist cəmiyyətlərin universal mövcudluq prinsipini görür, həm də mücərrəd əsaslara yox, tarixi presedentlərə müraciət edir; onun məqsədi mütləq xeyrin deyil, ən kiçik zərərin axtarışıdır.

Morgentau öz kitabında siyasi realizmin mahiyyətini anlamağa kömək edən **altı əsas prinsipi** son dərəcə dəqiqliklə qısaca və dürüst ifadə edir:

1) Siyasi realizm baxımından cəmiyyət kimi, siyasət də kökləri insan təbiətindən gələn obyektiv qanunlara tabedir. Cəmiyyəti təkmilləşdirmək üçün onun hansı qanunlar ilə yaşadığını dərk etmək lazımdır. Bu qanunların təsiri bizdən asılı deyil, onların dəyişilməsinə dair göstərilən hər bir cəhd uğursuzluqla nəticələnir. Siyasət qanunlarının obyektivliyini qəbul edərək, realizm bu qanunları təsvir edə biləcək rasional nəzəriyyənin yaradılmasının mümkünlüyü ilə razılaşır. Belə nəzəriyyə həqiqətlə əlaqəsi olmayan və siyasətin yanlış anlamları üzərində qurulmuş subyektiv fikirlərə yox, real

faktlara əsaslanmalıdır. Daxilində qədim Çin, Hindistan, Yunanıstan filosoflarının kəşf etdikləri siyasət qanunları gizlənən insan təbiəti o zamandan bəri heç dəyişməmişdir. Bu səbəbdən də siyasi nəzəriyyənin qədimliyini onun çatışmazlığı, buradakı yenilikləri isə məziyyəti kimi qiymətləndirmək olmaz.

2) Siyasi realizmin başlıca kateqoriyası - **hakimiyyət** terminində ifadə olunan **"maraq"** anlayışıdır. Məhz bu anlayış tədqiqatçının fikrini və beynəlxalq siyasət təzahürlərini bir-biri ilə əlaqələndirir. Bundan başqa, o, siyasi sahənin spesifikliyini digər həyat sahələrindən, yəni zənginlik kimi izah olunmuş maraq kateqoriyasında başa düşülən iqtisadiyyatdan, etikadan, estetikadan, dindən və s. fərqləndirir. Belə anlayışsız istər daxili, istərsə də xarici siyasət nəzəriyyəsinin mövcudluğu qeyri-mümkün olardı, çünki bu halda biz siyasi təzahürləri qeyri-siyasi təzahürlərdən ayıra və siyasi sahəyə nizam gətirə bilmərik.

3) Siyasi realizmə görə, hakimiyyət terminində ifadə olunan maraq anlayışı obyektiv kateqoriyadır, baxmayaraq ki, maraq öz-özlüyündə dəyişə bilər. Bununla belə, maraq anlayışı siyasətin mahiyyətinə aydınlıq gətirir, məkan və zamanın konkret şəraitindən asılı olmur. Lakin konkret tarixi dövrdə siyasi fəaliyyəti müəyyənləşdirən maraq tipi çərçivəsində xarici siyasət, formalaşan siyasi və mədəni kontekstdən asılıdır. Siyasi realizmə əsasən, dövlətin xarici siyasətinin düzgünlüyünün başlıca meyarı onun öz milli mənafeyinin qorunmasıdır. Eyni zamanda milli maraq və onun daşıyıcısı olan dövlət arasındakı əlaqə tarixin məhsuludur, bu səbəbdən də o, zaman keçdikcə yox ola bilər. Siyasi realizm vaxt gəldikdə milli dövlətlərin, gələcəyin texniki imkanlarına və tələblərinə daha çox cavab verən, prinsip etibarilə başqa xarakterli hansısa qurumlarla əvəzolunma imkanını inkar etmir.

4) Siyasi realizm siyasi fəaliyyətin əxlaqi əhəmiyyətini, eyni zamanda əxlaq imperativi və uğurlu siyasət tələblərinin uyğunsuzluğunun qaçılmazlığını qəbul edir.

Realizm inandırmağa çalışır ki, universal əxlaq prinsipləri mücərrəd şəkildə dövlət fəaliyyətinə tətbiq oluna bilməz, onlar konkret məkan və zaman şəraiti nöqteyi-nəzərindən dəyərləndirilməlidir.

Yəni həm fərd, həm də millət siyasi fəaliyyəti universal əxlaq prinsipləri, məsələn, azadlıq prinsipi əsasında qiymətləndirməlidir. Əgər fərdin bu əxlaq prinsiplərinə özünü fəda etməyə mənəvi hüququ varsa, millət mənəviyyatı, öz-özlüyündə millətin yaşama əxlaq prinsipinə əsaslanan uğurlu siyasət tələblərindən üstün tutması hüququndan məhrumdur. Siyasi fəaliyyətin nəticəsinin nəzərə alınması kimi başa düşülən fərasətlilik siyasi əxlaqın tərkib hissəsi və siyasətdə ali məziyyətdir. Etika fəaliyyətin əxlaq qanununa müvafiq olub-olmamağı, siyasi etika isə onun siyasi nəticələri əsasında hökm verir.

5) Siyasi realizm, konkret millətin əxlaqı və universal əxlaq qanunlarının eyniləşdirilməsini rədd edir. Əgər biz, öz millətimiz daxil olmaqla, bütün millətlərə hakimiyyət terminində ifadə edilmiş, maraqlarını güdən siyasi törəmə kimi baxsaq, onda biz hamıya qarşı ədalətli olmağa qadirik. Birincisi, biz öz millətimiz kimi, digər millətlərin marağına hörmət edən, eyni zamanda öz millətimizin maraqlarını qoruyan və irəli çəkən siyasəti həyata keçirə bilərik. Siyasətdə mötədillik, əxlaq mühakiməsinin mötədilliyinin əksidir.

6) Beləliklə, siyasi realizm və digər nəzəri məktəblər, yaxud paradiqmalar arasında böyük fərq var. Ancaq siyasi realizm nəzəriyyəsini tez-tez səhv başa düşərək, düz yozmurlar. Halbuki onda bir tərəfdən, səmərəlilik tələbləri, digər tərəfdən isə əxlaq arasındakı ziddiyyət yoxdur.

Realist cərəyanın tərəfdarlarından biri, görkəmli fransız alimi Raymon Arondur. Onu əsasən güc qarşılıqlı əlaqələri,

silahlı münaqişələr və strategiya məsələləri maraqlandırır. Tədqiqatçının əksər elmi işlərinin başlıca problematikası, o cümlədən iki sistemin qarşıdurması, qızğın silahlanma, beynəlxalq nizamın qorunub saxlanmasında fövqəldövlətlərin rolu və s. soyuq müharibə şəraiti ilə diktə olunmuşdur. Siyasi realizm nümayəndəsi kimi, o, nəinki beynəlxalq siyasətdə əxlaq normalarının əhəmiyyətini inkar etmir, əksinə, onların zəruriliyini təkidlə vurğulayır. R.Aronun fikrincə, moralizm mümkün və ehtimal olunan nəticələri nəzərə almırsa, öz əksinə, yəni amoralizmə (əxlaqsızlığa) çevrilir. Realizm isə irrealizm şəklinə o zaman düşür ki, insanların öz ölkə başçıları və dövlətlərinin siyasi xətti haqqında olan əxlaq mühakimələri əhəmiyyətsiz sayılır, hər bir aktorun öz qarşılıqlı münasibətlərində minimal hüquqi nizamın qorunub saxlanmasına dair marağı qəbul edilmir və ya hazırda özünü məhv etməyə çalışan bəşəriyyətin dövlətlərarası zorakılığın azalmasına yönələn cəhdləri tanınmır.

Ona görə də siyasi xadim beynəlxalq aktorların davranışını şərtləndirən dünya dərketməsinin müxtəlifliyini nəzərə almalıdır. Beləliklə, realistlər fərdi və dövlət, adi və siyasi əxlaqları nəinki sadəcə ayırır, həmçinin dövlətlərin bir-biri ilə münasibətlərində müəyyən qaydalara riayət etmələrinin labüdlüyünü vurğulayır, kompromislərin, xarici siyasətlərin motivasiyasında fərqli cəhətlərin başa düşülməsi, maraqların uyğunlaşdırılması cəhdlərinin zəruriliyini təkid edirlər. Onlar fərdi və ümumiyə deyil, siyasi və konkret əxlaqilik meyarlarına birincilik verərək, sözsüz ki, tənqid üçün imkan yaradırlar, çünki dövlətlərin güc qarşılıqlı təsirlərinə, milli mənafe və məqsədlərinin üstünlüyünə əsaslanan beynəlxalq nizamın aradan qaldırılması yollarının axtarışıyla bağlı bir sıra məsələlərə cavab tapmırlar. Yuxarıda qeyd olunanlardan görünür ki, siyasi realizmin və ya beynəlxalq siyasi elmin "klassik" paradiqmasının əsasları, beynəlxalq əlaqələrin milli maraqlardan irəli gələrək, anarxiya

mühitində dövlətlərin hakimiyyət uğrunda güc qarşıdurması kimi başa düşülməsi ilə bağlıdır.

Dövlətlər yeganə iştirak edən simalardır ki, siyasi realizm mövqeyindən beynəlxalq siyasətin təhlilində nəzərə alınırlar. Bundan əlavə, ən vacib dünya problemləri böyük və daha qüvvətli dövlətlər tərəfindən həll edilir.

Siyasi realizm, böyük dövlətlərin arasındakı, onların öz tərəfindən müəyyən edilmiş qüvvələr balansını beynəlxalq sabitliyin və sülhün qorunmasının əsas şərti və aləti hesab edir. Digər kiçik və hətta orta dövlətlərin təqdiri – onlara güclülər tərəfindən diktə edilən oyun qaydalarını könüllü və ya məcburi surətdə qəbul etməkdir. Fukididdən və Nikkolo Makiavellidən Tomas Hobbs, Nikolas Spaykmendən Reynold Nibur və Hans Morgentau, Corc Kennan və Robert Strauss-Hüpedən Henri Kisincerə qədər "klassik" paradiqmanın bütün sələfləri və nümayəndələrinə xas olan bu kimi fikirlər əməkdaşlıq probleminin təhlili üçün az imkanlar yaradır. Bununla belə, həmin istiqaməti ancaq onun ümumi paradiqmal müddəalarına müncər etmək düzgün olmazdı.

Əvvəla, siyasi realizm hansısa bir monolit şəklində çıxış etmir, onun tərəfdarları arasında beynəlxalq siyasət məsələləri üzrə fikir ayrılığı mövcuddur.

İkincisi, realizm akademik və siyasi mühitdə geniş yayıla bilməzdi, əgər o, beynəlxalq əlaqələrin bütün mühüm məsələlərini özünəməxsus başlanğıc mövqedən dərk etməyə çalışmasaydı. Deyilənləri Arnold Uolfersin "Qarşıdurma və əməkdaşlıq. Beynəlxalq siyasət haqqında esse"[1] adlı elmi əsərindən misal gətirərək, təsdiq etmək olar.

1950-ci illərdə Vaşınqton Tədqiqat Mərkəzinin baş müdiri vəzifəsində çalışan A.Uolfers (1892 – 1968) siyasi realizmin aparıcı nümayəndələrindən biri sayılır. Klassik paradiqmanın

[1] Wolfers A. A discord and collaboration. Essay of international politics. Foreword by Reinhold Niebuhr. Baltimore: The Jons Hopkins Press, 1962

əsaslarını ardıcıllıqla müdafiə edərək, o, beynəlxalq səhnədə dövlətlərin davranışının əsas səbəbini milli maraq hesab edirdi. Düşünürdü ki, müxtəlif dövlətlərin xarici siyasəti kənar təsirlərə avtomatik reaksiya deyil. Bu siyasət xeyli dərəcədə siyasi liderlərin psixoloji xüsusiyyətlərindən asılıdır. Eyni zamanda həmin siyasət növü dövlətlərin artan qarşılıqlı asılılığı ilə müəyyən olunur. Məhz buna görə, müxtəlif dövlətlərin xarici siyasətlərinin çeşidliliyindən ibarət olan beynəlxalq əlaqələr nəinki beynəlxalq əməkdaşlığı istisna etmir, əksinə sonuncunu nəzərdə tutur.

Beynəlxalq sahədə dövlətlər əsasən üç qrup məqsəd güdür: bunlar **inkişaf, təhlükəsizlik** və **əməkdaşlıqdır.** Sonuncu məqsəd Uolfers tərəfindən dövlətin təhlükəsizliyi baxımından zəruri olan, millətlərarası həmrəyliyin qanunun və sülhün aliliyinə nail olmaq üçün istiqamətlənən, onun milli özünüdanması kimi (əslində, özünün və hamının yaşaması məqsədi ilə dövlətin öz suverenliyinin bir hissəsindən könüllü imtina kimi) başa düşülür. Əməkdaşlığın milli maraq çərçivəsindən kənara çıxmasını etiraf edərək, Uolfers yazır ki, onlar heç də mütləq bir-birinə zidd deyil, çünki özünüdanma bu marağın digər elementlərinə uyğun gəlir.

Onun fikrincə, dost və düşmən münasibətlərini ayıran əlamət həmişə dəqiq müəyyənləşdirilmir. Eyni zamanda elmi tədqiqat obyekti kimi o, ikincilərin üstünlüyünü təkid edir. Alimə görə, ictimaiyyətin və əksər müəlliflərin diqqəti ölkələrin düşmən münasibətləri üzərinə yönəlir. Hərçənd sabit cərəyan edən qarşılıqlı münasibətlər böyük maraq doğurmur. Göstərilən paradiqmanın əsas müddəaları çərçivəsində dövlətlərin qarşılıqlı təsiri kimi yozulan əməkdaşlıq öz əhəmiyyətini itirmir. Uolfers qeyd edir ki, birinci dərəcəli əməkdaşlıq növləri kollektiv müdafiə məqsədi ilə yaradılan hərbi və hərbi-siyasi ittifaq və alyanslardır.

Bununla belə, o, hər hansı bir beynəlxalq kollektiv təhlükəsizlik sisteminin, ələlxüsus dünya hökumətinin

formalaşma imkanını təkzib edir. Bunlar hamısı, sözsüz ki, beynəlxalq əməkdaşlığın təhlilini zəiflədir. Lakin bu fenomeni dövlətlərarası qarşılıqlı əlaqələrə, sonuncunu isə hərbi-siyasi birləşmələrə müncər edərək, Uolfers tədqiqatçıları akademik təhlilin predmeti kimi çıxış edəcək substansional, millətlərarası və "üstmilli" aktorların beynəlxalq siyasətə daha çox qarışması faktını nəzərdən qaçırmamağa çağırır.

Müəllif beynəlxalq əməkdaşlıq növlərinin tədqiqatına böyük əhəmiyyət verərək, həmin əməkdaşlığı klassik paradiqmanın ən mühüm kateqoriyasının, yəni "milli marağın" məzmununun beynəlxalq həyatın gözlənilən yeni reallıqlarına (genişlənmə yolu ilə) adaptasiyası kimi qiymətləndirir.

Bu gün beynəlxalq əməkdaşlıq məsələsi daha nəzərəçarpacaq dərəcədə periferiyadan akademik dairələrin, dövlət xadimlərinin, beynəlxalq təşkilatların, böyük istehsal, maliyyə, məlumat və digər struktur və birlik başçılarının diqqət mərkəzinə tərəf yerini dəyişir. Təqribən 1980-ci ildən başlayaraq, baxılan məsələnin öyrənilməsi konfliktologiyanın kölgəsindən çıxır və nisbətən müstəqil xarakter alır. Əməkdaşlığın daxili səbəbləri, onun inkişafında beynəlxalq mühitin təkanverici və əngəl törədən rolu, əməkdaşlığa gətirib çıxaran yollar, onun səbəb və nəticələri, forma və tipləri kimi məsələlər təhlil predmetinə çevrilir.

Başqa cür desək, hazırda həmin problemin nəzəri statusunun açıq-aşkar yüksəlməsi müşahidə olunur. Bu dünyanın iqtisadi, maliyyə və məlumat baxımından qarşılıqlı asılılığının artması, müxtəlif transmilli aktorların dünya səhnəsinə kütləvi çıxışı, KİV və digər kommunikasiya vasitələrində baş verən inqilab ilə bağlıdır, yəni elə dəyişikliklərlə ki, onlar A.Uolfersin elmi işi yazılan və işıq üzü görən dövrdə yenicə meydana çıxırdı. Bununla əlaqədar, əsərin bir çox müddəalarının bu gün də öz əhəmiyyətini itirməməsi xüsusilə diqqətəlayiqdir.

Siyasi realizm nəzəriyyəsinin ilk və qəti islahatçısı, onun bir sıra postulatlarını şübhə altına alan Kennet Uoltsdur. Alimin özünün və tərəfdarlarının işləri (R.Qilpin, Ç.Mirşeymer, S.M. Uolt və b.) neorealizm cərəyanının əsasını qoyaraq, inkişafına səbəb oldu. Siyasi realizm nəzəriyyəsi ilə Uoltsun görüşlərini, onun beynəlxalq əlaqələrin ardıcıllığına və qanunauyğun xarakterinə əminliyi və nəticə etibarı ilə həmin əlaqələri öyrənən rasional nəzəriyyələrin yaradılmasının mümkünlüyünə möhkəm inamı birləşdirir. Morgentau kimi, o da, siyasi realizm üçün ən mühüm olan beynəlxalq əlaqələrin anarxiyalı xarakteri haqqında müddəanı müdafiə edir və razılaşır ki, məhz bu onları hüquqi normalarda formalizə olunmuş, iyerarxiya, subordinasiya, hökmranlıq və tabeçilik prinsipləri üzərində qurulmuş cəmiyyətdaxili əlaqələrdən fərqləndirir.

Beynəlxalq əlaqələrin nizamsızlığı, ali hakimiyyətin, həmçinin əsas aktorların qarşılıqlı təsirlərini ümumi razılıq əsasında səmərəli tənzimləməyə qadir olan, məhvedici münaqişə və müharibələrin qarşısını ala bilən hüquq və əxlaq normalarının olmaması qədim zamanlardan mahiyyətcə dəyişilməz qalmışdır. Buna görə də bu sahənin islah edilməsinə, kollektiv təhlükəsizlik və hüquq normalarına əsaslanan beynəlxalq nizamın qurulmasına, üstmilli təşkilatların həlledici roluna ümid bəsləmək lazım deyil.

Dövlətin özündən başqa (onun siyasi rəhbərliyi qismində), heç kəs onun təhlükəsizliyində maraqlı deyil. Bu təhlükəsizliyin möhkəmləndirilməsi, beləliklə də, dövlətin gücünün və onun digər dövlətlərə təsir göstərmək qabiliyyəti, hakimiyyətinin möhkəmləndirilməsi – dövlətin milli maraqlarının əsas elementi olaraq qalır. Uoltsun fikrinə görə, bu, o deməkdir ki, beynəlxalq münasibəti tədqiq edən rasional nəzəriyyənin başlıca məzmunu – dövlətlərarası münaqişə və müharibələrin öyrənilməsidir. Belə izah Morgentaunun baxışlarına o qədər yaxındır ki, ortaya sual çıxır: onda

neorealizmin xüsusiyyəti nədir? Bu nəzəriyyə siyasi realizmə hansı yenilik gətirir?

Neorealizm beynəlxalq münasibətlər və dünya siyasəti nəzəriyyələrinin eyni olmaması mühakiməsindən başlayır. Klassik siyasi realizm nəzəriyyəsindən fərqli olaraq, dünya siyasətinin neorealist izahı – xarici siyasətin öyrənilməsi əsnasında edilən ümumiləşdirmələrin nəticəsi deyil.[1] Onun təməlində siyasi sahənin beynəlxalq münasibətlərin digər sahələrindən mücərrədləşdirilməsi durur, bu da öz növbəsində ona xas olan xüsusiyyətlərin öyrənilməsi, determinant və qanunauyğunluqların axtarışı üzərində fikri cəmləməyə imkan yaradır.

Uolts beynəlxalq siyasi reallıqların tədqiqində klassik siyasi realizmin metodologiya və metod nöqsanlarını aradan qaldırmağa səy göstərir (məhz bu qüsurlara görə siyasi realizm modernistlər tərəfindən tənqid atəşinə tutulurdu).

Metodoloji dəqiqlik axtarışında o, sistem yanaşmanın labüdlüyü nəticəsinə gəlir. Burada **struktur** anlayışına müəyyənləşdirici rol ayırır. Bu gün beynəlxalq münasibətlərdə **sistem nəzəriyyəsi** tez-tez məhz Uoltsun adı ilə eyniləşdirilir.

Beynəlxalq sistemdə müharibəyə meyillilik (əsas asılı dəyişən), hansı ki, bu sistemin ziddiyyəti ilə izah olunur (müstəqil dəyişən), beynəlxalq aktorların mütləq və nisbi mənfəətlərinin təbiəti, həmin sistemdə onların uzlaşması və paylaşdırılması arasında gərginlik və s. haqqında mülahizələr alimin «Beynəlxalq siyasət nəzəriyyəsi» adlı fundamental əsərində izah edilir. Həmin əsər populyarlığına və sitata istinad indeksinə görə bu sahədə əvvəlki bütün məlum elmi mənbələri qabaqlamışdır.

[1] Daha ətraflı bax: Линклейтер Э. Неореализм в теории и на практике. Теория международных отношений на рубеже столетий. Перевод с англ. Под ред. К. Буса и С. Смита. М. Гардарики, 2000.

Oxşar tale xeyli dərəcədə Uoltsun doktorluq dissertasiyası əsasında yazılmış və 1959-cu ildə çap edilmiş «İnsan, dövlət və müharibə» adlı klassik əsərinə də xasdır. Burada sonralar «Beynəlxalq siyasət nəzəriyyəsi» kitabında təkmilləşdirilən fikirlər irəli sürülür.

Geniş ədəbiyyatın təhlili əsnasında Uolts silahlı münaqişələr və müharibələrin səbəblərinə aid mülahizələrin müxtəlifliyini üç əsas «obraz»a müncər etmək nəticəsinə gəlir. Bunlar **insan, dövlət** və **dövlətlərarası mühitdir**.

Birinci obraza görə, müharibələrin başlıca səbəbləri insanın təbiəti və davranışında axtarılmalıdır. Müharibələr ağılsızlıq, səhv yönəldilmiş aqressiv impulslar, xudbin davranış nəticəsində meydana gəlir. İkinci obraz müharibələrin mənbəyini dövlətlərin daxili təbiətiylə əlaqələndirir. Belə ki, imperialist müharibələr – kapitalist cəmiyyətinin iqtisadi qanunlarının, müharibələrin olmaması isə – demokratik prinsiplərə söykənən dövlət quruluşunun yekunudur. Üçüncü obraz – dövlətlərarası sistemin xüsusiyyətləri, spesifikası və strukturu ilə bağlıdır.

Siyasi realizm (neorealizm) tərəfdarlarına zidd olaraq, idealizm paradiqmasının nümayəndələri dövlətlərin nəinki yeganə, hətta əsas beynəlxalq aktor olmadıqlarına əmindirlər. Onların bir çoxu hesab edir ki, bu rol beynəlxalq, əksər hallarda hökumətlərarası təşkilatlara məxsusdur. Realistlərin fikrincə, beynəlxalq siyasət nəzəriyyə və təcrübəsinin əsas məsələləri sırasında milli dövlət maraqlarının .həyata keçirilməsi və müdafiəsi, beynəlxalq səhnədə qüvvələrin rəqabəti və tarazlığı, dövlət gücünün (ilk növbədə, onun hərbi ölçüsündə) əldə edilməsi və saxlanılması strategiyası, geosiyasi (geostrateji) vəziyyətin dəyişməsindən asılı olaraq, çoxtərəfli ittifaqların, sazişlərin bağlanılması və yenidən baxılması problemləri durur. İdealistlər isə diqqəti universal, ümumbəşəri maraq, dəyər və ideyalarda, insan şəxsiyyətinin «ayrılmaz» hüquqlarının mövcudluğunda, bunların qorunması

və müdafiəsi məqsədi ilə yaradılmış taməhatəli təhlükəsizlik sisteminin qurulması zəruriliyində cəmləyirlər. Əgər siyasi realistlər mühüm beynəlxalq proseslərin münaqişələr ilə təmsil olunmasını təkid edirlərsə, idealistlər danışıqlar və əməkdaşlıqdan söhbət açırlar. Nəhayət, siyasi realistlərin fikrinə görə, insan təbiətinin dəyişməzliyi və beynəlxalq münaqişələrin bütün təcrübəsi göstərir ki, onların xarakterinin dəyişməsi və həm qanuniliyə, həm də şəxsiyyətin maraqlarının gözlənilməsinə əsaslanan yeni dünya nizamının qurulmasıyla bağlı ümidlər utopiyadan başqa bir şey deyildir. İdealistlər, əksinə dünya həmahəngliyinə nail olunmasına, insanlığın qanlı və fəlakətli silahlı münaqişələrindən qurtulmasına, ümumbəşəri mənəviyyatın və beynəlxalq hüququn yaradıcı imkanlarına inanırlar.

Əlavə olaraq, A.Vendtin mülahizəsinə görə, müharibələrarası illər beynəlxalq nəzəriyyədə idealist istiqamət barədə çoxlu yanlış məlumatlar yayılmış, «idealizm» termini isə – utopizm və sadəlövhlük ilə eyniləşdirilmişdi. Belə mövqe artıq o qədər dərin kök salıb ki, beynəlxalq münasibətlər üzrə müasir tədqiqatçıların çoxu həmin termini işlətməkdən belə çəkinirlər.[1] Buna baxmayaraq, son iki onillikdə, siyasi realizmin ünvanına tənqidin sərtləşməsi ilə yanaşı, realizm müddəalarına son dərəcə mənfi münasibətin açıq-aşkar yenidən qiymətləndirilməsi də müşahidə olunur.

Bəşəriyyətin mənəvi və siyasi vahidliyi haqqında yazan XV əsr mütəfəkkirlərinin ənənələrini, dövlətlərarası münasibətlərin hüquqi tənzimlənməsinin mümkünlüyü və zərurəti haqqındakı H. Qrotsi ideyalarını, Kantın xalqlararası əbədi sülhə nail olmaq ümidlərini miras götürməklə yanaşı, idealizm müasir beynəlxalq elmdə bizim dövrümüzə daha

---

[1] Bu haqda daha ətraflı bax: Вендт А. Четыре социологии международной политики // Международные отношения: социологические подходы/Под ред. П.А.Цыганкова. М., 1998. С. 49, 85-87.

yaxın ideya-nəzəri mənşələrə də sahib çıxır. Bunlar XIX əsrin utopik sosializmi, liberalizmi və pasifizmidir. İdealizmin əsas mühakiməsi - beynəlxalq münasibətlərin hüquqi tənzimlənmə və demokratikləşməsi, onlara mənəviyyat və ədalət normalarının şamil edilməsi, ədalətli beynəlxalq nizamın qurulması yolu ilə dünya müharibələrinə və dövlətlərarası silahlı münaqişələrə son qoymaq zərurəti və mümkünlüyünə inamdır. Həmin cərəyanın tərəfdarları qəti əmindirlər ki, demokratik dövlətlərin dünya birliyi, ictimai rəyin dəstəyi və təzyiqi sayəsində sülh yolu ilə onun üzvləri arasında yaranan münaqişələri həll etməyə qadirdir. Bu da əsasən qarşılıqlı səmərəli əməkdaşlığın və mübadilənin genişlənməsinə kömək edən beynəlxalq təşkilatların sayı və rolunun artması, həmçinin hüquqi tənzimlənmə metodlarıyla mümkündür. İdealist cərəyanın baş mövzularından biri – könüllü tərksilah və beynəlxalq siyasətin aləti olan **kollektiv təhlükəsizlik sisteminin yaradılmasıdır.** Yuxarıda qeyd edildiyi kimi, siyasi təcrübədə idealizm öz təcəssümünü ABŞ prezidenti V.Vilsonun Birinci Dünya Müharibəsindən sonra təkmilləşdirilmiş Millətlər Cəmiyyətinin yaradılması proqramında tapmışdır. Onun süqutu isə, dünyanın aparıcı dövlətlərinə ümumi sülhün qorunması və müharibələrin qarşısının alınması məqsədi ilə yaradılan BMT kimi nəhəng bir qurumun özülünün qoyulmasına əngəl olmadı. Müharibədən sonrakı illərin elmi ədəbiyyatında çox böyük nüfuza malik idealist istiqamətli əsərlərdən biri, dəfələrlə nəşr edilən və idealizm haqqında bəsitləşdirilmiş və karikatura şəklinə salınmış təsəvvürləri təkzib edən amerikalı müəlliflər Q.Klark və L.B.Sonun «Dünya hüququ vasitəsi ilə ümumi sülhə nail olma: iki alternativ plan» (1958) adlı kitabıdır. Burada müəlliflər 1960 – 1980-ci illərdə bütün dünya üçün mərhələli tərk-silah və kollektiv təhlükəsizlik sisteminin yaradılması planını təklif edirlər (sonralar bu müddət 1985-ci ilə qədər uzadılmışdır). Müharibələri aradan qaldırmaq və

xalqlar arasında «əbədi» sülhə nail olmağın əsas aləti kimi dəyişdirilmiş və təkmilləşdirilmiş nizamnamə əsasında fəaliyyət göstərən BMT nəzərdə tutulurdu. Müəlliflərin kitab üzərində müştərək fəaliyyəti 1949-cu ildə başladı və 1953-cü ildə işıq üzü görən «Tərk-silah və Nizamnaməyə yenidən baxılma vasitəsilə sülh» adlı sənədlə ilkin olaraq nəticələndi. 1958-ci ildə isə «Dünya hüququ vasitəsilə ümumi sülhə nail olma» kitabının ilk nəşri çapdan çıxdı. Müəlliflərin fikrincə, bu kitabın adı onu göstərir ki, tədricən möhkəmlənən inama əsasən ümumi və tam tərk-silah hər şeyi əhatə edən qərar deyil, ancaq dünya nizamının bir çox qarşılıqlı-əlaqəli və eyni dərəcəli zəruri elementlərindən biridir. Müəlliflərin başlıca mühakiməsinə görə, əgər dünya, həqiqətən də, sülh istəyirsə, onda məhdud sahə çərçivəsində müharibələrin qarşısının alınması qanununa əməl etməli və universal tərk-silaha nail ola biləcək tam adekvat ümumdünya institutlarının yaradılması zərurəti ilə razılaşmalıdır. Kitabın müqəddiməsində Klark yazır: «Doğrudur ki, müəlliflər bütöv sülh planını cızmağa cəhd göstəriblər. Bu planı həyata keçirməklə, həqiqətən də, əsl sülhü (ümumdünya tərk-silah vasitəsilə) qorumaq mümkün olacaq. Müxtəlif ölkələrin yüzlərlə yüksəkixtisaslı mütəxəssisləri tərəfindən hazırlanan tədqiqatların öyrənilməsi və tənqidi təhlilindən sonra meydana gələn öz işimizə inandığımız da doğrudur. Sözsüz ki, bütün mürəkkəb problemlərə müfəssəl cavablarımızın olduğunu iddia etmək özünə qürrələnmə deməkdir... Amma yenə də bizim təkliflər həqiqi sülhün ümumi tərk-silah və zəruri qüvvəyə malik dünya hüququ vasitəsilə hazırda artıq real perspektivə çevrilməsinə qəti inamla irəli sürülmüşdür".

Neomarksistlər (Yohan Qaltunq, İmmanuil Vallerstayn, Robert Koks, Samir Amin, Mişel Roqalski və b.) beynəlxalq münasibətləri müxtəlif iqtisadiyyat, dövlət, cəmiyyət, ideologiya və mədəniyyətlərin qlobal sistemi şəklində təsvir

edirlər. Neomarksizmə xas olan «dünya-sistem»[1] və «dünya-iqtisadiyyat» kimi əsas anlayışlardan irəli gələrək,[2] onlar hesab edirlər ki, müasir beynəlxalq inkişafın aparıcı xüsusiyyətləri – istehsalatın ümumdünya səviyyəsində təşkil edilməsi, dünya təsərrüfatında transmilli inhisarların mahiyyətinin artması, əmək bazarının seqmentasiyası ilə bərabər, kapital və bazarların beynəlmiləlləşməsidir. Eyni zamanda bu xüsusiyyətlərə maliyyə sahəsinə dövlət müdaxiləsi imkanlarının azalması və bununla əlaqədar olaraq, yüksək faiz dərəcələri, mütəhərrik mübadilə kursları, azad spekulyativ transferlər, hər yandakı özəlləşdirmə ilə özünü büruzə verən "qlobal maliyyələşmə tendensiyası" (S. Aminin termini) aiddir.

Qeyd edilən proseslərin idarəçiliyini dünya kapitalizminin lehinə əsaslandırmaq iqtidarında olan hakim ideologiya – dövlətin rolunu, ilk növbədə, qlobal bazar qüvvələrinə yardım mövqeyindən qiymətləndirən və kasıb regionların xeyrinə var-dövlətin paylaşdırılması haqqında hər hansı müzakirələri «proteksionist müdaxilə» kimi məzəmmət edən **radikal neoliberalizmdir** (R.Koksun terminologiyasında **«hiperliberalizm»).** Baxmayaraq ki, müasir dünyada zidd proseslər mövcuddur, yəni inkişaf yollarının axtarışları ilə müşayiət olunan iqtisadi, siyasi, ictimai, sosiomədəni və digər təşkilatlar və strukturların diversifikasiyası, radikal-liberal ideologiya qloballaşmanın alternativsizliyini, dünya səhnəsində müşahidə edilən rəhmsiz rəqabətin, xudbinliyin, qarşılıqlı əlaqələr və mübadilənin dereqlamentasiyasının əsasında pozulmaz iqtisadi qanunların dayandığını insanlara təlqin edir.

---

[1] Dünya-sistem təhlili haqqında daha ətraflı bax: Мир-системный анализ: интерпретация периода (1945-1991) М., 1997.

[2] «Dünya-sistem» nəzəriyyəsinin banisi, bu nəzəriyyəni 30 ildən artıq təkmilləşdirən İ.Vallerstayndır. Bax: Wallerstein I. The Modern World Sistem. N.Y. 1974/

Müasir kapitalizmin dünya ekspansiya məntiqini faiz dərəcələrinin artırılmasına, sosial xərclərin azaldılmasına, tam məşğulluq siyasətinin demontajına, dövlət xəzinə sistemlərinin ən varlıların xeyrinə dəyişdirilməsinə görə tənqid atəşinə tutaraq, neomarksistlər iddia edir ki, bu məntiqin başlıca nəticələrindən biri – dünya sisteminin üzvləri arasında artan bərabərsizlik – həmin sistemin «periferiya» aktorlarını (zəif inkişaf etmiş dövlətləri və regionları) sonuncularla «mərkəz» aktorlar arasındakı uyğunsuzluğa son qoymaq imkanlarından məhrum edir. Öz növbəsində, mərkəzi aktorlar mühitində ABŞ-ın xeyrinə qeyri-mütənasib qarşılıqlı asılılığın kristallaşması və təsirin yenidən bölüşdürülməsi kimi mürəkkəb proseslər baş verməkdədir. Bütün bunlar dünya üçün həm iqtisadi, həm də siyasi cəhətdən son dərəcə təhlükəli vəziyyət yaradır. Həmin vəziyyətdən çıxış yalnız göstərilən məntiqdən uzaqlaşma, yeni-yeni ölkələrin öz inkişafını bu məntiqə tabe etməkdən qaçma, hazırda müşahidə edilən regionlaşmaya alternativ olan yeni regionlaşma siyasəti yollarında tapıla bilər. Belə fikirlərin əksəriyyətini məşhur norveç alimi, neomarksist Yohan Qaltunq bölüşür. Qaltunq Dünya Gələcəyinin Tədqiqatları Federasiyasının prezidenti, Sülh Problemləri Beynəlxalq İnstitutunun yaradıcısı və ilk direktoru (SİPRİ), «Dünyanın tədqiqi» jurnalının təsisçilərindən biri, Üçüncü Dünya Konqresinin fəxri üzvü olmuşdur. Beynəlxalq münasibətlərin qanunauyğunluqlarını tədqiq edərək, o, həmçinin qlobal səviyyədə özünü büruzə verən iqtisadi və sosial bərabərsizlik ideyalarına əsaslanır. «Dövlət, silahlı qüvvələr və müharibə», «Həqiqi dünyalar. Transmilli perspektiv» adlı məşhur əsərlərində alim dünya təsərrüfatının «mərkəzləri» tərəfindən onun «periferiyaları»nın istismarı ilə nəticələnən qlobal dünya kapitalist sistemi, qeyri-mütənasib qarşılıqlı asılılıq problemlərini ətraflı təhlil edir.

XX əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərində beynəlxalq münasibətlər sahəsində dövlət-mərkəzçilik

yanaşma tərəfdarları və onun tənqidçiləri arasındakı üçüncü «böyük mübahisənin» nəticəsi kimi qələmə verilən yeni **transmillilik cərəyanı** meydana gəlir. Əgər əvvəllər siyasi realizm, metodoloji yanaşmalarının inandırıcı olmamasına və ən yeni konkret elmi metodlardan zəif istifadəsinə (modernistlər), beynəlxalq səhnədə qarşılıqlı təsirlərin tənzimlənməsində normaların rolunun yayılmasına və möhkəmlənməsinə az diqqət yetirdiyinə (normativistlər), beynəlxalq birliyin fəaliyyətində anarxiyanın əhəmiyyətinin şişirdilməsinə («Britaniya məktəbinin» tərəfdarları) görə tənqid edilirdisə, yuxarıda göstərilən dövrdə siyasi realizmin əsas müddəalarından biri – dövlətin beynəlxalq aktor kimi rolunun şərhi ilə bağlı müddəası tənqid olunur. Transmilli yanaşma mövqeyindən siyasi realizmin ilk tənqidçiləri kimi kiçik Cozef Nay və Robert Kohen çıxış etdilər. 1970-ci ildə onların birgə redaksiyası altında «Transmilli münasibətlər və dünya siyasəti»[1] adlı kitabın ilk nəşri işıq üzü gördü.

Bu kitab dərhal elmi ictimaiyyətin diqqətini cəlb etdi. Onun məzmunu dünya siyasətində beynəlxalq münasibətlərin dövlət-mərkəzçilik formulunun böhranı və dövlətin rolunun zəifləməsi ideyasını təsdiqləyir. Müəlliflər dünya siyasətini – beynəlxalq qarşılıqlı təsirlərin müxtəlif iştirakçılarını, o cümlədən çoxmilli korporasiya, transmilli ictimai hərəkat və beynəlxalq təşkilatları, maliyyə qruplarını və digər fərdi aktorları birləşdirən, şaxələnmiş əlaqələr «tor»una bənzədirlər. Həmin aktorlar dövləti beynəlxalq sistemin mərkəzindən periferiyasına sıxışdırır, onu beynəlxalq səhnədə geniş yayılan yeni qaydalı oyunun sıravi oyunçularından birinə çevirir. Əsas diqqət dövlətin ərazi sərhədlərindən asılı olmayaraq baş verən əlaqələrin, koalisiyaların və qarşılıqlı təsirlərin təhlilinə yönəldilir.

[1] Keohane R.O., Nye J.S.J. Transnational Relations and World Politics. Cambrigde, Harvard University Press, 1972.

Bu kitabın beynəlxalq siyasi elmin inkişafında əhəmiyyəti olduqca böyükdür. Əvvəla, onun nəşri transmillilik tərəfdarlarının (ABŞ-da R.Kuper, Fransada M.Merl) mövqelərinin möhkəmləndirməsi, həmçinin beynəlxalq münasibətlərin tədqiqində sosioloji istiqamətin, o cümlədən konstruktivist yanaşmanın (F.Kratoçvil, C.Raqqi, A.Vends və b.) inkişafına güclü təsir göstərmişdir. İkincisi, transmillilik elmi ictimaiyyətin diqqətini özünə daha da çox cəlb edən qloballaşma fenomeninin öyrənilməsində müəyyən növ müjdəçi olmuşdur. C.Nay və R.Kohen qloballaşmanı informasiyanın, pullar, əşyalar, insanlar və digər maddi və qeyri-maddi obyektlərin dövlət sərhədlərini aşıb-keçən hərəkəti kimi başa düşür və qlobal qarşılıqlı təsirin aşağıdakı dörd əsas növünü təhlil edirlər:

1) İnanclar, ideya və doktrinaların ötürülməsi daxil edilməklə, informasiyanın bildirişi və hərəkəti;

2) Silah, şəxsi mülkiyyət və əmtəə daxil edilməklə maddi obyektlərin hərəkəti və daşınması;

3) Maliyyə, pul və kredit hərəkətı;

4) Səyahətlər, insanların hərəkətı.

Bununla belə, onlar vurğulayır ki, beynəlxalq fəaliyyətin əksər növləri eyni zamanda qarşılıqlı əlaqənin bütün dörd tipini özündə cəmləşdirir.

Üçüncüsü, transmilli qarşılıqlı təsirlər, qüvvələrin mahiyyəti və dünya siyasətində bununla əlaqədar dövlətlərin rolunun dəyişməsi haqqında danışarkən, Kohen və Nay bu mahiyyəti mütləqləşdirmir. Onlar həmin məsələnin «nəzarətin itirilməsi» uydurma terminlərində müzakirəyə qoyulmasının həm nəzəri, həm də siyasi cəhətdən perspektivsizliyini göstərirlər. Müəlliflər kitabda transmilli qarşılıqlı əlaqənin və transmilli təşkilatların cəmiyyətlərin qarşılıqlı həssaslığına və nəticə etibarilə dövlətlərarası siyasətə təsirinin beş variantını açıqlayırlar. Onlardan dördü transmilli təşkilatların müdaxiləsinin olmaması şəraitində transmilli qarşılıqlı

əlaqədir. Yalnız beşinci halda dövlətlərin siyasətinə qarşı durmağa və hətta ona qəsd etməyə qadir olan, muxtar və ya guya muxtar aktorlar kimi çıxış edən transmilli təşkilatların həqiqi siyasəti haqqında söhbət açılır. Bu variantlar aşağıdakılardır: 1) münasibətlərin dəyişməsi; 2) beynəlxalq plüralizm; 3) dövlətlərin asılılığı və qarşılıqlı-asılılığı vasitəsi ilə çəkindirmə mexanizmlərinin inkişafı; 4) bəzi dövlətlərin hökumətlərinin digər dövlətlərin hökumətlərinə təsir göstərməsi imkanlarının artması; 5) dövlətlərin siyasətinə qarşı durmağa və hətta qəsd etməyə qadir olan, həqiqi xarici siyasətə malik muxtar aktorların peyda olması"[1]. Bununla belə, Kohen və Nay bu məsələnin gələcək tədqiqinin zərurətini qeyd etməklə kifayətlənməyərək, belə tədqiqatın yollarını da göstərirlər.

Onlar xüsusilə vurğulayırlar ki, söhbət dövlətə etinasızlıq göstərməkdən deyil, baş verən proseslər üzərində dövlətlər arasındakı nəzarətin yenidən paylaşdırılmasında transmilli münasibətlərin rolunun öyrənilməsindən gedir. Bir tərəfdən, beynəlxalq inteqrasiyanın milli iqtisadi siyasətə qəsd etməsini məhdudlaşdırmaq zərurətinə görə qloballaşma hökumətlərdən siyasi iradə tələb edir. Digər tərəfdən, onlar üçün qloballaşma proseslərindən təcrid olunmaq cəhdi də təhlükəlidir, çünki transmilli şəbəkəyə cəlb edilmiş hökumətlər, bu şəbəkənin periferiyasında qalanlardan, təbii ki, daha çox udacaqlar. Həmin mövzu "Hakimiyyət və qarşılıqlı asılılıq: keçid dövründə dünya siyasəti" adlı kitabda təfərrüatıyla açıqlanır. Burada Kohen və Nay göstərirlər ki, beynəlxalq münasibətlərin iştirakçılarının strukturunda bu gün baş verən dəyişiklərə baxmayaraq, onların əsas aktorları qismində yenə də dövlətlər çıxış edir və onlar gözdən keçirilə bilən

---

[1] Кохэн Р.О., Най Ж. С. – младший. Транснациональные отношения и мировая политика. Хрестоматия. Теория международных отношений. Науч. ред. проф. П. А. Цыганков. М.: Гардарики, 2002. С. 157.

perspektivdə əsas rol oynayacaq. Müəlliflərin qənaətinə görə, qarşılıqlı asılılıq dünya siyasətinə və dövlətlərin davranışına təsir göstərir, lakin hökumət fəaliyyəti də qarşılıqlı asılılıq modellərinə nüfuz edir.

Dördüncüsü, Nay və Kohen transmilli münasibətlərdə ABŞ-ın roluna yeni formada baxmağa çalışırlar. Onlar gələcəkdə ABŞ-ın nüfuzunun perspektivləri haqqında düşünür və bu mövzunu özlərinin başqa əsərlərində də davam etdirirlər. 1984-cü ildə Kohen "Hegemonluqdan sonra" adlı kitabında beynəlxalq münasibətlərdə ABŞ-ın rolunun artması tezisini tənqid atəşinə tutur. Onun fikrincə, bu hegemonluq hələ də qalmaqdadır, amma süqut qaçılmazdır. Beynəlxalq münasibətlərdə hegemon (lider) dövlətin əhəmiyyəti çox mühüm idi (uzun illər həmin rolu ABŞ ifa edirdi). Lakin indi hegemon yoxa çıxır, BM-də hakimiyyətin yenidən bölüşdürülməsi baş verir. Buna görə də əvvəlki dövrə nisbətən yeni şəraitdə əhəmiyyəti daha da artan rejimlər digər hadisə iştirakçıları tərəfindən hücuma məruz qalırlar.

Qeyd etmək lazımdır ki, daxili və xarici siyasətin nisbəti, qarşılıqlı əlaqəsi və qarşılıqlı təsirinin nəzəri dərk edilməsi beynəlxalq siyasət elmində həmişə mərkəzi yerlərdən birini tutub.

1960-cı illərdə mövcud nöqteyi-nəzərlərə, birinci növbədə, siyasi realizm və liberalizmə zidd olan mövqeyi ilk nümayiş etdirənlərdən biri, əvvəllər Cənubi Kaliforniya Universiteti, sonralar isə Corc Vaşinqton Universitetinin professoru Ceyms N.Rozenau olmuşdur. Bu maraqlı rəyə əsasən, son iki-üç onillik ərzində dünya siyasətində baş vermiş və xalqlarla cəmiyyətlərin qarşılıqlı asılılığına başlıca səbəb olmuş struktur dəyişikliklər BM-də köklü transformasiyalar törətmişdir. Sonuncuların əsas aparıcı qüvvəsi dövlətlər deyil, dövlətin minimal vasitəçiliyi ilə və hətta onun iradəsinə zidd olaraq, bir-birləri ilə münasibətlərə girən konkret simalardır. Bir qədər sonra C.Rozenau bu

nəticəni BM-in əsas subyektləri haqqındakı fikirlərini ifadə edən metaforik formaya salır. O deyir ki, BM sferasında baş verən dəyişikliklər nəticədə rəmzi personajları turist və terrorist olan beynəlxalq kontinuumun yaranmasına gətirib çıxarır[1]. Rozenaunun müddəası R.Aronun siyasi realizm çərçivəsində BM-in məzmununa dair eyni dərəcədə metaforik formada ifadə etdiyi diplomat və əsgər timsalından köklü şəkildə fərqlənir.[2]

Daha sonra Rozenau BM-in yeni aktorları haqqındakı fikirlərini dərinləşdirir. 1990-cı ildə siyasi elmdə böyük rezonans doğurmuş və BM-in sosiologiyasının inkişafına ciddi stimullaşdırıcı təsir göstərmiş tezislərində Rozenau göstərir ki, yeni aktorlar – artıq yalnız fərdlər deyil, həm də dünya sistemi çərçivəsində dəyişikliklərə səbəb olan sonsuz çeşiddə qeyri-dövlət subyektləridir.[3] Bununla yanaşı, transmilliliyin bəzi nümayəndələrindən fərqli olaraq, o, bu yeni subyektlərin dövləti beynəlxalq səhnədən sıxışdırdığını düşünməyə meyilli deyil. Rozenaunun sözlərinə görə, bizim gözlərimiz önündə "dünyanın ikiyə bölünməsi" baş verir: söhbət eyni zamanda mövcud olan iki sahədən, bir tərəfdən klassik diplomatiya və strategiya "qanunları"nın qüvvədə olduğu dövlətlərarası qarşılıqlı əlaqə; digər tərəfdən isə, "suverenlikdən xaric aktorların", yəni qeyri-dövlət iştirakçılarının toqquşduğu sahələrdən gedir. Dünya siyasətinin "ikiqatlılığı" bununla izah olunur: dövlətlərarası münasibətlər və qeyri-dövlət aktorlarının qarşılıqlı təsiri iki muxtar, nisbətən müstəqil, bir-birinə paralel olan "postbeynəlxalq" siyasət dünyasını əmələ gətirir. Beləliklə, dövlət və hökumətlərarası təşkilatların klassik dünyasına,

---

[1] Rosenau J.Le toureste et le terroriste ou les deux extremes du continuum international // Etudes internationales. 1979. Juin

[2] Aron R. Paix et guerre entre les Nations. P., 1962.

[3] Bax: Rosenau C.N. Turbulance in World Politics. A Theory of Change and Continuity. Princeton, 1990.

təkində hökumətlərarası və qeyri-hökumət təşkilatları, sosial qruplar, dövlət bürokratiyası və transmilli aktorların qarşılıqlı təsir göstərdiyi, Rozenaunun polisentrik (çoxmərkəzli) dünya adlandırdığı dünya əlavə olundu. Rozenau dünya siyasətində çevriliş yaratdığı bu tezislərdə ön plana BM-in öyrənilməsinin mövcud ənənələrinə əks olaraq, fərdləri çıxarır.

BM-in xarakterinin müəyyən edilməsində dövlət inhisarının eroziyasının nəticələrindən biri, Rozenaunun fikrincə, daxili və xarici siyasət arasındakı sərhədlərin silinməsidir. Dövlətdən qismən asılı olmayan BM-in qeyri-dövlət iştirakçıları müxtəlif struktur və aktorlar arasındakı əlaqələrin prinsipial olaraq yeni üsullarla həyata keçirildiyi qlobal sistemin konturlarının formalaşmasını şərtləndirir. BM-in ikinci, "polisentrik" dünyası xaotikliyi və gözlənilməzliyi ilə xarakterizə olunur. "Postbeynəlxalq" münasibətlərin baza strukturları, **etatist** və **polisentrik** dünyalar qarşılıqlı olaraq bir-birinə təsir edir və heç cür əsl barışığa gələ bilmirlər.

Rozenaunun müasir dünya inkişafının qloballaşması haqqındakı ideyaları da çox böyük maraq doğurur.

## §3. Beynəlxalq münasibətlər nəzəriyyəsinin təşəkkülündə üç böyük mübahisə və onun gələcək inkişaf perspektivləri

Beynəlxalq münasibətlər nəzəriyyəsinin inkişafında üç "böyük mübahisə" məlumdur. Morgentaunun yuxarıda adıçəkilən kitabının nəşri göstərdi ki, milli maraq, qüvvə və qüvvələr balansı, hüquqi institutlar və əxlaqi davranış normaları kimi anlayışlar ətrafında təmərküzləşən realizm və siyasi idealizm məktəbləri arasındakı birinci mübahisə İkinci Dünya Müharibəsindən sonra qısa vaxt ərzində ən yüksək zirvəsinə çatdı. Morgentaunun kitabı siyasi realizm nəzəriyyəsinin mövqelərini uzun müddətə möhkəmləndirdi. O vaxt hesab edilirdi ki, ictimai praktikanın belə vacib sahəsində

nəzəri fikirlərin bütövlüyünü və qeyri-ziddiyyətliliyini gerçəkliyi təhlil edən səmərəli konkret metodika və texnika ilə birləşdirən fənn, nəhayət, yaradıldı. Həmin dövrdə elmi dairələrdə hakim olan atmosferi mötədil realist adlandırılan məşhur Amerika tədqiqatçısı Stenli Xoffmann dəqiq təsvir etmişdir. BM-in bir çox fənlər tərəfindən – coğrafiyadan iqtisadiyyata, tarixdən demoqrafiyaya, hüquqdan sosiologiyaya və "daxili siyasi elm"dən kibernetikaya qədər tədqiq olunduğunu qeyd edərək, o yazırdı: "Hər fənn müxtəlif sual tiplərinə cavab verir və bu cavablar eynisəpkili deyil: onlar həm nəzərdən keçirdikləri obyektə (insanlar, dəyərlər, məkan, insanlararası münasibətlər), həm də təqdim etdikləri predmetə (sadə təsvir, izah, fəlsəfə) görə fərqlənirlər. Sintetik təsviri tapmaq üçün vahid ölçü meyarına, başqa sözlə, bütün bu fənlərin pullar kimi konvertasiya edilə biləcəkləri, bir növ, etalona malik olmaq lazımdır. BM nəzəriyyəsi məhz belə bir etalondur, yəni həm bilavasitə siyasi elm, həm də digər müvafiq elmlər tərəfindən öyrənilən fenomenləri nəzərə alan müddəalar məcmusudur. Hətta bu fənnin xüsusi uğurla inkişaf etdiyi Birləşmiş Ştatlarda bütün müasir siyasi elm əvvəlki hiperfaktualizmə və həmçinin fiziki elmlər, sosiologiya, kommunikasiya haqqında elmlərə cavab olaraq, nəzəriyönümlüdür [1].

Lakin artıq 1966-cı ildə başlanmış "yeni böyük mübahisə"nin əsasını məhz BM haqqında elmin fəlsəfi yanaşma, müşahidə, tədqiqatçının intuisiyası, tarixi müqayisəyə əsaslanan ənənəvi metodlara sadiqliyi və nəzəriyönümlüyü təşkil etdi. Beynəlxalq münasibətlər üzrə tədqiqatçıların yeni nəsil nümayəndələri özlərinin modernisttipli çalışmalarında məhz "klassik" cərəyan nümayəndələrinin qəbul etmədikləri sistemli modelləşdirməni

---

[1] Hoffman S.H. International Relations. The Long Road to Theory.//World Politics. 1959.Vol. XI. P. 348.

(Morton Kaplan), kompyuter ekstrapolyasiyasını (Con fon Nyumen), oyunlar (Oskar Morgenştern) və sosial kommunikasiyalar nəzəriyyələrini (Karl Doyç), siyasi koalisiyaların (Uilyam Riker) və xarici siyasətin (Corc A.Modelski) formallaşmış təhlilini, silahlanma və ölümcül mübarizə yarışının riyazi nəzəriyyəsi (Levis F.Riçardson), münaqişələr (Kennet Boulding və Anatol Kaplan) və ticarət nəzəriyyələrini (Tomas Şellinq) və s. ön plana çəkdilər.

"İkinci böyük mübahisə"nin başlanğıcı 1966-cı ilin yanvarında London İqtisadiyyat və Siyasət Məktəbində keçirilən elmi konfransda Hedli Bull tərəfindən elə həmin il "World Politics" (Dünya siyasəti) jurnalının aprel nömrəsində çap olunan "Beynəlxalq münasibətlər nəzəriyyəsi: klassik yanaşmanın nümunəsi" məqaləsi ilə qoyulmuş və elmi ictimaiyyətdə böyük rezonansa səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, H.Bullun məqaləsində klassik və elmi adlandırılan iki cərəyanın nümayəndələri arasındakı mübahisə, sözügedən əsərin nəşrindən əvvəl də var idi. Lakin Bullun "klassik" yanaşmanın tərəfdarlarının arqumentlərini ardıcıl, aydın və dəqiq ifadə edilmiş formada ümumiləşdirməsi bu müzakirəni gələcəkdə BM elminin inkişafında mühüm mərhələ kimi qiymətləndirməyə imkan verdi.

Həmin məşhur məqalədə H.Bull yazır: "BM nəzəriyyəsinə dair iki yanaşma eyni dərəcədə bizim diqqətimizi cəlb edir. Onlardan birincisini mən klassik adlandırardım. Bununla mən beynəlxalq qarşılıqlı təsirlərə müraciət edən BM klassiklərinin, Hobbs, Qrotsi, Kant və keçmişin başqa böyük mütəfəkkirlərinin əsərlərinin öyrənilməsi və tənqidini nəzərdə tutmuram. Əlbəttə ki, klassiklərin əsərlərinin öyrənilməsi klassik yanaşmanın nümunəsidir və müstəsna dərəcədə məhsuldar və vacib metodu verir. Lakin mənim nəzərdə tutduğum daha genişdir: bu elə bir nəzəri yanaşmadır ki, o fəlsəfə, tarix və hüquqdan irəli gəlir və ilk növbədə, sağlam düşüncənin istifadə edilməsinin düzgün olması barədə,

həmçinin verifikasiya və isbat meyarlarının dar çərçivələrinə qapanmaqla, BM haqqında mühüm əhəmiyyətli şeylərin söylənilməsinin qeyri-mümkünlüyü barədə olan inama əsaslanır. Beləliklə, bu predmet haqqında ümumi müddəalar elmi mənada qeyri-təkmil proses olan qavrama, yaxud intuisiyadan irəli gəlməli və mənbəyinin etibarsızlığına görə hipotetik və natamam kimi qiymətləndirilməlidir.

Yaxın zamanlara qədər BM-in elmi-nəzəri tədqiq edilməsinin bütün cəhdləri praktiki olaraq mənim indicə haqqında söz açdığım yanaşmaya əsaslanırdı. Biz onu Alfred Zimmer, Edvard Hallet, Hans Morgentau, Corc Şvarsenberq və Raymon Aronun çalışmalarında əks olunan XX əsrin bütöv beynəlxalq nəzəriyyəsinin yaradılması təşəbbüsündə görürük. Şübhə doğurmur ki, onların ayrı-ayrı fikir və gəldikləri elmi nəticələri ümumiləşdirməyə çalışdığı sələflərinin metodları da məhz belə idi: bu siyasi filosoflar Makiavelli və Berqin, hüquqşünas-beynəlxalqçılar Vattel və Oppenheymin metodlarıdır. Həmin yanaşmanı uzun müddət meyar olmasına görə klassik adlandıra bilərik.

İkinci yanaşmanı mən elmi adlandırardım. İkinci yanaşmaya "elmi" terminini işlədərkən mən ona üstünlük verənlərin daha çox nailiyyətləri deyil, meyillərini nəzərdə tuturam. Onlar beynəlxalq münasibətlər nəzəriyyəsini riyazi və məntiqi dəlillər və ya verifikasiyanın ciddi empirik prosedurları əsasında qurmağa cəhd göstərirlər. Onlardan bəziləri klassik BM nəzəriyyəsinin heç bir dəyəri olmadığını fikirləşərək, özlərini tamamilə yeni elmin baniləri zənn edirlər. İkincilər klassik yanaşma nəticələrinin hər hansı bir dəyərə malik olduğunu hesab edir və ola bilsin ki, hətta ona müəyyən rəğbət bəsləyirlər, lakin bu 1965-ci il modelli avtomobil sahibinin arxaik avtomobilə bəslədiyi simpatiyaya bənzəyir. Həm birincilər, həm də ikincilər ümid edir və inanır ki, onların xüsusi istiqamətləri nəzəriyyədə əvvəlkini

tamamilə əvəz edəcək.[1] Daha sonra H. Bull elmi yanaşmaya qarşı əsaslandırılmış arqumentləri gətirir.

Bull ingilis BM məktəbinə mənsub idi. Adıçəkilən siyasi məktəbin mərkəzində üzv dövlətlər üçün vahid davranış normaları mövcud olan və nisbətən bütöv beynəlxalq "cəmiyyət" kimi başa düşülən beynəlxalq sistemin təhlili dururdu. "Anarxik cəmiyyət: dünya siyasətində nizamın öyrənilməsi" [2] adlı ən məşhur əsərində o, bir tərəfdən siyasi realizmə, digər tərəfdən isə 1990-cı illərdə geniş yayılmış konstruktiv istiqamətə yaxın mövqe nümayiş etdirir.

Eyni zamanda əsərlərindən indinin özündə belə iqtibas gətirilən Bullun elmi nüfuzu əsasən məhz onun tərəfindən təklif olunmuş nəzəriyyənin inkişafının dövrləşdirilməsiylə bağlıdır. O, 1972-ci ildə yazırdı: "Nəzəri fəaliyyətdə üç böyük istiqamətin mövcudluğunu qeyd etmək lazımdır. Bunlar 1920 – 1930-cu illərin əvvəllərində üstünlük təşkil edən "idealist" və ya mütərəqqi doktrinalar, 1930 – 1940-cı illərin sonlarında onlara cavab olaraq inkişaf edən "realist" və ya mühafizəkar nəzəriyyələr və nəhayət, 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərinə aid sosial-elmi nəzəriyyələrdir".

"İkinci böyük mübahisə" ilk növbədə metodlar, səmərəlilik, BM-in nəzəri tədqiqatlarının praktiki faydalılığı haqqında gedirdi. Onun prinsipial əhəmiyyəti bununla izah olunur ki, o, hər bir sosial fənnin keçdiyi mərhələni – cəmiyyətdə və elmdə öz yerini yenidən dərk etməyə əsaslanan yetkinlik, yenilənməyə cəhd göstərmək, daha çox dəqiqliyə nail olmaq mərhələsini – BM nəzəriyyəsi üçün əks etdirmişdir. İkincisi, həmin müzakirə bu sahənin yalnız tətbiqi metodika və analitik prosedurlarla zənginləşməsinə səbəb olmamış, həmçinin burada empirik tədqiqatların

---

[1] Теория международных отношений. Хрестоматия. С. 187-188.

[2] Bull H. The anarchical society: A study of order in world politics. New York: Columbia University Press, 1977.

mümkünlüyünü və əhəmiyyətini göstərmişdir. Bundan əlavə, o, nəticə etibarilə, bəzi tədqiqatçıların əsl elmin tətbiqi xarakter aldığı zaman meydana çıxması, digərlərinin isə tətbiqi elmlərin ümumelmi əhəmiyyətli iddialarını qəbul etməməsi ilə bağlı fundamental və tətbiqi biliklərin nisbətinin başa düşülməsində ifrat əksliklərin tədricən aradan qaldırılmasına yol açdı. BM haqqında elm tamamilə və yalnız tətbiqi ola bilməz, çünki onda o, özünürefleksiya və empirik tədqiqatları ümumiləşdirmə qabiliyyətini itirər.

Elmi istiqamətin konseptual çərçivələri çox genişdir və buna görə yalnız şərti qeyd oluna bilərlər. Onlar araşdırmaların müxtəlif sahələrini, o cümlədən: BM-in elementləri bir-birinə qarşılıqlı təsir göstərən aktorlar, ilk növbədə, dövlətlər olan sistem şəklində təqdim edilməsi (K.Holsti, D.Singer); bu əsasda beynəlxalq münasibətlərin müxtəlif vəziyyətlərinin modelləşdirilməsi (M.Kaplan, K.Rayt, R.Rouzkrans); qərar qəbul edən şəxslərin beynəlxalq situasiyanı psixoloji qavraması əsasında beynəlxalq aktorların davranışının təhlil edilməsi (G.Snayder, X.Bruk); xarici siyasət qərarının qəbul edilməsi (T.Allison); BM-də sosial kommunikasiya və inteqrasiya proseslərinin tədqiq edilməsi, münaqişə və əməkdaşlığın öyrənilməsi (O.Holsti, A.Rappoport, K.Bouldinq); beynəlxalq aktorların davranışının riskli situasiyalarda oyunlar nəzəriyyəsinin istifadə edilməsi ilə rasional davranış kimi formallaşdırılması (C. fon Neyman, O.Morgenştern, T.Şellinq); əsas məzmunu müxtəlif milli dövlətlər və beynəlxalq sistem arasında qarşılıqlı asılılığın öyrənilməsinə müncər edilən qarşılıqlı əlaqə nəzəriyyəsi (C.Rozenau); BM-i dəyişən əsas dinamik elementin hakimiyyət tarazlığı olduğunu iddia edən müvazinət nəzəriyyəsi (C.Liski) sahələrini və s. əhatə edir. Lakin modernizm məktəbi cərəyanlarının bu cür sistemləşdirilməsi cəhdləri təxmini şəkildə onun vəziyyətini əks etdirir. Bu onunla əlaqədardır ki, həmin məktəbin nümayəndələri çox

vaxt araşdırmaların həm predmetini, həm də metodlarını dəyişirlər. Onlar tərəfindən tətbiq olunan tədqiqat texnikası, metodikası və prosedurlarının müxtəlifliyi cərəyanların istənilən cür sistemləşdirilməsini natamam edir.

Modernizm və ya "elmi məktəb"i haqlı olaraq, bir sıra mənfi cəhətlərinə, o cümlədən "ciddi elmi" metodlarla "ənənəvi, intuitiv-məntiqi" metodların əsaslandırılmamış qarşılaşdırılmasına, nəzəri yanaşmanın hər cür praktiki əhəmiyyətinin inkar edilməsinə, son halda isə – nəzəriyyədən imtinaya görə tənqid atəşinə tuturlar.

Lakin yuxarıda göstərilənlər bu elmi cərəyanın bütün nümayəndələrinə aid deyil. Məsələn, Anatol Rappoport fundamental nəzəriyyənin rolunu inkar etmir və beynəlxalq münasibətlər haqqında elmə "əsl elmi xarakter" vermək məqsədi ilə onu tətbiqi elmə çevirmək iddiasında deyil. Eyni zamanda "Dünya haqqında tədqiqatlar tətbiqi ola bilərmi?" məqaləsində və bir sıra başqa əsərlərində o, BM haqqında elmin belə mühüm sahəsinə aid tətbiqi təhlilin əhəmiyyətini açıqlayır.

Müasir beynəlxalq siyasi elmin digər nümayəndəsi, Ç.Merriamın şagirdi Kuinsi Rayt (onu tam əsasla bu elmin klassikləri sırasına daxil etmək olar) modernizm məktəbinin çərçivələrinə sığmır. Geniş dünyagörüşü və parlaq istedadı K.Rayta eyni müvəffəqiyyətlə həmin elmin müxtəlif sahələrində tədqiqatlarla məşğul olmağa imkan vermişdi. Bununla yanaşı, o da, normativizm və siyasi realizmə kifayət qədər yaxın idi. Beləliklə, K. Rayt, H.Morgentau kimi, belə hesab edirdi ki, məsihilik, hər hansı bir "mütləq dəyərlər" və "ən düzgün ideologiya"nın yayılmasına cəhd, hökmən qanlı münaqişələrə gətirib çıxarır. Yenə də Morgentau kimi, o, arzuolunan vəziyyətlə, yəni dünya nizamının vahid qanunlarına görə tənzimlənməsi ilə suveren dövlətlərin, həmçinin dinlərin, mədəniyyət, iqtisadiyyat və siyasi sistemlərin real mövcudluğu faktının qarışdırılmasının

yolverilməzliyini vurğulayaraq, dövlətin öz milli maraqlarına sadiqliyini qeyd edirdi. Lakin siyasi realizm nəzəriyyəsi nümayəndələrindən fərqli olaraq, Rayt beynəlxalq inteqrasiya tendensiyasının obyektivliyi, beynəlxalq hüququn tənzimləyici rolunun artması və beynəlxalq təşkilatların səmərəliliyinə əmin idi və hətta vahid ümumdünya hökumətinin yaradılması imkanını istisna etmirdi. O, realist qüvvələr balansı konsepsiyasının məhz hərbi-siyasi ölçüsünü bölüşür, lakin bu konsepsiyanı siyasi realizm nəzəriyyəsi nümayəndələri ilə polemikada təhlil edirdi. Başqa sözlə desək, Rayt mövcud olan hər bir elmi məktəb və cərəyanda obyektivlik toxumlarını tapmağa çalışır, eyni zamanda onların heç birində həqiqəti inhisara almaq haqqını tanımayaraq, "paradiqmalar müharibəsi" tərəfdarına çevrilmirdi.

O, tədqiqat metod və metodikalarının rəqabətinə də tərəfdar deyildi. Fənlərarası yanaşma nümayəndəsi kimi Rayt riyaziyyat, psixologiya və kibernetikanın metodlarından həvəslə istifadə edirdi. Bunun nəticəsində modernist cərəyanın ardıcılları da onu "özlərinki" adlandıra bilərdilər. Konkret metodikaların tətbiqi sayəsində alimin gəldiyi nəticələr qeyri-tipik tədqiqatların çərçivəsindən kənara çıxmaq və dərin nəzəri xarakter daşımaqla, beynəlxalq siyasi elmin gələcək inkişafına güclü təkan verə bilmişdir.

Raytı maraqlandıran problematika və tədqiqat yanaşmalarının müxtəlifliyinə baxmayaraq, onun əsərləri BM-in nəzəriyyə və praktikası üçün çox önəmli olan iki başlıca məsələyə toxunur. Söhbət hökumətlərarası təşkilatlar və beynəlxalq hüquq, həmçinin dövlətlərarası münaqişə və müharibələrin tədqiqindən gedir.

Rayt qeyd edir ki, əksər hallarda beynəlxalq qarşılıqlı əlaqələrin əsas vasitələri kimi inandırma və sövdələşmə, danışıqlar və faydanın vəd edilməsi çıxış edir. İstənilən dövlətin xarici siyasətində üstünlük təşkil edən problemlər nadir hallarda onların hökumətlərini güc tətbiq etməyə və ya

onunla hədələməyə vadar edir. Bununla yanaşı, o, etiraf edir ki, zorakılıqdan istifadə beynəlxalq sistemin mühüm xarakteristikası olub və qalmaqda davam edəcəkdir. Onun tərəfindən 1942-ci ildə nəşr edilmiş, 1480 – 1941-ci illərdə baş verən 278 müharibənin təhlili əsasında meydana gəlmiş “A study of war” (Müharibənin öyrənilməsi) adlı klassik tədqiqatı göstərdi ki, dövlətin xarici siyasət vasitəsi kimi qüvvənin tətbiq edilməsi liberal düşüncəli filosof, tarixçi və siyasi xadimlər tərəfindən pislənməsinə baxmayaraq, öz dövlətlərinin xarici siyasətinə görə məsuliyyət daşıyan dövlət xadimlərində nadir hallarda şübhə doğururdu. Bəzi dövlətlər ənənəvi olaraq qoşulmamaq və ya təcrid olunmaq kursunu saxlayırdılar. Lakin onlardan heç biri söhbət özlərinin təhlükəsizliyindən gedəndə “neytral” olmayıb və neytralitet qüvvədən qeyd-şərtsiz imtinanı nəzərdə tutmur. Hər hansı bir hökumət təhlükəsizliyi və başqa milli maraqları təmin etmək məqsədi ilə öz səlahiyyətində olan bütün vasitələrdən, o cümlədən güc tətbiq etməkdən imtina edərsə, onun hakimiyyətdə uzun müddət qala bilməsi az ehtimal olunandır.

Raytın vurğuladığı və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində müstəsna dərəcədə aktual olan bir cəhəti qeyd etmək vacibdir. Beynəlxalq hüququn möhkəm əqidəli tərəfdarı kimi güc tətbiq edilməsini qınayaraq, o, dövlətlərarası münasibətlərdə qüvvələr balansının tənzimləyici rolunu təkzib etmir, həmçinin həyati və milli maraqlara təhdid olduqda dövlətin güc tətbiqetmə hüququnu tanıyır.

Beləliklə, yuxarıda göstərildiyi kimi, birinci mübahisəni ümumi qəbul edilmiş rəyə görə öz aralarında “idealizm” və “realizm” aparırdı. İkinci “böyük mübahisə” (iştirakçıların ifadəsi ilə desək) “elmi” və “ənənəvi” yanaşmanın tərəfdarları arasında gedirdi. Sonra “neorealistlər”in iştirak etdiyi üçüncü böyük mübahisə (1979-cu ildən) başladı, çünki bəlli oldu ki,

realizm ölməyib[1]. Qaranlıq məqam ondan ibarətdir ki, neorrealistlərə kim qarşı dururdu: "qlobalistlər", "plüralistlər", "strukturalistlər", "postpozitivistlər", yoxsa "BM-in tənqidi nəzəriyyəsi"nin tərəfdarları?

"Üçüncü diskussiya"nın əsas mübahisələri K. Uoltsun "Beynəlxalq siyasət nəzəriyyəsi"[2] kitabı ətrafında cərəyan etdi. Kitabda tənqidçilər əsasən realizmin "bürokratik siyasət", "qarşılıqlı asılılıq" və s. submilli və transmilli konsepsiyalara əks-hücumunu görürdülər. Əks-hücum olduqca intensiv idi. Bu gün həmin kitabı bütün istiqamətlərdə – məzmun, metod və dəyərlər nöqteyi-nəzərindən tənqid edən çoxlu əsərlər mövcuddur. Hətta siyasi nəzakətin sosial-elmi ekvivalentliyi Uoltsun bu kitabından uzaqlaşmaq olubdur. Neorealizmi tutarsız qnoseologiya və siyasi mühafizəkarlığa görə tənqid edirlər. İllər ərzində kütləvi tənqidə məruz qalmasına baxmayaraq, ortaq bir fikir mövcuddur ki, beynəlxalq sistem, milli dövlət, sülh və təhlükəsizlik məsələlərinə istiqamətlənmiş "ortodoksal realizm" politologiyada öz təsirini qoruyub saxlamaqdadır. Uolts klassik realizmin prinsiplərini sistemləşdirəndə, artıq həmin cərəyanın gerçəkliyə uyğun gəlməməsi ortaya çıxmağa başladı. Bu barədə BM-in məşhur tədqiqatçısı, nəzəriyyə ilə empirik analizin əlaqəsinin tərəfdarı R.O.Kohen yazır: "Dünya iqtisadiyyatının beynəlmiləlləşməsi, bir çox aktorlar (yalnız dövlətlər deyil) və külli miqdarda problemlərin həlli üçün qüvvə tətbiq edilməsinin qeyri-səmərəliliyi ilə xarakterizə olunan sənaye cəhətdən inkişaf etmiş demokratik ölkələri "kompleks qarşılıqlı asılılıq" vəziyyətinə gətirib çıxardı. Kompleks qarşılıqlı asılılıq müəyyən ideal tipdir,

---

[1] Bax: Banks M. (ed.) Conflict in world society. Bringhton: Wheatsheaf Books, 1984.

[2] Waltz K.N. Theory of international politics: Reading (Mass): Addison-Wesley, 1979.

lakin gerçəklik ona nə qədər yaxın olarsa, realizm nəzəriyyəsi ona bir o qədər az münasib olar. Kompleks qarşılıqlı asılılıq ilə üzə çıxan əvvəllər qəbul olunmuş adi normalardan uzaqlaşma özünü üç cür büruzə verir. Birincisi, dövlət dünya siyasətində ən vacib aktor tipi olmaqda davam edərək, artıq keçmişdəki kimi əsas rolu oynamır, çünki dövlətlərarası münasibətlərin yerinə transmilli münasibətlərin əhəmiyyəti artır. Kommunikasiyanın transmilli formaları – qısadalğalı yayımlar və rabitə peyklərindən tutmuş İnternetə kimi – dövlətin informasiya axını üzərindəki nəzarətini zəifllədir. Birbaşa xarici sərmayələr dünyanın bütün nöqtələrində transmilli korporasiyaların iştirakını bildirir. Suverenitetin dəqiq müəyyən edilmiş ərazidə əhali üzərindəki nəzarət kimi başa düşülməsi geniş əhatəli problemlərin – insan hüquqlarından tutmuş ətraf mühitin mühafizəsinə qədər – həlli üçün dövlətə xaricdən təsiretmə imkanı ilə şübhə altına qoyulur. İkincisi, realizmin təsəvvürlərinə zidd olaraq, liberal demokratiyalar xarici siyasətdə özlərini qeyri-demokratik hökumətlər kimi aparmırlar. Liberal demokratiyalar ya ümumiyyətlə öz aralarında müharibə etmir, ya da gözlənildiyindən daha az savaşırlar. Liberal demokratik ölkələrin məhkəmə instansiyaları hamı tərəfindən qəbul edilmiş qanunilik prinsipləri əsasında bir-birlərinin qərarlarını şərh edərək, dialoqa başlayırlar. Demokratik və qeyri-demokratik dövlətlərin davranışları arasında ciddi fərqlər mövcuddur. Bu fərqlər dövlətləri beynəlxalq sistemin strukturu ilə məhdudlaşdırılmış "vahid"lər kimi nəzərdən keçirən nəzəriyyə üçün çətinliklər yaradır.

Üçüncüsü, realizm tərəfindən elan edilmiş normalardan uzaqlaşma dünya siyasətində beynəlxalq institutların əsas roluna toxundu. İkinci Dünya Müharibəsindən sonra başlayan və indi də davam edən beynəlxalq institutların say və miqyasının kəskin şəkildə artmasını realizm vasitəsilə izah etmək mümkün olmadı. Hökumətlər belə təsisatların dəstək və

inkişafına külli miqdarda maddi və rəmzi resurslar ayırmağa davam edirlər. Avropa İttifaqı tarixdə ən yüksək səviyyədə institusionallaşdırılmış təşkilatdır. Bu artıq hər hansı bir dövlət deyil, icra, qanunverici və məhkəmə hakimiyyəti orqanları və birbaşa təsir qüvvəsinə və sayı artan qanunlara malik vahid bir törəmədir. Həmçinin bəzi inandırıcı rəylərə görə tarixdə ən güclü və ən möhkəm alyans və təhlükəsizlik təsisatı kimi NATO-nu, Tariflər və Ticarət Agentliyinin yerinə gəlmiş Ümumdünya Ticarət Təşkilatını (ÜTT), Beynəlxalq Valyuta Fondunu (BVF), Dünya Bankını (DB) və başqa güclü bürokratik strukturları göstərmək olar.

Realizm və reallığın uyğunsuzluğu diqqətə alınsa, təəccüblü deyil ki, realizm son zamanlar ciddi tənqidə məruz qalır. Realizmdə daxili siyasət və beynəlxalq institutların rolu yetərincə vurğulanmır, dövlətə beynəlxalq sistemin aktoru kimi son dərəcə böyük rol ayrılır, dəyişikliklərin qənaətbəxş izahı verilmirdi. BM-in müasir problemləri haqqında mülahizə yürüdərkən, R.O.Kohen yazır: "Elmi bilik sahəsi kimi BM-in problem əhatəsi nəhəngdir. Burada varisliyi, dəyişikliyi, dövlətlərin qarşılıqlı fəaliyyətini, onların qeyri-dövlət aktorlarla münasibətlərini, daxili siyasətdə hansı prinsiplərə əməl etmələrini və bir çox digər məsələləri dərk etmək lazımdır. Nailiyyət qazanmaq üçün yalnız elmi problemləri ehtiva etmək kifayət deyil, həmçinin fərziyyə və arqumentasiya, eyni zamanda xüsusi izahedici amilləri əhatə edən perspektiv tədqiqat proqramları üzərində ciddi çalışmaq tələb olunur. Bununla əlaqədar Kohen dörd perspektivli istiqaməti, o cümlədən **realist təhlilin genişləndirilməsi, liberal institusionalizm, daxili və beynəlxalq siyasətin qarşılıqlı təsiri və subyektivliyin təhlilini** təklif edir.

Bütövlükdə, Kohen hesab edir ki, BMN-nin məhsuldar inkişafı üçün aşağıdakılar nəzərə alınmalıdır:

Birincisi, tədqiqatçılar daxili siyasət və BM-in qarşılıqlı təsirlərini araşdırarkən realizm çərçivəsindən kənara

çıxmalıdırlar. İkincisi, elmi problemlərin həlli üçün mövcud nəzəriyyələri, onların elementlərini lazımı qaydada əlaqələndirmək və "paradiqmalar müharibəsi"nin başlanmasının qarşısını almaq vacibdir. Üçüncüsü, nəzəriyyə və empirik təhlil təcrid edilmiş sahələr olmadığına və keçilməz divar ilə ayrılmadığına görə mütərəqqi tədqiqat proqramlarında bir-birinə sıx bağlı olmalıdır.

Beləliklə, XXI əsrin başlanması BM-də kardinal dəyişikliklərin baş verilməsini kəskin surətdə təsdiqləyir. Təbii sərvət və bütövlükdə ətraf mühit problemləri daha kəskin xarakter alır; özəl şirkətlər iri dövlətlərin ənənəvi milli maraqlar sferasına daxil olur; dövlət suverenitetinin struktur və rolu ciddi transformasiyalara məruz qalır; iqtisadi cəhətdən az inkişaf etmiş ölkələrin "daxili" münaqişələri regional və hətta qlobal miqyasda potensial təhlükəli olur; millətçilik, dini ekstremizmin yayılmasıyla sivilizasiya qarşıdurmasının beynəlxalq-münaqişə potensialı artır; nəhayət, dünya inkişafının qloballaşması şəraitində daha aydın olur ki, heç bir dövlətin, o cümlədən dünyanın ən qüdrətli dövlətinin təhlükəsizliyi beynəlxalq terrorizmin təhdid və təcavüzündən sığortalanmayıb. ABŞ-da 11 sentyabr 2001-ci ildə törədilmiş beynəlxalq terrorizmin qeyri-insani aktı bunun faciəvi təsdiqidir.

Belə şəraitdə BM nəzəriyyəsinin yenilənməsinə, o cümlədən köhnəlmiş baxış və ənənələrdən imtina edilməsinə ehtiyac vardır. Bu cür yenilənmə artıq baş verir: yeni yanaşma, konsepsiya, istiqamət və paradiqmalar yaranır. Eyni zamanda yeni beynəlxalq reallıqlar boş yerdən əmələ gəlmir, onlar çox vaxt analoqları elmə hələ Fukidid dövründən məlum olan hadisə və təzahürlərlə birlikdə mövcud olur. Buna görə beynəlxalq qarşılıqlı təsirlərin ümumi nəzəri mənzərəsi, yenilərlə birlikdə əhəmiyyətini qoruyub saxlamış, özünü doğrultmuş yanaşma, nəzəriyyə və baxışların məcmusu diqqətə alındıqda, təsvir edilə bilər.

# VII BÖLMƏ

# SİYASİ İNSTİTUTLAR

Bu bölmədə söhbət siyasətin institusional əsaslarından gedəcək. Yaxşı məlumdur ki, ümumdövlət və ümumcəmiyyət maraqlarını ifadə və təmsil etmək üçün sosial qruplar və fərdlər siyasi institutlar yaradırlar. "İnstitut" (latınca institutum – müəssisə, təsisat) istilahı siyasi elmdə müxtəlif növ nizama salınmış və formallaşdırılmış siyasi münasibətlərin təzahürü üçün istifadə olunur. Həmin münasibətlərin institutlaşması insanların birgə siyasi fəaliyyətinin təşkilini təmin edən mexanizm qismində özünü büruzə verir və müəyyən təşkilatların formalaşmasını nəzərdə tutur ki, həmin təşkilatlar daxilində bu və ya digər siyasi fəaliyyət cərəyan edir.

## §1. Siyasi institutlar siyasi elmin əsas problemlərindən biri kimi

Siyasi institutların çoxölçülü təhlili müasir siyasi elmin aparıcı istiqamətlərindən biridir. Lakin klassik siyasi nəzəriyyədə də siyasi institutlar, ilk növbədə, dövlət, konstitusiya və hökumət diqqət mərkəzində idi. XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər siyasi institutlar dedikdə, yalnız inzibati idarələr və hüquqi normalar nəzərdə tutulur, dövlət isə siyasi həyatın ilkin əsası kimi başa düşülürdü. Belə yanaşmanı tam əminliklə Tomas Hobbsun adıyla bağlamaq mümkündür. Dövlət haqqında məşhur "Leviafan" əsərinin müəllifi siyasi institutları leqal, dövlətin icazəsiylə

fəaliyyət göstərən təşkilat və strukturlar hesab edərək, normativ-hüquqi yanaşmanın banilərindən biri olmuşdur. Həmin yanaşma müəyyən müddət siyasi elmdə üstünlük təşkil etdi. Emil Dürkheym və Maks Veber isə siyasi institutlara dair yeni, sosioloji yanaşmanın əsasını qoydular. M.Veber, institutları bu sözün latın mənasına yaxın başa düşürdü. O, dövləti əsl institut – davranışları rasional qanunlara əsaslanan insanların birliyi kimi qiymətləndirirdi. E. Dürkheymə görə, institutlar bir tərəfdən adət və inanclar şəklində olan müəyyən ideal törəmələrdir, digər tərəfdən, belə adət və stereotiplər müxtəlif zaman və xalqların sosial təşkilatlarında maddiləşərək konkret formalara düşür. Bu mühakimə öz yanaşmasını normativ-hüquqi ənənəyə qarşı qoymuş və 1950 – 1970-ci illərdə onu parlaq şəkildə nümayiş etdirmiş fransız sosial institusionalizm məktəbinin əsas müddəası olmuşdur.

Fransız politoloqları Marsel Prelo, Jorj Bürdo və Moris Düverje E.Dürkheymin ardınca siyasi institut anlayışının məzmunundan iki komponenti ayırdılar. Birinci komponent siyasi sistemin özünün ideal modeli kimi göstərilir, ikincisi isə kollektiv siyasi praktikada təkrarlanan təşkilati strukturlar kimi başa düşülürdü.

"Siyasi sosiologiya" kitabında (1968) Düverje siyasi institutların məşhur tərifini vermişdir. Alimin fikrinə əsasən, "siyasi institutlar insan münasibətlərinin elə bir modelidir ki, onlardan konkret əlaqələrin surəti çıxarılır və beləliklə də, həmin əlaqələr sabit, davamlı və möhkəm xarakter alır".

XIX əsrin sonunda Qərbi Avropada iqtisadi, sosioloji və siyasi elmlərin bir istiqaməti kimi yaranan institusionalizm əsas diqqətini sosial-siyasi institutların mahiyyəti, funksiyaları və rolu üzərində cəmləşdirir.

Mütəxəssislərin bu fenomenə yanaşmaları müxtəlifdir. Məsələn, T.Veblen, M.Oriu, J.Renar, A.Qraçı siyasi institutlar dedikdə, müəyyən funksiyaları yerinə yetirmək

üçün hər hansı bir ideya, yaxud həmrəylik hissi ilə birləşdirilmiş insan qruplarını nəzərdə tuturlar. Belə ki, institutlar nəzəriyyəsinin yaradıcılarından biri, fransız hüquqşünası M.Oriunun fikrincə, "institutlar, konkret sosial mühitdə həyata keçirilən müəyyən ideyadır". T.Parsons və P.Norton siyasi institutları rollar sistemi, yaxud davranışın və siyasi münasibətlərin təşkil olunmuş sistemi kimi şərh edirlər. P.Köniq siyasi institutları siyasət sahəsində insan davranışını nizamlayan normalar sistemi kimi izah edir. Bütün fikir ayrılıqlarına baxmayaraq, politoloqlar sözün geniş mənasında ortaq bir rəyə gələ bilmişlər. Həmin rəyə əsasən ən ümumi planda siyasi institutlar formal və qeyri-formal oyun qaydalarıdır, çünki insanların əksəriyyəti müəyyən davranış norma və qaydalarına riayət edir. Onu da nəzərə almaq lazımdır ki, bu normaların əksəriyyəti qanun, qərar və s. şəklinə salınmır. Lakin bir sıra nüfuzlu politoloqların yanaşmasına görə, siyasi institutlar sosial münasibətlərin formal sahəsindən başqa, heç bir şey deyil. Məsələn, M.Levi "İnstitusional dəyişikliklərin məntiqi haqqında" adlı əsərində yazır: "Siyasi institutlar insan qrupları arasında formal razılaşmalardır. Həmin qrupların davranışı dəqiq müəyyənləşdirilmiş qaydalarla və qərarların qəbuledilməsi prosesinin özüylə tənzimlənir ki, bu yenə də formal olaraq hakimiyyət verilmiş bir şəxsin, yaxud şəxslər qrupunun səlahiyyətləri ilə təmin olunur".

Beləliklə, həm klassik, həm də müasir siyasi elmdə siyasi institut kateqoriyasına dair müxtəlif və çoxsaylı institusional yanaşmalar mövcuddur. Əksər yanaşmaları nəzərdən keçirdikdən və institusionallığın əsas səciyyəvi xüsusiyyətlərini birləşdirdikdən sonra həmin kateqoriyanın işçi definisiyasını müəyyənləşdirmək mümkündür. Nəticədə belə qənaətə gəlmək olar ki, institut siyasətdə şəxslər, sosial qruplar və bütövlükdə cəmiyyət arasındakı siyasi

münasibətlərdə və hakimiyyətdə yaranan real vəziyyəti təsbit edir.

Bütün fərqli yanaşmalar sübuta yetirir ki, siyasi institutlar strukturdan (təşkilatdan) və təşkilata xidmət edən kollektiv təsəvvürlərdən, inanclardan, yaxud ümumi ideyadan ibarətdir.

Bununla əlaqədar olaraq siyasi institutların daxili elementləri: 1) siyasi fəaliyyət və münasibətlər sahəsində insanların statusu; 2) müəyyən institut daxilində birləşdirilmiş insanların yerinə yetirdikləri rolların cəmi; 3) siyasi normalar, fəaliyyətin adət, ənənə, qanun, prinsiplər formasında işləyən subyektiv komponentləri kimi görünür.

Siyasi institutların təsnifatı əksər hallarda aşağıdakı meyarlar əsasında aparılır: a) təşkilatçılıq səviyyəsi; b) şaquli və üfüqi differensiasiya; c) fəaliyyət növləri.

Siyasi institutların funksiyaları da mühüm əhəmiyyət kəsb edən məsələlər sırasındadır. Mütəxəssislərin diqqəti çox vaxt üç funksiyaya yönəlir: **tənzimləyici** (siyasi fəaliyyətin və münasibətlərin tənzimlənməsi); **siyasi münasibətlərin təsbit edilməsi və yenilənməsi; varislik və aramsızlıq gözlənilməklə insanların siyasi fəaliyyət və münasibətlərə qatılması funksiyalarına**. Bütün institutların əsas funksiyası isə ictimai-siyasi proses və təzahürlərin dayanıqlığının saxlanılması və aralarındakı müvazinəti dəstəkləmək məqsədi ilə onların tənzimlənməsi funksiyasıdır.

Siyasi institutların genezisi məsələsi də alimlər tərəfindən fəal müzakirə edilir. Bununla bağlı belə nəticəyə gəlinir ki, hər hansı institutun yaradılması ilə bağlı olan fəaliyyət uzunmüddətli tarixi dövrü əhatə edən və daxilində müəyyən mərhələləri, keçid formaları olan bir prosesdir. Bundan başqa, siyasi institutlar özlərinin tarixi inkişafında əhəmiyyətli transformasiyaya uğrayaraq dayanıqlı və qeyri-

dayanıqlı ola bilirlər. Onların sabitliyindən isə bütün siyasi sistemin özünün sabitliyi xeyli dərəcədə asılıdır.

Siyasi institutlar sırasında, ilk növbədə, **dövlət** və onun strukturları, **parlament və parlamentarizm, prezidentlik institutu, siyasi partiyalar** və **təzyiq qrupları, seçki sistemləri, ictimai rəy, kütləvi informasiya vasitələri** və s. göstərmək olar. Onların hər birinin təbiəti, mahiyyəti, vəzifəsi, strukturu, spesifik cəhətləri, funksiyaları, yaranma və inkişaf xüsusiyyətləri ilə bağlı məsələlər ali məktəbin bakalavr pilləsinin müvafiq fənləri çərçivəsində tədris olunur. Yenidən həmin məsələlərə qayıtmayaraq, siyasətin bütövlükdə institusional əsaslarının təhlili və institusionalizmin inkişafı problemlərinə diqqət yetirək.

İnstitusionalizm problemi bütün dünyada müasir siyasi elm tədqiqatçılarının diqqət mərkəzindədir. Bu da əsasən onunla əlaqədardır ki, siyasi elmin ümumnəzəri problemlərindən birini siyasi institutların real dünyada zamanla və yerlə müəyyənləşən bütün müxtəlifliklərinin spesifik xarakteristikaları təşkil edir. Həmin problemlə bağlı irəli sürülən baxışlara uyğun olaraq demokratik və qeyri-demokratik siyasi institutlar müxtəlif formalarla təqdim olunur. Bununla yanaşı, müasir dünyada ümumilikdə siyasi institutların dörd əsas tipi fərqləndirilir – **qanunverici, icra, məhkəmə və məcburetmə institutları**. Politoloqlar istənilən formalaşmış siyasi hakimiyyət modelinin təşəkkülü məsələsinə dair iki bir-biri ilə ziddiyyət təşkil edən yanaşma nöqteyi-nəzərindən çıxış edirlər. Onlardan birincisi «düzgün», «demokratik» və yaxud cəmiyyətin maraqlarını nəzərə alan yanaşma adlandırılır. Belə olan halda birinci tip institutlara (qanunverici hakimiyyətə) tələbat ümumi maraqların tənzimlənməsi haqqında qərarların qəbul edilməsinin labüdlüyü ilə müəyyənləşir. İkinci tip institutlar (icra hakimiyyəti institutları) bu qərarların həyata keçirilməsi üçün zəruridir. Üçüncü tip institutlar (məhkəmə

hakimiyyəti institutları) meydana çıxan ziddiyyətlərin tənzimlənməsi və qanunverici hakimiyyət tərəfindən işlənmiş ümumi qaydaların hər bir hadisəyə dair istifadəsinin interpretasiyası üçün vacibdir. Nəhayət, dördüncü tip institutlar (məcburetmə institutları) qəbul olunmuş qaydaları pozanların cəzalandırılması üçün tələb olunur.

«Düzgün olmayan», «diktator» və ya «düşmən» adlandırılan ikinci modelin mahiyyəti ondan ibarətdir ki, bir hökmdar və yaxud idarəedən qrup tərəfindən təmsil olunan qeyri-demokratik hakimiyyətin də dörd əsas ictimai instituta tələbatı vardır. Onlardan birincisi hakimiyyətin legitimləşdirilməsi; ikincisi hökmdarın iradəsinin həyata keçirilməsi; üçüncüsü hökmdarla təbəələr arasında mübahisələrin tənzimlənməsi; dördüncüsü isə hökmdara və yaxud hökmdarlara qarşı çıxanlara divan tutulması məqsədi ilə lazımdır. Beləliklə, hər iki halda siyasi institutlar mahiyyət etibarilə eynidir.

Demokratik hakimiyyət kimi, qeyri-demokratik hakimiyyət də hər hansı bir siyasi xəttin işlənib-hazırlanması və həyata keçirilməsi, həmçinin onları pozanlara qarşı müəyyən qərarların qəbul edilməsi üçün siyasi institutlara ehtiyac duyur. Bununla yanaşı, siyasi institutlar bu və ya digər hallarda müxtəlif səciyyəvi formalardan ibarətdir. Əvvəlcə siyasi institutların siyasi elmdə rolu və yeri ilə bağlı problemi nəzərdən keçirək.

## §2. Siyasi elmdə siyasi institutlar probleminin inkişaf xüsusiyyətləri

Antik dövrdən başlayaraq siyasi elmin müasir akademik fənnə çevrilməsinədək bu bilik sahəsinin əsas problemlərindən biri, hansı siyasi institutun daha yaxşı cəmiyyət və şəxsiyyət tipini formalaşdırmaq iqtidarında olması məsələsi idi. Siyasi institutlar problemi Platon, Aristotel,

N.Makiavelli, C.Lokk, J.J.Russo, T.Hobbs və bir çox başqa mütəfəkkirlərin əsərlərində müzakirə edilmişdir. Platonun «Dövlət» əsəri müxtəlif idarəetmə formaları olan – timokratiya, oliqarxiya, demokratiya və tiraniyanın müqayisəli təhlilinə həsr edilmişdir. Bu problemlə bağlı bir çox digər suallar Platonun «Qanunlar» əsərində də nəzərdən keçirilmişdir. Aristotel «Siyasət» əsərində siyasi institutlar və «düzgün» cəmiyyət haqqında müzakirələri davam etdirmişdir. Analoji suallar yüzillər boyu digər mütəfəkkirləri də düşündürürdü. XIX əsrin sonu – XX əsrin əvvəllərində siyasi elmin müstəqil elm sahəsi və müasir akademik fənn kimi formalaşmasında antik ənənə mühüm rol oynadı. Avropada olduğu kimi, ABŞ-da da "konstitusiya memarlığı" adlandırılan problemə tədqiqatçılar böyük əhəmiyyət verirdilər. Problemin əsas mövzusu "hansı konstitusiya tipləri daha üstün və yaxşıdır?" sualı ilə bağlı idi. Əksər hallarda bu mövzuya göstərilən böyük maraq ayrı-ayrı milli konstitusiyaların və siyasi institutların yaradılması və fəaliyyət göstərməsinin kompleks tədqiqinə gətirib çıxarırdı. Bir sıra ölkələrdə, xüsusilə Şimali Avropada belə vəziyyət siyasi elmlə konstitusiya qanunvericiliyinin sıx qarşılıqlı asılılığının nəticəsi idi ki, bu da alman ənənəsinə xas olan dövlət haqqında təlimdən irəli gəlirdi. XX əsrin 70-ci illərindən bəri siyasi institutlar problemi siyasi nəzəriyyədə də mərkəzi yerlərdən birini tutmağa başlamışdır. Həmin problemə marağın artmasında C.Roulz tərəfindən yazılmış və 1971-ci ildə nəşr edilmiş «Ədalət nəzəriyyəsi» adlı əsər böyük rol oynadı. Roulzun konsepsiyası o dövrdə üstünlüyə malik olan utilitarizm ilə ziddiyyət təşkil edirdi. Burada əsas diqqət yenə də ənənəvi normativ məsələlərə, o cümlədən ədalətə, bərabərliyə və insan hüquqlarına yetirilirdi. Roulz nəzəriyyəsinin ilkin prinsipləri istənilən konstitusion-demokratik rejimin siyasi institutlarının əsasında dayanan intuitiv ideyaları və onların

interpretasiyasının ictimai ənənələrini ehtiva edirdi. «Siyasi liberalizm» adlanan sonuncu kitabında Roulz orijinal diskursiv siyasi institutun yaradılması təklifini irəli sürür ki, həmin institut çərçivəsində müxtəlif fikir sahibləri müzakirə, diskussiya və razılaşmalar yolu ilə cəmiyyətdə üstünlüyü labüd olan sosial-iqtisadi qayda-qanunların ümumi prinsiplərini tapmağa cəhd etsinlər.

Roulzun məqsədi elə bir cəmiyyət yaratmaqdan ibarət idi ki, belə cəmiyyətdə siyasi institutların tabe olduqları ədalət prinsipindən ciddi surətdə fərqlənən ümumi həmrəylik prinsipi daha çox əhəmiyyət kəsb etsin. Bununla yanaşı, fərdlərin və qrupların mədəni, dini və ideoloji məsələlərlə bağlı əks maraqlarının olmasına baxmayaraq, bu cür konsensus şübhə altına alınmasın.

Roulzun fikrincə, ədalətli cəmiyyət ədalətli siyasi institutların deyil, əksinə, məhz ədalətli siyasi institutlar ədalətli cəmiyyətin qurulmasını şərtləndirə bilər. Belə mövqe, yaxşı məlum olduğu kimi, antik dövrün siyasi institutları konsepsiyalarına uyğun gəlir. Març, Olsen və Dvorkin kimi nüfuzlu alimlər hesab edirlər ki, institutlar yalnız "oyun qaydaları" deyil, onlar həmçinin cəmiyyətdə mövcud olan ədalət, kollektiv eyniyyət, birliyə mənsubiyyət, inam və həmrəylik kimi dəyərlərə təsir edir. Bu məsələylə bağlı Y.Elster aşağıdakı mülahizəni sübut etməyə çalışır: "Siyasətin başlıca vəzifələrindən biri insanların özlərini düzgün apara bilmələri üçün yararlı sosial şərait və institutların yaradılmasından ibarətdir və onlar inanmalıdırlar ki, cəmiyyətlərinin əsasını təşkil edən strukturlar ədalətlidir".[1] Əgər sosial normalar (məsələn, ədalətə aid olan normalar) siyasi institutların xarakterindən asılı olaraq dəyişirsə, bu o deməkdir ki, yaşadığımız cəmiyyətdə onlardan hansının üstünlük təşkil

[1] Elster J. The possibility of rational politics // Archives Auropennees de Sociologie. 1987. Vol. 28. P.67-103

etdiyini bız özümüz müəyyənləşdiririk, çünki elə özümüz də (heç olmasa hərdən bir) bizim siyasi institutlarımızın xarakterinin müəyyələşdirilməsində iştirak edirik.

İndi isə müasir siyasi elmin inkişafının müxtəlif mərhələlərində siyasi institutlara olan münasibətləri nəzərdən keçirək. Əgər siyasi nəzəriyyənin klassik ənənəsi əsas diqqəti siyasi institutların yaradılmasına və fəaliyyət göstərməsinə yönəldirdisə, İkinci Dünya Müharibəsindən sonrakı dövrdə davranış və qrup nəzəriyyələrinin müxtəlif variantları üstünlük təşkil etməyə başladı. Funksionalizm, sistemli təhlil və qruplar nəzəriyyəsində, daha sonra isə siyasətin öyrənilməsinə dair iqtisadi yanaşmalarda (xüsusən neomarksizmdə) siyasi institutlar ya arxa plana keçirilir, ya da ümumiyyətlə hesaba alınmırdı. Siyasi proseslərin izahının sosial, iqtisadi və mədəni dəyişənlərə müncər edilməsi tendensiyası siyasi həyatda institusionallaşmış və təşkilatlanmış formaların əhəmiyyətinin sıfır dərəcəyə qədər enməsinə gətirib çıxarmışdır.[1] Əvvəlki siyasi tədqiqatlarda pozitiv nəzəriyyənin yaradılmasına can atılırdı. Siyasi elmdə davranış yanaşmalarının üstünlük təşkil etdiyi dövrdə isə siyasi institutların təhlilinə olan ümumi etinadsızlığı məhz buna reaksiya kimi qiymətləndirmək mümkündür.

Görünür, siyasi institutların formal, hüquqi aspektlərinə, onların tarixi inkişafına, mövcudluğunun "daxili məntiqinə" ayrılan diqqət onların ümumi nəzəriyyəsinin işlənib hazırlanmasına mane olurdu. Bundan başqa, əksər tarixi hadisələrin gedişində (bolşevik inqilabı, Veymar Respublikasının süqutu, nasizmin meydana çıxması, Çində kommunistlərin qələbəsi) formal siyasi institutların rolunun ya çox az, ya da sıfıra bərabər olması inandırıcı görünürdü. Bu baxımdan mütəxəssislər həmin təsisatların əvəzinə "avtoritar şəxsləri",

[1] March J.G., Olsen J.P. Rediscovering institutions: the organizational basis of politics. New York: Free Press. 1989.

ayrı-ayrı sosial qruplar arasında iqtisadi hakimiyyətin qeyri-bərabər bölünməsini və s. məsələləri tədqiq edirdilər.

Buna baxmayaraq, siyasi institutların o dövrdə tamam diqqətdən kənarda qalması haqqında fikirlər həqiqəti əks etdirmir. Əksər alimlər siyasi institutları biheviorizm və qrup nəzəriyyəsinin üstünlük təşkil etdiyi vaxtda da tədqiq edirdilər. Dövlət quruculuğunun və demokratiyanın tarixi inkişaf yollarının komparativ tədqiqi ilə məşğul olan mütəxəssislər, xüsusilə Düverje, Eyzenştadt, Krozye, Lipset və Rokkan cəmiyyət həyatında siyasi institutların xüsusi yerini və rolunu qeyd edirdilər.

Siyasi elmdə siyasi institutlar problematikasının aktuallaşması keçən əsrin 60 – 70-ci və daha çox 80-ci illərində müşahidə olunurdu. Qeyd etmək vacibdir ki, siyasi institutlara marağın artması fənnin həm metodoloji, həm də nəzəri cəhətdən fərqlənən sahələrində, özü də eyni vaxtda baş vermişdi. Belə ki, neomarksistlər (İ.Rayt), ilk növbədə, dövlətin spesifik təşkilati formalarına diqqət yetirir, müqayisəli-tarixi təhlilə üz tutan alimlər "dövlətin geri qaytarılması" çağırışı ilə çıxış edirdilər (P.B.Evans, D.Ruşmeyer, T.Skokpol).[1] Beynəlxalq münasibətləri tədqiq edən mütəxəssislər əsasən rejimlərə (S.D.Krasner)[2], iqtisadi münasibətləri öyrənənlər isə "oyun qaydaları"na maraq göstərirdilər (D.Nort, M.Levi).[3]

Siyasi institutların yenidən siyasi təzahürlərin təhlilində mərkəzi yer tutması heç də o demək deyildir ki, bu elmi fənn daxilində ilkin nəzəri fikir ayrılıqları azalmışdır. Əksinə, siyasi institutların qiymətləndirilməsinin yeni yanaşmaya

---

[1] Evans P.B., Rueschemeyer D., Skocpol T.(eds) Bringing the state back in. Cambridge: Cambridge University Press, 1985

[2] Krasner S.D. (eds.) İnternational regimes. İthaca(N.Y). Cornell University Press, 1983

[3] North D.S. İnstitutions, institusional change and economic performance. Cambridge: Cambridge University Press, 1990; Levi M. Of rule and revenue. Berkley: University of California Press, 1988

uyğunlaşdırılması üçün bir sıra vacib nəzəri və konseptual problemlərə yenidən baxıldı. Ümumilikdə siyasi institutlar haqqında müasir debatlarda onların təhlili ilə bağlı xolist və atomist, struktur və fərdiyyətçilik, formal və tarixi yanaşmalar arasındakı ənənəvi ziddiyyətlər saxlanmaqdadır. Müasir institusional təhlildə mübahisə doğuran əsas problemlər aşağıdakılardır:

- siyasi institutların spesifikası;
- siyasi institutların funksiyaları (siyasi institutların sosial-siyasi aktorların davranış strategiyasına və istəklərinə, ictimai təşkilatlarda onların iştirakının fəallığına təsiri. Sonuncu ictimai kapitalın yaranmasına gətirib çıxarır; bu isə öz növbəsində vətəndaşlar arasında ədalətə əsaslanan münasibətləri şərtləndirir);
- institusional sabitlik;
- institutların dəyişməsi prosesi.

Müasir siyasi elmdə institutların rasional seçim mövqeyindən tədqiqi olduqca aktualdır. Həmin mövqedən aparılan təhlil, demək olar ki, konstitusiya, qanunvericilik orqanları, icra hakimiyyəti, bürokratiya, məhkəmə və seçki sistemlərini daxil etməklə bütün əsas demokratik institutlar və strukturlara tətbiq edilir. Əksər mütəxəssislərin əsərlərində siyasi institutların makroiqtisadi siyasət, rifah problemləri, büdcə, normativ vəziyyət və texnologiyalar da daxil olmaqla siyasi seçimə təsiri nəzərdən keçirilir.

## §3. Yeni institusionalizm

Siyasi elmin son 30 – 35 ildə ən çox inkişaf etmiş sahələrindən biri də yeni institusionalizmdir.[1] Məlum olduğu kimi, "yeni institusionalizm" ifadəsi elmə C.Març və Y.Olsen

[1] Daha ətraflı bax: Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. B., 2005. S. 99-104.

tərəfindən gətirilib və ilk dəfə olaraq onların eyniadlı məqaləsində istifadə edilib.[1] XX əsrin 80-ci illərinin ortalarından başlayaraq bu günə kimi siyasi elmdə və onun ayrı-ayrı subfənlərində aparıcı yerlərdən birini tutan yeni institusionalizm, yaxud neoinstitusionalizm öz ideya sələfi olan köhnə institusionalizmdən (I mərhələsi XX əsrin 20 – 30-cu illərini, II mərhələsi İkinci Dünya Müharibəsindən sonrakı illərdən başlayaraq həmin əsrin 60 – 70-ci və 80-ci illərini əhatə edir) bir sıra cəhətləri ilə fərqlənir. T.Skokpol, K.Orren, D.Nort, E.Ostrom, M.Levi, D.Marş, R.Rods, K.Uiver, B.Rokman, D.Aşford, C.Març, Y.Olsen və digər mütəxəssislərin əsərlərindən göründüyü kimi, yeni institusionalizm öncə inkişaf nəzəriyyəsinə, kəmiyyət təhlil metodlarına və eyni zamanda institutların formal, struktur aspektlərindən daha çox, real davranışa diqqət yetirir.

Yeni institusionalizmin müsbət cəhətlərindən biri də ondan ibarətdir ki, onun köməkliyi ilə institutlar haqqında daha geniş komparativist mövqedən söhbət açmaq mümkündür. Sözügedən konsepsiya daxilində bir neçə istiqamət, o cümlədən **normativ institusionalizm, tarixi institusionalizm, sosial institusionalizm** və **struktur institusionalizm** mövcuddur.

Bunların hər biri əsasən dövlət sektorunun strukturlarını öyrənir və institusional yanaşmanın siyasi elmdə hakim mövqe tutduğunu çox tutarlı dəlillərlə sübuta yetirir.

Qeyd etmək lazımdır ki, institusional yanaşma bütövlükdə siyasi elmdə olduğu kimi, onun ayrıca subfənlərində də üstünlük təşkil edir. İnstitusional yanaşma İkinci Dünya Müharibəsinə qədər və ondan sonra müqayisəli politologiyada aparıcı yer tuturdu. Burada, institusionalizm siyasi mənşəli bütün problemləri əhatə etməyə çalışırdı, o cümlədən seçimin

---

[1] March J.G., Olsen J.P. The new institutionalism: Organizational factors in political life// American Political Science Review. 1984. vol. 78. P. 734-749.

qaydaları və azadlıq, şəxsiyyətin və cəmiyyətin maraqları, qanunverici və icra hakimiyyəti, məhkəmələrin və hakimlərin səlahiyyətləri, yerli hakimiyyət orqanlarının tədrici inkişafı, seçki sistemləri və siyasi partiyalar problemlərini.

Bu istiqamətin tərəfdarları sırasına Almaniyada K. Şmitt, İngiltərədə U.A.Barker və H. Laski, Fransada L.Dyuqi və A.Ziqfrid, ABŞ-da H. Fayner və K. Fridrix daxil idilər.

Demək olar ki, institusionalizm müqayisəli politologiyada aparıcı yanaşma olmuşdur və olmaqda davam edir. Əlbəttə, zaman keçdikcə o dəyişmişdir. İnstitusionalizm öz inkişafına Avropada millətçilik dövründə başlamışdır. Həmin dövrdə əsas problem dil, mədəniyyət və din parametləri baxımından bölünən millətlər arasında əlaqələrin saxlanması ilə bağlı idi. Sonra sosial məsələlər aktuallaşanda(1960-cı illər) həmkarlar ittifaqları daha təşkilatlanmış qüvvəyə çevrilərək, müxtəlif siyasi hərəkatlarla birgə siyasi iştirakın və hüquq bərabərliyinin genişləndirilməsi, ədalət anlayışına yenidən baxılması, liberal prinsiplərə alternativ olan sosialist və digər ideologiyaların möhkəmlənməsi uğrunda mübarizə aparmağa başladılar. Həmin illərdə iqtisadi amillər daha çox əhəmiyyət kəsb edirdi. İnstitusional yanaşma bu dövrdə hakimiyyətin işsizliyə, pis sosial şəraitə, siyasi və etiraz hərəkatlarına münasibətinin öyrənilməsinə yönəlmişdir, yəni elə məsələlərə ki, onlar mövcud institutların çərçivəsindən kənarda yerləşirdi. İnstitusionalizm siyasi iqtisada daha çox müraciət etdikcə, büdcə və maliyyə institutlarının və onların keynsiançılıq kontekstində siyasətinin təhlilinə bir o qədər geniş diqqət yetirirdi, çünki o, həmin institutlara partiya siyasətinin radikallaşmasının qarşısını alma vasitəsi kimi baxırdı.

İnstitusional yanaşma İkinci Dünya Müharibəsindən sonra meydana çıxan və inkişaf problemlərini xüsusilə vurğulayan yeni müqayisəli politologiyada da kifayət qədər əhəmiyyət kəsb edirdi. Burada müharibədən sonrakı Avropada Marşall planı daxil olmaqla, siyasi institutların bərpası problemi üstünlük

təşkil edirdi. Buraya həmçinin keçmiş müstəmləkələrdə yeni siyasi institutların formalaşması məsələləri də daxil idi. Başqa sözlə desək, yeni müqayisəli politologiyada "institusional sosial mühəndislik" problemi qoyulurdu. İnkişaf nəzəriyyəsi bir-birindən sosial-siyasi institutlar və mədəni təcrübə baxımından kəskin surətdə fərqlənən cəmiyyətlərin müqayisəsini şərtləndirirdi. Əsas hipotezalar müasir Qərb siyasi institutlarının nümunələri əsasında qurulurdu. Bu institutlar teokratik dövlətdən dünyəvi dövlətə, status münasibətlərindən müqavilə münasibətlərinə, ənənəvi hakimiyyətdən rasional (leqal) hakimiyyətə keçid zəminində formalaşmışdır.

Son zamanlar institusionalizmin daha da aktuallaşması bir sıra Şərqi Avropa ölkələri və keçmiş sovet respublikalarının həm sosial-iqtisadi quruluşu, həm də siyasi institutlarının transformasiyasının dərk edilməsi və təkmilləşdirilməsinin labüdlüyü ilə bağlıdır.

Siyasi institutların islahatı, bir tərəfdən siyasi institutlaşmanın dünya təcrübəsindən səmərəli istifadə məsələlərini gündəmə gətirir, digər tərəfdən isə hər ölkənin özünün tarixi ənənələri, sosiomədəni xüsusiyyətlərinin nəzərə alınmasını şərtləndirir.

XX əsri sonu – XXI əsrin başlanğıcı institusionalizm problemlərini aktuallaşdırmaqla yanaşı, həm də onları əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Söhbət planeti vahid iqtisadi və informasiya məkanına çevirən və dünya əlaqələrini kəskin surətdə intensivləşdirən qloballaşmadan gedir. Məlum olduğu kimi, qloballaşmanın inkişafı nəinki mədəni və institusional nümunələrin götürülməsi prosesinə təkan verdi və onu tezləşdirdi, həm də yeni dünya nizamında layiqli yer uğrunda rəqabəti kəskinləşdirərək milli iqtisadi və siyasi mexanizmlərin təkmilləşdirilməsini hər bir ölkə üçün şərtsiz imperativə çevirdi.

XX əsrin ictimai kataklizmlər bahasına əldə edilmiş nəticələrindən biri Qərb ölkələrində idarəedənlərlə

idarəolunanlar arasındakı qarşılıqlı münasibətlərin, sosial-siyasi institutların demokratik modelinin üstünlüyünün bərqərar olmasıdır. Özünü əsasən uzunmüddətli planda büruzə verən həmin üstünlük, ilk növbədə, səmərəli əks-əlaqə hesabına təmin edilən çeviklik və elastiklikdən ibarətdir. Məhz bununla bağlı olan ictimai konsolidasiya, sosial və siyasi subyektlərin (aktorların) idarəçiliyi və qarşılıqlı əlaqəsinin optimallaşması parlamentli (nümayəndəli) demokratiyanı universal dəyərə, müasir siyasi institutları isə bir növ etalonuna çevirmişdir.

Bir çox ölkələrdə, o cümlədən postsovet respublikalarında, bu səbəbdən irəli gələn siyasi islahatlar, institusional dəyişikliklər Qərb siyasi strukturları və qanunvericilik normalarını yeni sosial-iqtisadi şəraitə, başqa sivil və mədəni zəminə uyğunlaşdırılması məsələsini aktuallaşdırmışdır.

Eyni zamanda o da həqiqətdir ki, ikiqütblü sistemin əvəzinə gələn dünya nizamının prinsipləri, mövcud beynəlxalq institutların fəaliyyəti əsl demokratiyadan çox uzaqdır. Belə vəziyyət bir daha sübuta yetirir ki, əsrlərin qovuşuğunda siyasi institutların təkmilləşdirilməsi heç də sadə və asan məsələ deyil.

Bu gün institusionalizmlə bağlı siyasi elmin qarşısında bir çox mühüm məsələlər durur. Sosial-siyasi institutların Qərb modelinin yeniləşməsi, qloballaşma şəraitinə uyğunlaşması, ənənəvi ərazi nümayəndəlik institutlarıyla yanaşı, korporativ qurumlar olan **funksional nümayəndəlik orqanlarının** meydana gəlməsi və getdikcə rolunun artması, vətəndaş cəmiyyəti səviyyəsində siyasi institutlara münasibətin dəyişməsi, kommunitar hərəkatla əlaqədar olaraq nümayəndəli institutlarla interaktiv prosedurlara əsaslanan birbaşa demokratiyanın uzlaşdırılması, üstmilli institutların demokratikləşməsi, Qərb siyasi institutlarının milli variantlarının formalaşdırılması problemləri siyasi elmdə intensiv təhlil edilən və sosial-siyasi praktikayla birbaşa bağlı olan məsələlərdir.

Beləliklə, yuxarıda göstərilənlər sübuta yetirir ki, institusionalizm siyasi elmdə aparıcı istiqamətdir. Əksər ölkələrdə davranış inqilabı bu elmin tarixində vətəndaşların həyatı üçün idarəetmə institutları və dövlətçiliyin əhəmiyyətinin artan fonunda yalnız bir epizod olmuşdur. Müxtəlif siyasi hadisələrin izahında institusional təhlil kifayət qədər səmərəlidir. İnstitusionalizmin inkişafı barışmaz fərdiyyətçiliyə və sonuncuyla xarakterizə edilən davranış və rasional yanaşmalara qarşı faydalı əks-qüvvə kimi çıxış etdi. Lakin onu da qeyd edək ki, bu istiqamətin sonrakı inkişafı və təkmilləşdirilməsi üçün hələ xeyli işlər görmək lazım gələcək.

# VIII BÖLMƏ

## SİYASİ DAVRANIŞ

### §1. Siyasi davranış tipləri və siyasi iştirakın müasir nəzəriyyələri

Müasir siyasi elmdə siyasi davraniş və iştirakın əsas xüsusiyyətlərinin təhlilinə keçməzdən əvvəl, ilk növbədə, bu fenomenlərin hər birinə tərif vermək lazımdır. Siyasi davranış dedikdə, sosial subyektlərin (sosial birliklərin, qrupların, ayrı-ayrı şəxslərin və b.) siyasi sistemin fəaliyyətinə reaksiyası, dərkolunan münasibətin nümayiş etdirilməsi başa düşülür. Siyasi davranışı siyasi iştirak və siyasi absenteizmə ayırmaq olar. **Siyasi iştirak** – vətəndaşların siyasi sistemin fəaliyyətinə, siyasi institutların formalaşmasına və siyasi qərarların işlənib-hazırlanması prosesinə olan təsiridir. Amerika politoloqları S.Verba və N.Nayın fikrincə, siyasi iştirak hər şeydən əvvəl instrumental aktivlikdir. Məhz siyasi iştirak vasitəsilə vətəndaşlar hakimiyyətə elə təsir göstərməyə çalışırlar ki, hakimiyyət onların arzu etdiyi fəaliyyəti həyata keçirsin. Siyasi iştiraka elektoral davranış, seçki kampaniyası zamanı namizədlərin və vətəndaşların dəstəklənməsinə yönəlmiş fəal fəaliyyət, mitinq və nümayişlərdə iştirak, partiyaların və maraq qruplarının işində iştirak və s daxildir.

İngilis alimi A. Marş siyasi davranış tiplərinin aşağıdakı təsnifatını təklif edir:

**Cədvəl 1.**

| Ortodoksal siyasi davranış | | Qeyri-ortodoksal siyasi davranış, birbaşa hərəkət, siyasi itaətsizlik, qrup itaətsizliyi | | Siyasi cinayətlər | |
|---|---|---|---|---|---|
| Adi siyasət, səsvermə, lobbiçilik, formal maraq qrupları | Müştərək ərizələr, şüarlar, qanuni nümayişlər | Boykotlar | Qeyri-rəsmi tətillər, icarədarların tətilləri | Qeyri-qanuni nümayişlər, bir sıra yerlərin, binaların zəbt edilməsi, mülkiyyətə zərər vurulması, zorakılıq | İnsanların girov götürülməsi, sabotaj, qətllər, inqilablar, müharibələr, oğurlanmalar |

Cədvəldən göründüyü kimi, A.Marş siyasi iştirakın üç əsas tipini ayırır: **ortodoksal, qeyri-ortodoksal** və **siyasi cinayətlər.** Siyasi iştirakın ortodoksal tipinə siyasi sistemin işləməsini və dayanıqlığını təmin edən iştirak, o cümlədən həmin sistemə qarşı irəli sürülən və qanuni formalarda ifadə edilən tələblər daxildir. Qeyri-ortodoksal tipə tələblərin ifadə edilməsi ilə bağlı olan və siyasi sistemə qarşı yönələn icazə verilməmiş fəaliyyət aiddir (qəti etiraz). Siyasi cinayət isə, yəni qeyri-legitim zorakılıqdan istifadə edən siyasi fəaliyyət ayrıca bir tip kimi fərqləndirilir.

Siyasi iştirakı **konvensional** (leqal və qanunla tənzimlənən) və **qeyri-konvensional** (qeyri-qanuni, mənəvi, dini baxımdan cəmiyyətin böyük əksəriyyəti tərəfindən qəbul edilməyən) tiplərə ayıran U.Milbrayt (ABŞ) da oxşar mövqedən çıxış edir. Birinci tipə o, səsverməni, cəmiyyətin siyasi həyatında qanuni iştirakı, rəsmi şəxslərlə qanuni əlaqələri aid edir. İkinci tipə isə nümayişlərdə iştirak, qiyamlar, hakimiyyətin düzgün olmayan fəaliyyətinə qarşı qəti etirazlar, mitinqlərdə iştirak, ədalətsiz qanunlara və siyasi qərarlara tabe olmaqdan imtina daxildir.

Qeyri-konvensional iştirak zorakı olmayan fəal formalara (nümayişlər, piketlər, mitinqlər və s.) və siyasi iştirakın fəal formalarına (terrorizm, qiyam və s.) bölünür.

Siyasi iştirakı eyni zamanda aşağıdakı parametrlər əsasında da təsnif etmək olar: fəallıq dərəcəsinə, ya səviyyəsinə (aktiv-passiv) və formalarına görə (qəbul olunan-qəbul olunmayan). Cədvəl 2-də bu açıq-aydın görünür.

**Cədvəl 2.**

| Fəallıq səviyyəsi | İştirakın forması | |
|---|---|---|
| | Qəbul olunan | Qəbul olunmayan |
| Aktiv iştirak | Seçkiqabağı fəallıq, seçkili orqanlarda iştirak; lobbiçilik fəaliyyəti; təşkilati fəaliyyət (siyasi partiyalarda və təşkilatlarda iştirak; siyasi nümayişlərdə və digər siyasi aksiyalarda iştirak | Zorakılıq; vəzifəli şəxslərin ələ alınması; nizam-intizamın pozulması |
| Passiv iştirak | Səsvermədə iştirak; qanunlara tabeçilik | Qanunlara münasibətdə etinasızlıq, qanun pozuntusu |

Siyasi iştirakın çox vaxt **muxtar** və **səfərbərolunan** iştirak tiplərini də ayırırlar.

**Muxtar** iştirak – şəxsi və qrup maraqlarını təmin etməyə çalışan insanların azad könüllü fəaliyyətidir.

**Səfərbərolunan** iştirak məcburi xarakter daşıyır. Burada qorxu, inzibati məcburiyyət, ənənələr və s. siyasi fəallığın stimulları rolunda çıxış edir.

Bir qayda olaraq, səfərbərolunan iştirak yalnız siyasi sistemin dəstəklənməsinə istiqamətlənir və onun əsas məqsədi hakim elitaya sədaqəti, ümumxalq birliyini, həyata keçirilən siyasətin təqdir olunduğunu nümayiş etdirməkdən ibarətdir. Bu cür iştirak qətiyyən qrup maraqlarının gerçəkləşmə vasitəsi ola

bilməz. Şübhəsiz, hər iki tip o mənada idealdır ki, istənilən cəmiyyətdə, istənilən siyasi sistemdə onların bu və ya digər elementləri vardır.Totalitar və avtoritar rejimlərdə iştirakın səfərbərolunan tipi, demokratik rejimlərdə isə muxtar tipi üstünlük təşkil edir. Lakin demokratik rejimlərdə fərdlərin səfərbərolunan davranış elementləri də mövcuddur. Məsələn, seçki kampaniyalarında ayrı-ayrı insanların siyasi mövqeyinə təsir göstərmək məqsədi ilə şüurun manipulyasiya edilməsi metodundan fəal şəkildə istifadə olunur.

Müasir siyasi elmdə siyasi iştirakın aşağıdakı nəzəriyyələri daha çox diqqəti cəlb edir: **rasional seçim nəzəriyyəsi, motivasiya nəzəriyyəsi, sosial faktorlar nəzəriyyəsi.**

**1. Siyasi iştirakın rasional seçim nəzəriyyəsi.** Bu nəzəriyyəyə əsasən, öz maraqlarını maksimum səviyyədə reallaşdırmağa canatan və şəxsi məqsədlərinə nail olmaq naminə səmərəli fəaliyyət göstərən azad fərd siyasi iştirakın əsas subyekti rolunda çıxış edir. Şəxsi maraq və məqsədlər adı altında öz rifahını təmin etmək cəhdi başa düşülür. Buradan belə bir nəticəyə gəlmək olar ki, fərdin siyasətdə iştirakı yalnız o şərtlə mümkündür ki, iştirakdan əldə olunan mümkün gəlirlər xərclərdən daha çox olsun. Bu prinsip, "qazancın" maksimallaşması" adını almışdır. Həmin prinsipə əsaslanaraq Amerika politoloqu E. Dauns özünün "Demokratiyanın iqtisadi nəzəriyyəsi" adlı məşhur əsərində (1957) rasional siyasi iştirakın aşağıdakı formulunu təklif etmişdir:

$$R = pB - C + D$$

Burada R – seçkilərdə iştirakdan əldə olunan mənfəəti, p – məhz bu seçicinin səsinin həlledici olacağı haqqında ehtimalı, B – seçkilərdə iştirakdan əldə olunan siyasi faydanı, C – mümkün xərcləri, D – səsvermədə iştirakdan bilavasitə əldə olunan qazancı bildirir.

Rasional seçim nəzəriyyəsinin tənqidçiləri qeyd edirlər ki, yalnız əldə edəcəkləri faydanı və öz şəxsi maraqlarını düşünən insanlar bu zaman gələcəkdə baş verə biləcək arzu olunmayan

nəticələri nəzərə almırlar. Məhz buna görə də bir sıra alimlər "faydanın maksimallaşması" prinsipinin əvəzinə, "təəssüfün (peşmançılığın) maksimallaşması" prinsipini irəli sürürlər. Bu o deməkdir ki, fərd bu və ya digər təhlükəli nəticələrdən yaxa qurtarmaq üçün siyasətdə iştirak edir.

**2. Siyasi iştirakın motivasiya nəzəriyyələri.** Siyasi iştirakın motivasiya nəzəriyyəsinə **ideoloji, normativ** və **rol** motivasiyaları aiddir. **İdeoloji motivin** üstünlüyü o deməkdir ki, şəxsiyyət siyasi həyatda cəmiyyətin rəsmi ideologiyasını dəstəkləmək üçün iştirak edir. Bu motiv şəxsi siyasi dəyərlərin dövlətin siyasi dəyərləri ilə identikliyini (eyniləşdirilməsini) təmin edir. Lakin şəxsi və siyasi məqsədlər arasında mövcud olan ziddiyyət, dövlətə və siyasi sistemə qarşı kəskin neqativ və hətta düşmən münasibətin yaranmasına səbəb ola bilər.

**Normativ motivin** üstün olduğu cəmiyyətlərdə insanların siyasi davranışı siyasi sistem tərəfindən diktə olunan, şəxsi dəyər və məqsədlərlə əlaqələndirilməyən qaydalara əsaslanır. Siyasi sistemə tabe etdirilmə ən düzgün və dəyərli istiqamətlənmə hesab olunur.

**Rol motivləri** mövcud siyasi sistemdə fərdin sosial rolu ilə öncədən müəyyən olunur. İnsanda rol motivi üstünlük təşkil etdiyi halda, onun sosial vəziyyəti və öz-özünü necə qiymətləndirilməsi ilə birbaşa bağlanır. Sosial vəziyyəti nə qədər aşağıdırsa, həmin şəxsin mövcud hakimiyyətə qarşı münasibəti bir o qədər radikal olur. Fərdin siyasətə cəlb edilməsi motivlərinin tədqiqinə "humanist" psixologiyanın tərəfdarları böyük töhfələr vermişlər. Bu konsepsiyanın banisi hesab olunan A.Maslou özünün "Motivasiya və şəxsiyyət" adlı kitabında (1954) insan fəaliyyətini şərtləndirən tələbatların orijinal təsnifatını verir. Alimin fikrincə, şəxsi motivlərin beş əsas növü mövcuddur: fizioloji tələbatlar, təhlükəsizlik tələbatı, məhəbbətə olan tələbat, özünütəsdiq tələbatı, özünüaktuallaşdırma tələbatı. Həmin tələbatlar birlikdə sabit bir iyerarxiya yaradır. Bu məntiqdən çıxış edəndə fizioloji tələbatlar ibtidai,

özünütəsdiq və özünüaktuallaşdırma isə ali tələbatlar hesab olunur. İbtidai tələbatlar lazımı dərəcədə təmin edildikdə, insanın fəaliyyətini ali tələbatlar müəyyən etməyə başlayır. Həmin yanaşma siyasi fəaliyyətin araşdırılması üçün də uğurla tətbiq oluna bilər. Bu zaman fizioloji tələbatlar – həyat səviyyəsinin yüksəldilməsi tələbatına; təhlükəsizlik tələbatı – sosial sabitlik, nizam-intizam və qanunçuluğun təmin olunması tələbatına; məhəbbətə olan tələbat – sosial eyniyyət (müəyyən sosial qrupa, partiyaya, hərəkata və s. mənsubiyyət hissi) tələbatına; özünütəsdiq tələbatı – sosial statusun və nüfuzun yüksəldilməsi tələbatına, özünü aktuallaşdırma tələbatı – siyasi sferada şəxsi maraq və məqsədlərin ifadə edilməsi və reallaşdırılması tələbatına transformasiya oluna bilər.

İnsanların ən ilkin tələbatlarının təmin olunmadığı cəmiyyətlərdə, onların siyasi davranış və iştirakı şəxsi maraqlarını həyata keçirmək, hansısa məqsədlərə nail olmaq deyil, yalnız sosial-iqtisadi tələbatların ödənilməməsindən narazılıqlarını ifadə etmək, sosial və hüquqi müdafiə tələbatlarını təmin etmək xarakteri daşıyır.

R.İnqlhartın konsepsiyası əsasında Qərb cəmiyyətinin siyasi davranışında baş verən dəyişikliklərin öyrənilməsi problemi son onilliklər siyasi elmdə çox geniş yayılmışdır. Bu konsepsiyaya uyğun olaraq dayanıqlı, iqtisadi cəhətdən inkişaf etmiş, insanların başlıca maddi tələbatlarının təmin olunduğu cəmiyyətlərdə tədricən postmaddi dəyərlərə doğru irəliləyiş müşahidə olunur. Bu irəliləyiş, ilk növbədə, tələbatlar və iddialar sisteminin dəyişilməsində özünü göstərir. Həyat şəraitinin, ekologiyanın yaxşılaşması, yerli səviyyədə qərarların qəbul edilməsi prosesinə daha çox insanın cəlb olunması, bürokratizm və hakimiyyətin simasızlığının aradan qaldırılması, sosial münasibətlərin həmahəngləşməsi və digər tələbatlar ön plana çıxır. Gənclər, "qeyri-formal", ekoloji, pasifist və bu kimi digər hərəkatların meydana çıxması, ilk

növbədə, postsənaye cəmiyyətində yeni postmaddi tələbatların formalaşması konsepsiyası ilə əsaslandırılır.

**3. Siyasi iştirakın sosial faktorlar nəzəriyyəsi.** Bu nəzəriyyə çərçivəsində institusionallaşma, sosial-iqtisadi bərabərliyin səviyyəsi, sosial mobillik imkanları və digər amillərin siyasi iştirakla qarşılıqlı əlaqə və təsirləri tədqiq olunur. Bununla əlaqədar S. Lipset və D. Lerner siyasi iştirakın digər amillərlə qarşılıqlı əlaqəsinin iki modelini – **liberal** və **populist** modelləri təklif edirlər. Birinci model əsas etibarilə liberal-demokratiyanın mövcud olduğu ölkələrə aid edilir. İkinci model isə inkişaf etməkdə olan ölkələrdə siyasi prosesləri və siyasi iştirakı təsvir etmək üçün yarıyır. **Liberal** modelə əsasən, dinamik sosial-iqtisadi inkişaf sosial bərabərsizliyin zəifləməsinə və beləliklə də, siyasi sabitliyin möhkəmlənməsinə gətirib çıxarır. Hər iki faktor siyasi iştirakın demokratik xarakterinə təsir göstərir (demokratik siyasi sistemin inkişafına və qüvvətlənməyə doğru istiqamətlənməsinə, siyasi fəaliyyətin institusionallaşmasına və s.).

**Populist** model isə əmlak və mülkiyyətin yenidən bölüşdürülməsinə istiqamətlənən iştirakın birbaşa, yəni institusionallaşmamış formasına əsaslanır. İştirakın bu cür formasının güclənməsi iqtisadi modernləşmə prosesinə mane olur, iqtisadi inkişafın sosial şərtlərinə mənfi təsir göstərir, siyasi sabitliyin pozulmasına gətirib çıxarır. Həll olunmamış problemlər yığılıb qalır, siyasi sistemə olan tələblərin sayı çoxalır, bu isə o deməkdir ki, siyasi iştirak intensivləşir. Bütün bunlar öz növbəsində siyasi sistemin möhkəmlənməsi, müxtəlif sosial qrupların maraqlarının təmin olunması ilə nəticələnmir, əksinə yalnız cəmiyyətdə və siyasi sistemdə sabitliyi pozur, sosial və iqtisadi modernləşmə prosesinə mane olur. Populist model modernləşən cəmiyyətlərdə iştirak böhranı və bu kimi digər hadisələrlə çox sıx bağlıdır.

Siyasi iştirakla qeyri-sabitliyin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri problemini S. Hantinqton "Dəyişən

cəmiyyətlərdə siyasi nizam" kitabında (1968) geniş şəkildə təhlil etmişdir. Kitabda Amerika politoloqu müşahidələrinə üç əsas düsturla yekun vurur:

$$\frac{\text{Siyasi iştirak}}{\text{Siyasi institusionallaşma}} = \text{Siyasi qeyri-sabitlik}$$

$$\frac{\text{Siyasi frustrasiya}}{\text{Mobillik}} = \text{Siyasi iştirak}$$

$$\frac{\text{Siyasi səfərbərlik}}{\text{İqtisadi inkişaf}} = \text{Siyasi frustrasiya}$$

S.Hantinqtonun fikrincə, modernləşən avtoritarizm şəraitində sabitliyin təmin olunması kütlələrin siyasi iştirakı rolunun məhdudlaşdırılması ilə əlaqələndirilməlidir, çünki əks halda institutların etibarlılığı sarsılar. Paradoks ondan ibarətdir ki, kütlələrin öz vəziyyətlərindən narazılığı (frustrasiya), cəmiyyətdə üfüqi və şaquli istiqamətdə mobilliyin çatışmaması kütlələrin siyasi proseslərdə iştiraka olan tələbatını gücləndirir. Öz növbəsində, sosial səfərbərliyin artması və iqtisadi vəziyyətin ağırlaşması ilə sosial frustrasiya səviyyəsinin yüksəlməsi müşahidə olunur. "Bütöv götürüldükdə, sosial səfərbərliyin determinantları kimi çıxış edən urbanizasiya, savadlılıq, təhsil və KİV-in təsiri kütləvi ümid və səylərə təkan verir ki, sonuncular, vaxtında təmin edilməyəndə, fərdi və qrup iddialarını siyasiləşdirir. Güclü və kifayət qədər uyğunlaşmış siyasi institutların yoxluğu şəraitində iştirakın belə bir yüksəlişi qeyri-sabitliyi və zorakılığı ifadə edir."[1]

[1] Huntington S.P. Political order in changing societies. New Haven, 1968. P. 47

Beləliklə, siyasi sistemin sabitliyini pozmayan siyasi iştirak üçün tələb olunan şərtlər aşağıdakılardır: müəyyən norma, qanun və prosedurlar çərçivəsində siyasi fəallıq tətbiq etməyə imkan verən institusionallaşmanın yüksək səviyyəsi; intensiv üfüqi və şaquli mobillik; mobilliyin azalması və iqtisadi inkişafın fəallaşması, kütlələrin sosial frustrasiyasının aşağı səviyyəsi.

Siyasi davranış və iştirakın strukturunda davranışın etiraz formaları da müəyyən yer tutur. Qəti siyasi etiraz açıq-aşkar nümayiş formasında bütövlükdə siyasi sistemə, onun ayrı-ayrı elementlərinə, normalarına, dəyərlərinə, qəbul edilən qərarlara neqativ münasibətin ifadəsidir. Davranışın qəti etiraz formalarına mitinqlər, nümayişlər, yürüşlər, tətillər, piketlər, qrup və kütləvi zorakı aksiyalar aiddir. Qəti etiraz davranışın əsas səbəb və mexanizmlərini izah edən deprivasiya konsepsiyasıdır.

**Deprivasiya** - subyektin əldə etməyə səy göstərdiyi, ümid bəslədiyi vəziyyətlə reallıq arasındakı ziddiyyətdən irəli gələn narazılıq əhvalıdır. Sosial gerçəkliyin sosial əhəmiyyət daşıyan dəyərlərlə müqayisəsi zamanı böyük narazılıq hissi yarandıqda belə bir təsəvvür formalaşır ki, bir sıra sosial və siyasi dəyişikliklər prosesində arzuolunan nəticələri çox qısa zamanda əldə etmək mümkündür. Ziddiyyətlərin güclənməsi, narazılığın kütləvi xarakter alması qəti etiraz hərəkatlarında iştiraka dair motivasiyanın yaranmasına səbəb olur. İqtisadi tənəzzül, vergilərin və qiymətlərin kəskin şəkildə artması, standart norma və dəyərlərin məhv edilməsi, sosial statusun itirilməsi, şəxsi uğurların başqalarının uğurları ilə və hansısa "normativ" vəziyyətlə müqayisəsi zamanı mənfi nəticələrin aşkara çıxması və s. deprivasiya amilləri kimi çıxış edir. Qəti etiraz formalarının "partlayışı" əksər hallarda iqtisadi yüksəlişdən tənəzzülə doğru keçid dövründə, insanların öz yeni vəziyyətlərinin əvvəlki vəziyyətləri ilə müqayisəsi zamanı baş verir.

Siyasi təcrübə göstərir ki, hələ "adam olub ortaya çıxmaq" və öz vəziyyətini yaxşılaşdırmaq ümidini itirməyən, cəhdlərini möhkəmləndirən insanlarda narazılıq qəti etiraza səbəb olur. Buradan belə bir nəticəyə gəlmək olar ki, etiraz davranışı öz vəziyyətini nisbətən yaxşılaşdıran insanlar arasında daha geniş yayılıb, nəinki sabit olaraq pis vəziyyətdə yaşayan insanlar arasında. Siyasi etirazın müxtəlif formalarının aktivləşməsi prosesi iqtisadi yüksəliş dövründə də mümkündür. Belə dövrlərdə, ümidlərin artma sürəti tələbatların ödənilməsini təmin edən iqtisadi imkanları xeyli dərəcədə ötüb keçə bilər. Bu cür ziddiyyətin nəticəsində getdikcə güclənən narazılıq istisna olunmur. Lakin narazılıq ən vacib səbəb olsa belə, insanların etiraz davranışının yeganə səbəbi deyil. Etirazın baş tutması üçün sosial narazılığın müəyyən səviyyəsi, sosial dəyişikliklərin məqbul vasitəsi kimi kütləvi fəaliyyətin və gücün tanınması lazımdır. Radikal ideologiyalar, şüarlar və simvolik aksiyalar, siyasi rejimə münasibətdə etimadsızlıq, tələblərin ifadə edilməsinin ənənəvi üsullarına inamın azalması deprivasiyanın artmasına və etiraz hərəkətlərinin aktivləşməsinə səbəb olur. İnstitusionallaşmanın aşağı səviyyəsinin mövcudluğu şəraitində mitinqlər, nümayişlər, yürüşlər, tətillər və siyasi etirazın bu kimi digər geniş yayılmış formaları kütləvi iğtişaşa, zorakılığa, hakimiyyətlə birbaşa toqquşmalara gətirib çıxarır. Məhz buna görə də demokratik ölkələrin əksəriyyətində kütləvi siyasi tədbirlərin keçirilməsi bu cür aksiyaların təşkili üçün bir sıra tədbirlərin görülməsini nəzərdə tutan xüsusi qanunlarla tənzimlənir (keçirilən tədbirlər haqqında ölkə rəhbərliyinin məlumatlandırılması və ya keçirilən mitinqlər, nümayişlər, yürüşlər üçün təşkilatçıların əvvəlcədən rəhbərlikdən icazə alması və s.).

Siyasi davranışın siyasi iştiraka zidd olan növü absenteizmdir. **Absenteizm** (lat. absens – iştirak etməmək) dedikdə, siyasi həyatda (səsvermədə, seçki kampaniyalarında, etiraz aksiyalarında, partiyaların, maraq qruplarının və s.

fəaliyyətində) iştirak etməkdən imtina, siyasətə və siyasi normalara marağın itməsi, yəni siyasi fəaliyyətsizlik başa düşülür. Absenteist davranış tipi istənilən cəmiyyətdə mövcuddur. Lakin bu tip davranışın və süst insanların sayının artması siyasi sistemin legitimliyinin, onun norma və dəyərlərinin ciddi böhrana məruz qalmasını sübut edir. Absenteizmi şərtləndirən əsas amil insanda hamı tərəfindən qəbul edilmiş adi mədəniyyət normalarının, demək olar ki, sıxışdırılıb çıxarılması şəraitində submədəniyyət normalarının üstünlüyüdür. Nəticədə insan mövcud dünyanı öz mədəniyyəti çərçivəsinə sığmayan yad və xəyali qəbul edir. Şəxsi maraqların yüksək səviyyədə təminatı da siyasətə marağın itməsinə gətirib çıxara bilər. Bir sıra politoloqların fikrincə, insanın öz problemlərini müstəqil surətdə həll etmək, şəxsi maraqlarını müdafiə edə bilmək qabiliyyəti onda siyasətin lazımsızlığı hissini doğurur; daha qüvvətli qruplar tərəfindən şəxsi maraqlara olan təhlükə isə, əksinə siyasətə öz maraqlarını qoruma və müdafiəetmə vasitəsi kimi yanaşmaq təşəbbüsünü əmələ gətirir.

Siyasi fəaliyyətsizlik mürəkkəb problemlər qarşısında şəxsi zəiflik, bacarıqsızlıq hissindən, siyasi institutlara inamsızlıqdan, qərarların işlənib-hazırlanması və qəbulu prosesinə təsir edə bilmək imkanının olmamasından da irəli gələ bilər. Absenteizm, eyni zamanda qrup normalarının dağılması, hansısa sosial qrupa mənsubiyyət hissinin, o cümlədən sosial həyatın dəyər və məqsədlərinin itməsi, şəxsi həyatın siyasətlə sıx bağlılığı haqqında təsəvvürlərin yoxluğu ilə də şərtlənir. Absenteizm daha çox gənclər, submədəniyyət nümayəndələri, aşağı təhsil səviyyəsinə malik insanlar arasında müşahidə olunur.

İndi isə siyasi iştirakın daha geniş yayılmış tipini – elektoral davranışı bir qədər ətraflı şəkildə nəzərdən keçirək və müasir siyasi elmdə necə təhlil olunmasını qısa şəkildə izləyək.

## §2. Siyasi elmdə elektoral davranış problemlərinin təhlili

Siyasi elmdə **elektoral** (lat. elektor-seçici) **davranış** fenomeni ilə əlaqədar müxtəlif təriflər mövcuddur. Ümumi şəkildə elektoral davranış – seçki kampaniyası prosesində seçicilərin (real və potensial) davranışıdır. Daha konkret formada desək, vətəndaşların nümayəndəli hakimiyyət orqanlarına keçirilən yerli və ümummilli seçkilərdə, həmçinin referendumda iştirakı ilə bağlı fəaliyyətidir.

Rusiyalı politoloq A.A.Raduqinin fikrincə, elektoral davranış siyasi davranışın ən geniş yayılmış növlərindən olub potensial seçicilərin səsvermədə iştirak edib-etməməyində ifadə olunur.[1]

Bir sıra tədqiqatçılara görə isə elektoral davranış kütlələrin səsvermə aktını həyata keçirərkən onların sosial əhval-ruhiyyə, o cümlədən manipulyativ texnologiyaların təzyiqi altında davranışıdır.[2]

Elektoral davranış müxtəlif formalarda təzahür edir. Məsələn, **etiraz səsverməsi, hər kəsin əleyhinə səsvermə,** əksər seçicilərin dəstəklədiyi partiya və ya liderin lehinə **konformist** səsvermə və s. Seçkilərdə iştirakın əsas motivini insanların hakimiyyətə təsir etmək və ya ona öz münasibətini nümayiş etdirmək cəhdi təşkil edir. Seçkilərdən yayınmanın əsas motivi kimi isə seçkilərdə iştirakdan heç nəyin asılı olmamasının dərk edilməsi, siyasətə marağın olmaması, absenteizm və s. çıxış edir.

---

[1] Политология в вопросах и ответах для экзаменов и зачетов. Учебное пособие для вузов. Под ред. А.А. Радугина – М.: Центр, 2001. С. 167

[2] Мелешкина Е. Ю. Исследование электорального поведения: теоретические модели и проблемы их применения//Зарубежная политология в XX столетий (под ред. М. Ильина). –Москва: ИНИОН РАН, 2001

Elektoral davranışla bağlı tədqiqatların başlanğıcı XX əsrin əvvəllərinə təsadüf edir. Siyasi coğrafiya çərçivəsində aparılan ilk tədqiqatların faktiki əsasını fransız alimi A.Ziqfrid qoymuşdur. O, səsverməni izah edən və "insan coğrafiyası" adlanan maraqlı analitik modeli təklif etmişdir. Elektoral statistikanın təhlili əsasında coğrafi, iqtisadi, sosial-mədəni dəyişikliklərlə seçkilərin nəticələrini müqayisə edərək, Ziqfrid belə nəticəyə gəlmişdir ki, elektoral davranışa üç amil təsir edir: **landşaftın xüsusiyyətləri, məskunlaşma tipi** və **mülkiyyətə münasibət.** Bu amillər öz növbəsində bir-biri ilə əlaqəli olub, səsverməyə birbaşa təsir edən sosial strukturu, dini mühiti müəyyən edir.

Həmin model elektoral davranışın tədqiqində «sosial-iqtisadi» istiqamətin inkişafında əhəmiyyətli rol oynamış və xüsusilə Qərbi Avropada geniş yayılmışdır. 50 – 60-cı illərdən bu istiqamətə **struktur-funksional** yanaşma daxil olur. Əsas diqqət elektoral davranışda struktura, ilk növbədə, siyasi amillərin üzə çıxarılması və elektoral məkanın konfiqurasiyasına yönəldilir.

50 – 60-cı illərdən etibarən elektoral tədqiqatlarda kəmiyyət metodlarından geniş istifadə olunmağa başlanılır. Elektoral statistika əsasında təhlilin tipoloji, iyerarxik, korrelyasiyalı və reqressiv tipləri geniş tətbiq edilir.

Hələ XX əsrin birinci yarısında statistik metodların məhdudluğu, xüsusən də onların seçicinin fərdi davranışının xüsusiyyətlərini üzə çıxara bilməməyi aşkar edildi. Bu çatışmazlıqların aradan qaldırılması üçün elektoral birlikləri təşkil edən fərdlər haqqında anket-informasiyanı təhlil etməyə imkan verən müxtəlif sosioloji sorğular keçirilməyə başlandı. Bu metodlar seçicilər və onların davranışlarının siyasi, sosial və mədəni xüsusiyyətləri arasında fərdi korrelyasiyanı müəyyən etmək imkanı verdi.

1944-cü ildə P. Lazarsfeld başda olmaqla Kolumbiya Universitetinin sosioloqları B. Berelson və H. Qode tərəfindən

bihevioral metodoloji istiqamət irəli sürülür. İlk dəfə panel texnikasının köməkliyi ilə Amerikada 1940-cı il prezident seçki kampaniyasının təsiri altında Ohayo ştatının seçicilərinin davranışı tədqiq edilmişdir. Nəticədə "Xalqın seçimi. Prezident seçkiləri üzrə kampaniya zamanı seçici necə qərar qəbul edir" adlı kitab ərsəyə gəldi. Bu tədqiqat seçicilərin seçkilərdə fərdi davranışının öyrənilməsi baxımdan əhəmiyyətli oldu. Sonralar həmin metod Miçiqan Universitetinin nümayəndələrinin tədqiqatlarında inkişaf etdirilərək elektoral davranışın sosial-psixoloji modeli kimi siyasi elmdə qəbul edildi.

İndi elektoral davranışın formaları və ona təsir edən amillərlə bağlı bir sıra konseptual modellər, yanaşmalar mövcuddur. Hər bir yanaşmada elektoral davranışın hansısa aspekti tədqiq edilir və diqqət müəyyən amillərin təsiri ilə elektoral seçimin təbiətini izah etməyə yönəldilir. Bu yanaşmaların təhlili seçicinin siyasi davranışına müxtəlif amillərin təsirinin kompleks şəkildə mənzərəsini yaratmağa imkan verir. Bütövlükdə həmin modelləri üç qrupa bölmək olar: **sosioloji, sosial-psixoloji və rasional seçim** modeli.

**1. Sosioloji model.** Bu «klassik» modelin əsasını yuxarıda göstərildiyi kimi, P.Lazarsfeldin rəhbərliyi ilə Kolumbiya Universitetinin nümayəndələri qoymuşdur. Onlar sosial təbəqələşmə amilini əsas götürərək 1940-cı ildə Amerikada keçirilmiş prezident seçkilərinin materialları əsasında siyasətdə partiya mübarizəsini və elektoral davranışı tədqiq etmişdilər. Sosioloji modelin müəllifləri belə nəticəyə gəlmişlər ki, səsvermə zamanı seçicilərin seçimini onların şüurlu olaraq öz siyasi dəyərləri deyil, böyük sosial qruplara mənsubiyyəti müəyyən edir. Hər bir müvafiq qrup bu və ya digər partiyanın sabit elektoral bazasını təmin edir. Səsvermə aktının özü isə seçicinin fərdi iradəsini azad ifadə etməsindən daha çox, onun müəyyən qrupla həmrəy olduğunu nümayiş etdirməsidir. Seçicilərin belə davranışı **ekspressiv** adlandırıldı. Beləliklə, bu yanaşmanın nümayəndələri seçicinin necə deyil, nəyə görə bu

və ya digər siyasi qüvvəyə səsverməsini öyrənməyə cəhd göstərmişlər.

Sosioloji modelin inkişafında S. Lipset və S. Rokkanın "Partiya sistemləri və seçicilərin bölünməsi" (1967) məqaləsi mühüm rol oynamışdır.[1] Bu məqalədə Qərbdə partiya sistemlərinin və seçicilərin üstünlük verdikləri strukturların formalaşmasının «genetik modeli», sosial-qrup münaqişələrinin ideoloji və partiya differensiasiyasına təsiri əsaslandırılır. Onlar səsvermənin qrup əsasını vurğulayaraq, elektoral seçimin formalaşmasının fərdiçilik izahını tanımırlar. Müəlliflərin fikrincə, sosial qruplar arasındakı fərqlər siyasi münaqişələrin potensial əsasını təmin edir və eyni zamanda siyasətin problem məkanını və partiyaların sosial bazasını yaradır.

Lipset və Rokkan cəmiyyətdə sosial «parçalanmaya» («devage») gətirib çıxaran bir neçə fərqi vurğulayırlar. Bunlar sinfi (mülkiyyətçilər və fəhlələr arasında), dini (dövlətlə kilsə arasında), məskunlaşma (şəhərlə kənd və eyni zamanda mərkəzlə əyalətlər arasında) baxımından formalaşan fərqlərdir. Həmin fərqlər partiya və namizədlərə elektoral dəstəyin strukturlaşmasının müəyyənləşdirilməsində köməklik göstərir.

Sosioloji model çərçivəsində subyektiv faktorlar, məsələn, siyasi yönəlişliklər (ustanovkalar, «attitudes») haqqında müxtəlif fikirlər mövcuddur. Bir sıra alimlər hesab edirlər ki, sosial amillərin təsirinin təhlili prosesində seçicilərin siyasi yönəlişliklərini nəzərə almaq vacibdir, çünki sonuncular sosial mövqeləri və elektoral seçimi əlaqələndirən özünəməxsus mexanizmlərdir. Bu nöqteyi-nəzər səsvermənin sosial-psixoloji nümayəndələrinin mövqeləri ilə xeyli dərəcədə üst-üstə düşür.

Digər müəlliflər seçicilərin siyasi yönəlişliklərini, eyni zamanda ilkin qruplarda fərdlər arasında interaktiv qarşılıqlı fəaliyyətin elektoral davranışa əhəmiyyətli təsirini inkar edirlər.

---

[1] Lipset S. Rokkan S. Cleavage structures, party system and voter alignments: An introduction.//Party system and voter alignments N.Y. 1967. P.50

Bununla yanaşı, hətta bu tədqiqatçılar bəzi subyektiv amillərin təsirini qəbul edirlər.[1]

**2. Sosial-psixoloji model.** Bu klassik modelin nümayəndələri hesab edirlər ki, səsvermə seçicilərin müəyyən siyasi partiyalara bəslədiyi möhkəm sədaqət hissini, öz siyasi mövqeyini nümayişetdirmə vasitəsidir. Siyasi elmə sosial psixologiyadan gələn bu yanaşma ilk dəfə Miçiqan Universitetində inkişaf etdirildiyindən, onu daha çox Miçiqan məktəbi adlandırırlar. Sosial-psixoloji istiqamətdə yazılmış klassik əsər Albert Anqus Kempbel, Filip Konvers, Uorren Miller və Donald Stoksun «Amerika seçicisi» (1960) monoqrafiyasıdır. Burada ABŞ-da 1952 və 1956-cı illərdə keçirilmiş prezident seçkiləri təhlil edilir.[1]

Qeyd edilən modelin nümayəndələri aşağıdakı mühakimələri irəli sürmüşlər:

- seçicilərin əksəriyyətinə hər hansı bir partiyaya yaxınlıq hissi məxsusdur (partiya eyniləşdirilməsi);
- partiya eyniləşdirilməsinin formalaşmasında əsas agent ailədir. Məhz ailədə partiya loyallığı yaranır və möhkəmlənir;
- partiya eyniləşdirilməsinin funksiyası – seçicilərə siyasi informasiyadan baş açmağa və hansı partiyaya səs verməyi aydınlaşdırmağa kömək etməkdir;
- bəzi mərhələlər istisna olmaq şərti ilə partiya identifikasiyasında dəyişikliklər son dərəcə fərdi xarakter daşıyır və çox vaxt coğrafi və ya sosial mobilliyin nəticəsində hər hansı qrupa mənsubiyyətin dəyişməsini əks etdirir.

Sosial-psixoloji modelə əsasən, elektoral seçim seçicilərin siyasi prosesin üç əsas aspektinə - namizədlərə, siyasi kurslara və partiyalarla sosial qruplararası əlaqələrə dair

---

[1] Danleavy P., Husbands C. British Democracy at the Crossroads. – London, 1985

[1] Campbell A., Converse P., Miller W., Stockes D. The American Voter. – New York, 1960.

yönəlişliklərinin təsiri altında formalaşır. Hər bir yönəlişlik, xüsusən də qısamüddətli perspektivdə, elektoral seçimə nisbətən müstəqil təsir göstərir.

Sosial parametrlərin siyasi dəyərlərə təsiri inkar edilmir, lakin həmin təsir əsas amil olan partiya eyniləşdirilməsi vasitəsilə ifadə olunur. Partiya eyniləşdirilməsi özünəməxsus filtr rolunu oynayır. Bu filtrdən qeyd edilən üç aspektə aid informasiya ötürülür. Uzunmüddətli perspektivdə həmin yönəlişliklər elə özünəməxsus kanallar qismində çıxış edir ki, bunların vasitəsilə elektoral seçimə partiya eyniləşdirilməsinin təsiri həyata keçirilir. Beləliklə, özünü, məsələn, kommunist hesab edən seçici kommunist partiyasının (namizədin, kursun) onun sosial qrupunun maraqlarını digər partiyalara nisbətən daha yaxşı müdafiə etdiyinə inanır. Belə halda partiya eyniləşdirilməsi işə düşür; konkret problem, yaxud namizədlər səviyyəsində rasionallaşma baş vermir.

Müxtəlif dövrlərdə aparılan empirik tədqiqatlar göstərir ki, sosial-psixoloji yanaşma bütövlükdə işləyir. Bu yanaşmadan Qərbi Avropa və ABŞ-da seçicilərin davranışının öyrənilməsində uğurla istifadə edilir. "Partiya eyniləşdirilməsi" termini isə öz növbəsində elektoral davranışın tədqiqində ən geniş yayılmış termin olmuşdur. Eyni zamanda getdikcə bu modelin məhdudiyyətləri və çatışmamazlıqları üzə çıxır.

Miçiqan məktəbinin nümayəndələri əsasən seçicinin necə səsverməsi, yəni onun davranışına partiya eyniləşdirilməsinin və digər yönəlişliklərin necə təsir etdiyi sualına cavab tapmağa çalışırdılar. Bu zaman isə seçicinin nə üçün bu və ya digər seçimi etməsi problemi, sosial faktorların səsverməyə təsiri hazırkı istiqamət çərçivəsində kifayət qədər tədqiq edilməmiş qalırdı. Belə vəziyyət onunla bağlı idi ki, qrup mənsubiyyətindən danışdıqda, sosial-psixoloji yanaşmanın nümayəndələri qrupun sosial strukturundakı mövqeyindən daha çox, onun psixoloji mahiyyətinə diqqət yetirirdilər. Məsələn, ABŞ-da aparılan tədqiqatlar göstərir ki, seçicilər əksər hallarda

psixoloji meyil göstərdikləri partiyaya səs verirlər. «Partiya eyniləşdirilməsi» kimi müəyyən edilən belə seçim vacib fərdi dəyərdir, həmin psixoloji meyildən hətta real maraqlar tələb etdikdə belə imtina etmək asan deyildir. Tərəfdarlarının təsəvvürlərinə görə müəyyən partiyaya dəstək vermək, özünü partiya ilə eyniləşdirmək meyli fərddə erkən sosiallaşma prosesində yaranır.

Elektoral davranışın tədqiq edilən hər iki klassik modelinin çatışmazlıqları XX əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərində daha aydın görünməyə başlayır. Belə ki, bu dövrdə inkişaf etmiş liberal demokratiyaların əksəriyyətində seçicilərin ənənəvi siyasi partiyalardan kütləvi kənarlaşması prosesi sürətlənməyə və səsvermə zamanı sinfi mənsubiyyətlə seçim arasında əlaqə kifayət qədər zəifləməyə başlayır. Yuxarıda göstərilən nəzəriyyələrin qeyri-adekvatlılığının dərk olunması tədqiqatçıları elektoral davranışı daha dəqiq və dolğun izah edə biləcək yanaşma axtarışına cəlb etdi ki, nəticədə **rasional-instrumental** seçim modeli yarandı.

3. **Rasional seçim modeli.** Bu modelin nümayəndələri elektoral davranışın təhlili zamanı iki əsas postulatdan çıxış edirlər. Birincisi, fərd eqoistdir, yəni öz şəxsi məqsədlərinə nail olmağa can atır. İkincisi, fərd rasionaldır, yəni öz mənfəətini maksimallaşdırmağa çalışaraq əldə etdiyi nəticə ilə xərclərini tutuşdurur. Bu modelin fundamental müddəası Entoni Daunsun «Demokratiyanın iqtisadi nəzərriyyəsi» (1957) əsərində irəli sürülmüşdür. Həmin müddəaya əsasən, hər bir vətəndaş ona digər partiyalardan daha çox mənfəət verə biləcək partiyaya səs verir.[1]

Belə yanaşma Moris Fiorinanın «retrospektiv səsvermə» nəzəriyyəsində inkişaf etdirilir.[2] Alimin əsas ideyalarını bir

---

[1] Downs A. An Economic Theory of Democracy. N.Y., 1957.

[2] Fiorina M. Retrospective Voting in American National Elections. – New Haven, 1981.

qədər sadələşdirərək belə bir nəticəyə gəlmək olar: adi vətəndaşları mövcud hakimiyyətin daxili və xarici siyasətinin detalları maraqlandırmır. Onlar üçün yalnız bir şey əhəmiyyətlidir – mövcud hakimiyyətin fəaliyyəti dövründə onların yaşamı necə olmuşdur. Başqa sözlə desək, ölkənin iqtisadi vəziyyəti ilə seçkilərin nəticələri arasında birbaşa əlaqə vardır və səsvermə zamanı seçici o mövqedən çıxış edir ki, məhz hakimiyyət iqtisadi vəziyyətə görə məsuliyyət daşıyır. Əgər vətəndaş yaxşı yaşamışsa, mövcud hakimiyyətə (prezidentə, hakim partiyaya), pis yaşamışsa, müxalifətə səs verir.

Rasional seçim modeli çərçivəsində öz inkişafını tapan digər nəzəriyyə Hilda Himmelveytin **«seçici istehlakçı kimi»** nəzəriyyəsidir. Bu nəzəriyyədə mövcud problemlərin və siyasi qüvvələrin təkliflərinin seçicinin instrumental və fərdi seçiminə təsiri tədqiq edilir. Mahiyyətinə görə həmin nəzəriyyə **«perspektiv səsvermə»** nəzəriyyəsidir.[1]

Rasional seçim modelində səsvermənin iki növü müəyyən edilmişdir: «eqosentrik-sosiotrop səsvermə» və «retrospektiv-perspektiv səsvermə». Eqosentrik səsvermə zamanı seçici öz seçimini şəxsi iqtisadi vəziyyəti ilə əsaslandırırsa, sosiotrop səsvermə zamanı ölkənin iqtisadi vəziyyətinə və nəticələrinə diqqət yetirir. Retrospektiv səsvermədə seçici üçün keçmiş hakimiyyətin qiymətləndirilməsi, perspektiv səsvermədə isə özünün seçdiyi hakimiyyətin gələcəkdə nə dərəcədə uğurlu fəaliyyət göstərəcəyi haqqında ümidləri vacibdir.

Bütün qeyd olunan konsepsiyalar Qərbi Avropa və ABŞ-da empirik tədqiqatlar zamanı yoxlanılmışdır.

Elektoral davranışa təsir edən amilləri araşdıran rusiyalı alim E.Meleşkinanın fikrincə, seçicinin davranışına iki qrup uzunmüddətli sosial və sosial-psixoloji amil təsir edir: universal

---

[1] Himmelweit H.T., Humphreys P., Jaeger M. How voter decide.-Milton Keynes, 1985

və tarixi şərtləndirilmiş qruplara bölünən amillər.[1] Universal qrupa demoqrafik amil aiddir. Söhbət sosial-demoqrafik xüsusiyyətlərdən (yaş və cins) və bununla bağlı nəsil və gender xüsusiyyətlərindən gedir. Digər amillər, məsələn, sosial-sinfi təfriqələr, yaxud təhsil səviyyəsi cəmiyyətin inkişafının müəyyən mərhələsində meydana gəlir və ya yoxa çıxır, yəni tarixən şərtləndirilmiş olur. Bunu inkişaf etmiş demokratik ölkələrin timsalında nəzərdən keçirək.

Sosioloji modelin nümayəndələrinin irəli sürdüyü əsas sosial təfriqələrin yaranması Qərbdə gedən modernləşmə prosesləri ilə bağlı olmuşdur. Modern dövründə dini ziddiyyətlər, şəhərlə kənd, mərkəzlə əyalət arasında əvvəllər mövcud olan təfriqələr əhalinin üstün siyasi dəyərlərində öz ifadəsini tapır. Fəhlə və kapitalistlər arasında ziddiyyətlər məhz bu mərhələdə meydana çıxır və tamamilə formalaşır. Qərbin tarixi inkişaf təcrübəsi göstərir ki, siyasi səviyyədə sosial faktorların təsiri uzun müddət Qərb demokratiyasının siyasi səhnəsinin strukturunu və problematikasını müəyyən edən iqtisadi liberalizm və sosial istiqamətlənmə tərəfdarları, katoliklərlə protestantlar, dindarlarla ateistlər arasında mövcud olan təfriqələrin və ayrı-ayrı siyasi submədəniyyətlərin mövcudluğunda öz əksini tapır.

Sosial faktorların təsiri, eyni zamanda siyasi nümayəndəlik institutlarının formalaşması ilə daha da fəallaşmışdır. Sosial qrupların mövcudluğu partiyaların sosial bazalarının formalaşma prosesini xeyli yüngülləşdirdi; sosial qruplar partiyaların üzvlük, maliyyə və elektoral dəstəyini təmin edərək onların siyasi və təşkilati əsasını yaratdılar. İctimai inkişafın müəyyən mərhələsində partiyalar qrup maraqlarının siyasi səviyyədə təmsilçilik funksiyasını yerinə yetirməyə başladılar.

---

[1] Мелешкина Е. Ю. Политический процесс: основные аспекты и способы анализа. – Москва: Инфра – М, 2001

S.Lipset və S.Rokkanın mühakimələrinə əsaslanan sosial tədqiqatlar səsverməyə təsir edən başlıca sosial, xüsusilə də sosial və dini fərqlərin əhəmiyyətini nümayiş etdirdi. Sorğular və statistik tədqiqatlar Qərbdə seçicilərin partiya-siyasi üstünlüklərinin nisbi sabitliyini göstərərək, sosial-psixoloji modelin böyük əhəmiyyətini üzə çıxartdı.

Aparılan elmi işlərin yekunlarına əsasən, belə bir nəticəyə gəlmək olar ki, qeyd edilən fərqlərin təsiri aşağıdakı ən ümumi təmayüllərdə özünü büruzə vermişdir: fəhlələr daha çox sol partiyalara, iş adamları və sahibkarlar sağçılara, dini submədəniyyətlərin nümayəndələri dini çalara malik və ya mühafizəkar partiyalara, kənd əhalisi ənənəvi sağ partiyalara, şəhər əhalisi solçulara səs verməyə meyilli idilər. Qeyd etmək lazımdır ki, bu təmayüllər heç də bir mənalı deyil və həmişə aydın şəkildə təzahür etmirlər.

1960 – 1970-ci illərdə sənaye cəmiyyətində struktur böhranının təsiri altında gedən sosial-siyasi transformasiya prosesləri ilə əlaqədar olaraq elektoral davranışa nüfuz edən yeni amillərin xarakterinin və intensivliyinin dəyişməsi müşahidə olunur. Qərb ölkələrində yaşanan sənaye cəmiyyətinin böhranı klassik sosial-siyasi qrupların dağılması, sosial strukturun mürəkkəbləşməsi, əhalinin yeni orta təbəqələrinin meydana çıxması və inkişafı, sosial və coğrafi mobilliyin artması meyilləri müşahidə olunur. Məsələn, İsveç, Böyük Britaniya, Avstraliyada sinfi səsvermə indeksi son onilliklərdə iki dəfə, Almaniyada 2/3 dəfə azalmışdır. Əhəmiyyətli dərəcədə azalma meyli ABŞ-da Konqresə keçirilən seçkilərdə və nisbətən az dərəcədə prezident seçkilərində də özünü göstərir.[1]

Qeyd edilən dəyişikliklər elmdə bu fenomenin müxtəlif cür şərhinə səbəb oldu. Bir sıra müəlliflər hesab edirlər ki, sosial

---

[1] Dalton R.J. Political Cleavages, İssues and Electoral Change // Comparing Democracies. Elections and Voting in Global Perspective. – Thousand Oaks, 1996. P.323.

status fərqləri səsverməyə yenə də həmin mühüm təsiri göstərir, yalnız sosial status fərqlənmələrinin əsası dəyişmişdir. Tədqiqatçılar sosial status mənsubiyyətinin yeni meyarlarını, məsələn, təhsil səviyyəsini və informasiyaya sahib olmanı, özəl və dövlət sektoru arasında fərqləri və s. irəli sürürlər. Nəticədə sosial strukturun və elekloral davranışın daha mürəkkəb modelləri üzə çıxır. Son onilliklərdə elektoral davranışa dini amilin də təsiri xeyli azalmışdır. Sosial modernləşmə dini əlaqələri zəifədir. Həyat tərzi dəyişir, dindarların fəallıq səviyyəsi azalır, ictimai həyatın tədricən dünyəviləşdirilməsi baş verir. Əhəmiyyətli milli fərqlərin olmasına baxmayaraq (məsələn, Fransa, İspaniya, Böyük Britaniya, Skandinaviya ölkələri dini münasibətlərdə xeyli dərəcədə homogen, Almaniya, Hollandiya, ABŞ isə heterogendir, burada dini amilin təsiri daha güclüdür), bu amilin təsirinin azalması meyli bütün ölkələrdə ümumidir. Onun səsverməyə təsirinin göstəriciləri kifayət qədər aşağıdır.

Getdikcə regional məskunlaşma xüsusiyyətləri, irqi və etnik mənsubiyyət kimi digər sosial amillər də öz təsirini itirməkdədir. Həmin amillərin bəzi ölkələrdə əhəmiyyətli olmasına baxmayaraq (Böyük Britaniya, Kanada, Belçika və başqa ölkələrdə dövri olaraq immiqrasiya və s. ilə əlaqədar regional və etnik ziddiyyətlər müşahidə olunur), müqayisəli tədqiqatların nəticələrinə əsasən, bütövlükdə bu amillərin təsiri böyük deyildir.

Sürətlənən coğrafi mobillik və KİV-in inkişafı qeyd edilən amillərlə yanaşı, şəhər-kənd arasında ziddiyyət amilinin də təsirini heçə endirir.

Son zamanlar seçicilərin partiya eyniləşdirilməsinin zəifləməsi və ideoloji qarşıdurmanın səviyyəsinin aşağı düşməsi, qısamüddətli amillərin, məsələn, siyasi liderin imicinin təsirinin artması təmayülü müşahidə olunur. Bu təmayülün inkişafı aşağıdakılarla bağlıdır: müasir sosial dəyişikliklər, eyni zamanda dəyər istiqamətləndirilmələrinin strukturunun dəyiş-

məsi, qəti sosial etirazın fərdiləşməsi, ənənəvi partiyaların hakimiyyət sisteminə inteqrasiyası və müvafiq olaraq onların oliqarxlaşması, əksər siyasi partiyaların yeni tələblərə uyğunlaşmaq qabiliyyətinin yüksək olmaması öz sosial bazaları ilə əlaqələrinin zəifləməsinə və seçicilərin davranışının fərdiləşməsinə gətirib çıxarır.

Bu, seçicilərin siyasi nümayəndəlik institutu kimi partiyalara təkcə inamının azalmasında və partiya fəallığının səviyyəsinin enməsində ifadə olunmur, həm də partiya eyniləşdirilməsi amilinin səsvermənin nəticələrinə təsirini zəiflədir. Özünü hər hansı bir partiya ilə eyniləşdirən seçicilərin sayının azalması ilə yanaşı, partiya eyniləşdirilməsinin seçkilərin nəticələrinə təsirinin aşağı düşməsi dolayısıyla dəyişkən seçicilərin artmasında da aşkar olunur.

Məsələn, keçən əsrin 60-cı illərində ABŞ-da partiya eyniləşdirilməsinin səsverməyə təsiri daha əhəmiyyətli olanda, siyasi partiyaların sabit tərəfdarları 35 – 37 % təşkil edirdisə, 80-ci illərdə bu göstərici 25%-ə endi. Bu gün amerikalıların 1/5 hissəsi seçkilərdə öz siyasi üstünlüklərini dəyişir. 60-cı illərdə Böyük Britaniyada siyasi partiyaların sabit tərəfdarları 40% təşkil edirdilərsə, 80-ci illərdə bu faiz təqribən iki dəfə azalmışdır.[1] Tədqiqatlar göstərir ki, analoji proseslər digər ölkələrdə də baş verir.

Lakin partiya və ideoloji eyniləşdirmə təsirinin zəifləməsinə baxmayaraq, bu amillər elektoral davranışa hazırda da kifayət qədər əhəmiyyətli təsir göstərməkdədir.

Elektoral davranışın təkamülünün digər təmayülü siyasi istiqamətlərin formalaşması prosesinin rasionallaşması və elektoratın 10 – 15%-ni təşkil edən «yeni seçici» kateqoriyasının meydana gəlməsidir. Bu qrup seçicilər, ilk növbədə,

---

[1] Dalton R.J. Citizen Politics in Western Democracies: Public Opinion and Political Parties in the United State, Great Britain, West Germany and France.- Chatham, 1988. P. 188.

mobilliyi, seçkilərdə müntəzəm surətdə iştirak etmələrinə baxmayaraq, siyasi üstünlüklərinin qeyri-sabitliyi ilə xarakterizə olunur. Bu qrupun nümayəndələri bir qayda olaraq əhalinin daha savadlı orta təbəqəsindən, «sosioloji mərkəzdən» çıxan insanlardır. Onlar gənc, yaxşı məlumatlandırılmış, hakimiyyət koalisiyalarının «aşkarlıq» siyasətinə münasibətdə müsbət əhval ruhiyyəlidirlər. Onların elektoral prosedurlara münasibətləri istehlakçının mövqeyi ilə müəyyən edilir.

Bu seçici qrupunun meydana gəlməsi elektoral seçimin baş verən rasionallaşmasını əks etdirir. Siyasi üstünlüklərin formalaşması səviyyəsində həmin proses vətəndaşların müxtəlif, xüsusilə də iqtisadi problemlərlə bağlı mövqelərinin elektoral seçimə təsirinin artmasında özünü göstərir. Əgər əvvəllər seçicilərin müxtəlif problemlərlə bağlı mövqeləri, onların sosial qruplara və ya partiyalara mənsubiyyəti ilə reallaşırdısa, bəzi tədqiqatçıların qeyd etdiyi kimi, indi bu mövqelər siyasi şüurun fərdiləşməsi prosesi ilə əlaqədar birbaşa həyata keçirilə bilər.

«Klassik» sosial təfriqələrin və partiya eyniləşdirilməsi amilinin təsirinin zəifləməsi ilə paralel şəkildə cəmiyyətin inkişafının postsənaye mərhələsi, dəyərlərin postmaddi sisteminin əmələ gəlməsi və inkişafı ilə bağlı olaraq siyasi üstünlüklərin yeni əsasları meydana çıxır. Həyatın keyfiyyəti, ətraf mühitin mühafizəsi, qadın hüquqları problemləri getdikcə daha çox seçicini cəlb edir.

«Yeni» dəyərlərə, yeni problemlərə istiqamətlənmə, ilk növbədə, ənənəvi, sosial təbəqələşmə sisteminə daha az dərəcədə daxil olunmuş sosial qrupun ən savadlı, gənc, qeyri-dindar, başqa sözlə desək, sıralarından «yeni seçici» cəlb olunan sosial təbəqələrin nümayəndələri üçün xasdır.

Müqayisəli politoloji tədqiqatların nəticələri göstərir ki, sosial-qrup və xüsusilə də siyasi eyniləşdirilmə amilləri hələ də seçkilər ərəfəsində seçicilərin siyasi istiqamətlənmələrinin formalaşmasında əhəmiyyətli rol oynamaqdadır. Lakin son

onilliklərdə inkişaf etmiş demokratik dövlətlərdə siyasi istiqamətlənmələrin tərəqqisi siyasi üstünlüklərin formalaşmasına uzunmüddətli amillərin təsirinin zəifləməsi və qısamüddətli, məsələn, namizədin imici, ayrı-ayrı problemlər üzrə seçicilərin mövqeləri kimi amillərin təsirinin güclənməsi ilə səciyyələnir.

Elektoral davranış problemini tədqiq edən Rusiya politoloqu A.A.Raduqin müxtəlif elektoral qrupların davranışının bəzi ümumi meyillərini qeyd etmişdir:

- kişilər qadınlara nisbətən seçkilərdə daha fəal iştirak edirlər;
- fəallığa təhsil səviyyəsi təsir edir: təhsilli vətəndaşlar seçki prosesində daha yüksək siyasi iştirak nümayiş etdirirlər;
- 35 – 55 yaslı insanlar gənclərə və yaşlı nəslin nümayəndələrinə nisbətən daha fəaldırlar;
- ailəli, evdar qadınlar çox zaman öz həyat yoldaşlarının siyasi istiqamətlənmələrini dəstəkləyirlər;
- gənclik müəyyən dərəcədə radikallığa meyil edir və öz səslərini sürətli dəyişikliklər vəd edən namizədə verir. Onun elektoral seçimi cəmiyyətdə əksəriyyət ilə uzlaşmır, fəallıq səviyyəsi isə nisbətən aşağıdır;
- yaşlı nəslin nümayəndələri solçu partiyalara meyil edirlər və s.[1]

Şübhəsiz, yuxarıda sadalanan meyillər mütləq deyil və seçki prosesinin nəticəsini qabaqcadan demək çətindir. Ənənəvi siyasi partiyalarla razı olmayan seçici ani əhval-ruhiyyə və təəssüratların təsiri altında öz seçimini və üstünlük verdiklərini tez dəyişir.

Elektoral davranışın yönümünə, ilk növbədə, konkret seçicinin müəyyən sosial qrup və ya partiya ilə eyniləşdirilməsi təsir edir. Fərdin qrupa psixoloji yaxınlığı siyasi istiqaməti

[1] Политология в вопросах и ответах для экзамснов и зачетов. С. 167

kəskin şəkildə müəyyən etməsə də, alternativlər spektrini məhdudlaşdıraraq, onun siyasi seçimini sadələşdirir.

Bu problemin təhlilini başa çatdıraraq, bir məsələni xüsusi qeyd etməliyik. XX əsrin 50 – 60-cı illərində siyasi, o cümlədən elektoral davranışın öyrənilməsində ən əhəmiyyətli nəticələr ayrı-ayrı universitet, elmi mərkəz və fondların sayəsində əldə olunmuşdu. Məsələn, 1949-cu ildə P.Herrinqin rəhbərliyi altında formalaşan Siyasi Davranış üzrə Tədqiqat Komitəsi 1952-ci ildə Seçkilərin Birinci Amerika milli tədqiqinin sponsoru rolunda çıxış etdi. Ford Fondu Paola-Altoda Center for Advanced Study in the Bihevioral Sciences – Davranış Elmlərinin Yüksək Səviyyədə Öyrənilməsi Mərkəzinin əsasını qoydu ki, bu da sosial elmlərdə davranış istiqamətinin güclənməsinə təkan verdi.

Elektoral davranışın tədqiqi Karnegi, Rokfeller, Rassel Seyc və Markl fondları daxil olmaqla, bir çox özəl fondların dəstəyi nəticəsində böyük uğurla həyata keçirildi. Çikaqoda National Opinion Research Center (İctimai Rəyin Öyrənilməsinin Milli Mərkəzi) və Miçiqanda İnstitute for Social Research (Sosial Tədqiqatlar İnstitutu) həmin problemi elmi-nəzəri cəhətdən tədqiq edən mühüm mərkəzlərə çevrildilər.

# IX BÖLMƏ

## SOSİAL SİYASƏT VƏ İDARƏETMƏ

Müasir elmi ədəbiyyatda sosial siyasətə müxtəlif təriflər verilmişdir. Onları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, sosial siyasət dövlətin daxili siyasətinin tərkib hissəsini təşkil edir, onun sosial layihələri, proqramları və praktikasında təcəssüm olunur, eyni zamanda cəmiyyətdə əhalinin əsas sosial qruplarının maraqları naminə və həmin maraqların vasitəsilə münasibətləri tənzimləyir.

Sosial siyasət dedikdə, ilk növbədə, cəmiyyətin, sosial qrupların və bütövlükdə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, həyati mənafeyinin təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi nəzərdə tutulur. Sosial siyasət anlayışının mahiyyəti cəmiyyətin ümumi inkişaf xüsusiyyətlərini özündə ehtiva edir. Müxtəlif cəmiyyətlər özlərinin inkişafına uyğun olaraq müvafiq sosial siyasət formalaşdırır və bu siyasətin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin etməyə çalışır.

Hər bir cəmiyyətin sosial siyasəti başqasından fərqlənir. Məsələn, demokratik cəmiyyətin sosial siyasətinin başlıca məqsədi yoxsulluğun və sosial təzadların aradan qaldırıldığı, yüksək həyat səviyyəsinə malik olduğu, sosial ziddiyyətlərin kəskin münaqişələrsiz həll edildiyi bir cəmiyyətin formalaşdırılmasından ibarətdir. Həmin cəmiyyətdə həyata keçirilən sosial siyasətin məqsədi əhalinin təkcə bu gününü deyil, gələcəyini də mütləq nəzərə almalıdır. Bu siyasət elə bir şərait yaratmalıdır ki, insanlar əmək fəaliyyəti ilə yaxşı məşğul olsunlar, yüksək sosial fəallıq göstərərək, cəmiyyətin maddi

inkişafının yaxşılaşdırılması sahəsində təməli möhkəmləndirsinlər və sosial təminat səviyyəsini yüksəltsinlər.

Sosial siyasətin məqsədinin daha geniş aydınlaşdırılması onun bəzi tiplərini müəyyənləşdirməyə imkan verir. Tədqiqatçıların fikrincə, sosial siyasətin əsasən dörd tipi mövcuddur: birincisi, sosial cəhətdən sabit cəmiyyətlərdə sosial siyasət, ikincisi, sistemli böhran vəziyyətində olan cəmiyyətlərdə sosial siyasət, üçüncüsü, deformasiya vəziyyətində olan cəmiyyətlərdə sosial siyasət, dördüncüsü, əsaslı islahatlar yolu ilə sistemli şəkildə böhrandan çıxan cəmiyyətlərdə sosial siyasət, yəni keçid dövrünün sosial siyasəti.[1]

Məşhur politoloq Barbara Nelson hesab edir ki, bir bilik sahəsi kimi sosial siyasət dörd intellektual imperativlə müəyyənləşdirilir. Bunlar: a) siyasi sistem və orada baş verən prosesləri birləşdirən bütövlüyə, tam modelə maraq (xolizm), b) hökumət fəaliyyətinin nəticələrinin vacibliyinə əminlik, c) həm faydalı, həm də dərin nəzəri və empirik biliklərə yiyələnməyə can atmaq, d) demokratiyanın önəmliliyinə inam imperativləridir.

Öncə sosial siyasətin inkişaf tarixinə, sonra isə yuxarıda qeyd olunmuş dörd imperativə əsaslanan tədqiqatlara nəzər yetirək.

## §1. Sosial siyasətin inkişaf tarixi və dörd intellektual imperativi

Artıq yaxşı məlumdur ki, bir bilik sahəsi olan sosial siyasəti politoloqlar müxtəlif cür qiymətləndirirlər. Məsələn, tanınmış alim L.Mid yazır: "Bir tədqiqat sahəsi kimi sosial siyasət, siyasətin öyrənilməsinə dair elə bir yanaşmadır ki, o, mühüm ictimai problemlər nöqteyi-nəzərindən hökumətin

[1] Социальная политика. Учебник. М., Экзамен, 2002. С.24

fəaliyyətini təhlil edir".[1] C.İ.Andersona görə, siyasət – "həll edilməsi tələb olunan problemlərə münasibətdə bir və ya bir neçə aktorun məqsədyönlü fəaliyyətidir. Sosial siyasət hökumət təşkilatları və məmurları tərəfindən işlənib hazırlanır."[2] B. Pitersin fikrincə, "sosial siyasət bilavasitə, yaxud öz agentlərinin şəbəkəsi vasitəsilə fəaliyyət göstərən idarəetmə orqanlarının işinin cəmidir, hansı ki, vətəndaşların həyatına güclü təsir göstərir."[3] Çox vaxt sosial siyasət "siyasi proses" və "siyasi kurs" anlayışları ilə birgə təhlil edilir.

Bütövlükdə müstəqil istiqamət kimi sosial siyasət tarixi sadəcə olaraq ideyalar, institutlar, jurnalların cəmi kimi başa düşülən fənnin formalaşma tarixindən daha çox problemlərə baxış tarixi kimi çıxış edir. "Sosial siyasət" anlayışı 1853-cü ildə elmi dövriyyəyə "Xalqın təbii tarixi sosial siyasətin əsası kimi" adlanan kitabın müəllifi, alman alimi V.X. Ri tərəfindən gətirilmişdir. Lakin bu elmi problemin qoyulması və inkişafında birincilik Amerika tədqiqatçılarına aiddir. Belə ki, Siyasi Elmlərin Amerika Assosiasiyasının (APSA) Sosial Siyasət Bölməsi 1983-cü ildə politologiyanın şaquli inteqrasiyasının gedişində yaradılmışdır. Müstəqil politoloqlar qrupundan ibarət olan Siyasi Elmlər Təşkilatı (Policy Studies Orqanization) 1971-ci ildə formalaşmışdır. Lakin həmin təşkilat bu bilik sahəsinin inkişafında uğur qazana bilmədi.

Sosial siyasət üzrə mütəxəssislərin yazıları indiyə kimi müxtəlif növ jurnal və məcmuələrə səpələnib, çünki hələ də ixtisaslaşdırılmış nəşrlər yoxdur. Hətta demək olar ki, sosial siyasət tarixinin özü qeyri-ardıcıl və kifayət qədər dolaşıqdır. Onun inkişafında dünyanı dərk etmək və eyni zamanda dəyişdirmək cəhdi aparıcı yeri tutur. Mövqelərdəki fərqlərə

---

[1] Mead L.M. Public policy: Vizion, Potential, Limits// Policy Currents, 1995. February. P.1-14

[2] Anderson J.I. Public policymaking, Boston: Houghton Mifflin, 1990.

[3] Peters B.G. American public policy. Chatham (N.J.): Chatham House, 1986. P.6.

baxmayaraq, bu ümumi cəhd C. Dyui, Ç.Merriam, H. Lassvel, H.Saymon, Ç.Lindblom, A. Vildavski kimi alimlərə xasdır. Praktiki siyasəti təhlil və izah etmək səyləriylə həmin problemlər üzrə ixtisaslaşan alimlər nəticədə heç olmasa məhdud ümumiləşdirmələrə nail ola bildilər. Onlar tətbiqi biliklərə və nəzəriyyənin təcrübə ilə əlaqəsinə də inanırdılar.

Lakin öz praktiki istifadəsini tapa biləcək məhdud ümumiləşdirmələr və biliklərin axtarışıyla siyasi elmin məsələləri tükənmir. Eynilə universal həqiqətləri gözləyən və tətbiqi biliklərə şübhə ilə yanaşan "təmiz" siyasi elmin inkişafına can atmaq da mühüm əhəmiyyət kəsb edir.

Xüsusi bir fənn kimi sosial siyasətin tarixi bu iki yanaşmanın mübarizəsi ilə müəyyən olunur. Həmin mübarizədə başlıca yeri digər tiplərlə müqayisədə elmi dərketmənin prioritetliliyi və sosial problemlərin həllində mülahizələrin rolu ilə bağlı məsələlər tutur. Doroti Ross düzgün olaraq qeyd edir ki, bütün sosial və davranış elmləri özlərinin təşəkkül mərhələsində çətinliklərlə üzləşirlər, çünki onlar eyni bir vaxtda həm dünyanı dərk edir, həm də onu dəyişməyə cəhd göstərirlər.[1] Hələ problemlərə əsl elmi yanaşmanın formalaşmadığı, yəni fənnin təməli qoyulduğu onilliklər ərzində politoloqlar təbiət elmləri və sosial elmlərin metodları arasındakı əlaqələri qurmağa cəhd göstərirdilər. Məsələn, V.Vilson heç bir çətinlik çəkmədən gündəlik təcrübədə tarixi və fəlsəfi yanaşmaları, müqayisəli siyasi funksionalizm və idarəçilik elmini əlaqələndirməyə müvəffəq olmuşdur.[2]

İdarəçiliyin siyasətdən ayrılması və böyük həqiqətlərin ortaya çıxmasında idarəçilik təcrübəsinin yardımçı olmasına inam sosial siyasətin fənn kimi təşəkkül tapmasının başlanğıc anına çevrildi.

---

[1] Ross D. The origins of American sosial science. New York: Cambridge University Press, 1991.

[2] Wilson W. The study of administration//Farr, Seidelman. Op. city. 1993. P.33-48(originally published in 1887)

Onun inkişaf tarixində normativ bazaya çox az fikir verilirdi. V.Vilson, F.Qudnou (APSA-nın ilk prezidenti) və bir çox digər alimlərin fikrincə, müasir dövlət şəraitində peşəkar idarəçilik bacarıqlarının inkişafı millət üçün siyasi elmin öyrənilməsi qədər vacibdir. O zaman ABŞ-da belə bir fikir geniş yayılmışdı ki, bütün səviyyələrdə dövlət məmurları korrupsiyaya qapılmışdır. Ona görə də siyasət və idarəetməni ayırmağı tələb edən politoloqlar hesab edirdilər ki, bu yenilik həm nəzəri təhlillə tövsiyələrin qarşılıqlı əlaqəsini, həm də tədqiqat nəticələrinin təcrübədə tətbiqini təmin edə bilər.

Bundan əlavə, sosial elmlərlə bağlı olan elmi istiqamət universitetlərdə inkişaf etməyə başladı və 1920-ci illərdə daha da möhkəmlənərək praktiki tövsiyələr vermək və idarəçilik problemlərini uğurla təhlil etmək üçün yeni prosedurlar təklif etdi.

Siyasi elmin müstəqil istiqaməti kimi meydana gələn sosial siyasətin təşəkkül tarixində Ç.Merriamın son dərəcə böyük rolu olmuşdur. "Siyasətin tədqiqinin müasir vəziyyəti" (1921), "Siyasətin yeni aspektləri" (1925) adlı əsərlərində o, sosial siyasət qarşısında duran problemləri, onlardan da ən vacib məsələ kimi ayrıca şəxsiyyətin, insanın davranışını göstərmişdir. Alimin davranış nəzəriyyəsindən fərqli olaraq, sosial siyasət üçün yazılmış əsərlərinin əhəmiyyəti tətbiqi xarakter daşıyır. Onun xülasələrinin praktiki aspektləri, qərarların qəbul edilməsinə xüsusi diqqət yetirməsi sırf elmilikdən uzaq olması ilə bağlıdır. Tanınmış tədqiqatçı yazılarında elmiliklə praktikanın birləşməsi prinsipinin tərəfdarı kimi çıxış edir, bu isə öz növbəsində siyasi elm üçün hər zaman mühüm əhəmiyyət kəsb etmişdir.

Eyni zamanda Merriam Branlounun komitəsində işləyərkən sosial idarəçiliyin inkişafına da böyük töhfələr bəxş etmişdir. Xatırladaq ki, bu komitənin tövsiyələri federal vətəndaş xidmətlərinin işində peşəkarlığın artmasına və məmurların

səriştəsinin yüksəlməsinə istiqamətlənmişdi.[1] Bütün bunlarla yanaşı, o, öz tədqiqatlarında ən müxtəlif mənbələrdən biliklərin əldə olunmasına cəhd göstərməsini və əsasında demokratiyanın möhkəmləndirilməsi prinsipi duran vətəndaşlıq ideyasına sadiqliyi çox müsbət qiymətləndirirdi. Müxtəlif mənbələr dedikdə, Merriam təbiət elmlərinin metodlarından istifadə etməyən fundamental ictimai tədqiqatları və həyatın özündən doğulan tətbiqi problemlərin həlli təcrübəsindən əxz edilmiş informasiyanı nəzərdə tuturdu.

Bu bilik sahəsinin digər tanınmış nümayəndəsi H.Lassveldir. Məhz Lassvel siyasi elmə "idarəçilik elmləri" (policy sciences) anlayışını gətirmişdir. İlk dəfə olaraq həmin anlayışa onun D. Lernellə birlikdə yazdığı "İdarəçilik elmləri" kitabında rast gəlirik.[2]

Daha sonra sosial siyasətə dair idarəçilik yanaşmasını İ.Dror inkişaf etdirir. Onun 1951-ci ildə işıq üzü görən "İdarəçilik elmləri layihəsi" əsəri aparılan tədqiqatların genişlənməsində xüsusi rol oynamışdır.

1947-ci ildə Saymon tərəfindən çap edilən "İnzibati davranış" əsərində sosial siyasətlə bağlı yeni problematika ortaya qoyulur, konkret olaraq bu və ya digər sosial mühitdə insanlar tərəfindən qəbul edilən siyasi qərarların mahiyyətinin açıqlanmasına cəhd göstərilir. Saymon aparılan tədqiqatın gedişində aşkara çıxarır ki, insanlar məhz əvvəlcədən yığılmış məlumat əsasında məhdud rasional qərarlar qəbul edirlər. O, qərar qəbulu prosesində xüsusi texniki üsulların köməyi ilə həmin qərarların optimallaşdırılması metodikasının tətbiqini təklif edir. Saymonun sosial siyasət sferasında ortaya qoyduğu

---

[1] Brownlow Committee (The President's Committee on Administrative Management)/ Report of the President s Committee: Administrative management in the government of the United States. Washington (D.C): Government Printing Office, 1937.

[2] Lernell D., Lasswell H.D. (eds.) The policy sciences. Stanford (Cal): Stanford University Press, 1951.

postulatlar sonralar bir sıra elmlərin nümayəndələri tərəfindən ciddi şəkildə nəzərdən keçirilmişdir. Məsələn, iqtisadiyyat sahəsində məşhur alimlərdən olan E. Stouki və R. Zekhauzer 1978-ci ildə birlikdə nəşr etdirdikləri "İdarəetmə analizinin əsasları" kitabında Saymon tərəfindən başlanan tədqiqatları davam etdirmişlər. Politoloqlardan R. Hayneman, U. Blum, S. Piterson və E. Kirnini Saymonun ardıcılları hesab etmək olar. Adıçəkilən mütəxəssislər 1990-cı ildə "İdarəçilik analizi dünyası" kitabını çap etdirərək sosial siyasət fənninin inkişafına qiymətli töhfə vermişlər. Bunlardan başqa, D.Kirp, A.Vildavski, B.Bozman, C.Strosman, H.Reyni, L.Linn, M.Levin, M. Sanqer və digərləri sosial siyasət sferasında müxtəlif tədqiqatlar aparmış və bir çox yanaşmaların formalaşmasında böyük rol oynamışlar.

Son zamanlar sosial siyasətin öyrənilməsi və həyata keçirilməsi sahələrində ictimai hərəkatların nümayəndələri tərəfindən irəli sürülən siyasi tələblərin məzmunu və yaranma səbəblərinə xüsusi diqqət yetirilir.

Ümumilikdə sosial siyasətin inkişaf tarixi predmet və metodoloji parçalanma ilə xarakterizə olunur. Lakin yuxarıda adıçəkilən dörd imperativin hər birinin çərçivəsi daxilində aparılan tədqiqatların inandırıcı nəticələri nəinki sosial siyasəti bir istiqamət kimi zənginləşdirmiş, həm də siyasi elmin digər sahələrinə əhəmiyyətli təsir göstərə bilmişdir. Sosial siyasətin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, biliyin bu sahəsi üzrə ixtisaslaşan alimlər nəinki fənnin bütövlükdə inkişafını, eyni zamanda bir çox daha kiçik istiqamətlərdə aparılan işlərin vəziyyətini əks etdirən icmaları dərc edirlər. Bu da, ilk növbədə, sosial siyasətlə bağlı olan tədqiqatların qarışıq xarakteri ilə müəyyən olunur. Həmin nəşrlərdən üçü xüsusi əhəmiyyətə malikdir. P.de Leon və E. Overman "İdarəçilik elmlərinin tarixi" (1989) əsərində bu istiqamətin hüdudlarında cərəyanlardan birinin geniş icmalını veriblər. D.Kettl "Sosial idarəetmə: sahənin durumu" (1993) əsərində "Siyasi elm" və

"sosial idarəetmə" kimi yaxın anlayışların qarşılıqlı əlaqəsini göstərib. Elmlə təcrübənin nisbəti konsepsiyalarının inkişaf mənzərəsini D. Torgenson "Siyasi analiz və ictimai həyat: Fronezisin bərpa edilməsi" (1995) kitabında inandırıcı təsvir edib.

Uzun illər ərzində əldə olunmuş zəngin tədqiqat materiallarına əsaslanaraq, bu sahənin strukturunu müəyyənləşdirən dörd intellektual imperativin inkişafındakı nailiyyətləri qısaca nəzərdən keçirək:

**I. Bütövlük (xolizm).** Bilik sahəsi kimi sosial siyasət birinci intellektual imperativ olan tamı, bütövlüyü dərk etməyə çalışır. Həmin cəhd iki tədqiqat istiqamətində öz əksini tapır. Birinin çərçivəsində **idarəçilik funksiyalarının nəzəriyyələri**, digərində isə – **sosial problemlərin tipologiyaları** işlənib hazırlanır ki, sonuncuların əsasında idarəçilik fəaliyyətinin patternləri (təsvirləri) yaradıla bilər. Bütövlüyün modelləşdirilməsinə dair funksional yanaşmanı siyasi silsilənin qapalı sistem kimi izahına yönəlmiş tədqiqatlar əsasında təhlil etmək daha məqsədəuyğundur. Siyasi silsilənin öyrənilməsində ən böyük nailiyyətlər siyasi prosesin ayrı-ayrı mərhələlərinin, o cümlədən problemin qoyulması, qərarların qəbulu, onların tətbiqi, qiymətləndirilməsi və başa çatdırılmasının analizi ilə bağlıdır. Tədqiqatların ikinci istiqaməti T. Louinin aşağıdakı qənaətindən irəli gəlir: "İdarəetmə təcrübəsi siyasəti müəyyənləşdirir".[1] Burada Loui nəzərdə tuturdu ki, siyasi kurs insanlar, qruplar və dövlətlər arasındakı münasibətlərin xüsusiyyətlərinə təsir göstərir. Sonuncular isə cəm halda bu və ya digər siyasi cərəyanı xarakterizə edir.

Siyasi silsilə, siyasi kurs, siyasi proses məsələlərini nəzərdən keçirən mütəxəssislər müxtəlif aspektlərə toxunurdular. Xarici siyasət sahəsində qərar qəbul etməyə həsr

[1] Lowi T. J. American business, public policy, case-studies and political theory//World Politics. 1964. Vol.16.P. 677-715

olunmuş ən maraqlı nəzəri əsərlərdən bir neçəsi, xüsusən də T.Ellisonun "Qərarın məğzi" (1971) əsəri siyasi qərarların qəbul edilməsi sahəsində yeni bir mərhələnin əsasını qoydu.

ABŞ-da bu problemin tədqiqat predmetinə daxili siyasətdə qərarların qəbul edilməsi məsələləri də daxil olur. Belə ki, 1980-ci illərdə M. Tompson ətraf mühit, T. Marmor tibbi sığorta, P. Layt sosial təminat, P.Peterson isə məktəb islahatı sahəsində siyasəti müəyyənləşdirilərkən qərar qəbulu prosesini təhlil edirdilər. Həmin qərarların həyata keçirilməsi məsələlərinə həsr olunmuş bir sıra tədqiqatlar dərc olunur. Yerlərdə (müxtəlif ştatlarda) federal sistemin qərarlarının həyata keçirlməsinin çətinliyini başa düşərək, bu prosesi asanlaşdıran müxtəlif variantlar, o cümlədən də tərkibinə görə azsaylı hökumətin yaradılması (C. Uilson) və onun vətəndaşlara yaxınlaşdırılması təklif olunur.

Problemlərin tipologiyasının elmi tədqiqi (issue typologies) siyasi silsilənin öyrənilməsi işiylə bir vaxtda aparılır. Bu problemə həsr olunmuş işlərdə əsas diqqət siyasi silsilənin müəyyən mərhələlərində fəaliyyət modellərinə deyil, məhz çoxsaylı məsələlər kompleksinə yönəlir ki, onlardan da hər biri ayrı-ayrı insanlar, sosial qruplar və dövlət arasındakı optimal münasibətlərin yaradılması üsulunu müəyyən edir. Məsələn, Helen İnqram və Anne Şnayderin təklif etdikləri tipologiyaya müvafiq olaraq siyasi proqramların qiymətləndirilməsinin meyarı ünvanlandıqları insanların maraqlarına cavab verməsi hesab olunur.[1] Bu yanaşma KİV-in inkişafı dövründə xüsusi əhəmiyyət kəsb edir. Müəlliflərin konsepsiyasına uyğun olaraq, sosial siyasət dörd ideal tipin tələbatının ödənilməsinə yönəlib: firavanlıqla yaşayan insanlar, müvəffəqiyyət qazanmağa canatanlar, asılılar və deviantlar (normal davranış qayda-

[1] Ingram H., Schneider A. Constructing citizenshis: The subtle messages of policy design //Public Policy for Democracy/ Ed.by H.Ingram, S.R. Smith. Washington (D.C) Brookings Institution, 1993. P.68-94

larından kənara çıxanlar). İnqram və Şnayderin qənaətincə, siyasi məqsədlərin qoyulması sosial xarakter daşıdığından, onlara yenidən baxıla bilər.

**II. Nəticələr, yaxud hökumət fəaliyyətinin nəticələrinin vacibliyi.** Sosial siyasət sahəsindəki tədqiqatlar xalq üçün idarəçilik fəaliyyətinin hansı nəticəyə gətirib çıxarması probleminə də diqqəti çəkir. İkinci intellektual imperativ olan nəticələrin müzakirəyə qoyulmasının labüdlüyü sosial ehtiyacların öyrənilməsinə sərf olunan xərclərin optimallaşdırılmasının öyrənilməsində xüsusilə özünü büruzə verir. Belə tədqiqatların iki istiqaməti formalaşıb: birincisində sosial ehtiyaclar üçün məsarif modellərinin təkmilləşdirilməsinə səy göstərilir. Bu modelləri işləyib hazırlayan Kastels, Hiks, Svank, Klinqemann, Hofferbert və digər mütəxəssislərin gəldiyi qənaətə görə, hökumətin sosial ehtiyaclara ayırdığı maliyyə yardımları sıx qarşılıqlı əlaqədə olan siyasi və iqtisadi proseslər və institutların fəaliyyətinin nəticəsidir.

Tədqiqatların ikinci istiqaməti, müasir kapitalist iqtisadi sistemlərində hökumət tərəfindən balanslaşdırılmış iş, gəlir və ailə problemlərin həllinin patternlərini tapmağa cəhd edərək ümum rifah dövlətinin mənşəyi ilə əlaqədar məsələləri nəzərdən keçirir. Tarrou, Espinq-Andersen, Nelsen, Skokpol və digər tədqiqatçılar tərəfindən aparılan araşdırmalar sosial siyasətin yeni inkişaf tendensiyalarının axtarışı və dərkolunması kimi dəyərləndirilir. Həmin istiqaməti bütövlükdə qiymətləndirsək görərik ki, onun çərçivəsində yerinə yetirilən tədqiqatlar bir sıra amillərin, o cümlədən istehsalatın sənaye və digər növləri ilə şərtlənən iqtisadi rifahın ümumi səviyyəsi, sahibkarlığın formaları; seçki hüquqlarının genişlənməsi; bürokratiyanın neytrallığı; parlament müxalifətinin gücü; ibtidai məktəblərə sərf olunan xərclər; qadınların ictimai vəziyyəti haqqında müəyyən mədəniyyətlərə xas təsəvvürlər və bir sıra başqa amillərin sosial proqramlara, onların davamlılığı və məzmununa təsir göstərməsindən xəbər verir. Bundan əlavə,

təhlil sübut edir ki, bu və ya digər sosial proqramlar ayrı-ayrı dövlətlər, əyalətlər və ştatlar bir-birlərinin nümunəsi əsasında nə isə öyrəndikləri zaman qəbul edilir. Özü də, hər hansı proqramın əvvəl, yaxud daha sonra əxz olunmasından asılı olaraq onun parametrləri dəyişə bilər. Məsələn, müxtəlif ölkələrin müqayisəsi zamanı məlum oldu ki, sosial proqramları həyata bir qədər tez keçirənlərdən fərqli olaraq, daha gec keçirənlər çox vaxt nisbətən aşağı iqtisadi səviyyədə olur.

**III. Biliklərin faydalılığı. Faydalı biliklərin əldə olunmasına səy.**

Daha mükəmməl idarəçilik sistemlərinin işlənib hazırlanmasına səy sosial siyasətin faydalı biliklərin toplanmasından ibarət olan üçüncü imperativinə aiddir. Bu məsələ sosial elmlər sahəsində tədqiqatlarla məşğul olan alimlərin sosial məsuliyyət prinsipindən irəli gəlir. Həmin mütəxəssislərin çoxu, o cümlədən Merriam, Lassvel, Vildavski və başqaları hesab edirdilər ki, hökumət komissiyalarının fəaliyyətində iştirak, baş verən proseslərin məğzinin geniş ictimaiyyətə çatdırılması, ictimai funksiyaların yerinə yetirilməsi, məsul vəzifələrə təyin olunmuş və yaxud seçilmiş hakimiyyət nümayəndələri üçün tövsiyələrin hazırlanması da daxil olmaqla ən çətin işləri bütün mümkün və əlverişli üsullardan istifadə etməyi bacaran peşəkar politoloqlar öz üzərlərinə götürməli və cəmiyyətə fayda verməlidirlər. R. Lind hələ 1939-cu ildə belə işin vacibliyini vurğulayırdı. O yazırdı ki, sosial elmlərlə məşğul olan alimin fəaliyyəti xeyir gətirməlidir – bu onun başlıca vəzifələrindən biridir.[1] İ.Horovits və C. Kats isə siyasi həyatda sosial elmlərin nailiyyətlərinin praktiki istifadəsinin xüsusi əhəmiyyətini qeyd edirdilər.[2]

---

[1] Lynd R.S. Knowledge for what? The place of social science in American culture/ Princeton (N.J): Princeton University Press. 1967 (originally published 1939).

[2] Horowits I. Katz J. Sosial science and public policy in the United States. New York: Preager, 1975.

Lakin Qərb, ilk növbədə, ABŞ alimlərinin fikrinə əsasən, siyasi prosesin inkişafında iştirak edərək, bilavasitə xeyir gətirməyə çalışan politoloqlara çox vaxt əzəmətli sosial qüvvələr mane olur. Bu mövzuya toxunan müəlliflərin əksəriyyəti o faktı vurğulayır ki, siyasi və elmi həyat müxtəlif qaydaları əldə rəhbər tutur, bir-birinə oxşamayan metodları tətbiq edir, müxtəlif məqsədlərə malik olur və üst-üstə düşməyən ritmlərdə cərəyan edirlər.

Bununla bağlı H.Kissincer yazır: "Kennedinin məsləhətçisi işləyənə qədər mənə də bir çox akademik tədqiqatçılar kimi, elə gəlirdi ki, qərar qəbuletmə prosesi əsasən zehni xarakter daşıyır və insana prezidentin kabinetinə daxil olmaq yetər ki, öz baxışlarının doğruluğuna onu inandıra bilsin. Tezliklə başa düşdüm ki, belə yanaşma nə qədər geniş yayılıbsa, bir o qədər də təhlükəli surətdə yetişməmişdir".[1] Politoloqlar daima siyasi həyatda iştirak etdikdə səmərəli fəaliyyət göstərmələri asanlaşır. XX əsrin 70-ci illərində ABŞ konqresində hər il keçirilən dinləmələrin iştirakçıları qarşısında 10 minə yaxın insan çıxış edirdi. Onların əksəriyyəti peşəkarcasına sosial elmlər sahəsində çalışırdı. 80-ci illər ictimai fənlər üzrə doktor dərəcəsi almış təqribən 10 minə yaxın federal məmurun olması təxmin edilirdi. Hökumət təsisatlarında çalışan, sonralar isə lobbiçilərə çevrilən insanlara onların fəaliyyətlərində şəxsi əlaqələri deyil, dövlət qulluğu zamanı əldə etdikləri prosessual normalar və problemlərin məğzi haqqında bilikləri başlıca kömək göstərirdi.[2]

XX əsrin 80 – 90-cı illərində sosial siyasət haqqında biliklərin əhəmiyyətindən C.S.Smit,U.Lanç,T.Smit, R.Noydştadt, E.Mey, S. Nagel və R.Rouz kimi tədqiqatçılar yazırdılar.

---

[1] Kissinger H.A. The White House years. New York. Little brown, 1979

[2] Salisbury R.H., Johnson P., Heinz J.P., Laumann E.O, Nelson R.L. Who you know versus what you know: The uses of government. Experience for Whashington lobbyists//American Journal of Political Science. 1989. Vol.33.P.175-195

**IV. Demokratiyanın önəmliliyi.** Dördüncü imperativin şərhinə keçərkən, onu qeyd edək ki, əvvəlki üç imperativ – bütövlük, hökumət fəaliyyətinin nəticələrinin vacibliyi və faydalı biliklərin əldə olunmasına səy göstərmə – demokratik humanizm prinsipinə uyğun gəlir. Sonuncu prinsip H.Lassvelin hesab etdiyi kimi, siyasi fəaliyyətin istiqamətini müəyyən etməlidir.

H.Lassvel, U.Çörçillin məşhur "demokratiya pis idarəçilik formasıdır,lakin qalanları daha da pisdir" fikrinə sadəcə olaraq qoşulmurdu, o həm də siyasi təcrübənin təhlili üzrə mütəxəssisləri "siyasət insanlarda şəxsi ləyaqət hissinin inkişafına necə kömək edir?" sualına daha da çox diqqət yetirməyə çağırırdı. "İdarəçilik elmlərinə giriş" (1971) əsərində o, insanda şəxsi ləyaqət hissini rifah, xeyirxahlıq, hörmət, hakimiyyət, maarif, məharət və əxlaqi qüvvə kimi kateqoriyalara birləşdirərək, həmin hissin nə cür inkişaf etdirilməsini də müəyyənləşdirmək labüdlüyündən yazırdı. Lassvel insan təbiətinin imkanlarına, ictimai partisipasiyanın (iştirakın) perspektivlərinə və siyasətdə sağlam düşüncənin qələbəsinə nikbinliklə yanaşırdı.

Özünün önəmliliyi ilə yanaşı, demokratik imperativ həm də olduqca ziddiyyətli və qeyri-müəyyəndir. O, nəinki qalan imperativlərlə, həm də ictimai etikanın və dövlət strukturunun tədqiqatları ilə bağlıdır. Sosial siyasət tədricən dövlət və cəmiyyət çərçivəsində hökumətin yerinin öyrənilməsi, həmçinin siyasi kursun işlənib hazırlanmasına mədəni inkişaf konsepsiyasının və dövlət strukturunun təsir göstərməsi ilə məşğul olmağa başlayır. Bu XX əsrin son rübündə siyasi rejimlərdə baş verən böyük sayda dəyişikliklərə, hər şeydən öncə, hərbi idarəetmənin mülki, sosialist idarəetmənin isə demokratik idarəetməyə çevrilməsi ilə birbaşa bağlıdır.

Müasir dövlət problemlərinin öyrənilməsi tədqiqatçıları insanın şəxsi və vətəndaş hüquqlarıyla maraqlanmağa vadar etdi. Şimali Amerika və Qərbi Avropada vətəndaş hüquqlarının tədqiqi

daha çox əmək fəaliyyətinin insanlara əsas yaşayış vəsaitləri verən kişi modelində cəmləşib, lakin bu tədqiqatlar uşaqları böyüdənlərin sosial dəstək məsələsini hüquqi cəhətdən açıq qoyur.[1] Bütün dünyada hələ doğulmayan uşaqlara hüquqi haqların verilməsinin mümkünlüyü barədə məsələ isə son onilliklər çox geniş müzakirə olunur.[2]

## §2. Sosial siyasət və idarəetmə

XX əsrin 60-cı illərində politoloqlar arasında belə bir fikir geniş yayılmışdı ki, siyasi kursun işlənib hazırlanması hadisələrin sonrakı inkişafını müəyyən edən ideyalar, şüurlu başlanğıc, intellektual axtarışlardan deyil (A.Bentli və onun davamçıları), maraqlar və hakimiyyətdən asılıdır.

80 – 90-cı illərdə alimlər bu fərziyyəni alternativ yanaşmalarla müqayisə edərək, onun yoxlanılmasına ciddi səy göstərməyə başladılar. İdeyaların və siyasi kursun hazırlanması prosesində onların istitusional təcəssümünə çox böyük yer ayrılan işlərin sayı əhəmiyyətli dərəcədə artdı. İlk növbədə, sosial təminata dair qərarların qəbulu haqqında M.Dertik, sosial siyasətlə bağlı isə Q. Aaron və Ç.Mürreyin əsərlərini qeyd etmək lazımdır.

Siyasi kursun işlənib hazırlanmasında ideya və institutların artan rolunu, siyasəti müəyyənləşdirən müasir prosesin üç qismən yeni xüsusiyyəti ilə izah etmək olar. Bunların sırasına aşağıdakılar daxildir: **siyasi fəaliyyətin başlıca məqsədinin səmərəlilik olması təsəvvürünə qayıdış, yürüdülən siyasətə inamın strateji xarakter daşımasının yeni cür dərk edilməsi və siyasi**

---

[1] Pateman C. The patriarchal welfare state//Democracy and the Welfare State (Ed. By A. Guttman. Princeton (N.J): Princeton University Press, 1986. P 231-260.

[2] Məsələn, bax: Riemer J.M. Reproduction and recenification: The politics of abortion in united Germany//From Bundesrepublik to Deutschland: German politics after Unification/Ed. By M.G.Huelshoff, A.S.Markovits, S.R.Reich. Ann Arbor: University of Michigan Press, 1993, P.167-188.

**qərarların işlənib hazırlanmasında mühüm səlahiyyətlərin xeyli dərəcədə siyasi müstəqilliyə malik olan peşakarlara həvaləolunma cəhdinin güclənməsi.** Müstəqil ekspert təşkilatlarının rolu təkcə milli dövlətlər səviyyəsində deyil, həmçinin beynəlxalq səviyyədə də artır. Bu tendensiyanı təsdiqləyən nümunələr kimi, Avropa Komissiyasını, Avropa Mərkəzi Bankını , Ümumdünya Ticarət Təşkilatını göstərmək olar.

Həmin xüsusiyyətlərin hər birinin qısaca şərhi vacibdir.

**Səmərəliliyin əhəmiyyətinin dərk edilməsi.** İkinci Dünya Müharibəsi qurtarandan sonra bir neçə onillik ərzində sənaye cəhətdən inkişaf etmiş dövlətlərin, demək olar ki, hamısının siyasətində mərkəzi yeri yenidənpaylaşdırma kursu tuturdu. Eyni zamanda həyata keçirilən siyasi tədbirlərin səmərəliliyinə (bu isə hökumət xərclərinin ödənilməsi üçün vəsaitlərin verilməsi kimi izah olunurdu) ikinci dərəcəli yer ayrılırdı. Burada bir məsələni aydınlaşdırmaq lazımdır: siyasi kursu və siyasi institutları o vaxt səmərəli hesab etmək olar ki, onların məqsədi hamının, yaxud təqribən bütün fərd və ictimai qrupların mövcud durumunu yaxşılaşdırsın; o ki qaldı yenidənpaylaşdırma siyasi kurs və institutlara, onların məqsədi əhalinin bir qrupunun vəziyyətinin digərləri hesabına yaxşılaşdırılmasından ibarətdir.

Yenidənpaylaşdırma rolunun tədricən azalması bir sıra səbəblərlə, həmçinin alimlərin diqqətini özünə cəlb edən ümumrifah dövlətinin ideoloji və maliyyə böhranı ilə şərtlənmişdir. Bununla yanaşı, plüralist modelin təsirinin azalması da özünü göstərdi.Bu modelə müvafiq olaraq, sosial siyasət rəqabət aparan maraq qruplarının mübarizəsinin hər bir anında əldə olunan tarazlıq kimi çıxış edir. Hakimiyyət və maraqların nisbətinin dəyişməsi nəticəsində siyasi kurs da dəyişilir. Belə halda ideyalar heç bir rol oynamır. Plüralist model və sosial siyasətin inzibati qanunvericiliyə güclü təsiri olan ABŞ-da müxtəlif təsisatlara o məqsədlə təzyiq göstərilirdi ki, idarəçilik

prosesində bərabər iştirakı təmin etmək üçün əhalinin ən məzlum qruplarının ehtiyaclarına ictimai vəsaitlər ayrılsın.

Lakin qruplara yönələn siyasətin təkmilləşdirilməsinə cəhdlər edilən zaman, plüralizmlə bağlı məyusluq daha aydın aşkar olundu. Artıq fakt kimi dərk edildi ki, ayrı-ayrı qrupların spesifik maraqları ilə şərtlənmiş yenidənpaylaşdırma problemlərinə olan diqqət bütün əhaliyə xas ümumi maraqların əhəmiyyətinin azalması hesabına siyasi həyatı çətinləşdirə və iqtisadi artımı ləngidə bilərdi.[1]

Nəticədə belə bir fikrə gəlindi: qrup maraqlarının məcmusundan əlavə, həm də ictimai maraq və ona müvafiq tamamilə fərqli sosial siyasət mövcuddur. İndi o siyasət yaxşı hesab olunmağa başladı ki, həmin siyasət qruplararası mübarizənin məhsulu kimi çıxış etmir, əksinə rasional siyasi təhlil əsasında işlənib hazırlanır.

Siyasi qərarların işlənib hazırlanmasıyla bağlı rasional yanaşma və səmərəliliyə yenidən marağın yaranması nəticəsində həm akademik ekspertlərin, həm də sayı çoxalan siyasi "beyin mərkəzlərinin" analitik işlərinin praktiki əhəmiyyəti daha da artdı. Xüsusən də uzun müddət ərzində həm siyasətçilər və məmurlar, həm də ətraf mühit müdafiəçiləri tərəfindən inkar olunan yeni siyasi alətlər, o cümlədən ətraf mühitin çirklənməsinə, yaxud sənaye tullantılarının ticarətinə qoyulan vergilər, nəticədə akademik dairə hüdudlarından kənarda belə diqqəti cəlb etdi və hətta bəzi hallarda praktikada da tətbiq olundu. Avropa, Şimali Amerika, Avstraliya və yeni Zelandiyada sosial təminat islahatlarının hazırlanması və keçirilməsini gərgin intellektual debatlar önlədi.

**Siyasi kursa etimad.** Səmərəlilik problemi ilə yanaşı, həyata keçirilən siyasi kursa etimad məsələsi də XX əsrin 70-ci illərində gedən genişmiqyaslı müzakirələrin ən vacib mövzusuna

---

[1] Olson M. The rise and decline of nations. New Haven (Conn.) Yale University Press, 1982.

çevrilmişdi. İlk dəfə bu mövzuya aşağıdakı suallar müzakirə olunarkən toxunuldu: maliyyə siyasətini sərt nizama salmağa dəyərmi, yoxsa bu halda ən yaxşısı fəaliyyət azadlığı prinsipinə istinad etməkdir? 1977-ci ildə F.Kidlend və E.Preskott tərəfindən yazılan və mühüm əhəmiyyət kəsb edən məqalə[2] işıq üzü görəndən sonra mübahisələr yeni istiqamət aldı. Məqalədə alimlər sübut edirdilər ki, sosial siyasətin əsas problemini həyata keçirilən siyasi kursa etimad məsələsi təşkil edir:sərt qaydalar daha yaxşıdır, çünki onlar etimadın artmasına səbəb olur, fəaliyyət azadlığı isə müvəqqəti qeyri-ardıcıllığa aparır. Sonuncu halda mümkündür ki, əvvəlki dövr üçün optimal olan siyasət, artıq sonrakı dövrlər ilkin əhəmiyyətini itirsin. Əgər hakimiyyət orqanları, əvvəlcədən nəzərdə tutulan planı həyata keçirməyə məcbur edən sərt öhdəliklərlə əl-qollarını bağlamasalar, onda onlar bu an üçün optimal görünən siyasi xətti yürütmək ixtiyarındadırlar. Belə bir halda əsas problem aşağıdakıdan ibarətdir: əgər insanlar siyasətdə bu kimi dəyişiklikləri əvvəlcədən görsələr, onda onların davranışı hakimiyyətin ilkin məqsədinə nail olmasının qarşısını almaq üçün əngəl törətməyə istiqamətlənəcək.

Səmərəliliklə etimad arasında maraqlı nəzəri əlaqəni də qeyd etmək lazımdır. Səmərəli siyasət daha çox sabitlik tendensiyasına malikdir və deməli, daha əhəmiyyətli dərəcədə etimad doğurur, nəinki qeyri-səmərəli siyasət. Bu onunla izah olunur ki, səmərəli siyasi kurs hamının vəziyyətinin yaxşılaşmasına səbəb olur. Siyasi kursun gerçəkləşməsi zamanı səmərəli nəticə əldə olunmasa, onun keçirilməsi üçün məsuliyyət daşıyanlar əhalinin böyük əksəriyyətini qane edəcək alternativ qərarlar təklif etmək məcburiyyətindədirlər. Deməli, səmərəli siyasi kurs sabitlik tendensiyasına malik olduğu halda, qeyri-səmərəli hər zaman dəyişmə təhlükəsinə meyillidir.

---

[2] Kydland F., Prescott E. Rules rather than discretion: The inconsistency of optimal plans//Journal of Political Economy 1977. Vol 85. P.137-160.

Beləliklə, müasir şəraitdə siyasi səmərəliliyin əsasını təşkil edən başlıca şərt etimaddır. Etimad isə, öz növbəsində, məxsusən bu məqsədlər üçün yaradılmış institutlara hakimiyyət səlahiyyətlərinin həvalə olunması yolu ilə əldə edilir.

**Hakimiyyət səlahiyyətlərinin həvalə olunması.** Yuxarıda qeyd olunduğu kimi, müasir şəraitdə siyasi kursun işlənib hazırlanmasının üçüncü fərqləndirici xüsusiyyəti, mərkəzi siyasi hakimiyyətin həm qanunverici, həm də icraedici orqanlarının siyasi qərarlar qəbulu ilə bağlı səlahiyyətlərinin müstəqil inzibati təsisatlara həvalə edilməsi səyləridir.

Hakimiyyət səlahiyyətlərinin üstmili təşkilatlara ötürülməsi tamamilə yeni təzahür oldu. Məsələn, Avropa İttifaqı haqqında Müqaviləyə (Maastrixt sazişi) əsasən, müəyyən səlahiyyətlər Avropa Mərkəzi Bankına( AMB) verildi. Belə ki, AMB ona daxil olan bütün dövlətlərdə, onların milli qanunvericiliyinə əsaslanaraq, tənzimləyici tədbirlər görmək səlahiyyətindədir. Bu tədbirlərin həyata keçirilməsi üçün nə digər ümumavropa institutlarının, nə də milli parlamentlərinin yardımına ehtiyac olmur. AMB-in bir məqsədi var: maliyyə sistemlərinin sabitləşdirilməsi. Həmin problemin həllinə yönələn qərarlarında isə o, tamamilə müstəqildir. Sözügedən müqaviləni imzalayan dövlətlərin mərkəzi banklarının rəhbərliyi, eyni zamanda Avropa Birliyinə daxil olduğundan müqavilənin 107-ci maddəsinə müvafiq olaraq qarşısında duran məqsədləri həyata keçirərkən hər hansı bir daxili siyasi təsirə məruz qalmır. Yəni mərkəzi banklar artıq köhnə oyunun iştirakçıları qismində çıxış edə bilməz (köhnə oyun seçkilər ərəfəsində iqtisadi inkişaf göstəricilərinin şişirdilməsinə müncər edilirdi). Deməli, əvvəllər daxili siyasətin əsasını təşkil edən, hökumətin hakimiyyətə gəlişi və istefasını müəyyən edən və milli iqtisadi sistemlərin talelərinə toxunan makroiqtisadi idarəçilik problemləri Avropada maliyyə ittifaqı yaradıldıqdan sonra siyasi cəhətdən müstəqil olan ekspertlər tərəfindən həll olunacaq. Xüsusən sosial tənzimləmə sahəsi (ətraf mühitin və istehlakçı maraqlarının qorunması, əmək təhlükəsizliyi

və səhiyyə məsələləri, işləyən qadın və kişilərə bərabər hüquqların verilməsi və s.) daxil olmaqla, olduqca geniş sərəncam funksiyaları Avropa Komissiyası kimi üstmilli təşkilata verilib. Belə ki, Müqavilənin əksər üzv dövlətlərində ətraf mühitin muhafizəsinə dair İttifaq çərçivələrində işlənib hazırlanan qanunlar milli dövlət çərçivəsində işlənib hazırlanmış qanunvericilik müddəalarının reallaşdırılmasına nisbətən, daha çox əhəmiyyət kəsb edir.

## §3. Sosial idarəetmə

Son 30 – 35 ildə ən böyük transformasiya dəyişiklikləri siyasi elmin sosial idarəetmə sahəsində baş verdi. Bu müddət ərzində idarəetmə orqanlarının təcrübəsi, xüsusən də inkişaf etmiş ölkələrdə çox dəyişilmişdi. Sosial idarəetmə nəzəriyyəçiləri və praktiklərinin rəhbər tutduqları başlıca ideyalar indi şübhə altına alınır və çox vaxt yeni təsəvvürlərlə əvəzlənir. Artıq əvvəlki təcrübə kimi, köhnə konsepsiyalar da bizim dövrdə çox böyük inamsızlıq doğurur.

Sosial idarəçilikdəki dəyişikliklər bir sıra qısa təriflərlə səciyyələndirilə bilər. Digərlərindən çox, **yeni "menecerizm"** terminini eşitmək olar. Yeni menecerizm əsasən özəl sektorda yaranan menecment ideyalarının ənənəvi sosial idarəetmə konsepsiyalarını sıxışdırıb aradan çıxartması deməkdir.[1] Bu cür dəyişikliklər üç "e" adını almışdır - **"ekonomiya"** (qənaətçilik), **enerjilik** və **effektivlik** (səmərəlilik). Bunların hər biri dövlət qulluqçusu statusunun, həmçinin sosial siyasətin müəyyənləşməsində idarəetmənin rolunun başa düşülməsinə çox dərin təsir göstərmişdir. İndi, əvvəlki dövrlərlə müqayisədə, dövlət

---

[1] Politt C. Managerializm and the public service Oxford Blackwell, 1993; Hood C. A public management for all seasons?// Public Administration 1991, Vol. 69. P. 3-19.p; Шамхалов Ф. Основы теории государственного управления. М. Экономика, 2003. С. 72-74

qulluqçusunun fəaliyyəti siyasi qərarların qəbul olunmasında iştirakdan daha çox, təşkilatın səmərəli idarə edilməsi ilə əlaqələndirilir. Bu yanaşma hökumət orqanlarında get-gedə nəinki geniş yayıldı, həm də akademik tərəfdarlar qazandı və onlar sübut etdilər ki, publik və özəl sahələrdə menecment öz mahiyyətinə görə eynidir.[2]

Yeni menecerizm konsepsiyası ilə bağlı olan **"patrimonializm"** isə o deməkdir ki, siyasi rəhbərlər vəzifələrə təyinetmədə yüksək dərəcəli nəzarətə nail olmağa can atır və dövlət qulluqçularından daha da çox loyallıq tələb edirlər. Bu tendensiya ABŞ-da xüsusi aydınlıqla özünü büruzə verir, çünki məhz orada siyasi liderlər hakimiyyətin icraedici orqanlarında yüksək vəzifələrə təyin etmək hüququ qazanıblar. Bəzi mütəxəssislərin qənaətinə görə, bənzər tendensiya ingilis-sakson ənənəsində də mövcuddur. Kontinental Avropa ölkələrində belə fenomen çox mühüm yenilikdir, çünki orada həmişə siyasi və idarəetmə elitalarının xeyli dərəcədə qarşılıqlı nüfuz edilməsi və onların funksiyalarının qarışdırılması baş verirdi. Lakin orada da bu növ siyasiləşmənin lazımlıq və faydalılıq dərəcəsi haqqında məsələlər qaldırılır.

Bundan əlavə, hazırda əksər siyasi sistemlərdə hökumət və administrasiyanın "fraqmentasiyası" ("yeni fraqmentasiya") baş verir. Mərkəzi hakimiyyət orqanlarının çoxusu qeyri-mərkəzləşməyə meyillidirlər. Onlar öz səlahiyyətlərinin xeyli hissəsini ayrı-ayrı dövlət məmurları, nomenklatura nümayəndələri, yaxud nisbətən aşağı pillədəki seçkili hakimiyyət orqanlarına ötürür, baxmayaraq ki, bunlardan heç də hamısı mərkəzi hökumət proqramlarının həyata keçirilməsi səlahiyyətlərinə malik deyillər. Sənaye cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində bu işlər idarəetmə orqanlarının səmərəliliyinin artmasına gətirib çıxarır.

---

[2] Self P. Government by the market Boulder (Colo): Westview, 1995

Həmin ölkələrdə sosial idarəetmənin transformasiyası, həmçinin də onun çoxsaylı təzahürlərinin öyrənilməsi altı "həqiqət" haqqında məsələnin qoyuluşu ilə nəticələndi.[1] Həmin altı həqiqətə aşağıdakılar aiddir: **Özündən qənaətlənmə, birbaşa nəzarət, yeknəsəqlik, aşağıdan yuxarıyadək hesabatlılıq, istebli̇şment üçün prosedurların standartlaşdırılması (vəzifə haqqı, tutduğu vəzifəyə görə haqq ödənilməsi prinsipi), qulluğun siyasi neytrallığı.** Sosial idarəetmənin bu altı möhtəşəm həqiqətlərinə dair yeni yanaşmanı nəzərdən keçirək.

**"Özündən qənaətlənmə".** Özəlləşdirmə, rəqabət və müqavilə sisteminə keçidin geniş yayılması nəticəsində sosial idarəetmənin özündən qənaətlənməsi barədə ideyaya da münasibət dəyişir.

Müqavilə sistemi çox vaxt tender əsasında özəl agentlərə xidmətlərin göstərilməsi ilə bağlı əvvəllər dövlət məmurları tərəfindən həyata keçirilən funksiyaların verilməsini nəzərdə tutur.

"Dövlətin geri çəkilməsi"nə istiqamətlənən siyasi kursun ən səciyyəvi və gözəçarpan təzahürü özəlləşdirmədir. Bu tip dəyişikliklərə ictimai xidmətlərin səviyyəsinin, yaxud ayrılan maliyyə vəsaitlərinin kəskin azaldılması və ya ləğv edilməsi daxil olmaqla siyasi fəaliyyətin geniş spektrini və sosial-siyasi proqramların keçirilməsinə görə özəl sektor nümayəndələrinin üzərinə məsuliyyətin qoyulmasını aid etmək olar. Həmin tədbirlərə bəraət qazandırmaq üçün belə dəlil gətirilir ki, özəl sektor daha da keyfiyyətli xidmətləri təmin edəcək, özəl və ictimai sektorların əməkdaşlığı isə ictimai infrastrukturun maliyyələşdirilməsini artıracaq. Sənayenin özəlləşdirilməsi dövlət sektorunun ziyan gətirən müəssisələrinin öz vəsaitləri hesabına onları qazanclı edə bilən özəl sahibkarlara satılmasına, həm də dövlət sektoru müəssisələri səhmlərinin kiçik bir hissəsinin, ayrı-

---

[1] Walsh K, Stewart J. Change in the management of public services // Publik Administration. 1992. Vol. 70. P.499-518

ayrı hallarda isə nəzarət paketinin, yenə də özəl sahibkarlara satılmasına gətirib çıxartdı.

Rəqabətin dəstəklənməsinə istiqamətlənən siyasi kurs da özəlləşdirilmə və müqaviləli əsasa keçidlə sıx bağlıdır. Rəqabət dövlət tənzimlənməsinin ləğv edilməsi (dövlət inhisarının qismən, ya tam ləğv olunması yolu ilə) və səhiyyə kimi sektorların bazar, yaxud bazarabənzər münasibətlərə keçidi vasitəsilə gerçəkləşir. Bu da məhdud büdcə köməyi alan istehlakçılara imkan verir ki, onlara sərf edən qiymətlərə həmin xidmətləri göstərən təşkilatları tapsınlar. Rəqabət istehlakçı seçimini genişləndirmək, qiymətləri aşağı salmaq və xidmətlərin keyfiyyətini yüksəltmək iqtidarındadır.

Bundan əlavə, ictimai sektorun özündən qənaətlənməsinin məhdudlaşdırılmasını mümkün edə bilən daha bir mühüm yolu var, bu da onun ayrı-ayrı funksiyalarını yerinə yetirməyi öz üzərinə götürən təşkilat və təsisatlar sisteminin yaradılmasının əhəmiyyətini etiraf etmək yoludur. İndi aydındır ki, uğur əldə etmək üçün istənilən təşkilat öz fəaliyyətini digər çoxsaylı ictimai təsisatlarla, həmçinin özəl sektorun müxtəlif idarələri ilə uzlaşdırmalıdır. Vəziyyət daha çox dərəcədə onunla çətinləşir ki, inzibati tənzimlənmənin xarakteri getdikcə daha da transmilli və beynəlxalq səciyyə alır.

**Birbaşa nəzarət,** yaxud iyerarxiya ideyası da ictimai sektor haqqında təsəvvürlərin inkişafında mühüm rol oynadı. Bu prinsip,dövlət təşkilatları əməkdaşlarının öz rəhbərliyindən aldıqları əmrə tərəddüd etmədən riayət eləmək labüdlüyünə əsaslanır. Bununla xidmət edənlər öz çalışqanlıqlarını onlara çatmalı olan maddi mükafatla mübadilə edirlər. Bundan başqa, əgər dövlətdə qanun dəstəklənirsə və hər hansı hesabatlılıq sistemi mövcuddursa, onda iyerarxiya nazirlərlə tabeçiliklərində olan və dövlət fəaliyyətinin bu və ya digər sahəsində onların adından qərar qəbul edən çoxsaylı insanlar arasında mühüm əlaqələndirici prinsipə çevrilir.

İyerarxiyalı idarəetmə ideyaları hazırda yenidən qiymətləndirilərək "hakimiyyətin verilməsi" haqqında təsəvvürlərlə əvəzlənir. Bu isə dövlət təsisatlarının həm müştərilərinə, həm də əməkdaşlarına getdikcə artmaqda olan təşkilati hakimiyyətin həvalə edilməsi deməkdir. Əvvəla, dövlət qulluqçularının aşağı həlqəsinin səlahiyyətləri genişlənməli və onlara öz vəzifələrinin yerinə yetirilməsinə nəzarətin ən yüksək dərəcəsi verilməlidir. Əgər iyerarxiyalı struktur qulluqçular və onların qərarları üzərində idarə edənlərin nəzarətidirsə, hakimiyyətin verilməsi qulluqçulara qərar qəbul edərkən daha çox fəaliyyət azadlığı və müvafiq olaraq öz əməllərinə görə cavabdehlik həddinin verilməsini nəzərdə tutur. Bundan başqa, yenə də özəl sektordan əxz olunmuş son dərəcə keyfiyyətli menecment ideyaları dövlət sektoruna o məqsədlə daxil edilmişdir ki, bütün səviyyələrdə çalışan qulluqçular qərar qəbuletmə prosesinə cəlb olunsun və bunun hesabına onların təşkilatlarının fəaliyyətinin səmərəliliyi yüksəlsin.[1]

Əlbəttə, bu ideyaları heç cür yeni adlandırmaq olmaz. Yeni olanı dövlətin həmin idarəçilik üslubuna tərəfdar çıxmasıdır. Xüsusilə bu Kanadada "Sosial xidmətlər – 2000" proqramında və yaxud ABŞ-da "Qor Məruzəsi" kimi tanınan səmərəlilik haqqında Milli Məruzənin (National Performance Reviev) bəzi müddəalarında öz əksini tapdı.

Dövlət qulluqçularının aşağı həlqəsinə yüksək dərəcəli muxtariyyət verilməsi ilə yanaşı, səlahiyyətlərin ötürülməsi uğrunda hərəkat da bu təşkilatlara aid müştərilərin hüquqlarının genişlənməsini təmin etməyə səy göstərir. Belə ki, Böyük Britaniyada Vətəndaş Xartiyası və Fransada analoji sənədlər vətəndaşların öz hökumətlərindən almağa ümüd etdikləri xidmətlərin tipləri haqqında xeyli dərəcədə təsəvvür yaradırlar. ABŞ-da Qor Komissiyasının maliyyələşdirdiyi bəzi islahatlar,

---

[1] Swiss J. Adapting total quality management (TQM) to government / Public Administration Review. 1993. Vol. 52. P 356-362.

həmçinin dövlət təşkilatlarını məcbur edir ki, onlar xidmət göstərdikləri istehlakçıların fikirləri ilə hesablaşsınlar. Bu islahatların əsas məqsədi məhz istehlakçılara qulluq etməkdir.

**Yeknəsəqlik.** Ənənəvi sosial idarəetmə haqqında yayılmış təsəvvürlər ona müncər edilirdi ki, bütün vətəndaşlar dövlətdən mümkün qədər eyni imtiyazlar almalı və dövləti dəstəkləmək üçün yığılan xərclərin ağırlığını bərabər üzərilərinə götürməlidirlər. Belə yanaşma nəhəng, mərkəzləşdirilmiş bürokratik aparatın mövcudluğunu tələb edirdi. Əməkdaşların hazırlanması, qaydaların yerinə yetirilməsi və müvafiq nəzarətin həyata keçirilməsi hesabına belə aparat, bərabərliyi təmin edə bilirdi. Bürokratik struktur çərçivəsində bilavasitə nəzarət bu cür ədalətli idarəçilik konsepsiyasını reallaşdırmaq üçün labüd olan yeknəsəqliyə nailolma vasitələrindən biri kimi çıxış edirdi. Lakin bəzi Qərb alim və siyasətçiləri alternativ idarəçilik modellərini irəli sürməklə, eyni zamanda yeknəsəqliyin labüdlüyünü şübhə altına almağa başladılar. Mərkəzləşməyə aid edilən çatışmazlıqlarla mübarizə üsullarından ən məşhurları qismində idarəçilik funksiyalarının, daha geniş mənada isə elə dövlətin təmərküzləşməsinin zəifləməsi və əksmərkəzləşməsi qəbul olunmuşdu. Dövlət təsisatları onların səlahiyyət sahəsinə daxil olan problemlərə və yeritdikləri siyasətə müvafiq olaraq parçalanmağa başladılar.

Təşkilatlar nəzəriyyəsi üzrə elmi nəşrlərin müəllifləri sübut edirlər ki, mərkəzləşdirilmiş nəzarət və yeknəsəqliyə nail olmaq qeyri-mümkündür, ona görə də dövlət təşkilatlarına bu xülyalar arxasınca qaçmaq üçün səy göstərməyə dəyməz. Bununla yanaşı, personalın idarəedilməsi üzrə mütəxəssislər yenidən iyerarxiyalı nəzarətin qulluqçuların özgəninkiləşdirilməsi prosesinə səbəb olması haqqındakı məşhur müddəaya öz diqqətlərini yönəldirlər. Bəzi nəzəriyyəçilər hətta belə bir sualı şübhə altına almağa başladılar ki, göstərilən xidmətlərin bərabərliyi və yeknəsəqliyini vətəndaşların ayrılmaz hüquqları və idarəçilik proseslərinin arzuolunan nəticəsi hesab etmək lazımdırmı?

Nəhayət, son dərəcə önəmlidir ki, qəbul edilmiş qərarların həyata keçirilməsi nəticələrinin bürokratiyanın fəaliyyətindən asılılığı xüsusi ilə vurğulanır. Bu isə köməyin hansısa növünün göstərilməsi ilə bağlı qərarların işlənib hazırlanması və yerinə yetirilməsində dövlət təşkilatlarının oynadığı həlledici roldan xəbər verir. Qəbul olunmuş qərarların həyata keçirilməsi "aşağıdan yuxarıya" yönəlmiş siyasi kurs vasitəsi ilə olmalıdır, əksinə yox. İdarəetmə haqqında təsəvvürlərdəki bu kimi dəyişikliklər idarəçilik orqanlarının daha çox əksmərkəzləşmə və qeyri-təmərküzləşməsi cəhdinə gətirib çıxardı. Bu növ tədbirlərdən bəziləri funksionallığı ilə seçildi, məsələn, Böyük Britaniyada "Növbəti addımlar" kimi proqramda və onun digər ölkələrdəki analoqlarında iri nazirliklər, bir qayda olaraq, dar ixtisaslaşmaya malik çoxsaylı və daha xırda idarəçilik təşkilatlarına bölündülər.[1]

Mərkəzi hökumətlər get-gedə dövlət sektorundan kimin nə alacağı məsələsinin həlli hüququnu yerli hakimiyyət orqanlarının ixtiyarına verməyə çalışırlar, özü də belə xarakterli qərarlar yerli hakimiyyət orqanlarında işləyən aşağı pillələrdəki məmurlar tərəfindən qəbul olunmalıdır. Qismən bu yuxarıda şərh edilən səlahiyyətlərin ötürülməsi konsepsiyası və dövlət təsisatlarının aşağı pillələrdəki qulluqçularının əhəmiyyətini yüksəltmək cəhdi ilə bağlıdır. Bununla birgə, strukturu getdikcə daha da çox təbəqələşən cəmiyyətdə həmin yanaşma o faktı təsdiqləyir ki, ehtiyacı olan hər kəsə bərabər şərtlərlə göstərilən eyni xidmətlər dəsti artıq insanların artmış tələbatlarına uyğun deyil və kiçik vəzifəli məmurlara əlavə səlahiyyətlərin verilməsi müştəri tələblərini tam ödəməyə imkan verə bilərdi.

**Aşağıdan yuxarıyadək hesabatlılıq.** Ənənəvi bürokratik modellər hakimiyyətin bütün səviyyələrinin siyasi suverenləri qarşısında hesabata (bu rolu parlamentli demokratik rejimlərdə

[1] Greer P. Transforming central government: The next steps initiative. Buckingham: Open University Press, 1994

nazirlər icra edir), başqa sözlə, hesabatlılıq prinsipinə əsaslanır. Hazırki dövrdə aşağıdan yuxarıyadək hesabatlılıq prinsipi (nazir cavabdehliyi doktrinasına müvafiq olaraq) yuxarıdan aşağıyadək hesabatlılıq prinsipi ilə tamamlanıb (yəni dövlət sektoru xidmətlərinin istehlakçıları qarşısında hesabatla). Fəaliyyətləri kifayət qədər səmərəli olmayan dövlət məmurlarına inzibati cəzaların verilməsi kimi yeniliklər məhz ona istiqamətlənib ki, istehlakçılar qarşısında hesabatlılıq prinsipinin sonrakı inkişafı təmin edilsin.

**İsteblişment üçün prosedurların standartlaşdırılması (vəzifə haqqı,tutduğu vəzifəyə görə ödənilmə prinsipi).** Ənənəvi sosial idarəetmənin başlıca xüsusiyyətlərindən biri o idi ki, öz təbiətinə görə dövlət qulluğu məşğulluğun spesifik sahəsi kimi çıxış edirdi və özəl sektordakı işdən əhəmiyyətli dərəcədə fərqlənən prinsiplərə müvafiq olaraq həyata keçirilirdi. Dövlət məmurlarını qulluğa o halda qəbul edirdilər ki, onlar hakimiyyət yükünü ləyaqətlə daşıyacaqlarını sübuta yetirə bilsinlər. Qulluğa görə mükafatlandırma xüsusi xidmətlərə görə deyil, məhz tutduqları vəzifəyə müvafiq olaraq verilirdi. Sınaq müddəti keçdikdən sonra onları ştata götürür və hökumət tərkibində siyasi dəyişikliklərdən asılı olmayan daimi vəzifəyə təyin edirdilər ki, bununla da dövlət məmurları yalnız vəzifə səlahiyyətləri ilə bağlı cinayət etdikləri halda işdən çıxarıla bilərdilər. Lakin bu ənənəvi sistemin xeyli hissəsi tənqid atəşinə tutularaq, özəl sektordan əxz olunmuş kadr menecmenti təcrübəsi ilə əvəz olundu. Dövlət sektorunda bu tip dəyişikliklərin ən mühümü görülmüş işin nəticələrinə görə ödəmənin tətbiqi oldu. Ayrı-ayrı dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyi indi artıq ya mükafat, ya maaşa əlavələr, ya da dərəcələrə ayrılmış əmək haqqı vasitəsi ilə qiymətləndirilir. Belə mükafatlandırma sxemi, demək olar ki, bütün sənaye cəhətdən inkişaf etmiş ölkələrdə tətbiq edilir.

Kadr seçimi prinsipi dəyişilir (artıq özəl sektordan da mütəxəssislər cəlb olunur, hətta çox vaxt qısamüddətli müqavilələr əsasında). İndi kadrlara bütün nəzərdə tutulan

formallıqlara riayət edərək, vətəndaşlara hər cür xidmət göstərən qərəzsiz məmurlar kimi deyil, məhz səmərəliliyə və öz müştərilərinin spesifik tələbatlarına xüsusi diqqət yetirən menecerlər, sahibkarlar kimi yanaşılır.

**Qulluğun siyasi neytrallığı.** Mütəxəssislərin diqqətini cəlb edən sonuncu mülahizə ondan ibarətdir ki, dövlət qulluğu siyasi cəhətdən neytraldır, neytral ola bilər və hətta olmalıdır. Lakin Avropa ölkələrində bir çox yüksək vəzifəli şəxslər açıq şəkildə öz siyasi qərəzliliklərini ifadə edirlər. Onlar ya siyasi partiyalar vasitəsilə siyasətə cəlb olunur, ya da həmin partiyalarla açıq-aşkar əməkdaşlıq edirlər. Bir çox digər inkişaf etmiş dövlətlərdə də idarəçilik sahəsinin siyasiləşməsi meyli müşahidə olunur, hərçənd əvvəllər burada dövlət məmurlarının siyasi neytrallığı ənənəvi hal idi.

Köhnə siyasi idarəetmə nəzəriyyəsinin yeni prinsiplər üzərində qurulan yeni sosial menecment konsepsiyasına transformasiyası gedişindəki dəyişikliklər inkişaf etmiş ölkələrdə zaman, miqyas və intensivlik baxımından fərqlənir. Konstitusion, hüquqi və mədəni xarakterli maneələr bu dəyişikliklərin bir sıra kontinental Avropa ölkələrinə yayılmasını çətinləşdirmişdi. Amma həmin dəyişikliklərin baş verdikləri yerlərdə dövlət sektoru qulluqçuları xeyli real üstünlüklər əldə etdilər. Onu da yadda saxlamaq lazımdır ki, yeni idarəçilik siyasətinin xüsusiyyətlərindən biri də onun göstərişlərinin aşkar ziddiyyətli olmasıdır. Bu ziddiyyət həm təcrübədə, həm də sosial idarəetmə prinsiplərində özünü büruzə verir. Nisbətən az səmərəliliyinə baxmayaraq, ənənəvi model yeni sosial idarəetmə konsepsiyaları ilə müqayisədə daha dəqiq normativ standartları əldə rəhbər tutur.

Qeyd etmək lazımdır ki, sosial siyasətin müxtəlif problemlərinin işıqlandırılmasında Azərbaycan alimlərinin də əməyi az deyildir. A.Əliyev, N.Qasımov, A.Gözəlova, M.Əfəndiyev, A.Şirinov, R.Quliyev, C.Əhmədli və başqaları sosial sahənin inkişafı, sosial siyasətin həyata keçirilməsi xüsusiyyətləri, cəmiyyətin inkişafı prosesində onun rolu,

insanların həyat səviyyəsinin yaxşılaşdırılmasında sosial-iqtisadi problemlərin həlli məsələləri, sosial siyasətin təsir dairəsinə daxil olan müxtəlif problemləri tədqiq etmişlər[1]. Bu əsərlərdə bir çox dəyərli və maraqlı ideyalar, mülahizələr irəli sürülür. Lakin 2003-cü ilə qədər müstəqil Azərbaycanda genişlənməkdə olan dövlət quruculuğu prosesini, xüsusilə dövlətin sosial siyasət xəttini, cəmiyyətimizdə baş verən sosial-iqtisadi dəyişiklikləri geniş miqyasda təhlil edən, bu sahənin inkişafı ilə bağlı proqnozlar verməyi qarşısına məqsəd qoyan fundamental tədqiqat işi aparılmamışdır.

Təbii ki, bu sahədəki mövcud boşluqları yalnız alimlərin birgə səyi ilə aradan qaldırmaq mümkündür. Həmin istiqamətdə atılan ilk uğurlu addım kimi H.Rəcəblinin "Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komparativ təhlili" adlı monoqrafiyasını qeyd etmək lazımdır. Tədqiqat işinin başlıca məqsədi Azərbaycanda sosial siyasətin formalaşmasının nəzəri və metodoloji təhlilini vermək, ölkədə tətbiq olunan sosial siyasət modelini müəyyənləşdirmək, sosial sahənin müxtəlif inkişaf istiqamətlərini öyrənmək, orada meydana çıxan problemləri, onların inkişaf meyillərini aydınlaşdırmaq, sosial siyasətlə bağlı praktik tövsiyələr hazırlamaqdır. Müəllif tədqiqat əsərində Azərbaycanda sosial siyasətin formalaşması prosesini dövrləşdirmiş, ölkəmizin müvafiq beynəlxalq təşkilatlarla mövcud əlaqələrini təhlil etmiş, respublikamızda həyata keçirilən demokratik islahatların sosial yönümünü və mahiyyətini araşdırmış, burada sosial təminat və yardım sahəsindəki vəziyyəti, sosial təminat sistemində dövlətin strateji xəttini tədqiq etmiş, Azərbaycan səhiyyəsinin real xüsusiyyətlərini, tibbi islahatlarının

---

[1] Məsələn, bax: Əliyev A., Qasımov N. Azərbaycanın sosial inkişafında islahatların rolu. Bakı, 1998. Əliyev.A, Qasımov N.Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri. Bakı, 2000.
Гезалова А. Демографическая ситуация в Азербайджане. Социальная политика в постсоциалистическом обществе: задачи, противоречия, механизмы. Москва: Наука, 2001, с. 220-240.

mahiyyətini, onların həyata keçirilməsi yollarını, sosial müdafiənin tibbi aspektini dərindən öyrənmiş, Azərbaycanda məşğulluğun hazırkı vəziyyətini aydınlaşdırmış və problemlə bağlı digər önəmli məsələləri geniş işıqlandırmışdır. Monoqrafiya elmi-nəzəri və praktiki-tətbiqi əhəmiyyətə malik dəyərli əsər kimi qiymətləndirilməlidir. Müəllifin elmi qənaətləri respublikamızda sosial siyasətin düzgün istiqamətdə inkişaf etdirilməsinə, həm bütövlükdə, həm də sahələr üzrə təkmilləşdirilməsinə köməklik göstərə bilər.[1]

Azərbaycan Respublikasında sosial siyasətin səciyyəvi xüsusiyyətləri məsələsinə gəldikdə, ilk növbədə onu qeyd etmək lazımdır ki, bu siyasətin həyata keçirilməsi möhkəm hüquqi bazanın yaradılması, dövlət səviyyəsində hüquqi aktların və normaların işlənib hazırlanması, tətbiq olunması və mükəmməl qanunvericilik özülünün formalaşdırılmasını tələb edir. Azərbaycanda müstəqilliyin ilk illərində sosial sahələr üzrə qanunların yazılması ümumi qanun yaradıcılığı məcrasında gedirdi. Həmin cəhət sosial sferada prioritet xarakterli qanunların aşkara çıxarılıb hazırlanması işində müəyyən ləngliyə səbəb olurdu. Belə bir vəziyyətin aradan qaldırılması üçün Milli Məclisdə sosial sahə ilə bağlı xüsusi qurumun formalaşdırılması zəruri idi. 1995-ci ildə dövlət qanunvericilik orqanında Sosial siyasət daimi komissiyasının fəaliyyətə başlaması ilə sosial siyasət sahəsində qanun yaradıcılığı işi gücləndirildi.

Bu komissiya (hazırda komitə) Azərbaycan dövlətinin sosial siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı bir qurum oldu. Beləliklə, sosial siyasət sahəsində qanun yaradıcılığının mərkəzləşdirilmiş formaya salınması istiqamətində ilk zəruri addım atıldı. Milli Məclisdə komissiyanın yaradıldığı vaxtdan bu günədək sosial məsələlər üzrə 60-dan artıq qanun qəbul edilmişdir. Bunlardan "Məcburi

---

[1] Bax. Rəcəbli Hadı. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komparativ təhlili. Bakı: "Gənclik", 2003.

köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin xüsusi təhsili haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Tibbi sığorta haqqında", "Ahılların sosial müdafiəsi haqqında" qanunlarını misal göstərmək olar. Heç şübhəsiz ki, xalqın həyat şəraiti və sosial vəziyyətinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edən bu və digər qanunlar ölkədə sosial siyasətin hüquqi bazasının yaradılmasında və möhkəmləndirilməsində böyük rol oynayır.

Azərbaycanda sosial sahələr, o cümlədən sosial inkişaf, əmək, məşğulluq, insanların, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial problemləri, ailə, qadın və uşaq məsələləri, gənclər, bədən tərbiyəsi, turizm, səhiyyə, sanitariya, sosial təminat, sığorta, sağlamlığın mühafizəsi, miqrasiya sahələri üzrə müxtəlif qanunların hazırlanması və qəbul edilməsi prosesində bir sıra beynəlxalq təşkilatlar da yaxından iştirak edirlər. Azərbaycan Respublikasının sosial siyasətinin formalaşması, həmin siyasətin hüquqi bazasının yaradılmasında beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasının müstəsna əhəmiyyəti var. Sosial siyasət sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatları üç qrupa bölmək olar: BMT, onun orqan və qurumları, regional (məhəlli)dövlətlərarası təşkilatlar, qeyri-hökumət təşkilatları.

## §4. Sosial siyasət problemlərinin qoyulması və inkişafında beynəlxalq təşkilatların rolu

Sosial siyasət məsələləri müxtəlif beynəlxaq təşkilatların, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatının diqqət mərkəzindədir. Çünki iqtisadi inkişafla ayrılmaz surətdə bağlı olan sosial inkişaf və ədalətli sosial siyasət problemləri BMT-nin fəaliyyətinin təməlini təşkil edir. Bütün insanların həyatının yaxşılaşdırılması məsələsini həll etmək məqsədi ilə BMT və onun ixtisaslaşdırılmış qurumları daim inkişafın müxtəlif sosial aspektlərini vurğulayırlar. Bu təşkilat son iki onillikdə müasir tələblərə cavab verən sosial strategiyaların işlənilməsi və reallaşdırılmasını təmin etmək üçün bir sıra beynəlxalq konfrans və görüşlər keçirmişdir ki, onlardan ən əsasları aşağıdakılardır:

1. Hamı üçün təhsil məsələləri üzrə Ümumdünya Konfransı (1990-cı il, Comtyen, Tayland).
2. Uşaqların mənafeyi üçün ali səviyyədə Ümumdünya Görüşü (1990-cı il, Nyu-York, ABŞ).
3. BMT-nin Ətraf mühit və inkişaf üzrə Konfransı (1992-ci il, Rio-de-Janeyro, Braziliya).
4. İnsan hüquqları üzrə Ümumdünya Konfransı (1993-cü il, Vyana, Avstriya).
5. Əhali və inkişaf üzrə Beynəlxalq Konfrans (1993-cü il, Qahirə, Misir).
6. Sosial inkişafın mənafeyi üçün ali səviyyədə Ümumdünya Görüşü (1995-ci il, Kopenhagen, Danimarka).
7. Qadınların vəziyyəti üzrə IV Ümumdünya Konfransı (1995-ci il, Pekin, Çin).
8. Ərzaq problemləri üzrə ali səviyyədə Ümumdünya Görüşü (1996-cı il, Roma, İtaliya).

9. Cinayətin qarşısının alınması və cinayətkarlarla rəftar edilməsi üzrə BMT-nin X Konqresi (2000-ci il, Vyana, Avstriya).

10. Ən az inkişaf etmiş ölkələr üzrə BMT-nin III Konfransı (2001-ci il, Brüssel, Belçika).

11. İrqçilik, irqi diskriminasiya, ksenofobiya və onunla bağlı olan dözümsüzlüyə qarşı mübarizə uğrunda Ümumdünya Konfransı (2001-ci il, Durban, Cənubi Afrika).

12. İnkişafın maliyyələşdirilməsi üzrə Beynəlxalq Konfrans (2002-ci il, Monterrey, Meksika).

13. Qocalma məsələləri üzrə II Ümumdünya Assambleyası (2002-ci il, Madrid, İspaniya).

14. Davamlı inkişaf üzrə ali səviyyədə Ümumdünya Görüşü (2002-ci il, Yohannesburq, Cənubi Afrika).

15. Baş Assambleyanın QİDS üzrə yüksək səviyyədə İclası (2005-ci il, Nyu-York, ABŞ).

16. Beynəlxalq miqrasiya və inkişaf üzrə yüksək səviyyədə Dialoq (2006-cı il, Nyu-York, ABŞ).

17. İnkişaf sahəsindəki məqsədlərə həsr olunmuş yüksək səviyyədə iclas (2008-ci il, Nyu-York, ABŞ).

18. Ərzaq təhlükəsizliyi üzrə Ümumdünya Sammiti (2009-cu il, Roma, İtaliya)

19. İİV/GİDS məsələləri üzrə XVIII Beynəlxalq Konfrans (2010-cu il, Vyana, Avstriya)

20. Böhran şəraitində dünya əhalisi sağlamlığının qorunması problemi üzrə yüksək səviyyədə Forum (2012-cu il, Nyu-York, ABŞ)

21. Gəclər haqqında məsələlər üzrə Baş Assambleyanın yüksək səviyyədə İclası (2011-ci il, Nyu-York, ABŞ)

22. Qeyri-yoluxucu xəstəliklərin profilaktikası və onlarla mübarizə üzrə Baş Assambleyanın yüksək səviyyəli Müşavirəsi (2011-ci il, Nyu-York), ABŞ)

23. Davamlı inkişaf üzrə BMT-nin Konfransı–RİO+20 (2012-ci il, RİO-de Janeyro, Braziliya)

Hər bir irimiqyaslı konfrans və görüşün nailiyyətləri 5 il ərzində təhlil edilir. Bu işdə Baş Assambleyanın ixtisaslaşmış sessiyaları xüsusən seçilir.

1995-ci il 6-12 mart tarixində Kopenhagen şəhərində keçirilən Ümumdünya Görüşündə "Sosial inkişaf haqqında Kopenhagen Deklarasiyası" qəbul edildi. Həmin sənəddə vurğulandı ki, tarixdə ilk dəfə olaraq Birləşmiş Millətlər Təşkilatının dəvəti ilə dövlət və hökumət başçıları sosial inkişafın və insanların rifahının əhəmiyyətini tanımaq və bu məqsədləri həm ötən yüzillikdə, həm də XXI əsrdə ön plana çəkmək üçün toplaşmışlar. Deklarasiyada sosial inkişaf, sosial ədalət, ətraf mühitin qorunması, insan haqları, iqtisadi inkişaf və azadlıqlar bir-birindən asılı olan və bir-birini möhkəmləndirən komponentlər kimi göstərilir. Bütün dünyada dərin sosial problemlərin, xüsusilə səfalət, işsizlik və sosial təcridolunmanın həlli məsələlərinin aktuallığı təsdiqlənir. Burada dövlət və hökumət başçıları xalqların səhhəti, əmin amanlığı, təhlükəsizliyi, yaşayışı və rifahına ciddi təhdid təşkil edən problemlərə xüsusi diqqət yetirir və onların həlli üçün öhdəliklər götürürlər. Sənəddə bu problemlər sırasına xroniki aclıq və pis qidalanma, korrupsiya, xarici işğal, silahlı münaqişələr, qeyri-qanuni silah alveri, terrorizm, dözümsüzlük, irqi, etnik, dini nifrətin qızışdırılması, ksenofobiya, endemik, yoluxucu və xroniki xəstəliklər aid edilir. Qeyd olunur ki, bu məqsədlə milli, regional və beynəlxalq səviyyələrdə koordinasiya və əməkdaşlığın möhkəmləndirilməsi tələb olunur. 117 ölkə və hökumət başçısı digər 69 ölkənin nazirlərinin dəstəyi ilə sosial inkişaf haqqında Kopenhagen Deklarasiyası və Fəaliyyət Proqramını qəbul etdi. Sammit sosial inkişafın, milli və beynəlxalq siyasətin əsas prioriteti kimi qəbul olunduğunu əyani şəkildə sübuta yetirdi. Beş ildən sonra keçirilən Baş Assambleyanın Xüsusi Sessiyası (Jeneva, 2000) bir daha həmin problemlərin aktuallığını təsdiqlədi və yeni təşəbbüsləri, o cümlədən 2015-ci ilə kimi ifrat səfalət

şəraitində yaşayan əhalinin yarısına qədər azaldılması təşəbbüsünü irəli sürdü.

BMT sosial siyasət və inkişaf problemlərinin həllini Baş Assambleyanın, həmçinin İqtisadi və Sosial Şuranın köməyi ilə tapır. Baş Assambleyanın altı əsas komitəsindən biri olan Sosial, humanitar və mədəniyyət məsələləri üzrə Komitə daim gündəliyə sosialyönümlü məsələləri daxil edir.

İqtisadi və Sosial Şuranın himayəsi altında sosial problemlərlə məşğul olan əsas hökumətlərarası orqan Sosial İnkişaf Komissiyasıdır. BMT nəzdindəki Sosial inkişafın Elmi-Tədqiqat İnstitutu isə inkişafa təsir edən müasir problemlərin sosial aspektlərinin tədqiqiylə məşğuldur.

# X BÖLMƏ

# MƏDƏNİYYƏT SİYASƏTİ VƏ İDARƏETMƏ

## §1. Mədəniyyət siyasəti probleminin təşəkkülü və inkişafı

Mədəniyyət siyasəti dövlətin mədəniyyət sahəsində həyata keçirdiyi siyasətdir. "Mədəniyyət siyasəti" anlayışı Birləşmiş Millətlərin Elm, Təhsil və Mədəniyyət Məsələləri üzrə Təşkilatı tərəfindən 1960-cı illərdə rəsmən dövriyyəyə gətirilib. YUNESKO-nun mədəni aksiyaları dövlət siyasətinin ən mühüm məqsədlərindən biri kimi dünya birliyi tərəfindən addımbaaddım gerçəkləşdirilir: 1982-ci ildə Mexikoda keçirilən Mədəniyyət sahəsində siyasət üzrə Ümumdünya Konfransı, BMT-nin Baş Assambleyası tərəfindən 1987-ci ildə Mədəniyyətin inkişafının onilliyinin bəyan edilməsi, 1988-ci ildə BMT-nin bu məsələylə bağlı Bəyannaməsi, 1998-ci ildə inkişaf məqsədi ilə keçirilən hökumətlərarası Stokholm Konfransı və mədəniyyət nazirlikləri yaradılan ölkələrin sayının durmadan artması – bütün bunlar artıq mədəniyyət siyasətinin müasir dövlət və cəmiyyətlərdə çox böyük əhəmiyyətə malik olmasından xəbər verir. 1995-ci ildə Mədəniyyət və İnkişaf üzrə Ümumdünya Komissiyası özünün "Bizim yaradıcı müxtəlifliyimiz" məruzəsində mədəniyyət siyasətinin gerçəkləşməsini incəsənətə yardım və mədəni irsin qorunması ilə yanaşı, mədəni azadlıqla da əlaqələndirmişdir. Həmin məruzədə irəli sürülən "mədəni azadlığın mədəni müxtəlifliyə hörmətdən və həm maddi, həm də qeyri-maddi mədəni irsin qorunmasından ayrılmazlığı" fikri bütün sivil dövlətlər tərəfindən dəstəkləndi.

Əlbəttə, dövlətin tam, bütöv rəsmi siyasəti və onun konkret bir qolu olan mədəniyyət siyasəti arasında həmişə müəyyən bağlılıq var. Elə bu səbəbdən də totalitar və demokratik dövlətlərdəki mədəniyyət siyasətlərinin məqsəd, prinsip və əsas xüsusiyyətləri arasında çox ciddi fərqlər mövcuddur. Məsələn, Sovet İttifaqında hər bir totalitar dövlətdə olduğu kimi, mədəniyyət əsasən hakim partiya-dövlət dəyərlərinin insanların şüuruna yeridilməsi aləti kimi başa düşülür, onun köməyi ilə mövcud ictimai-siyasi quruluş möhkəmləndirilirdi. Bu cür münasibət kommunist-ideoloji meyar, mədəni və bədii dəyərlərə sinfi yanaşma, yaradıcılıq prosesinə bilavasitə müdaxilə, mədəniyyətin vasitəsilə "ümumxalq maraqlarının" inzibati-amiranə, yəni məcburi metodlarla həyata keçirilməsi ilə fərqlənən bir mədəniyyət siyasətinin gerçəkləşməsinə səbəb olurdu.

Demokratik dövlətdə isə mərkəzi hakimiyyət "cəmiyyətin ardıcıl inkişafı nəticəsində yaranan mədəni tələbatların qiymətləndirilməsinə və dövlətin mədəniyyət siyasətinə cavabdehdir. O, bu istiqamətdə qarşıya qoyulan son məqsədləri müəyyən etməli və mövcud vəsaiti bölüşdürməlidir. Onun vəzifəsi ictimai tələbatların üzəçıxarma mexanizmini yaratmaq, həmin sahəyə aid olan bu və digər görülən işlərin nəticələrini yoxlamaq, mədəniyyətin yeni sahələrində eksperimentləri müdafiə etmək, nəhayət, ümumi təkamül üçün çox əhəmiyyətli olan beynəlxalq kooperasiyanı dəstəkləməkdir"[1]. Şübhəsiz, müxtəlif sivil ölkələrdə mədəniyyət siyasətinin modelləri fərqlidir. Çünki hər bir dövlət öz ənənələrinə, dəyərlərinə münasib olan, üstün tutulan mənəvi, estetik və bədii normalardan irəli gələn bir strategiya seçir. Lakin bütün demokratik ölkələrdə vahid, universal mədəniyyət siyasətinin olmamağına baxmayaraq, onlar üçün YUNESKO tərəfindən keçirilən müşavirə və konfranslarda daim irəli sürülən,

[1] Girard A. Cultural development: experienses and policies. P. 1983, p. 181

bəyənilən, qəbul edilən və dəstəklənən ümumi məqsəd və prinsiplər mövcuddur[1]. Hələ mədəniyyət siyasətiylə bağlı problemlərin öyrənilməsinin ilk çağlarında ekspertlər belə qənaətə gəliblər ki, ölkə vətəndaşlarının mədəni fəaliyyətdə aktiv iştirakı bütün dövlətlərdə gerçəkləşən mədəniyyət siyasətinin məqsədi kimi qəbul edilməlidir. Bu fikirlər 1967-ci ildə YUNESKO tərəfindən Monakoda keçirilən iclasda səsləndi. Bir qədər sonra, 1970-ci ildə Venetsiya şəhərində mədəniyyət siyasətinin institusional, inzibati və maliyyə aspektlərinə həsr olunmuş hökumətlərarası konfransda artıq iki əsas məqsəd dəqiq müəyyənləşdirilir. Birinci məqsəd BMT-nin 1948-ci ildə qəbul etdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində "Hər bir insan cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq hüququna malikdir" (Maddə 27) müddəasıyla birbaşa bağlıdır. Bu da o deməkdir ki, dövlət öz vətəndaşlarının qeyd olunan hüququnu reallaşdırmaq üçün imkanlar yaratmalıdır. Beləliklə, birinci məqsəd – **sərbəst iştirak məqsədidir.**

İkinci məqsəd – **inkişaf məqsədidir.** Venetsiya Konfransı mədəni inkişafın ümumi (iqtisadi, sosial, texnoloji) inkişafla ayrılmaz bağlılığını vurğulayaraq belə bir nəticəyə gəlmişdir: "Mədəniyyət siyasəti ümumi dövlət siyasətinin bir hissəsini təşkil etməlidir"[2]. İnkişaf məqsədi mədəni özünəməxsusluq prinsipiylə sıx bağlıdır. Bu məsələyə 1982-ci ildə Mexiko şəhərində keçirilən Mədəniyyət sahəsində siyasət üzrə Ümumdünya Konfransında çox böyük önəm verilir. Konfransın yekun sənədi olan Mexiko Bəyannaməsində **hər bir mədəniyyətin müstəqilliyi** və **dəyərliliyi** mədəniyyət siyasətinin ən əsas prinsipləri kimi müəyyənləşdirilir. Burada xüsusi olaraq vurğulanır: "Hər bir xalq özünü məhz öz ənənələri və ifadə formalarıyla bütün dünyaya tanıtdırır". Mədəni özünəməxsusluğun təsbit edilməsi xalqların azad

---

[1] Bax: Доклад о развитии человека - 2004

[2] Girard A. Cultural development: experienses and policies. P. 1983, p. 183

olunmasına imkan verir və əksinə hökmranlığın hər hansı forması bu özünəməxsusluğu inkar edir və ya onun mövcudluğuna təhlükə yaradır[1]. Eyni zamanda "Mexiko Bəyannaməsi"ndə **dünya mədəniyyətlərinin qarşılıqlı əlaqəsi və birliyi prinsipi** də önə çəkilir. Sənəddə deyilir: "Mədəniyyət dialoqdur, təcrid edildikdə o solaraq məhv olur"[2]. Mədəni özünəməxsusluğun güclənməsi isə özünü təkləməyi deyil, digər mədəniyyətlərə açıqlığı nəzərdə tutur[3]. Beləliklə, mədəniyyət siyasətinin əsas məqsədi olan inkişaf mədəni özünəməxsusluğun saxlanılmasını və möhkəmlənməsini, eyni zamanda beynəlxalq mədəni əlaqələrin genişlənməsini güman edir. Çox önəmlidir ki, get-gedə xarici mədəniyyət siyasətinin əhəmiyyəti artır, bu sahədə ölkələrarası münasibətlər artıq asılılıq vəziyyətindən çıxır.[4]

BMT Baş Assambleyasının 1987-ci ilin dekabr ayında keçirilən 41-ci sessiyasının plenar iclasında Mədəniyyətin İnkişafının Ümumdünya onilliyi elan olundu. 1988 – 1997-ci illəri əhatə edən onilliyin məqsədləri aşağıdakılar idi:

1. Ümumi inkişaf prosesində mədəni aspektin seçilib ayrılması;
2. Mədəniyyətlərin özünəməxsusluğunun bərqərar olması və zənginləşməsi;
3. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın möhkəmlənməsi.[5]

---

[1] ЮНЕСКО. Всемирная конференция по политике в области культуры. Мехико, 26 июля-6 августа 1982 года. Заключительный доклад. Париж. 1982, с. 39

[2] ЮНЕСКО. Всемирная конференция по политике в области культуры. Мехико, 26 июля-6 августа 1982 года. Заключительный доклад. Париж. 1982, с. 39

[3] L'UNESCO a ville de son quarntenaier annivesaire. P. 1985. p. 150

[4] Mitchell J.M. International Cultural Relations. L. 1986, p. 78.

[5] Вах: ООН. Генеральная Ассамблея, 41-я сессия. 29 декабря 1987 года. Резолюция 41/187, с. 1-2.

Bu məqsədlər hələ 1945-ci ildə London şəhərində YUNESKO-nun Təsis Konfransı zamanı qeyd edilən və bu təşkilatın Monako İclasından başlayaraq, sonrakı konfrans və müşavirələrində bütün ölkələrin mədəniyyət siyasətlərinin əsasları kimi bəyan edilən məqsədlərdir. Hər bir inkişaf etmiş ölkədə konkret mədəniyyət siyasətinin fərqli xüsusiyyətlərinə baxmayaraq, yuxarıda qeyd olunan məqsədlər artıq uzun illərdir ki, çox səmərəli şəkildə həyata keçirilir. Bunun üçün isə, əlbəttə, mədəniyyət siyasəti uzunmüddətli məqsədlər, ortamüddətli məsələlər və bir sıra vasitələrin (maddi, maliyyə, kadr və informasiya vasitələri) **vahid sistemi** olmalıdır. Həmin sistemin işləməsi prosesində xüsusi daimi orqanın rolu son dərəcə əhəmiyyətlidir. Müxtəlif Avropa ölkələrində mədəniyyətin idarə edilməsi iki əsas model üzərində qurulur: bilavasitə nazirlik, yaxud müstəqil təşkilatlar vasitəsilə. Məsələn, Fransada nazirlik mədəni fəaliyyətin cürbəcür formalarını idarə edir və subsidiyaları (vəsaitləri) bölüşdürür. İsveçdə isə paralel olaraq iki struktur mövcuddur: nazirlik mədəniyyət siyasətini müəyyənləşdirir. Mədəniyyət işləri üzrə Şura isə maddi vəsaiti bölüşdürərək həmin siyasəti həyata keçirir. Fransa ənənəyə sadiq olaraq mərkəzləşmə ölkəsidir, buradakı mədəniyyət siyasəti unitar dövlətin siyasətidir. Düzdür, Fransada son iyirmi ildə ayrı-ayrı regionların dil və mədəniyyətlərinin dirçəlişi barədə danışılır. Hətta "Müxtəliflik hüququ" şüarı da bəyan edilir. Bu isə o deməkdir ki, mədəni fəaliyyətin idarə edilməsinə mərkəzləşdirilmiş yanaşma özünü bir o qədər də doğrultmur.

İsveçə gəldikdə, tamamilə başqa yanaşma ilə rastlaşırıq. Dövlət sosial sahəyə və mədəniyyətə kifayət qədər vəsait ayırır, lakin mərkəzləşmə minimum səviyyəsinə endirilir, dövlət subsidiyaları şərt qoyulmadan, ilk tələblə regionlara və bələdiyyələrə sərbəst verilir. Bütövlükdə mədəniyyətin maliyyələşdirilməsi yerli büdcələrin hesabına başa gəlir ki, bu da maliyyələşmənin tam həcminin 2/3 hissəsini təşkil edir.

Dövlətin regionlarla münasibəti könüllü tərəfdaşlıq xarakteri daşıyır. Digər tərəfdən, burada xeyriyyəçilik təşviq edilmir. Belə vəziyyət təsadüfi deyil, çünki dövlətin və yerli hakimiyyət orqanlarının mədəniyyət sahəsinə ayırdıqları məbləğ kifayət qədərdir və artıq xeyriyyəçiliyə ehtiyac belə qalmır.

Almaniyada da qeyri-mərkəzləşməyə meyil güclüdür. Bu cür ənənə tarixən formalaşmışdır (yalnız faşist rejimi zamanı ictimai həyatın bütün sahələrində olduğu kimi, mədəniyyətdə də mərkəzləşmə hökm sürürdü. Almaniya Demokratik Respublikasında isə digər sosialist ölkələrindəki mədəniyyət siyasətinə oxşar vəziyyət mövcud idi). Müasir Almaniyada mədəniyyət siyasətinin bəzi sahələri federal səviyyədə formalaşır, o cümlədən gənclər mədəniyyəti, televiziya və xarici ölkələrlə əlaqələr. Ölkənin mədəni həyatında ictimai və xeyriyyə təşkilatları və assosiasiyaları böyük rol oynayır. Federal səviyyədə birbaşa mərkəzləşdirilmiş idarəetmə, demək olar ki, yoxdur.

Norveçdə, Almaniyadan fərqli olaraq, qeyri-mərkəzləşmə tarixən formalaşmayıb. Hazırda mövcud olan qeyri-mərkəzləşmə yuxarıdan, yəni dövlət tərəfindən 70-ci illərdə həyata keçirilməyə başlayan "yeni mədəniyyət siyasətinin" nəticəsidir. Bu siyasətə əsasən, mədəniyyət məsələləri üzrə qərarların qəbul edilməsi yerli hakimiyyətin səlahiyyətindədir. Mədəniyyət üzrə şuralar yaradılır və onlar maddi vəsaitlərin miqdarını və istifadə istiqamətlərini müəyyənləşdirir. Lakin onlar da tam sərbəst deyil, çünki dövlət tərəfindən qoyulan müəyyən şərtlər nəzərə alınmaqla fəaliyyət göstərirlər.[1]

[1] İnkişaf etmiş ölkələrdə mədəniyyət siyasətinin xüsusiyyətləri haqda daha ətraflı bax: Girard A. Cultural experiences and policies. P. 1983.

## §2. Azərbaycan Respublikasının mədəniyyət siyasətinin səciyyəvi xüsusiyyətləri

Əvvəla qeyd edək ki, Azərbaycanın çoxəsrlik tarixində XX əsr xüsusi yer tutur. O, olduqca mürəkkəb, ancaq dolğun hadisələri ilə səciyyələnir: siyasi rejimlərin kəskin dəyişilməsi, milli-azadlıq hərəkatları, İkinci Dünya Müharibəsi və lokal müharibələrdə iştirak. 1918-ci il mayın 28-də Azərbaycanın Milli Şurası "Müstəqillik haqqında bəyannamə qəbul edir. Azərbaycan Demokratik Respublikası yaranır. Bu, bütün müsəlman Şərqində Avropatipli dünyəvi parlament respublikasının ilk nümunəsi idi. Lakin iki il sonra aprelin 28-də bolşeviklərin XI Qızıl Ordusunun müdaxiləsi nəticəsində Azərbaycanda Sovet hakimiyyəti bərqərar olur və 70 ildən artıq ölkə kommunist rejiminin təsirinə məruz qalır. Yalnız 1991-ci ildə Sovet İttifaqının dağılması və milli-azadlıq hərəkatı nəticəsində Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Qanunu imzalanır və Azərbaycan beynəlxalq birliyin tamhüquqlu üzvünə çevrilir. Aydındır ki, bütün bu faktlar təkcə siyasi tarixə aid olmayıb, ölkənin mədəniyyət siyasətində də aparıcı rol oynayır.

Belə ki, Sovet hakimiyyəti dövründə Azərbaycanda iki dəfə əlifba dəyişdirilib. 1929-cu ildə ərəb əlifbası latınla, 1939-cu ildə latın əlifbası kiril ilə əvəz olunub. Belə qeyri-sabitlik yeni nəsillərə öz mədəni irslərini öyrənməkdə çətinliklər yaradırdı. Rəsmi siyasət aşkar və gizli vasitələrlə milli mentaliteti "sovetləşdirir", milli özünəməxsusluğu tədricən yox etməyə çalışır, milli və "ümumsovet" xüsusiyyətlər arasındakı tarazlığı müəyyənləşdirmək hüququnu öz üzərinə götürürdü. Bununla yanaşı, həmin dövrün müsbət cəhətlərini də inkar etmək olmaz. Ölkədə kütləvi savadlanma, əhalinin bütün təbəqələrinin mədəniyyət və incəsənətdən faydalana bilməsi uğrunda mübarizəyə başlanmışdı. Məşhur "incəsənəti kütlələrə" ifadəsi təkcə şüar deyil, həm də fəaliyyət proqramı

idi. Mədəniyyət planlı şəkildə dövlət tərəfindən maliyyələşdirilirdi. Yeni dövlət yeni ideologiyaya əsaslanaraq, yeni incəsənətin yaradılmasını öz qarşısında məqsəd qoyurdu. Təbii ki, sovet respublikasının incəsənəti ideoloji cəhətdən unifikasiya edilməli idi. "Fərdiləşmə"nin ilk əlamətləri və "sosialist realizmin"in prinsiplərindən imtina, keçən əsrin ikinci yarısında, daha dəqiq desək, 50-ci illərin axırları və 60-cı illərin əvvəllərində "Yeni Xruşşov dövrü"ndə özünü göstərməyə başlayır. Bu dövrdən etibarən bədii təfəkkür dövlət nəzarətindən azad olmağa doğru gedir. Mədəniyyətin ayrı-ayrı sahələrində həmin proses müxtəlif səviyyələrdə həyata keçirilirdi, lakin buna baxmayaraq, 80-cı illərin ortalarında milli şüurun güclü inkişafı həmin prosesin qanunauyğun nəticəsi oldu.

1988-ci ildən başlayaraq Azərbaycan Ermənistanla silahlı münaqişəyə cəlb edildi. Erməni işğalı nəticəsində Dağlıq Qarabağ və ona bitişik olan Kəlbəcər, Ağdam, Laçın, Cəbrayıl, Qubadlı, Zəngilan və Füzuli rayonları – bütövlükdə Azərbaycan torpaqlarının 20 faizi işğal edildi. İşğal olunmuş ərazilərdən qovulan qaçqınların və məcburi köçkünlərin sayı isə 1 milyon nəfərə çatdı. AŞ PA-nın Qaçqınların işi, miqrasiya və demoqrafiya üzrə komitəsinin Cənubi Qafqazda qaçqın və köçkün şəxslər mövzusunda təşkil etdiyi beynəlxalq konfransda da qeyd edildiyi kimi, ölkənin hər səkkiz sakinindən biri qaçqın və ya məcburi köçkündür. Bu göstəriciyə görə Azərbaycanın dünyada analoqu yoxdur. Silahlı münaqişə nəticəsində həmvətənlərimizdən 20 min nəfər ölmüş, 8,5 min nəfər şikəst olmuş, 100 mindən çox adam yaralanmış, 900-ə yaxın yaşayış məntəqəsi dağıdılmışdır.

İşğal olunmuş ərazilərdə yaşayış evləri, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, çox sayda mədəniyyət müəssisələri: 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, fondlarında on minlərlə əşyanın toplandığı 22 muzey, görkəmli

rəssamlarımızdan Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Salam Salamzadə, Maral Rəhmanzadə, Böyükağa Mirzəyev və başqalarının əsərləri nümayiş etdirilən 4 rəsm qalereyası, 10 istirahət və mədəniyyət parkı, 4 dövlət teatrı və konsert təşkilatının binaları, 462 memarlıq və arxeologiya abidəsi qalmışdır.

Onların arasında 11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonundakı Xəzinədağ (Qanzasar) və Xudavənd məbədləri (hər ikisi XIII əsr), Ağdam rayonunun Dorbatlı kəndindəki məqbərə (1314-cü il), qədim Quruçay mədəniyyətinə aid Azıx mağarası, Zəli və Zalxa göllərinin yaxınlığındakı yüzlərlə qədim qayaüstü rəsm və yazılar kimi ümumdünya əhəmiyyətli 5 memarlıq və 7 arxeologiya abidəsi vardır.

İşğal olunmuş ərazilərdəki bütün dünya mədəniyyəti üçün mühüm əhəmiyyət kəsb edən, milli ruhu özündə əks etdirən minlərlə daşınar və daşınmaz abidələrimizin məhv edilməsi, Ermənistana daşınması və özününküləşdirilməsi siyasəti ardıcıllıqla həyata keçirilmişdir. Belə ki, dünyaya musiqi və bədii mədəniyyətimizin möhtəşəm simalarını bəxş edən, "Qafqaz konservatoriyası" kimi məşhurlaşan Şuşa şəhərindəki məscidlər, tarix muzeyi, qədim qəbristanlıq, Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin türbəsi yerlə-yeksan edilmişdir. Ağdamda Pənah xanın imarəti, keçmiş SSRİ-nin yeganə Çörək muzeyi, Laçında Həmzə Sultan və Soltan Əhməd sarayları, ziyarətgah və ibadətgahlar, ən qədim insan məskəni olan mağaralar, daş heykəllər, kurqanlar, qədim qəbirlər, tarixi binalar dağıdılmış, alban məbədləri erməniləşdirilmiş, Ağdam və Füzuli ərazilərindəki XVII-XVIII əsr memarlıq abidələri – karvansaralar xarabalığa çevrilmişdir. Məşhur Azıx və Tağlar mağaraları, Aluen, Qarakəpəktəpə, Üzərliktəpə abidələri hərbi məqsədlərlə istifadə edilmiş, Xocalı, Ağdam, Ağdərə, Füzuli və Cəbrayıldakı kurqanlardan əsər-əlamət qalmamışdır. Dahi bəstəkar Üzeyir Hacıbəyli, böyük

müğənni Bülbül, tanınmış müsiqiçi-alim və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin sərvətləri, Azərbaycan tarixi və mədəniyyətinin ən qədim dövrlərini əks etdirən səma altındakı Zəngilan daş heykəllər muzeyinin yüzlərlə sənət nümunələri Ermənistana daşınmışdır. Doğma mədəniyyətimizə aid nadir əşyaların toplandığı Kəlbəcər və Laçın tarixdiyarşünaslıq muzeylərinin fondları ermənilər tərəfindən vəhşicəsinə mənimsənilmişdir. Digər işğal zonalarındakı abidələrin də aqibəti eynidir.

Yuxarıda qeyd olunanlar bir daha sübut edir ki, keçən əsrin 80-ci illərinin sonundan başlayaraq müstəqil Azərbaycan Respublikasının yaranması və inkişafının ilk dövrünə kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi mədəniyyətimizə dəhşətli zərbələr vurdu. O zaman mədəniyyətə digər səbəblər də mənfi təsir edirdi. Həmin illər çoxsaylı daxili və xarici problemlərin məngənəsinə düşən respublika çətin və mürəkkəb dövlət quruculuğu dövründən keçməli idi. Müstəqilliyimizin ilk çağlarında digər sahələrdə olduğu kimi, mədəniyyətdə də qatma-qarışıqlıq, qeyri-müəyyənlik, müxtəlif mənfi meyillər müşahidə olunur və baş alıb gedirdi. Bir tərəfdən anarxiya kimi başa düşülən azadlıq, digər tərəfdən iqtidarda olan qeyri-peşəkar şəxslərin mədəniyyətə çox qəribə, hətta son dərəcə primitiv yanaşmaları, Qərb mədəniyyətinin, incəsənətinin bizə, guya, tamamilə yad olması və lazımsızlığının bəyan edilməsi bu sahənin normal inkişafının qarşısını alır, çağdaş Azərbaycan mədəniyyətini ümumsivil məcradan təcrid edərək ona böyük zərbələr vurur, beləliklə də, rəqabətə meylini azaldırdı. Ümumiyyətlə demək olar ki, bu mərhələdə düşünülmüş mədəniyyət siyasəti yox dərəcəsində idi. Nəhayət, böyük öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıtmasıyla vəziyyət köklü surətdə dəyişdi. Xalqın tələbi ilə 1993-cü ilin iyun ayının 15-də təkrar ölkə rəhbərliyinə qayıdan Heydər Əlirza oğlu Əliyevin dövlət quruculuğu sahəsindəki zəngin təcrübəsi və fövqəladə şəxsi keyfiyyətləri

sayəsində qısa bir müddət ərzində ölkədə daxili siyasi sabitlik bərpa edildi və onun gələcək inkişafının strategiyası və əsas parametrləri müəyyənləşdirildi. Həmin andan etibarən Azərbaycanın dövlət həyatının bütün sahələrinin, o cümlədən mədəniyyət siyasətinin inkişafında yeni mərhələsi başlanıldı.

İlk növbədə, mədəniyyətin yeniləşməsi mühüm vəzifə kimi qarşıya qoyuldu. Məhz o zaman yeni mədəniyyət siyasətinin təşəkkül tapması, onun məqsəd və prinsiplərinin dəqiqləşməsi, müasir tələblərə cavab verməsi ən vacib və təxirəsalınmaz problemlər sırasında diqqəti cəlb edir.

Son bir neçə ildə dahi Füzulinin 500, "Kitabi – Dədə Qorqud" dastanının 1300, böyük Nizaminin 850, unudulmaz Cəlil Məmmədquluzadənin 125 illiyinin böyük təntənə ilə keçirilməsi, Azərbaycanın başqa görkəmli mədəniyyət xadimlərinin yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, Ümumdünya İnkişaf Bankı tərəfindən Azərbaycan hökumətinin onunla uzun çəkən danışıqlardan sonra üç məşhur milli abidəmizin – Şirvanşahlar sarayının, Şəki xan sarayının, Möminə xatın türbəsinin rekonstruksiyası üçün xüsusi vəsaitin ayrılması, vaxtilə bütün müsəlman Şərqində müqəddəs ziyarətgah kimi tanınan Bibiheybət məscidinin yenidən tikilməsi, Şəhidlər Xiyabanında "Əbədi məşəl", Naxçıvanda Hüseyn Cavid abidələrinin ucaldılması, Bakıda vokalçıların Bülbül adına Beynəlxalq Müsabiqəsinin və Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalının, Qəbələdə Beynəlxalq Musiqi Festivalının keçirilməsi, milli ənənəvi və yeni yaranan bayramlarımızın, məsələn Gül Bayramının elliklə qeyd olunması, Kristal-Hollun və Heydər Əliyev Mərkəzinin inşa edilməsi və s. (bu siyahını davam etdirmək mümkündür) mədəniyyətə dövlət tərəfindən diqqətin dəfələrlə artırılmasının parlaq təzahürüdür.

Bu və digər çoxsaylı faktları nəzərə alaraq, tam qətiyyətlə demək olar ki, suveren Azərbaycan Respublikasında mədəniyyət siyasətinin özəl məqsəd və prinsipləri artıq müəyyən-

ləşib. Yeni, elmi cəhətdən əsaslandırılmış həmin siyasət açıq demokratik cəmiyyət ideyasını təbliğ edir və fəal şəkildə həyata keçirilir. Onun işlənib hazırlanmasında nüfuzlu beynəlxalq təşkilatlar, ilk növbədə, YUNESKO və Avropa Şurası tərəfindən bəyan edilən və inkişaf etmiş ölkələrdə artıq uzun illər ərzində həyata keçirilən mədəniyyət siyasətinin yuxarıda göstərilən məqsəd və prinsipləri əsas istiqamət kimi götürülmüşdür. Həmin məqsəd və prinsiplərdən irəli gələn vəzifələr isə aşağıdakılardır:

- yeni şəraitdə insanların (bütün yaş qrupları nəzərə alınaraq) mədəni-mənəvi və bədii-estetik inkişafı sistemini yaratmaq və gerçəkləşdirmək;
- hakimiyyət, mədəniyyət bölməsi və vətəndaş cəmiyyəti arasında aparılan mədəniyyət siyasətinin yeni münasibətlərini, mədəniyyət menecmentinə açıq, demokratik və şəffaf yanaşmanı dəstəkləmək;
- milli özünəməxsusluğun qorunmasını və inkişafını, o cümlədən zəngin maddi və qeyri-maddi mədəni vətən irsinin mühafizəsini təmin etmək (xüsusilə qəsbkar ermənilər tərəfindən həyata keçirilən hərbi müdaxilə nəticəsində Azərbaycan torpaqlarının 20 faizindən çox hissəsinin işğal olunmasıyla əlaqədar mədəniyyət sərvətlərinin qorunub saxlanması, zəbt olunmuş ərazilərdən daşınan abidələrin çıxarılması, mühafizəsi və bərpası məsələsini həll etmək);
- mədəniyyət və incəsənətlə bağlı ixtisas təhsilinin bütöv çoxpilləli sistemini qoruyub saxlamaq, onu inkişaf etdirərək günün tələbləri səviyyəsinə çatdırmaq;
- mədəniyyət sahəsində beynəlxalq əlaqələri, bərabərhüquqlu əməkdaşlığı inkişaf etdirmək, ümumdünya miqyasında milli mədəniyyətimizin nüfuzunu artırmaq;
- bir çox Avropa ölkələrində mədəniyyət siyasətinin sütunları sayılan və demokratiya şəraitində son dərəcə vacib olan mədəni fərqliliyin formalaşmasını və möhkəmlənməsini,

submədəniyyət müxtəlifliyinə hörməti, yaradıcılığın həvəsləndirilməsini və mədəni həyatda iştirakı təşviq etmək;

- mədəniyyət sahəsiylə bağlı maliyyələşdirmənin yeni yollarını, qeyri-mərkəzləşmənin və özəlləşmənin həyata keçməsi üsullarını müəyyən etmək;
- vətəndaş cəmiyyətinin, onun ayrı-ayrı qrup və laylarının mədəni fəaliyyəti üçün geniş imkanlar yaratmaq;
- sahənin hüquqi, elmi və informativ inkişafı problemini həll etmək;
- mədəniyyət və incəsənət xadimlərinin yüksək statusunu, onların yaradıcılıq azadlığını maksimal dərəcədə təmin etmək, yüksəkixtisaslı mütəxəssislər fondunun qorunub saxlanması yollarını axtarıb tapmaq;
- dünya klassik irsinin və müasir incəsənətin (həm elitar, həm də qlobal kütləvi mədəniyyətin) ali nümunələrinin geniş təbliği və beynəlxalq standartlara cavab verən milli mədəni sənaye və kommersiyanın inkişafı yollarını müəyyənləşdirmək;
- mədəni turizm infrastrukturunun yaradılması və gerçəkləşdirilməsini təmin etmək.

## §3. Azərbaycan Respublikasında mədəniyyətin idarə edilməsinin spesifikası

"Mədəniyyəti idarə etmək mümkündürmü?" sualı mədəniyyətlə dövlətin birgə mövcud olduğu uzun əsrlər boyu öz aktuallığını itirməmiş, inkişaf etməkdə olan vətəndaş cəmiyyəti şəraitində həm də yeni məna kəsb etmişdir. Bu gün mədəniyyətin inzibati-amirlik metodundan imtina edilməklə idarə olunması, bu sahənin hüquqi və maliyyə təminatının həyata keçirilməsi, onun strateji inkişaf xəttinin işlənib hazırlanması ilə bağlıdır. Azərbaycanda bu funksiyalar çoxpilləli sistem vasitəsilə həyata keçirilir. Həmin sistemə aşağıdakılar daxildir:

Milli Məclisin Mədəniyyət məsələləri üzrə komitəsi və sosial qanunvericilik şöbəsi – mədəniyyətin qanunvericilik əsaslarını təmin edir;

Prezident Administrasiyası Humanitar siyasət şöbəsi – mədəni quruculuğun strategiya və taktikasını işləyib hazırlayır;

Nazirlər Kabinetinin Elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsi – dövlətin sosial proqramlarının həyata keçirilməsini əlaqələndirir və təmin edir;

Mədəniyyət və Turizm Nazirliyi – mədəniyyət sahəsi üçün dövlət büdcəsini tərtib edir, yuxarıda sadalanan bütün funksiyaları özündə cəmləşdirən birləşdirici mərkəz rolunu oynayır, dövlətin mədəniyyət siyasətinə rəhbərlik edir və bu siyasətin konkret reallaşdırılması və əlaqələndirilməsini həyata keçirir.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının öz Ali Məclisi, Nazirlər Kabineti və Mədəniyyət Nazirliyi vardır. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası yüksək muxtariyyət statusuna malik olmaqla yanaşı, Azərbaycan Respublikası ilə eyni mədəniyyət siyasəti məcrasına daxildir.

Respublikanın ən iri şəhərlərində – Bakı, Gəncə və Sumqayıtda (erməni işğalına qədər həm də Xankəndində) yerləşən mədəniyyət idarələri mövcuddur; 7 şəhər və 61 rayonda isə mədəniyyət şöbəsi vardır.

Bütün parametrlərinə görə belə bir struktur mədəniyyət siyasətinin Fransa modelinə yaxındır. O, güclü administrasiya, əsasən dövlət tərəfindən maliyyələşmə, mədəni həyat üzrə bütün tərəfdaşların, xüsusilə də regional və yerli cəmiyyətlərin müxtəlif peşə təşkilatlarının fəaliyyətinin stimullaşdırılması və əlaqələndirilməsini tələb edir. Heç şübhəsiz ki, bu model bir çox cəhətdən sovet keçmişindən miras qalmışdır. Eyni zamanda mədəniyyət siyasəti yeni bir sahədir. O, sürətlə güc toplayır, getdikcə daha çox dövləti öz aktiv fəaliyyət dairəsinə cəlb edir, həmin dövlətlər arasında informasiya və intellektual mübadiləni

stimullaşdırır. Nəticədə, bütün bunlar müxtəlif ölkələri mövqe yaxınlaşmasına sövq edir və onların müsbət təcrübələrinin dünya arenasına yayılmasına rəvac verir. Bu prosesin aktivləşməsində YUNESKO, son illər isə Avropa Şurası kimi beynəlxalq təşkilatlar əhəmiyyətli rol oynayır. Sonuncunun təşəbbüsüylə 2000-ci ildən başlayaraq "STEYC" adlı regional layihə həyata keçirilmişdir. "STEYC" – Cənubi Qafqazda yeni mədəniyyət siyasətinin əsasını təşkil edən bir layihədir və üç il müddətinə nəzərdə tutulmuşdu. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Mədəniyyət şöbəsi, Avropa Şurasının eyniadlı departamenti və Bonn şəhərində yerləşən Mədəniyyət Siyasəti üzrə Müqayisəli Tədqiqatlar Avropa İnstitutunun çox faydalı işi nəticəsində sorğu xarakteri daşıyan "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" adlı kitabça nəşr olunub. Bu icmalın ingilis variantı "Avropada mədəniyyət siyasəti: əsas faktlar və tendensiyaların kompendiumu" adlı Avropa məcmuəsinə daxil edilib və İnternet şəbəkəsinin **www.culturalpolitics.net** vebsaytında yerləşdirilib. Milli ekspertlər tərəfindən Avropa Şurasının "STACE" layihəsi çərçivəsində hazırlanan Azərbaycan Respublikasının "Mədəniyyət siyasəti haqqında Milli Məruzəsi" isə 10 oktyabr 2002-ci il Strasburqda Avropa Şurasının Mədəniyyət üzrə Rəhbər Komitəsinin iclasında təqdim olunub. Məruzədə milli mədəniyyət siyasətimizin səciyyəvi xüsusiyyətləri açıqlanıb, o cümlədən müvafiq sferada maliyyələşdirmə, qanunvericilik təminatı, mədəni irsin mühafizəsi, yaradıcılığın dəstəklənməsi, spesifik sənayelərin inkişafı və digər problemlərin geniş spektri əhatə edilib. Məruzə 19 fəsildən ibarətdir ki, bu fəsillər də 4 hissədə birləşir. Həmin hissələr aşağıdakılardır: Mədəniyyət siyasətinin təminatı, İrs, İfaçılıq sənəti, Mədəni sənayelər. Beləliklə, məruzədə ölkənin müasir mədəniyyət siyasətinin, demək olar ki, bütün tərəfləri, həmçinin mədəniyyət siyasətinin fəaliyyəti və inkişafının bilavasitə asılı olduğu bir sıra amillər ardıcıl olaraq açıqlanmışdır.

2001-ci ilin sonlarında Mədəniyyət Nazirliyi yaxın 5 il üçün "Azərbaycan mədəniyyətinin dövlət inkişaf proqramı"nı işləyib hazırlamışdır. Proqram Azərbaycanın dövlət mədəniyyət siyasətinin strateji məqsədlərinə nail olunmasına yönəlmiş və əsas prioritetlər kimi aşağıdakıları irəli sürmüşdür:

- mədəni və tarixi irsin mühafizəsi;
- yaradıcılığın dəstəklənməsi;
- sahənin hüquqi, elmi, informativ inkişafı;
- kadr hazırlığı və gənc istedadların dəstəklənməsi;
- milli kinematoqrafiyanın dirçəlişi və inkişafı;
- mədəniyyət turizmi infrastrukturunun yaradılması və inkişafı;
- kitab nəşrinin inkişafı.

Eyni zamanda cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da onun həm bir daha demokratikləşməsi, həm də dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən kitabxana və muzey sistemlərinin köklü şəkildə modernləşdirilməsi və yenidən qurulması nəzərdə tutulurdu.

## §4. Mədəniyyət siyasətinin qanunvericilik təminatı

Mədəniyyət siyasətini səmərəli reallaşdırmaq üçün, ilk növbədə, düşünülmüş, hüquqi baxımdan mükəmməl və müasir tələblərə cavab verən qanunlar tələb olunur. Çox önəmlidir ki, müstəqillik dövründə bu sahədə böyük iş aparılıb və nəticədə bir çox qanun qəbul edilib.

Bu qanunlar aşağıdakılardır:

| № | Qanunun adı | Tarix |
|---|---|---|
| 1 | Latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi haqqında | 25 dekabr 1991-ci il |
| 2 | Kütləvi informasiya vasitələri haqqında | 21 iyul 1992-ci il |
| 3 | Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi haqqında | 10 sentyabr 1993-cü il |
| 4 | "AZƏRKİNOVİDEO" İstehsalat Birliyi | 13 dekabr 1993-cü il |

| № | Qanunun adı | Tarix |
|---|---|---|
| | haqqında | |
| 5 | Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında | 5 iyun 1996-cı il |
| 6 | Reklam haqqında | 3 oktyabr 1997-ci il |
| 7 | Mədəniyyət haqqında | 6 fevral 1998-ci il |
| 8 | Tarix və mədəniyyət abidələrinin qorunması haqqında | 10 aprel 1998-ci il |
| 9 | Qrantlar haqqında | 17 aprel 1998-ci il |
| 10 | İnformasiya azadlığı haqqında | 19 iyun 1998-ci il |
| 11 | Kinematoqrafiya haqqında | 3 iyul 1998-ci il |
| 12 | Memarlıq fəaliyyəti haqqında | 15 may 1998-ci il |
| 13 | Kitabxana işi haqqında | 20 dekabr 1998-ci il |
| 14 | Turizm haqqında | 4 iyun 1999-cu il |
| 15 | Şəhərsalmanın əsasları haqqında | 11 iyun 1999-cu il |
| 16 | Milli Arxiv Fondu haqqında | 22 iyun 1999-cu il |
| 17 | Kütləvi informasiya vasitələri haqqında | 8 fevral 2000-ci il |
| 18 | Muzeylər haqqında | 24 mart 2000-ci il |
| 19 | Nəşriyyat işi haqqında | 30 may 2000-ci il |
| 20 | Azərbaycan Respublikasının dövlət dili haqqında | 30 sentyabr 2002-ci il |
| 21 | Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında | 16 may 2003-cü il |
| 22 | Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında | 7 dekabr 2004-cü il |
| 23 | Teatr və teatr sənəti haqqında | 29 dekabr 2006-cı il |

Qanunları hazırlayarkən onların inkişaf etmiş ölkələrin standartları və təcrübəsinə, eyni zamanda Azərbaycanın gerçəkliyi, müvafiq reallıqları və spesifik xüsusiyyətlərinə uyğunluğu əsas şərt kimi götürülüb.

Qəbul edilən qanunvericilik aktlarına "Mədəniyyət haqqında qanun" kimi bütövlükdə mədəniyyət sferasını tənzimləyən qanunlar və "Kinematoqrafiya haqqında", "Şəhərsalma haqqında", "Muzeylər haqqında" və s. kimi mədəniyyət fəaliyyətinin konkret növləri ilə bağlı olan qanunlar daxildir.

Mədəniyyət haqqında qanunda, hər şeydən əvvəl, müvafiq sahəylə bağlı dövlət siyasətinin prinsip, məqsəd və vəzifələri ifadə olunmuş, həmin sahədə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının səlahiyyətləri müəyyən edilmişdir. Bu qanunla hər bir şəxsin yaradıcılıq hüquq və azadlıqları, beynəlxalq əlaqələrin və əməkdaşlığın inkişafı, habelə mədəniyyət sahəsində dövlətin antiinhisar siyasəti, milli özünəməxsusluğun, o cümlədən həm Azərbaycan xalqının, həm də tarixən Azərbaycan Respublikasının ərazisində yaşayan etnik qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi, mədəniyyət fəaliyyəti ilə məşğul olan ictimai birliklərin və təşkilatların yaradılması imkanları təmin olunur. Dövlətin bu sahəyə müdaxiləsi zorakılığın, irqi, milli və dini dözülməzliyin, pornoqrafiya və narkomaniyanın təbliğinin qadağan edilməsi ilə məhdudlaşır. Bu cür qadağaların real şəkildə fəaliyyət göstərə bilməsi məhkəmə proseduru vasitəsilə təmin edilir. Bir sözlə, mədəniyyət fəaliyyəti və onun inkişafı ilə bağlı bir çox məsələlər həmin qanun çərçivəsində ümumi şəkildə həll edilmişdir.

Azərbaycanın mədəniyyət siyasətinin prioritet problemlərindən birinə – mədəni irsin qorunub saxlanılmasına gəldikdə isə, bu məsələ artıq hüquqi planda "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Milli Arxiv Fondu haqqında", "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunların qəbul edilməsi sayəsində həll edilib.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanun abidələrin dövlət və bələdiyyələr tərəfindən mühafizəsi, onların istifadəsi, öyrənilməsi, konservasiyası, təmiri, bərpası, yenidən qurulması, regenerasiyası və təhlükəsizliyi qaydalarını ətraflı şərh edir. Sənəddə ölkəmizin bütün tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə bölünməklə (dünya, ölkə və yerli əhəmiyyətli abidələr) təsdiqlənmiş siyahıya və dövlət qeydiyyatına alınması nəzərdə tutulur, onların üzərində mülkiyyət formaları müəyyən edilir. Çox önəmlidir ki, dövlət

mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə (yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınan yaşayış binaları və onların ayrı-ayrı hissələri istisna olmaqla) icazə verilmir. Qanunda abidələrin bədii-estetik simasının dəyişdirilməsinə və onların tamamilə və ya qismən dağıdılmasına səbəb olan təmir-tikinti, təsərrüfat və digər növ işlərin aparılmasının qadağan edilməsi də müsbət haldır.

Milli Arxiv Fondunun formalaşmasına və fəaliyyətinə qoyulan yeni tələblər, dövlət və qeyri-dövlət arxiv fondunun və orada saxlanılan sənədlərin mülkiyyət formaları və hüquqlarının dəqiq müəyyən edilməsinin vacibliyi, habelə bu qədər böyük mənəvi sərvətin günün tələblərinə müvafiq normativ-hüquqi əsaslarının olmaması bu sahədə xüsusi qanunun hazırlanması və qəbul edilməsi zərurətini doğurmuşdur. "Milli Arxiv Fondu haqqında" qanun arxivlərin fəaliyyəti, Milli Arxiv Fondunun formalaşdırılması, mühafizə və istifadəsi ilə bağlı bütün münasibətləri tənzimləyir, arxiv işçilərinin sosial müdafiəsini xeyli gücləndirir.

Kitabxana işinin təşkilinin təkmilləşdirilməsi, onun səmərəliliyinin gücləndirilməsi, məhsuldarlığının artırılması, eləcə də kitabxana informasiyası sahəsində oxucuların hüquqlarının təmin edilməsi məqsədi ilə ölkədə "Kitabxana işi haqqında" qanun qəbul edilmişdir. Qanun cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına, ən müasir tələblərə cavab verən bilik səviyyəsinin yüksəldilməsinə fəal yardım göstərir, çünki o, kitabxanaların öz funksiyalarını, o cümlədən informasiya funksiyasını həyata keçirmək, kitabxana işini keyfiyyətcə yeniləmək və təkmilləşdirmək üçün möhkəm hüquqi əsas yaradır. Qanunda başlıca diqqət həmin sahədəki prinsiplərin qismən dəyişdirilməsinə deyil, yeni iqtisadi və siyasi sistem şəraitində onların köklü surətdə yenidən formalaşmasına yönəlmişdir. Bu qanun kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və

mühafizəsi üçün zəruri olan tələbləri, kitabxanaların maliyyə mənbələrini, onların yaradılması və fəaliyyəti qaydalarını, vətəndaşların kitabxanalardan istifadə zamanı hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir.

Ölkənin 1919-cu ildən formalaşan muzey fondunun qorunmasını və keyfiyyətcə zənginləşməsini gücləndirmək, muzeylərimizin fəaliyyətini xeyli yaxşılaşdırmaq (bu gün ölkədə 232 muzey var), yeni, o cümlədən özəl muzeylər yaratmaq üçün xüsusi qanun qəbul edilmişdir. "Muzeylər haqqında" qanun dövlətlə muzeylər arasında qarşılıqlı əlaqələri tənzimləyən, onların vəzifə və funksiyalarını, imtiyaz və səlahiyyətlərini müəyyənləşdirən, muzeylərin qayda və hüquqlarını dəqiq ifadə edən, muzey fondunun qorunması, saxlanması, inkişaf etdirilməsi və zənginləşdirilməsinə yardım göstərən və muzey işçilərinin sosial müdafiəsini gücləndirən təsirli bir sənəddir.

Mədəniyyətin müxtəlif sahələrini hüquqi baxımdan tənzimləyən Azərbaycan Respublikasının digər qanunları da müasir tələblərə cavab verir.

## §5. Beynəlxalq mədəni əməkdaşlıq

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq mədəni əlaqələr yeni xarici siyasətin başlıca alətlərindən birinə çevrilmişdir. Bu siyasətin əsas məqsədləri xarici ölkələrlə qarşılıqlı anlaşma və qarşılıqlı inam münasibətlərini möhkəmləndirmək, onlarla bərabərhüquqlu və faydalı olan tərəfdaşlığı inkişaf etdirmək, ölkəmizin dünyada obyektiv şəkildə tanınmasını təmin etməkdən ibarət olmuşdur. Gənc müstəqil dövlətin imicinin formalaşmasında milli mədəniyyət öz təsirliliyi və inandırıcılığı ilə siyasətdə və iqtisadiyyatda qazanılan nailiyyətlərdən heç də az rol oynamamışdır. Bir çox mədəniyyət sahələrində baş verən demokratikləşmə və

əksmərkəzləşmə prosesləri beynəlxalq münasibətlərdə də öz əksini tapmışdır. Xarici ölkələrlə regionlar və şəhərlər səviyyəsində əlaqələr nəzərəçarpacaq dərəcədə güclənmişdir; ayrı-ayrı kollektivlər və mədəniyyət işçiləri bu sahədə tam sərbəstlik əldə etmişlər. Artıq beynəlxalq əlaqələrin daha da güclənməsini məhdudlaşdıran yeganə amil maliyyə məsələsi olmuşdur.

Mədəni əlaqələr tədricən inkişaf edərək, tək-tək mədəni tədbirlər və qastrollarla yanaşı, uzunmüddətli birgə layihələrə geniş yer ayıran mədəni əməkdaşlığa keçir. Azərbaycanın bu illər ərzində xarici ölkələrlə beynəlxalq mədəni əməkdaşlığının əsas formaları kimi aşağıdakıları göstərmək olar: qastrollar, festivallar, sərgilər, konfranslar, yubileylər, işçi səfərlər, müsabiqələr, görüş və yığıncaqlar, seminar və simpoziumlar, kurs və təcrübəkeçmələr, protokollar, proqramlar.

Əməkdaşlığın ənənəvi forması ikitərəfli əlaqələrdir (son illər ərzində bir çox ölkələrlə mədəni əməkdaşlıq haqqında nazirliklərarası sazişlər və protokollar imzalanmışdır).

Beynəlxalq fəaliyyətin yeni və ən məhsuldar forması çoxtərəfli əməkdaşlıqdır. Müstəqil dövlət kimi qısa bir müddət ərzində mövcud olmasına baxmayaraq, Azərbaycan YUNESKO, İKOM, İKOMOS, İKKROM, Avropa Şurası, İSESKO, TÜRKSOY, MDB-nin Mədəni Əməkdaşlıq Şurası, GUAM və s. kimi beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində əlaqələr qura bilmişdir.

Azərbaycan 1992-ci ildə YUNESKO-nun üzvü olmuşdur. Ötən müddət ərzində bu təşkilat ilə birlikdə Parisdə YUNESKO-nun mənzil-qərargahında vətənimizin görkəmli simalarının yubileyləri və başqa əhəmiyyətli beynəlxalq aksiyalar həyata keçirilmişdir. YUNESKO-nun Ümumdünya İrs Mərkəzi, Mədəni İrs Şöbəsi və Mədəniyyətlərarası Dialoq Şöbəsi ilə Azərbaycanın əlaqələri nəzərəçarpacaq dərəcədə güclənmişdir. Bunun nəticəsi olaraq, azərbaycanlı mütəxəssislər müntəzəm surətdə xaricdə keçirilən beynəlxalq

konfranslar, seminarlar və simpoziumlarda iştirak edir, həmçinin YUNESKO-nun müxtəlif tədbirlərinin keçirilməsində ev sahibliyi edirlər.

Milli abidələrin mühafizəsi məqsədi ilə Azərbaycan 1993-cü ildən bəri YUNESKO-nun nəzdində fəaliyyət göstərən və mədəni sərvətlərin qorunması ilə birbaşa məşğul olan üç mötəbər beynəlxalq təşkilatla sıx əlaqələr qurub. Bunlardan ikisi qeyri-hökumət təşkilatlarıdır: İKOM (Beynəlxalq Muzeylər Şurası) və İKOMOS (Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Mərkəz). Üçüncüsü isə 93 ölkənin üzv olduğu hökumətlərarası təşkilatdır – İKKROM (Mədəni Sərvətlərin Qorunması və Bərpası Məsələlərinin Öyrənilməsi üzrə Beynəlxalq Mərkəz).

1997-ci ildə Mədəniyyət Konvensiyasına qoşulduqdan dərhal sonra Azərbaycan Avropa Şurasıyla da yaxından əməkdaşlıq edir (ölkəmiz bu təşkilata 2001-ci ilin yanvar ayında üzv olmuşdur). Məhz Avropa Şurası ilə mədəni əlaqələr beynəlxalq əlaqələrin ümumi həcmində əsas yerlərdən birini tutur. Bu günə kimi həmin təşkilatla əməkdaşlıq nəticəsində yuxarıda qeyd olunan "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" adlı icmal hazırlanıb və "Avropada mədəniyyət siyasəti: əsas faktlar və tendensiyaların kompendiumu" məcmuəsinə daxil edilib, regional "STEYC" layihəsi, Azərbaycan Respublikasının "Mədəniyyət siyasəti haqqında Milli Məruzəsi" layihəsi, həmçinin "Mədəniyyət və münaqişələrin qabaqcadan önlənilməsi" layihəsi gerçəkləşmişdir.

TÜRKSOY təşkilatı (Türk Mədəniyyəti və İncəsənətinin Birgə İnkişafı üzrə Beynəlxalq Təşkilat) türkdilli dövlətlərin mədəniyyət sahəsində regional əməkdaşlığını həyata keçirir. "TÜRKSOY-un yaradılması və onun fəaliyyət prinsipləri haqqında Müqavilə" türkdilli dövlətlər tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Alma-ata şəhərində imzalanmışdır. Təşkilat çərçivəsində

türkdilli dövlətlərin mədəniyyətinin inkişafı və təbliği üçün xeyli dərəcədə faydalı olan bir çox tədbirlər keçirilmişdir.

Azərbaycan beynəlxalq münasibətlər sahəsində normativ fəaliyyətin işlənib hazırlanmasına və gücləndirilməsinə də xüsusi diqqət yetirir. Belə ki, müstəqillik dövründə Azərbaycan ölkələr arasında tammiqyaslı və təhlükəsiz mədəni mübadilə üçün böyük əhəmiyyət kəsb edən və yerinə yetirilməsi yalnız müasir beynəlxalq hüquq normalarına riayət edilməklə mümkün olan bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Həmin konvensiyalar aşağıdakılardır:

- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (1966);
- Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında YUNESKO Konvensiyası və Protokolu (1954);
- Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında YUNESKO Konvensiyası (1972);
- Mədəniyyət haqqında Avropa Konvensiyası (1954);
- Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası (1992);
- Mədəni dəyərlərin qeyri-qanuni gətirilməsi, aparılması və mülkiyyət hüququnun dəyişdirilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilən tədbirlər haqqında Konvensiya (1970);
- Birgə kino istehsalı haqqında Avropa Konvensiyası (1992);
- Qeyri-maddi irsin qorunması haqqında YUNESKO Konvensiyası (2005).

Qeyd etmək lazımdır ki, xarici mədəniyyət siyasətinin çox önəmli istiqamətlərindən biri də xaricdə yaşayan soydaşlarımızın mədəniyyət mərkəzləri və cəmiyyətləri ilə əlaqə saxlamaqdır. Hazırda dünyanın bir çox ölkəsində 100-dən artıq belə təşkilat fəaliyyət göstərir.

Beləliklə, xarici siyasətdə mədəniyyətin xüsusi çəkisinin durmadan artması xarici mədəniyyət siyasətinin məqsəd və vəzifələrinin, forma və istiqamətlərinin, prioritet və mexanizmlərinin öz əksini tapa biləcəyi kompleks xarakter daşıyan konsepsiya yaratmağı tələb edir.

## §6. Vətən mədəni irsinin qorunması

Azərbaycanda mədəni irsin qorunma tarixi 1921-ci ildə Azərbaycan İnqilab Komitəsinin Şuşa və Şəki şəhərlərindəki Xan saraylarının bərpa edilməsi haqqında qəbul etdiyi qərarla başlayır. Xalq Komissarlığı Şurasının 1924-cü il 4 mart tarixli qərarı ilə isə Azərbaycanın milli mədəniyyət abidələri dövlət sərvəti elan edildi və bu da onların uçota alınması və qorunmasını təmin etdi.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Sovet hakimiyyətinin ilk 20 – 25 ili ərzində dini-memarlıq abidələrinə son dərəcə təhqiramiz münasibət bəslənmişdir. Bir çox məscid və məqbərələr anbarlara, zirzəmilərə və s. çevrilmişdir. Bakı şəhərindəki müsəlman dini-xatirə kompleksi olan Bibiheybət məscidi (VII – XIX əsrlər), məşhur Aleksandr Nevski kilsəsi (XIX əsr), Roma katolik kilsəsi (1900-cü il) XIX əsrin 30-cu illərində partladılmış, dağıdılmış və yerlə yeksan edilmişdir.

Sovet hakimiyyəti dövründə memarlıq, arxeologiya, monumental və bag-park sənəti və dekorativ-tətbiqi sənət abidələrinin (daş heykəllər) mühafizəsi Mədəniyyət Nazirliyi nəzdindəki Abidələrin Mühafizəsi İdarəsi tərəfindən aparılırdı.

1992-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzdində 2000-ci ilədək fəaliyyət göstərən Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası üzrə Dövlət Komitəsi yaradıldı. Respublika ərazisində yerləşən abidələrin mühafizəsi, bərpası və istifadəsi ilə bağlı bütün funksiyalar bu komitəyə həvalə olundu. Abidələrin qorunması sahəsində kifayət qədər idarəçilik təcrübəsi toplamayan bu yeni yaradılmış struktur,

praktiki olaraq, əvvəlki işləri yox dərəcəsinə gətirib çıxardı. Komitə ləğv edildikdən sonra onun funksiyaları yenidən Mədəniyyət Nazirliyinə (hazırda Mədəniyyət və Turizm Nazirliyi) qaytarıldı və burada Tarix və mədəniyyət abidələrinin mühafizəsi, bərpası və istifadəsi üzrə baş idarə təşkil olundu.

Yerlərdə abidələrin vəziyyətinə nəzarət respublikanın bütün şəhər və rayonlarının icra hakimiyyətlərinin mədəniyyət şöbələri tərəfindən həyata keçirilir. Sovet dövründə həmçinin Tarix və Mədəniyyət Abidələrinin Könüllü Mühafizə Cəmiyyəti yaradılmışdı, amma onun işi mühafizədən daha çox, təbliğat və təşviqatla məhdudlaşırdı. Maliyyə vəsaitinin çatışmazlığı səbəbindən həmin cəmiyyətin fəaliyyəti son illər xeyli zəifləmişdir.

Dövlət mühafizəsinə götürülən Abidələrin siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq olunmuşdur. Son siyahının məqsədlərindən biri abidələri əhəmiyyətlilik dərəcəsi üzrə qruplara bölməkdir: ümumdünya, dövlət və yerli əhəmiyyətli abidələr. Həmin siyahıya görə Azərbaycanda ümumdünya əhəmiyyətli 21 memarlıq və 44 arxeologiya abidəsi mövcuddur. Bəzi abidələr qoruq strukturlarında mühafizə edilir. Hazırda ölkəmizdə 15 tarixi-memarlıq, tarixi-arxeoloji, tarixi-mədəni və tarixi-etnoqrafik qoruq vardır.

Tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması keçmiş SSRİ-nin Ümumittifaq Mədəniyyət İnstitutu tərəfindən hazırlanmış vahid prinsip əsasında aparılıb. 1969-cu ildən tətbiq edilən bu sistem mövcud olan və yeni üzə çıxarılan hər bir abidənin mütləq öz pasportu və qeydiyyat vərəqəsi olmasını tələb edirdi. Sovet dövründə bu sistemə 1500 abidə daxil edilmiş və pasport "almışdı". Hazırda elektron pasportlaşdırma və kataloqlaşmanın yeni milli standartları işlənib hazırlanır.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan YUNESKO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə sıx əməkdaşlıq edir. 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi İçərişəhər,

Şirvanşahlar sarayı və Qız qalası, 2007-ci ildə isə Qobustan tarixi-mədəni qoruğu Ümumdünya İrsi Siyahısına daxil edilmişdir. Gələcəkdə həmin siyahıya daxil edilmək üçün digər abidələrin (atəşpərəstlik məbədi "Atəşgah", Naxçıvandakı "Möminə xatun", "Gülüstan", "Qarabağlar" və "İbn Hüseyn" türbələri) sənədləri və yeni "tentativ vərəq" (ilkin siyahı) həmin mərkəzə təqdim edilmişdir. Mədəni irsin qorunub saxlanılması sahəsində bir çox ölkələrin iş təcrübəsi öyrənilir. Beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri qurulmuşdur.

Xüsusi qeyd olunmalıdır ki, milli irsin qorunması, təbliği, vətən mədəniyyətinin inkişafı məsələlərində ölkədə səmərəli fəaliyyət göstərən Heydər Əliyev Fondu yaxından iştirak edir. Fondun prezidenti, Azərbaycanın Birinci xanımı, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva əsl vətənpərvər ziyalı olaraq, doğma mədəniyyətimizin qorunması və inkişafı problemlərinin həllinə müstəsna əhəmiyyət verir.

Azərbaycanın tanınmış ictimai xadimi Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Fond tərəfindən bir çox genişmiqyaslı layihələrin həyata keçirilməsi milli mədəniyyətimizin inkişafını intensivləşdirərək bədii-estetik prosesə yeni bir nəfəs verir. Mənəvi irsimizin mühafizəsi, Azərbaycan mədəniyyətinin özünəxas unikallığının qorunması və bütün dünyada tanınması üçün Mehriban xanım əlindən gələni əsirgəmir. Fond tərəfindən muğamın öyrənilməsi, qorunması və təbliği məqsədi ilə müxtəlif layihələr hazırlanıb. "Qarabağ xanəndələri" albomu artıq buraxılıb, muğamla bağlı digər tematik albomların buraxılışı isə nəzərdə tutulub. Bu məsələylə bağlı orta əsr və müasir müəlliflərin elmi əsərlərindən ibarət olan xüsusi silsilə üzərində ciddi iş gedir.

Bundan başqa, müasir Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəylinin yaradıcılığı ilə bağlı nəhəng bir layihə gerçəkləşdirilir ki, bu layihə əsasında dahi bəstəkarın

bütün əsərlərinin yenidən nəşri və onların CD və DVD-də buraxılışı da planlaşdırılıb.

Milli mədəniyyətimizin digər sahələriylə, o cümlədən aşıq yaradıcılığı, "meyxana" ənənəsiylə bağlı maraqlı layihələr də işlənməkdədir.

Çox önəmlidir ki, Fondun prezidenti Mehriban xanım Əliyeva YUNESKO-nun xoşməramlı səfiri kimi şərəfli ada layiq görüldükdən sonra ölkəmizin qurumla əlaqələri yeni tarixi mərhələyə daxil olmuş, xalqımıza məxsus qədim əsərlərin irs səviyyəsində qorunub saxlanması sahəsində ciddi addımlar atılmış, muğam kimi incəsənət incimiz "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına, ölkəmizin orta əsr təbabətindən və əczaçılığından bəhs edən əlyazmaları isə "Dünya mədəni və təbii irsinin qorunub saxlanması" siyahısına daxil edilmişdir.

## §7. Mədəni turizm və mədəniyyət industriyaları

Mədəni turizm Azərbaycanda inkişaf sektoru kimi nəzərdən keçirilir, çoxtərəfli və ikitərəfli himayə, habelə yerli və xarici investorların layihə yardımları ilə dəstəklənir. Turizm məşğulluq yarada və gəlir gətirə biləcək inkişaf potensialına malikdir. Ölkədə zəngin muzey və rəsm qalereyaları, tarixi abidə və şəhərlər, məscid və kilsələr, məbədlər, qoruqlar, mədəniyyət parkları, karvansaralar, tarixin əbədiləşdiyi çoxlu digər yerlər vardır. Bu ölkə həmçinin güclü ənənəvi mədəniyyətə, adət və ənənələrə, hərarətli qonaqpərvərlik ruhuna malik, habelə uzun əsrlər boyu qədim ticarət yollarının üzərində yerləşən bir ölkədir. Azərbaycanda mədəni turizmin inkişafı, onun həm milli, həm də beynəlxalq səviyyədə cazibədar olması üçün bir sıra şərtlərin hökmən yerinə yetirilməsi nəzərdə tutulub: zəruri infrastrukturlar yaxşılaşdırılmaqla yanaşı, mədəni turizm yerlərinin (ətrafın, küçələrin, reklamların) cazibədarlığının inkişaf etdirilməsi, kifayət qədər

təlim görmüş işçi heyətinin hazırlanması, ziyarət ediləcək mənzərəli yerlərin turist xidmətləri ilə əhatə olunması, turistlər üçün görüş və oriyentasiya sistemlərinin (informasiya, tərcümə, bələdçilər, kataloqlar) inkişaf etdirilməsi, turizm fəaliyyəti ilə məşğul olan kiçik və orta müəssisələrin sayının artırılması. Qeyd olunmalıdır ki, mədəni turizm sahəsini müxtəlifyönümlü peşəkarlarla təmin etmək üçün Mədəniyyət və Turizm Nazirliyi nəzdində ixtisaslaşdırılmış ali məktəb – Turizm İnstitutu yaradılıb və fəaliyyət göstərir. Mədəniyyət industriyaları – kinematoqrafiya, nəşriyyat, mətbuat, audivideo və proqram məhsulları, gələcəyin industriyaları olan turizm, əyləncə, istirahət və yeni yüksək texnologiyalar ölkəmizdə geniş inkişaf imkanlarına malikdirlər. Mədəniyyət və Turizm Nazirliyi mədəniyyət industriyaları bazarını, müxtəlif hüquqların qorunması problemlərini öyrənməyə təşəbbüs göstərmiş, həmin sahələrdə sosioloji tədqiqatlar apararaq, "Azərbaycanda mədəniyyət industriyaları: bugünkü vəziyyət və inkişaf perspektivləri" layihəsini həyata keçirmişdir. Əldə olunan nəticələrə görə, Azərbaycanda həyata keçirilən mədəniyyət siyasəti ölkədə yeni informasiya texnologiyalarının inkişafı perspektivlərinin son dərəcə əlverişli olduğunu təsdiq etməyə əsas verir. Bu siyasət sayəsində planetin indi kompyuter və internetdən istifadə edən hər bir sakini Azərbaycanın mədəni dəyərləri ilə tanış olmaq imkanına malikdir. Gələcəkdə isə, Azərbaycan mədəniyyətinin internet vasitəsilə "idxalı" milli ənənələr və mədəniyyətimizin başqa xalqlar tərəfindən dərk və qəbul edilməsində, dünya ictimaiyyətinin diqqətinin respublikaya cəlb olunmasında, habelə bütün dünya azərbaycanlılarının ortaq dəyərlər ətrafında sıx birləşməsi kimi heç də az əhəmiyyətli olmayan bir işdə öz müsbət nəticələrini verəcəkdir. Bu məsələylə bağlı "Azərbaycan Mədəniyyəti Portalı"nın yaradılması və inkişafına, həmçinin digər müvafiq problemlərin həllinə start verilmişdir.

Yuxarıda deyilənlərə yekun vuraraq, belə bir faktı təsdiq etmək olar ki, Azərbaycanın mədəniyyət sahəsindəki ümummilli lider Heydər Əlirza oğlu Əliyev tərəfindən əsası qoyulmuş müasir siyasətin və idarəçiliyin aparıcı istiqamətləri keçmişi, milli mədəni sərvətləri qoruyub saxlamaq, indinin müsbət nailiyyətlərini dəstəkləmək və inkişaf etdirmək, gələcəyə inamla baxmaqdır. Cəmiyyətin ardıcıl surətdə demokratikləşməsi, ölkənin dünya birliyinə inteqrasiyası, mədəniyyətin bəşər inkişafının ayrılmaz faktoru kimi dərk olunması və qəbul edilməsinin getdikcə güclənməsi bu sahədə nikbin proqnozlar üçün əsas verir.

# SON SÖZ

Son illər siyasi elm üzrə ədəbiyyatda və aparılan diskussiyalarda tədqiqatçılar tərəfindən daha çox metodologiya problemlərinə müraciət edilir, bununla bağlı xüsusi maraq doğuran geniş elmi tədqiqat işləri aparılır. Bütün bunlar da, şübhəsiz, müasir siyasi elmin aktual problemlərinin müəyyən edilməsi və həllinə dair mövcud yanaşmaların öyrənilməsinə imkan verir.

Azərbaycanda da siyasi elm sahəsində bir sıra elmi monoqrafiyalar, dissertasiya işləri və məqalələr işıq üzü görmüşdür. Xüsusilə politoloqlarımız akademik R.Mehdiyevin ölkədə müstəqillik dövründə baş verən siyasi proseslərin, ümummilli liderimiz Heydər Əliyevin zəngin siyasi və dövlətçilik irsinin, müasir mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli inkişaf dinamikasının geniş tədqiqinə həsr olunmuş və dərin elmi təhlil ilə səciyyələnən fundamental əsərlərindən bəhrələnir, onun tətbiq etdiyi metodologiyaya istinad edirlər.

Bundan başqa, son illər politologiyanın tədrisi ilə bağlı dərslik və dərs vəsaitləri də yazılaraq, bu istiqamətdə mütəxəssis hazırlığı üçün təqdim olunmuşdur. Bu baxımdan ölkəmizdə nəşr olunmuş kitablardan akademik R.Mehdiyevin baş redaktorluğu ilə Dövlət İdarəçilik Akademiyasında nəşr olunmuş "Politologiya: İzahlı lüğət"i, prof. N. Ələkbərovanın politologiya istiqaməti üzrə magistr hazırlığı üçün "Siyasi elmin tarixi və metodologiyası", bakalavr hazırlığı üçün dos. M.Əfəndiyevin "Politologiya", dos. N. İbrahimovun "Müqayisəli politologiya" adlı dərslik və dərs vəsaitlərini göstərmək olar. Bununla belə, Azərbaycanda müasir siyasi elmdə ortaya qoyulan yeni prioritet məsələlər və metodoloji

təkamül problemlərinin işıqlandırılmasında bir boşluq vardır. Bu boşluğun qismən də olsa aradan qaldırılmasında tanınmış politoloq-alim, siyasi elmin müxtəlif sahələrinə aid bir sıra dəyərli kitabların müəllifi, fəlsəfə elmləri doktoru, professor Nigar Ələkbərova tərəfindən elmi ictimaiyyətimizə "Siyasi elmin müasir problemləri"adlı dərsliyin təqdim olunması xüsusi əhəmiyyət kəsb edir.

Siyasi nəzəriyyə və təcrübənin aktual problemlərinə həsr olunmuş və ölkəmizdə siyasi elm üzrə magistr pilləsi üçün ilk dəfə hazırlanmış bu sanballı tədris vəsaitinin nəşr olunması özünün təşəkkül mərhələsini yaşayan Azərbaycan siyasi elmi üçün çox əhəmiyyətlidir. Çünki "Siyasi elmin müasir problemləri" fənni politologiya üzrə magistr hazırlığına dair dövlət standartlarına vacib komponent kimi daxil edilmiş və siyasi elmin daha dinamik inkişaf edən subfənlərinə aiddir.

Qərbin tanınmış siyasi məktəb nümayəndələrinin fundamental əsərlərinin geniş təhlili əsasında yazılmış bu kitab müəllifin gərgin elmi axtarışları və dərin elmi-analitik tədqiqatının məhsuludur. Digər tərəfdən, dərsliyin yüksək elmi-nəzəri səviyyədə və qoyulan tələblərə müvafiq hazırlanması həm də onunla bağlıdır ki, professor N. Ələkbərova "Siyasi elmin müasir problemləri" fənnini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında politologiya ixtisaslaşması üzrə magistratura pilləsində özünün tərtib etdiyi və ildən-ilə təkmilləşdirdiyi proqrama əsasən tədris edir. Təqdirəlayiq haldır ki, burada bölmələr üzrə təhlil edilən mövzular kontekstində Azərbaycan siyasi elmi üçün də aktual olan müasir problemlər nəzərdən keçirilir, bu da əsərin məzmununu daha da zənginləşdirməklə, onun elmi-nəzəri və praktik əhəmiyyətini, eləcə də elmi yeniliyini əyani şəkildə təsdiqləyir.

Dərslikdə diqqəti cəlb edən üstün cəhətlərdən biri odur ki, burada materialların təqdim edilməsi sxemi məntiqli olmaqla, mövzuların geniş əhatəsinə də imkan verir. Bu zaman müəllif

tərəfindən tətbiq olunan metodika siyasi fenomenlərin müxtəlif aspektlərdən öyrənilməsində müasir siyasi elmin aktual sahələri üzrə nəzəri-metodoloji və praktik xarakterli problemlərin qoyulması və onların prinsipial həlli ilə bağlı yanaşmaların nəzərdən keçirilməsinə xidmət edir. Fikrimizcə, məhz bundan çıxış edərək müəllif siyasi elmin əsas və sürətlə inkişaf edən sahələrindən biri olan siyasi komparativistikanın müasir problemlərinə müraciət edir. Müqayisə metodunun siyasi tədqiqatlarda hələ antik dövrdən istifadə olunmasına baxmayaraq, ayrıca müstəqil elmi istiqamət kimi siyasi komparativistikanın XIX əsrin ikinci yarısından formalaşdığını göstərən müəllif, bu sahənin təşəkkülü və inkişafı dövrlərində siyasi elmdə müxtəlif yanaşmaların olduğunu vurğulayır və geniş elmi ədəbiyyatın təhlili əsasında onların əsas müddəalarını açıb göstərir. Burada müqayisəli politologiyanın yaranması prosesində bir-birini tamamlayan, eyni zamanda bir-biri ilə ziddiyyətdə olan iki tədqiqat ənənəsi – biri ümumi məntiqin müəyyənləşdirilməsinə (E. Frimen), digəri isə daha çox ümumiləşdirməyə (F. Liber) istiqamətlənən ənənə barədə müəllifin mülahizələrini ifadə edən müddəalar elmi yeniliyi ilə fərqlənməklə xüsusi maraq doğurur.

Siyasi elmin müasir problemlərinin öyrənilməsində magistr və tələbələrimiz üçün yardımçı olan dəyərli elmi-metodiki materialların cəmləşdiyi bu dərslikdə müəllif elmi komparativistikanın formalaşması və inkişafı mərhələlərini, onların xüsusiyyətlərini açıb göstərərək, XX əsrin birinci yarısında müqayisəli siyasi tədqiqatlarda ənənəvi yanaşmanın tətbiq olunduğunu, 30 – 40-cı illərdə vəziyyətin dəyişdiyini, 50-ci illərdən başlayaraq yeni metodologiyaya keçidin baş verdiyini qeyd edir, bu prosesin gedişində müqayisəli tədqiqatlarda metodoloji yanaşmanın yeniləşməsini əks etdirən elmi əsərlərin üzərində geniş dayanır və oxucunun diqqətini həmin əsərlərdə qoyulan problemlərə cəlb edir.

Məlum olduğu kimi, siyasət aləminin çoxlu ölçülərinin (sosial-iqtisadi, sosiomədəni, funksional, konfessional və s.) olduğundan, siyasi hadisə və proseslərin mahiyyətinin düzgün başa düşülməsində başlıca rolu siyasi fəlsəfə oynayır. Bu sahəyə bir çox əsərlər həsr olunsa da, eyni zamanda həm siyasət aləminin dərk olunması nəzəriyyəsi, həm də siyasi varlıq barədə təlim kimi çıxış edən siyasi fəlsəfənin mahiyyəti və əsas təyinatı hələ də mübahisə obyektidir. Odur ki, müəllif təqdim olunan dərslikdə siyasi fəlsəfənin müasir problemlərinin araşdırılmasına bu məsələlərin öyrənilməsindən başlayaraq, onun predmetini bir neçə aspektdən təhlil edir və belə bir qənaətə gəlir ki, siyasi fəlsəfə siyasi tədqiqatlar üçün ümumi metodoloji baza rolunu oynamaqla müxtəlif siyasi konsepsiyaların mahiyyətini müəyyən edir və şəxsiyyət-cəmiyyət-hakimiyyət münasibətlərindəki universal prinsip və qanunauyğunluqları üzə çıxarır. Bunu nəzərə almaqla müəllif təqdim etdiyi dərslikdə siyasi fəlsəfəyə ayrıca həsr olunmuş bölmədə bu elmi istiqamətin XX – XXI əsrin əvvəllərini əhatə edən tarixi müddətdəki inkişafı prosesində iki mərhələni (XX əsrin əvvəllərindən 50 – 60-cı illərinə qədər XX əsrin 70-ci illərindən XXI əsrin əvvəllərinə kimi) ayıraraq, onların hər birinin spesifik xüsusiyyətlərini Qərbin tanınmış siyasi tədqiqatçılarının (Ç.Merriam, C.Ketlen, M.Oukşott, H.Arendt, Q.Laslet, C.Roulz, R.Nozik və b.) əsərlərində öz ifadəsini tapmış müddəaların ətraflı təhlili əsasında açıb göstərir, siyasi fəlsəfənin müasir vəziyyətində siyasi hermenevtika və sinergetikanın iki yeni paradiqmaya çevrilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edir.

Kitabda analitik və empirik siyasi nəzəriyyələrin öyrənilməsinə xüsusi bölmələrin ayrılması da onun elmi - metodoloji əhəmiyyətini xeyli artırır. Belə ki, siyasi elmdə nəzəriyyənin funksional təyinatını nəzərdən keçirən müəllif "Analitik siyasi nəzəriyyələr" bölməsində hakimiyyət, demokratiya, siyasi elitalar, liderlik, postmodernizm və rasional

seçim nəzəriyyələrinin əsas müddəalarını müxtəlif metodoloji yanaşmalar kontekstində ətraflı təhlil edir, apardığı ümumiləşdirmələr əsasında analitik siyasi nəzəriyyələrdə aktuallıq kəsb edən müasir problemlərə diqqəti cəlb edir. Bu istiqamətdə aparılan təhlillər özünün məntiqi davamını dərsliyin “Empirik siyasi nəzəriyyələr ” bölməsində tapır.

Tədqiqatın üstünlüklərindən biri də odur ki, burada müəllif siyasi elmin müasir problemlərini sistemli yanaşma əsasında öyrənməklə, sürətli inkişafı XX əsrin ortalarından başlamış empirik siyasi nəzəriyyələrin əsas məsələlərinə yeni ictimai hərəkatları, siyasi feminizmi, vətəndaş cəmiyyətini, tətbiqi siyasi analizi, siyasi qərarların qəbul edilməsini və s. aid edir və onların hər birini Qərb politoloqlarının nəzəri konsepsiyalarının siyasi təhlili əsasında səciyyələndirir. Bu zaman xüsusilə yeni sosial hərəkatların, siyasi feminizmin, tətbiqi siyasi analizin mahiyyəti və inkişaf dinamikasının öyrənilməsinə müəllifin tətbiq etdiyi metodologiya da elmi maraq doğurur. Çox vacib bir cəhət də odur ki, dərslikdə həm analitik, həm də empirik siyasi nəzəriyyələrin müasir problemlərinin təhlili formalaşmaqda olan Azərbaycan siyasi elmində həmin məsələlərin araşdırılması vəziyyətinin nəzərdən keçirilməsi ilə başa çatır.

Dərsliyin “Qlobalistika və sosial-siyasi qloballaşma” adlı dördüncü bölməsində qlobal problemlər praktik qlobalistika çərçivəsində öyrənilir. Bu baxımdan müasir taleyüklü bəşəri problemlərin həlli ilə bağlı XX əsrin 60-cı illərində yaranmış Roma Klubunun məruzələrinin (A.Peççei, C.Forrester, D.Medouz, M.Messaroviç, E.Pestel və b.), dünyanın gələcək inkişaf modellərini təqdim etməyə çalışan bir sıra tədqiqat layihələri və məruzələrin təhlili, onlarda irəli sürülən müddəalara müəllifin münasibətini əks etdirən mülahizələr diqqəti cəlb edir. Digər tərəfdən, bu məsələləri araşdırarkən, müəllif qlobalistikanın Qərbdə humanizm mühitində formalaşan intellektual mənbələrinə müraicət edir və burada birinciliyin

Amerika alimlərinə (İ.Vallerstayn, F.Blondel, F.Fukuyama, S.Hantinqton və s.) məxsusluğunu, qlobalistikanın öyrənilməsi üzrə dünyanın aparıcı mərkəzinin məhz Harvard Universiteti olduğunu göstərir, bu sahədəki müasir nəzəri-konseptual yanaşmaları (Ç. Stiqlits, C. Soros, U. Bek və b.) ətraflı nəzərdən keçirir. Bu istiqamətdə irəli sürülən fikirlər Rusiya elmində ortaya qoyulan qlobalistika problemlərinin öyrənilməsi ilə yekunlaşır və bu ölkədə qloballaşma proseslərinə dair intellektual fikrin son dərəcə ziddiyyətli, yanaşma spektrinin isə çox geniş olduğu göstərilməklə, bu sahəni tədqiq edən rusiyalı alimlərin baxışlarına nəzər salınır. Bu zaman O.Boqomolov, V.İnozemtsev, Y.Şişkov, M.Delyagin və b. alimlərin həmin problemlərlə bağlı konseptual yanaşmaları onların öz əsərlərinə istinad edilərək dərindən analiz olunur.

Kitabda qloballaşma prosesinin təhlilində diqqəti cəlb edən bir cəhət də onun dövrləşdirilməsi ilə bağlıdır. Belə ki, politologiyada həmin məsələyə bir neçə elmi yanaşmanın olduğunu vurğulayan müəllif, bu prosesi dinamikada nəzərdən keçirməklə, onun mərhələlərini təhlil edir. Müəllifin siyasi qloballaşma üzrə mülahizələri və onların əsasında qloballaşmanın siyasi aspektləri ilə bağlı irəli sürdüyü müddəalar, həmçinin onun müasir qlobal problemlər, onların kəskinləşməsinə qloballaşmanın təsiri barədə fikirləri də xüsusi maraq doğurur.

Dərslikdə müasir beynəlxalq münasibətlərin siyasi elmdə öyrənilməsi metodologiyası, bu sahədəki klassik və postklassik nəzəriyyə və paradiqmaların təhlili və səciyyələndirilməsi metodikası, bu nəzəriyyələr haqqında daha dolğun təsəvvürləri əks etdirən cədvəl oxucunun diqqətinə təqdim edilir. Bu məsələlərin öyrənilməsinə həsr olunmuş altıncı bölmədə bir-biri ilə ziddiyyət təşkil edən siyasi idealizm və siyasi realizm paradiqmaları timsalında beynəlxalq münasibətlər nəzəriyyəsinin təkamülü və inkişafı prosesi araşdırılır, bir sıra postulatlara müasir reallıqlar prizmasından mövqe bildirilir.

Siyasi elmin müasir problemləri baxımından bu prosesdəki üç böyük mübahisənin (İkinci Dünya Müharibəsindən sonra siyasi idealizm və realizm arasında ən yüksək zirvəsinə çatmış birinci, 1966-cı və 1979-cu illərdə müvafiq olaraq başlamış ikinci və üçüncü mübahisələrin) üzərində müəllifin dayanması xüsusi əhəmiyyət kəsb edir. Buradan belə nəticə əldə olunur ki, əgər birinci mübahisə ümumi qəbul edilmiş rəyə görə "idealizm" və "realizm" arasında aparılırdısa, ikinci "böyük mübahisə" "elmi" və "ənənəvi" yanaşmaların tərəfdarları arasında gedirdi. Üçüncü diskussiyanın əsas mübahisələrinin K. Uoltsun "Beynəlxalq siyasət nəzəriyyəsi " adlı kitabı ətrafında cərəyan etdiyini qeyd edən müəllif, həmin kitabın tənqidçilər tərəfindən əsasən realizmin "bürokratik siyasət", "qarşılıqlı asılılıq" və s. kimi submilli və transmilli konsepsiyalarına əks-hücumu kimi qiymətləndirildiyini göstərir. Hər üç dalğa mübahisələrin, xüsusilə də üçüncü böyük mübahisənin nəticələrinin müəllif tərəfindən ümumiləşdirilmiş təhlili də əhəmiyyətlidir.

Siyasi elmin müasir problemlərinin öyrənilməsində siyasətin institusional əsaslarına geniş yer verilir. Məhz bu nəzərə alınaraq təqdim olunan dərslikdə siyasi institutlara xüsusi bölmə ayrılır, siyasi elmin aparıcı istiqamətlərindən biri kimi siyasi institutların çoxölçülü təhlilinin aparılmasının vacibliyi arqumentli şəkildə əsaslandırılır. Burada institusionalizmin nümayəndələrinin müxtəlif yanaşmaları nəzərdən keçirilərək, sosial-siyasi institutların mahiyyəti, təsnifat və funksional təyinatı açıqlanır, siyasi elmdə siyasi institutlar probleminin xüsusiyyətləri Platon, Aristotel, N. Makiavelli, C. Lokk, T. Hobbs və bir sıra digər mütəfəkkirlərin, eləcə də müasir Qərb politoloqlarından C. Roulzun, Y. Marçın, Y. Olsenin və b. əsərlərində öz ifadəsini tapmış konseptual müddəalar əsasında təhlil edilmişdir. Bu zaman diqqəti cəlb edən vacib bir cəhət də müasir siyasi elmin ayrı-ayrı inkişaf mərhələlərində siyasi institutlarla bağlı problemə münasibətin dəyişməsinin səciyyələndirilməsi ilə bağlıdır. Belə ki, müəllifin

göstərdiyi kimi, əgər klassik siyasi nəzəriyyənin diqqət mərkəzində siyasi institutlar, onların yaradılması və fəaliyyəti problemi dururdusa, İkinci Dünya Müharibəsindən sonrakı dövrdə siyasi davranış və qrup nəzəriyyələrinə üstünlük verilməklə, siyasi institutların öyrənilməsinə ümumi etinasizlıq göstərilməyə başlanmış və bu problematika siyasi elmdə yalnız 70 – 80-cı illərdə yenidən aktuallaşmışdır. Kitabda bu istiqamətdəki mülahizələr əsasında siyasi elmdə müasir institusional təhlildə mübahisə doğuran əsas problemlərə siyasi institutların spesifikası, onların funksiyaları, dəyişməsi prosesi, institusional sabitlik və s. kimi problemlər aid edilir.

Kitabda siyasi institutların öyrənilməsi müasir siyasi elmin geniş inkişaf etmiş sahələrindən biri kimi yeni institusionalizmin (neoinstitusionalizmin) müddəalarının, onu ənənəvi institusionalizmdən fərqləndirən cəhətlərin nəzərdən keçirilməsi, bu metodoloji yanaşmanın, bütövlükdə siyasi elmdə olduğu kimi, onun ayrı-ayrı subistiqamətlərində də, xüsusilə müqayisəli politologiyada üstünlük təşkil etdiyinin əsaslandırılması və hazırda institusionalizmlə, onun inkişaf tendensiyaları ilə bağlı siyasi elm qarşısında duran mühüm problemli məsələlərin göstərilməsi ilə başa çatır ki, bu da işin əhəmiyyətli üstünlüklərindən birini təşkil edir.

Təqdim olunan dərslikdə Azərbaycan siyasi elmində bu günə qədər araşdırılmamış bir sahə olan siyasi davranış və siyasi iştirak problemlərinin yer alması xüsusi əhəmiyyət kəsb edir. Burada həmin fenomenlərin bu sahədəki müasir nəzəriyyələrin – rasional seçim, motivasiya, sosial faktorlar nəzəriyyələrinin müddəalarının ətraflı təhlilinə əsaslanaraq öyrənilməsi, eləcə də bu kontekstdə elektoral davranış problemlərinin, onun müasir modellərinin, formalaşması amillərinin müəyyən edilməsi üçün tətbiq olunan siyasi təhlil metodologiyası da elmi yeniliyi ilə diqqəti cəlb edir.

Məlum olduğu kimi, müasir siyasi elmdə geniş tədqiq olunan obyektlərdən birini sosial siyasət təşkil edir ki, bu da, ilk

növbədə, onun cəmiyyətin həyatında getdikcə artan əhəmiyyəti ilə bağlıdır. Dərslikdə sosial siyasət və idarəetmə məsələlərinə ayrıca bölmə həsr edən müəllif sosial siyasətin inkişaf tarixi və bu sahədəki tədqiqatların əsaslandığı intellektual imperativlər problemlərini Ç. Merriamın, H. Lassvelin, E. Saymonun və b. əsərlərində irəli sürülən müddəaları nəzərdən keçirməklə məntiqi ardıcıllıqla təhlil edir, sosial idarəetmənin strukturunu müəyyən edən bütövlük, hökumət fəaliyyətinin nəticələri, biliklərin faydalılığı, demokratiyanın önəmliliyi kimi intellektual imperativlərin ətraflı şərhini verir. Qeyd etmək lazımdır ki, bütün bunlarla bağlı müəllifin irəli sürdüyü müddəalar və apardığı ümumiləşdirmələr yaradıcı xarakteri ilə fərqlənməklə, nəzəri və praktik baxımından da elmi maraq doğurur. Bu mənada sosial idarəetmə sahəsində, xüsusilə də yeni menecerizmin tətbiq olunduğu əksər inkişaf etmiş ölkələrdə siyasi elm üçün aktual olan müasir problemlərin konkret şəkildə müəyyən edilməsi də işin müsbət tərəflərindəndir.

Dərslikdə Azərbaycan siyasi elmində ilk dəfə olaraq mədəniyyət siyasəti və idarəetmə problemləri nəzəri-metodoloji aspektdən siyasi elmin müasir problemləri kontekstində ətraflı təhlil edilir, bu məsələlər həm beynəlxalq, həm də ayrı-ayrı dövlətlər səviyyəsində - Fransa, İsveç, Almaniya, Norveç kimi inkişaf etmiş ölkələrin təcrübəsinə müqayisəli şəkildə nəzər salmaqla işıqlandırılır. Apardığı həmin təhlillər fonunda müəllif tərəfindən Azərbaycan Respublikasında mədəniyyət siyasətinin xüsusiyyətlərinin və bu sahənin idarə olunması spesifikasının siyasi analiz vasitəsilə açılıb göstərilməsi, bu analizin gedişində əldə olunan qənaətlər əsasında bir sıra öz həllini gözləyən aktual problemlərin qoyulması həm elmi yenilik, həm də praktiki baxımdan əhəmiyyətli olmaqla diqqətəlayiqdir.

Tədqiqat işinin ümumi mənzərəsi belə qənaətə gəlməyə əsas verir ki, professor Nigar Ələkbərova dərsliyin hazırlanmasında qarşısına geniş vəzifələr qoymuş və onların

yerinə yetirilməsinə yüksək peşəkarlıq və bacarıqla nail olmuşdur. Bütövlükdə, təqdim olunan dərslikdə işıqlandırılan məsələlər siyasi elmin müasir problemlərinin əsas məzmununu əhatə edir, burada oxucuya dünyada tanınmış milli siyasi elm məktəbləri və tədqiqat mərkəzləri, onlar tərəfindən aparılan siyasi tədqiqatların nəzəri istiqamətləri və başlıca tendensiyaları barədə ətraflı məlumat verilir, Azərbaycan siyasi elmində ilk dəfə olaraq bir sıra yeni terminlər elmi dövriyyəyə daxil edilir. Bütün bunlar, şübhəsiz, oxuculara siyasi elmin müasir problemlərlə bağlı mövzuların daha dərindən öyrənilməsinə öz müsbət təsirini göstərəcəkdir.

Əminik ki, dərslik politologiya üzrə təhsil alan magistrant və tələbələr, həmçinin dövlət idarəçiliyi sahəsində təhsil alanlar və öz peşə səviyyəsini artırmağa səy göstərən idarəetmə kadrları, ümumiyyətlə, bu məsələlərlə maraqlanan mütəxəssislər üçün də faydalı olacaqdır.

**Hicran Hüseynova**
***Siyasi elmlər doktoru, professor***

**Sevil Məmmədova**
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

# TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT:

**Azərbaycan dilində**


1. H.Əliyev. Müstəqilliyimiz əbədidir. 1 – 30-cu cildlər. B., 1997 – 2010.
2. H.Əliyev. Müstəqillik yolu. B., 1997.
3. İlham Əliyev. İnkişaf – məqsədimizdir. Kitab 1 – 4. B., 2008-2009.
4. Abbasbəyli Ağalar, Nəcəfov Etibar. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Dərslik. B., 2007.
5. Azərbaycanda mədəniyyət siyasəti. B., 2004.
6. Baxışov M. Beynəlxalq münasibətlər nəzəriyyəsi. B., 2002.
7. Beynəlxalq əlaqələr üzrə bələdçi. Walter Carlsnaes, Thomas Risse and Beth A.Sommons-un redaktəsi ilə. B., 2005.
8. Demokratiya: Gediləsi uzun bir yol. Antologiya. B., 2001.
9. Ələkbərova Nigar. Azərbaycan Respublikasında mədəniyyət dövlət idarəçiliyinin obyekti kimi. "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". 2009, 3(27), s.128-133.
10. Ələkbərova Nigar. Siyasi elmin tarixi və metodologiyası. Ali məktəbin magistratura pilləsi üçün dərslik. B., 2005.
11. Əliyev Q.C. Demokratiya və müasirlik. B., 1997.
12. İlham Əliyevin Prezidentliyinin 365 günü və vətəndaş cəmiyyəti. B., 2004.
13. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B., 2004.

14. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. B., 2000.
15. Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. B., 2006.
16. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. B., 2003.
17. Mehdiyev R. Zaman haqqında düşünərkən və elitanı tranformasiya edərkən: varislik və innovasiyalılıq. "Fəlsəfə və sosial-siyasi elmlər". 2009, №1.
18. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". 2008. s.136-156.
19. Rəcəbli Hadı. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komparativ təhlili. B., 2003.
20. Robert Dahl. Demokratiya haqqında (ingilis dilindən tərcümə). B., 2004.
21. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. B., 2001.
22. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. B., 2005.
23. Həsənov R. Azərbaycanda informasiya prosesləri və vətəndaş cəmiyyətinin formalaşması. "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". 2005, №3(11).

**Rus dilində**

1. Алмонд Г., Пауэлл Дж., Стромм К., Далтон Р. Сравнительная политология сегодня. Мировой обзор. М., 2002.
2. Алексеева Т.А. Современные политические теории. М., 2000.

3. Альтерглобализм: теория и практика антиглобалистического движения. Под ред. В.В.Бузгалина. М., 2004.
4. Арыстанбекова А. Глобализация, объективная логика и новые вызовы. "Международная жизнь", 2004, №4,5.
5. Аркасов В.А. Сравнительная политология. М., 2002.
6. Бек У. Что такое глобализация? Ошибки глобализма – ответы на глобализацию. Пер. с нем. М., 2001.
7. Василенко И.А. Политическая глобалистика. Учебное пособие. М., 2000.
8. Василенко И.А. Политическая философия: Учебное пособие. М., 2010.
9. Введение в теорию международных отношений и анализ внешней политики. Под ред. Н.А.Ломагина. СПб., 2001.
10. Витюк В.В. Становление идеи гражданского общества и ее историческая эволюция. М., 1995.
11. Гаджиев К.С. Политическая философия. М., 1999.
12. Гаман-Голутвина О.В. Определение основных понятий элитологии. "Полис", 2000, №3.
13. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Б., 2007.
14. Гасанов Р. Формирование гражданского общества в условиях трансформации. Б., 2003.
15. Гидденс Э. Ускользающий мир: как глобализация меняет нашу жизнь. Пер. с англ. М., 2004.
16. Голосов Г.В. Сравнительная политология. Новосибирск, 1995.
17. Даль Р. Введение в теорию демократии. М., 1990.
18. Даль Р. Демократия и ее критики. М., 2003.

19. Дергачев В.А. Глобалистика. Учебное пособие М., 2005.
20. Дегтярев А.А. Основы политической теории. М., 1998.
21. Дегтярев А.А. Политический анализ как прикладная дисциплина: предметное поле и направление развития. "Полис", 2004, №1.
22. Дегтярев А.А. Прикладной политический анализ. Справочник слушателя МВШ СЭН. Факультет политической науки. М., 2000.
23. Дегтярев А.А. Принятие политических решений: Учебное пособие. М., 2004.
24. Ильин М.В. Сравнительная политология: научная кампаративистика в системе политического знания. "Полис", 2001, №4.
25. Ирхин Ю.В. XVIII Всемирный конгресс Международной ассоциации политической науки о проблемах глобализации. "Вестник Российского университета дружбы народов". – Серия: Политология. 2001. №3.
26. Кочетов Э.Г. Глобалистика: теория, методология, практика. Учебник. М., 2002.
27. Ларычев О.И. Теория и методы принятия решений. М., 2000.
28. Ледяев В.Г. Власть: концептуальный анализ. М., 2001.
29. Лейпхарт А. Демократия в многосоставных обществах. Сравнительное исследование. М., 1997.
30. Луман Н. Власть. Пер с нем. М., 2001.
31. Мангейм Дж. Б., Рич Р.К. Политология. Методы исследования. М., 1997.

32. Международные отношения: теории, конфликты, организации. Учебное пособие. Под ред. П.А.Цыганкова М., 2004.

33. Мелешкина Е.Ю. Исследование электорального поведения: теоретические модели и проблемы их применения//Зарубежная политология в XX столетии (Под ред. М.Ильина). М., 2001.

34. Мелешкина Е. Ю. Политический процесс: основные аспекты и способы анализа. М., 2001.

35. Мельвиль А.Ю. Демократические транзиты. Теоретико-методологические и прикладные аспекты. М., 1999.

36. Мельников Ю.Ф. Власть в современном обществе. М., 1995.

37. Меркель В., Круассан А. Формальные и неформальные институты в дефектных демократиях. "Полис", 2002, №1-2.

38. Мехтиев Р. Азербайджан: вызовы глобализации. Б., 2004.

39. Мехтиев Рамиз. На пути к демократии: размышляя о наследии. Б., 2007.

40. Миллс Р. Властвующая элита. М., 1999.

41. Мировая политика и международные отношения на пороге третьего тысячелетия (ред. М.М.Лебедева). М., 2000.

42. Най Дж. (мл) Взаимозависимость и изменяющаяся международная политика. "Мировая экономика и международные отношения". 1989, №12.

43. Общество и власть: пути партнерства. М., 2005.

44. Халипов В.Ф. Кратология (Наука о власти). М., 2002.

45. О'Донелл Г. Делегативная демократия. "Век XX и мир". 1994, №2,3.

46. Пинто Д. Элиты в демократических обществах. "Вестник Московской школы политических исследований". 1995. №1.

47. Политическая наука в Западной Европе. Под редакцией Ханса-Дитера Клингеманна. М., 2009.

48. Политическая наука: новые направления. Под ред. Р.И.Гудина и Х.Д.Клингеманна. Пер. с англ. М.Гурвица, А.Демчука, Т.Якушевой. Науч.ред. Е.Б.Шестопал. М., 1999.

49. Политические иистатуты на рубеже тысячелетий. Дубна, 2009.

50. Политология: Учебник. А.Ю.Мельвиль и др. М., 2009.

51. Проблемы демократии и демократизации. М., 2002.

52. Пугачев В.П., Соловьев А.И. Введение в политологию. Учебник для студентов вузов. М., 2007.

53. Рациональный выбор в политике и управлении. Под ред. Л.В.Сморгунова. СПб., 1998.

54. Резник Ю.М. Гражданское общество как феномен цивилизации. Теоретико-методологические аспекты исследования. М., 1998.

55. Ролз Джон. Теория справедливости. Новосибирск, 1995.

56. Симонов К.В. Политический анализ. М., 2002.

57. Сморгунов Л. Сравнительная политология: теория и методология измерения демократии. СПб., 1999.

58. Современная сравнительная политология. Хрестоматия. Науч.ред. Г.В.Голосов. М., 1997.

59. Соловьев А.И. Политология: политическая теория, политические технологии. Учебник для студентов вузов. М., 2000.
60. Социальная политика. Учебник. М., 2002.
61. Социальная политика в постсоциалистическом обществе. Задачи, противоречия, механизмы. М., 2001.
62. Социальная политика. Учебник. Под ред. Е.И.Холостовой, Г.И. Климантовой. М., 2011.
63. Теория международных отношений на рубеже столетий. Пер. с англ. Под ред. К.Буса, С.Смита. М., 2002.
64. Теория международных отношений. Хрестоматия. Под ред. и с комментариями П.А.Цыганкова. М., 2002.
65. Труды Клуба ученых «Глобальный мир» Т.4. М., 2003.
66. Туронок С.Г. Политический анализ. Курс лекций. М., 2005.
67. Уткин А.И. Мировой порядок XXI века. М., 2003.
68. Фролов А.П. Глобалистика. Начала науки о современном мире. Курс лекций. М., 2002.
69. Хантингтон С. Третья волна: Демократия на исходе века. М., 2003.
70. Хантингтон С. Столкновение цивилизаций. Пер. с англ. М., 2003.
71. Холостова Е.И. Социальная политика. Учебное пособие. М., 2001.
72. Цыганков П.А. Теория международных отношений. Учебное пособие. М., 2006.
73. Чилкот Р.Х. Теории сравнительной политологии: В поисках парадигмы. М., 2001.

74. Что такое демократия? – США, ЮСИА, 1991.
75. Шаран П. Сравнительная политология в 2-х частях. М., 1992.
76. Шмиттер Ф. Процесс демократического транзита и консолидация демократии. «Полис», 1999, №4.
77. Шумпетер Й.А. Капитализм, социализм, демократия. М., 1995.
78. Эндрейн Ч.Ф. Сравнительный анализ политических систем: эффективность осуществления политического курса и социальные преобразования. М., 2000.
79. Эндрью Л.Росс. Теория и практика международных отношений: аналитические взгляды. М., 1997.

## İngilis dilində

1. Almond G.A., Powell B.G. Comparative politics: a developmental approach. Boston, 1966.
2. Almond G.A., Powell B.G.Comparative politics: system, process and policy. Boston, 1978.
3. Anderson J. Public Polisymaking: An Introduction. Boston, 1994.
4. Arato A., Cohen J. Civil society and political theory. Cambridge (Mass): MIT Press, 1992.
5. Arendt H. The human condition. Chicago: University of Chicago Press, 1958.
6. Burchill S. and Linklater A. Theories of International Relations. N.Y.: St Martin Phess, 1996.
7. Dahl R.A. Democracy and its critics. New Haven, 1989.

8. Dahl R.A. Polyarchy: participation and opposition. New Haven. L., 1971.
9. Collier D., Levitsky S. Democracy with adjectives: Conseptual innovation in comparative research. // World Politis, 1997. Vol.49, №3.
10. Galligan Y. A Word from the program Chair /Program. 20-th IPSA World Congress. Is Demokrasy Working? July 9 to 13 2006. Fukuoka: IPSA, 2006. P.16-17.
11. Hungtington S.P. Democrasy for the long haul. // Journal of Democracy, 1996, vol.7, №2.
12. Hoqwood B. Gunn L. Policy analysis for the real world. L.Oxford, 1984.
13. Hood C. A public management gor all seasons?//Public Administration. 1991. Vol.69. p.3-19.
14. Keane J. Democracy and sivil society. London. Verso, 1988.
15. Lynn L. The changing public policy curriculum: Introduction. // Journal of Policy Analysis and Management. 2001, vol.20, №1.
16. Nester W. International relations: geopolitical and geoeconomic conflikt and cooperation. N-Y. 1995.
17. Pal L. Public policy analysis: an introduction. Scarborough, 1992.
18. Parsons W. Public Policy: An Introduction to the Theory and Practice of Policy Analysis. Aldershot, 1995.
19. Pateman C. Participation and democratic theory. Cambridge: Cambridge University Press, 1970.
20. Peters B.G. Comparative politics: Theory and Methods. N.Y., 1998.

21. Pocock J.C. A. Virtue, commerce and history. Campidge, 1985.
22. Pollitt C. Managerializm and the public service. Oxford: Blackwell, 1993.
23. Putnam R. The comparative study of political elites. N.Y., 1976.
24. Sandel M.T. Liberalism and the limits of justice. Cambridge: Cambridge University Press, 1982.
25. Self P. Government by the market. Boulder (Colo): Westview, 1995.
26. Stepan A. Arguing comparative politics. Oksford, 2001.
27. Walsh K., Stewart J. Change in the management of public services//Public Administration. 1992. Vol.70. p.499-518.
28. Zakaria F. The rise of illiberal democracy. – Foreign Affairs. 1997, vol.76, №6.

**İnternet saytları**

1. http://ryl.az./serencam.html.
2. http://www.anl.az/down/medeniyyet.
3. www.İPSA.org. Siyasi Elmlərin Beynəlxalq Assosiasiyası
4. http://www.ecprnet.eu/ The European Consortium for Political Research (Siyasi tədqiqatlar üzrə Avropa Konsersiumu).
5. http://eaepe.org/ European Association for Evolutionary Political Economy (Təkamüllü Siyasi İqtisad üzrə Avropa Assosiasiyası).
6. http://www.epsnet.org/ European Political Science Network (Avropa üzrə Siyasi Elmlər Şəbəkəsi).
7. http://www.bologna.ntf.ru/p43aa1.html EUA

8. http://iapss.org/International Association for Political Science Students (Politologiya üzrə Təhsil Alan Tələbələrin Beynəlxalq Assosiasiyası )
9. http://www.ispp.org/International Society of Political Psychology (Siyasi Psixologiya üzrə Beynəlxalq Cəmiyyət)
10. http://www.psa.uk/UK Political Studies Association (Böyük Britaniya Siyasi Tədqiqatlar Assosiasiyası)
11. http://www.apsanet.org/ The American Political Science Association (Amerika Siyasi Elmlər Assosiasiyası)
12. http://aplsnet.org/Association for Politics and the Life Sciences (Siyasət və İctimai Elmlər Assosiasiyası)
13. http://www.nopsa.net/ Nordic Political Science Association (Şimali Avropa Siyasi Elmlər Assosiasiyası)
14. http://www.espanet.org/ESPAnet: Network for European Social Policy Analysis (Avropa Sosial-Siyasi Analiz Şəbəkəsi)

## Mündəricat

ÖN SÖZ ........ 3

I BÖLMƏ.
SİYASİ KOMPARATİVİSTİKA ........ 6

§1. Elmi komparativistikanın formalaşma mərhələləri ........ 9
§2. Müqayisəli siyasi analizin yeni istiqamətləri və səciyyəvi xüsusiyyətləri ........ 11
§3. Müqayisəli tədqiqatların tematikası ........ 14

II BÖLMƏ.
SİYASİ FƏLSƏFƏ ........ 31

§1. XX əsrin əvvələrindən 50 – 60-cı illərinə qədər siyasi fəlsəfənin inkişafının səciyyəvi xüsusiyyətləri ........ 34
§2. XX əsrin 70-ci illəri – XXI əsrin əvvəllərində siyasi fəlsəfənin spesifik cəhətləri ........ 40

III BÖLMƏ.
ANALİTİK SİYASİ NƏZƏRİYYƏ ........ 50

§1. Hakimiyyət nəzəriyyəsi ........ 51
§2. Postmodernizm nəzəriyyəsi ........ 56
§3. Demokratiya nəzəryyəsi ........ 61
§4. Rasional seçim nəzəriyyəsi ........ 73
§5. Siyasi elitalar nəzəriyyəsi ........ 78
§6. Siyasi liderlik nəzəriyyəsi ........ 89

IV BÖLMƏ.
EMPİRİK SİYASİ NƏZƏRİYYƏ ........ 95

§1. Yeni ictimai hərəkatlar ........ 97
§2. Vətəndaş cəmiyyəti ........ 100
§3. Siyasi feminizm ........ 103
§4. Tətbiqi siyasi analiz ........ 107

§5. Siyasi qərarların qəbul edilməsi .......... 118

**V BÖLMƏ.**
**QLOBALİSTİKA VƏ SOSİOSİYASİ QLOBALLAŞMA..... 128**

§1. Praktik qlobalistika .......... 130
§2. Qərbdə qlobalistikanın intellektual mənbələri .......... 140
§3. Rusiya elmində qlobalistika problemləri .......... 153
§4. Qloballaşma prosesinin obyektiv məntiqi və dövrləşdirilməsi .......... 165
§5. Qloballaşma və informasiya inqilabı .......... 168
§6. Siyasi qloballaşma .......... 175
§7. Sosial və mədəni qloballaşma .......... 182
§8. Müasir dünyanın qlobal problemləri .......... 185

**VI BÖLMƏ.**
**BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN NƏZƏRİYYƏSİ VƏ SİYASİ TƏHLİLİ .......... 189**
§1. Müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin metodoloji əsas və paradiqmaları .......... 189
§2. Beynəlxalq münasibətlər nəzəriyyəsinin təkamülü .......... 204
§3. Beynəlxalq münasibətlər nəzəriyyəsinin təşəkkülündə üç böyük mübahisə və onun gələcək inkişaf perspektivləri .......... 229

**VII BÖLMƏ.**
**SİYASİ İNSTİTUTLAR .......... 242**

§1. Siyasi institutlar siyasi elmin əsas problemlərindən biri kimi...242
§2. Siyasi elmdə siyasi institutlar probleminin inkişaf xüsusiyyətləri .......... 247
§3. Yeni institusionalizm .......... 252

**VIII BÖLMƏ.**
**SİYASİ DAVRANIŞ .......... 258**

§1. Siyasi davranış tipləri və siyasi iştirakın müasir nəzəriyyələri .......... 258

§2. Siyasi elmdə elektoral davranış problemlərinin təhlili .......... 269
**IX BÖLMƏ.**
**SOSİAL SİYASƏT VƏ İDARƏETMƏ .................................. 284**

§1. Sosial siyasət probleminin inkişaf tarixi və dörd intellektual imperativi .......... 285
§2. Sosial siyasət və idarəetmə .......... 297
§3. Sosial idarəetmə .......... 302
§4. Sosial siyasət problemlərinin qoyulması və inkişafında beynəlxalq təşkilatların rolu .......... 314

**IX BÖLMƏ.**
**MƏDƏNİYYƏT SİYASƏTİ VƏ İDARƏETMƏ .................... 318**

§1. Mədəniyyət siyasəti probleminin təşəkkülü və inkişafı .......... 318
§2. Azərbaycan Respublikasının mədəniyyət siyasətinin səciyyəvi xüsusiyyətləri .......... 324
§3. Azərbaycan Respublikasında mədəniyyətin idarə edilməsinin spesifikası .......... 330
§4. Mədəniyyət siyasətinin qanunvericilik təminatı .......... 333
§5. Beynəlxalq mədəni əməkdaşlıq .......... 337
§6. Vətən mədəni irsinin qorunması .......... 341
§7. Mədəni turizm və mədəniyyət industriyaları .......... 344

**SON SÖZ .......... 347**

**TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT .......... 357**

**Nigar Ələkbərova**

---

# Siyasi elmin müasir problemləri

*(Azərbaycan dilində)*

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

***Nəşriyyat redaktoru:*** **X.Göyyallı**
***Texniki redaktor:*** **İ.İsmayılova**

Yığılmağa verilmiş **05.01.2013**
Çapa imzalanmış **12.01.2013**
Şərti çap vərəqi **23,2.** Sifariş № **05**
Kağız formatı **60x84 1/16.** Tiraj **2000**

---

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.